VÜSƏT ƏFƏNDİYEV,
SALEH NAĞIYEV

# ƏHALİ COĞRAFİYASI

## DƏRSLİK

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurası «Coğrafiya» sektorunun 19.07.2005-ci il tarixli 09 saylı protokolu ilə «Təsdiq edilmişdir».

Bakı – 2006

91(41)
Ə 34

Ə92

**Elmi redaktor:** *coğrafiya elmləri doktoru, professor* ***Ş.Y.Göyçaylı***

**Rəyçilər:** *coğrafiya elmləri doktoru, professor* ***N.A.Babaxanov***

*iqtisad elmləri namizədi, dosent* ***T.G.Həsənov***

**Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası.** Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 338 səh.

*Dərslikdə əhali coğrafiyasının elmi əsasları, onun başlıca qanunauyğunluqları və prinsipləri araşdırılır. Demoqrafiya prosesləri, miqrasiyalar, əhalinin irqi və etnik tərkibi, dünyada və regionlar üzrə məskunlaşması təhlil edilir.*

*Dərslik universitetlərin, coğrafiya və iqtisadiyyat fakültələrinin tələbələri, magistrantları, aspirantları və orta məktəb müəllimləri üçün nəzərdə tutulmuşdur.*

BDU-nun
Elmi kitabxanası

$$\frac{1805010000-13}{M(658-07)-028}\,28-2006$$

*© Bakı Universiteti nəşriyyatı, 2006.*

## MÜNDƏRİCAT

Ön söz ........................................ 5-6

**I Fəsil. Əhali coğrafiyasının elmlər sistemində yeri** ........ 7-17

1.1. Əhali coğrafiyasının predmeti, məqsəd və vəzifələri ........ 7-10
1.2. Əhali coğrafiyasının coğrafiya elmləri sistemində yeri və digər elmlərlə əlaqəsi ........ 10-17

**II Fəsil. Əhalinin təkrar istehsalı coğrafiyası** ........ 18-100

2.1. Əhali qeydiyyatı və onun növləri ........ 18-20
2.2. Dünya əhalisinin say dinamikası ........ 20-29
2.3. Əhalinin təkrar istehsalı və onun qanunauyğunluqları ........ 29-42
2.4. Cins-yaş strukturu və ailə tərkibi ........ 42-50
2.5. Demoqrafiya anlayışı. Demoqrafik siyasət və demoqrafik şərait ........ 50-71
2.6. Azərbaycanda və MDB ölkələrində demoqrafik şərait ........ 72-92
2.7. Əhali qanunları ........ 92-100

**III Fəsil. İrqlərin coğrafiyası** ........ 101-121

3.1. Əhalinin irq tərkibi və irqi fərqlər ........ 101-107
3.2. Böyük və kiçik irqlər ........ 108-114
3.3. Dünya əhalisinin irq tərkibi ........ 114-121

**IV Fəsil. Dünya əhalisinin etnik tərkibi** ........ 122-160

4.1. İnsanların etnik ümumilik formaları anlayışı ........ 122-135
4.2. Xalqların təsnifatı ........ 135-156
4.3. Etnogenez. Etnosların həyatına dair fərziyyə ........ 156-160

**V Fəsil. Dinlərin coğrafiyası** ........ 161-181

5.1. Dinlərin aktuallığı və onların əhali coğrafiyasında öyrənilməsinin zəruriliyi ........ 161-164
5.2. Dünya, məhəlli və qəbilə dinlərinin coğrafiyası və mahiyyəti ........ 164-175
5.3. İslam dininin coğrafiyası ........ 175-181

**VI Fəsil. Əmək ehtiyatları və əhalinin məşğulluğu** ........ 182-193

6.1. Əmək ehtiyatları anlayışı ........ 182-183
6.2. Əmək ehtiyatlarının sayı və dinamikası ........ 183-185
6.3. Əmək ehtiyatlarından istifadə ........ 185-188
6.4. Sosial struktur və sosial stratifikasiya ........ 189-193

**VII Fəsil. Əhali miqrasiyası** ........................................ 194-232

7.1. Miqrasiyanın növləri və səbəbləri, əhalinin ərazi mütəhərrikliyinin göstəriciləri ........................................ 194-205
7.2. Dünya, MDB və Azərbaycan əhalisinin miqrasiyası ........ 205-215
7.3. Dünyada məcburi miqrasiyalar ........................................ 215-232

**VIII Fəsil. Əhali sıxlığı** ........................................ 233-247

8.1. Əhali sıxlığının öyrənilməsi və əhali sıxlığına təsir göstərən amillər ........................................ 233-239
8.2. Dünya əhalisinin regionlar üzrə yerləşməsi ........................ 239-242
8.3. Əhali sıxlığının təsərrüfat tipləri ilə qarşılıqlı əlaqəsi ........ 242-247

**IX Fəsil. Məskunlaşma və məskunlaşmış ərazilər** ........................ 248-263

9.1. Məskunlaşma anlayışı ........................................ 248
9.2. Məskunlaşma formaları ........................................ 249-261
9.3. Məskunlaşmanın regional xüsusiyyətləri ........................ 261-263

**X Fəsil. Şəhər yaşayış məskənlərinin coğrafiyası** ........................ 264-289

10.1. Şəhər məskunlaşması dayaq məntəqəsi kimi ........................ 264-270
10.2. Şəhərlərin iqtisadi-coğrafi mövqeyi ........................................ 271-279
10.3. Şəhər yaşayış məskənlərinin tipologiyası və təsnifatı ........ 280-289

**XI Fəsil. Urbanizasiya prosesləri və onun formaları** ........................ 290-314

11.1. Urbanizasiyanın mahiyyəti və formaları ........................ 290-300
11.2. Şəhərlər və şəhər aqlomerasiyaları ........................................ 301-307
11.3. Urbanizasiyanın inkişaf problemləri ........................................ 308-314

**XII Fəsil. Kənd yaşayış məskənlərinin coğrafiyası** ........................ 315-332

12.1. Kənd məskunlaşmasının xüsusiyyətləri ........................................ 315-324
12.2. Kənd yaşayış məskənlərinin tipləri ........................................ 325-332

Ədəbiyyat ........................................ 333-335

## ÖN SÖZ

Universitetlərdə mütəxəssis-coğrafiyaşünasların hazırlığında «Əhali coğrafiyası» fənni digər tədris fənləri arasında mühüm yer tutur. Bəşəriyyətin yeni sivilizasiyalı inkişaf mərhələsinə qədəm qoyması bütün ictimai münasibətlər sisteminin köklü surətdə dəyişməsi ilə müşayiət olunur. Bazar iqtisadiyyatının təşəkkülü, müstəqillik qazanılması «Əhali coğrafiyası»nın rolunu artırır, gələcək coğrafiyaşünas-mütəxəssislərin konkret ərazilərdə, ölkələrdə, bütövlükdə, dünyada baş verən sosial-iqtisadi, demoqrafik, etnik, irqi və s. prosesləri təhlil etməsinə imkan verən nəzəri bilikləri və praktik yanaşmaları formalaşdırır. Dərsliyin hazırlanması zərurəti Azərbaycanda əhali coğrafiyasına dair müasir ali məktəb dərsliklərinin olmamasından irəli gəlmişdir. İstifadə olunan köhnəlmiş klassik dərsliklər nə qədər fundamental olsalar da, dəyişməkdə olan həyat şəraitində bir çox cəhətdən müasir dövrün tələblərinə cavab vermir.

Mövcud dərslik və tədris vəsaitlərinin materialları, statistik məlumatları köhnəlmişdir və müasir tələblərə uyğun gəlmir. Bu mülahizələr əsas tutularaq, son illərdə ali məktəb kafedralarında dərs vəsaitinin yaradılması müsbət hal sayılmalıdır. Belə ki, bu, *birincisi,* şablon yanaşmalardan yaradıcı şəkildə yaxa qurtarmağa imkan verir, *ikinci tərəfdən,* məşğələlərin, xüsusilə mühazirələrin formalarını dəyişdirməyə şəpait yaradır. Dərsliyin elektron variantları faktoloji və statistik materialı daim yeniləşdirməyə imkan verir ki, bu da hazırda olduqca aktualdır.

Təqdim olunan dərsliyin vəzifəsi kurs proqramına müvafiq olaraq, bütövlükdə dünyada, Azərbaycanda və müxtəlif tipli digər ölkələrdə əhali inkişafının ən mühüm qanunauyğunluqlarının xarakteristikasını vermək, habelə əhalinin, əmək ehtiyatlarının dinamikasının, strukturunun, yerləşməsinin, onlardan istifadənin, əhali proqnozlarının coğrafi xüsusiyyətlərini göstərmək, əhalinin coğrafi baxımdan öyrənilməsinin metodik göstərişlərini şərh etməkdir. İki saatlıq mühazirənin sərt vaxt

məhdudiyyəti, ancaq məsələnin müasir vəziyyətinin əsaslarını səciyyələndirməyə imkan verir. Dörd saatlıq mühazirələrdə isə yalnız mövzunun ən mürəkkəb bölmələrini işıqlandırmaq mümkündür. Materialın bir hissəsi laboratoriya tapşırıqlarının və imtahanqabağı məsləhətlərin öhdəsinə buraxılır.

Dərslik XII fəsildən ibarətdir. Onları laborator məşğələlərə bölmək olar. Son illərə aid statistik məlumatlar öyrənilən mövzunun və istifadə olunmuş ədəbiyyatın məzmununa müvafiq coğrafi xəritələr, sxemlər, cədvəllər, diaqramlarla müşayiət edilir.

Dərslik öyrənilən kursun təsdiq olunmuş proqramına uyğundur. Müəlliflər bütün dəyərli qeyd və təklifləri məmnuniyyətlə qəbul edəcək və bu dərsliyin gələcəkdə təkmilləşdirilməsində onları nəzərə alacaqlar.

# I FƏSİL
# ƏHALİ COĞRAFİYASININ ELMLƏR SİSTEMİNDƏ YERİ

## 1.1. Əhali coğrafiyasının predmeti, məqsəd və vəzifələri

***Əhali coğrafiyası*** *ərazi əhali qruplarını, məskunlaşmış yerlər sistemlərini və onların dinamikasını, müxtəlif sosial-iqtisadi və təbii şəraitdə onların tərkibini kompleks şəkildə öyrənir. Bu, iqtisadi və sosial coğrafiyanın əsastərkib hissəsidir.*

İqtisadi və sosial coğrafiyanın başlıca vəzifələrindən biri əhalini, onun sayını, strukturunu, ərazilər və müxtəlif səviyyəli məskənlər üzrə yerləşməsini tədqiq etməkdir. Əhali coğrafiyası əhalinin qanunauyğun yerdəyişməsini, əhalinin Yer kürəsində, ayrı-ayrı ölkələr və bölgələr daxilində ərazi bölgüsünü də öyrənir. Coğrafiyaşünasların əksəriyyəti əhali coğrafiyasını iqtisadi və sosial coğrafiyanın xüsusi qolu hesab etsələr də bu, mübahisəli məsələdir. Bir çox alimlər əhali coğrafiyası fənnini iqtisadi coğrafiya ilə eyni səviyyəli fənn hesab edirlər, çünki onların tədqiqat mövzuları dəqiq fərqləndirilir. Əhali coğrafiyası, müstəsna olaraq, əhali toplumları ilə, iqtisadi coğrafiya isə, əsasən, müxtəlif iqtisadi fəaliyyət prosesləri və müxtəlif ərazi formaları ilə məşğul olur. Buna görə də bir sıra xarici alimlər (Amerika alimi Q.Q.Trevarta, Fransa alimi P.Jorj, Rusiya alimləri R.M.Kabo, N.T.Aqafonov) əhali coğrafiyasının fiziki və iqtisadi coğrafiya ilə yanaşı, coğrafiyanın üçüncü bölməsi hesab olunmasını təklif edirlər.

Əhali coğrafiyasının coğrafiyanın bir sahəsi kimi vəzifəsi kifayət qədər çoxşaxəli və ciddidir.

Birincisi, bu, ümumi xarakterli vəzifələr – əhali coğrafiyası, müxtəlif bölgələrdə şəhərlərin inkişaf problemləri, məskunlaşmanın fərqləri, sayı və s. haqqında biliklərin geniş yayılmasıdır.

İkincisi, nəzəriyyə xarakterli vəzifələr – əhalinin yerdəyiş-

məsi və məskunlaşmasının, məskunlaşma formalarının, kənd yaşayış məskənləri tipologiyasının, kənd məskunlaşması prosesləri metodikalarının müəyyənləşdirilməsinin, kənd yaşayış məntəqələrinin yenidən qurulması yollarının qanunauyğunluqlarının öyrənilməsidir.

Əhali coğrafiyası, coğrafiyanın müstəqil qolu kimi, keçmiş SSRİ-də ötən əsrin 40-cı illərindən inkişaf etməyə başlamışdır. Onun təşəkkülündə N.N.Baranskinin, R.M.Kabonun, V.V.Pokşişevskinin, O.A.Konstantinovun, N.İ.Lyalikovun xidmətləri olmuşdur.

Qeyd olunmalıdır ki, ilk illərdə iqtisadi coğrafiyanın diqqət mərkəzində istehsalın yerləşdirilməsi və iqtisadi rayonlaşdırma məsələləri dururdu.

Əhali coğrafiyası məsələləri, əslində, iqtisadi coğrafiyanın diqqətindən kənarda qalmışdı.

N.N.Baranski sonralar göstərirdi ki, «etiqadla birlikdə insanın özü də çirkabqarışıq atılmışdı». «Yeni cərəyanlar» köhnə antropocoğrafiyanı məhv edərək, onun əvəzində yeni heç nə yaratmadılar, ən yeni əsərlərdə əhali bölməsi təbiətlə təsərrüfat, fiziki və iqtisadi coğrafiya arasında əriyərək izsiz-soraqsız yoxa çıxdı. İnsan unuduldu!!!

Müasir şəraitdə əhali coğrafiyası bütövlükdə coğrafiyanın tərkib hissələrindən biri sayıla bilər; birinci hissə təbiət coğrafiyasını, yaxud fiziki coğrafiyanı, ikinci hissə insan coğrafiyasını – antropocoğrafiyanı, yaxud sosial coğrafiyanı öyrənir.

Tanınmış alim, akad. S.V.Kolesnikin hesab edir ki, bütövlükdə, təbiət, cəmiyyət və təfəkkür haqqında biliklər toplusu olan elm, mahiyyətcə, vəhdətdədir və onun hər hansı qolunun inkişafı əlaqəli qolların inkişafından kəskin surətdə ayrılmır. Ona görə də elmlərin hər hansı təsnifatı şərtidir. Əhali coğrafiyasının iqtisadi coğrafiyanın bir hissəsi, yaxud müstəqil elm sahəsi olub-olmaması sualı mənasızdır, hər iki fikir düzdür.

Bu gün coğrafiyanın bütün qolları arasında məhz əhali coğrafiyası daha çox inkişaf etmişdir. Əhali coğrafiyasının daxilində isə yaşayış məntəqələri coğrafiyası daha sürətlə inkişaf

edirdi və etməkdədir. Bu sahədə çalışan coğrafiyaşünaslar təkcə nəzəri deyil, həm də bir sıra praktik əhəmiyyətli maraqlı konsepsiyalar, məsələn, vahid məskunlaşma sistemi (VMS) konsepsiyasını, ərazinin dayaq karkası (ƏDK) konsepsiyasını, yaşayış yerləri şəbəkəsi və sistemi konsepsiyasını irəli sürmüşlər. Coğrafiyaşünaslar bütün ölkə üçün yaradılan Baş məskunlaşma sxemlərinin işlənib hazırlanmasında, çoxsaylı bölgə planlaşdırmalarında da iştirak etmişlər. Üçüncüsü, coğrafiyaşünasların regional miqrasiyaların proqnozlaşdırılmasında iştirakı proqnozlaşdırma praktikasında böyük əhəmiyyətə malikdir. Hazırda bu istiqamət əhali coğrafiyasında aparıcı yerlərdən birini tutur. Dördüncüsü, əhalinin, xüsusilə onun əmək qabiliyyətli hissəsinin istehsalın yerləşdirilməsində rolunun artırılması əmək ehtiyatları coğrafiyasına diqqətin gücləndirilməsinə kömək göstərmişdir.

Göstərilən istiqamətlərlə yanaşı, əhali coğrafiyasında əhalinin həyat səviyyəsi və xidmət coğrafiyası, demoqrafik vəziyyət coğrafiyası problemləri də öyrənilir, etnocoğrafi, dini, sosioloji və digər araşdırmalar aparılır. İndi dünyaya, siyasətə, tarixə, iqtisadiyyata baxışlar kökündən dəyişir, deməli, bizim bütün dünyagörüşü mənbələrimiz də dəyişir. Əgər biz əvvəllər əhali coğrafiyasının vəzifələrini müəyyənləşdirərkən, hər şeydən əvvəl, xalq təsərrüfatının yerləşdirilməsinin planlaşdırılması üçün vacib vəzifələri vurğulayır, antropocoğrafiya, coğrafi determinizm kimi burjua nəzəriyyələrini, yeni maltusçuluq geosiyasətini tənqid edirdiksə, indi Maltusun bədnam nəzəriyyəsinə başqa gözlə baxırıq. Məlum olur ki, torpağın münbitsizləşməsi qanunu tamamilə realdır, XVIII əsrin sonunda «demoqrafik siyasət»dən böyük uğurlar gözləmək mümkün olmaması onun günahı saymaq olmaz. Lakin nəticə etibarilə, xülya olan sosializmdə ümumi və tam məşğulluq qanunu deyil, əhalinin təkrar istehsalı qanunu mövcud olmuşdur.

Əhali coğrafiyasının əsas vəzifələrindən biri bu sahənin öyrənilməsini dünyadakı inkişaf səviyyəsinə uyğunlaşdırmaq, mövzunu hərtərəfli qiymətləndirmək, habelə əhali coğrafiyası məsələlərinin öyrənilməsində ideoloji təhrifləri, məhdudiyyət-

ləri aradan qaldırmaq zərurətidir.

Bütövlükdə, əhali coğrafiyasının öyrənilmə səviyyəsi yüksəldilməlidir. Dünya əhalisinin həddindən çox artması ekoloji stabilliyin pozulmasına səbəb olmuşdur. Lakin bir çox ölkələrdə əhali artımı kəskin azalmışdır. Bütün bu proseslərin diqqətlə öyrənilməsi zəruridir.

Əhali coğrafiyasında xidmət sahələri, ticarət (yarmarka və bazarlar) rekreasiya (istirahət, müalicə, turizm), təhsil, din və s. sahələrin coğrafi öyrənilməsi məsələlərinə xüsusi diqqət yetirilməlidir. Milli-etnik proseslərin, azsaylı xalqlar, məcburi miqrasiya, deportasiya, bu zəmində baş verən milli ədavət problemlərinin coğrafi öyrənilməsinin genişləndirmək zərurəti də buraya aiddir. Ayrı-ayrı məskənlərin, firma və müəssisələrin qlobal səviyyədən regional səviyyəyə keçmək lazımdır.

Həmçinin, bu gün əhali coğrafiyasında ekoloji yanaşma gücləndirilməlidir.

## 1.2. Əhali coğrafiyasının coğrafiya elmləri sistemində yeri və digər elmlərlə əlaqəsi

Antik dövr coğrafi əsərlərdə əhalinin, onun məşğuliyyətinin, məişətinin səciyyəsi mühüm yer tutur. Tacirlərin, diplomatların, səyyahların söhbətlərinə əsaslanan bu əsərlərdə, adətən, ölkələrin təbiəti, əhalisi, təsərrüfatı kompleks şəkildə təsvir olunurdu.

I əsrdə Strabonun «Coğrafiya»sı, II əsrdə Ptolomeyin «Coğrafiya»sı meydana gəldi. Bu əsərlər təkcə coğrafi deyil, həm də etnocoğrafi mənbələrdir. Qeyd edilməlidir ki, əhaliyə böyük diqqət yetirilən belə kompleks coğrafi təsvirlər orta əsrlərdə də olmuşdur. Elmin inkişafı ilə əlaqədar, XII-XVIII əsrlərdə əhalinin öyrənilməsində diferensiallaşma başladı. Əhali qeydinin təkmilləşdirilməsi prosesində demoqrafiya meydana gəldi. Bir qədər sonra xüsusi elm sahəsi kimi, etnoqrafiya təşəkkül tapdı.

XIX əsrin sonlarında (başlıca olaraq Almaniyada) antropocoğrafiya fərqlənməyə başladı. Metodoloji baxımdan antropo-

coğrafiya təbii mühitin «fərdin və xalqların ruhuna və canına» təsirini müəyyənləşdirən vulqar-materialist coğrafi determinizm konsepsiyasına əsaslanırdı. Bu cərəyanın banisi, alman alimi Fridrix Ratsel (1844-1904) belə hesab edirdi ki, insanı fəaliyyətə, tikməyə, yaratmağa vadar edən mülayim iqlimli təbii şərait işgüzar fəallıqla seçilən psixoloji xüsusiyyət formalaşdırır. Böyük məkanlar xalqları cəsarətli qərarlara ruhlandırır, kiçik məkanlar isə, əksinə, qorxaqcasına qısılmağa məcbur edir. Əhali artımı yeni məkanlar tələb edir, əks halda, bu, dövlətin zəifləməsinə gətirib çıxarar. Sonralar faşistlər öz geosiyasi konsepsiyalarının hazırlanmasında bu nəzəriyyədən istifadə etmişlər.

Əslində, antropocoğrafiya nümayəndələrinin görüşləri mürtəce idi. Məsələn, onlar bir sıra müstəmləkə xalqlarının iqtisadi və mədəni geriliyini, müstəsna olaraq, təbii şəraitin təsiri ilə izah edirdilər. Burada coğrafi determinizm irqçiliklə birləşir. ABŞ coğrafiyaşünası E.Hentinqtonun əhali coğrafiyasına aid əsərlərində «insanın ictimai fəaliyyətinə iqlimin təsiri»ideyası əsas götürülürdü. Bu ideyalar XX əsrin 30-cu illərinədək Amerika coğrafiyaşünaslığında geniş yayılmışdı.

Antropocoğrafiyanın bəzi müddəalarından Almaniyada, İngiltərədə və ABŞ-da əsasən özgə torpaqlarını tutmaq «geosiyasəti»nin yaradılmasında istifadə olunmuşdur. Antropocoğrafiya ideyaları coğrafiyada hakim olmasa da, bir çox əsərlərdə onların təsiri duyulur.

Əhalinin coğrafi baxımdan öyrənilməsi Fransada insan coğrafiyası məktəbinin nümayəndələri tərəfindən də inkişaf etdirilmişdir. Bu məktəbin əsasında təbiətin və cəmiyyətin qarşılıqlı təsiri məsələsi dururdu. Onun baniləri P.Vidal de lya Blaş (1845-1918), J.Brün (1869-1930), A.Demanjon (1872-1940) hesab olunur. Antropocoğrafiya nümayəndələrindən fərqli olaraq, bu cərəyanın təmsilçiləri əhali coğrafiyası xüsusiyyətlərinin izahını təbii amillərdən çox, iqtisadi, tarixi və psixoloji xüsusiyyətlərin çarpazlaşmasında axtarırdılar. Lakin bu coğrafiyaşünaslar cəmiyyətin inkişaf qanunlarının əsl elmi anlamına deyil, burjua fəlsəfəsi, tarix və siyasi iqtisad konsep-

siyalarına əsaslanır, əhali coğrafiyası sahəsində hadisələrin səbəblərini və əlaqələrini düzgün başa düşmürdülər. Bütün bu hadisələri izah etmək üçün, adətən, «bərabər hüquqlarda» və təcrid olunmuş halda ən müxtəlif təbii, tarixi, iqtisadi və digər amillər irəli sürülür və araşdırılırdı. Həmçinin, istehsal üsulunun aparıcı roluna, cəmiyyətin iqtisadi bazisinin əhalinin tərkibinə və hərəkətinə, onun məskunlaşmasına təsirinə məhəl qoyulmurdu.

İnsan coğrafiyası üçün əhali coğrafiyasının yalnız «öz təzahürünü landşaftda tapan» tərəflərini öyrənmək meyli səciyyəvi idi. Bu məktəbə mənsub coğrafiyaşünaslar bir çox maraqlı əsərlər yaratmışlar, lakin onlar əsasən, təsviri səciyyə daşıyırlar. Bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə əhali coğrafiyası universitetlərdə ən müxtəlif yönlərdə, xüsusilə demoqrafiyanın coğrafi aspektləri, şəhər coğrafiyası, miqrasiya coğrafiyası, əhali coğrafiyasında riyazi modelləşdirmə üzrə tədris olunur. Əhali və yaşayış məskənləri coğrafiyası Polşada, ənənəvi olaraq, ən çox inkişaf etmiş coğrafi tədqiqat sahələrindən biridir. Amerika və ingilis müəlliflərinin əsərlərinin böyük bir hissəsi (D.Forsterin «Şəhərlərin coğrafiyası», «Şəhər inkişafının dinamikası», B.C.Qarnerin «Coğrafiyada modellər» əsərləri, D.Harveyin, Y.Hamiltonun, P.Haqqetin və başqalarının əsərləri), fransız müəlliflərin əsərləri (J.Boje-Qornye və J. Şabonun «Şəhərlərin coğrafiyasına dair oçerklər») digər dillərdə də nəşr olunmuşdur.

Rusiyada əhalinin öyrənilməsi ilə çoxdan məşğul olurlar. Hələ M.V.Lomonosov «Rus xalqının qorunması və çoxalması» (1761) əsərində o dövrün demoqrafik vəziyyətini səciyyələndirmişdir. K.İ.Arsenyevin «Rusiya imperiyası şəhərlərinin hidrocoğrafi-statistik təsviri» (1832), «Rusiyanın statistik oçerkləri» (1848), 1897-ci ildə Rusiyada əhalinin ilk dəfə siyahıya alınmasının təşkilatçılarından biri, beş cildlik «Coğrafi-statistik lüğət»in (1863-1885) nəşrinin rəhbəri P.P.Semyonov-Tyan-Şanskinin (1827-1906) əsəri, əhali coğrafiyasına dair bir sıra tədqiqatların müəllifi, iqlimşünas-coğrafiyaşünas A.İ.Voeykovun (1842-1916) əsərləri əhalinin öyrənilməsinə həsr olun-

muşdur. Onlardan «Yer kürəsi əhalisinin təbii şəraitdən və insan fəaliyyətindən asılı olaraq bölgüsü» (1906) adlı geniş əhatəli oçerk xüsusilə böyük əhəmiyyətə malikdir. Əsərdə əhali sıxlığı xəritəsi təhlil edilir. Sosial-iqtisadi amillərə böyük diqqət yetirən Voeykov, bununla belə, onları heç də həmişə düzgün və dərindən araşdırmayaraq, o dövrün liberal-burjua elmi mövqelərində durmuşdur. V.P.Semyonov-Tyan-Şanski (1870-1942) əhaliyə dair bölmələrin aparıcı müəlliflərindən biri olmuş, ölkənin şəhər və kənd yaşayış məskənlərini öyrənmiş və «Avropa Rusiyasının şəhər və kəndləri» (1910) kitabını yazmış, Avropa Rusiyasının əhali sıxlığının ilk iri miqyaslı xəritəsini yaratmışdır. Sovet dövründə yeni əhali coğrafiyası təşəkkül tapmağa və inkişaf etməyə başlamışdır. N.N.Baranski onun inkişafına əhəmiyyətli töhfə vermiş, bu sahədəki bəzi boşluqlar isə müharibədən sonra sürətlə aradan qaldırılmışdır. Artıq 1946-1949-cu illərdə R.M.Kabo, Y.Q.Sauşkin,V.V.Pokşişevski, N.İ.Lyalikov, S.A.Kovalyov, N.Y.Kovalskaya və digər coğrafiyaşünaslar N.N.Baranskinin fəal dəstəyi ilə əhali coğrafiyasının metodoloji əsaslarının və metodikasının işlənib hazırlanması üçün çox iş görmüşlər. XX əsrin 50-ci illərindən etibarən əhali coğrafiyası əsaslı surətdə coğrafiya elminə daxil olmuş, onun əhalini öyrənən sürətlə inkişaf edən mühüm sahələrindən birinə çevrilmişdir. Əhali coğrafiyası sahəsində görkəmli rus alim-mütəxəssisləri – Q.M.Lappo, B.S.Xorev, V.P.Maksakovski, N.T.Aqafonov, S.A. Kovalyov, N.Y.Kovalskaya, Y.N.Pertsık, V.V.Pokşişevski, A.İ. Alekseyev və başqaları bizim müasirlərimizdir.

Azərbaycanda əhali coğrafiyasının öyrənilməsinə maraq ildən-ilə artır. Son illərdə bu sahədə bir sıra əsərlər işıq üzü görmüşdür. Ə.M.Hacızadə, A.A.Nadirov, M.M.Allahverdiyev, S.Y. Göyçaylı, N.A.Babaxanov, E.K.Mehrəliyev, B.T.Nəzirova, V.Ə.Əfəndiyev, Ş.Q.Dəmirqayayev və başqalarının əsərləri xüsusilə seçilir. Onlar əhali və respublikanın yaşayış məntəqələri ilə bağlı müxtəlif problemləri öyrənmişlər.

Əhali coğrafiyası əhalini öyrənən digər elmlərlə sıx bağlıdır. Bunların arasında, hər şeydən əvvəl, əhalini və ictimai-

tarixi şəraitlə bağlı onun inkişaf qanunauyğunluqlarını öyrənən *demoqrafiya* (yun.*demos* – «insan», «xalq kütlələri» sözündən) elmini göstərmək lazımdır. Əhalinin təkrar istehsalı, əhalinin formalaşması, inkişafı və deqradasiyası prosesləri, peşə strukturunun dəyişməsi və s. məsələlər demoqrafiyada əsas yer tutur. Demoqrafik proseslər arasındakı qarşılıqlı əlaqələr, onların sosial-iqtisadi hadisələrdən asılılığını, habelə əhali inkişafının sosial-iqtisadi nəticələrini öyrənməklə, demoqrafiya əhali hərəkətinin qanun və qanunauyğunluqlarını, əhali ilə ictimai inkişaf arasındakı qarşılıqlı təsiri üzə çıxarır. Məhsuldar qüvvələrin inkişafı ilə əhali arasındakı nisbəti aşkarlayan qanun demoqrafiyanın əsas qanunudur. Demoqrafiya bu qanunun təsiri ilə demoqrafik təzahürləri və prosesləri öyrənir. İqtisadçı coğrafiyaşünaslar əhalini öyrənərkən demoqrafiyanın göstəricilərindən geniş istifadə edirlər. Onun materiallarına istinad etmədən əhalinin təkrar istehsalının coğrafi qanunauyğunluqlarını, onun məşğulluğunu, strukturunu və yerdəyişməsini üzə çıxarmaq mümkün deyil. Lakin onun çərçivələri və qarşısında qoyulan vəzifələr ətrafında alimlər arasında hələ də mübahisələr gedir. Onların bəziləri demoqrafiyanın vəzifəsini əhalinin təbii hərəkətinin qanunauyğunluqlarını, yəni onun təkrar istehsalını (doğum, ölüm, təbii artım), əhalinin müəyyən yaş, cins və ailə tərkibinin formalaşmasını öyrənməkdə görürlər. Digərləri buraya əhalinin yerdəyişməsinin (miqrasiyaların) və onun ərazilər üzrə yerdəyişməsinin, habelə əhali siyasəti məsələlərinin öyrənilməsini də əlavə edir, yəni demoqrafiyanın vəzifələrini daha geniş başa düşürlər. Lakin bütün hallarda, demoqrafiyanın demoqrafik statistika və əhali coğrafiyası ilə sıx əlaqəsi göz önündədir. Biz coğrafiyada ərazi insan qruplarını öyrənərkən, eyni zamanda, bu əhali qruplarının təkrar istehsalı prosesləri, əhalinin yerdəyişməsi, habelə əhalinin tərkibi və onun dəyişməsi ilə də (yəni, bəzən deyildiyi kimi, «demoqrafik proseslər»lə) maraqlanırıq. Demoqraflar, eyni zamanda, ümumi demoqrafik proseslər və göstəricilər arasındakı coğrafi fərqlərlə və bu fərqlərin səbəbləri ilə də maraqlanmaya bilməzlər. Beləliklə, əhali coğrafiyası ilə demoqrafiyanın qovşağında ge-

niş birgə tədqiqat sahəsi yaranır. Onu *demoqrafik coğrafiya* adlandırmaq olar. Əhalinin coğrafi öyrənilməsi onun etnoqrafik, yaxud demoqrafik cəhətdən öyrənilməsindən genişdir. Bu, hər bir bölgədə təşəkkül tapan əlaqələrin dərindən araşdırılmasını tələb edir. Lakin coğrafiyaşünaslar bu halda etnik və demoqrafik proseslərin etnoqraf və demoqraflar tərəfindən aşkarlanan ümumi qanunauyğunluqlarını yaxşı bilməlidirlər.

Demoqrafiyanın elm kimi problemləri bir çox xüsusi nəşrlərdə araşdırılır. Onların arasında, hər şeydən öncə, B.İ.Urlanisin və D.İ.Valenteyin fundamental əsərlərinin adını çəkmək lazımdır.

Əhali coğrafiyasının **etnoqrafiya** (yun. *etnos* – «qəbilə», «xalq» sözündən) ilə sıx əlaqəsi vardır. *Etnoqrafiya* tarix elmidir. O, dünya xalqlarının mənşəyini, mədəniyyətini, məişət və adətlərini öyrənir. Etnoqrafiyanın öyrəndiyi məsələlərin bir çoxu əhali coğrafiyası ilə əlaqədardır. Etnoqrafların diqqət mərkəzində milli fərqlərlə birgə məişət və mədəniyyət, müxtəlif xalqların istehsalat vərdişlərinin xüsusiyyətləri, yeməkləri, milli mədəniyyətlərinin bir sıra maddi tərəfləri, xalqların ərazidə məskunlaşma ənənələri durur. Etnoqrafiya hər bir xalqın müasir məskunlaşma arealı, onun sayı, miqrasiyası və s. məsələləri aydınlaşdırır.

***Sosiologiya*** (lat. *societas* – «cəmiyyət» sözündən) cəmiyyətin inkişaf qanunları, həyat və əmək fəaliyyəti prosesində insan qrupları arasında meydana gələn münasibətlər haqqında təlimdir. Konkret sosioloji tədqiqatlar coğrafiyaşünaslara zəngin material verir. Məsələn, əhalinin müxtəlif yaş, sosial və peşə qrupları, peşə dəyişməsi motivləri, ehtiyaclar, asudə vaxtdan istifadə tələbatı və sairənin öyrənilməsində bu materialların əhəmiyyəti böyükdür. Digər tərəfdən, coğrafiyaşünasların müxtəlif yaşayış məntəqələrinə ekspedisiyalar zamanı topladıqları məlumatlar sosioloqlar üçün də maraqlıdır.

Ərazi əhali qrupları öyrənilərkən coğrafiyaşünaslar əhalinin sosial, sinfi tərkibini bilməli və müəyyən tarixi şəraitdə cəmiyyətin fəaliyyətinin regional və yerli xüsusiyyətlərini başa düşməlidirlər. Bu, həmin sahədə sosioloji tədqiqatlarla, məsə-

lən, miqrasiyanın motivləri, mühacirlərin uyğunlaşması, ehtiyac və tələbatları, asudə vaxtdan istifadələri haqqında materiallarla tanış olmağı tələb edir.

***Antropologiya*** (yun. *anthropos* – «insan» sözündən) cismani təbiət və insanın mənşəyi haqqında elmdir. O, habelə Yer kürəsində irqlərin mənşəyini və yayılmasını da öyrənir. Əhali coğrafiyasında antropoloqların bəzi məlumatlarından – insanların irqi əlamətlərinin yayılmasından istifadə olunur. Əhalinin səciyyələndirilməsində onun irqi tərkibinə az yer ayrılır, çünki insanların əmək fəaliyyətindəki, məişət və mədəniyyətindəki, məskunlaşma formalarındakı və s. fərqlər insanların zahiri görkəmindəki antropoloji fərqlərlə bağlı deyildir.

***Ekologiya*** (yun. *oikos* – «məskən», «ev», «yaşayış yeri» sözündən) orqanizmlər və mühit arasında qarşılıqlı münasibətlər haqqında təlimdir. İnsan ekologiyası çirklənmiş mühitin, əhali sıxlığının, nəqliyyat gərginliyinin və s. adamların həyatına təsiridir.

***Rekreasiya coğrafiyası*** (lat. *recreatio* – «bərpa» sözündən) əhali coğrafiyasının, xidmət sahələri coğrafiyasının, tibbi və fiziki coğrafiyaların qovşağındadır. Rekreasiya coğrafiyası balneoloji istirahət daxil olmaqla, əhalinin bütün istirahət növlərini əhatə edir. İnsanların tələbatının, asudə vaxtının artması, maddi rifahının yüksəlməsilə turizm, ekskursiya səfərləri, mədəniyyət müəssisələrinə (kino, teatr və muzeylərə) gediş, idmanla məşğul olmaq və digər «rekreasiya fəaliyyəti» növləri də durmadan fəallaşır.

Bundan əlavə, ***tibbi coğrafiya*** – təbii mühitin insan sağlamlığına təsiri, habelə qidalanmanın, regional geyim xüsusiyyətləri, mənzil və s. xüsusiyyətləri barədə tövsiyələr verən, ayrı-ayrı xəstəliklərin yayılması coğrafiyası da əhali coğrafiyası ilə birbaşa bağlıdır.

***Şəhərsalma və rayon planlaşdırması*** müxtəlif tipli yaşayış məntəqələrinin planlaşdırılması və inşası, əhali üçün müəyyən memarlıq görüntüsü və həyat mühiti yaradılması prinsiplərini işləyib hazırlayan elmdir. Bu sahədə görkəmli mütəxəssislərdən biri D.İ.Boqorad rayon planlaşdırmasını «tikinti coğrafiya-

sı» adlandırmışdır. Belə ki, layihələşdirmə, bir növ, bu və ya digər bölgənin gələcək coğrafiyasını yaradır. Rayon planlaşdırması üçün müxtəlif profilli kadrlar lazımdır. Onlar müxtəlif – texniki, iqtisadi, memarlıq-inşaat ali təhsil müəssisələrində hazırlanır, habelə universitetlərin coğrafiya fakültələrində müvafiq kurs keçilir. Şəhərsalma, kənd yaşayış yerlərinin planlaşdırılması və tikintisi müxtəlif tipli yaşayış məntəqələrinin planlaşdırılması və inşası prinsiplərini işləyib hazırlayan elmdir. Təbii şəraitin şəhər (qəsəbə) salınması baxımından (ərazinin yararlılığı və həcmi, relyefi, qruntu, su təchizatı və mikroiqlim şəraiti və s.) qiymətləndirilməsi də bu elmin vəzifələrinə daxildir.

***Sosial gigiyena*** – əhalinin sağlamlıq vəziyyəti, sosial-iqtisadi amillərin ona təsiri, əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün ümumi tədbirlərin işlənib hazırlanmasıdır.

***Əmək iqtisadiyyatı*** – əmək ehtiyatları və onlardan istifadə edilməsidir.



[library stamp, illegible] ...anası

# II FƏSİL
# ƏHALİNİN TƏKRAR İSTEHSALI COĞRAFİYASI

## 2.1. Əhali qeydiyyatı və onun növləri

Hər bir ərazidə əhalinin səciyyələndirilməsinə burada yaşayan insanların ümumi sayından başlanmalıdır. Əhalinin siyahıyaalınması və əhalinin cari inzibati qeydiyyatının materialları (adamların doğum və ölümünün, nikah və boşanmaların, yaşayış yerinin qeydiyyatı), habelə əhalinin vaxtaşırı ümumi siyahıya alınmasının materialları (sayı, tərkibi, yerləşməsi) ölkə əhalisinin dəqiq say göstəricilərinin başlıca mənbələridir.

Əhalinin sayının müəyyənləşdirilməsinə maraq qədim zamanlardan yaranmışdır. Dövlətin hərbi və vergi siyasəti insanların sayı, cinsi və yaşı barədə dəqiq məlumat olmasını tələb edirdi ki, bu da ilk siyahıyaalmaların aparılmasına səbəb olmuşdu. Məlumdur ki, hələ eramızdan əvvəl üçüncü minillikdə Misirdə və Çində əhalinin qeydi aparılmışdır. Antik dövlətlərdə əhalinin sayı tez-tez hesablanmışdır. Bu iş qədim Romada daha yaxşı qurulmuşdu. Burada eramızdan əvvəl V əsrdən, müntəzəm olaraq, azad əhalinin, sonralar isə qulların senzləri (lat. *census* – «hesablanma» sözündən) keçirilirdi. Feodalizm dövründə əhalinin qeydi epizodik xarakter daşımışdır. Mərkəzləşdirilmiş dövlətlərin əmələ gəlməsi ilə daha sistemli qeyd yaranmışdır. Dünyada əhalinin dövlət statistikası tam həcmdə ilk dəfə İsveçdə tətbiq olunmuşdur. Onun əsası XVIII əsrin ortalarında tabel komissiyasının yaradılması ilə qoyulmuşdu. Əhalinin sayı, tərkibi və hərəkəti haqqında məlumatlar bu komissiyada cəmləşmişdi. Komissiyalar yaradılanadək əhalinin qeydə alınması vergi siyahıları və ruhanilərin keçirdiyi ayinlərin qeydiyyatı əsasında aparılırdı.

Lakin mütəşəkkil ümumi elmi siyahıyaalma nisbətən gec – təxminən 200 il bundan əvvəl keçirilməyə başlamışdır.

İlk siyahıyaalmalar ABŞ-da (1790), İsveçdə və Finlandiyada (1800), İngiltərədə, Fransada, Danimarkada və Norveçdə

(1801) keçirilmişdir.

Ötən əsrin ortalarından iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə əhalinin siyahıya alınması müntəzəm şəkil aldı və praktiki olaraq, dünyanın bütün ölkələrində aparılmağa başladı.

Əhalinin siyahıyaalınması son dərəcə bahalı tədbirdir. Məsələn, o, ABŞ-a 1,5-2 milyard dollara başa gəlir. Buna görə də onu ancaq kifayət qədər maliyyə ehtiyatlarına malik ölkələr, BMT-nin tövsiyə etdiyi kimi, on ildən bir keçirə bilər. Əgər 1850-ci ildə dünya əhalisinin ancaq 15%-ə yaxını siyahıya alınmışdısa, bu göstərici 1900-cü ildə 50%-ə, 1950-ci ildə 80%-ə, 1995-ci ildə isə, iqtisadi çətinliklərə baxmayaraq, demək olar, 99%-ə çatmışdır. Bu məlumatlar, bütövlükdə, dünyanın ayrı-ayrı ölkələrinin əhalisi (onların sayı, tərkibi, yerləşməsi, miqrasiyası) haqqında ən etibarlı və qiymətli mənbədir. Ümumi siyahıyaalmalar üçün mütəşəkkillik – ölkənin bütün əhalisinin əhatə olunması, vaxt eyniyyəti – əhalinin qeydinin böhran anı adlandırılan müəyyən məqamda aparılması, əhalidən bilavasitə ekspedisiya yolu ilə məlumat alınması, habelə qısa müddətdə keçirilməsi mühümdür. Bu baxımdan ən ideal variant bir gün ərzində keçirilən siyahıyaalmalardır. Belə siyahıyaalmalar Türkiyədə aparılır; burada istirahət günlərinin birində sakinlərin onların siyahıya alınmayana qədər mənzillərini tərk etmələri qadağan olunur. Albaniyada, İraqda, Paraqvayda da əhali bir gün ərzində siyahıya alınır. Lakin bir günlük siyahıyaalma əhali üçün bir sıra narahatlıqlar doğurur və çoxlu siyahıya alanlar tələb edir. Ona görə də dünya ölkələrinin əksəriyyətində siyahıyaalma bir neçə gün davam edir.

Rusiyada əhalinin qeydə alınmasına Kiyev Rus Dövləti və Novqorod Feodal Respublikasında IX əsrdə, Moskva Rus Dövlətində isə XV əsrdə başlanmışdır.

Rusiya imperiyası əhalisinin 1897-ci ilin fevralında keçirilən ilk ümumi siyahıyaalınması dövlət üçün böyük əhəmiyyətə malik idi. Onun təşkilində və keçirilməsində P.P.Semyonov-Tyan-Şanskinin mühüm xidməti olmuşdur. Sovet dövründə əhalinin ilk siyahıyaalınması 1926-cı ilin dekabrında aparılmışdır. Bu siyahıyaalma ölkənin o zamankı sərhədləri daxilində

bütün əhali haqqında qiymətli informasiya vermişdi.

Növbəti siyahıyaalma 1939-cu ilin yanvarında keçirilmişdi. Təəssüf ki, 1941-ci ildə başlayan müharibə həmin materialların tam hərtərəfli təhlilini başa çatdırmağa imkan vermədi. Müharibədən sonra, BMT-nin tövsiyələrinə müvafiq olaraq, beynəlxalq müqayisələr üçün münasib olmaqdan ötrü təqribən hər on ildən bir, məhz 15 yanvar 1959-cu, 15 yanvar 1970-ci, 17 yanvar 1979-cu, 15 yanvar 1989-cu illərdə, Müstəqil Azərbaycan Respublikasında isə, ilk dəfə, 27 yanvar 1999-cu ildə əhalinin siyahıyaalınması keçirilmişdir.

Miqrasiyanın qeydi, başlıca olaraq, gələn və gedən əhalinin polis orqanlarında qeydiyyata düşməsinə və çıxmasına dair doldurduqları ünvan vərəqlərinə əsaslanır. Həmin vərəqlərin miqrant haqqında məlumat verilən kəsmə talonları statistika orqanları tərəfindən təhlil olunur.

## 2.2. Dünya əhalisinin say dinamikası

Hər hansı ərazi əhali qrupunun səciyyələndirilməsi həmişə əhalinin ümumi sayının və onun dinamikasının, yəni vaxt çərçivəsində dəyişməsi ilə müəyyən edilir. Əhalinin say dəyişməsi həm təbii hərəkət, yaxud əhalinin təkrar istehsalı (yəni doğumun və ölümün nisbətindən) nəticəsində baş verir, həm də əhalinin ərazi bölgüsündən, onun miqrasiyasından asılıdır. Əhalinin sayını və tərkibini dəyişdirən bütün bu proseslər bəzən, bütövlükdə demoqrafik proseslər adlandırılır.

Yer üzərində ilk insanların nə zaman və harada əmələ gəlməsi məsələsi bu günədək qızğın elmi diskussiyaların mövzusudur. İndi alimlərin əksəriyyəti hesab edir ki, **Homo Sapiens** («kamil insan») təqribən 50 min il bundan əvvəl Şərqi Afrikada mərcan rifləri bölgəsində qədim hominidlərdən əmələ gəlmişdir.

Son vaxtlar bu regionda aparılan qazıntılar nəticəsində edilmiş kəşflər həmin fərziyyəni təsdiqləyir. XX əsrin 70-ci illərində Keniya vətəndaşları olan dünya şöhrətli alimlər – Lyuis və Meri Liki Tanzaniyanın şimalındakı Oldovay dərə-

sindəki mərcan rifləri zonasında qədim insanabənzər məxluqun-zincantropun-«kamil insan»ın əcdadı olan «ağıllı insan»ın qalıqlarını tarmışlar. Onun 1,7 milyon il yaşı var.

Belə hesab edilir ki, Paleolit dövrünün sonunda, təqribən 30 min il bundan əvvəl qədim insanlar Afrikadan digər qitələrə köç edərək, Avropa və Asiya, Berinq boğazı vasitəsilə Asiyadan keçib Amerikada, Cənub-Şərqi Asiya vasitəsilə isə Avstraliyada və Okeaniyada məskunlaşa bilərdilər.

XIX əsrin ortalarından XX əsrin ortalarınadək bir əsrdən bir qədər çox müddətdə dünya əhalisinin sayı 2 milyard artmışdır (halbuki, birinci milyard üçün bəşəriyyətin bütün ondan əvvəlki tarixi lazım gəlmişdi). Bu dövr «demoqrafik partlayış» dövrüdür. Lakin son dövrdə bu proses stabilləşmişdir.

Gələcəkdə əhali sayının sabitləşməsinin mümkünlüyü ehtimalı bugünkü artım sürətinin xüsusiyyətləri ilə təsdiqlənir. Əgər bəşəriyyətin 1 milyarddan 2 milyarda «keçməsinə» 85 il, 2 milyarddan 3 milyarda «keçməsinə» 25 il lazım gəlmişdisə, 3 milyarddan 4 milyarda «keçməsinə» 15 il lazım gəlmişdir. Bu, o deməkdir ki, birinci halda proses 3 dəfə, ikincidə 2 dəfədən az sürətlə getmişdir. «Əhalinin ikiqat çoxalması» vaxtının azalması da dayanmışdır və gələcəkdə proqnozlaşdırılmır (cədvəl 2.1).

1900-cü ildə illik artım sürəti 0,5% olmaqla, əhalinin sayı 1,6 milyarda, ikiqat artım müddəti isə 140 ilə çatdı. 1970-ci ildə əhalinin sayı 3,6 milyarda bərabər idi, illik artım sürəti 2,1%-dək yüksəlmişdi. Bu, sadəcə, eksponensial deyil, «fövqəl eksponensial artım» idi, çünki artım sürətinin özü artmışdı. Buna səbəb ölümün, habelə az da olsa, doğumun artım səviyyəsinin aşağı düşməsi idi. 1971-ci ildən 1991-ci ilədək ölüm halları azalmaqda davam etmiş, doğum isə, orta hesabla, bir qədər sürətlə aşağı düşmüşdür. Eyni zamanda, əhalinin sayı 3,6 milyarddan 5,4 milyard nəfərə çatmış, artım sürəti isə ildə 2,1%-dən 1,7%-ə düşmüşdür.

Cədvəl 2.1

Yer kürəsi əhalisi sayının artımı

| Tarix | Əhali, milyon nəfər | İllik artım, %-lə | İkiqat artım vaxtı |
|---|---|---|---|
| e.ə.400-cü elədək | 153 | 0,005 | 14 əsrə yaxın |
| 0 | 252 | 0,005 | 15 əsrə yaxın |
| eramızın 400-cü ili | 205 | 0,005 | 8 əsr |
| 800 | 224 | 0,005 | 7 əsr |
| 1200 | 400 | 0,005 | 6 əsr |
| 1400 | 375 | 0,005 | 4 əsr |
| 1600 | 578 | 0,2 | 2,5 əsr |
| 1700 | 680 | 0,2 | 2 əsrə yaxın |
| 1800 | 954 | 0,5 | 1 əsrdən bir qədər çox |
| 1900 | 1634 | 0,8 | 70 ildən az |
| 1950 | 2530 | 1,9 | 40 il |
| 1993 | 5510 | 1,5 | 45 il (proqnoz) |
| 2000 | 8000-dən çox | 1,2 | ? |

Yer üzündə həyatın meydana gəlməsinə dair digər müxtəlif fikirlər də mövcuddur. Alimlərin bir çoxunun fikrincə, həyat okeanda meydana gəlmişdir, geoloqlar isə iddia edirlər ki, həyat sadədən mürəkkəbə doğru inkişaf etsə də, o, torpağın tərkibini təşkil edən maddə ilə birlikdə yaranmışdır. Amerika alimlərinin son vaxtlar əldə etdikləri məlumatlar isə, ümumiyyətlə, sensasiyalıdır: onların fikrincə, Yerdə həyat kosmosdakı yağış damcısından yaranmışdır. Müasir hesablamalara görə, təqribən eramızdan 15 min il əvvəl Yer kürəsində 3 milyondan az adam yaşayırdı, eramızdan əvvəl VI minillikdə əkinçiliyin meydana gəlməsi əhalinin sürətlə artmasına səbəb oldu. Ehtimala görə, bu dövrdə əhalinin sayı 10 milyon nəfər idi. Bəşəriyyətin, demək olar, bütün tarixi boyu Yerin əhalisi çox ləng artmışdır – XVI əsr ərzində o, iki dəfədən az artaraq, 2300 milyon nəfərdən 4400 milyon nəfərədək artmışdır. XX əsrdə əhali artımında sıçrayış baş vermişdir. Hazırda dünya əhalisinin sayı 6 milyarddan çoxdur. 1999-cu il oktyabrın 12-də Kosovonun müsəlman ailəsində dünyanın altı milyardıncı sakini doğulmuşdur. BMT ekspertlərinin proqnozlarına görə, 2015-ci ilədək artım ildə 82 milyon nəfər olacaqdır.

Dünya ölkələri əhalinin sayına görə bir-birindən xeyli fərq-

lənirlər. 2002-ci ildə planetin bütün əhalisinin dörddə üçündən çoxu əhalisi 50 milyondan çox olan 25 dövlətdə yaşayırdı. Ən çox əhalisi olan ilk on ölkənin tərkibi daim dəyişir. Əgər əsrin əvvəlində onların arasında iqtisadi cəhətdən inkişaf etmiş 9, o cümlədən 7 Avropa ölkəsi var idisə, 2000-ci ildə bu siyahıda ancaq ABŞ və Yaponiya qalmış, bütün Avropa ölkələri isə onu tərk etmişlər.

Dünya əhalisinin 80%-nin yaşadığı inkişaf etməkdə olan ölkələrdə böyük əhali artımı ətraf mühitə mənfi təsir göstərir. Əhalinin həddindən çox artımı torpaqlardan ifrat istifadə və onların münbitliyinin aşağı düşməsi və s. gətirib çıxarır (cədvəl 2.2).

**Cədvəl 2.2**

**Dünyanın iri dövlətləri əhalisinin sayı milyon nəfər hesabilə (1900-2000-ci illər)**

| 1900-cu il | | 1980-cu il | | 1995-ci il | | 2000-ci il | |
|---|---|---|---|---|---|---|---|
| Çin | 440 | Çin | 981 | Çin | 1233 | Çin | 1295 |
| Hindistan | 285 | Hindistan | 687 | Hindistan | 944 | Hindistan | 1027 |
| Rusiya | 132 | SSRİ | 265 | ABŞ | 269 | ABŞ | 282 |
| ABŞ | 76 | ABŞ | 227 | İndoneziya | 200 | İndoneziya | 203 |
| Almaniya | 56 | İndoneziya | 146 | Braziliya | 161 | Braziliya | 170 |
| Avstriya-Macarıstan | 45 | RSFSR | 138 | Rusiya | 148 | Rusiya | 145 |
| Yaponiya | 44 | Braziliya | 121 | Yaponiya | 125 | Pakistan | 150 |
| Böyük Britaniya | 41 | Yaponiya | 116 | Pakistan | 139 | Banqladeş | 128 |
| Fransa | 40 | Banqladeş | 88 | Banqladeş | 120 | Yaponiya | 126 |
| İndoneziya | 35 | Nigeriya | 87 | Meksika | 92 | Nigeriya | 125 |
| İtaliya | 33 | Pakistan | 85 | Nigeriya | 115 | Meksika | 100 |
| Osmanlı imperiyası | 25 | Meksika | 70 | AFR | 81 | Vyetnam | 78 |
| İspaniya | 19 | AFR | 61 | Vyetnam | 75 | İran | 67 |
| Braziliya | 18 | İtaliya | 56 | Filippin | 69 | Filippin | 80 |
| Meksika | 14 | Böyük Britaniya | 56 | İran | 69 | Türkiyə | 70 |

Əhali artımı meşələrin azalmasına güclü təsir göstərir, meşələr kənd təsərrüfatının ehtiyacları üçün, ticarət, yanacaq və s. məqsədlə qırılır. Əkinçilik və maldarlıq yaranarkən bütün quru səthinin 56%-i meşə ilə örtülmüşdü. Bizim günlərdə isə bu göstərici 30%-ə enmişdir. Meşələrin məhv edilməsi prosesi xüsusilə Avropaya toxunmuşdur. Əgər VII əsrə qədər burada meşələr bütün ərazinin 80%-ni tuturdusa, hazırda bu, cəmi 30% təşkil edir. Rusiyada, ABŞ-da, Kanadada, Hindistanda, Çində, Braziliyada meşələr kütləvi surətdə qırılmışdır. Bütün bunlar torpağın tullantılarla çirklənməsinə səbəb olan «istixana effekti»nə şərait yaradır. İsti torpağı qızdıraraq atmosferdəki karbon səddini dəf edib, kosmik fəzaya çıxa bilmir, torpağı isitməklə temperaturu qaldırır. Yerin hərarətinin $+1^0$S artması belə dünya kataklizminə gətirib çıxara bilər, qütb buzlaqlarının əriməsi sürətlənər, mütəxəssislərin hesablamalarına görə, artıq XXI əsrin ortalarında dünya okeanının səviyyəsi 1-5 metr qalxa bilər ki, bu da Yerin bir sıra regionlarının – Maldiv adalarının, Sankt-Peterburqun, Nil deltasının, Azərbaycan hüdudlarında Xəzər dənizinin cənub sahillərinin su altında qalmasına səbəb olar. Havaların qızması ABŞ-da, Rusiyada, Çində və digər ölkələrdə quraqlığın artması ilə müşayət olunmuşdur. Torpağın, suyun, bitki örtüyünün çirklənməsinin davam etməsi heç də az dəhşətli deyildir. Bu, insanın fiziologiyasında və davranışında dəyişikliklərə gətirib çıxara bilər. Bizim günlərdə torpaq resurslarının deqradasiyası, Asiya və Afrikanın torpaqlarında quraqlıq xüsusilə intensiv şəkildə baş verir. Burada səhralaşma hər il 6 milyon hektara yaxın torpağı kənd təsərrüfatı dövriyyəsindən çıxarır ki, bu da torpaq ehtiyatlarına mənfi təsir göstərir. Torpağın kimyəvi birləşmələrlə çirklənməsi, dağmədən, tikinti işləri zamanı eroziyaya məruz qalması da onun strukturunun pozulmasına səbəb olur. Bir çox ölkələr artıq təmiz içməli su alırlar, Maltada o, yerli şərabdan bahadır. Bizdə də «Şollar», «Masallı», «Şahdağ», «Qax», «Borçalı» və s. bu kimi sular istehsal edilməyə başlamışdır.

Son illərdə daha bir ekoloji təhlükə – freon istehsalı və soyuducu qurğularda ondan aerozollar şəklində istifadə olunması

və s. nəticəsində ozon təbəqəsinin dağılması təhlükəsi yaranmışdır. Freon tullantılarının artması ilə bağlı ozon təbəqəsinin «qoruyucu örtüyü»nün gücü 2% azalmışdır ki, bu da ultrabənövşəyi şüalanmanın zərərli təsirini artırır, bu isə dəri xərçənginin, gözlərin katarakta xəstəliyinin artmasına, immun sisteminin zəifləməsinə və s. şərait yaradır.

İlk «ozon deşiyi» 1978-ci ildə Antarktika üzərində aşkar olunmuşdur. Tədqiqatlar göstərdi ki, «ozon deşiyi» 5 milyon $km^2$-dən 20 milyon $km^2$-dək böyümüşdür. Bu, 1992-ci ildə xüsusilə aydın şəkildə müşahidə edildi. İkinci belə «deşik» Arktika üzərində aşkar oldu. O, həcmcə kiçik olsa da, Avrasiya əhalisi üçün kimsəsiz Antarktika üzərindəki «ozon deşiyi»ndən xeyli təhlükəli ola bilər. Alimlər hesab edirlər ki, səsdən sürətli təyyarələrdən, kosmik sistemlərdən istifadə, Günəş fəallığının güclənməsi, vulkan fəaliyyətinin artması və s. də bu ekoloji fəlakətin səbəbləri sırasına aid olunmalıdır.

Beləliklə, bəşəriyyət ya təbiətə mənfi təsirlərə qarşı tədbirlər görməli, o cümlədən öz artımını azaltmalıdır, ya da o, dünya kataklizmləri burulğanına düşüb məhv ola bilər.

Mütəxəssislərin fikrincə, əhali XXI əsrin sonunadək artacaq, təbiət kataklizmləri isə artıq əsrin ortalarında peyda ola bilər. Hazırda dünya əhalisinin artımı 1,5%-dir. Asiya, Afrika və Latın Amerikasının əksər ölkələrində bir çox xoşagəlməz nəticələrə səbəb olan demoqrafik partlayışın davam etməsi daha böyük təşviş doğurur. Bu partlayışın XX əsrin 60-cı illərinə təsadüf edən zirvəsi arxada qalmışdır. Afrika istisna olmaqla, artıq təbii artımın ikinci tipinə aid olan ölkələrdə doğum və təbii artım tədriclə aşağı düşməyə başlamışdır. Hadisələrin bu cür qanunauyğun gedişi həmin regionlarda urbanizasiya, əhalinin yaş strukturunun dəyişməsi, orta ömür müddətinin artması, qadınların məhsuldar əməyə cəlb olunması, təhsil və səhiyyə prosesləri kimi məhdudlaşdırıcı amillərin tədriclə işə düşdüyünü göstərir. Bu ölkələrin ümumi sosial və mədəni inkişaf səviyyəsinin artması doğumun tənzimlənməsinə gətirib çıxarmalıdır. Demoqrafik partlayışın hələ də davam etdiyi və 2000-2005-ci illərdə bu tendensiyanın saxlanacağı Afrika istisna təş-

kil edir. Cənub və Cənub-Şərqi Asiyada, xüsusilə Çində, Hindistanda və Yaponiyada doğumun azaldılmasına yönəldilmiş demoqrafik siyasət yeridilir. Hərçənd, bu ölkələrdə artım sürəti hələ də kifayət qədər yüksək olub – 2%-ə yaxın, Əfqanıstanda isə bu göstərici 5,2%-dir.

Latın Amerikasında da əhali sürətlə artır. Xüsusilə Braziliya, Argentina və Meksika kimi iri ölkələrdə artım sürəti 2% səviyyəsindədir. BMT-nin proqnozlarına görə, XXI əsrin əvvəlində Avropada əhali artımı, praktiki olaraq, tamamilə dayanacaqdır (0,3%), bir çox ölkələrdə isə artıq əhali artımı saldosu mənfidir. Bu, «demoqrafik böhran» ölkələri sayılan Rusiya, Ukrayna, Gürcüstan, Belarus və başqalarıdır. Şimali Amerikada isə ABŞ və Kanadanın əhalisi xeyli dərəcədə miqrasiya hesabına artır, onların dünya əhalisindəki payı isə azalır (1995-ci ildə 5%).

Avstraliya və Okeaniyanın əhalisi XVIII əsrin sonundan, əsasən, Avropadan gələnlərin hesabına artmışdır. Bu regionun dünya əhalisi sayının dinamikasına təsiri cüzidir. XXI əsrin əvvəlində buranın əhalisi dünya əhalisinin 0,5%-dən çox olmayacaqdır.

Dünya əhalisinin mövcud artım sürəti belə davam edərsə, onun sayı 2050-ci ildə iki dəfə artacaqdır. Dünya əhalisinin ilk ikiqat artımı 1500-cü ildə, ikincisi, 300 ildən sonra, üçüncüsü, 1900-cü ildə, dördüncüsü, 1985-ci ildə olmuşdur.

BMT-nin hesablamalarına görə, 1990-cı ildə Yer kürəsi əhalisinin 60%-ə yaxını Asiya ərazisinin payına düşür. Asiyanın ərazisinin böyük olmasına baxmayaraq, burada əhali sıxlığı ən yüksək olub – 1 $km^2$-də 114 nəfərə bərabərdir. Qalan qitələrdə: Şimali və Cənubi Amerikada, Afrikada – təqribən 20 nəfər, Avstraliyada – 0,03 nəfərdir. Ümumiyyətlə, daimi sakinləri olmayan Antarktida nəzərə alınmazsa, sonuncu ən az mənimsənilmiş qitədir.

Hələ uzaq keçmişdə Cənub-Şərqi Asiya, Şərqi Asiya, Cənubi Asiya, Aralıq dənizi hövzəsi əhalinin sıxlığı ilə seçilən regionlar olmuşdur. Sonralar isə Avropanın digər bölgələri fərqlənmişdir. Son iki əsrdə əhalisi sıx olan ancaq iki region –

Şimali Amerikanın şərqində və Cənubi Amerikanın cənub-qərbində meydana gəlmişdir. Burada sahilləri Sakit və Atlantik okeanlarının isti cərəyanları yuyur.

Müasir dövrdə Asiyanın münbit düzənliklərində (Böyük Çin, Brahmaputra və Qanq çayları deltasında Hind-Qanq düzənlikləri, Yava çökəkliyi) əhali sıxlığı 1 $km^2$-də 100 nəfərdən çoxdur. Asiyanın mərkəzində – Monqolustanda isə əksinə, bu, 1 $km^2$-də bir nəfərdən də azdır. Avropada Niderlanddakı əhali sıxlığı 433 nəfərdən İslandiya adasında 2 nəfərə qədər azalır.

Dünyada ümumi tendensiya belədir:

1. Sənayecə zəif inkişaf etmiş bəzi ölkələrdə ölüm səviyyəsi hələ də nisbətən yüksək, doğum səviyyəsi isə daha yüksəkdir. Onlarda əhali sayının artım sürəti ildə 2-3% - dir və ölüm halları azaldıqca daha da arta bilər.

2. Sənaye inkişafı cəhətdən orta səviyyəli ölkələr isə ölümün az olması, doğumun hələ də yüksək səviyyəsi, lakin getdikcə aşağı düşməsi ilə səciyyələnir. Bu ölkələrdə əhali sayının artım sürəti orta ilə yüksək səviyyə arasındadır (ildə 1-4%).

3. Yüksək inkişaf etmiş sənaye ölkələrinin əksəriyyəti üçün ölümün və doğumun aşağı olması, aşağı artım sürəti (1%-dən az) səciyyəvidir. Bəzi Avropa ölkələrində hazırda doğum səviyyəsi ölüm səviyyəsindən aşağı olduğundan onların əhalisi get-gedə azalır.

Demoqraflar mövcud məlumatlar əsasında «demoqrafik keçid» adlandırılan nəzəriyyə yaratmışlar. Bu nəzəriyyəyə görə, sənayenin inkişaf səviyyəsinin aşağı olduğu ölkələrdə doğum və ölüm səviyyəsi yüksək olduğundan əhalinin sayı ləng artır. Qidalanmanın və səhiyyənin keyfiyyəti yaxşılaşdıqca ölüm halları azalır, doğumun 1-2 nəsil gecikməsi doğum və ölüm səviyyələri arasında uyğunsuzluğa səbəb olur ki, bu da əhali sayının sürətli artımına imkan yaradır. Lakin insanlar yüksək inkişaf etmiş sənaye cəmiyyətinin həyat tərzinə qoşulan kimi doğum aşağı düşür və əhali sayının artım sürəti yenidən azalır.

Hazırda müşahidə edilən bu proses nəticəsində əhalinin

proqnoz sayı XXII əsrdə 10-12 milyard həddində sabitləşəcəkdir.

Əhali sayının sabitləşməsi təsəvvürü məhsuldar qüvvələrin müasir inkişaf səviyyəsinə uyğun gəlir. Doğumun məhdudlaşdırılmasına, əhali artımının sabitləşdirilməsinə dair bütün ideyalar həmişə iqtisadi inkişafın çətinlikləri ilə şərtlənmişdir. Onlar insanın müstəqil varlıq olması təsəvvüründən doğmur. Buna görə də fizikanın, kimyanın və onların müqabilində texnikanın nailiyyətlərinə əsaslanan müasir Elmi-Texniki İnqilabın XXI əsrdən sonra biologiya, humanitar və təbiət elmlərinin nailiyyətlərinə istinad edən humanitar inqilab deyilən inqilabla əvəz olunacağına dair fərziyyələrin meydana gəlməsi təsadüfi deyildir. Bunun nəticələrindən biri, orta ömür müddətinin artması, insanın fiziki və mənəvi cəhətdən təkmilləşməsi ola bilər. Bu meylin inkişafı sayəsində bəşəriyyətin artımı davam edə bilər. Bu qəbil ehtimallar əhali sayının maksimum 40-50 milyarda çata bilməsi, proqnozlarının üstüörtülü şəkildə verilməsinə səbəb olmuşdur.

Cəmi 25 ildən sonra Afrikanın, Yaxın və Orta Şərqin əhalisi iki dəfə artacaq [Bruney (11 il), BƏƏ və Qatar (13 il) mütləq rekordçulardır], halbuki bunun üçün Avropaya 282 il, bəzi Avropa ölkələrinə – Bolqarıstana, İrlandiyaya, Macarıstana isə 1000 ilə yaxın vaxt lazım gələcəkdir.

Lider ölkələr beşliyi, əvvəlki kimi, dəyişməmişdir. Siyahıya Çin başçılıq edir: hazırda (2004-cü il) bu ölkədə 1 milyard 245 milyon insan yaşayır. Öz böyük qonşusunu daban-dabana izləyən Hindistan ikinci yerdədir – 1 milyard 27 milyon nəfər. Üçüncü yerdə onlardan xeyli geridə qalan ABŞ gəlir – 281 milyon 422 min adam. Dördüncü yerdə İndoneziyadır – 203 milyon nəfər. Beşliyi Latın Amerikasının ən çox əhalisi olan dövləti – Braziliya tamamlayır. 1991-ci ilədək 288 milyon 600 min nəfər yaşayan Sovet İttifaqı dağıldıqdan sonra Rusiyanın əhalisi 147 milyon təşkil edirdi. Hesablamalar göstərir ki, son illərdə Rusiya əhalisinin sayı 145 milyondan 144 milyona düşdüyü halda, Pakistanın əhalisi 137,5 milyondan 145 milyon nəfərə qədər artmışdır. Bu ölkədə hər 100 qadına, orta hesabla,

503 uşaq doğulur. Yeri gəlmişkən, Pakistandakı doğum göstəricisi son hədd deyil. Rəqəmlər İraq (100 qadına 525 uşaq) və Səudiyyə Ərəbistanında (100 qadına 580 uşaq) daha yüksəkdir (cədvəl 2.3).

**Cədvəl 2.3**

**Dünya əhalisi üzrə ən iri ölkələrdə 2000-ci il üçün əsas demoqrafik göstəricilər**

| Ölkələr | Əhali, milyon nəfər | Doğum % | Ölüm % | Təbii artım % | Ömrün uzunluğu (yaş) | Qidalanmanın kaloriliyi |
|---|---|---|---|---|---|---|
| Çin | 1246,9 | 17,5 | 6,3 | 11,2 | 71 | 2,703 |
| ABŞ | 270,5 | 15,1 | 8,1 | 7,0 | 77 | 3,671 |
| Hindistan | 973,4 | 27,1 | 9,9 | 16,2 | 62 | 2,243 |
| Rusiya | 146,3 | 10 | 14,9 | -4,9 | 68 | 3,300 |
| Yaponiya | 126,3 | 9,6 | 7,6 | 2,0 | 80 | 2,956 |
| Almaniya | 82,6 | 9,5 | 11,1 | -1,6 | 76 | 3,522 |
| B.Britaniya | 59,1 | 13,1 | 10,7 | 2,4 | 77 | 3,149 |
| Fransa | 58,9 | 13,4 | 9,4 | 4 | 78 | 3,465 |
| İtaliya | 57,7 | 9,5 | 9,5 | 0 | 78 | 3,504 |
| İndoneziya | 204,6 | 28,6 | 11,1 | 17,5 | 65 | 2,770 |
| Braziliya | 164,3 | 19,9 | 6,1 | 13,8 | 67 | 2,824 |
| Banqladeş | 127,2 | 41,7 | 14,6 | 27,1 | 58 | 2,100 |
| Pakistan | 139,4 | 39,4 | 12,8 | 26,6 | 63 | 2,377 |

Rusiyada hər yüz qadın ömrü boyu, orta hesabla, 125 uşaq doğur ki, bu da Avropa göstəricilərinə ən yaxınıdır. Məsələn, Böyük Britaniyada hər 100 qadına 168 uşaq, Almaniyada 136, İtaliyada isə 119 uşaq düşür.

Sosioloqların fikrincə, əgər demoqrafik mənzərə yaxın illərdə dəyişməsə, 2050-ci ildə Rusiyanın əhalisi 100 milyon nəfərdən çox olmayacaqdır (cədvəl 2.4).

## 2.3. Əhalinin təkrar istehsalı və onun qanunauyğunluqları

***Əhalinin təkrar istehsalı (təbii hərəkəti)*** *insan nəsillərinin fasiləsiz bərpa olunmasını və əvəzlənməsini təmin edən doğum, ölüm və təbii artım proseslərinin məcmusudur.*

Cədvəl 2.4


DÜNYA ƏHALİSİNİN SAYI
BMT-nin "Dünya əhalisi, 2002-ci il hesabatı"
DÜNYA ƏHALİSİ (milyon nəfərlə)
Daha inkişaf etmiş ölkələr
Az inkişaf etmiş ölkələr
2002
1861
Cəmi 8211
2050
1181
Cəmi 9322
ƏHALİNİN REGİONLAR ÜZRƏ SAYI (milyon nəfər)
2002
2050
Şimali Amerika
320
438
Avropa
725
603
Asiya
3769
5428
Mərkəzi, Cənubi Amerika və Karib hövzəsi
534
806
Afrika
832
2000
Avstraliya və Okeaniya
31
47
REGİONLAR ÜZRƏ ÖMÜR UZUNLUĞU (yaş)
Kişilər
Regionlar
Qadınlar
50,5
Afrika
52,1
65,8
Asiya
69,2
69,6
Avropa
77,9
67,2
Mərkəzi, Cənubi Amerika və Karib hövzəsi
73,6
74,7
Şimali Amerika
80,6
73,0
Avstraliya, Okeaniya
76,9
70 60 50 40 30 20 10 0 10 20 30 40 50 60 70

Əhalinin təkrar istehsalı

Əhalinin təbii hərəkəti, yaxud təkrar istehsalı əhalinin doğum, ölüm və təbii artım (yaxud, azalma) göstəriciləri, yəni il ərzində doğulanların və ölənlərin nisbəti ilə ölçülür.

Əhalinin təbii artım göstəricilərini əhalinin 1000 nəfərinə düşən miqdarla (promille $^0/_{00}$), bəzən isə faizlə ifadə etmək qəbul olunmuşdur. Əhalinin təkrar istehsalına bir çox amillər təsir göstərir. Əhalinin təbii hərəkətində sosial-iqtisadi amillər – rifah halının səviyyəsi, səhiyyənin inkişafı, qadının ictimai vəziyyəti, əhalinin təhsil və mədəni səviyyəsi, dinlər və s. müəyyənləşdirici rol oynayır.

***Təbii-bioloji amillər*** əhalinin təbii hərəkətinə birbaşa deyil, dolayısı ilə təsir göstərirlər. Qadın və kişi orqanizmlərinin xarici mühit şəraitinə uyğunlaşma dərəcəsinin müxtəlifliyi qız və oğlan uşaqlarının doğum sayında (100-ə qarşı 105) və onların 5 yaşınadək ölümündə müxtəlifliyə səbəb olur. İsti və soyuq iqlimli bölgələrdə cinsi yetişmə vaxtının müxtəlifliyi qadınların məhsuldar və ya fertil (lat. *fertilis* - məhsuldar) siklinin müddətində fərqlər doğurur. Ölüm səviyyəsi həyat şəraitindən, inkişafdan, səhiyyədən, ən qorxulu xəstəliklərlə (bataqlıq yerlərdə malyariya, tropiklərdə yuxu xəstəliyi, epidemiyalar və s.) mübarizənin uğurundan asılıdır.

***Demoqrafik amillər:*** əhalinin cins və yaş strukturu, nikahların və boşanmaların sayıdır. Məsələn, əhalinin ümumi sayında yaşlıların artması («əhalinin qocalması») doğum göstəricilərinin aşağı düşməsinə səbəb olur.

Yuxarıda nəzərdən keçirilən amillərin doğuma və ölümə təsiri çox vaxt qeyri-müqabil, mürəkkəb və ziddiyyətli olur. Eyni amil əhalinin təkrar istehsalına tam əks istiqamətlərdə təsir göstərə bilər: maddi şəraitin yaxşılaşması, bir tərəfdən, ölüm hallarının, - xüsusilə uşaq ölümünün azalmasına, digər tərəfdən, orta ömrün artmasına, əhalinin «qocalmasına», bu isə ölüm göstəricisinin çoxalmasına gətirib çıxarır. Dünya əhalisinin təkrar istehsal düsturu belədir: doğum 28% - ölüm 10%= təbii artım 18%. Bu göstəriciləri sayca promilledə, yəni 1000 nəfər hesabilə ifadə etmək qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, bu, ən ümumi brutto – əmsallardır. Demoqrafiyada

doğum, ölüm və təbii artım üçün çoxlu xüsusi, daha dəqiq netto – yaş amilləri mövcuddur.

Əhalinin təkrar istehsalının üç əsas tipi mövcuddur:

***I tip*** *– sadə (yaxud, ona yaxın) təkrar istehsal – nəsillərin əvəzlənməsi gedişində əhalinin sayı artmırsa; yaxud məhdud təkrar istehsal – ölənlər doğulanlardan çox olduqda.*

***II tip*** *– geniş təkrar istehsal – sonrakı nəslin sayı əvvəlkinin sayından çox olduqda.*

***III tip*** *– qarışıq tip.*

Birinci tip üçün doğum və ölüm göstəricilərinin aşağı olması səciyyəvidir. Buna müvafiq olaraq, təbii artım da aşağıdır. Birinci təkrar istehsal tipi Şimali Amerika, Avropa ölkələri, Avstraliya, Rusiya, Yaponiya üçün səciyyəvidir. Bütövlükdə, bir sıra ölkələrdə sadə təkrar istehsal qalır. Bunun üçün bütün ailələrin yarısında 2, digər yarısında isə 3 uşaq (2 uşaq, bir növ, valideynləri əvəz edir, 3-cü isə bədbəxt hadisələr, xəstəliklər nəticəsində itkilərin yerini doldurur, sonsuzlarda nəslin olmamasını «kompensasiya» edir) zəruridir. Qeyd etmək lazımdır ki, Almaniya, Belçika, Macarıstan, Rumıniya, Bolqarıstan və digər Avropa ölkələrində təbii artım çox aşağı olduğundan əhalinin təbii azalması, yaxud «demoqrafik böhran» halı baş verir. Hazırda «demoqrafik böhran»ın rekordçusu Rusiyadır. 1999-cu ildə burada göstəricilər belə olmuşdur: doğum - 10%, ölüm – 14,9%, təbii artım 4,9%, «təbii »azalma – 780 min nəfər. Bu tip ölkələrdə doğumun azalması qadınların istehsalatda məşğulluğu, əhalinin qocalması və digər səbəblərlə izah olunur. Məsələn, 1966-cı ildə Yaponiyada doğum birdən-birə 25% azalmışdı. Məlum olmuşdur ki, qədim Şərq təqvimində at və od ili olan həmin il doğulan qız uşaqlarının gələcəkdə ərlərinə bədbəxtlik gətirəcəkləri və heç kəsin onlarla evlənməyəcəyi barədə xəbərdarlıq edilibmiş.

Əhalinin təkrar istehsalının ikinci tipi üçün isə, əksinə, yüksək doğum və təbii artım göstəriciləri səciyyəvidir. Bu tipə malik ölkələrdə yüksək doğum qadınların istehsalata zəif cəlb olunması, erkən nikah, milli ənənələr, dinin təsiri və digər səbəblər ilə izah oluna bilər. İkinci tipə Asiya, Afrika və Latın

Amerikasının inkişaf etməkdə olan ölkələri aiddir. Bu ölkələrdə, müstəqillik əldə ediləndən sonra doğum əvvəlki səviyyədə qaldığı halda, ölümün sayı kəskin surətdə azalmışdır.

XX əsrin 90-cı illərinin əvvəlində doğuma (əhalinin 1000 nəfərinə 54 adam) və təbii artıma (41 nəfər) görə dünya ölkələri arasında Afrika dövləti Keniya lider idi. Keçən əsrin 60-cı illərində əhalinin yüksək təbii artımını bildirən «demoqrafik partlayış» anlayışı meydana gəldi. Həmin illərdə Yer kürəsi tarixində ən yüksək əhali artımı sürəti müşahidə edilmişdi. Bu artım inkişaf etmiş ölkələrdə əhalinin ümumi sayının 9%-ni, inkişaf etməkdə olan ölkələrdə isə 25%-ni təşkil edirdi. Yer kürəsi əhalisinin həddindən artıq çoxalacağına dair proqnozlar meydana gəlsə də, sonrakı demoqrafik vəziyyət bunu təsdiq etmədi. XX əsrin 80-ci illərinə illik artım inkişaf etmiş ölkələrdə artıq 6%, inkişaf etməkdə olan ölkələrdə isə 20% idi. İnkişaf etməkdə olan ölkələrdə yüksək doğum, qəbilənin mövcudluğu üçün doğumun yüksək olmasını tələb edən ibtidai cəmiyyətə gedib çıxan çoxuşaqlılıq ənənələrinin nəticəsidir. Buna dini görüşlər, əxlaq norma və qanunları, adətlər də kömək göstərmişdir. Belə ənənələr indi də mövcuddur: məsələn, Boliviya hindularında çoxuşaqlı analara xüsusi ehtiram göstərilir, çoxuşaqlı dul qadın ən hörmətli gəlin sayılır. Madaqaskarda uşaqlı qadınlara üstünlük verilir. Cənubi Koreyada uşağın cinsinin doğulanadək müəyyənləşdirilməsinin qadağan olunması barədə dövri mətbuatda xəbərlər yayılmışdır. Çünki qız uşaqlarını abort elətdirirlər. Bəzi dinlər çoxuşaqlılığı dəstəkləyirlər. Məsələn, islam və hinduizm çoxuşaqlılığı və erkən evlənməni təbliğ edir. Katolisizm doğumun məhdudlaşdırılmasına pis baxır. Papa ensiklikası müraciəti abortu növbəti dəfə qadağan etmişdir. Buddizmin doğuma təsiri azdır. Çünki bu din o dünyadakı əbədi xoşbəxtliyə nail olmağı dünyəvi həyatda nəsli davam etdirmək borcu ilə əlaqələndirmir. Eyni sözləri istər protestant, istərsə də pravoslav xristianlıq haqqında da demək olar. Doğumun aşağı düşməsinə, əsasən, sosial-iqtisadi amillər təsir göstərir.

**Rifah halının təsiri.** Mütəxəssislər qeyd edirlər ki, rifah ha-

lının səviyyəsi doğuma, hər şeydən öncə, mədəni səviyyə vasitəsilə təsir göstərir. Ailədən kənar maraqların (səyahət, turizm, idman) dairəsi genişlənir, uşaqların saxlanmasına və tərbiyəsinə xərclər artır. Qocaldıqda övladların köməyinə bel bağlamağa ehtiyac qalmır.

İnsanların həyat səviyyəsinin, onların sağlamlığının və əmək qabiliyyətinin əsas meyarı normal qidalanmadır. O, hərtərəfli olmalıdır. Qidanın təqribən 15%-ni zülallar (azı, üçdə biri heyvan mənşəli), 30%-ni yağlar və 55%-ni karbohidrogenlər təşkil etməlidir. BMT-nin məlumatına görə, bəşəriyyətin yalnız üçdə biri kifayət qədər kalorili (sutkada adambaşına 2400 kkal) və keyfiyyətli qida ilə təmin olunmuşdur. Dünya əhalisinin xeyli hissəsi (800-900 milyon nəfər) pis qidalanır, aclıq çəkir. Qidalanma problemi Afrikada kəskin şəkildə durur. Əlverişli şəraitə baxmayaraq, məhsuldar qüvvələrin inkişaf səviyyəsinin aşağı olması üzündən burada ərzaq istehsalı artımı əhali artımından geri qalır.

Bundan əlavə, rifah halı yaxşılaşdıqca orta ömür müddəti də artır, bu isə əhalinin «qocalmasına» və müvafiq olaraq, doğumun aşağı düşməsinə gətirib çıxarır.

Qadınların təhsil səviyyəsinin artması və onların ictimai əməkdə fəal iştirakı doğumun azalmasına böyük təsir göstərir. İbtidai təhsilli qadınlarla müqayisədə ali təhsilli qadınlarda uşaqların sayı, orta hesabla, 2-3 dəfə az olur. Qadınların ictimai istehsala cəlb olunmaları onları doğumun sayını məhdudlaşdırmağa vadar edir. Məsələn, Azərbaycanda işləyənlərin ümumi sayında qadınların payı 44%, Rusiyada 51%, ABŞ-da 44%, Fransada və Yaponiyada 39%-dir. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində bu göstərici 30%-dən çox deyildir.

## Əhalinin təbii artımı



Doğumun aşağı düsməsinə ***urbanizasiya*** da əhəmiyyətli təsir göstərir. Məsələn, Azərbaycanda kənd əhalisi arasında doğum 1,3% çoxdur.

*Kəbinkəsmə yaşı:* qəbilə icmalarında nikah bağlama vaxtı cinsi yetişmə ilə üst-üstə düşür. Hazırda dünyada nikaha girmədə böyük fərqlər müşahidə olunur: Hindistanda, Türkiyədə, Afrika ölkələrində qızlar üçün 14-15 yaş, inkişaf etmiş ölkələrdə qızlar üçün ənənəvi gecikmiş nikahlar 22-25 yaş, Gürcüstan, «qocalmaqda olan qızlar və subay oğlanlar ölkəsi İrlandiiya» üçün 28 yaşdan yuxarı, Azərbaycanda 20-22 yaş səciyyəvidir.

Dünyanın əksər inkişaf etmiş ölkələrində kəbinsiz ailə ittifaqlarının, faktik kəbinlərin, «birgə yaşayış»ın, yəni konsensual evlənmənin sayca artması müşahidə olunur. Belə nikahlar gənclər arasında dəbdədir. Onlar sonralar qeydiyyata alınır, «qanuniləşir», yaxud da pozulur, lakin qeydiyyatı olan keçmiş nikahlar qədər davam edə bilərlər. İqtisadi cəhətdən inkişaf etmiş bəzi ölkələrdə belə nikahdan doğulan uşaqların sayı doğulanların ümumi sayının dörddə birindən yarısına qədərini təşkil edir. Belə ki, bircə valideyn də uşağın rifahını təmin edə bilər. Ona görə də bu hadisəyə ancaq «əxlaqdan yayınma», «mənəvi düşkünlük» kimi yanaşma düzgün olmazdı, hərçənd, bu, ictimai əxlaqda dəyişikliklərdən xəbər verir. Məsələn, Belçikada, Niderlandda rəyi soruşulanların 57%-i sərbəst kəbinlə yaşamağı mənəvi cəhətdən məqbul hesab edir.

Regional iqtisadi inkişaf insan əməyinin səmərəli təşkili ilə təmin edilir. Əhalinin sayı, cins-yaş, təhsil və peşə strukturları onun keyfiyyətini, təbii və mexaniki hərəkəti isə əmək qabiliyyətli əhalinin formalaşmasının əsasını təşkil edir. İqtisadi fəal əhali mühüm potensialdır. Ölkənin təsərrüfatının və onun regionlarının səviyyəsi və səmərəli fəaliyyəti, ilk növbədə, onun həcmindən və istifadə olunma səviyyəsindən asılıdır.

Region əhalisi həm məhsulun istehsalçısı, həm də istehlakçısıdır. Tələbatın formalaşması istehsalın strukturundan, gəlirin səviyyəsindən, insanların adət-ənənələrindən asılı olaraq, konkret təbii mühitdə baş verir. Tələbat əmtəə istehsalçılarının

fəaliyyətinin, bazarların formalaşmasının və işləməsinin, regionların inkişafının başlıca stimuludur.

Ərazi əhalisinin kompleks səciyyələndirilmək üçün onun sayını və dinamikasını, irqi, etnik və dini tərkibini, habelə demoqrafik proseslərin – doğumun, ölümün, təbii artımın, miqrasiya axınının intensivliyini əks etdirən göstəricilər lazımdır. Əhalinin sosial-iqtisadi srukturunu iqtisadi fəal əhali, cins-yaş və peşə tərkibi, məşğulluq kimi göstəricilər də xarakterizə edir. Bütün bu göstəricilər bir-biri ilə və real dünyanın digər hadisələri ilə mürəkkəb qarşılıqlı əlaqədədir.

Ölkələrin və regionların demoqrafik və sosial-iqtisadi inkişafı arasında qarşılıqlı əlaqələrin öyrənilməsi ***geodemoqrafiyanın*** vəzifələrinə daxildir.

***Geodemoqrafiya*** geodemoqrafik vəziyyəti, yəni müəyyən ərazidə demoqrafik proseslər məcmusu və sosial-iqtisadi strukturlar arasında tarixən təşəkkül tapmış durumu öyrənir.

Göründüyü kimi, əhali coğrafiyası və geodemoqrafiya bir-birilə bilavasitə bağlıdır. Onların məqsədi təsərrüfatın və əhalinin regional-sahə tədqiqinin, - həm cəmiyyət, həm də təbiət baxımından, - sintezini təmin etməkdir.

***Geodemoqrafik vəziyyət (situasiya).*** Bu kateqoriya regional demoqrafik vəziyyət və ərazi sosial-iqtisadi sistemləri arasında əlaqələr toplusu kimi başa düşülür. Onun məzmununa müvafiq olaraq, əhalinin ümumi (region üzrə sayı, dinamikası, cins-yaş tərkibi) və xüsusi (təbii və mexaniki hərəkəti) geodemoqrafik göstəriciləri fərqləndirilir.

Demoqrafik vəziyyətin ərazi sosial-iqtisadi sistemdə yerini əks etdirən əlaqələrdə ən ümumi cəhət iqtisadi fəal əhalinin ümumi say göstəricisidir. Bu qrup əlaqələrdə növbəti səviyyəni əmək bazarını və əhalinin məşğulluğunu, - o cümlədən iqtisadiyyatın sahələri və bölmələri üzrə, - xarakterizə edən göstəricilər tutur.

Müəyyən əmək qabiliyyəti yaşında gözlənilən ömür müddəti əsasında müəyyən edilən *nəslin əmək potensialı* və bütün əhalinin məcmu ömür müddəti əsasında təyin olunan *ərazinin demoqrafik potensialını* xarakterizə edən göstəricilər xüsusi

qrup kimi fərqləndirilir. Alınmış göstəricilərdən region sakinləri üçün iş dövrünün orta uzunluq müddətinin (əmək potensialının əhalinin sayına nisbəti kimi) qiymətləndirilməsində istifadə oluna bilər. Əmək potensialının demoqrafik potensiala nisbəti cins-yaş strukturunda əmək qabiliyyətli əhalinin payını əks etdirən iqtisadi-coğrafi indeksi yaradır.

Əhalinin dinamikası və sıxlığı, yaşayış məskənlərinin əhalisinin sayı regional demoqrafik vəziyyətin məskunlaşma sistemi ilə əlaqəsini əks etdirir. Məskunlaşma sistemlərinin, yaşayış məskənlərinin iqtisadi-coğrafi vəziyyəti, həcmi, funksional tipi və inkişaf sürəti baxımından səciyyələndirilməsində onlardan istifadə edilir.

Sosial inkişaf səviyyəsi sosial strukturun, əhalinin yaşayış səviyyəsinin və həyat tərzinin təhlili gedişində müəyyənləşdirilir. Belə ki, xatırlanan kateqoriyaların səciyyələndirilməsində müqayisə olunmaz göstəricilərdən istifadə olunur. Bal, bal-indeks qiymətləndirmə sisteminə, habelə normativ göstəricilərə əl atmaq lazım gəlir.

Geodemoqrafik şəraitin kompleks öyrənilməsində ümumidən tutmuş, xüsusilərə qədər, bütün göstəricilərin sintezindən istifadə olunmalıdır. Əvvəlcə, müxtəlif ərazi səviyyələri (makro-, mezo-, mikro-) üçün geodemoqrafik tipologiyalar yerinə yetirilir, sonra isə hər bir tipin regional inkişafının idarə edilməsi üçün zəruri olan sabit əlaqələr və qanunauyğunluqlar müəyyənləşdirilir.

BMT-nin və YUNESKO-DST-nin «Dünya əhalisi – 1995» məruzəsində göstərilən əsas region qrupları, regionlar və dünya ölkələri üzrə əsas demoqrafik və bəzi sosial və iqtisadi indikatorlara dair məlumatları təhlil edək. Bu göstəricilər sonralar BMT-nin İnkişaf Proqramı, YUNESKO və DST – nin məlumatları ilə təkmilləşdirilmişdir.

BMT-nin və YUNESKO-DST-nin məruzəsindəki az-çox sistemli məlumatları aşağıdakı göstərici qrupları üzrə qruplaşdırmaq olar:

*Ümumi demoqrafik:*

1. Əhalinin ümumi sayı (milyon nəfər, 1995-ci il)

2. Əhali proqnozu (milyon nəfər, 2025-ci il)
3. Şəhərlərin, şəhər əhalisinin payı (%, 1995-ci il)
4. Əhalinin adambaşına düşən Ümumi Daxili Məhsul (ABŞ dolları ilə, 1992-ci il)
5. Bütövlükdə, uşaq ölümü
6. Orta ömür uzunluğu (kişilər/qadınlar)
7. 15-19 yaşlı 1000 qadına görə doğulanların sayı.

Mövqelər (1-7-ci) üzrə region qrupları və dünya regionları üzrə cədvələ baxaq (cədvəl 2.4).

**Cədvəl 2.4**

**Dünya regionları üzrə əsas demoqrafik və onlarla bağlı sosial və iqtisadi indikatorlar**

| Dünya regionları | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| Bütün dünya | 57164 | 82943 | 45 | m.y. | 57 | 63,7/67,8 | 60 |
| İnkişaf etmiş regionlar | 11666 | 12384 | 75 | m.y. | 9 | 71,2/78,6 | 32 |
| Az inkişaf etmiş regionlar | 45498 | 70559 | 38 | m.y. | 63 | 62,4/65,3 | 65 |
| Zəif inkişaf etmiş regionlar | 5754 | 11623 | 22 | m.y. | 102 | 51,5/53,6 | 140 |
| Afrika | 7281 | 14958 | 34 | m.y. | 85 | 52,7/55,7 | 136 |
| Asiya | 3458 | 4960 | 35 | m.y. | 57 | 64,9/67,7 | 45 |
| Avropa | 727,0 | 718,2 | 74 | m.y. | 12 | 69,3/77,3 | 27 |
| Cənubi Amerika | 319,8 | 462,7 | 78 | m.y. | 44 | 66,6/71,8 | 75 |
| Şimali Amerika | 292,8 | 369,6 | 76 | m.y. | 7 | 73,5/80,0 | 60 |
| Avstraliya və Okeaniya | 21,7 | 29,0 | 85 | m.y. | 7 | 75,1/80,9 | 24 |

**Keçmiş SSRİ ölkələri (Baltikyanı ölkələrdən başqa)**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Ermənistan | 3,6 | 4,7 | 69 | 739 | 20 | 70,3/76,3 | 61 |
| Azərbaycan | 7,6 | 10,1 | 56 | 737 | 26 | 68,0/75,5 | 21 |
| Belarus | 10,1 | 9,9 | 71 | 2,926 | 17 | 64,5/75,1 | 28 |
| Gürcüstan | 5,5 | 6,1 | 59 | 853 | 18 | 69,5/77,6 | 51 |
| Qazaxıstan | 17,1 | 21,7 | 60 | 1,677 | 27 | 66,5/75,0 | 35 |
| Qırğızıstan | 4,7 | 7,1 | 39 | 816 | 32 | 66,5/73,8 | 37 |
| Moldova | 4,4 | 5,1 | -52 | 1,293 | 25 | 63,5/71,6 | 38 |
| Rusiya | 147 | 138,5 | 76 | 2,601 | 19 | 61,5/73,6 | 37 |
| Tacikistan | 6,1 | 11,8 | 32 | 683 | 43 | 68,8/74,0 | 34 |
| Türkmənistan | 4,1 | 6,7 | 45 | m.y. | 51 | 63,5/70,0 | 18 |
| Ukrayna | 51,4 | 48,7 | 70 | 1,819 | 16 | 64,2/74,2 | 43 |
| Özbəkistan | 22,8 | 37,7 | 41 | 851 | 38 | 67,5/73,2 | 34 |

İnkişaf etmiş regionlara Şimali Amerika, Yaponiya, Avropa, Avstraliya-Yeni Zelandiya, keçmiş Sovet İttifaqı respublikaları daxildir.

Daha az inkişaf etmiş regionlara Afrika, Latın Amerikası, Asiya (Yaponiyadan başqa), habelə Melaneziya, Mikroneziya və Polineziya (Okeaniya) ölkələri daxildir. Zəif inkişaf etmiş ölkələr qrupu BMT-nin standartlarına uyğun ayırd edilmişdir.

Əhalinin ümumi sayında zəif inkişaf etmiş ölkələrin böyük üstünlüyü göz qabağındadır. Sayca az olan kiçik zəif inkişaf etmiş ölkələr qrupu da buraya qoşulur. İnkişaf etmiş regionların əhalisinin sayı 2025-ci ilədək az artacaqdır (1,17 milyarddan 1,24 milyardadək). 1995-2000-ci illərdə dünyada orta əhali artımı 1,5% təşkil etmişdir. İnkişaf etmiş regionlarda şəhər əhalisi artır (artım sürəti, müvafiq olaraq, 2,5; 0,7; 3,3; 5,2%-dir). Şəhər əhalisinin dünyada payı 45%, inkişaf etmiş ölkələrdə 75%, az inkişaf etmiş ölkələrdə 38%, zəif inkişaf etmiş ölkələrdə 22%-dir.

Avropa əhalisi (MDB respublikalarından başqa) 2025-ci ilədək 727 milyondan 718 milyonadək azalacaqdır. Şərqi və Cənubi Avropa, Rusiya, Ukrayna, Belarus hazırda depopulyasiya zonasına daxil olmuşlar və proqnozlara görə, bu zonada qalacaqlar. Dünyanın bütün qalan regionlarında əhali artacaqdır.

Bəşəriyyətin bütün tarixi boyu əhali sayının artım sürəti yüksəlmişdir. Paleodemoqrafların ehtimalına görə, Paleolitin sonunda Yer kürəsində 3 milyona yaxın insan olmuşdur. Bu insanların hamısı bir neçə milyon hektar ərazidə yaşamışdır. Əhalinin həyatı vəhşi heyvan, quş, balıq ovlamaq, yeməli otlar, meyvə, ağac qabığı toplamaq imkanından birbaşa asılı olmuşdur. İbtidai əmək alətləri yaşamağa ümid vermirdi. Aclıq, soyuq, vəhşi heyvanlar tez-tez bütöv qəbilələri məhv edirdi.

Demoqrafik hesablamalara görə, bəşəriyyətin oturaq həyat tərzinə keçməyə, əkinçilik və maldarlıqla məşğul olmağa başladığı 9-10 min il bundan əvvəl planet əhalisinin sayı 5-10 milyon nəfər təşkil edirdi. Əhali bu saya 600 min il ərzində gəlib çatmışdı. Eyni ərazidə ovçuluqdan 20 dəfə səmərəli olan maldarlığın, sonra isə maldarlıqdan 20-30 dəfə məhsuldar olan

əkinçiliyin meydana gəlməsi insanların həyatı üçün yeni imkanlar yaratdı, əhali artımını sürətləndirdi. Neolit dövrü ərzində bəşəriyyət 50 milyon nəfərə qədər artdı, yeni eranın əvvəlində isə Yer kürəsində artıq 160 milyon nəfərdən çox adam yaşayırdı.

Yer əhalisi 1800-cü ildə 952 milyona, 120-130 ildən sonra 2 milyarda, cəmi 30 ildən sonra 3 milyarda, daha 20 ildən sonra isə 4,5 milyard nəfərə çatmışdı. XX əsrin ikinci yarısında əhali sayının artımı elmi-texniki inqilab dövrünə təsadüf etdi və partlayış adlandırıldı (cədvəl 2.5).

**Cədvəl 2.5**

**Dünya əhalisi sayının dinamikası**
**(F. Baadenin məlumatına görə)**

| Dövrlər | Əhalinin sayı, milyon nəfər hesabilə |
|---|---|
| e.ə. 7000-4500-cü illər | 10-20 |
| e.ə. 4500-2500-cü illər | 20-40 |
| e.ə. 2500-1000-ci illər | 40-80 |
| e.ə. 1000-0- cı illər | 80-160 |
| 0-900-cü illər | 160-300 |
| 900-1700-cü illər | 300-600 |
| 1700-1850-ci illər | 600-1200 |
| 1850-1950-ci illər | 1200-2500 |
| 1950-1976-cı illər | 2500-4000 |
| 1976-1990-cı illər | 4000-5400 |
| 1999- cu il | 6000 |

Planetin əhalisi e.ə. 7000-ci ildən eramızın 1980-ci ilinədək (8980 il ərzində) 450 dəfə artmışdır. Aşağıdakı müqayisə də çox maraqlıdır: əhalinin sayı 1 milyarddan 2 milyarda 107 ilə, 2 milyarddan 3 milyarda 32 ilə, 4 milyarda 15 ilə, 5 milyarda isə 13 ilə çatmışdır. İlk vaxtlarda əhalinin ləng artımı məhsuldar qüvvələrin aşağı səviyyədə olması və insanın təbiətdən xeyli asılılığı ilə izah edilir. Bu sürət elmi-texniki tərəqqinin inkişafı ilə artmışdır. XX əsrin son rübündə dünya əhalisi sayının coşqun surətdə artımı müşahidə olunur: ildə 1,7-1,8%, o cümlədən inkişaf etmiş ölkələrdə 0,8-1%, qalan ölkələrdə 2-

2,5%. BMT-nin Demoqrafiya Komissiyasının proqnozlarına görə, XXI əsrin ortalarında dünyada 11,5 milyard insan yaşayacaqdır.

Zəif inkişaf etmiş ölkələrdə əhalinin artım sürəti iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdəkindən 2,5-2,8 dəfə çoxdur və bu fərq hər iki tərəfdən artır: zəif inkişaf etmiş ölkələrin əhalisinin artım sürəti yüksəlir, inkişaf etmiş ölkələrdə isə aşağı düşməkdə davam edir. Bir sıra ölkələrdə (Danimarka, İsveç, Böyük Britaniya, Avstriya, Belçika, AFR, Lüksemburq, İsveçrə, Rusiya) əhalinin sayı nəinki artmır, əksinə, mütləq aşağı düşür. Doğuma ciddi nəzarət edilən Çində əhali artımı xeyli azalmışdır. Əhalinin ən böyük artım sürəti Latın Amerikası, Cənubi Asiya və Afrika ölkələrində müşahidə olunur. Latın Amerikasında yüksək əhali artımı olan ölkələr materikin mərkəzində yerləşir: Meksika, Salvador, Nikaraqua, Honduras, Dominikan Respublikası, Venesuela, Qayana, Ekvador, Kolumbiya, Peru, Paraqvay. Braziliyada və Boliviyada əhali artımı bir qədər azdır (2,5-2,7%). Asiya ölkələri arasında əhalinin artım sürətinə görə Filippin, Tailand, Bruney, Banqladeş, Malayziya, Pakistan fərqlənir; Hindistanda, Nepalda, Birmada, İndoneziyada əhalinin artımı bir qədər aşağıdır. Afrikada ən yüksək doğum olan region Qərbi Afrikadan – Qvineyadan Maliyə, oradan da Nigerə və Nigeriyaya doğru uzanır. Konqo çayı hövzəsində əhali artımı xeyli aşağıdır.

### 2.4. Cins-yaş strukturu və ailə tərkibi

**Cins-yaş strukturu** əhalinin ən mühüm xarakteristikalarındandır. Coğrafiyaşünaslar və iqtisadçılar ölkələrin və bölgələrin əhalisinin yaş və cins tərkibinin öyrənilməsinə böyük əhəmiyyət vermişlər. Əhalinin yaş və cins tərkibi haqqında məlumatlar əmək ehtiyatlarının, uşaqların, təqaüdçülərin hesablanmasında zəruridir. Oğlan uşaqlarının doğum göstəriciləri, bir qayda olaraq, qızların doğum səviyyəsini bir qədər üstələyir və ildə 100 qız müqabilində 104-107 nəfər təşkil edir. Lakin 30 yaşınadək kişi və qadın əhalisinin nisbəti bərabərləşir. Bu, kişi cinsinə mənsub şəxslər arasında ölüm hallarının

daha çox olması (xeyli bədbəxt hadisələr, dövlət daxilində və onun hüdudlarından kənarda hərbi əməliyyatlarda iştirak nəticəsində) ilə bağlıdır. 40 yaşından etibarən qadın əhalisi sayca kişiləri üstələməyə (istehsalat travmaları, alkoqola aludəlik, erkən evlənmə, ağır əmək, lazımınca qidalanmama, cəmiyyətdə qeyri-bərabər mövqe ilə bağlı ölüm hallarının çoxalması nəticəsində) başlayır.

Bütün dünyada kişilərin sayı qadınların sayından 20-30 milyon çoxdur. Lakin bu ümumi faktın arxasında gizlənən fərqlər olduqca böyükdür.

Əvvəla, onlar dünya əhalisinin müxtəlif yaş qruplarına aiddir (cədvəl 2.6). Yuxarıda göstərildiyi kimi, istər, bütövlükdə dünyada, istərsə də, istisnasız olaraq, bütün regionlarda uşaqlıq yaşlarında kişilərin say üstünlüyünü görmək çətin deyildir. Bu, onunla izah edilir ki, dünyada hər il qızlardan təqribən 4 milyon çox oğlan doğulur. Əmək qabiliyyətli yaşlarda belə bu üstünlük saxlanır. Lakin regionların yarısında üstünlük qadınların xeyrinə dəyişir. Ahıl yaşlara gəldikdə isə bu qrupda üstünlük hər yerdə qadınların tərəfindədir.

**Cədvəl 2.6**

**90-cı illərin ortalarında dünya əhalisinin cinsə görə strukturu (1000 nəfər qadına nisbətdə kişilərin sayı)**

| Bütün dünya, iri regionlar | Cəmi | o cümlədən yaş etibarilə | | |
|---|---|---|---|---|
| | | 0-14 | 15-65 | 65 və daha yaşlı |
| Bütün dünya | 1009 | 1040 | 1020 | 742 |
| MDB | 891 | 1029 | 937 | 444 |
| Xarici Avropa | 952 | 1060 | 1000 | 649 |
| Xarici Asiya | 1042 | 1050 | 1049 | 879 |
| Afrika | 986 | 1008 | 979 | 889 |
| Amerika | 982 | 1029 | 990 | 741 |
| Avstraliya, Okeaniya | 1016 | 1059 | 1039 | 818 |

İkincisi, bu fərqlər ayrı-ayrı regionlara da aiddir. MDB-də qadınların kəskin şəkildə üstünlüyü – təqribən 16-17 milyon, - hər şeydən öncə, Birinci Dünya müharibəsinin, vətəndaş müharibəsinin, xüsusilə İkinci Dünya müharibəsinin, son vaxt-

larda MDB-nin bir çox regionlarında baş verən münaqişələrin təsiri, habelə MDB ölkələrində qadınların orta ömür müddətinin xeyli çox olması ilə izah edilir. Xarici Avropa əhalisinin cins tərkibinə də təqribən eyni səbəblər təsir göstərmişdir. İrlandiya və İslandiya istisna olmaqla, bu ölkələrin hamısında qadınlar sayca üstünlük təşkil edirlər. AFR-də və Avstriyada onlar sayca xüsusilə üstündürlər. Cənub-Şəqi Asiyada isə, əksinə, demək olar, hər yerdə kişilər çoxdur. Yalnız Yaponiya, İndoneziya, Myanma, Yəmən, İsrail və Kipr istisna təşkil edir.

Kişilər sayca ən çox Cənubi və Şərqi Asiyada üstündürlər (Hindistanda – 24 milyon, Pakistanda - 4,5 milyon, Çində -31 milyon). Kişilərin sayca üstünlüyü Cənub-Qərbi Asiyanın bütün ərəb-müsəlman ölkələri üçün səciyyəvidir. Afrika ölkələri üçün əhalinin cins-yaş tərkibində ciddi tərəddüdlər səciyyəvi deyil və onların böyük əksəriyyətində kişilərlə qadınların sayı təqribən bərabərdir.

Nisbətən yeni məskunlaşma və kütləvi immiqrasiya axını regionu kimi, Şimali Amerikada kişilər uzun müddət sayca üstünlük təşkil etmişlər. Lakin yaş tərkibi kamilləşdikcə, əvvəlcə ABŞ-da, ötən əsrin 70-ci illərində isə Kanadada qadınların üstünlüyü nəzərə çarpmağa başladı. Bu, xüsusilə ahıl yaşlılara aiddir. Afrikada olduğu kimi, Latın Amerikasında da kişilərlə qadınların sayı, təqribən, bərabərdir. Ayrı-ayrı ölkələrdə də cinsi strukturda böyük fərqlər yoxdur. Hazırda, demək olar, bütün ölkələrdə qadınlar üstünlük təşkil etsələr də, bu üstünlük çox da böyük deyildir. Kütləvi immiqrant axınının davam etdiyi ölkə olan Avstraliyada kişilər, Kanadadakı kimi, 70-ci illərin əvvəlinə qədər üstünlük təşkil edirdilər. Sonralar isə qadınların azacıq üstünlüyü yarandı.

Əhalinin yaş üzrə təsnifatı iki əlamətə – bioloji və iqtisadi əlamətlərə görə aparılır. Birinci əlamət üzrə əhali istehsaledici yaşa (qadınlar üçün tertil – 15-49 yaş arasında müəyyən edilir), yeniyetmə (15 yaşadək) və ahıl (50 yaşdan sonra) yaşa görə bölünür. İkinci əlamət üzrə əhali əmək qabiliyyətli (Azərbaycanda qadınlar üçün 16-dan 57,5 yaşınadək, kişilər üçün 16-dan 62,5 yaşınadək), əmək qabiliyyətini itirmə və əmək

qabiliyyətindən sonrakı yaşlara görə bölünür.

Hazırda Avropanın əksər ölkələrində uşaqların sayı 20%-dən azdır. Afrika, Cənubi Asiya, Latın Amerikası ölkələrində bunun əksi olan vəziyyət müşahidə edilir: əhalinin yüksək təbii artımı əmək qabiliyyətinə qədərki əhali faizinin son dərəcə artmasına (40%-dən çox) gətirib çıxarır. Bütövlükdə, dünya üzrə 60 yaşlılar qrupunun və daha yaşlıların artım sürəti, bütün əhalinin, habelə hər hansı digər yaş qrupunun artım sürətindən yüksəkdir. Əhalinin qocalması, Afrika istisna olmaqla, bütün qitələrdə baş verir.

Əmək qabiliyyətli əhalinin başlıca səciyyəsi əhalinin ümumi sayında ***iqtisadi fəal əhalinin*** – yəni, onun ictimai faydalı əməklə məşğul olan, yaxud fəal iş axtaran hissəsinin payı ilə müəyyən edilir. İşləməyə ehtiyacı olanların sayı, adətən, bir neçə faizlə ölçülür, əslində isə işsizlik böyükdür (gizli işsizlik). İşsizlik aqrar yönlü təsərrüfata malik ölkələrdə daha çoxdur: kənd yerlərində, torpağın qıt olduğu məkanlarda tez-tez artıq işçi qüvvəsi yaranır.

İnkişaf etmiş ölkələrdə iqtisadi fəal əhalinin xeyli hissəsi xidmət sahəsində çalışır. Məsələn, 1990-cı illərin əvvəlində ABŞ-da işləyənlərin cəmi 3%-i kənd və meşə təsərrüfatında, 28%-i sənayedə və tikintidə, 69%-i isə qalan sahələrdə məşğul idi. Müqayisə üçün deyək ki, Şərqi Avropa ölkələrində xatırlanan üç məşğulluq sahəsində təqribən eyni sayda – hər birində üçdə bir qədər adam işləyirdi.

***Əhalinin yaş strukturu***, hər şeydən əvvəl, keçmişdə və hazırda təkrar istehsalın xüsusiyyətindən asılıdır. Bu isə iki tip ölkələr – inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında bir daha fərq qoymaq imkanı verir. İnkişaf etmiş ölkələrdə əhalinin yaş strukturu uşaqların xüsusi çəkisinin aşağı olması (adətən, əhalinin beşdə birindən azı), əmək qabiliyyətli əhalinin və orta ömrün uzun olması nəticəsində ahıl yaşdakıların çoxluğu (ümumi sayın beşdə biri qədər) ilə səciyyələnir. Əhalinin təbii hərəkətinin yüksək olduğu inkişaf etməkdə olan ölkələrdə uşaqların payı çox, xüsusilə nəsillərin sürətlə dəyişdiyi və orta ömür müddətinin aşağı olduğu ölkələrdə ahıl yaşlı

## Əhalinin cinsə görə tərkibi



əhalinin sayı azdır. Məsələn, Keniyada uşaqlar əhalinin 51%-ni, əmək qabiliyyətli yaşda olanlar 45%-ni, əmək qabiliyyətlilərdən yaşlı olanlar isə 4%-ni təşkil edirlər. Almaniyada bu nisbət, müvafiq olaraq, 16%, 64%, 20% təşkil edir (cədvəl 2.7).

Əhalinin cins-yaş tərkibi haqqında əyani təsəvvürü onun qrafik təsviri olan cins-yaş piramidası verir. Piramidanın cizgiləri əsasında təkrar istehsalın tipi haqqında da nəticə çıxarmaq olar. I *tip* təkrar istehsalda – artım sabit, yaş strukturu dəyişməz olduqda fiqur dar uzunsov şəkil alır, əhali azaldıqda, yaş strukturu tənəzzülə uğradıqda aşağıya doğru daralır. II *tipdə* – sadə yaş strukturunda isə piramida üçbucaqlı olur. Miqrasiya əhalinin cins strukturuna təsir göstərir. Məsələn, Küveytdə kişilərin qadınlardan çoxluğu bununla izah olunur. Şəhər və kənd, məskunlaşdırılmaqda olan və məskunlaşdırılmış bölgələrin əhalisinin cins strukturundakı fərqlər də xeyli dərəcədə miqrasiya ilə bağlıdır.

**Ailə tərkibi.** *Ailə qan qohumluğu, yaxud hüquqi qohumluqla və ümumi büdcə ilə bağlı olub, birgə yaşayan şəxslər qrupudur.* BMT-nin tövsiyəsinə müvafiq hazırlanmış həmin tərif, bu və ya digər variantlarda, dünyanın əksər ölkələrində tətbiq olunur.

**Cədvəl 2.7**

**1999-cu ildə MDB və Baltikyanı ölkələrin əhalisinin yaş strukturu, %-lə**

| № | Respublikalar | Əhalinin ümumi sayında payı | | |
|---|---|---|---|---|
| | | Əmək qabiliyyətli əhaliyə qədər | Əmək qabiliyyətli əhali | Əmək qabiliyyətli əhalidən yaşlılar |
| 1 | Rusiya | 24,5 | 57,0 | 18,5 |
| 2 | Ukrayna | 23,0 | 55,8 | 21,2 |
| 3 | Belarus | 24,5 | 56,0 | 19,5 |
| 4 | Özbəkistan | 42,9 | 49,1 | 8,0 |
| 5 | Qazaxıstan | 33,7 | 55,1 | 11,1 |
| 6 | Gürcüstan | 26,3 | 56,3 | 17,4 |
| 7 | Azərbaycan | 34,7 | 55,4 | 9,9 |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Litva | 24,1 | 56,9 | 19,0 |
| 9 | Moldova | 29,6 | 55,1 | 15,3 |
| 10 | Latviya | 22,7 | 56,5 | 20,8 |
| 11 | Qırğızıstan | 39,6 | 50,3 | 10,1 |
| 12 | Tacikistan | 45,1 | 47,3 | 7,6 |
| 13 | Ermənistan | 32,0 | 56,2 | 11,8 |
| 14 | Türkmənistan | 42,7 | 49,7 | 7,6 |
| 15 | Estoniya | 23,7 | 56,2 | 20,1 |

Ailələr üzvlərinin sayına, tərkibinə, əhalinin təkrar istehsalında iştirakına görə müxtəlifdir. Ailə tipologiyasının bir neçə variantı mövcuddur. Məsələn, tam (ər-arvad uşaqları, habelə valideynləri və digər qohumları ilə), natamam (uşaqları olmayan ər-arvad; valideynlərdən biri və uşaqlar), sadə və mürəkkəb ailələr fərqləndirilir. Lakin inkişaf etmiş bəzi ölkələrdə valideynlərin və onların evli övladlarının ailələri ayrı-ayrılıqda götürülür. Bəzi ölkələrdə isə 20 yaşını ötüb, nikahda olmayan kişilər, yaxud qadınlar əhalinin siyahıya alınması zamanı bir nəfərdən ibarət böyük «ailə» sayılır.


a) Banqladeş
b) Vyetnam
v) AFR
q) İrlandiya
Yaş, il
Pay, %
Kişilər
Qadınlar


%
Kişilərin sayı
Yaş qrupları
Qadınların sayı
0,6
1,3
2,7
4,3
5,7
8,0
9,3
18,0
70
60-69
50-59
40-49
30-39
20-29
10-19
0-9
0,7
1,3
2,6
3,9
5,8
8,2
10,0
17,6
2600
1950
1300
650
0
650
1300
1950
2600


%
Kişilərin sayı
Yaş qrupları
Qadınların sayı
3,7
3,4
5,8
7,4
6,9
8,4
6,8
5,4
70
60-69
50-59
40-49
30-39
20-29
10-19
0-9
7,4
5,4
6,1
7,2
6,6
7,9
6,5
5,1
6800
5100
3400
1700
0
1700
3400
5100
6800

Statistikada «ailə» əlamətinə görə əhalinin üç kateqoriyası ayırd edilir: ailədən ayrı yaşayan, lakin onunla müntəzəm maddi əlaqə saxlayan ailə üzvləri – 6%; tənha yaşayanlar, yəni ailəsi ilə əlaqəsini itirmiş, yaxud ailəsi olmayanlar – 4%. Adətən, ayrı və tənha yaşayanlar təhlil zamanı birləşdirilir – 9%. Ölkəmizdə növbəti siyahıyaalmalarda bu göstərici, demək olar ki, dəyişmir.

Ailənin orta həcm göstəricisi ölkələr üzrə hesablanır. Məsələn, bu rəqəm Tacikistanda 5,8, Türkmənistanda və Özbəkistanda 5,6 -dırsa, İsveçdə 3,05, Rusiyada 3,2, Azərbaycanda isə 4,2 nəfər cıvarındadır.

## 2.5. Demoqrafiya anlayışı. Demoqrafik siyasət və demoqrafik şərait

***Demoqrafik siyasət*** əlverişli şəraitdə mövcud meylləri qoruyub saxlamaq, vəziyyət əlverişli olmadıqda isə onları dəyişdirmək məqsədilə dövlətin demoqrafik proseslərə məqsədyönlü təsir vasitəsidir. XIX əsrdə bu siyasəti stimullaşdırmaq cəhdlərinin göstərildiyi ilk ölkə Fransa olmuşdur. Ötən əsrin 90-cı illərində belə ölkələrin sayı 130-a (iqtisadi cəhətdən inkişaf etmiş bütün ölkələr və inkişaf etməkdə olan təqribən 80 ölkə) çatmışdı. Bu siyasət, bir qayda olaraq, birinci tip təkrar istehsal ölkələrində doğumun artırılmasına, ikinci tip ölkələrdə isə aşağı salınmasına yönəldilmişdir. Şərqi Avropa ölkələri 80-ci illərin sonunadək xüsusilə fəal demoqrafik siyasət yeridirdilər. Gənc ailələrə birdəfəlik ssuda verilməsi, hər doğulan uşağa görə müavinət, hamiləlik dövründə və doğumdan sonra uzunmüddətli məzuniyyət, habelə uşaqların məktəbəqədər müəssisələrdə yerləşdirilməsi əsas tədbirlərdən idi. Bununla yanaşı, bütün Şərqi Avropa ölkələrində aborta icazə verilirdi. 80-ci illərdə Azərbaycanda da demoqrafik siyasət sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir: ilk uşaq üçün 50, ikinci uşaq üçün isə 100 manat birdəfəlik müavinət, körpələrə baxmaq üçün 1,5 illik ödənişli məzuniyyət verilirdi. Qərbi Avropa ölkələrində də, müxtəlif ödəniş növlərinin

həcmində və digər güzəştlərdə müəyyən fərqlərə baxmayaraq, ümumən, oxşar tədbirlər sistemi mövcuddur.

Məsələn, uşaq doğularkən AFR-də 100 marka, Böyük Britaniyada 25 funt sterlinq, Fransada 2600 frank, İspaniyada 3000 peseta məbləğində birdəfəlik müavinət verilir. AFR-də hər ilk uşağa görə 50, ikinci uşağa görə 100, üçüncü və hər sonrakı uşağa görə 200 marka aylıq müavinət verilir. Fransada bu qəbil aylıq müavinətlər iki uşağa görə 500 frankdan altı uşağa görə 3000 franka qədər artır. Cənub-Şərqi Asiyada ailənin planlaşdırılması proqramı bütün əhalinin 90%-nin yaşadığı ölkələri əhatə edir. Onların arasında Yaponiyada və Çində, habelə Hindistanda aparılan ən radikal demoqrafik siyasət nümunəvi sayıla bilər. Məsələn, Çində keçirilən bir sıra tədbirlər nəticəsində təbii artım 1968-ci ildəki 28%-dən 2002-ci ildə 10-12%-ə düşmüşdür. Bu ölkələrdə nikah yaşı artırılmış, 1-2 uşaqlı ailə təbliğ olunur, əhali könüllü surətdə sterilizasiya edilir, hamiləliyin qarşısını alan vasitələr geniş təbliğ edilir, ali təhsil dövründə evlənmək qadağan olunurdu. Çoxuşaqlılığın din tərəfindən təbliğ olunduğu ərəb-müsəlman ölkələrində, habelə Afrikanın zəif inkişaf etmiş bir çox ölkələrində əhalinin azaldılmasına yönəldilmiş demoqrafik siyasətin nəticələri aşağıdır. Milli və dini ənənələr, bütövlükdə, qadınların alçaldılmış vəziyyəti, ailədə qərar qəbul edilməsində kişinin mütləq hüququ – bütün bunların nəticəsində bu regionda demoqrafik siyasətin fəallığı son dərəcə aşağıdır. Bu vəziyyət kəskin əhali sıxlığından əziyyət çəkən ölkələrə, məsələn, Banqladeşə, Misirə, habelə Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Liviya və ümumiyyətlə, doğumun hər hansı şəkildə məhdudlaşdırılmasının əleyhinə çıxan nisbətən az əhalisi olan bəzi digər ölkələrə də aiddir. Burada təkcə islam ehkamları deyil, həm də öz əhalisinin sayını maksimum artırmaq, hipertrofik şəkil almış əcnəbi işçi axınının qarşısını almaq istəyi də öz təsirini göstərir.

Beləliklə, dünyanın ayrı-ayrı ölkələrində müxtəlif demoqrafik meyllər mövcuddur. Onlar doğum göstəricilərinin son dərəcə aşağı, eyni zamanda, çox yüksək olduğu ölkələrdə əlverişsiz sayılır. Zəif inkişaf etmiş ölkələrdə yüksək doğum göstə-

riciləri iqtisadi inkişafı əngəlləyir. Belə ki, sərmayələr bu ölkələrin sosial-iqtisadi inkişafına deyil, əhalinin ilbəil artımının ödənilməsinə sərf olunur. Getdikcə daha çox dövlət əhali artımına təsir göstərən tədbirlər görürlər. Bir sıra dövlətlər bu artımı azaltmaqda, bir qismi isə onu yüksəltməkdə maraqlıdır. Əhali artımının bir neçə amilin nəticəsi olmasına baxmayaraq, tədbirlərin əksəriyyəti, müstəsna olaraq, doğuma, yaxud doğumun bu ölkə üçün əlverişli olan optimal xarakterini təmin edən amillərə doğru yönəldilmişdir. Əhali siyasəti, bir qayda olaraq, ayrı-ayrı milli qurumlar, ayrı-ayrı dövlətlər səviyyəsində aparılır. Hərçənd, onun tədbirləri bütün dünya və onun hər bir regionu üçün məqbul şəkildə işlənib hazırlana bilər.

Son vaxtlar daha çox dövlət demoqrafik siyasət sahəsində kompleks tədbirlər həyata keçirir və doğumun səviyyəsini yüksəltməklə yanaşı, ölümün də səviyyəsini azaltmağa çalışırlar.

Demoqrafik siyasət tədbirləri istər ölkədaxili, istərsə də ölkələr arasında miqrasiyaya təsir göstərir. Bir sıra dövlətlər, ilk növbədə, ailənin möhkəmlənməsinə yönəldilmiş siyasət yeridirlər. Ancaq belə çoxşaxəli demoqrafik siyasətlə bağlı geniş tədbirlər az-az ölkələrdə həyata keçirilir. Onların çoxunda bu siyasət doğuma təsir göstərmək üçün nəzərdə tutulur və yəqin ki, bu vəziyyət yaxın gələcəkdə də davam edəcəkdir.

Doğumla bağlı tədbirləri iki qrupa bölə bilərik. Bir tərəfdən, bu, doğumun təbliğinə yönəldilmiş tədbirlərdir. Bu tədbirlər, daha çox, doğumun aşağı olduğu, lakin iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə aparılır. Digər tərəfdən, bunlar doğumun azaldılmasına yönəldilmiş tədbirlərdir. Onlar bir çox inkişaf etməkdə olan ölkələrdə həyata keçirilir.

Doğumun təbliğinə yönəldilmiş siyasətin xarakterini nəzərdən keçirək. O, pronatalik siyasət adlandırılır. Bir çox məlumatlara görə, heç bir Avropa ölkəsi (Türkiyədən savayı) öz əhalisinin artım sürətini çox da yüksək saymır.

İki meyar nəzərdən keçirilir. ***Birincisi:*** doğumun uzunmüddətli tənəzzülünü dayandırmaq, yaxud əhalini sadə əvəzlənmə səviyyəsində sabit saxlamaq mümkün olduqda doğum sahəsin-

də siyasət uğurlu hesab edilir. Doğumun az olduğu ölkələrdə məsələ belə qoyulur.

***İkincisi:*** sabitləşmə orta (sadə) əvəzlənmə səviyyəsindən aşağı səviyyədə təmin olunduqda siyasət uğurlu sayıla bilər. Lakin bu halda, eyni sosial-iqtisadi inkişaf səviyyəsində olan digər ölkələrdə doğum səviyyəsi daha aşağı olur.

Avropanın əksər dövlətləri sosial və iqtisadi inkişafın vəziyyətini nəzərə alaraq, orta ömür müddətinin uzunluğundan razıdırlar. Bu da təəccüblü deyil. Çünki Avropada orta ömür müddətinin səviyyəsi dünyada ən yüksək yerlərdən birini tutur (ancaq Yaponiyadan geri qalır). Bəzi dövlətlər orta ömür müddətini qənaətbəxş saymır. Bunlar Albaniya, İtaliya, Yunanıstan, Polşa, Böyük Britaniya və keçmiş Yuqoslaviya hökumətləridir. Son vaxtlar Şərqi Avropa ölkələri və son illər ərzində orta ömür müddəti ildə bir il azalan keçmiş Sovet İttifaqı ölkələri də onlara qoşulmağa başlayır.

Avropada demoqrafik siyasətdə iki istiqamət üstünlük təşkil edir:

1. Dövlət uşaqların tərbiyəsinin hansısa bir hissəsini öz öhdəsinə götürür. Milli gəlirin müəyyən hissəsi ailəyə kömək üçün ayrılır. Bu halda, maliyyə müavinətləri pulla, yaxud natural şəkildə olur. Birinciyə ailəni birbaşa dəstəkləmək tədbirləri daxildir: sosial sığorta müavinətləri, mükafatlar, uşaqların saxlanmasına yönəldilmiş müxtəlif növ güzəştlər. Güzəştlər və əlverişli şərtlərlə kredit almaq imkanı formasında olan kömək də buraya daxildir.

Natural maliyyə müavinətlərinə dövlətin milli gəlirdən səhiyyəyə və təhsilə kömək üçün ayırdığı vəsait aiddir. Beləliklə, o, ailənin inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilmişdir.

2. Ailəyə və onun vasitəsilə doğuma təsir göstərmək üçün nəzərdə tutulan siyasət xüsusilə seçilir. Bu siyasətin tədbirləri heç də həmişə əhali siyasətinin tərkib hissəsi olmur. Hər şey dövlətin qarşısına qoyduğu məqsəddən asılıdır. Bəzi dövlətlər bu tədbirləri ailəni möhkəmləndirmək, digərləri sosial inkişafı gücləndirmək, üçüncülər isə demoqrafik şəraiti yaxşılaşdırmaq

məqsədilə həyata keçirirlər. Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçirilir:

- analara müavinətlər verilməsi (doğum zamanı birdəfəlik);
- analara doğumdan sonra verilən məzuniyyət;
- uşağa baxmaq üçün məzuniyyət;
- ailə müavinətləri (əmək haqqına əlavələr); vergitutmada güzəştlər;
- işləyən anaların iş gününün qısaldılması;
- uşaq müəssisələri şəbəkəsinin formalaşdırılması və onlarda istəyənlərin hamısına pulsuz, yaxud güzəştli məktəbəqədər tərbiyə verilməsi;
- mənzil güzəştləri;
- sosial xidmətlər;
- uşaqlar müəyyən yaşa çatana qədər müntəzəm olaraq aylıq məbləğin ödənilməsi.

Doğumu təbliğ siyasəti yeridən ölkələrdə, tək analar da daxil olmaqla, gənc ailələrə mənzil problemlərinin həllində kömək edən mənzil güzəştləri də mövcuddur. Müxtəlif formalar vardır. Aşağı mənzil haqqı ilə ev almaq olar, uşaqlı və gənc ailələr ev almaq, yaxud tikdirmək üçün aşağı faizlə kredit götürə bilərlər. Bəzi ölkələrdə ev borcunu ödəməyə imkan verən mənzil müavinətləri mövcuddur. Çünki Avropada, mənzil, bir qayda olaraq, möhlətlə alınır. Gənc ər-arvada uzunmüddətli borc verilə bilər. Belə borclar çox vaxt faizsiz olur.

Biz bu tədbirləri nə üçün demoqrafik tədbirlər hesab edirik? Çünki istiqrazla götürülən bu borclar uşaq doğularkən silinə bilər. Ev almaq üçün götürülən borclar nikah bağlanarkən verilə bilər. Bəzi ölkələrdə belə borcların verilməsinə nikah bağlayanların yaşına görə məhdudiyyət qoyulur: borc gənc ailələrə verilir.

Çexiyada, Fransada və İsveçdə gəlirləri müəyyən səviyyədən aşağı olan uşaqlı ailələrə renta müavinətləri və mənzil haqqında güzəştlər təyin edilmişdir.

Pronatalitik demoqrafik siyasət öz əksini daha çox iki ölkə-

də – İsveçdə və Fransada tapmışdır.

Fransada bu siyasət sayəsində bir müddət demoqrafik tənəzzülün qabağını almaq mümkün olmuşdur. İsveçdə isə məhz bu siyasət sayəsində doğumun məcmu əmsalı 2,10-dur. Bu, çox zəngin tədbirlər dairəsini əhatə edir. Gənc ailələrə mənzilin açarları verilən ölkə vardır. Bu ölkə İslandiyadır. Avropa ölkələrində demoqrafik vəziyyət və bu sahədə aparılan siyasət inkişaf etmiş, yəni iqtisadi cəhətdən zəngin ölkələrin əksəriyyəti üçün səciyyəvidir.

Hazırda MDB-də, xüsusilə Azərbaycanda sosial-iqtisadi vəziyyət, o cümlədən demoqrafik şərait xüsusi maraq doğurur (cədvəl 2.8).

MDB ölkələrində 100-dən çox millət və xalq yaşayır. Onların 50-dən çoxu ənənəvi olaraq xristianlığa, 40-a yaxını isə islam dininə etiqad edir və aralarında sayca ən çox olanları ruslar, ukraynalılar, özbəklər, beloruslar, qazaxlar, tatarlar, azərbaycanlılar, gürcülər, taciklər, türkmənlər, qırğızlar, moldovanlar, ermənilər, Dağıstan xalqları, çuvaşlar, almanlar, başqırdlar, yəhudilər, mordvalardır.

XX əsrin 90-cı illərində MDB ölkələrinin əksəriyyətində doğum və təbii artım xeyli azaldı və azalmaqda davam edir. Eyni zamanda, ölümün sayı xeyli artmışdır. Ayrı-ayrı respublikaların, xüsusilə Ukraynanın (1991-1996-cı illərdə 1,5 milyon nəfər) və Rusiyanın (eyni dövrdə 1,44 milyon nəfər) əhalisi azalır. Gürcüstan, Qazaxıstan, Belarus və Moldovanın əhalisi azalmışdır. Əgər Rusiyada, Ukraynada, qismən Belarusda əhalinin azalması əhalinin təbii itkisi ilə bağlıdırsa, digər respublikalarda miqrasiya ilə əlaqədardır. Bununla belə, həmin illər ərzində MDB əhalisinin ümumi sayı 1,4 milyon nəfər azalmışdır.

Hələ bu yaxınlarda demoqrafik partlayışın müşahidə edildiyi üçüncü dünya ölkələrində əhali inkişafı prosesləri xüsusi xarakter daşıyır. Yüksək doğum, idarə olunmayan miqrasiya və urbanizasiya, aclıq, yoxsulluq, xəstəliklər burada əsas demoqrafik və sosial problemlərdir.

Bu ölkələrdə əhali siyasəti, çox vaxt, bütün sosial-iqtisadi

siyasətin əsasını təşkil edir: üçüncü dünya ölkələrində doğumu azaltmaqla aclıq, yoxsulluq problemlərini həll etməyə cəhd göstərirlər.

İnkişaf etməkdə olan ölkələrin kənd yerlərində doğum, bir qayda olaraq, yüksəkdir. Lakin şəhərlərdə (kəndli miqrantlar istisna edilərsə), doğumun səviyyəsi xeyli aşağıdır. Kəndlərdən şəhərlərə çox böyük miqrasiya narahatlıq doğurur. İri şəhərlərdəki miqrantların 60%-i kəndlərdən gəlmələrdir. Onların əksəriyyəti işsizlər ordusuna qatılır, ixtisasları, hətta yurd-yuvaları da yoxdur. Onlar əhali sıxlığı, dəhşətli yoxsulluq üzündən kəndləri tərk edir, şəhərlərdə də özlərinə yer tapa bilmirlər.

**Cədvəl 2.8**

**MDB ölkələrində ilin əvvəlinə əhalinin sayı, min nəfərlə**

| Ölkələr | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 2003 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 7172 | 7297 | 7368 | 7431 | 7487 | 7535 | 8213 |
| Ermənistan | 3574 | 3649 | 3722 | 3742 | 3753 | 3766 | 3804 |
| Belarus | 1026 | 10281 | 10346 | 10367 | 10345 | 10312 | 9990 |
| Gürcüstan | 5464 | 5463 | 5447 | 5433 | 5417 | 5416 | 4920 |
| Qazaxıstan | 16793 | 16964 | 16986 | 16942 | 16679 | 16544 | 14844 |
| Qırğızıstan | 4422 | 4484 | 4502 | 4663 | 4483 | 4545 | 4908 |
| Moldova | 4367 | 4359 | 4348 | 4353 | 4348 | 4334 | 4272 |
| Rusiya | 148543 | 148704 | 148673 | 148366 | 148306 | 147976 | 144800 |
| Tacikistan | 5358 | 5570 | 5571 | 5704 | 5786 | 5884 | 6196 |
| Türkmənistan | 3714 | 3809 | 4254 | 4361 | 4450 | 4567 | 4843 |
| Özbəkistan | 20708 | 21207 | 21703 | 22192 | 22562 | 23007 | 25100 |
| Ukrayna | 51944 | 52057 | 52244 | 52114 | 51728 | 51334 | 49000 |
| MDB | 282335 | 283844 | 285164 | 285464 | 285336 | 285300 | 280890 |

Öz imkanları nəzərə alınmazsa, əsas nəqliyyat vasitəsi, bir qayda olaraq, velosipeddir. Qeyd etmək lazımdır ki, Asiyanın bir çox inkişaf etməkdə olan ölkəsində velosiped geniş yayılmışdır. Qlobal aspektdə bu, müəyyən mənada, faydalıdır – velosiped ekoloji baxımdan təmiz nəqliyyat növüdür.

Bir çox ölkələr bu və ya digər şəkildə əhali artımı ilə bağlı və milli inkişafa doğru yönəldilmiş siyasət yeritməyə çalışırlar.

Lakin heç birində qəbul edilən proqramlar axıra çatdırılmamışdır. Milli məhsulun artımı xarici sərmayələrdən və yardımlardan asılıdır. Üçüncü dünya ölkələrində hər il 5 yaşınadək 30 milyon uşaq ölür.

Əhali siyasəti bu məsələləri nə dərəcədə həll edə bilər? O, həmin məsələləri həll etmək iqtidarında deyil. Onları yalnız sözün daha geniş mənasında güclü sosial-iqtisadi siyasət həll edə bilər.

Bununla belə, üçüncü dünya ölkələrinin qarşısında doğumun azaldılması vəzifəsi durur, çünki orada sosial-iqtisadi inkişaf doğumun artımı ilə ayaqlaşa bilmir, aclıq məsələsi aradan qaldırılmamışdır. Doğumun məhdudlaşdırılması siyasəti ən çox *Çində* həyata keçirilir.

*Çin dünyanın ən çoxsaylı əhalisi olan ölkəsidir.* 1995-ci ildə Tayvan, Honkonq və Makao istisna olmaqla (bu ərazilər Çinin materik hissəsinə daxil deyildi) Çinin əhalisi 1221,5 milyon nəfər idi. Milyarddan yuxarı adamı yedirtmək vəzifəsi qarşıda durur. O, iki yolla həll edilir: əvvəla, sürətli iqtisadi artım yolu, ikinci tərəfdən, doğumu sərt məhdudlaşdırma vasitəsi ilə.

Çin təqdir olunmalıdır, XX əsrin 80-90-cı illəri ərzində o, ən yoxsul ölkələr səviyyəsindən, çinlilərin özlərinin dediyi kimi, aclıqdan uzaqlaşdı.

Doğumun məhdudlaşdırılması siyasəti nə dərəcədə səmərəli olmuşdur? 1992-1993-cü illərdə əhalinin artmasına baxmayaraq, doğum əmsalı 1978-1979-cu illərdəki səviyyədə qalmışdır. Ümumi doğum əmsalı (hər 1000 nəfərə doğumun sayı) 17-18 promilledir. Ölümün aşağı olduğu (Çində əhali nisbətən cavandır) və səhiyyədə xeyli uğurlar qazanıldığı şəraitdə hər min nəfərə 12-13 nəfər artım vardır. İnkişaf etməkdə olan ölkələr üçün bu artım əhəmiyyətsizdir.

«Bir ailə – bir uşaq» prinsipi tətbiq edilir. Lakin xalq arasında əsrlər boyu təşəkkül tapmış stereotip – çoxuşaqlılıq uzun müddət dəbdə idi. Ona görə də bir nəfərdən çox uşağı olan ailə cərimə verir, həm də bu cərimənin miqdarı sürətlə artır.

Çinin kənd təsərrüfatında aparılan islahatlar əhalinin və iqtisadiyyatın inkişafına təsir göstərmişdir.

Çinin xalq kommunaları sistemi «mükafatlandırılmaqla müqavilə əsasında məsuliyyət sistemi» ilə əvəzləndi. O, 1983-cü ildə bütün ölkədə bərqərar oldu. Torpaq kollektiv təsərrüfatlar çərçivəsində kollektiv və ailə podratına verilirdi. Bu, iki hissədən ibarət idi: biri (dirrik yeri kimi) ailəni dolandırmaq, digəri isə şəhərə kommersiya taxılı (kompensasiya ilə) vermək üçün nəzərdə tutulmuşdu. Kəndli kollektiv təsərrüfata və şəhərə müəyyən miqdarda taxıl təhvil verilməsini təmin etdikdən sonra, qalan məhsuldan istədiyi kimi istifadə edə bilərdi. Bu halda, texnika və əsas istehsal xidmətləri kollektiv təsərrüfatın sərəncamında qalırdı.

İslahat əlavə işçi qüvvəsini azad etməklə, əmək məhsuldarlığını artırdı. Kəndlərdə və kiçik şəhərlərdə əlavə istehsalın meydana gəlməsini şərtləndirdi.

Kənd təsərrüfatında islahatların bir cəhəti də ondan ibarət idi ki, hökumət 1984-cü ildən kənd əhalisinin kiçik şəhərlərə miqrasiyasını təbliğ etməyə başladı. Bu siyasət uğur qazandı, kiçik şəhərlərin sayı 1000-dək artdı. 200 milyona yaxın kənd əməkçisi iş axtarmaq üçün kiçik şəhərlərə axışdı. Miqrasiyanı tənzimləmə tədbirləri zəiflədikcə kənd əhalisi iri şəhərlərə də yollanaraq, orada «səyyar əhali» deyilən anlayış yaratdı. Kənd bölgələrinin tərk olunmasının nəticələri hələ dəqiq öyrənilməmişdir. Lakin onun şəhər məşğulluğuna, mənzil və digər məsələlərə təsiri yaxşı məlumdur. Ailə planlaşdırılması mütəxəssisləri səyyar əhalini əhali siyasətinin «zəif halqası» hesab edir və bu prosesə daha səmərəli nəzarət olunmasına dair tövsiyələr verirlər.

Çində inkişaf strategiyasının mühüm aspekti kənd müəssisələridir. «Torpağı tərk etmək, ancaq kənddən getməmək» siyasətinin həyata keçirilməsi gedişində Çinin müxtəlif regionlarında çoxlu kənd müəssisələri yaradılmışdır. Son illərdə Çin iqtisadiyyatının inkişaf dinamikasının böyük hissəsinin kökü kənd müəssisələri ilə bağlıdır. Lakin son zamanlar kənd müəssisələrində işin səmərəsi aşağı düşmüşdür.

**Doğumda regional fərqlər.** Dünya əhalisi təbii artım, yəni doğumun ölümü üstələməsi nəticəsində çoxalır. Bu nisbətin

dinamikası çoxlu sosial, tibbi və bioloji amillərdən asılıdır. Doğumun mümkün səviyyəsi 1000 nəfərə 15-50 nəfər civarında qiymətləndirilir. Lakin son 200 ildə o, daim aşağı düşmüşdür. Bu, doğumun mümkün bioloji səviyyə ilə müqayisədə get-gedə xeyli azalması meylinin sabit olduğu iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə aiddir. Bu meyl əvvəllər Avropa ölkələrində yayılmışdı. Lakin bir qədər sonra o, iqtisadi cəhətdən inkişaf etmiş bütün dövlətlər üçün səciyyəvi hala çevrildi.

XIX əsrdə doğum əmsalı, Avropa ölkələri də daxil olmaqla, bütün dünya ölkələrində yüksək idi. Məsələn, 1880-1890-cı illərdə doğum əmsalı Almaniyada $39,1^0/_{00}$, Niderlandda $36,2^0/_{00}$, İngiltərədə $35^0/_{00}$, Belçikada $32,6^0/_{00}$. Fransada $25,4^0/_{00}$ (Avropa üzrə, orta hesabla, $33,7^0/_{00}$) olmuşdur. XIX-XX əsrlərin hüdudlarında doğum sabitləşdi, 1930-cu illərdə isə kəskin şəkildə aşağı düşməyə başladı. Bu orta evlənmə yaşının artmasının, habelə nikahsızlığın geniş yayılmasının nəticəsi idi. Lakin bu dövrdə istisnalar da vardır; məsələn, Almaniyada əhali artırdı ki, bu da həmin dövlətin digər əraziləri ekspansiyası, almanların dünyada xüsusi rolu haqqında nasist təbliğatı ilə izah edilir.

İkinci Dünya müharibəsindən sonra müharibədə iştirak etmiş bütün ölkələrdə iki onillik ərzində doğum sürətlə artdı, 1960-cı illərin ikinci yarısından başlayaraq isə yenidən aşağı düşməyə başladı. Məsələn, 1993-cü ildə doğum əmsalı AFR-də cəmi 9,7% (bu, ölüm səviyyəsindən xeyli aşağıdır), İtaliyada isə 10% idi. Böyük Britaniyada, Lüksemburqda, İsveçdə də doğum əmsalı təqribən eyni səviyyədə idi.

Şimali Amerikada doğumun dinamikası Avropadakından fərqlənirdi. 1920-ci illərin əvvəllərinədək ABŞ-a immiqrant axını güclü idi. Lakin sonra o, səngidi, XX əsrin son rübündə isə yenidən artdı. İkinci Dünya müharibəsindən sonra bu ölkədə uşaq doğumunda güclü artım («bebibum») başladı. 1957-ci ildə o, son həddə – 25,3%-ə çatdı, sonra isə aşağı düşməyə başladı. Kəbinsizlik uşaq doğumuna əhəmiyyətli təsir göstərdi: 1980-ci ildə yaşlıların 22%-i kəbinsiz idi.

# Əhali doğumu



Asiya ölkələrində doğum prosesləri özünəməxsusluqla səciyyələnir. Asiya sivilizasiyası çərçivəsində tam demoqrafik dəyişikliklər keçirən ölkə Yaponiya olmuşdur. 1980-ci ildə burada doğum əmsalı 13% olmuş, hər ailəyə iki uşaqdan az düşmüşdür. Bu cür tendensiya Asiya qitəsinin digər ölkələrində – Tayvanda, Çində, Honkonqda (Syanqanda), Sinqapurda, Cənubi Koreyada da müşahidə edilmişdir.

**Doğum göstəriciləri.** Doğum göstəricilərinin təhlilinə keçək.

*Doğumun məcmu əmsalı* əhalinin təkrar istehsalını ən dəqiq əks etdirən göstəricilərdəndir. Mövcud göstəriciləri çox yüksək hesab etməsək də, - 3,04 (2002), - Yer əhalisi təkrar istehsal olunmaqdadır. Təkrar istehsal üçün, əhalinin yaş strukturundan asılı olaraq, orta hesabla, əmsal 2,1-dən 2,5-dək olmalıdır.

İnkişaf etmiş regionlar, bütövlükdə, sadə təkrar istehsaldan aşağı həddədirlər – 1,71. Az inkişaf etmiş ölkələrin göstəriciləri, ümumilikdə, təqribən 2 dəfə yüksəkdir – 3,38. Nəzarət olunmayan, yaxud zəif nəzarət edilən ən yüksək doğum isə zəif inkişaf etmiş ölkələr qrupundadır – 5,59.

Məcmu doğum əmsalına görə, Avropa (keçmiş SSRİ respublikaları istisna olmaqla) – 1,59, Şimali Amerika – 2,06, Avstraliya-Yeni Zelandiya – 1,91 onlarla kəskin təzad təşkil edir. Buna müvafiq olaraq, orada, xüsusilə Avropada əhali artımı da azdır. Şimali Amerikada və Avstraliya-Yeni Zelandiyada artım, başlıca olaraq, emiqrasiya hesabına xeyli yüksəkdir.

Nisbətən az əhalisi olan (28,5 milyon nəfər) Okeaniya və Avstraliya-Yeni Zelandiya (21,7 milyon nəfər) dünya əhalisinin artmasında əhəmiyyətli rol oynamırlar.

2002-ci il yanvarın 1-nə ümumi əhalisi 284,97 milyon nəfər olan və böyük ərazidə – 22,1 milyon $km^2$-də yerləşən MDB ölkələri xüsusi yer tutur. 1995-ci ildən onların əhalisi slavyan respublikalarının, xüsusilə Rusiya və Ukraynanın hesabına nəzərə çarpacaq dərəcədə azalır. MDB əhalisinin 70%-i isə slavyan respublikalarında yaşayır. Hər halda, şərqi-slavyan xalqlarının yerləşdiyi Avrasiya ərazisinin əhalisi tədricən azalmağa

başlayır. Rusiyada və Ukraynada doğumun məcmu əmsalı durmadan 1-ə yaxınlaşır.

Dünyanın əsas regionlarını nəzərdən keçirərkən öz qitələrinin «tip»indən fərqlənən ölkələri qeyd edək. Ümumi əmsalın 5,58 olduğu Afrikada 3,96 əmsallı Şimali Afrika ölkələri diqqəti cəlb edir, məsələn, Əlcəzairdə bu əmsal 3,63-ə, Tunisdə isə 2,95-ə bərabərdir.

Cənubi Afrikada 3,95 əmsalla Cənubi Afrika Respublikası fərqlənir. Bütün Cənubi Afrikanın 47,4 milyon əhalisinin 41,5 milyonu bu ölkənin payına düşür.

Şərqi Afrikada 2,31 əmsalı ilə kiçik Mavriki adası seçilir.

Regionlar arasında kiçik göstəriciyə (6,32) malik bütün Qərbi Afrika isə qeyri-adi surətdə yekrəngdir. Burada, demək olar ki, ən geri qalmış ölkələrin ən böyük qrupu cəmlənmişdir.

Şərqi Asiya böyük, sıx əhalisi olan Çin sayəsində indi nisbətən orta göstəriciyə malikdir – 1,91; həm də o, Çində 1,95-ə, Koreya Respublikasında 1,76-ya, Yaponiyada isə hətta 1,50-yə bərabərdir. Burada demoqrafik cəhətdən ancaq Monqolustan (3,41) və KXDR (2,30) inamla inkişaf edirlər.

Doğumun məhdudlaşdırılması siyasəti Cənub-Şərqi Asiyada da öz təsirini göstərir (3,16). Burada ən aşağı əmsal Çin Sinqapurunda (1,73), Tailandda (2,1) və İndoneziyadadır (2,77).

Asiyanın qalan regionlarında (Cənub-Mərkəzi və Qərbi Asiya), xüsusilə Qərbi Asiyanın (İsraildən başqa) müsəlman ölkələrində, Əfqanıstanda, İranda, Pakistanda, Banqladeşdə doğum çox yüksək olaraq qalır. Mahiyyət etibarilə, burada hər yerdə əhalinin təkrar istehsalı olduqca genişdir və ən əhəmiyyətsiz əmsallar da, hər halda, sadə təkrar istehsal həddindən yüksəkdir: İsraildə – 2,77; müharibə bürümüş Şri-Lankada – 2,39; çoxkonfessiyalı, tez-tez hərbi münaqişələr zonasına düşən Livanda 2,92-dir. Türkiyə (3,2) və Küveyt (3,0) çox yüksək doğumdan uzaqlaşmışdır. Çoxsaylı insan kütləsinə malik Hindistanda isə bu, əvvəlki kimi davam edir (3,59).

Karib ölkələrində doğum göstəricisi nisbətən böyük olmasa da, hər halda, normaldır - 2,71. Bu göstərici Haitidə - 4,69 və Dominikan Respublikasında - 2,04-dən yüksək, Kubada (1,82)

isə nisbətən aşağıdır.

Mərkəzi Amerikada xeyli yüksəkdir (3,32): Meksikada – 3, Kosta-Rikada – 3,5, Panamada – 2,76. Onlar daha mədəni ölkələr sayıldığından burada doğum göstəricisi də aşağıdır.

Cənubi Amerikada da göstəricilər təqribən eyni səviyyədədir (2,86) .

İnstitusional baxımdan daha sabit dövlət kimi, ən aşağı səviyyə Uruqvaydadır (2,29). Cənubi Amerikanın digər ölkələrinin göstəriciləri də yüksək deyil: Çilidə – 2,49, Kolumbiyada – 2,58, Argentinada – 2,67, Braziliyada – 2,77.

Avropada xeyli daxili fərqlər qalmaqdadır: Şimali Avropada əmsal 1,85 olduğu halda, Cənubi və Qərbi Avropada 1,4-1,5, Şərqi Avropada isə 1,63-dür. Bütün bu zona sabit depopulyasiya zonasıdır. Bu fonda İrlandiya (2,10), İsveç (2,10), Norveç (1,96), Finlandiya (1,88) kimi ölkələr ən yaxşı vəziyyətdədirlər. Ən aşağı əmsallar Şimali Avropa ölkələri arasında Estoniya və Latviyada (1,64), Şərqi Avropada Bolqarıstan və Rumıniyada (1,5), Qərbi Avropada Almaniyada (1,30), Cənubi Avropada isə İtaliya (1,27) və İspaniyadadır (1,23).

Təsnif olunmuş ölkələr sırasında məcmu doğum əmsalına görə yuxarı pilləleri - 7-dən çox, - Yəmən, Niger, Uqanda, 8-dən 9-dək pillələri Malavi, Anqola, Oman, Benin, Mali, Efiopiya, Somali, Qvineya, Əfqanıstan, Liberiya, Burundi, Zair, Laos, Toqo, Mozambik, Ruanda, Syerra-Leone, Nigeriya, Səudiyyə Ərəbistanı, Liviya, Konqo, Keniya tutur. Onlar ya ailəni planlaşdıra bilmirlər, ya da bu, müsəlman ölkələrində, ümumiyyətlə, qadağandır. Burada doğuma nəzarət olunmur. Gerilik hökm sürür. Əksinə, nadir istisnalarla, ən inkişaf etmiş ölkələr aşağı pillədədirlər. Onlarda məcmu doğum əmsalı, bir qayda olaraq, ikidən aşağıdır. Demək olar ki, bütün Avropa ölkələri, Avstraliya, Kanada və Yaponiya onların arasındadır. Son illərdə Çin, Kuba, Sinqapur, Koreya Respublikası da buraya daxil olmuşlar. ABŞ-da ispandilli azlıq sayəsində əmsal bir qədər böyükdür – 2,08.

Ən aşağı pillədə (1,50 və daha az) Yaponiya, Rumıniya, Bolqarıstan, Sloveniya, Yunanıstan durur. Sıranı İspaniya (1,2)

qapayır, Yəmən (7,37) başlayır. Onların arasındakı fərq altı dəfədir! Rusiya 1999-cu ildə İspaniya ilə bərabərləşmişdir (1,2).

15-19 yaşlı qadınlarda (1000 nəfərə görə) doğum sayına dair məlumatların təhlili də müəyyən qədər əhəmiyyətlidir. Doğumun zəif tənzimləndiyi bir çox inkişaf etməmiş ölkələrdə bu yaş qrupunda doğumun sayı 241-dən (Qvineya) 100-ə qədərdir (Botsvana). Halbuki bu göstərici bütün dünyada 60, inkişaf etmiş ölkələrdə isə 32-dir. Lakin bu sonuncu rəqəm ABŞ-dakı kifayət qədər tutumlu səviyyə – 64, Avropada isə 27, Avstraliya-Yeni Zelandiyada – 24, Okeaniyada – 28 olması ilə bağlıdır. Hətta əmsalın 50-100 arasında olduğu ölkələr qrupunda cəmi dörd inkişaf etmiş ölkə, - ABŞ, Ermənistan, Bolqarıstan və Gürcüstan, - vardır. Onların əksər hissəsi əmsalın 50-dən aşağı (Rusiyada 37,10) olduğu ölkələr qrupundadır. Bunlar Belçika, Fransa, İtaliya, Sinqapur, Niderland, Koreya Respublikası, Honkonq, İsveçrə, Yaponiyadır. Sonuncu dörd əmsalla sıranı tamamlayır.

Qeyd edək ki, inkişaf etməmiş ölkələrdə göstərilən yaş qrupuna aid olan qadınların arasında doğumun yüksək səviyyəsi körpələrin sağ qalmasına kömək edir, çünki gənc analar, bir qayda olaraq, sağlam nəsil dünyaya gətirirlər.

**Səhiyyə səviyyəsinin göstəriciləri.** Nəhayət, mütəxəssislərin nəzarəti altında doğulanların faizinə dair məlumatları da nəzərdən qaçırmaq olmaz. Çünki onlar dünya ölkələri arasındakı böyük sosial bərabərsizliyi əks etdirirlər. Bütün ölkələrə dair belə məlumatlar olmadığından onları dünya regionları üzrə yekunlaşdırmaq mümkün olmur.

Dərc olunmuş məlumatlara görə, cəmi altı ölkə – Yaponiya, ABŞ, Bolqarıstan, İsveç, Norveç, Belçika 100% sosial xidmətlə təmin olunmuşdur. 30 ölkədə bu, 90-la 100% arasındadır. Demək olar, bütün inkişaf etmiş ölkələr, habelə İsrail (99%), Kuba (99%), Sinqapur (99%), KXDR (99%), Puerto-Riko (99%), Monqolustan (99%), BƏƏ (99%), Çili (99%), Trinidad və Tobaqo (98%), Malayziya (98%), Küveyt (97%),Venesuela (97%), Kosta-Rika (97%), Uruqvay (96%), Çin (95%) onların

arasındadır.

Tibbi müəssisələrdən kənarda doğulanların 50%-ə qədəri 32 ölkədə dünyaya gəlir. Hindistan (31), Pakistan (35), Nigeriya (35), İndoneziya (40) kimi demoqrafiya nəhəngləri onların arasındadır və bu, Yer kürəsindəki ümumi kədərli vəziyyəti müəyyənləşdirir. Həmin ölkələrin hamısı Afrika-Asiya ölkələridir. Sosial təminatın 10%-dən aşağı olduğu 5 ölkə var. Bunlar Efiopiya, Əfqanıstan, Banqladeş, Nepal və Somalidir. Sonuncuda uşaqların cəmi 2%-i mütəxəssislərin nəzarəti altında doğulur.

**Ölüm və ömrün uzunluğu.** Doğum kimi, ölüm də bioloji hadisədir. Doğum kimi, sağlamlığa, ölümə, orta ömür müddətinə də bir çox amillər təsir edir, lakin bu amillər arasında, bütövlükdə, sosial-iqtisadi şəraitin həlledici təsiri özünü doğum göstəricilərində olduğundan daha güclü şəkildə göstərir. Ölüm səviyyəsi, ilk növbədə, rifah halından asılıdır. Buna görə də ölümün həddində ən böyük fərqlər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındadır. XX əsrin 90-cı illərinin əvvəlində ölüm göstəricisi Latın Amerikasında 7, Avropada 10, Afrikada 15 promille olmuşdur.

İnkişaf etmiş ölkələrdə ümumi ölüm göstəricisi hələ XX əsrin 60-cı illərindən bəşəriyyət tarixində ən aşağı səviyyədə sabitləşmişdir. Hazırda iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələrdə ümumi ölüm əmsalı (ÜÖƏ) inkişaf etməkdə olan ölkələrdəkindən xeyli yüksəkdir. Məsələn, Böyük Britaniyada və Almaniyada bu, Meksika və Venesueladakından təqribən iki dəfə yüksəkdir. Son illərdə Böyük Britaniyada və AFR-də ölümün ümumi göstəriciləri 11-12% səviyyəsində sabitləşmişdir ki, bu da orta dünya həddindən xeyli yüksəkdir. Ölümün səviyyəsində bu qeyri-təbii, dövlətlərarası təzadların başlıca səbəblərindən biri yaş tərkibinin spesifikliyi, ilk növbədə, ahıllar kontingentinin payındakı müxtəliflikdir [Böyük Britaniyada 65 və daha yaşlılar əhalinin 15,1%-ni, Meksikada isə 3,7%-ni təşkil edir (cədvəl 2.9)].

## 2000-ci ildə əhali ölümü



Cədvəl 2.9

**Müxtəlif iqtisadi inkişaf səviyyəli bəzi ölkələrdə dünya əhalisinin təkrar istehsalı və yaş tərkibi göstəriciləri (1993-1998-ci illər)**

| Ölkələr | Doğum | Ölüm | Təbii artım | Məcmu doğum əmsalı | Netto təkrar istehsal əmsalı | Körpə ölümü əmsalı | Gözlənilən orta ömür müddəti | Yaş etibarı ilə əhali faizi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1000 nəfərə görə | | | | | | | 15 yaşa qədər | 60 və daha yaşlı |
| Dünya | 26 | 9 | 17 | 3,3 | 1,6 | 62 | 65 | 32 | 9 |
| Əfqanıstan | 53 | 22 | 31 | 6,9 | 2,1 | 165 | 43 | 40 | 5 |
| Efiopiya | 49 | 18 | 31 | 7,0 | 2,3 | 125 | 47 | 46 | 5 |
| Meksika | 28 | 5 | 23 | 3,2 | 1,4 | 35 | 70 | 35 | 6 |
| Çin | 21 | 7 | 14 | 2,2 | 1,1 | 27 | 71 | 27 | 10 |
| ABŞ | 16 | 9 | 7 | 2,1 | 0,9 | 8 | 76 | 21 | 17 |
| Yaponiya | 11 | 7 | 4 | 1,7 | 0,8 | 5 | 79 | 17 | 20 |
| Almaniya | 11 | 11 | 0 | 1,5 | 0,8 | 7 | 76 | 16 | 22 |
| Rusiya | 10 | 14 | -4 | 1,4 | 0,7 | 19 | 65 | 22 | 16 |
| Azərbaycan | 14,9 | 5,9 | 9 | 2,1 | 0,9 | 19,9 | 71 | 31,9 | 9,0 |

Ölüm əhalinin sağlamlıq vəziyyətinin indikatorudur. Ölümün səbəbləri zamanla ölçülür: əgər uzaq keçmişlərdə insanlar daha çox yoluxucu xəstəliklərdən – taundan, malyariyadan, çiçəkdən və s. ölürdülərsə, indi ölümün başlıca səbəbləri qan dövranı xəstəlikləridir. Xüsusilə, inkişaf etmiş ölkələrdə bu xəstəliklərdən ölənlərin sayı 50% təşkil edir (qalan ölkələrdə 27%). İkinci yerdə bədxassəli şişlər durur. İnkişaf etmiş ölkələrdə ölənlərin 21%-i bu xəstəlikdən dünyasını dəyişir (qalan ökələrdə 11%). Yeni qorxulu xəstəlik QİÇS-dir (qazanılmış immun çatışmazlığı sindromu). Bu xəstəlik, Rusiya daxil olmaqla, dünyanın bir çox ölkələrində yayılmışdır. Ölümün digər səbəbləri arasında psixi xəstəliklər, narkomaniya, alkoqolizm, habelə doymamazlıqla bağlı xəstəliklərdir.

Afrikada uşaq ölümü əmsalı 200%-ə yaxınlaşır, yəni doğu-

lan hər 1000 uşaqdan 200-ü ölür.

İnkişaf etmiş ölkələrdə uşaq ölümü əmsalı 15%, onların üçündə – Finlandiyada, İsveçdə və Yaponiyada isə 6-7%-dir. Uşaq ölümünün aşağı göstəricisi yüksək həyat şəraitinin, yüksək səmərəli müalicə vasitələrinin və həkim köməyinin nəticəsidir.

Ölümün geniş yayılmış səbəblərindən biri bədbəxt hadisələrdir. Bu hadisələrin sayı daim artır. Burada yol-nəqliyyat qəzaları birinci yer tutur. Bir çox insanlar kimyəvi və radioaktiv maddələrlə bağlı hadisələrin qurbanı olur. Pestisidlər də sağlamlığa böyük zərbə vurur. Hər il təqribən 1 milyon adam ağır surətdə zəhərlənir, onların 220 mindən çoxu bundan ölür. Ehtiyatlardan istifadə sürəti, istehsalın intensivləşməsi artdıqca insanların sağlamlığı üçün yeni təhlükə mənbələri və səbəbləri yaranır.

**Təbii artım və əhalinin ömür müddətinin uzunluğu.** İnkişaf etmiş ölkələrin mütləq əksəriyyətində təbii artım əmsalı çox aşağıdır. Qərbi Avropada o, orta hesabla 3-5%-ə, AFR, Danimarka və Avstriyada isə mənfi durumdadır, yəni ölüm doğumu üstələyir. Rusiya dərin demoqrafik böhran keçirir. Burada bir sıra regionlarda bütün 1990-cı illərdə ölüm doğumdan iki dəfə çox olmuşdur. Şərqi Avropanın, keçmiş SSRİ-nin, yaxud «sosializm düşərgəsi»nin tərkibinə daxil olan digər ölkələrin çoxu da oxşar vəziyyətdədir. Əhalinin mexaniki axını (vətənə qayıdanlar), habelə dövlətin daxilində doğumun nisbətən çoxluğu ilə seçilən regionlar olmasaydı, bu ölkələrdə, xüsusilə Rusiyada demoqrafik tənəzzül daha dərin ola bilərdi.

Son üç onillik ərzində (1970-ci illərin sonundan) Asiya, Afrika və Latın Amerikasının bir sıra ölkələrində ləng əhali artımından çox sürətli artıma keçid müşahidə olunur. Zəif inkişaf etmiş ölkələrə tibbi yardım, epidemiyalarla mübarizə, yüksək doğum əmsalı saxlanılmaqla, ölüm əmsalının azaldılmasına imkan vermişdir. Bu ölkələrin əhalisi gənc yaş strukturu və yüksək artım sürəti ilə səciyyələnir.

Demoqrafların fikrincə, inkişaf etmiş ölkələrdə əhalinin təkrar istehsalının aşağı səviyyədə olması təbii artım səviyyəsi-

nin sosial-iqtisadi inkişaf səviyyəsinə uyğunluğunda təzahür edən müəyyən qanunauyğunluğu göstərir. Həqiqətən, belə qanunauyğunluq bir çox ölkələrdə demoqrafik vəziyyətin inkişafının gedişi ilə təsdiq olunur. YUNESKO və Dünya Səhiyyə Təşkilatı (DST) dövlətlərin sosial-iqtisadi siyasətindən, bu və ya digər ölkədə ekoloji durumdan asılı olaraq həyat səviyyəsinin dinamikası və «xalqların yaşarılıq qabiliyyəti» (YUNESKO–DST terminologiyasına görə) sahəsində vaxtaşırı tədqiqatlar aparırlar.

*Yaşarılıq qabiliyyəti əmsalı* 5 ballı cədvəllə ölçülür. O, gen fondunun, konkret ölkənin nəzərdən keçirildiyi məqamda dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin davam etdiyi şəraitdə millətin fizioloji və intellektual inkişafını qoruyub saxlamaq imkanını səciyyələndirir.

YUNESKO – DST-nin araşdırmalarına görə, 1992-1993-cü illərdə dünyanın heç bir ölkəsi beş bala malik olmamışdır. Bütün ölkələr əhali sayının sabitliyinə çalışırlar. Lakin onların bəziləri buna yüksək doğum göstəriciləri, başqaları isə, əks istiqamətdə, yəni həddindən aşağı doğum vasitəsilə nail olmaq istəyirlər. Təkcə əhalinin say göstəriciləri deyil, insan ömrünün uzunluğu da doğum və ölümün dinamikası ilə bağlıdır. Bütövlükdə, dünyada ömrün uzunluğu artır. Məsələn, 1961-1965-ci illərdə insanlar, orta hesabla 50 il yaşayırdısa, 1991-1995-ci illərdə 63 il yaşamışlar; inkişaf etməkdə olan ölkələrdə isə bu göstərici, müvafiq surətdə, 46 və 61 ilə bərabər olmuşdur. Ən yüksək uzunömürlülük göstəriciləri İslandiyada (78 il), Hollandiya, Norveç, Yaponiyada (77 il), İsrail və ABŞ-dadır (76 il). Afrikada qitə üzrə orta ömür uzunluğu 49,7 ildir.

**Ömür uzunluğunun göstəriciləri.** Ən mühüm demoqrafik göstərici olan orta ömür uzunluğuna görə inkişaf etmiş ölkələr xeyli fərqlə liderdirlər (kişilərdə 71,2 il, qadınlarda 78,6 il). Bütün dünya üçün orta göstərici isə 63,7/67,8 ildir. Qərbi, Şimali, hətta Cənubi Avropa və Şimali Amerika bu göstəricilərə görə (kişilərdə 73 ildən yuxarı, qadınlarda 80 il) irəlidədirlər. Lakin dünya regionları arasında ən yüksək göstərici Avstraliyada və Yeni Zelandiyadadır (75,1/80,9). Çoxsaylı adacıqlardan

ibarət olan Okeaniya onlara yaxınlaşmaqdadır (71,3/76,4). Ən yüksək səviyyə Yaponiyadadır (76,8/82,9). Bu da Sakit Okean ada ölkələri qrupunu (Yaponiya-Okeaniya-Yeni Zelandiya) uzunömürlülük baxımından ən əlverişli regiona çevirir. Hazırda Azərbaycanda bu göstərici 68/75,5 ildir.

*Körpə ölümü* göstəricisi də olduqca diqqətçəkicidir. O, dünya üzrə 1000 nəfər doğulana görə 57 nəfərə bərabərdir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 9, az inkişaf etmiş ölkələrdə 63, zəif inkişaf etmiş ölkələrdə 102-dir.

Ömür uzunluğu və körpə ölümü göstəricilərinin əhəmiyyəti ondadır ki, onlar ölkələrin sosial inkişaf səviyyəsini daha dəqiq (söhbət ayrı-ayrı indikatorlardan gedirsə) əks etdirirlər. Burada ümumi ölüm əmsalı uyğun gəlmir, çünki onun səviyyəsinə təkcə sosial inkişaf deyil, yaş strukturunun xüsusiyyətləri də güclü təsir göstərir.

Hər şeydən əvvəl, ölkələr üzrə qadınlar və kişilər arasında ömrün uzunluğundakı böyük fərqi qeyd edək. Əgər bütünlükdə dünyada bu, 6 ildən azca çoxdursa, Azərbaycanda 7,5 ildir.

Qadınlar arasında uzunömürlülük üzrə təsnifat sırasına (80 və yuxarı yaş) Yaponiya, Kanada, İsveç, Niderland, İsveçrə, İtaliya, Fransa, Avstraliya, İspaniya, Yunanıstan, Belçika, Norveç, Avstriya başçılıq edir. Sonuncu yerləri isə (50 yaşdan az) Mali, Mozambik, Burkina-Faso, Ruanda, Qvineya, Zambiya, Əfqanıstan, Malavi, Syerra-Leone tutur. Kişilər arasında (75 və daha çox yaş) siyahıya Yaponiya, İsveç, Yunanıstan, Avstraliya, İsveçrə, İsrail, İspaniya, Niderland, İtaliya, Kanada başçılıq edir. Həm də, qadınların ən yüksək ömür uzunluğu həddi 82,9 il, kişilərinki 76,8 ildir (Yaponiya). Axırıncı yerləri (50 yaşdan az) Zimbabve, Burundu, Kot-d-İvur, Efiopiya, Çad, Konqo, Cənubi Afrika Respublikası, Somali, Anqola, Benin, Niger, Mali, Qvineya, Mozambik, Zambiya, Burkina-Faso, Ruanda, Uqanda, Əfqanıstan, Malavi, Qvineya-Bisau, Syerra-Leone tutur.

Ən yüksək körpə ölümü səviyyəsi də (100-dən çox), demək olar ki, elə həmin ölkələrdə: Əfqanıstan, Mali, Malavi, Mozambik, Qvineya-Bisau, Qvineya, Niger, Liberiya, Anqola,

Çad, Somali, Uqanda, Yəmən, Butan, Efiopiya, Ruanda və Kambocadadır. Qeyd olunduğu kimi, onlar ən geri qalmış kasıb ölkələrdir.

Ömrün uzunluğu səviyyəsinə təkcə sosial inkişaf səviyyəsi deyil, səhiyyə, xüsusilə sağlam həyat tərzi sahəsindəki uğurlar da təsir göstərir. Bunlar, Yaponiyada xüsusilə diqqətə layiqdir, onun ardınca müstəqillik qazandıqdan sonra böyük tərəqqiyə nail olmuş Sinqapur gəlir. Belçikada, Avstriyada, Böyük Britaniyada, Almaniyada, Niderlandda səhiyyə yüksək səviyyədədir.

Yalnız Hindistanda, Nigeriyada, Pakistanda və Şri-Lankada kişilər qadınlardan çox yaşayır. Dünyanın qalan ölkələrində kişilərin ömrü qadınlarınkından azdır.

Bütövlükdə, ömrün uzunluğu əhalinin rifah halının səviyyəsindən, sonuncu isə, öz növbəsində, təbii, iqtisadi və sosial-məişət amillərindən asılıdır. İqlim amilləri əhalinin həyat şəraitinin və xərclərinin (geyimə, qidalanmaya, isitmə sisteminə, istirahətə, sanatoriya-kurort müalicəsinə) ümumi mürəkkəbliyini müəyyənləşdirir. Kənd sakinlərinin rifahı təbii şəraitdən xüsusilə asılıdır. İqtisadi amillər (məhsuldar qüvvələrin inkişaf səviyyəsi, təsərrüfatın strukturu, vergi siyasəti və s.) pul gəlirlərinin səviyyəsini, məşğulluğun strukturunu, həyat səviyyəsini müəyyən edir. Sosial-məişət amilləri xidmət sahələrinin inkişaf dərəcəsini, ödəniş və güzəştlərin həcmini, vergitutmanın şərait və dərəcəsini, pərakəndə mal dövriyyəsinin strukturunu, «ərzaq zənbili»nin çeşidi və dəyərini əks etdirir.

Milli gəlirin əhalinin adambaşına düşən göstəricisi əhalinin rifahının səviyyəsini daha tam əks etdirir. Bu göstərici inkişaf etmiş ölkələrdə dünya üzrə orta göstəricidən 3,7 dəfə, ən zəif inkişaf emiş ölkələr qrupundakından isə 13,6 dəfə yüksəkdir. Əhalinin müxtəlif təbəqələrinin – varlı və yoxsulların maddi rifah səviyyəsi arasında fərqlər isə daha kəskindir.

## 2.6. Azərbaycanda və MDB ölkələrində demoqrafik şərait

XX əsr dünyanın əhali inkişafı tarixinə sayının ən yüksək sürətlə artması, «demoqrafik partlayış» əsri kimi daxil olmuşdur. XX əsr ərzində Yer kürəsinin əhalisi 1,6 milyarddan 6 milyard nəfərədək, yəni 4 milyarddan çox, yaxud 3,7 dəfə artmışdır. Bu dövrdə sürətli artım qanunauyğunluğu Azərbaycan əhalisinə də xas olmuşdur, lakin onun artım sürəti dünya əhalisinin artım sürətini qabaqlamışdır. 1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının və Azərbaycan Respublikası əhalisinin 1999-cu ildə aparılmış sonuncu siyahıya alınmasının məlumatları göstərir ki, həmin siyahıyaalmalar arasındakı dövrdə Azərbaycanın əhalisi 1,8 milyondan 8,2 milyonadək, yaxud 6,4 milyon, yəni 4,8 dəfə artmışdır. Bu, o deməkdir ki, XX əsrdə respublika əhalisinin artım sürəti dünya əhalisinin artım sürətindən 20% çox olmuşdur.

Azərbaycan Respublikası əhalisinin əksər hissəsi – 51%-i şəhərlərdə, 49%-i isə kənd yerlərində yaşayır. Həm də, əhalinin ümumi sayının 4126,5 min nəfərini, yaxud 51,1%-ni qadınlar, 48,9%-ni kişilər təşkil edir. Əhalinin cins strukturu qadınların azacıq üstünlüyü ilə səciyyələnir və ümumən, respublika üzrə 1000 nəfər kişiyə 1043,5 qadın düşür. 30 yaşınadək kişilərin çoxluğu, 30 yaşdan yuxarı isə qadınların üstünlüyü müşahidə olunur. Əgər 30-dan 70-dək yaş qruplarında qadınlar 246 nəfər çoxdursa, 70 və ondan yuxarı yaşlarda qadınların sayı 2 dəfədən də artıqdır. Əmək qabiliyyətli yaşda olan əhali arasında hər 1000 nəfər kişiyə 957,9 qadın düşür. Məlum olduğu kimi, kiçik yaş qruplarında kişilərin üstünlüyü qanunauyğunluqdur və doğum zamanı oğlan və qızlar arasındakı nisbətin nəticəsidir. Xatırladaq ki, adətən, hər 1000 nəfər doğulanın, orta hesabla, 510-520-si oğlan uşağı olur. Statistik məlumatlara görə, 2002-ci il yanvarın 1-ə respublikada 1 yaşınadək 78,3 min kişi və 71,6 min qadın cinsindən olan əhali var idi. Yəni, hər 1000 nəfər doğulandan 522-si oğlan, 478-i qız olmuşdur. Yaş qruplarının artması ilə əhalinin cins strukturunda kişilərin əzəli

üstünlüyü kişilərin qadınlara nisbətən daha yüksək ölüm səviyyəsi üzündən tədricən azalır və 30 yaşınadək qadınların üstünlüyü ilə əvəz olunur. Bu üstünlük 70 və ondan yuxarı yaşlarda xüsusilə yüksəkdir.

Respublika üçün əhalinin mütərəqqi yaş strukturu səciyyəvidir. Belə ki, 2003-cü ilin əvvəlinə olan məlumata görə, əhalinin ümumi sayının 56,9% əmək qabiliyyətli yaşda, 34,1%-i əmək qabiliyyətinə qədərki yaşda, 9%-i isə ahıl əmək qabiliyyətli yaşda olmuşdur. Beləliklə, hər 100 əmək qabiliyyətli yaşlı adama 64 nəfər əmək qabiliyyətli yaşa çatmamış, 20 nəfər əmək qabiliyyətli yaşdan yuxarı yaşlı adam düşür. Son onillik ərzində əhalinin yaş strukturundakı dəyişikliklərin mühüm xüsusiyyəti əmək qabiliyyətli şəxslərin sayının ilbəil artmasıdır. Əmək qabiliyyətli yaşdan yuxarı olan şəxslərin 12-14% olmasının əhalinin demoqrafik qocalmasının (14-16% bu prosesin orta, 16-18% isə inkişaf etmiş səviyyəsidir) başlanğıcı olduğunu nəzərə alaraq, ehtimal etmək olar ki, respublika əhalisi, yaş strukturunun vəziyyətinə görə, bu prosesin aşağı həddindədir. Əgər bu proses davam edərsə, artıq yeni minilliyin ilk onilliyində respublikada demoqrafik inkişaf əhalinin qocalmasının başlanğıcı kimi səciyyələndiriləcəkdir.

Rusiyada və keçmiş ittifaqın digər ölkələrində olduğu kimi, Azərbaycanda da demoqrafik proseslərdə xoşagəlməz meyllər nəzərə çarpır ki, bu da əsaslı narahatlıq doğurur və yaranmış vəziyyətin dərindən araşdırılmasını və yığılmış problemlərin səmərəli həlli yollarının axtarılıb tapılmasını tələb edir. Respublika əhalisinin həyat səviyyəsinin aşağı düşməsi, sosial-iqtisadi vəziyyətin pisləşməsi, Ermənistanın hərbi təcavüzü, bir milyona yaxın qaçqın və məcburi köçkünün olması, keçmiş istehsal münasibətlərinin dağılması və bazar iqtisadiyyatına keçid, işsizlik və iş yerlərinin çatışmaması, real və nominal əmək haqqının aşağı səviyyəsi və bir çox digər amillər nəticə etibarilə doğumun, nikahın aşağı düşməsinə, ixtisaslı işçi qüvvəsinin respublikadan çıxıb getməsinin güclənməsinə, ölümün artmasına və s. səbəb olur. Əhali inkişafındakı bütün bu meyllər tamamilə açıq-aşkar görünür, lakin əsl təhlil baş verən

proseslərin qiymətləndirilməsini tələb edir. Bəs, statistik göstəricilər nədən danışır?

XX əsrin 90-cı illərində Azərbaycanda, bütövlükdə, doğumda aşağıdüşmə meyli olmuşdur. Yalnız doğulanların sayının, ilk dəfə olaraq, əvvəlki illə müqayisədə 2805 nəfər artaraq 132052 uşağa çatdığı 1997-ci il istisna təşkil edir. Ümumi doğum əmsalı (1000 nəfər əhaliyə görə doğulanların sayı) 17,1%-dən 17,4%-ə qədər artaraq, 0,3 promil yüksəlmişdir. Bu prosesin təxirə salınmış doğumların gerçəkləşdirilməsinin, yoxsa, respublikada demoqrafik vəziyyətin bir qədər yaxşılaşmasının nəticəsi olduğunu demək xeyli çətindir. Yaranmış doğum səviyyəsi əhalinin geniş təkrar istehsalını təmin edir. Bununla belə, onun son illərdə durmadan aşağı düşməsi demoqrafik proseslərin inkişafında xoşagəlməz meyllərdən biri kimi qiymətləndirilir. Qeyd edək ki, doğumun təkcə nisbi deyil, həm də mütləq göstəricisi aşağı düşür. Əgər 1990-cı ildə respublikada, demək olar, 183 min uşaq, yəni əhalinin hər 1000 nəfərinə 26,3 uşaq doğulmuşdusa, 2002-ci ildə 117 min uşaq, ümumi doğum əmsalı üzrə 14,8 uşaq doğulmuşdur. Başqa sözlə, doğulanların mütləq sayı 66 min nəfər azalmış, nisbi göstərici isə 8,9 promill aşağı düşmüşdür. Doğum həm şəhərdə, həm də kənd yerlərində bütün yaş qruplarında azalmışdır. Lakin qeyd edilən meyl əhalinin orta uşaqlıdan az uşaqlıya keçməsinin nəticəsi, yəni bütün inkişaf etmiş ölkələrə məxsus qanunauyğun demoqrafik inkişaf prosesinin təzahürü kimi qiymətləndirilməməlidir. Doğum səviyyəsinin aşağı düşməsi, hər şeydən əvvəl, onun nəticəsidir ki, maddi sıxıntı keçirən əksər ailələr ikinci, üçüncü, hətta bəzən ilk övladlarının dünyaya gəlməsini təxirə salmağa məcbur olurlar. Respublikanın geniş təkrar istehsalını təmin edən orta uşaqlılığa yönəlmə (üçüncü uşağın doğulması) 2002-ci ildə 1990-cı illə müqayisədə, az qala, 5 promill – 26,7% aşağı düşmüşdür.

Statistik məlumatların müqayisəsi kəbinsiz uşaqların doğulması kimi Azərbaycan mentalitetinə xas olmayan bir faktın aşkarlanmasına imkan verir. Belə ki, 2002-ci ildə kəbindənkənar doğumun göstəricisi 7,3% olmuşdur ki, bu da 1970-ci

ildən bəri bütün dövr ərzində ən yüksək səviyyədir.

Azərbaycanda əhalinin ölüm dinamikasının təhlili göstərir ki, nəzərdən keçirilən dövrdə mütləq və əhalinin 1000 nəfərinə görə ölüm halları arasında fərq cüzi olmuşdur. Ümumi ölüm əmsalı 1000 nəfər əhali hesabı ilə ölənlərin 6,1%-dən 7,4%-i arasında olmuşdur. Ölüm 1990-1994-cü illərdə xüsusilə kəskin surətdə artmışdır ki, bu da erməni təcavüzkarlarının ölkəmizə qarşı apardığı müharibə nəticəsində insan itkiləri ilə bağlıdır. 1994-cü ilədək, yəni müvəqqəti atəşkəs haqqında sazişə qədər əhalinin ölüm səviyyəsinin ilbəil artması faktı da məhz ordu sıralarındakı hərbi itkilər və hərbi əməliyyatlar zonasındakı dinc əhali arasındakı itkilərlə bağlıdır. Məsələn, ölənlərin sayı 1990-cı ildə 42819, 1991-ci ildə 44659, 1992-ci ildə 51258, 1993-cü ildə 52809 nəfər olmuş, 1994-cü ildə isə ən böyük sayda – 54,9 min ölüm qeydə alınmışdır. Qeyd edək ki, rəsmi məlumata görə, hələ tam dayandırılmamış müharibə nəticəsində 18000 nəfər azərbaycanlı həlak olmuş, 20 min nəfərdən çox adam yaralanmış, 50 mindən çox adam şikəst olmuş, 4 mindən artıq adam əsir götürülmüş və itkin düşmüşdür. 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ölənlərin sayı azalmağa başlamışdır. 1997-ci ildə 47,0 min, 2001-ci ildə 46,6 min ölüm qeydə alınmışdır. Beləliklə, 1994-2001-ci illərdə ümumi ölüm əmsalı 7,4%-dən 5,9%-ə düşmüş, yəni 1,5 promill, yaxud 20% azalmışdır.

Respublikada ana ölümü göstəricisi də nisbətən yüksəkdir. 1999-cu ildə onun səviyyəsi hər 100 salamat doğulan uşağa görə 31,0%, yəni 1996-cı ildəkindən 13,1 bənd aşağı idisə, 1989-1991-ci illər səviyyəsindən təqribən 2 dəfə çox idi. Respublikanın yaşlı kişi əhalisi arasında ölüm cəmiyyətin və iqtisadiyyatın səviyyəsinə mənəvi və maddi zərbə vuran əvəzolunmaz ağır insan ehtiyatları itkisidir. Belə ki, 1999-cu ildə 29-30 və 40-59 yaşlı kişilər arasında ölümün sayı eyni yaş qruplarında ölən qadınların sayından 2,0 dəfə çox olmuşdur.

Respublika əhalisinin doğum və ölümündəki yuxarıda qeyd olunan dəyişikliklər əhalinin təbii artım və orta ömür uzunluğu dinamikasında əksini tapmışdır. Təhlil göstərir ki, son illərdə

respublikada əhalinin təbii artımı aşağı düşmüşdür. Əgər 1990-cı ildə əhalinin mütləq təbii artımı 140,2 min nəfər idisə, 2001-ci ildə cəmi 70,2 min olmuş, yəni 1,9 dəfə azalmış, həm də ümumi təbii artım əmsalı (yəni,1000 nəfər əhaliyə görə təbii artım) 20,2%-dən 9,8%-ə enmiş, yəni 10,4 promil aşağı düşmüşdür. Qeyd etmək vacibdir ki, 1995-ci ildə, bir çox illər ərzində ilk dəfə, respublika əhalisinin təbii artımı 100 minlik həddən aşağı olmuşdur. 1990-cı ildən başlayaraq, respublikada orta ömür uzunluğu aşağı düşürdü. Ancaq son üç ildə onun artması meyli müşahidə edilir. Belə ki, əgər 1990-cı ildə orta ömür uzunluğu 71,1 il idisə, 1996-cı ildə 70,2 il, 1997-ci ildə 71,2 il, 2001-ci ildə isə 71,8 il olmuşdur. Kişi və qadınların orta ömür uzunluğundakı fərq də bir qədər azalmışdır. 2001-ci ilin məlumatına görə, qadınların 75,1 il, kişilərin isə 68,6 il orta ömür uzunluğu olduğu halda, bu fərq 6,5 il təşkil edirdi.

Keçid dövrünün dəyişiklikləri və birinci növbədə, respublika əhalisinin həyat səviyyəsinin pisləşməsi bütün demoqrafik proseslərə, o cümlədən nikahlılığa da mənfi təsir göstərmişdir. 1990-2001-ci illərdə nikahların sayı 33,5 min azalaraq, 73119-dan 39661-ə enmiş, yəni təqribən 1,9 dəfə aşağı düşmüşdür. Həm də bu illər ərzində nikahlılığın ümumi əmsalı iki dəfə azalaraq, əhalinin 1000 nəfərinə görə 10,5-dən 5,0 nikaha düşmüşdür. 1997-ci ildən respublika əhalisinin nikaha girməsində bir qədər yaxşılaşma nəzərə çarpır. Əgər 1997-ci ilədək nikahların sayı ilbəil azalırdısa, 1997-ci ildə özünəməxsus sıçrayış baş vermiş, 46999, yaxud 1996-cı ildəkindən 8427 sayda çox nikah bağlanmışdı. Artım əhalinin hər 1000 nəfərinə 1,1 promill olmuşdu. 2001-ci ildə isə bağlanmış nikahların sayı 7,4 min, yaxud 1,3 promill azalmışdır.

Müqayisəli təhlil göstərir ki, nikahsızlığın səviyyəsinə görə respublikamız MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Nikahların azalmasının başlıca səbəbləri ailə gəlirinin azalması, işsizlik, ailə quranların mənzil problemlərini həll etmək imkanlarının məhdudluğu, əhalinin gənc yaş qruplarında kişi və qadın nisbətinin pozulmasıdır. Qeyd edək ki, postsovet dövründə Azərbaycan əhalisi üçün qadın nikahsızlığı səviyyə-

sinin yüksək olması, yəni ərə getməmiş qadınların çoxluğu səciyyəvi hal idi. Başqa səbəblərlə yanaşı, bu, kişi əhalisinin, xüsusilə kənd yerlərindən, nisbətən yüksək miqrasiyası ilə bağlı cins-yaş strukturunun pozulması ilə izah olunurdu. Bazar münasibətlərinə keçid dövründə qadın əhalisinin ailə həyatı qurmasına bu demoqrafik amillərlə yanaşı, kişilərin sosial-iqtisadi həyat səviyyəsinin aşağı olması da mənfi təsir göstərir. Tamamilə aydındır ki, respublikada yeni ailələrin qurulmasına davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsi də ciddi əngəl törədir. Kişilər daha çox 20-29 yaşlarında, qadınlar isə 20-24 yaşlarında ailə həyatı qururlar. Ailə həyatı quran müasir yaş strukturunun xüsusiyyəti gəlinlərin «cavanlaşması» prosesidir. Əgər 1990-cı ildə hər dörd gəlindən biri 19 yaşında idisə, 2001-ci ildə hər üçündən biri bu yaşda olmuşdur. Əhalinin ümumi sayına nisbətdə daha gənc gəlinlərin artması cəmi bir neçə il ərzində müşahidə olunsa da, əhali arasında qızların erkən ərə getməsi ənənəsinin müəyyən qədər dirçəlməsindən danışmağa əsas var.

Hələ keçmiş SSRİ-nin tərkibində ikən respublika əhalisi üçün boşanma hallarının ən aşağı səviyyədə olması səciyyəvi idi. 2001-ci ildə əhalinin 1000 nəfərinə 0,7% boşanma, yaxud 5 kəbinin pozulması qeydə alınmışdır. Bu göstəricilər son illərin ən böyük dəyişikliklərini əks etdirir. Statistik məlumatlara görə, boşanmanın hazırkı səviyyəsi 1990-cı illə müqayisədə üç dəfə aşağıdır. Boşanmaların mütləq sayı 8,3 min, yaxud 2,5 dəfə azalmışdır. Lakin əhalinin boşanmasına dair statistik göstəricilər bu prosesin real vəziyyətini əks etdirmir. Azı ona görə ki, 80-ci illərin sonu - 90-cı illərin əvvəlində sosial-siyasi vəziyyətin kəskinləşməsi üzündən əhalinin respublikanı tərk edən hissəsi arasında mənzillərin satılmasının rəsmiləşdirilməsi üçün münasib vasitə olan saxta nikah və boşanmalar səciyyəvi idi. Təhlil göstərir ki, pozulmuş kəbinlərin böyük bir hissəsi 5 il davam edən nikahlar arasındadır. Kişilər arasında 30-34, qadınlar arasında isə 20-29 yaş qruplarında maksimum boşanma halları qeydə alınmışdır.

Respublika əhalisinin miqrasiyasının həcmində, istiqamətlə-

rində, tərkibində və səbəblərində də əhəmiyyətli dəyişikliklər baş vermişdir. 1988-ci ildən etibarən əhalinin respublikadan getməsi güclənmişdir. 1990-cı il yanvar hadisələrindən sonra mühacirət edənlərin sayı 153,1 min nəfərə çatmışdı. Bu, bütün dövrlər ərzində respublikanın tərk edilməsinin yüksək həddidir.

Sonrakı illərdə gedənlərin və gələnlərin axını xeyli səngimişdir. Belə ki, gedənlərin sayı 1991-ci ildə 85,1 min, 1992-ci ildə 94,8 min, 1993-cü ildə 75,3 min, 1996-cı ildə 47,6 min, 1997-ci ildə 35,5 min, 2001-ci ildə isə 10,0 min nəfər olmuşdur. Miqrantların sayı, emiqrantların sayından az olmuş, 1991-ci ildə 49,7 min, 1992-ci ildə 35,7 min, 1993-cü ildə 16,3 min, 1996-cı ildə 5,8 min, 1997-ci ildə 7,5 min, 2001-ci ildə isə 5,6 min nəfər təşkil etmişdir. Gedənlərlə gələnlər arasında yaranmış nisbət miqrasiyanın mənfi saldosunu şərtləndirmişdir. 1997-ci ildə bu, mənfi 28,0 min nəfər təşkil etmişdir ki, bu da respublika əhalisinin təbii artımının 33%-nə bərabərdir. 2001-ci ildə isə bu göstərici 5,6 min nəfər,yaxud təbii artımın 7%-i qədər olmuşdur. Belə bir fakt diqqəti cəlb edir ki, 2001-ci ildə əhalinin miqrasiyasının və miqrasiya dövriyyəsinin aşağı düşməsi prosesi güclənmişdir. 2001-ci ildə respublika əhalisinin 0,32% ümumi artımı şəraitində miqrasiyanın mənfi saldosu cəmi minus 0,06% olmuşdur. 1990-cı ilə qədər və ondan sonra əhalinin intensiv yerdəyişməsi həm daxili, həm də xarici miqrasiyanın nəticəsi idi. Xarici miqrasiya azərbaycanlı qaçqınların Ermənistandan, məshəti türklərinin isə Özbəkistandan respublikaya axını, habelə yerli olmayan əhalinin ölkədən getməsi ilə, daxili miqrasiya isə DQMV-dən və respublikanın işğal olunmuş yeddi rayonundan azərbaycanlıların didərgin salınması ilə bağlı idi.

Qeyd etmək lazımdır ki, məcburi köçkünlər say etibarilə respublikanın ən böyük miqrant kateqoriyasıdır. Hazırda Azərbaycan Respublikasında Ermənistandan qovulmuş 204,6 min qaçqın, Ermənistanın respublika ərazisinin 20%-ni işğal etməsi nəticəsində daimi yaşayış yerlərini tərk etmiş 600 min nəfərdən çox məcburi köçkün, etnik qarşıdurma ilə bağlı Özbəkis-

tandan Azərbaycana pənah gətirmiş 29 min məshəti türkü, Xəzər dənizinin səviyyəsinin qalxması üzündən yaşayış yerlərini tərk etməli olmuş 4,5 min ekoloji miqrant yaşayır.

Son illərdə daxili və xarici miqrasiyanın səbəblərində dəyişikliklər baş verir. Hazırda onun xüsusiyyəti əmək miqrasiyasının və qış mövsümündə təbii qaz və elektrik enerjisi təminatı ritminin pozulması ilə əlaqədar respublikanın müxtəlif regionlarından Abşeron iqtisadi rayonuna köçənlərin çox olmasıdır. Xarici miqrasiya, əksər hallarda, nisbətən qənaətbəxş həyat səviyyəsi təmin edən iş dalınca, əsasən, Rusiyaya və MDB-nin digər ölkələrinə müvəqqəti əmək miqrasiyasıdır. Hazırda respublikaya gələnlərin 47,7%-ni Rusiyadan, 8,6%-ni Gürcüstandan, 6,3%-ni Ukraynadan, 5,3%-ni Qazaxıstandan gəlmələr və s. təşkil edir. Miqrantların böyük hissəsi müxtəlif ixtisas səviyyəsinə malik fəhlələr, az hissəsi isə yüksək ixtisaslı mütəxəssislərdir. Əhalinin yaş-cins strukturunu və təkrar istehsalının normal gedişini pozmasına baxmayaraq, miqrasiyanın respublikada işsizliyin səviyyəsinin azalmasına, getmiş ailə üzvlərinin göndərdikləri xarici valyuta hesabına büdcəsini artıran ailələrin iqtisadi vəziyyətinin yaxşılaşmasına müsbət təsirini də qiymətləndirməmək olmaz. Lakin ziyalıların – alimlərin, mədəniyyət və incəsənət xadimlərinin və digərlərinin Azərbaycandan getməsini (xüsusilə daimi yaşamaq üçün) qiymətləndirərkən bu kimi mülahizələrə əsaslanmaq olmaz. Ötən əsrin 80-ci illərinin sonunda istehsalın tənəzzülü və müvafiq iş yerlərinin olmaması üzündən yüksək ixtisaslı mütəxəssislərə ehtiyac qalmamışdı. Onların bəziləri başqa strukturlara keçdi, digərləri ixtisaslarını itirdilər, bir qismi isə, - xüsusilə fundamental elmlərin prioritet sahələrində çalışanlar, - Türkiyəyə, Rusiyaya, Qərb ölkələrinə getdilər. Harada baş verməsindən asılı olmayaraq, alimlərin, həkimlərin, mühəndislərin və digər yüksək ixtisaslı mütəxəssislərin ölkədən getməsi «beyin axını», «ağlın oğurlanması», «beyinlərin satın alınması», «ağılların sorulması», «breyn dreyn» adları ilə tanınan itkilərə gətirib çıxarır.

Millətin intellektual «qaymağı»nın getməsi «ixracçı» ölkə-

ləri əlverişsiz vəziyyətdə qoyur. Təkcə vaxtilə onların hazırlanmasına çəkilən xərclərin əvəzi çıxmadığına, intellektin inkişafında varislik pozulduğuna, elmi-texniki potensial zəiflədiyinə görə yox, həm də ona görə ki, «beyin axını», eyni zamanda, millətin genetik fondunun tükənməsi, yəni «genlərin axını» deməkdir. Bu problemləri ancaq dövlət səviyyəsində həll etmək mümkündür. Bu məsələdə ləngimək respublikanı dünyanın ən geridə qalmış ölkələrindən birinə çevrilmək təhlükəsi altında qoymaq deməkdir.

Şübhəsiz ki, gələcəkdə istehsal artdıqca, özəlləşdirmə prosesləri güclədikcə, kiçik və orta biznes genişləndikcə, iqtisadiyyata sərmayə qoyuluşu və respublikada iş yerlərinin yaradılmasına yönəldilmiş dəyişikliklər artdıqca, işçi qüvvəsinin ərazi yerdəyişməsi istiqamətinin də səmtini əksinə dəyişəcəyini gözləmək olar. Lakin bu hal, respublikanın mənafelərini, beynəlxalq norma və standartları nəzərə almaqla, fəal miqrasiya siyasəti aparılmasının əhəmiyyətini və zəruriliyini qətiyyən azaltmır. Bir sıra amillərlə, o cümlədən tarixi İpək Yolunun dirçəldilməsi ilə bağlı respublikada miqrasiya proseslərinin güclənəcəyi barədə proqnozlarla əlaqədar dövlət miqrasiya siyasətinin fəallaşdırılması zərurəti xüsusilə artır.

Tarix dəfələrlə sübut etmişdir ki, ictimai inkişafın ağrılı böhran dövrləri əbədi deyil, təkamül yolunda nöqtə, yaxud dönüşdür. Düşünməyə tam əsas var ki, respublikamızda qeyd olunan demoqrafik şəraitin pisləşməsi müasir inkişaf mərhələsinin tendensiyasını əks etdirir və ötəri xarakter daşıyır. Demoqrafik şəraitin yaxşılaşması, demoqrafik inkişafda mənfi meyllərin aradan qaldırılması, hər şeydən əvvəl, iqtisadiyyatın və ictimai-siyasi şəraitin sağlamlaşdırılması ilə bağlıdır.

Yaxın gələcəkdə demoqrafik şəraitin tənzimlənməsi sahəsində dövlət siyasətinin öncül istiqamətləri əhalinin, xüsusilə ana və körpələrin, habelə əmək qabiliyyətli əhalinin ölüm səviyyəsini aşağı salmaq, miqrasiya proseslərini yaxşılaşdırmaq aztəminatlı uşaqlı ailələrə, əlillərə, qaçqınlara və məcburi köçkünlərə ünvanlı yardımı gücləndirmək, əhalinin yaşayış və səhiyyə səviyyəsini (qida məhsullarının, ətraf mühitin, suyun

keyfiyyətinin yaxşılaşdırılması və s.) yaxşılaşdırmaq, əhalinin reproduktiv sağlamlığının yaxşılaşmasına, səhiyyə sisteminin, ailə xidmətinin və onun planlaşdırılmasının inkişafına, bütövlükdə, ölkə ərazisində, o cümlədən sərhədboyu və hazırda işğal altında olan rayonlarda əhalinin məskunlaşmasını yaxşılaşdırmaq üçün şərait yaradılmasına yönəldilmiş tədbirlər həyata keçirməkdir.

Məqsədyönlü kompleks demoqrafik siyasət yürüdülməsi respublikada demoqrafik proseslərin tənzimlənməsində və demoqrafik şəraitin yaxşılaşmasında mühüm rol oynayacaqdır. Respublikamızın müstəqil dövlət kimi, keyfiyyətcə yeni indiki tarixi inkişaf mərhələsində ölkənin sosial-iqtisadi inkişaf tələblərinə daha tam cavab verən demoqrafik siyasətinin taktika və strategiyasının işlənib hazırlanması və gerçəkləşdirilməsi üçün real zəmin mövcuddur. Şübhəsiz, demoqrafik siyasətin müəyyən vəzifələri səhiyyənin inkişafı, məşğulluq siyasətinin reallaşdırılması, qadınların, gənclərin, pensiyaçıların və i.a. sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması gedişində həll edilir. Bununla əlaqədar, sosial-iqtisadi siyasətin müxtəlif növlərinin maksimum məcmu demoqrafik səmərə əldə etmək baxımından həll etdiyi birbaşa və bilavasitə vəzifələrin razılaşdırılması və əlaqələndirilməsi vəzifəsi mühüm əhəmiyyətə malikdir. Bu, həm də o deməkdir ki, bu və ya digər sosial-iqtisadi siyasətin həlli variantları seçilərkən demoqrafik aspekt daim nəzərə alınmalıdır.

Demoqrafik proseslərə səmərəli təsir göstərilməsi əhali siyasətinin bütün tərkib hissələrində və bir-biri ilə üzvi surətdə bağlı olan istiqamətlərində işin yaxşılaşdırılmasını tələb edir. Yəni, demoqrafik siyasətin fəallaşdırılması əhalinin əmək və həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı getməlidir. Əhalinin optimal artımını, miqrasiya axınını tənzimləmək, respublika əhalisinin keyfiyyət xarakteristikasını yaxşılaşdırmaq və i.a. üçün aparılan demoqrafik siyasəti, sadəcə olaraq, fəallaşdırmaq deyil, onu dərindən təkmilləşdirmək lazımdır. Sonuncu, bir çox hallarda, əhali inkişafının öyrənilməsi elmi bazanın zənginliyi ilə müəyyənləşdirilir ki, bu da, öz növbəsində, gə-

ləcəkdə həmin sahədə dərin və hərtərəfli xüsusi araşdırmaların aparılmasını zəruri edir. Respublikada əhali problemlərini öyrənən elmi-tədqiqat mərkəzinin yaradılması, «Demoqrafiya» fənninin ali təhsil müəssisələrinin proqramına salınması, demoqrafiyanın əsaslarının orta ümumtəhsil məktəblərində öyrənilməsi tamamilə özünü doğruldardı.

***MDB ölkələrində demoqrafik şərait.*** Ötən əsrin 90-cı illəri əhalinin artım sürətinin əvvəlki onilliklə müqayisədə xeyli aşağı düşməsi (Türkmənistan istisna olmaqla) ilə əlamətdar olmuşdur. 2001-ci ilin əvvəlinə Birliyin əhalisi 280,7 milyon nəfər təşkil edirdi ki, bu da 1991-ci ilin əvvəlindəkindən 1,6 milyon nəfər, yaxud 0,6% az idi.

MDB əhalisinin 73%-nin yaşadığı Belarus, Rusiya və Ukrayna 90-cı illərin əvvəlindən getdikcə sürətlənən depopulyasiya zonasına daxil olmuşdur. Depopulyasiya əmsalı (ölənlərin sayının doğulanların sayına nisbəti) 1992-1993-cü illərdə Belarusda 1,1, Rusiyada 1,4, Ukraynada 1,18 olmuş, 2000-ci ildə isə, müvafiq surətdə 1,44-ə, 1,77-yə və 1,96-ya, yaxud 31-66 faizə çatmışdır.

2001-ci ilin əvvəlinə Belarusun əhalisi 1994-cü ildəki (maksimum miqdar idi) 10,4 milyondan 9,99 milyonadək, yəni 4,1%, Rusiyanın əhalisi 1992-ci ilin əvvəlindəki 148,7 milyondan 144,8 milyonadək, yəni 3,9 milyon nəfər, yaxud 2,6%, Ukraynanın əhalisi 1993-cü ilin əvvəlindəki 52,2 milyondan 49 milyonadək, yəni 3,2 milyon, yaxud 6,1% azalmışdır. Cəm halda bu ölkələrin əhalisi islahat illəri ərzində 7,5 milyon nəfər azalmışdır ki, bu da Danimarka, Slovakiya, Gürcüstan, İsrail, Tacikistan kimi dövlətlərin əhalisindən çoxdur (cədvəl 2.10).

Qazaxıstanın əhalisi daha çox – 2 milyon nəfər (11,3%) azalmış, 1991-ci ilin əvvəlindəki 16,8 milyondan 2001-ci ilin əvvəlində 14,8 milyona enmişdir. Mənfi nəticə doğum səviyyəsinin aşağı düşməsi ilə yanaşı, əhalinin Qazaxıstandan MDB-nin digər ölkələrinə, - başlıca olaraq, rusdilli əhalinin Rusiyaya, almanların isə Almaniyaya böyük və ardıcıl miqrasiyası ilə bağlıdır. Gürcüstanın və Moldovanın da əhalisi azalmışdır.

Cədvəl 2.10

MDB ölkələrinin əhalisinin sayı

| Ölkələr | İlin əvvəlinə (min nəfər) | | | 2001-ci il 1991-ci ilə görə %-lə | o cümlədən | |
|---|---|---|---|---|---|---|
| | 1991 | 1996 | 2001 | | 1996 1991-ci ilə görə %-lə | 2001 1996-cı ilə görə %-lə |
| Belarus | 10261 | 10312 | 9990 | 97,4 | 100,0 | 97,3 |
| Rusiya | 148543 | 147967 | 144800 | 97,5 | 99,6 | 97,9 |
| Ukrayna | 51944 | 51334 | 49000 | 94,3 | 98,8 | 95,5 |
| Moldova | 4367 | 4332 | 4272 | 97,8 | 99,2 | 96,6 |
| Azərbaycan | 7187 | 7535 | 8081 | 112,4 | 107,5 | 104,6 |
| Ermənistan | 3574 | 3766 | 3804 | 106,4 | 105,4 | 101,0 |
| Gürcüstan | 5464 | 5416 | 5100 | 93,3 | 99,1 | 94,4 |
| Qazaxıstan | 16793 | 16544 | 14844 | 88,4 | 93,3 | 94,7 |
| Qırğızıstan | 4422 | 4545 | 4908 | 111,0 | 104,6 | 106,1 |
| Tacikistan | 5358 | 5884 | 6196 | 115,7 | 109,8 | 105,3 |
| Türkmənistan | 3714 | 4567 | 4843 | 130,4 | 123,5 | 105,6 |
| Özbəkistan | 20708 | 23007 | 24900 | 120,2 | 111,1 | 108,2 |
| **Cəmi** | **282335** | **285209** | **280738** | **99,4** | **100,8** | **98,6** |

90-cı illərdə Mərkəzi Asiyanın qalan ölkələrində, Azərbaycanda və Ermənistanda demoqrafik potensial artmaqda davam etmişdir. Türkmənistan, Özbəkistan və Tacikistan əhalisi daha yüksək sürətlə, - müvafiq olaraq, 30,4%, 20,2% və 15,7%, - artmışdır. Lakin son beş ildə (1996-2000) bu ölkələrdə təbii artımın azalması ilə bağlı əhali artımı sürətinin aşağı düşməsi müşahidə olunur. 90-cı illərin ikinci yarısında yalnız Qırğızıstanda əhali artımı çoxalmış və 1991-1995-ci illərdəki 4,6% müqabilində 6,1% olmuşdur ki, bu da son illərdə respublika hüdudlarından kənara miqrasiyanın kəskin surətdə azalması ilə bağlıdır.

MDB-nin bütün ölkələri doğumun və ölümün yüksək səviyyəsindən aşağı səviyyəyə demoqrafik keçidin müxtəlif mərhələlərindədirlər. Bu keçid, bir qayda olaraq, 60-100 il (və daha çox) çəkir və dörd inkişaf mərhələsi keçirir. Birinci mərhələ üçün yüksək doğum və ölüm səviyyəsi, çox sayda uşaq, nəsillərin sürətlə əvəzlənməsi səciyyəvidir. İkinci mərhələdə səhiyyənin nailiyyətləri sayəsində ölümün sayı kəskin surətdə

azalır, lakin doğumun sayı yüksək olaraq qalmaqda davam edir ki, bu da əhalinin kəskin surətdə artmasına gətirib çıxarır. MDB ölkələri bu iki mərhələni XX əsrin müxtəlif vaxtlarında keçirmişlər.

Hazırda Birlik dövlətləri demoqrafik keçidin üçüncü və dördüncü mərhələlərini yaşayırlar (cədvəl 2.11).

**Cədvəl 2.11**

**MDB ölkələrində demoqrafik keçidin mərhələləri**

*(2000-ci ilin məlumatına əsasən)*

| Demoqrafik keçidin mərhələləri | Ölkələr | Təbii hərəkət əhalinin 1000 nəfərinə görə | | | Uşaqların sayı (14 yaş), % |
|---|---|---|---|---|---|
| | | Doğum | Ölüm | Təbii artım (azalma) | |
| III mərhələ (nisbətən yüksək doğum, aşağı ölüm) | Özbəkistan | 22,3 | 5,3 | 17,0 | 38 |
| | Qırğızıstan | 19,7 | 6,9 | 12,8 | 42 |
| | Tacikistan | 18,6 | 4,2 | 14,4 | 35 |
| | Türkmənistan | 18,5 | 5,4 | 13,1 | 38 |
| | Azərbaycan | 14,8 | 5,9 | 8,9 | 32 |
| III mərhələdən IV mərhələyə keçid | Qazaxıstan | 14,7 | 10,1 | 4,6 | 29 |
| | Ermənistan | 9,0 | 6,3 | 2,7 | 24 |
| | Gürcüstan* | 8,9 | 8,8 | 0,1 | 20 |
| IV mərhələ-depopulyasiya | Moldova** | 10,2 | 11,3 | 1,1 | 24 |
| | Belarus | 9,4 | 13,5 | 4,1 | 19 |
| | Rusiya | 8,7 | 15,4 | 6,7 | 18 |
| | Ukrayna | 7,9 | 15,3 | 7,5 | 18 |

* 1999-cu il

** Dnestr çayının sol sahili və Benderı şəhəri ərazilərinə dair məlumatlar nəzərə alınmadan.

Orta Asiya dövlətləri üçün səciyyəvi olan üçüncü mərhələ ölüm göstəricilərinin nisbətən aşağı olması və doğumun yüksək səviyyəsi ilə seçilir. Son illərdə bu ölkələrdə doğum azalsa da, o, kifayət qədər yüksək səviyyədə qalmaqda davam edir. 2000-ci ildə burada ümumi doğum əmsalı əhalinin hər 1000 nəfərinə görə 18-22 doğulan olmuşdur ki, bu da Rusiya, Belarus və Ukraynadakından 2-3 dəfə yüksəkdir. Eyni zamanda, əhali strukturunun cavanlığı sayəsində burada ümumi ölüm

əmsalı MDB üzrə orta həddən aşağı olub, əhalinin hər 1000 nəfərinə görə Tacikistanda 4,2-dən Qırğızıstanda 6,9 nəfər arasındadır. Beləliklə, orta Asiya ölkələrində əhalinin müsbət təbii artımı təmin olunur.

1999-cu ildən Moldova da əhalisi azalan ölkələr qrupuna daxil olmuşdur. XX əsrin sonlarında Ermənistan, Gürcüstan, habelə Qazaxıstan demoqrafik keçidin dördüncü – depopulyasiya mərhələsinə lap yaxınlaşmışlar. Onlarda ümumi doğum əmsalı digər Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarındakından aşağıdır [əhalinin 1000 nəfərinə görə (8,9-14,7), ölüm isə, əksinə, yüksəkdir (6,3-10,1)]. Təbii artım isə cüzi, yaxud sıfıra bərabərdir. Əgər 90-cı illərin neqativ meylləri aradan qaldırılmasa, Gürcüstan və Ermənistanın da təbii artımın mənfi olduğu ölkələr sırasına keçməsi ehtimalı böyükdür.

Birliyin bütün ölkələrində məcmu doğum göstəriciləri (qadının ömrü boyu doğduğu uşaqların orta sayı) azalmışdır. Əksər ölkələrdə o, 2, 15- dən aşağıdır ki, bu da əhalinin sadə təkrar istehsalını təmin etmir. Rusiya bu göstəriciyə görə (1,2) 1995-2000-ci illərdə hər qadına 1,1-1,3 uşaq düşən Almaniya, İtaliya, Yunanıstan və İspaniya kimi doğumun son dərəcə aşağı olduğu ölkələr səviyyəsindədir. Ukrayna (1,1), Gürcüstan (1,2), Ermənistan (1,2), Belarus (1,3) və Moldova (1,4) da həmin cərgədədir. Qazaxıstan (1,8) və Azərbaycan (2,0) da əhalinin sadə təkrar istehsalının təmin edilmədiyi ölkələr qrupuna daxil olmuşlar. Türkmənistanda məcmu doğum əmsalı sadə təkrar istehsal normasından bir qədər çoxdur (2,2). Yalnız üç ölkə – Tacikistan, Özbəkistan və Qırğızıstan əhalinin geniş təkrar istehsalı rejimini qoruyub saxlayırlar.

Beləliklə, MDB-nin əksər ölkələri yeni minilliyə nəsillərin sadə əvəzlənməsini təmin etməyən aşağı doğum səviyyəsi ilə daxil olmuşlar. Bu ölkələrdə 241 milyon adam, yaxud MDB-nin bütün əhalisinin 85%-i yaşayır.

MDB ölkələrində əhalinin təkrar istehsalı bazası daralır. 90-cı illərdə bütün dövlətlərdə əhalinin 1000 nəfərinə nikahların sayı 1,5-3 dəfə azalmış boşanmaların səviyyəsi isə yüksək olaraq qalır. 1999-cu il əhali siyahıyaalmalarına görə, Belarusda

və Qazaxıstanda siyahıyaalmalar arası dövrdə (1989-1999-cu illər) nikahda olan 16 və ondan yaşlı vətəndaşların sayı, müvafiq olaraq, 5,5 milyondan 4,9 milyonadək, yaxud 256 min nəfər (5%) və 7 milyondan 6,3 milyonadək, yaxud 0,7 milyon nəfər (10%) azalmışdır. Eyni zamanda, nikahda olmayanların sayı artmışdır: Belarusda 1,3 milyondan 1,5 milyonadək, yaxud 15%, Qazaxıstanda 2,5 miyondan 2,7 milyonadək (9%). Dulların, boşananların və ayrılanların sayı artmışdır. Ailə və nikah dəyərdən düşür.

MDB ölkələrində əhalinin sağlamlığı və ölümün səviyyəsi xüsusi narahatlıq doğurur. Demoskop Weekly bu ölkələrdə ölümün və ömür uzunluğunun dinamikası məsələsinə artıq dəfələrlə müraciət etmişdir. Qeyd olunmuşdur ki, istər bu meyllərin kifayət qədər təzadlı olması, istərsə də, bir çox hallarda, statistik məlumatların keyfiyyətinin şübhə doğurması üzündən son dövrlərdəki real tendensiyalar haqqında fikir yürütmək çətindir.

Rəsmi məlumatlara əsaslansaq, 90-cı illər ərzində MDB-nin altı ölkəsində ömür uzunluğu azalmışdır. Bu, kişilər arasında – Qazaxıstanda-5 il (64-dən 59 ilədək), Belarusda – 4 il (66-dan 62 ilədək), Rusiyada – 4 il (64-dən 60 ilədək), Ukraynada – 3 il (66-dan 63 ilədək), habelə Qırğızıstan və Tacikistanda xüsusilə nəzərə çarpır. 90-cı illərin ikinci yarısında MDB-nin bir çox ölkələrində istər kişilərdə, istərsə də qadınlarda ömür uzunluğunun artması nəzərə çarpdı, lakin onilliyin sonunda daha etibarlı statistikaya malik ölkələrdə (Rusiya, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Moldova) bu göstərici 80-ci illərin sonuna nisbətən yüksək səviyyəyə çatmamış yenidən aşağı düşməyə başladı. Məsələn, Rusiyada kişilərin gözlənilən ömür uzunluğu 1994-cü ildəki 57,6 ildən 1998-ci ildə 61,3 ilə qalxdı, lakin bundan sonra yenidən azalaraq, 2000-ci ildə 59 ilə düşdü.

Təəccüblü deyil ki, bir tərəfdən, Rusiya ilə digər MDB ölkələri, digər tərəfdən isə Rusiya ilə əksər inkişaf etmiş ölkələr arasında fərqlər artmaqdadır, kişilər üçün bu fərq artıq 10-15 ilə çatır. Kişilərin ömür uzunluğu ABŞ-da, Qərbi Avropa ölkələrinin əksəriyyətində 76-78 il, Kanadada 79-il, Yaponiyada 80

ildir (1995-2000-ci illər üçün orta göstəricilər).

Birlik ölkələrində qadınların orta ömür uzunluğu da, - daha az miqyasda olsa belə, – 0,5-1,4 il, - azalmışdır. Bu, Qazaxıstanda daha çox – 73 ildən 70 ilədək, - olmuşdur. Rusiyada bu göstərici 1994-cü ildəki 71,2 ildən, 1998-ci ildəki 72,9 ilə çatandan sonra, 2002-ci ildə yenidən 72,2 ilədək aşağı düşmüşdür.

2002-ci ildə ölüm halları, bütün əsas səbəbləri üzrə, artmaqda davam etmişdir. MDB-nin bütün ölkələrində ölümün başlıca səbəbi qan dövranı sistemi xəstəlikləridir. Bədbəxt hadisələr, qətllər, intihar və digər xarici təsirlər nəticəsində ölüm halları ikinci-üçüncü yer tutur, həm də əksər hallarda (80%- ə yaxın) bu cür ölümün qurbanları əmək qabiliyyətli insanlar, əsasən, kişilər olur. Məsələn, bütün dünyada olduğu kimi, MDB ölkələrində kişilər arasında intihar halları qadınlar arasında olduğundan xeyli çoxdur. Bu fərq Belarusda, Qazaxıstanda, Rusiyada və Ukraynada xüsusilə böyükdür. Həmin ölkələrdə kişilər arasında intihar qadınlar arasındakı göstəricidən dörd-beş dəfə çoxdur.

Yoluxucu, parazitar və respirator xəstəliklərdən ölüm halları yüksək olaraq qalmaqdadır. Vərəm, sifilis nedikulyoz, malyariya və bir sıra digər yoluxucu xəstəliklərin xeyli artması, yaxud yenidən yayılması müşahidə olu- nur. Əhalinin 100 min nəfərinə görə DİN-in islah müəssisələrində olanlar, qaçqınlar, sərgərdanlar və daimi yaşayış yeri olmayan şəxslər arasında ilk dəfə aktiv vərəm diaqnozu qoyulmuş xəstələrin sayı 1998-ci illə müqayisədə 1999-cu ildə Ermənistanda iki dəfə, Qazaxıstanda isə 20% artmışdır.

Orta hesabla, Birlik üzrə yoluxucu və parazitar xəstəliklərdən ölüm hallarının təqribən yarısı tənəffüs orqanları vəreminin payına düşür. 1995-ci illə müqayisədə 1999-cu ildə, demək olar, bütün ölkələrdə, xüsusilə Qazaxıstanda və Qırğızıstanda tənəffüs orqanlarının vərəmindən ölümün sayı xeyli artmışdır.

MDB ölkələrində QİÇS-in, narkomanlığın ən yüksək yayılma sürəti müşahidə edilir. 2001-ci ilin sonunda Rusiyada 129 min immun çatışmazlığı virusuna (İÇV) yoluxma qeydə alın-

mışdır. Yaxın gələcəkdə onların sayı 1 milyona çata bilər. Bələlərinin 80% -i 15-25 yaşlarındadır, beləliklə, bütün bir nəsil məhv ola bilər. Rəsmi məlumata görə, 2002-ci ilin əvvəlinə Ukraynada İÇV/ QİÇS-ə yoluxmuş 30 mindən çox, əsasən, cavan adam qeydiyyata alınmışdır. BMT ekspertlərinin Ukraynada epidemiya vəziyyətinə dair ukraynalı həmkarları ilə birgə apardıqları analizlərin nəticələrinə görə, 1999-cu ildə ölkədə İÇV-yə yoluxanların real məcmu sayı 200-240 min nəfər olmuşdur. 2002-ci il yanvarın 1-nə narkomanların sayı 68 mindən çox idi. 2000-ci ilin əvvəlinə alkoqol problemləri ilə bağlı şəxslərin sayı təqribən 690 min nəfər idi ki, onların da 85%-ni 25-55-dək aktiv yaşlılar təşkil edirdi.

90-cı illərdə ölümün artmasına şərait yaradan amillərdən biri də ekoloji vəziyyətin pisləşməsi idi. Çernobıl qəzası nəticəsində Ukraynanın, Belarusun və Rusiyanın 5 milyondan çox əhali yaşayan böyük bir ərazisi (145 min km$^2$) çirklənməyə məruz qaldı. 100 mindən çox adam qəza zonasından evakuasiya olundu. 2,5 milyondan çox adam yaşayan Aralboyu zonada (Özbəkistanın Xarəzm vilayəti, Qaraqalpaq Respublikası) son dərəcə ağır ekoloji şərait yarandı. Körpə ölümü yüksək səviyyədə qalmaqdadır. Hər 1000 nəfər doğulan uşaqdan Belarusda 9,3-ü (2000), Türkmənistanda 25,4-ü (1999) ölür. MDB üzrə orta göstərici 17,1-dir (1999).

MDB-nin yeddi ölkəsində – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Ukraynada uşaq ölümünün artdığı 1993-cü il ən pis il olmuşdur. 1993-cü ildən sonra körpə ölümü, xüsusilə Tacikistanda, Azərbaycanda və Qazaxıstanda xeyli – 2002-ci ildə hər 1000 nəfər doğulandan 1 yaşınadək ölənlərin sayı, müvafiq olaraq, 47-dən 19,4-ə, 28,2-dən 12,8-ə, 28,4-dən 19,6-ya enmişdir. Lakin MDB ölkələrində körpə ölümünün səviyyəsi yüksək olaraq qalmaqdadır və inkişaf etmiş ölkələrdəki analoji göstəricilərdən 2-3 dəfə çoxdur (Fransada və Almaniyada 4,4, İsveçdə 3,4).*

Körpə ölümünün əsas səbəbləri Azərbaycanda, Qırğızıstanda, Tacikistanda, Türkmənistanda, Özbəkistanda tənəffüs orqanlarının xəstəlikləri, Ermənistanda, Rusiyada, Ukraynada

perinatal dövrdə yaranan vəziyyət (həyatın elə birinci həftəsində ölüm), Belarusda anadangəlmə anomaliyadır.

Kişi və qadın ölümü arasında MDB ölkələri üçün səciyyəvi olan böyük fərq, əhalinin normal cins tənasübünün pozulmasına və hətta nisbətən cavan yaşlarda qadınların sayca üstünlüyünə gətirib çıxarır.

Qadınların kişilərdən sayca üstünlüyü Ermənistanda, Azərbaycanda, Gürcüstanda 30-34, Rusiyada isə 35-39 yaş qrupundan başlayır. 30-34 yaş qrupunda hər 100 qadına nisbətdə Azərbaycanda 11, Ermənistanda 9, Gürcüstanda 6 kişi azdır. Rusiyada cavanlıqdan tutmuş, ahıl yaşadək qadınların çoxluğu xüsusilə sürətlə artır. Belə ki, Rusiyada 40-44 yaş qrupunda hər 100 qadına 96 kişi, 45-49 yaş qrupunda 92, 50-54 yaş qrupunda 87, 55-59 yaş qrupunda 77, 60-64 yaş qrupunda isə 72 kişi düşür.

2.12 cədvəlinin göstəricilərindən görünür ki, MDB ölkələri yaş strukturuna görə üç qrupa bölünür. Birinci qrupa əhalisi ən yaşlı olan Belarus, Gürcüstan, Rusiya, Ukrayna daxildir. Bu ölkələrdə 65 və ondan yuxarı yaşlı əhali ən yüksək saydadır – 12,5-13,8%. Uşaqların xüsusi çəkisi isə 20,4%-dən çox deyil. İkinci qrupa ən cavan yaş strukturuna malik Orta Asiya dövlətləri və Azərbaycan daxildir. Burada uşaqların payı Azərbaycandakı 32%-dən Tacikistandakı 42%-ə qədərdir. Ahıl yaşlılar isə 3,9-5,5% arasındadır. Üçüncü qrupa daxil olan Ermənistan, Qazaxıstan və Moldova aralıq vəziyyətdədirlər. Onlarda uşaqlar 24-29%, ahıllar 7-9%-dir.

Yuxarı yaş qruplarına mənsub şəxslərin getdikcə artması, uşaqların xüsusi çəkisinin aşağı düşməsi Birliyin bütün ölkələri üçün səciyyəvidir. 2002-ci ilin əvvəlinə 65 yaşından yuxarı əhalinin xüsusi çəkisi Belarusda 1991-ci ildəki 11% müqabilində 13,3%, Rusiyada 12,5% (10%), Ukraynada isə 13,8% (12%) olmuşdur. Nəticədə, həmin ölkələrdə yaşı 65-dən çox olanların 15-65 yaşlı əmək qabiliyyətli əhali üzərinə düşən demoqrafik yükü 90-cı illərin əvvəli ilə müqayisədə 20-30% artmış, uşaqların demoqrafik yükü isə, əksinə, 10-15% azalmışdır.

MDB ölkələrində əhalinin qocalması davam edəcəkdir.

BMT ekspertlərinin hesablamalarına görə, 2050-ci ilədək əhalinin ümumi sayında yaşı 65-dən çox olanlar iki dəfə, o cümlədən Belarusda 14%-dən 25%-dək, Rusiyada 13%-dən 25%-dək, Ukraynada 14%-dən 27%-dək artacaqdır. Belə qocalma sürəti inkişaf etmiş Avropa ölkələri üçün də səciyyəvidir: Avstriya və İsveçrədə 15%-dən 30%-dək, Belçikada 17%-dən 28%-dək, Almaniyada 16%-dən 28%-dək, Yunanıstanda 18%-dən 34%-dək, İspaniyada 17%-dən 37%-dək. Çində gözlənilən artım sürəti daha yüksək – 11%-dən 33%-dək ola bilər.

Bir sıra MDB ölkələri artmaqda olan qocalma meyllərinə cavab olaraq və iqtisadi cəhətdən inkişaf etmiş Avropa ölkələrinin təcrübəsini nəzərə alaraq, pensiya islahatları çərçivəsində pensiyaya çıxmaq yaşını tədricən yuxarı qaldırmaq yoluna qədəm qoymuşlar. Bu halda, iki yanaşmadan istifadə olunur.

Birinci yanaşmada qanunla müəyyən edilmiş yaş saxlanılır, lakin daha çevik olur. Pensiyaya daha gec çıxmada sığorta stajının bir ilinin (ayının) dəyəri müvafiq cədvəllə stimullaşdırılır ki, bu da daha yüksək pensiyanı təmin edir. Məsələn, Belarusda işçilər pensiya yaşına çatdıqca pensiyanın həcmi əmək haqqının 1%-i qədər, lakin hər iki iş ayı üçün minimum pensiyanın 1%-dən az olmayaraq, Ukraynada əmək haqqının 1%-i qədər, lakin hər iş ili üçün minimum pensiyanın 1%-dən az olmayaraq artır.

İkinci yanaşmada pensiya yaşının birbaşa, lakin birdəfəlik yox, hər il 3-6 ay artırılmaqla, tədricən qaldırılması nəzərdə tutulur, Azərbaycanda, Ermənistanda, Gürcüstanda, Moldovada, Qırğızıstanda, Qazaxıstanda pensiya yaşının kişilər üçün 63-65-ə, qadınlar üçün isə 58-63-ə qaldırılmasını nəzərdə tutan müvafiq qərarlar qəbul edilmişdir. Həm də, Gürcüstanda pensiya yaşı birdəfəlik 1997-ci ildə artırılmışsa (kişilər üçün 65, qadınlar üçün 60 yaş), digər dövlətlərdə onun ilbəil qaldırılması cədvəli müəyyən edilmişdir: Azərbaycanda 2002-ci ildə (kişilər üçün 61, qadınlar üçün 57 yaş), Ermənistanda 2001-ci ildə (müvafiq olaraq, 65 və 63 yaş), Qırğızıstanda 2004-cü ildə, Qazaxıstanda isə 2001-ci ildə (63 və 58 yaş), Moldovada isə pensiya yaşı 2008-ci ildən kişilər üçün 65, qadınlar üçün 60 yaş

olacaqdır. Lakin MDB-nin bir sıra ölkələrində pensiya yaşının qaldırılması əsrlərin ayrıcında həmin ölkələrdə yaranmış demoqrafik şəraitə uyğun gəlmir, çünki onlarda ömür uzunluğu inkişaf etmiş ölkələrdəkindən daha aşağı səviyyədə qalmaqdadır.

MDB-nin bütün ölkələrində əhalinin ümumi sayında yerli millətdən olanların xüsusi çəkisi artmışdır. Məsələn, 1999-cu il siyahıyaalmasına görə, Azərbaycan əhalisinin ümumi sayında azərbaycanlıların sayı 90,6% (1987-ci ildə 82,7%), sayca ikinci millət olan rusların sayı isə 1,8% (1989-cu ildə 5,6%) olmuşdur. Belarusun əhalisində belarusların sayı 81,2%-ə çatmış (1989-cu ildə 77,9%), rusların, polyakların, ukraynalıların, yəhudilərin sayı isə azalmışdır.

**Cədvəl 2.12**

**MDB ölkələri əhalisinin yaş strukturu**

| Ölkələr | Əhalinin 2001-ci ilin əvvəlinə olan sayı, milyon nəfər hesabilə | Yaş qrupunun payı, %- lə | | | Əhalinin 1000 nəfərinə 15-64 yaşlılar | |
|---|---|---|---|---|---|---|
| | | 0-14 | 15-64 | 65 və yuxarı | 0-14 | 65 və yuxarı |
| Belarus | 9,99 | 18,9 | 67,8 | 13,3 | 279 | 196 |
| Gürcüstan* | 5,1 | 24,0 | 66,3 | 13,3 | 308 | 201 |
| Rusiya | 144,8 | 18,3 | 69,2 | 12,5 | 264 | 181 |
| Ukrayna | 49,0 | 17,8 | 68,4 | 13,8 | 261 | 202 |
| Ermənistan | 3,8 | 24,2 | 66,9 | 8,9 | 362 | 132 |
| Qazaxıstan** | 14,8 | 28,7 | 64,5 | 6,8 | 445 | 105 |
| Moldova | 4,3 | 23,7 | 66,9 | 4,9 | 355 | 140 |
| Azərbaycan | 8,1 | 31,8 | 62,7 | 5,5 | 508 | 87 |
| Qırğızıstan | 4,9 | 35,2 | 59,4 | 5,4 | 592 | 92 |
| Tacikistan*** | 6,2 | 42,4 | 53,5 | 4,1 | 793 | 77 |
| Türkmənistan | 4,8 | 37,9 | 58,2 | 3,9 | 652 | 66 |
| Özbəkistan | 24,9 | 38,3 | 57,5 | 4,2 | 665 | 73 |

* əhalinin 2002-ci ilin əvvəlinə olan sayı

** yaş göstəriciləri 1999-cu il siyahıyaalınmasının ilkin nəticələri əsasında dəqiqləşdirilmişdir.

*** 1998 -ci il

Qazaxıstanın milli tərkibində xüsusilə əhəmiyyətli dəyişikliklər baş vermişdir. Uzun illər ərzində, ilk dəfə olaraq, qazax-

ların sayı 1,5 milyon (22,9%) artaraq, respublika əhalisinin yarısını ötmüş və 8 milyon nəfərə (53,4%) çatmışdır. Digər millətlərin sayı isə azalmışdır: ruslar 6,1 milyondan 4,5 milyonadək, yaxud 26,1%, ukraynalılar 876 mindən 547 minədək (37,5%), almanlar 947 mindən 353 minədək, yaxud üçdə ikisi qədər, habelə tatarlar, belaruslar və s. Qırğızıstanda da qırğızların sayı xeyli artaraq, 1,9 milyondan 3,1 milyona (1989-cu ildəki 52,4%-dən 1999-cu ildə 64,9%-ə) çatmışdır. Rusların sayı isə təqribən üçdə biri qədər – 916 mindən 663 minədək – azalmışdır. Ehtimal etmək olar ki, Mərkəzi Asiya dövlətlərində və Azərbaycanda əhalinin milli tərkibində yekcinsliyin artması çoxuşaqlılıq ənənələrinin saxlanmasına kömək edəcəkdir. Bu səbəbdən göstərilən ölkələrdə doğumun səviyyəsi hələ uzun illər nisbətən yüksək olacaqdır.

## 2.7. Əhali qanunları

***Qanunlar və qanunauyğunluqlar*** *– təbiətdə və cəmiyyətdəki hadisələr arasında sabit, təkrarlanan nisbətdir. Onlar obyektiv xarakter daşıyır, insanların şüurundan asılı olmayaraq mövcuddurlar.*

Ümumi əhali qanunu məsələsi hələ kifayət qədər işlənib hazırlanmamışdır. İlk nəzəriyyəçi XVIII-XIX əsrlər ingilis iqtisadçısı, keşiş (abbat) T.R.Maltus olmuşdur. O, istər həyatın qorunub saxlanması, istərsə də yüksək doğumun şüurlu surətdə və məqsədyönlü şəkildə qarşısının alınması problemlərini araşdırmışdır. Onun araşdırmaları əvvəlcə fərdlər və ailə səviyyəsində, sonralar isə siyasət sahəsində aparılmışdır. Əhalinin inkişaf səviyyəsi vasitələri istehsalının artırılması sürətini xeyli üstələyir. Maltus qeyd edirdi ki, insanlar daim bütün canlı varlıqlara xas olan ərzağın imkan verdiyindən daha sürətlə çoxalmağa səy göstərirlər (bu isə onun dövrü üçün ədalətli idi). Həm də o hesab edirdi ki, əhali həndəsi silsilə ilə çoxalır, halbuki yaşayış vasitələri ədədi silsilə ilə artır. Hazırda dünya əhalisi 6,3 milyard nəfərdən çoxdur və BMT ekspertlərinin proqnozlarına görə, 2015-ci ilədək hər il 82 milyon nəfər ar-

tacaqdır. Bu, azdır, yoxsa, çox? Alimlər arasında müxtəlif fikirlər mövcuddur. XX əsrdə sosialist ölkələrinin alimləri daha nikbin idilər. Onlar Yerin və Okeanın bütün resurslarını hesablayaraq, belə bir qəti nəticəyə gəlmişdilər ki, heç bir problem olmadan on milyardlarla adamı yedizdirmək mümkündür. Hazırda isə aydındır ki, problemlər vardır və onlar həm Yer kürəsi əhalisinin ərzaqla təminatı imkanları, həm də onun artımının ekoloji məhdudiyyətləri ilə bağlıdır. BMT-nin məlumatına görə, dünyada 1 milyard adam yoxsulluq içərisində yaşayır, 500 milyona yaxın adam doyunca yemir, hər gün təqribən 35 min adam aclıqdan ölür. Dünya Bankının tərtib etdiyi regional yoxsulluq dərəcəsi cədvəlində Cənubi Asiya (Hindistan, Pakistan, Banqladeş, Şri-Lanka, Nepal), Afrika (Böyük Səhradan cənubda), Latın Amerikası birinci yerdədir. Lakin kənd təsərrüfatının potensial imkanlarından heç də tam istifadə olunmadığı üçün əhalinin ifrat sayı barədə danışmağın tez olmasına dair yazılar da dərc olunur.

BMT-nin 2002-ci il üçün olan məlumatına görə, planetdə bir kvadrat kilometrə orta əhali sıxlığı 44 nəfərdir, hər bir Yer kürəsi əhalisinə isə 2,5 hektar torpaq düşür.

Əlbəttə, planetdə, həqiqətən, əhalisi sıx olan yerlər var: Hindistan, Banqladeş, Çin. Lakin hələ ifrat sıxlıqdan söhbət gedə bilməz. Planet miqyasında əmək bölgüsü yaratmış müasir texniki sivilizasiya şəraitində belə sıxlıq yoxdur. Mütəxəssislər, demoqraflar, coğrafiyaşünaslar yaxın demoqrafik gələcəkdə Yer kürəsi əhalisinin ancaq iki dəfə artacağını və onun bu səviyyədə təbii sabitləşəcəyini ehtimal edirlər (hərçənd, bu zaman yeni, o dövrün özünəməxsus problemləri meydana gələcəkdir). Üstəlik, hədsiz sıxlıqdan tamamilə fərqli şərait yarana bilər. Əgər azuşaqlılıq ümumi hal alsa, bir-birini əvəz edən nəsillərdə bir-iki uşaq olduğu halda, əhalinin təkrar istehsalı təhlükə altında qala və gələcəkdə insan nəslinin təbii tükənməsi kimi təşviş doğuran proqnozlar meydana gələ bilər.

Məyusedici proqnozların müəllifləri dünyada qanunauyğun xarakter daşıyan demoqrafik dəyişikliklərlə, bir qayda olaraq, ya tanış deyillər, ya da onları çox səthi qiymətləndirirlər. Bu-

nunla belə, dünya birliyinə təlqin edilən təbliğat stereotiplərindən biri ondan ibarətdir ki, dünya əhalisinin artımı ərzaq istehsalının inkişafını üstələyir və buna görə də o çatışmır (yaxud, tezliklə çatışmayacaqdır). Bu, doğrudanmı, belədir?

Həm də, «demoqrafik partlayış»dan, planet əhalisinin həddən artıq çoxalması təhlükəsindən danışaraq, inkişaf etməkdə olan ölkələrin bütün bəlalarını, ilk növbədə isə onların gerilik və yoxsulluğunu bununla bağlayırlar. Buradan isə belə bir nəticə çıxarılır: dünya əhalisinin artımını süni şəkildə kəskin surətdə azaltmaq lazımdır. Guya, başlıca yol sosial-iqtisadi inkişaf deyil, məhz budur. Varlı və yoxsul ölkələr arasında böyük fərq mövcud olduğu indiki şəraitdə isə inkişafı dondurmaq lazımdır.

Bununla belə, *Yer kürəsi əhalisinin ən yüksək artım sürəti artıq arxada qalmışdır (hərçənd, mütləq artım hələ də yüksəkdir), başlıcası isə tədricən aşağı düşür.*

Burada nisbi və mütləq artım sürətləri arasındakı fərq qeyd olunmalıdır. Ötən onillikdə tarixdə ən yüksək mütləq artım baş verməsi dolaşıqlıq doğurmuşdur. Lakin artım sürəti artıq azalmaqdadır. Sənayecə inkişaf etmiş ölkələrdə o, artıq çoxdan istənildiyindən də aşağı olub, cəmi ildə 0,5% təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə isə o, ümumilikdə, ildə 2%-dən bir qədər çoxdur. Asiyanın (ilk növbədə, Çində), Latın Amerikasının, Karib dənizi hövzəsinin bəzi bölgələrində sürət kəskin surətdə aşağı düşməyə başlamışdır. Təkcə doğumun tənzimlənməsi mümkün olmayan Afrikada əhalinin artım səviyyəsi ildə 3%-ə çatır.

Bütün dünyada tədricən yüksək doğum və aşağı ölümlə səciyyələnən və ötən əsrin 50-70-ci illərində «demoqrafik partlayış»a gətirib çıxarmış təkrar əhali istehsalı tipindən aşağı düşmüş ölümlə yüksək olmayan doğumun uyuşmasının üstünlüyə malik olduğu tipə keçid müşahidə edilir. Əhalinin sayının təbii dəyişməsi, ümumən, özünü tənzimləmə qabiliyyətinə malikdir.

Müxtəlif ssenarilər (minimumdan maksimuma qədər) üzrə ümumiləşdirilmiş hesablamaların müqayisəli nəticələri 2.13

cədvəlində göstərilmişdir.

**Cədvəl 2.13**

**Dünya əhalisi sayının proqnoz qiymətləndirilməsi**

| İl | Əhali (milyard nəfər) məlumatlar üzrə | | |
|---|---|---|---|
| | STİ | BMT | Dünya Bankı |
| 2025 | 8,1- 9,9 | 7,9 - 9,1 | 8,3 |
| 2100 | 9,1- 16,1 | 9,0 - 19,2 | 11,7 |

*Ümumi nəticə:* dünyanın üç tanınmış proqnoz mərkəzinin hesablamaları «demoqrafik apokalipsis» üçün əsas vermir və orta ölçülmüş səviyyə 2025-ci ilə 8,5 milyard nəfərə yaxın, 2100-cü ilə isə təqribən 12 milyard nəfərdir. Dünya Bankının məlumatları daha müqabildir (2025-ci və 2100-cü illər üçün, müvafiq olaraq, 8,3 və 11,7 milyard nəfər). Son zamanlarda bu proqnozlar azaldılma istiqamətində yeniləşdirilmişdir (müvafiq olaraq, 8 və 10-11 milyard nəfər).

Bizcə, STİ-nin «Dünya əhalisinin gələcəyi. Biz bu gün nə təklif edə bilərik» (1994) adlı sanballı işi son dövrün ən böyük demoqrafik proqnoz məlumatı sayılmalıdır. Burada dünyada və onun əsas regionlarında gedən demoqrafik dəyişmə meylləri və bu cür inkişafın gələcəkdə mümkün variantları təhlil olunur. Bir çox hallarda retrospektiv 1950-ci ilə qədər gedib çıxsa da, baza olaraq, 1990-cı il qəbul edilmişdir. 2025-ci il xüsusilə fərqləndirilir. Tanınmış Amerika demoqrafı N.Heyfets STİ-nin nəşrinə ön sözündə qeyd edir ki, «bu nəşr» ən yaxşı demoqrafik bilgi verir. Heyfetsə görə, nəşr iki məqsədə – gələcək əhali dinamikasının alternativ meyllərini şərh edərək, «kənardan şişirdilmiş marağa cavab verməyə», eyni zamanda, «ehtimal olunan əhali layihələrinə dair» mübahisəli məsələləri demoqrafiya elmi çərçivəsində irəli aparmağa xidmət edir. Mümkün gələcək meyllər üç tərkib hissə – doğum, ölüm və miqrasiya baxımından nəzərdən keçirilir və nəticədə gələcək meyllərin görüntüləri alternativ ssenarilər blokunda toplanır.

Meyllərin inkişafındakı böyük fərqlər təqdim olunan 2.14 cədvəlində yaxşı göstərilmişdir. 1990-cı ildə iki regionun –

Şimali Afrika və Yaponiya, Avstraliya, Yeni Zelandiyanın hər birində 140 milyon əhali vardı. Yaponiya, Avstraliya və Yeni Zelandiyanın əhalisi, yəqin ki, təqribən eyni səviyyədə sabitləşəcəkdir, Şimali Afrikanın əhalisi isə 2050-ci ilədək asanlıqla üç dəfə arta bilər. Məhz konkret regionlar üzrə təhlil bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

**Cədvəl 2.14**

**STİ-nin variantlarından biri – mərkəzi ssenaridən aşağı səviyyə, milyon nəfər**

| Regionlar | 1990 | 2010 | 2030 | 2050 | 2070 | 2100 |
|---|---|---|---|---|---|---|
| Şimali Afrika | 140 | 226 | 332 | 440 | 529 | 595 |
| Mərkəzi Afrika | 502 | 924 | 1499 | 2097 | 2561 | 2700 |
| Şimali Amerika | 277 | 325 | 376 | 420 | 475 | 577 |
| Mərkəzi Amerika və Karib regionu ölkələri | 147 | 219 | 289 | 342 | 370 | 371 |
| Cənubi Amerika | 294 | 407 | 516 | 604 | 667 | 727 |
| Qərbi və Mərkəzi Asiya | 197 | 312 | 442 | 553 | 632 | 682 |
| Cənubi Asiya | 1191 | 1806 | 2428 | 2874 | 3065 | 2855 |
| Çin(Honkonqla birgə) | 1159 | 1469 | 1722 | 1873 | 1945 | 1968 |
| Cənub-Şərqi Asiya | 518 | 735 | 937 | 1076 | 1129 | 1082 |
| Yaponiya, Avstraliya və Yeni Zelandiya | 144 | 158 | 160 | 158 | 154 | 151 |
| Şərqi Avropa | 345 | 368 | 380 | 385 | 392 | 427 |
| Qərbi Avropa | 377 | 404 | 416 | 416 | 415 | 426 |
| İnkişaf etməkdə olan regionlar | 4149 | 6097 | 8167 | 9895 | 10897 | 10980 |
| Sənayeləşmiş regionlar | 1142 | 1255 | 1333 | 1378 | 1437 | 1582 |
| Bütün dünya, milyard nəfər | 5,29 | 7,35 | 9,49 | 11,2 | 12,3 | 12,562 |

Əhalinin yaş strukturundakı gələcək meyllər də, ümumi artım meyllərində olduğu kimi, kəskin ifadə olunur və dəyişkəndir. Dünyanın yaş strukturunu nəzərdən keçirsək, yüksək doğum və yüksək ölüm ehtimal olunduğu halda o, piramidaya bənzəyəcəkdir. Bu, meyl cəmiyyətlərin radikal surətdə fərqlənməsini nəzərdə tutur.

Dünya əhalisinin artım layihələri müqayisə edilərkən mühüm bir xüsusiyyətə diqqət yetirilir. Əhalinin yüksək artımı alınan ssenarilərdə onun orta yaşda olması, əhalinin daha sabit

həcmi nəzərdə tutulan ssenarilərdə isə onun yaşının artması göstərilir.

Regional proqnozların təhlili köklü meylləri aşkara çıxarır. Yaxın gələcəkdə inkişaf etməkdə olan ölkələrdə doğumun xeyli azalacağı gözlənilir. Cənub-Şərqi Asiyanın, xüsusilə Çinin təcrübəsi əhali siyasətinin və ailənin planlaşdırılması proqramlarının uğurundan xəbər verir. İnkişaf etməkdə olan ölkələr üçün ölüm səviyyəsinin dəyişməsi perspektivləri nəzərdən keçirilərkən proqnoz əhalini yedizdirməyə kifayət qədər qidanın olub-olmaması məsələsi diqqəti cəlb edir. Belə bir nəticə çıxarılır ki, hər halda, növbəti onillik üçün ərzaq təminatı kifayət qədərdir. İnsan ömrünün yüksək həddi məsələsi qadınların təqribən 80 il yaşadığı inkişaf etmiş ölkələr üçün həlledici məsələyə çevrilir. Proqnoz dəlilləri isə bundan asılıdır.

Həmişə məlumatların natamamlığı və gələcək meyllərin qeyri-müəyyənliyi üzündən beynəlxalq miqrasiya məsələləri başqalarından daha az öyrənilir. Halbuki o, regional səviyyədə zəruridir. Belə ki, Yer üzündə müharibələr və inqilablar çətin ki, aradan qalxsın və bu, dünyada regionlararası miqrasiyaya dair bütün proqnozları alt-üst edə bilər.

Dünya əhalisi 2030-cu ilədək artacaqdır. Bunun nə miqyasda baş verəcəyi hər növbəti onillikdə aydınlaşacaqdır. Qeyd edildiyi kimi, sabitləşmə, gec də olsa, baş verəcəkdir. Bununla yanaşı əhalinin təbii təkrar istehsalı parametrləri probleminin birmənalı həlli yoxdur. O, bütövlükdə, uzunmüddətli xarakter daşıyır, lakin burada yaxın və daha uzaq perspektivlər fərqləndirilməlidir. Elm aləmində əhalinin təkrar istehsalı probleminin uzunömürlülük problemi ilə sıx əlaqədə öyrənilməli olduğunu zəruri sayan və orta ömür müddətini xeyli (100, sonra isə 150 ilə) qaldırmaq hesabına doğum və ölümün tarazlaşdırılmasına nail olmağı mümkün hesab edən görkəmli iqtisadçı və demoqraf, akademik S.Q.Strumilinin mövqeyi diqqətəlayiqdir. Ona görə əhali artımını məhdudlaşdıran bütün iqtisadi əngəllər tədricən aradan qaldırılacaq və məhz bu şəraitdə ləngidilmiş artımla bütün bəşəriyyət bir zaman tam maneəsiz surətdə təbii uzunömürlülük həddinə yaxınlaşacaqdır və bu sə-

viyyədə artıq sadə təkrar istehsal çərçivəsində onun qarşısında yalnız hüdudsuz keyfiyyət artımı vəzifəsi duracaqdır.

Bir çox demoqraflar fertilliklə ölüm arasında son sabit tarazlığın məqsədyönlülüyü və bu prosesin, xüsusilə iqtisadi böhran şəraitində, təbiiliyinin anlaşılması fikrinə gəlirlər.

Qlobal demoqrafik şəraitin əsas əlamətlərinin formalaşmasının xarakteri, bəşəriyyətin öz inkişafını anadangəlmə, daha dəqiq desək, genetik, əzəli tənzimləmə qabiliyyətinə malik olduğunu göstərir.

Dünyanın əsas regionları üzrə əhalinin say proqnozlarını nəzərdən keçirək. Müəlliflər Yer kürəsi əhalisinin bir neçə dəfə artmasının gözlənilməməsi mövqeyini dəstəklədiklərindən onlar mövcud əsas say proqnozları (BMT, STİ, Dünya Bankı) arasından BMT və YUNESKO-DST-nin məlumatlarından istifadə etmişlər.

BMT və YUNESKO-DST-nin «Dünya əhalisi, 1990» məruzəsi xüsusilə maraqlıdır. Burada 80-ci illərin ortalarına, yaxud sonunadək dünya ölkələri üzrə sosial inkişafın əsas hesabat göstəriciləri verilmiş və bir sıra demoqrafik göstəricilər əhatə olunmuşdur. Onun əsas müddəalarını xatırladaq.

Başlıcası, müxtəlif ölkələr üzrə eyni vaxta aid məlumatların tutuşdurulmasıdır ki, həmin ölkələrin rəsmi statistikasında buna nail olmaq çətin, əslində isə, qeyri-mümkün olardı. Burada dövlət və ərazilərin hökumətlərinin onların qarşısında əvvəlcədən qoyulmuş suallara cavablarından, üstəlik, BMT və YUNESKO-DST mütəxəssislərinin dünya, onun region və ölkələri üzrə hesablamalarından da istifadə edilmişdir. Bu, dəqiqlik baxımından nadir materialdır. Hərçənd, o, müxtəlif ölkələri xarakterizə edən statistik yanaşmalar, uçotun vəziyyəti və digər amillərin oxşarsızlığı üzündən həmişə təqribi olur. Bu material zaman baxımından da tamamilə yenidir. Üstəlik, burada dünyanın və onun əsas regionlarının iqtisadiyyatında və əhalisində 2025-ci ilədək baş verə biləcək dəyişikliklər də əksini tapmışdır. Əvvəlki illərə aid təhlil, əsasən, 20 illik dövrü əhatə edir, bəzən isə 1950-ci ilədək gedib çıxır. Beləliklə də geniş retrospektiv təhlil gedir.

2025-ci ilə olan proqnoza görə əhalinin sayı 8 milyard 467 milyon nəfər olacaqdır. Bu proqnozda dünya əhalisi artımının ancaq 147 milyon nəfəri (5%-dən azı) şimal yarımkürəsində yerləşən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin payına düşür. Bu artım doğumun artması hesabına deyil, ölümün azalması və ömür uzunluğunun artması (73 ildən 79 illədək) sayəsində baş verəcəkdir. Doğumun səviyyəsinə gəldikdə isə indi bütün reproduktiv dövr ərzində hər qadına iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə 1,9, Qərbi Avropada isə 1,58 uşaq düşür. Almaniya, Danimarka, İsveç, Avstriya kimi ölkələri depopulyasiyadan yalnız immiqrasiya «xilas» edir. Şərqi Avropa ölkələrində doğum səviyyəsi tarixdə ilk dəfə ən aşağı həddə enmişdir.

1950-ci ildə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə əhali artımı 17% idisə, 2025-ci ildə yalnız 15,8% olacaqdır. Birinci yerdə, əvvəlki kimi, Asiya (1950-ci ildə 52,9%; 2025-ci ildə 57%), ikinci yerdə Afrika (8,6%-dən 18,4%-dək), üçüncü yerdə Latın Amerikası və Karib hövzəsi (6,4% və 8,8%) ölkələri qalacaqdır.

1990-2025-ci illərdə dünya əhalisi artımının azı 95%-i Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinin payına düşəcəkdir. Bu, 30 il əvvəlkindən – inkişaf etməkdə olan ölkələrdə əhalinin təbii artımının ən yüksək həddə çatdığı 1965-1970-ci illərdəkindən çoxdur.

Əhali artımının regional diferensiyası get-gedə güclənir. Əgər Latın Amerikasının əhalisi ildə, orta hesabla, 2,1% artırsa, Uruqvayın əhalisi 1%-dən az, Karib regionunun əhalisi 1,45%, Mərkəzi Amerikanın əhalisi 2,3%, Paraqvayın əhalisi isə 3% və daha artıq çoxalır. Ehtimal etmək olar ki, bu ölkələrin əhalisi 1990-cı ildəki 448 milyondan 2025-ci ildə 760 milyona çatacaqdır.

Analoji mənzərəni Asiyada da müşahidə etmək mümkündür. Şərqi Asiyada illik təbii artım sürəti 1,3%-dən azdırsa, bu, Cənub-Şərqi Asiyada 1,9%, Cənubi Asiyada isə 2,3%-dir və artmaqda davam edir. Hazırda Cənubi Asiyanın əhalisi təqribən Şərqi Asiyanın əhalisinə bərabər olub, 1300 milyon nə-

fərdən bir qədər çoxdur. Qərbi Asiyanın əhalisi ildə 2,7% artır ki, bu da Afrikadan sonra ən yüksək artım sürətidir.

Afrikanı yüksək əhali artımı gözləyir. Məhz 90-cı illərdə qitə əhalisinin artımı region tarixində ən yüksək səviyyəyə – ildə 3%-ə çatmışdır. Afrikanın əhalisi hər il 10 milyon artır ki, bu da indinin özündə çoxlu problem doğurur. Burada 10 ildən sonra illik artım 15 milyona, 1990-cı ildəki 648 milyon nəfərdən isə 2025-ci ildə 1581 milyona çatacaq, bu da vəziyyəti daha da ağırlaşdıracaqdır.

1950-ci ildə Avropanın və Şimali Amerikanın əhalisi dünya əhalisinin 32,1%-ni təşkil edirdi. 2025-ci ildə onların payı 15,8%-ə düşəcəkdir. Afrikanın əhalisi isə, əksinə, 2025-ci ildə 20% təşkil edəcəkdir.

Hindistan əhalisinin sayı sərt «bir ailə – bir uşaq» demoqrafik siyasəti aparan Çinin əhalisinə yaxınlaşacaq, son sosioloji tədqiqatların məlumatlarına görə isə 2050-ci ilədək dünyanın ən sıx əhalisi olan ölkəsinə çevriləcəkdir. Əgər o vaxt da, indiki kimi, hər bir hind ailəsində, orta hesabla, üç uşaq olsa, onda ölkənin əhalisi 2,16 milyard nəfər təşkil edəcəkdir. Bu isə nəinki ciddi sosial kataklizmlər törədər, həm də təbii mühitə ağır zərbə vura bilər.

Bununla belə, Çinin təcrübəsi göstərir ki, əhali artımı prosesini idarə etmək mümkündür. Son illərdə Çin hökuməti sərt inzibati tədbirlər vasitəsilə əhali artımını məhdudlaşdıra bilmişdir. Mütəxəssislərin fikrincə, XXI əsrin ortalarında burada 1,4 milyard adam yaşayacaqdır. Əgər Hindistanın hakimiyyət orqanları da «bir ailə – iki uşaq» prinsipini həyata keçirə bilsələr, orada da belə göstəriciyə nail olmaq mümkündür.

Daha uzaq gələcəyə – XXI əsrin sonuna nəzər salsaq, görərik ki, proqnozlaşdırılan əhali artımı sürəti qalarsa, bir sıra ölkələr çox ciddi çətinliklərlə üzləşməli olacaqlar. Məsələn, Nigeriyanın əhalisi, 1982-ci ildəki bütün Afrikada yaşayan əhalinin sayına – 500 milyon nəfərə çata bilər.

# III FƏSİL
# İRQLƏRİN COĞRAFİYASI

## 3.1. Əhalinin irq tərkibi və irqi fərqlər

**İrqlər** *vahid mənşə və fizioloji əlamətləri ilə bağlı olan, tarixən təşəkkül tapmış və müəyyən hüdudlarda areallarda yayılmış insan qruplarıdır.*

İrqlər antropologiyanın xüsusi tədqiqat obyektidir. Bir çox antropoloqların fikrincə, müasir bəşəriyyət üç iri irqdən ibarətdir ki, onlar da, öz növbəsində, bir neçə kiçik irqə bölünür. Sonuncular antropoloji tip qruplarından ibarətdir; onlar, eyni zamanda, irqi sistematikanın əsas vahidlərini təşkil edirlər.

İşlənib hazırlanmış antropoloji irq təsnifatı, ilk növbədə, zahiri əlamətləri (dərinin rəngi, kəllənin forması, boy və bədənin tənasübü, saçın forması, rəngi və s.), habelə gizli, daxili əlamətləri (qan qrupu, odontoloji və dermatoqlifik xüsusiyyətlər və s.) nəzərə alır.

Bəşəriyyətin bir neçə iri (böyük) və bir sıra aralıq irqlərə bölünməsi qəbul olunmuşdur. İri irqlərə avropoidlər, monqoloidlər, neqroidlər, avstraloidlər daxildir. Aralıq irqlərdən isə mulatlar, «rəngli» Afrika qrupları, Amerika metisləri və s. fərqləndirilir. Sosiologiyada və sosial antropologiyada sosial və mədəni keyfiyyətlərin rəmzi funksiyalı, bu və ya digər antropoloji əlamətə (dərinin rəngi və s.) görə birləşən sosial qruplar ayırd edilir. Bu mənada irq, bioloji mahiyyətindən asılı olmayaraq, sosial, yaxud mədəni varlıq kimi mövcud olur. Hər hansı irqi bölgü, müəyyən dərəcədə, şərtidir. Axı, əslində, bütün insanlar, yaxın-uzaqlığından asılı olmayaraq, sözün ən müstəqim mənasında, qan qohumudurlar. İnsanlar arasındakı cismani fərqlər reallıqdır və onlar nəzərə alınmalı, öyrənilməli, təsnif edilməlidir. Lakin bütün bunlar müxtəlif irqlərə mənsub insanların həyat üçün başlıca, ən əhəmiyyətli, yeganə mühüm amil olan hiss və fikir, qabiliyyət və imkan baxımından bərabərliyi və vəhdəti kimi dəfələrlə sübuta yetirilmiş həqiqəti inkar etmir. Bununla belə, elə düşünülməməlidir ki, bütün bə-

şəriyyət həmin irqlərə mənsubdur, bir çox insanlar və bütöv xalqlar kiçik (mikro) irqlərə, habelə qarışıq və keçid mərhələli irq formalarına daxildirlər.

Zahiri görünüşün və daxili quruluşun əsas və ikinci dərəcəli əlamətlərinə görə insanlar bir-birinə çox oxşayırlar. Buna görə də alimlərin çoxu bəşəriyyəti bioloji cəhətdən vahid «kamil insan» növünə aid edirlər. Hazırda bütün quruda, hətta Antraktidada məskunlaşmış bəşəriyyət öz tərkibi etibarilə yekcins deyil. İnsanlar artıq çoxdan irq adlandırılan qruplara bölünmüşlər və bu termin antropologiyada qəbul olunmuşdur. İrq zooloji sistemdəki yarımnöv qrupun oxşarı olan, lakin homoloji cəhətdən ona bənzəməyən bioloji insan qrupudur. Hər bir irq mənşə ümumiliyi ilə səciyyələnir, müəyyən ilkin ərazidə, yaxud arealda əmələ gəlmiş və təşəkkül tapmışdır. İrqlər, əsasən, insanın zahiri görkəminə, morfologiyasına və anatomiyasına aid bədən xüsusiyyətlərinin məcmusu ilə səciyyələnir. Ən başlıca irqi xüsusiyyətlər aşağıdakılardır: saçın forması; üzdə (saqqal, bığ) və bədəndə tük örtüyünün xarakteri və inkişaf dərəcəsi; saçın, dərinin və gözlərin rəngi; yuxarı göz qapağının, burnun və dodaqların forması; başın və sifətin forması, bədənin uzunluğu, yaxud boy.

İstənilən irqin tərkibində onun daha çox və daha az tipik nümayəndələrinə rast gəlmək mümkündür. Eləcə də, daha xarakterik, digərlərindən kəskin surətdə və nisbətən az fərqlənən irqlər vardır. Bəzi irqlər aralıq xarakter daşıyır. ***Böyük neqroid-avstraloid (qara)*** irq, ümumən, Sudan zəncilərində daha qabarıq təzahür edən və onu böyük avropoid və ya monqoloid irqlərindən fərqləndirən əlamətlərin müəyyən uyuşması ilə səciyyələnir. Neqroidlərin irqi əlamətlərinə qara, qıvrım, yaxud dalğalı saçlar; tünd qəhvəyi, yaxud, demək olar, qara (bəzən sarımtıl-qəhvəyi) dəri; qonur gözlər; xeyli yastı, az qabarıq, enli pərəli (bəzən düz, daha ensiz) üst hissəsi batıq burun; əksərən qalın dodaqlar; bir çox hallarda uzunsov baş; orta inkişaf etmiş çənə; üst və alt çənədə dişlərin qabağa çıxması (çənə proqnatizmi) aiddir. Neqroid-avstroloid irqini coğrafi yayılma məkanına əsasən, ekvatorial, yaxud Afrika-Avstraliya irqi də

adlandırırlar. O, təbii olaraq, iki kiçik irqə: 1) Qərb, yaxud Afrika, başqa sözlə, neqroid; 2) Şərq, yaxud Okeaniya, başqa sözlə, avstraloid irqlərinə bölünür.

Böyük Avropa-Asiya, yaxud avropoid (ağ) irqi üçün, bütövlükdə, digər əlamətlər məcmusu: qan damarlarının şəffaflığı sayəsində çəhrayıya çalan, bir çox hallarda daha açıq, bəzən qarabuğdayı rəngli dəri; saçların və gözlərin açıq rəngli olması; dalğalı, yaxud düz saç; kişilərdə uzun və bədənin orta, yaxud sıx tük örtüyü; dodaqların orta qalınlığı, ensiz, qabarıq, üst hissəsi hündür burun; zəif inkişaf etmiş üst göz qapağı; çənənin aşağıya doğru uzanması; bir qayda olaraq, bir qədər geniş üz səciyyəvidir.

***Böyük avropoid (ağ)*** irq daxilində saçın və gözlərin rənginə görə üç kiçik irq – daha aydın ifadəli şimal (açıq rəngli) və cənub (tünd rəngli), habelə az seçilən orta Avropa (orta çalarlı) irqləri fərqləndirilir. Slavyanların xeyli hissəsi kiçik şimal irqinin Ağ dəniz –Baltiya qrupuna aiddir. Onlar üçün açıq xurmayı və kürən saç, göy, yaxud ala gözlər, olduqca ağ dəri səciyyəvidir. Bununla belə, onların burnu içəriyə əyilmişdir, üst hissəsi isə şimal-qərbi avropoid tipinə mənsub olan və əsasən, Şimali Avropa ölkələrində məskunlaşan Atlantika –Baltiya qrupundan fərqli olaraq, çox da hündür deyil. Ağ dəniz –Baltiya qrupu sonuncu ilə xeyli ümumi əlamətlərə malikdir və onların hər ikisi kiçik şimali avropoid irqini təşkil edirlər.

İspaniyanın, Fransanın, İtaliyanın, İsveçrənin, Cənubi Almaniyanın və Balkan yarımadası ölkələrinin əhalisi daha tünd rəngli cənub avropoid qruplarına mənsubdurlar.

***Böyük monqoloid, yaxud Asiya-Amerika (sarı)*** irqi, bütövlükdə, böyük neqroid – avstraloid və avropoid irqlərindən özünəməxsus irqi əlamətlər məcmusu ilə fərqlənir. Belə ki, onların ən tipik nümayəndələri sarıya çalan qarabuğdayı dərili, qonur gözlü, düz, cod qara saçlı, bir qayda olaraq, kosa, bədənləri seyrək tüklü olurlar. Tipik monqoloidlər üçün gözün daxili küncünü örtən üst göz qapağının çox inkişaf etməsi və özünəməxsus qırışığı (bu qırışıq epikantus adlanır) səciyyəvidir; onların sifəti xeyli yastı, almacıq sümükləri genişdir, çənələri

azacıq irəli çıxır; burunları düz, lakin üst hissəsi batıqdır; dodaqları orta inkişaf etmişdir; çoxunun boyu orta və ortadan aşağıdır.

Belə əlamətlər toplusuna daha çox, məsələn, tipik monqoloid olan, lakin daha uca boylu şimali çinlilərdə rast gəlinir. Digər monqoloid qruplarında isə dodaqlar az və ya çox dərəcədə qalın, saçlar cod, boy ortadan aşağı olur. Bu qrupda Amerika hindiləri xüsusi yer tuturlar. Bəzi əlamətləri onları böyük avropoid irqinə yaxınlaşdırır.

Bəşəriyyətdə qarışıq mənşəli tip qrupları da var. Sarı dərili, ancaq yumşaq tünd saçlı loparlar, yaxud saamlar Lapland-Ural deyilən qrupa daxildir. Avropanın uzaq şimal hissəsinin bu sakinləri bədən xüsusiyyətlərinə görə avropoid və monqoloid irqlərini birləşdirirlər.

Eyni zamanda, bir-birindən kəskin surətdə fərqlənən digər iki irqlə böyük oxşarlıqlara malik qruplar da vardır. Özü də bu oxşarlıq qarışma ilə deyil, daha qədim qohumluqla izah olunur. Məsələn, neqroid və avropoid irqlərini birləşdirən Efiopiya qrupu belədir: o, keçid irq xarakterinə malikdir. Görünür, bu, çox qədim qrupdur. Onda iki böyük irqə məxsus əlamətlərin bir araya gəlməsi bu iki irqin çox uzaq keçmişdə vəhdət təşkil etdiyini əyani şəkildə göstərir. Efiopiya və Həbəşistan əhalisinin çoxu Efiopiya irqinə mənsubdur.

Ümumiyyətlə, bəşəriyyət təqribən iyirmi beş-otuz tip qruplarına bölünür. O, eyni zamanda, vəhdət təşkil edir, çünki irqlər arasında aralıq (keçid), yaxud qarışıq xarakterli antropoloji tip qrupları mövcuddur.

İrqlərin tip qruplarının əksəriyyəti üçün bəşəriyyətin bu hissəsinin tarixən əmələ gəldiyi və inkişaf etdiyi müəyyən ümumi əraziyə malik olması səciyyəvidir.

Lakin bir çox hallarda eyni irqə mənsub olanların bu və ya digər hissəsi yaranmış tarixi şəraitlə bağlı qonşu, yaxud hətta xeyli uzaq ölkələrə köçmüşlər. Ayrı-ayrı hallarda bəzi irqlər ya ilkin əraziləri ilə əlaqələrini tamam itirmiş, ya da xeyli hissəsi fiziki məhvə məruz qalmışdır. Gördüyümüz kimi, bu və ya digər irqin nümayəndələri üçün insanın zahiri görünüşünə aid

təxminən eyni irsi cismani xüsusiyyətlərin uyuşması səciyyəvidir. Lakin müəyyən edilmişdir ki, bu irqi əlamətlər fərdi həyat tərzində və təkamül gedişində dəyişir.

Mənşə ümumiliyi ilə bağlı hər bir irqin nümayəndələri arasında digər irqlərin nümayəndələri ilə olduğundan daha yaxın qohumluq əlaqələri mövcuddur.

İrq qrupları güclü fərdi dəyişmələrlə səciyyələnirlər və müxtəlif irqlər arasında sərhədlər, adətən, kəskin şəkildə təzahür etmir. Belə ki, bəzi irqlər nəzərə çarpmayan keçidlərlə digər irqlərlə bağlanırlar. Bir sıra hallarda bu və ya digər ölkə əhalisinin, yaxud əhali qrupunun irqi tərkibini, populyasiyasını müəyyənləşdirmək çətin olur.

İrq əlamətləri və onların fərdi dəyişmələri antropologiyada işlənib hazırlanmış üsullarla və xüsusi alətlərlə müəyyənləşdirilir. Bir qayda olaraq, öyrənilən irqin yüzlərlə, hətta minlərlə nümayəndəsi ölçülməyə və müayinəyə məruz qalırlar. Bu cür üsullar bu və ya digər xalqın irq tərkibi, irq tipinin nə dərəcədə təmiz, yaxud qarışıq olduğu haqqında kifayət qədər dəqiq fikir yürütməyə imkan versə də, bəzi insanların bu və ya digər irqə mənsubluğunu mütləq dəqiqliklə müəyyənləşdirməyə imkan vermir. Bu, ondan irəli gəlir ki, ya həmin fərdin irq tipi aşkar ifadə olunmur, ya da o, qarışıq irqə mənsub olur.

Bir sıra hallarda irqi əlamətlər hətta bir ömür ərzində dəyişir. Bəzən irqi bölmələrin əlamətləri çox da böyük olmayan zaman kəsiyində dəyişir. Məsələn, son yüz ildə bəşəriyyətin bir çox qruplarında başın forması dəyişmişdir. Görkəmli mütərəqqi Amerika antropoloqu Frants Boas müəyyənləşdirmişdir ki, irq qrupları daxilində kəllənin forması hətta daha qısa müddətdə, məsələn, dünyanın bir hissəsindən başqa hissəsinə yerdəyişmə zamanı, - Avropadan Amerikaya köçmələrdə olduğu kimi, - dəyişir.

İrqi əlamətlərin fərdi və ümumi dəyişkənliyi bir-biri ilə qırılmaz surətdə bağlıdır və az nəzərə çarpsa da, bəşəriyyətin irq qruplarının modifikasiyasına aparır. İrqin irsi tərkibi kifayət qədər davamlı olsa da, daim dəyişməyə məruz qalır. Biz indiyədək irqlər arasındakı oxşarlıqlardan çox onların arasındakı

fəqlərdən danışdıq. Lakin xatırladaq ki, irqlər arasındakı fərqlər yalnız əlamətlər cəm halda götürüldüyü zaman kifayət qədər təzahür edir. İrqi əlamətlər ayrı-ayrılıqda götürüldükdə isə onların yalnız cüzi hissəsi fərdin bu və ya digər irqə mənsubluğuna etibarlı sübut ola bilər. Bu baxımdan, ən aşkar əlamət tipik zəncilər üçün çox səciyyəvi olan qıvrım, yaxud narın qıvrım saçlardır.

Bir çox hallarda bu və ya digər insanı məhz hansı irqə aid etmək lazım gəldiyini müəyyənləşdirmək qətiyyən mümkün olmur. Məsələn, kifayət qədər qabarıq, üst hissəsi orta hündür və orta gen pərəli buruna, habelə digər irqi əlamətlərə hər üç böyük irqin bəzi qruplarında rast gəlmək mümkündür. Həm də bu, hər hansı insanın iki irq nümayəndələrinin izdivacından törəyib-törəməməsindən asılı deyildir. İrqi əlamətlərin qarışması faktı irqlərin mənşə ümumiliyinin və qan qohumluğunun sübutlarından biridir.

İrqi fərqlər insanın bədən quruluşunda, adətən, ikinci dərəcəli, hətta üçüncü dərəcəli xüsusiyyətlərdir. İrqi əlamətlərin bəziləri, məsələn, dərinin rəngi, xeyli dərəcədə, insan orqanizminin ətraf təbii mühitə uyğunlaşması ilə bağlıdır. Bu əlamətlər bəşəriyyətin tarixi inkişafı gedişində əmələ gəlmiş, lakin onlar da bioloji əhəmiyyətlərini xeyli dərəcədə itirmişlər. Bu mənada, insan irqləri heyvan növləri qruplarına qətiyyən bənzəmir.

Süni seçmə müasir irqlərin təşəkkülündə heç bir rol oynamamışdır. Təbii seçmə isə onun artıq çoxdan itirdiyi ikinci dərəcəli əhəmiyyətə malik olmuşdur. Aydındır ki, irqlərin yaranma və inkişaf prosesi ev heyvanları cinslərinin, - mədəni bitkilər bir yana, – əmələgəlmə yollarından kəskin surətdə fərqlənir. İrqlərin mənşəyinin bioloji baxımdan elmi öyrənilməsinin əsasını Çarlz Darvin qoymuşdur. O, irqləri xüsusi olaraq öyrənmiş və onların bir-birilə şəksiz, sıx bənzərliyini, habelə çox yaxın qan qohumluğunu müəyyən etmişdir. Darvinə görə, bu, onların ayrı-ayrı əcdadlardan deyil, eyni kökdən törədiyini açıq-aşkar göstərir. Elmin bütün sonrakı inkişafı onun mülahizələrini təsdiqlədi.

Sadalanan əlamətlərə cəm halda malik olan bütün müasir irqlər fiziki təşəkkülün eyni yüksək inkişaf səviyyəsindədirlər. Hərçənd, bu əsas növ xüsusiyyətləri müxtəlif irqlərdə heç də eyni dərəcədə deyildir – bəzilərində çox, digərlərində az inkişaf etmişdir. Lakin bu fərqlər çox cüzidir: irqlərin hamısı müasir insan tipinin bütün əlamətlərinə malikdir və heç biri neandertaloid deyildir. Heç bir irq bioloji cəhətdən hər hansı başqasından üstün deyildir.

Müasir irqlər hələ neandertallarda olan meymuna xas əlamətləri eyni dərəcədə itirmiş və inkişaf etmiş «kamil insan» əlamətləri qazanmışlar. Buna görə də müasir irqlərdən heç biri daha çox meymunabənzər və ya daha ibtidai sayıla bilməz. Saxta ali və aşağı irqlər nəzəriyyəsinin tərəfdarları zəncilərin avropalılara nisbətən meymuna daha çox oxşadığını iddia edirlər. Lakin bu, elmi baxımdan qətiyyən düz deyil. Zəncilərin saçları qıvrım, dodaqları qalın, alnı düz və qabarıq, bədənləri və üzü tüksüz, ayaqları bədənə nisbətən daha uzun olur. Bu əlamətlər isə göstərir ki, məhz zəncilər şimpanzedən avropalılara nisbətən daha kəskin surətdə fərqlənirlər. Lakin avropalılar da, öz növbəsində, çox ağ dərisi və digər xüsusiyyətləri ilə meymunlardan daha artıq seçilirlər.

Amerikanın mənimsənilməsi zamanı qəribə irqi qarışma baş verirdi. Avropalı gəlmələrlə yerli hindilərin qan qarışığı *metislərin*, Afrikadan gətirilmiş zəncilərlə qarışma isə *mulatların* meydana gəlməsinə səbəb oldu. Hindilərlə zəncilər arasında izdivac, öz növbəsində, *sambo* populyasiyasını əmələ gətirdi. Söhbət qohum olmayan müxtəlif etnik qrupların qaynayıb-qarışması nəticəsində yeni xalqların meydana gəlməsi prosesindən gedir. Bu proseslər ***etnogenetik miksasiya*** adlandırılır. Dünyada irqlərarası izdivacların sayı durmadan artır və bu, bioloji baxımdan olduqca əhəmiyyətlidir, belə ki, irqlərin gen fondu və insanın populyasiyası zənginləşir.

## 3.2. Böyük və kiçik irqlər

Belə hesab edilir ki, əsas irqlər – avropoid (ağ), neqroid (qara) və monqoloid (sarı) irqlər insanların uzun müddət ərzində spesifik təbii şəraitə uyğunlaşması prosesində yaranmışdır. Bəzən dördüncü əsas irq – azsaylı nümayəndələri Asiyanın cənub-şərqində, Okeaniyada və Avstraliyada yayılmış avstraloid irqi də ayırd edilir.

Alimlərin əksəriyyəti monosentrizm nəzəriyyəsinin tərəfdarıdır. Bu nəzəriyyəyə görə, irqi diferensasiya müasir insan yarandıqdan sonra bir mərkəzdə (ehtimala görə, Cənub-Qərbi Asiyada və onunla qonşu Cənubi Avropa, Şimali və Şərqi Afrikada) baş vermişdir. Paleolit dövrünün sonunda ehtimal ki, iki irq əmələgəlmə ocağı – Qərb (Afrikanın şimal-şərqi və Asiyanın cənub-qərbi) və Şərq (Asiyanın cənub-şərqində və şərqində) meydana gəlmişdir. Sonralar Yer üzünə yayılan insan populyasiyası qaynayıb-qarışaraq, müasir irqləri əmələ gətirmişdir.

Bir növə – ***Homo sapiens*** növünə mənsub müasir insan irqləri arasında, adətən, ilk növbədə, böyük irqlər adlandırılan ən iri toplumları ayırd edirlər. Son vaxtlara qədər üç əsas irq: avropoid, monqoloid və neqro-avstraloid, yaxud ekvatorial irqlər fərqləndirilirdi. Son illərdə bir çox tədqiqatçılar vahid ekvatorial irq əvəzinə iki müstəqil irqi – neqroid və avstraloid irqlərini ayırd etməyə başlamışlar. Həmçinin, daha iri bəşəriyyət toplumlarının, iki – Qərb, yaxud Atlantika-Aralıq dənizi və şərq, yaxud Sakit Okean – irq gövdəsinin (ocağının) mövcudluğu fərziyyəsi irəli sürülür (birincinin tərkibinə avropoidlər və neqroidlər, ikincisinin tərkibinə isə monqoloidlər və avstraloidlər daxildir). Ayrı-ayrı alimlər avstraloidləri də qərb gövdəsinin tərkibinə daxil edirlər və beləliklə, onların bölgüsünə görə şərq gövdəsində ancaq monqoloidlər qalır. Nəhayət, bəzi antropoloqlar amerikanoidləri (hindiləri) müstəqil böyük irq kimi fərqləndirirlər.

Böyük irqlərin təmas zonasında bir sıra keçid və qarışıq irq tipləri mövcuddur. Keçid irqlər, adətən, o irqlərə deyilir ki,

çox uzaq zamanlarda formalaşdıqlarından indi onların iki irqin qarışmasından yarandığını, yoxsa, böyük irqlər gövdəsinin parçalanmasına qədərki qədim əlamətlərini qoruyub saxladıqlarını müəyyənləşdirmək çətindir.

***Neqroidlər*** üçün qıvrım saç, intensiv şəkildə piqmentləşdirilən dəri, qonur gözlər, zəif, yaxud orta üçüncü tük örtüyü, almacıq sümüyünün bir qədər irəli çıxması, çənənin xeyli irəli uzanması, batıq enli burun, qalın dodaqlar səciyyəvidir. Neqroid əlamətləri Afrikada, Böyük Səhradan cənubda yaşayan əhalidə daha qabarıq şəkildə təzahür edir. Qısa boylu Mərkəzi Afrika piqmeyləri, yaxud, məlum olduğu kimi, çox gödəkboylu neqrillər, habelə neqroid əlamətlərinin (olduqca sıx qıvrım saç) monqoloid əlamətləri (xəzan yarpaqları rəngli sarımtıl dəri, yastılanmış sifət, enikantus) ilə birləşdiyi Cənubi Afrika buşmenləri və hottentotları da neqroidlərə aiddir.

***Avropoidlərə*** müxtəlif çalarlı dalğalı, yaxud yumşaq, düz saç, açıq, yaxud qarabuğdayı dəri, çox inkişaf etmiş almacıq sümüyünün və çənənin çox az irəli çıxması, ensiz hündür burun, nazik, yaxud orta qalın dodaqlar xasdır. Avropoidlər, başlıca olaraq, saçlarının və gözlərinin rənginə görə fərqlənən iki əsas qrupa – *Şimal* və *Cənub* qruplarına bölünür. Şimal qrupunda daha az piqmentləşmiş Skandinaviya xalqları və ona qonşu bölgələrin əhalisi, qarabuğdayı dəri, tutqun saç, və qonur gözlər səciyyəvi olan cənub qrupunda isə cənubi avropalılar, Şimali Afrika, Cənub-Qərbi, Orta və Cənubi Asiya xalqları üstünlük təşkil edir. Avropanın böyük bir hissəsi nə şimal, nə də cənub qrupuna aid edilə bilən keçid formaları zonasıdır. Şimal və cənub avropoidləri, habelə keçid formaları boy, dərinin və gözlərin rəngi, başın forması fərqlərinə əsasən çoxlu sayda kiçik irqlərə bölünürlər. Şimal qrupunun tərkibində Atlantika-Baltiya, Ağ dəniz-Baltiya irqləri, keçid formaları arasında Alp, Orta Avropa, Şərqi Avropa, cənub qrupunda Aralıq dənizi, Hind-Əfqan, Adriatika (dinar), Ön Asiya (armenoid), Pamir-Fərqanə irqləri ayırd edilir.

***Monqoloidlər*** üçün düz, cod saç, üçüncü tük örtüyünün zəif inkişaf etməsi, sarımtıl dəri, qonur gözlər, almacıq sümüyünün

xeyli qabağa çıxdığı yastılanmış üz, ensiz, yaxud orta enli, üst hissəsi dayaz burun, enikantus səciyyəvidir. Amerika hindiləri bir çox əlamətlərinə görə onlara yaxındır. Lakin onların ümumi monqoloid görkəmi hamarlanmışdır, enikantusa az təsadüf olunur, burunları, adətən hündürdür. Asiya monqoloidləri iki əsas qrupa – *kontinental və Sakit okean* qruplarına bölünürlər. Kontinental monqoloidlər intensiv piqmentasiya, skeletin iriliyi, sifətin daha geniş olması və bəzi digər xüsusiyyətləri ilə Sakit Okean monqoloidlərindən fərqlənirlər. Monqoloidlər arasında kontinental və Sakit okean monqoloidlərinə xas əlamətlərin birləşdiyi, bundan əlavə, spesifik əlamətlərə (məsələn, çox ensiz burun) malik *Arktika* qrupu xüsusi yer tutur. Sakit okean monqoloidlərindən cənubda kök etibarilə monqoloid olan, lakin xeyli avstraloid əlamətlərinə (dalğalı saç, gur saqqal, daha tünd dəri, qalın dodaqlar, nisbətən geniş burun və s.) malik *Cənubi Asiya* qrupu deyilən toplumun nümayəndələri yaşayır. Buna görə də indi bəzən onları yaponlarla və müxtəlif avstraloid qrupları ilə metisləşməyə məruz qalmış Şərqi İndoneziya sakinləri ilə birlikdə monqoloidlərə daxil etmir, böyük monqoloid irqinin Asiya qolu və böyük avstraloid irqi arasında qarışıq və keçid formaları sayırlar. Qeyd edilməlidir ki, Sakit okean monqoloidləri ilə cənubi Asiya qrupu arasındakı sərhəd böyük irqlər və onların qarışıq və keçid formaları arasındakı sərhədlərdən xeyli qeyri-müəyyəndir.

***Avstraloidlərin*** dərisi tünd rəngli, burnu geniş, dodaqları qalındır ki, bu da onları neqroidlərə yaxınlaşdırır, lakin saçlarının dalğalı olması (avstraliyalılar, veddoidlər), üçüncü tük örtüyünün güclü inkişafı (avstraliyalılar), bir qədər zəif piqmentasiya (aynlar) ilə onlardan fərqlənirlər.

Bütün böyük irqlərin əksinə olaraq, avstraloidlərin ayrı-ayrı qrupları (Avstraliya aborigenləri, papauslar, melaneziyalılar, veddoidlər, neqritoslar, aynlar) irqi əlamətlərinə görə birbirindən xeyli seçilirlər. Avstraliya aborigenləri piqmentasiyaya görə neqroidlərə, saçın formasına və üçüncü tük örtüyünün inkişafına görə isə avropoidlərə yaxındır. Aşkar avstraloid əlamətlərə malik *papuasların və melaneziyalıların* saçı, neqro-

idlərinki kimi, qıvrımdır (papuaslar burunlarının yalançı sami forması ilə melaneziyalılardan fərqlənirlər). *Neqritoslar* melaneziyalıları xatırladırlar, lakin çox qısaboyludurlar. *Veddoidlər*, ümumən, avstraloid görkəmli olsalar da, boylarının gödəkliyi, saqqalın, qaşüstü qövslərin zəif inkişafı, burnun orta genişliyi ilə seçilirlər. *Aynlar* genetik cəhətdən digər avstraloidlərlə bağlıdırlar, lakin ümumi görünüşcə onlardan kəskin surətdə fərqlənirlər. Onlar üçün müxtəlif böyük irqlərin ayrı-ayrı xüsusiyyətləri (avropoidlərə məxsus açıq rəngli dəri, avstraloidlərə xas geniş burun və maili alın, monqoloidlərə məxsus yastılanmış üz və enikantus) səciyyəvidir.

Müxtəlif irq qruplarına məxsus yuxarıda göstərilən zahiri fərqlərdən əlavə, bir sıra digər, başlıca olaraq, coğrafi variasiyaları üst-üstə düşən və ya ayrı-ayrı irqlərdən, yaxud irq tiplərindən müəyyən dərəcədə qarşılıqlı asılı olan fizioloji və biokimyəvi xüsusiyyətlər də mövcuddur. Belə ki, ayrı-ayrı irqlər qan qruplarına, zərdab zülallarına, dişlərin quruluş detallarına, dadbilmə duyğularına, rəngseçmə pozğunluğuna (daltonizm) görə bir-birindən fərqlənirlər.

Etnoslardan, dillərdən və dinlərdən fərqli olaraq, irqlər arasında hər hansı dəqiq sərhəd qoymaq çətindir, yaxud hətta mümkün deyildir. İrqlərin qarışması bir neçə min il çəkən fasiləsiz və getdikcə güclənən prosesdir (insanların təqribən 30%-i qarışıq və aralıq qruplara mənsubdur). Ona görə də irqi fərqlər, adətən, bir-birindən uzaqda yaşayan insan qruplarında aydın görünür, yanaşı yaşayan qruplar arasında isə, demək olar ki, müşahidə edilmir.

Qeyd olunmalıdır ki, əsas morfoloji, fizioloji və psixoloji növ xüsusiyyətlərinə görə bəşəriyyət vahiddir. İrqi fərqlər insanın bədən quruluşunun ən mühüm bioloji xüsusiyyətlərinə aid deyil və nisbətən az miqdarda əlamətlərdə təzahür edir. İstənilən irqlərə mənsub insanlar arasında izdivacdan tam yaşarı və törəmə qabiliyyətli övlad doğulur. Bütün irqlərin və qarışıq qrupların tam bioloji və sosial-mədəni mükəmməlliyi irqçiliyin praktik əsasını təşkil edən «ali» və «aşağı» irqlərin mövcudluğuna dair konsepsiyaların elmi tutarsızlığını sübut

edir.

İrqi və etnik ümumiliyin nisbəti məsələsi son dərəcə mürəkkəbdir. Onların müəyyənləşdirilməsinin əsasında duran tamamilə müxtəlif əlamətlər bu ümumiliyin müxtəlif mahiyyətdə olduğunu göstərir. Eyni zamanda, qədimdə irq tipləri insan qruplarının etnik ümumiliyi ilə eyni ərazidə təşəkkül tapmışdır. Qəbilələr, əvvəllər, irqi baxımdan yekcins olmuşlar. Tədricən, sosial-iqtisadi inkişaf və Yer üzünə yayılma nəticəsində müxtəlif qəbilə qrupları qaynayıb-qarışmağa başlamışlar. Etnik qurumlar, etnik birləşmələr ictimai xarakter daşıyır, irqi qruplaşmalar isə, başlıca olaraq, bioloji əsasa malikdirlər. Etnik və irqi qrupların təbiətən fərqli olmalarından dolayı, onların sərhədləri getdikcə daha az üst-üstə düşür – hazırda buna çox az hallarda təsadüf olunur. Sayca böyük xalqlar iri irqlər səviyyəsində yekcins ola bilərlər, lakin bu irqlərin bölmələrinə nisbət də, demək olar ki, həmişə geterogendir. Məsələn, Avropa xalqlarının böyük əksəriyyəti böyük avropoid irqinə mənsubdur, lakin onların demək olar ki, hamısına bu irqin iki, bəzən hətta bütün üç qolunun (şimal, keçid, cənub) nümayəndələri daxildir. Böyük avropoid irqinin daha kiçik irq tiplərinə (Ağ dəniz-Baltiya, Alp, Dinar və s.) gəldikdə isə onların sərhədləri etnik sərhədlərlə xüsusilə uyğun gəlmir.

Eynilə, irqlərin və dillərin də sərhədləri üst-üstə düşmür. Məsələn, türk dil qrupu monqoloid irq nümayəndələri (yakutlar, tuvalar və s.), avropoidlər (azərbaycanlılar, türklər və s.) arasında da yayılmışdır; türk dillərinin daşıyıcıları isə irq baxımından qarışıqdırlar. Ural ailəsi dillərində danışan xalqlar müxtəlif böyük irqlərə mənsubdurlar.

Müasir Amerika xalqlarının əksəriyyəti iki və ya üç irq komponentinin qarışması nəticəsində yaranmışdır. Amerikaya Afrikadan gətirilmiş müxtəlif dilli qəbilələrə mənsub zəncilər ağlarla qarışıq halda yaşadıqları yeni məskənlərində qəbilə dillərini tezliklə gətirildikləri ölkələrin hakim dilləri (ingilis, ispan, portuqal, fransız) ilə əvəz etmişlər. Ətrafdakı əhali ilə qaynayıb-qarışan zəncilər bəzi ölkələrdə təşəkkül tapan millətlərin (Braziliya, Kuba və s.) əsas komponentlərindən birinə

çevrilmişlər. Digər ölkələrdə, xüsusən ABŞ-da isə hakim dairələrin yeritdiyi irqçilik siyasəti nəticəsində onların ağ əhali ilə qaynayıb-qarışması süni surətdə ləngidilmişdir.

**Böyük avropoid irqi.** Avropoidlər ağ, yaxud qarabuğdayı dəriləri, müxtəlif çalarlı dalğalı, yaxud düz yumşaq saçları, gözün əlvan təbəqəsinin müxtəlifliyi (qonurdan tutmuş açıq alaya və göyə qədər), ensiz, qabarıq burun, nazik, yaxud orta qalın dodaqları ilə seçilirlər. Avropoidlərdə dərinin, saçların və gözlərin açıq rəngi təbii seçimə məruz qalmışdır, çünki orta Paleolitdə xeyli tutqun və Günəş şüası az düşən rütubətli soyuq iqlimin üstünlük təşkil etdiyi Şimali və Orta Avropada həmin əlamətləri müəyyənləşdirən mutasiya daha çox yaşamaq və yayılmaq imkanına malik idi. Böyük avropoid irqi üç qrupa – açıq dərili, xurmayı, sarışın saçlı, ala və göy gözlərin üstünlük təşkil etdiyi ***şimal,*** qarabuğdayı dərili, tünd saçlı və gözlü ***cənub*** və orta piqmentləşmənin səciyyəvi olduğu ***aralıq*** qruplarına bölünür.

**Böyük monqoloid irqi.** Dərinin sarımtıl rəngi, düz və çox vaxt cod tünd saç, zəif inkişaf etmiş üçüncü tük örtüyü, qonur gözlər, almacıq sümüklərinin xeyli irəli çıxdığı yastılanmış üz, ensiz, yaxud orta enli, üst hissəsi əksərən dayaz olan burun, epikantusun mövcudluğu – gözü və onun yaş çıxıntısını örtən yuxarı göz qapağının xüsusi qırışığı monqoloidlərin əsas zahiri əlamətləridir. Sonuncu əlamət irqin Mərkəzi Asiyanın səhra və yarımsəhralarında təşəkkül tapması və gözləri güclü küləklərdən və qum qasırğalarından qorumaq zərurəti ilə bağlıdır. Böyük monqoloid irqi iki əsas qrupdan ibarətdir: Asiya və Amerika (hindilər, eskimoslar, aleutlar). Amerika hindilərində monqoloid görkəm yumşalır, epikantusa az rast gəlinir, burun, adətən, qabarıqdır. Asiya monqoloidləri iki əsas qrupa – ***kontinental*** *və* ***Sakit okean*** (koreyalılar, şimali çinlilər) – bölünür. Kontinental monqoloidlər az intensiv piqmentləşmə, skeletin iriliyi və sifətin daha geniş olması ilə seçilirlər. Kontinental monqoloidlər də, öz növbəsində, ***Arktika*** (eskimoslar, çukçalar, koryaklar); ***Şimali Asiya*** (evenklər, evenlər, yukagirlər); ***Mərkəzi Asiya*** (monqollar, yakutlar, buryatlar); ***Uzaq Şərq***

(çinlilər, koreyalılar) qruplarına ayrılır.

**Böyük neqroid irqi.** Zahiri əlamətləri: intensiv piqmentləşmiş tünd qəhvəyi dəri, qıvrım, cod, qara saç, qonur göz, güclü proqnatizm (çənənin irəli çıxması), az qabarıq, deliklәri sifətə paralel yerləşən zəif qabarıq enli burun, qalın dodaqlar. Tünd dəri orqanizmi ultrabənövşəyi şüalanmadan, başın ətrafında sıx təbii papaq əmələ gətirən qıvrım saçlar isə bərk qızmadan qoruyur. Burunun forması, dodaqların quruluşu termik tənzimləmə funksiyasını yerinə yetirir, orqanizmdəki tər vəziləri bədəndəki mayenin sürətlə buxarlanması üçündür. Böyük neqroid irqi üç qrupdan ibarətdir: ***zəncilər, neqrillər və buşmenlər.***

**Böyük avstraloid irqi** son vaxtlara qədər böyük irqlər sırasına daxil olmayıb, neqroid irqi ilə birlikdə böyük neqro-avstraloid, yaxud ekvatorial irqdə birləşirdi. Avstraloidlərin böyük əksəriyyəti tünd dərili, enli burunlu və qalın dodaqlıdırlar ki, bu da onları neqroidlərə yaxınlaşdırır. Lakin Avstraliya aborigenləri piqmentləşməyə görə Afrika neqroidlərinə yaxın olsalar da, saçların formasına və üçüncü tük örtüyünün inkişafına görə avropoidlərə yaxındırlar. Böyük avstraloid irqi aşağıdakı qollardan ibarətdir: ***Avstraliya aborigenləri, papuaslar və melaneziyalılar, veddoidlər, aynlar, neqritoslar.***

## 3.3. Dünya əhalisinin irq tərkibi

Dünya əhalisinin irqlər üzrə say parametrləri, adətən, mütəxəssis alimlərin hesablamalarına görə verilir, çünki əksər ölkələrdə irqi qeydiyyat aparılmır (cədvəl 3.1).

Beləliklə, dünya əhalisinin təqribən 70%-ni təşkil edən dörd böyük irq mövcuddur. Bəşəriyyətin qalan hissəsi keçid və qarışıq irqlərdən ibarətdir. Bəzi alimlər neqroid və avstraloid irqlərini vahid irq hesab edirlər, çünki Cənub-Şərqi Asiyada və Okeaniyada bəzi irqi əlamətlərə görə Afrika neqroidlərinə yaxın olan populyasiyalar geniş yayılmışdır.

Aşağıda irqlərin və irq tiplərinin dünyanın iri regionları üzrə yayılmasına dair qısa məlumat verilir.

Cədvəl 3.1

**Dünya əhalisinin irq tərkibi (2001-ci il)**

| İrqlər | % |
|---|---|
| Böyük irqlər | |
| Avropoid (Avrasiya) | 42,9 |
| Monqoloid (Asiya-Amerika) | 19,1 |
| Avstraloid (Okeaniya) | 7,0 |
| Qarışıq və keçid formaları | 0,3 |
| Avropoidlərlə monqoloidlər arasında | 4,2 |
| Avropoidlərlə neqroidlər arasında | 9,0 |
| Monqoloidlərlə avstraloidlər arasında | 17,2 |
| Digər və naməlum irq tipləri | 0,3 |

MDB ölkələrində əhalinin əksəriyyəti (86%) bütün üç qrupu ilə təmsil olunan, lakin keçid formalarının kəskin üstünlüyü ilə avropoid irqinə aiddir. Baltiya xalqları və rusların şimal-qərb qrupları şimal qrupuna mənsubdur. Cənub qrupu isə Qafqaz xalqlarının əksəriyyətini əhatə edir. Rusların, ukraynalıların, belorusların və bəzi digər xalqların böyük hissəsi keçid formalarına aiddir. Şərqi Sibirin və Uzaq Şərqin yerli əhalisi monqoloidlərin kontinental qrupuna mənsubdurlar. Eskimoslar, çukçalar və koryaklar isə bu irqin Arktika qrupunu təşkil edirlər. Volqaboyunda, Uralda, Qərbi Sibirdə və Qazaxıstanda qədimdən avropoidlərlə monqoloidlər arasında təmas zonası yaranmışdır, həm də monqoloid irqinə məxsus əlamətlər şərqə doğru güclənir. Monqoloid irqinin üstünlük təşkil etdiyi Qərbi Sibir ovalığı və Sayan-Altay zonası xalqlarını Ural irqi qrupuna daxil edirlər. Kola yarımadasında, Volqaboyunda, Uralda yaşayan findilli saamlarda, mordvalarda, marilərdə, udmurtlarda və türkdilli çuvaş, başqırd və tatarlarda monqoloid irqi əlamətləri zəif ifadə olunmuşdur: bu xalqların irq tipini laponoid və subural adlandırmaq qəbul edilmişdir.

Xalqların böyük köçü dövründə Mərkəzi Asiyanın monqoloid əhalisinin xeyli hissəsi əhalisi əsasən avropoidlərə məxsus olan Qərbi Sibirin çöllük zonasına, Qazaxıstana, Orta Asiyaya,

Cənub-Şərqi Avropa çöllərinə yayıldı. Nəticədə, burada qarışıq irq tipləri: başlıca olaraq, monqoloid irqi əlamətlərinin açıq-aşkar üstünlük təşkil etdiyi müasir qazaxlar arasında yayılmış Cənubi Sibir xalqları və türkmənlər, özbəklər və qismən taciklər üçün səciyyəvi olan Orta Asiya (burada avtoxton əhali sıx olmuşdur və monqoloid ünsürlərinin qarışığı az müşahidə edilir) tipləri meydana gəlmişdir. Sibirə köçmüş ilk ruslar yerli əhali ilə qarışaraq, rusların əsas kütləsindən təkcə etnomədəni deyil, irqi baxımdan da fərqlənən özünəməxsus azsaylı qruplar (krıçadallar, kolımalılar və s.) əmələ gətirmişlər.

Xarici Avropa əhalisi, demək olar, tamamilə (son vaxtlarda Vest-hinddən və Afrikadan gəlmiş immiqrantlar və Cənubi Asiya immiqrantlarının bir hissəsi istisna olmaqla) Avropa irqinə mənsubdur. Şimal və cənub regionlarının əhalisi irq tiplərinə görə xeyli fərqlənirlər; ucaboylu, açıq saçlı, açıq gözlü norveçlilərlə (şimal avropoidləri), boyca qısa, tünd saçlı, tünd gözlü italyanlar (cənub avropoidləri) arasında oxşar əlamətlər azdır. Bununla belə, Avropada irqi əlamətlərin dəyişməsi o qədər tədriclə gedir ki, nəinki kiçik irqlər, hətta, bir tərəfdən, şimal və cənub avropoidləri, digər tərəfdən isə keçid formaları arasında az və ya çox dərəcədə sərhəd qoymaq mümkün deyil.

Şərti olaraq, qəbul edilmişdir ki, Skandinaviya ölkələri və İslandiya ərazisində, Böyük Britaniyanın, İrlandiyanın, Niderlandın əksər hissəsində və AFR-in şimalında Atlantika-Baltiya irqinə mənsub şimal avropoidləri yayılmışdır. Pireney yarımadası, Cənub-Şərqi Fransa, Cənubi və Mərkəzi İtaliya, Cənubi Yunanıstan, Aralıq dənizi adaları əhalisinin böyük hissəsini Aralıq dənizi irqinə, keçmiş Yuqoslaviya, Şimali Yunanıstan və Cənubi Avropanın bəzi digər bölgələrinin əhalisini isə cənubi avropoidlərin dinar irqinə aid edirlər. Avropanın qalan əhalisi isə avropoidlərin «keçid və Orta Avropa formaları» kimi yayğın anlayış altında birləşdirilən müxtəlif, çətin fərqləndirilən irqlərin tərkibinə daxil edilir. Bütövlükdə isə region əhalisinin təqribən 17%-i şimal, 32%-i cənub avropoidlərinə, yarıdan bir qədər çoxu isə keçid və Orta Avropa formalarına

aid olunur.

Avropanın şimalında yaşayan saamlar, göstərildiyi kimi, təşəkkülündə həm avropoid, həm də monqoloid ünsürlərinin iştirak etdiyi qarışıq lapanoid irqinə mənsubdurlar. Macarlarda, habelə AFR və Finlandiya əhalisinin kiçik bir hissəsində çox zəif ifadə olunmuş bəzi monqoloid əlamətlərinə təsadüf edilir. Avropanın ən cənub hissəsinin əhalisində ara-sıra azacıq neqroid irqi qarışığı müşahidə olunur.

Xarici Asiyada antropoloji baxımdan vəziyyət son dərəcə mürəkkəbdir. Burada bəşəriyyətin bütün dörd böyük irqinin müxtəlif qrupları yayılmışdır. Avropoidlər (29%-ə yaxın) cənub qolunun Cənub-Qərbi Asiyada və Şimali Hindistanda yayılmış Aralıq dənizi, Ön Asiya, Hind-Əfqan, Pamir-Fərqanə kimi müxtəlif irqləri ilə təmsil olunurlar. Asiya monqoloidləri (31%-ə yaxın), deyildiyi kimi, şimal, yaxud kontinental (monqollar, tunqus-mancur xalqları) və şərq, yaxud Sakit okean (koreyalılar, şimali çinlilər) qruplarına bölünür. Monqoloid və avstraloid irqləri arasındakı qarışıq və keçid formaları monqoloidlərə sıx yaxınlaşır. Belə formalara Cənubi Asiya qrupu tipləri, yaxud cənub monqoloidləri (əhalinin 25%-i – cənub çinliləri, indoneziyalılar, filippinlilər, Hind-Çin xalqları); tərkibində bəzi ayn ünsürləri müşahidə olunan yapon tipi (əhalinin 4,4%-i), avstraloid ünsürlərinin xeyli böyük qarışığı olan Şərqi İndoneziya tipi (Molukk adalarının əhalisi) daxildir.

Asiyada avstraloid irqi nümayəndələrinin sayı çox azdır (cəmi 12 milyon nəfər), lakin onlar bir çox bölgələrdə yayılmışlar. Veddoid tipinə Şri-Lanka veddoidlərindən əlavə, bəzi dravid və munda xalqları, habelə hind-ari dillərinə mənsub bhillər, Molukk qrupu dillərində danışan senoylar, kubu, lubu və bir sıra digər kiçik İndoneziya xalqları arasında; papua – Melaneziya tipinə Şərqi İndoneziya, ilk növbədə, İrian-Cay bölgəsi xalqları arasında; neqritoslara Filippin aetləri, Malaziya samanqları, Hindistan andamanları arasında, ayn tipinə Yaponiya aynları arasında rast gəlmək olar.

Avropoidlərin cənub qolu ilə veddoidlər arasında qədim təmas zonasında cənubi hind tipi (əhalinin 9,3%-i) yaranmış-

dır. Onun ən xarakterik təmsilçiləri əksər hissəsi dravid dilləri ailəsinə mənsub olan Cənubi Hindistan xalqlarıdır.

Neqroid əlamətləri Ərəbistan yarımadasının, xüsusilə onun sahilboyu bölgələri əhalisinin bir hissəsində müşahidə olunur.

*Afrika* əhalisinin 54%-i Böyük Səhradan cənubdakı regionlarda üstünlük təşkil edən böyük neqroid irqinə mənsubdur. Müxtəlif bölgələrin zənciləri irqi əlamətlərinə görə birbirindən xeyli dərəcədə seçilirlər: dəri qaradan açıq qəhvəyiyədəkdir. Dodaqların qalınlığı, burnun enliliyi, habelə boyun uzunluğu (dünyada ən ucaboylu qruplardan ən qısaboylu qruplaradək) fərqlidir; lakin hamısının saçı qıvrımdır.

Neqroidlərin müxtəlif tiplərə bölünməsi məsələsinin həllinə hələ çox var. Morfoloji baxımdan əlahiddə neqrillər (piqmeylər), hottentot və buşmenlər nəzərə alınmazsa, tünd dərili, ucaboylu nilotlar və sudanlılar və Konqo çayı hövzəsinin uzunbaşlı (dolixokefal) və enlikürək zənciləri öz tiplərinə görə daha çox seçilirlər. Konqo çayı ətrafı tropik meşələrdə yaşayan neqrillər üçün cırtdanboyluluq (150 sm-dən az), nazik dodaqlar, üzdə və bədəndə güclü tük örtüyü, digər neqroidlərlə müqayisədə daha açıq dəri səciyyəvidir. Cənub-Qərbi Afrika səhralarında yaşayan buşmenlər və hottentotlar da neqroidlərin əsas hissəsindən daha açıq dəri, qısa boy (150-160 sm), habelə onları monqoloidlərə yaxınlaşdıran yastılanmış sifət və epikantusun olması ilə seçilirlər; bundan əlavə, buşmen qadınları üçün steatopigiya [güclü piylənmə nəticəsində sağrının (yanların) qabarması] spesifikdir. Cənub avropoidləri (Aralıq dənizi irqi) qitənin Böyük Səhraya qədərki bütün şimal hissəsində məskunlaşmışlar. Onlara ərəblərin böyük hissəsi və bərbərlər daxildir. Afrikanın cənubunda avropoidlərin keçid formalarına və şimal qoluna mənsub olan, 6 milyonluq Qərbi Avropalı və onların nəsilləri yaşayır.

Afrikanın irqi baxımdan qarışıq və keçid əhalisi daha çox neqroidlərlə avropoidlərin qovşağında cəmləşmişlər. Uzaq keçmişlərdə Afrika burnunda Efiopiya tipi yaranmışdır. Burnun formasına və üz skeletinin quruluşuna görə efioplar ərəblərdən, demək olar ki, fərqlənmirlər, lakin onların dəriləri,

deməkolar, zəncilərinki qədər tünddür. Afrikanın cənubunda fulbelər və bəzi digər qruplar da əsas əlamətlərinə görə avropoidlərlə neqroidlər arasında Qərbi Sudanın keçid formaları deyilən aralıq mövqe tuturlar. Ərəb istilaları və islam dininin yayılması nəticəsində cənub avropoidlərinin xeyli ərəbdilli qrupları Afrikanın içərilərinə girmişlər ki, bu da zahirən daha qədimlərlə bağlı olan qarışıq Sudan formalarına gətirib çıxarmışdır.

XVII-XIX əsrlərdə burların (əslən niderlandlılar və onların nəsilləri) hottentotlarla və Afrikanın digər bölgələrindən, o cümlədən Madaqasqardan olan qul qadınlarla kəbinsiz əlaqələri «rənglilər» deyilən qrupun meydana gəlməsinə səbəb oldu. CAR rəhbərliyinin sərt apartheyd siyasəti nəticəsində onlar hələ də əlahiddə vəziyyətdə qalmaqdadırlar. Namibiyadakı rexobot bastardları deyilənlər də hottentot – Avropa metisləridir.

*Amerika* əhalisinin irq tərkibi qeyri-adi rəngbərəngliliyi ilə seçilir ki, bu da dünyanın həmin hissəsinin əhalisinin təşəkkülündə bəşəriyyətin bütün üç böyük irqinin nümayəndələrinin iştirak etməsi ilə bağlıdır. Aborigen əhali olan hindilər, eskimoslar, aleutlar, ancaq ayrı-ayrı bölgələrdə, daha çox, Meksika yaylasında, And dağlarında, Cənubi Amerikanın iç əyalətlərində, arktik bölgələrdə kompakt halda qalmışlar. Bu əhali monqoloid irqinin müxtəlif tiplərinə aiddir. Bütün qalan yerlərdə isə ya irqi cəhətdən qarışıq əhali, ya da sonradan gəlmələr – avropoidlər və neqroidlər üstünlük təşkil edir.

Hazırda Amerikada böyük irqlərdən avropoid irqi daha geniş yayılmışdır (ABŞ və Kanada əhalisinin təqribən 9/10-u və Latın Amerikası əhalisinin ¼- dən çoxu bu irqə mənsubdur). Cənub hissəsi istisna olmaqla, Amerikaya, əsasən avropoidlərin şimal və keçid qruplarının nümayəndələri – Böyük Britaniya, Skandinaviya və Almaniya əsillilər gəlirdilər. Lakin qaynayıb-qarışma prosesində antropoloji tiplər arasında hüdudlar burada Avropadakından daha artıq dərəcədə aradan qalxmış, nəticədə, keçid formaları xeyli üstünlük qazanmışlar. Latın Amerikasında isə avropoidlər, başlıca olaraq, cənub qrupunun

nümayəndələri ilə təmsil olunmuşdur. Burada Avropa köçkünləri arasında ispanlar, portuqallar və italyanlar üstün idi.

Amerikada sayca ikinci irqi qrup hindilərlə avropalılar arasında izdivacdan və kəbinsiz əlaqələrdən törəmiş *metislərdir*. Latın Amerikasında onlar, hətta üstün olub, Meksikanın, əksər Mərkəzi Amerikanın əksər dövlətlərinin, Venesuela, Çili, Paraqvay və digər ölkələrin əsas əhalisini təşkil edirlər. Avropa və Afrika əhalisinin qarışması nəticəsində əmələ gəlmiş *mulatlar* isə sayca daha azdır; ABŞ afroamerikalılarının böyük hissəsi, Braziliya, Kuba, Venesuela, Vest-Hindin bir sıra xalqları əhalisinin xeyli qrupları onlara aiddir. Bəzən metisləri və mulatları fərqləndirmək çətin olur, çünki Braziliyada, Venesuelada, Kolumbiyada və digər ölkələrdə hindi-zənci *(sambo)* və hindi-zənci-Avropa mənşəli qruplar mövcuddur. Qarışıq irq mənşəli qrupların payı aramsız olaraq artır.

Amerikada neqroid irqinə Afrikadan gətirilmiş zənci qulların qarışmamış (yaxud az qarışmış) nəsilləri mənsubdur. İri neqroid qrupları Braziliyada, ABŞ-da yaşayır. Haiti, Yamayka və bəzi digər Vest-Hind ölkələri əhalisinin də əsas hissəsini zəncilər təşkil edir. Bütövlükdə isə, Amerikada bütün əhalinin 52%-ni avropoidlər, 35%-ni metislər və mulatlar, 6%-dən bir qədər çoxunu zəncilər, 5,5%-ni isə monqoloid-hindilər təşkil edir.

Avstraliya və Okeaniyada avropalılar gələnə qədər əhalinin əksər hissəsi böyük avstraloid irqinin iki tipinə – Avstraliya və papua-Melaneziya tiplərinə aid idi. Okeaniyanın şərqində və şimalında – Polineziyada və Mikroneziyada böyük monqoloid və avstraloid, bəzi tədqiqatçıların fikrincə isə, həm də avropoid irqləri hüdudunda aralıq mövqe tutan tiplər yayılmışdır.

Yeni və ən yeni dövrdə avropalıların kütləvi surətdə, asiyalıların isə az sayda immiqrasiyası nəticəsində bu region əhalisinin irq tərkibi güclü dəyişikliyə uğramışdır. Hazırda Avstraliyada və Yeni Zelandiyada avropoid irqinin, əsasən, keçid formalarının, az miqdarda isə şimal qrupunun nümayəndələri üstünlük təşkil edir. Polineziya və Mikroneziyada, habelə Ficidə və Yeni Kaledoniyada okeaniyalıların avropalı və asiyalılar-

la qarışması xeyli metis qruplarının yaranmasına gətirib çıxarmışdır. Melaneziya və Yeni Qvineya adalarının əksəriyyətində isə metislər azdır. Bütövlükdə isə Avstraliya və Okeaniyada bütün əhalinin 77%-ni avropoidlər (əsasən, keçid formaları), 16,5%-ni melaneziyalılar və papuaslar, 4,2%-ni isə mikroneziyalılar təşkil edir.

# IV FƏSİL
# DÜNYA ƏHALİSİNİN ETNİK TƏRKİBİ

## 4.1. İnsanların etnik ümumilik formaları anlayışı

Bəşəriyyət coğrafiyasını əzəli «qeyd» vahidi kimi səciyyələndirərkən elmi cəhətdən daha az dəqiq olan «xalq» anlamına uyğun gələn «etnos» anlayışından geniş istifadə olunur. Elm aləminin əksər nümayəndələri bu fikirdədirlər ki, etnoslar sırf sosial təbiətə malikdir və ictimai proseslər nəticəsində meydana gəlirlər. Lakin son zamanlar etnosların, Yer biosferinin bir hissəsi kimi, bioloji vahid sayılması nöqteyi-nəzərinin tərəfdarları durmadan artır. Yeni etnosun bioloji əsasa malik mutasiya prosesləri nəticəsində yarandığı iddia olunur. Orijinal etnogenlər nəzəriyyəsinin müəllifi L.N.Qumilyovun bir fikrini misal gətirək: «İnsanlar tarixən yaranan və yoxa çıxan kollektivlərdə yaşayan orqanizmlərdir. Bu ***kollektivlər - etnoslar***, onların meydana gəlməsindən dağılmasına qədərki proses isə etnogenezdir». Etnos doğulur, yetkinləşir, qocalır və ölür. Etnosun meydana gəlməsi 1200-1500 il ərzində fəallıq qüvvəsinin tükənməsi, tənəzzülə uğraması mərhələlərindən keçir, nəhayət, reliktləşib dağılır. L.N.Qumilyova görə, etnos orijinal davranış stereotipinə malik olub, özünü bütün digər kollektivlərə qarşı qoyan sabit insan kollektividir.

O, müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır. Ona etnoqrafiya da, xalqşünaslıq da deyilir. Bizdə isə bu fənn qədim yunanca hərfən «xalqların təsviri» mənasına gələn etnoqrafiya kimi məlumdur.

Hər bir etnos onun «ekoloji qida»sı olan müəyyən fiziki-coğrafi şəraitdə meydana gəlir. Etnosun yeni sistem kimi ilk dəfə təşəkkül tapdığı fiziki-coğrafi şəraitin və landşaftın vəhdəti onun vətəninə, inkişaf etdiyi məkana çevrilir.

Yeni etnosların yaranması intensiv metisləşmənin labüd olduğu etnik təmas zonalarında da mümkündür. Məsələn, müasir ispan etnosu orta əsrlərdə keltlərin, baskların, alanların, mavrların, Roma kolonistlərinin qaynayıb-qarışması nəticəsində tə-

şəkkül tapmışdır. Velikoruslar qərbi və şərqi slavyanların, qıpçaq, tatar, monqol, fin və uqorların qovuşması nəticəsində yaranmışlar. İndiki mordvalar, evenklər, eskimoslar öz inkişafını başa vurmuş keçmiş mürəkkəb etnosların qalıqlarıdır. Metislərin, mulatların, sambolarin (zənci və hindilərin nəsilləri) meydana gəlməsi nəticəsində Meksika və Peru hüdudlarında sürətlə artmaqda olan yeni etnos yaranmışdır.

Hər bir etnosun öz davranış stereotipi vardır. O, öz təsdiqini həyatın istənilən sahəsində - adət və mərasimlərdə, qarşılıqlı münasibətlərdə tapır.

Başqa etnosların bəzi davranış xüsusiyyətləri (məsələn, böyüklərə hörmət) rəğbət, ehtiram, digərləri (məsələn, çoxarvadlılıq) ikrah hissi, üçüncüləri (məsələn, qan qisası) qəzəb və hiddət doğurur. Lakin davranış stereotipi etnik əlamət kimi dinamikdir. Tarixi dövrlər bir yana, hətta bir ömür ərzində də bu və ya digər davranış stereotipi haqqında təsəvvür müəyyən qədər dəyişə bilər.

Dil heç də həmişə etnik əlamət deyil. Məsələn, təkcə ingilislər deyil, şotlandlar da, irlandların bir hissəsi də, habelə ABŞ əhalisi, müasir Avstraliya əhalisinin əsas hissəsi, kanadalıların əksəriyyəti də ingilis dilində danışır; meksikalılar, perulular, argentinalılar ispan dilində danışsalar da ispan deyillər. Lakin tarixən təşəkkül tapmış həyat tərzinin ümumi əlamətlərinə baxmayaraq, əhalisinin müxtəlif dillərdə – alman, fransız, italyan dillərində, ayrı-ayrı qruplarının isə retoroman dilində danışdığı İsveçrə ən maraqlı nümunədir.

***Etnos*** (yunanca ethnos – qəbilə, xalq sözündən) *insanların spesifik bioloji, dil, mədəniyyət və psixoloji xüsusiyyətləri, habelə özünüdərk şüuru ilə səciyyələnən, tarixən təşəkkül tapmış sabit ümumiliyidir*. Etnosa mənşə və tarixi keçmişin ümumiliyi,ümumi adət-ənənələr, davranış normaları, mərasimlər, xalqların ictimai münasibətlərin bütün sahələrində vərdişlərinin və həyat fəaliyyəti vasitələrinin nəsildən-nəslə spesifik ötürülmə mexanizminin mövcudluğu xasdır. Etnoslar insanın özünün homo sapiens növünün təmsilçisi kimi formalaşmağa başladığı dövrdə meydana gələrək, təbii-tarixi prosesdə qəbi-

lə-tayfa icmasında birləşən insanların bioloji və sosial varlığının xüsusiyyətlərini əks etdirir. Xalqların yaşadıqları və təsərrüfat fəaliyyəti ilə məşğul olduqları ərazi ümumiliyi onların təşəkkülünün və inkişafının maddi şərti kimi həmin xalqların mənəvi həyat formalarının spesifikasını müəyyənləşdirir.

Bəşəriyyətin bütün mövcudluğu ərzində insanları dəfələrlə sovet elmi ədəbiyyatında qəbilə, tayfa, xalq, millət və s. adlandırılan ümumiliklərə bölmüşlər. Bu terminlər müxtəlif cür yozulsa da, çox vaxt onlara eyni məzmun şamil edilirdi. Tədricən, yuxarıda sadalanan bütün etnik ümumiliklərin ekvivalenti kimi, elmi cəhətdən daha dəqiq «etnos» terminini işlətmək mümkün oldu.

Elm insanın harada və nə vaxt yaranması sualına hələlik dəqiq cavab verə bilmir. Monosentrik nəzəriyyənin tərəfdarları sualın birinci hissəsi («harada») ilə əlaqədar planetin Asiya və Afrika qitələrinin birləşdiyi yeri «ulu vətənimiz» adlandırırlar. Digər nöqteyi-nəzər – Polisentrik nəzəriyyə isə insanların yaranmasının bir neçə müstəqil arealının mövcud olmasının qəbul edilməsinə əsaslanır.

Bəşəriyyətin yaşı barəsində də az və ya çox dəqiq məlumat yoxdur. Bir məlumata görə, onun yaşı bir neçə minilliklə, digər məlumata görə, 200-300 min, üçüncü fərziyyəyə görə isə 3-4 milyon illə müəyyən edilir.

Belə ki, Yer üzündə insanın yaranmasına dair polisentrik nəzəriyyə onları, yarandıqları məkandan asılı olaraq, bioloji növlərə və ya yarımnövlərə bölmək üçün istifadə edilmişdir. Bu mürtəce, elmə zidd yanaşma «irqçilik» (***«rasizm»***; fransızca heyvanların və bitkilərin növlərə bölünməsini bildirən *race* terminindən) adlandırılmışdır. Ali və aşağı irqlərin mövcudluğunun, insanların bir qisminin digərlərindən üstünlüyünün qəbul edilməsi milli ədavəti qızışdırmağa yönəldilmişdir.

Qeyd edək ki, əslində, nə polisentrizm, nə də monosentrizm nəzəriyyəsi özü-özlüyündə irqçiliyə aparıb çıxarmır. İrqlər mövcuddur, lakin bütün bəşəriyyət vahid bioloji növ təşkil edir. Bu, gen informasiyasına dair tədqiqatlarla sübut olunur, irqi qarışma zamanı nəslin davamlılığı kimi mühüm bioloji

meyarla təsdiqlənir.

Sosial-tarixi inkişaf prosesində irqi qarışma, irqi əlamətlərin dəyişməsi baş vermiş və verməkdədir. Müxtəlif irqlərin oxşar şəraitdə yaşayan, eyni təhsil və tərbiyə almış nümayəndələri eyni intellekt səviyyəsinə və mənəvi zənginliyə malikdirlər.

Yerin etnogenez cəmindən *etnosfera* mozaikası yaranır. Bu anlayış «antroposfera» anlayışına tam uyğun gəlmir. Etnosferanı, müstəsna olaraq, etnoslar, antroposferanı isə istənilən insan birləşmələri, sosiumlar təşkil edirlər. Bir polietnik dövlətin hüdudunda vahid sosium yarana bilər, lakin bu, heç də vahid millətin təşəkkül tapması demək deyil. Məsələn, keçmiş SSRİ-də «Sovet xalqı» terminindən geniş istifadə olunurdu. Əgər bu termin Sovetlər Ölkəsində yaşayan insanların birliyi kimi başa düşülsə, onun qanunauyğunluğu şübhə doğurmur. Lakin bu anlayışı «etnos»la eyniləşdirmək olmaz. Bu mənada Kambocanı (Kampuçiya) misal gətirmək olar. Burada total soyqırımından əvvəl vahid khmer milləti yaradılmasına dair ideoloji kampaniya aparılmışdı.

İctimai formasiyaların dəyişməsi məhsuldar qüvvələrin inkişafına təsir etsə də, yeni etnosların əmələ gəlməsinə təsir göstərmir. Məsələn, Azərbaycan etnosu, eləcə də bütün etnosferası təhkimçilik hüququnun ləğvi ilə,yaxud 1920-ci ildə bolşeviklər hakimiyyətə gələndən sonra öz varlığını itirmədi. İnanırıq ki, Qərb həyat tərzinin sırınmasına, hər cür din vaizlərinin təzyiqinə, milli intelektual resursların görünməmiş istismarına baxmayaraq, Azərbaycan zəmanəmizdə də öz mənəvi ilkinliyini və milli mənafelərini qoruyub saxlayacaqdır.

Beləliklə, etnosları fərqləndirən yeganə etibarlı meyar dil, ideologiya, din deyil, hər bir fərdin «biz beləyik, bütün digərləri isə başqa cürdür» deməsinə əsas verən davranış stereotipidir. Məhz bilavasitə etnos üzvlərinin «özününküləri» «özgələrə» qarşı qoymaq duyğusu etnik mənsubiyyətin müəyyən edilməsində «indikator» rolu oynayır.

Polietnik ərazidə etnik təmasların dörd variantı mümkündür: yanaşı yaşama, assimilyasiya, metisləşmə, qaynayıb-qarışma. Birinci varianta Tver karelləri misal ola bilər. Onların ruslarla

simbiozu milli ləyaqətlərinə xələl gətirməmiş, eyni zamanda, yanaşı yaşamanı şərtləndirmişdir. Bir etnosun digəri tərəfindən «udulması» (assimilyasiya) keçmişdə Fransada baş vermiş, bizim dövrümüzdə isə İspaniyada başa çatmaqdadır. Metisləşmə Mərkəzi Amerika ölkələri (məsələn, Kuba) üçün səciyyəvidir.

Etnik iyerarxiya strukturu bununla bitmir. İrəli gedərək, öz əhatəsi ilə bağlı fərdlə, nəhayət, onun tərcümeyi-halının ayrı-ayrı çalarları ilə rastlaşmaq olar (cədvəl 4.1).

Etnogenez insanlarla təbiət arasındakı münasibətlərdə təzahür etdiyindən onun qanunauyğunluqları ancaq onun öyrənilməsinə kompleks, bütöv yanaşma ilə aşkara çıxarıla bilər. Təbiətdə və cəmiyyətdə baş verən proseslərin qarşılıqlı təsirinin qanunauyğunluqlarını öyrənən ictimai coğrafiya elmi belə yanaşmaya malikdir. Onun bir bölməsi, yaxud xüsusi elmlərindən biri – etnologiya Yerin etnogenezinin təşəkkülünü tarixi epoxada etnogenez proseslərinin nəticəsi kimi öyrənir.

Tarixdə sivilizasiya prosesinin lokal variantlarında (Qədim Şumer, Mayya, Roma imperiyası və s.) dəfələrlə meydana gəlmiş etnogenezin dağılması dövrlərində etnosun səpələnməsi baş vermişdir. İnsanın təbii şəraitdən asılılığının qlobal problemlərin meydana çıxması şəklində böhran variantında təzahür etdiyi indiki zamanda bu problemlər xüsusi aktuallıq kəsb edir və sivilizasiyanın inkişafında aksentin qismən sosial amillərdən və ziddiyyətlərdən cəmiyyətin ətraf mühitlə münasibətləri, etnosun vəziyyətini müəyyənləşdirən biososial mühitə keçməsi baş verir. Bəşəriyyətin tənəzzülünün qarşısını ancaq informasiya sivilizasiyasının yaratdığı texnoloji və mədəni imkanlardan səmərəli istifadə yolu ilə almaq mümkün olur ki, bu da onların ayrı-ayrı etnoslar çərçivəsində reallaşdırılması üçün spesifik yanaşma tələb edir. Sivilizasiyanın əsasını təşkil edən etnosun gələcəyini onun tarixin qarşıya qoyduğu davamlı inkişaf vəzifələrini həll etmək bacarığı müəyyənləşdirəcəkdir. Etnogenez prosesində təbiətin və ictimai həyatın təkamülü etnosun sosial aspektlərini müəyyən edən tarixi-sosial tiplərinin (qəbilə-tayfa icmaları, xalq, millət, millətlərarası regional birləşmələr) təşəkkülünə şərait yaradacaqdır. Etnik birlik tipləri anlayışı cəmiyyətin özünün tarixi inkişaf mərhələlərindən

anlayışı cəmiyyətin özünün tarixi inkişaf mərhələlərindən asılı olaraq, etnogenezin ayrı-ayrı mərhələlərini təsbit edir ki, bu da etnosun sosial mahiyyətinin səciyyələndirilməsi üçün prinsipial əhəmiyyətə malikdir.

Beləliklə, bəşəriyyətin sivilizasiyayaqədərki inkişaf dövrünə qəbilə-tayfa təşkilat tipi uyğun gəlir.

**Cədvəl 4.1**

**Etnosun zamana görə çevrilmələri**

*(L.N.Qumilyova görə, etnogenezin fazaları (mərhələləri)*

| Fazalar | Hakim imperativ | Faza keçidi |
|---|---|---|
| Etnosların və landşaftların ilkin vəziyyəti | Müxtəlifdir. «Dünyanı düzəltmək lazımdır, çünki o, pisdir!» | Passionar təkan: etnogenezin hərəkətə gəlmə məqamı |
| Passionar yüksəliş: inkubasiya (gizli) dövrü | | Etnik sistemin təşəkkülü |
| Passionar yüksəliş: aşkar dövr | «Biz əzəmətli olmaq istəyirik!» «Biz böyüklərin əlindən cana gəlmişik!» | Akmatasiya fazasına keçid |
| Akmatasiya fazası | «Öz varlığını qoru!» | Düşkünlük fazasına keçid |
| Düşkünlük | «Biz bilirik, biz bilirik, hər şey başqa cür olacaq!» «Alçaqlar, qoyun yaşayaq!» | Ətalət fazasına keçid |
| Ətalət | «Mənim kimi ol!». «Səbrimiz tükənmişdir!» | Taqətsizlik fazasına keçid |
| Taqətsizlik | «Bizim kimi ol!». «Bu gün mənim günümdür» | Memorial fazaya keçid: mümkün regenerasiya |
| Memorial faza | «Necə gözəl olduğunu unutma!». «Özündən məmnun ol, troll!» | Homeostaza keçid: relikt (qalıq) |
| Homeostaz | Unutma, imperativlərin itirilməsi | Etnosların və landşaftların yeni etnogenezin başlanğıcı üçün təkrar birləşməyə qayıtması mümkündür. |

**Qövmlər (kiçik xalqlar)** – kosmogen cəmiyyət (quldarlıq, feodalizm), texnogen sivilizasiya (kapitalizm, sosializm) mil-

lətləri. Etnik birliklərin inkişafı və qarşılıqlı təsiri prosesində həm tamdan ayrılma, qopma, həm də digər etnoslarla birləşmə baş vermişdir. Postindustrial inteqrasiya və qlobal universallaşma meylləri getdikcə daha geniş şəkildə təzahür edir ki, bu da etnoslararası birliklərin əmələ gəlməsinə və etnik formaların rəngarəngliyinə aparır. Hazırda təşəkkül tapmış sivilizasiyalar (Qərbi Avropa, ərəb, hind, Şərqi Slavyan, Latın Amerikası və s.) milli sivilizasiyalarla müqayisədə daha yüksək sosiomədəni birlik tipidir. Onların sistem keyfiyyəti isə tərkibini təşkil edən etnosun bütövlüyünün səviyyəsidir. Bu proseslər ziddiyyətli şəkildə cərəyan edir və neqativ sosial şəraitdə gərginləşərək, bir çox hallarda, etnik münaqişələrə və müharibələrə gətirib çıxarır. Buna görə də bazar təsərrüfatı əsasında xalqların beynəlmiləlləşməsinin yüksək səviyyəsini obyektiv surətdə təsnifləşdirən informasiya sivilizasiyasının təşəkkülü, lazımi siyasi rəhbərlik olmadıqda, millətçiliyə, etnokratizmə, separatizmə, milli-dini təməlçiliyə və digər neqativ ideologiya növlərinə və onlara müvafiq fəaliyyətə rəvac verən etnik amilə xüsusi diqqət göstərilməsini tələb edir. SSRİ-nin dağılması təcrübəsi göstərdi ki, bu halın qulaqardına vurulması təkcə ümummilli böhrana deyil, həm də birbaşa xalqların sosial tənəzzülünə aparan yoldur. İrimiqyaslı etnoslararası inteqrasiya prosesləri super və meqaetnosların yaranmasına aparır.

**Superetnoslar.** Müxtəlif etnoslara mənsub olan və vahid dövlətdə yaşayan xalqların (Azərbaycan xalqı, Rusiya xalqı, Hindistan xalqı və s.) fövqəletnik birliyinin formalaşması. Superetnos etnoslar sistemi kimi mənəvi, yaxud siyasi birlik deyil, təbii ümumilikdir. Qərbi Avropa superetnosunu Rusiya superetnosundan gözəgörünməz landşaft sərhədi – yanvar sıfır izoterm ayırır. Şərqdə tayqa zonasında yaşayan fin-uqor xalqları (karellər, vepslər, komilər, mordvalar, udmurtlar və s.), habelə pravoslav ukraynalılar, çuvaşlar və bir çox Sibir xalqları ruslarla birlikdə vahid superetnos təşkil etmişlər. Daha çoxsaylı ruslar onu Rusiya superetnosu adlandırmışlar. İki əsas superetnosun – Rusiya və Çöl qollarının bir-birini uğurlu şəkildə tamamlaması Moskva dövlətinin yaranmasının, sonralar isə Ru-

siya imperiyası ərazisinin genişləndirilməsinin, eləcə də İkinci Dünya müharibəsi illərində SSRİ-nin məğlubedilməzliyinin rəhni olmuşdur.

**Komplementarlıq.** Müxtəlif superetnosların, etnosların və hətta ayrı-ayrı şəxslərin təhtəlşüur, hansısa əvvəlcədən düşünülmiş açıq-aşkar səbəb olmadan qarşılıqlı rəğbəti (yaxud xoşlanmaması – mənfi komplementarlıq).

Beləliklə, etnik iyerarxiyanın yüksək pilləsini eyni zamanda və eyni landşaftda meydana gələn bir neçə etnosdan ibarət olan, tarixdə mozaik bütövlük kimi təzahür edən superetnos-etnik sistem təşkil edir.

Etnik sistemin ikinci pilləsini (yuxarıdan) orijinal davranış stereotipi əsasında təbii surətdə yaranmış, komplementarlıq duyğularından çıxış edərək, özünü bütün digər insan kollektivlərinə qarşı qoyan enerji sistemi kimi fəaliyyət göstərən ***etnos*** tutur. O, bütün etnik sistemin əsas səviyyəsi, «mehvəri»dir.

Üçüncü (aşağı) pillədə etnosun tərkibinə daxil olan ***subetnos*** durur. Məsələn, Azərbaycan etnosunun tərkibinə talışlar, kürdlər, tatlar və digər subetnoslar daxildir. Fransız etnosunun tərkibinə, minillik tarixi ərzində, öz xüsusiyyətləri olan, lakin fransız etnosunun bütövlüyünü pozmayan bretonlar, burqundlar, qaskoniyalılar, elzaslılar, normandlar kimi subetnoslar daxil olmuşdur.

**Meqaetnoslar** – etnik cəhətdən yaxın olub, müxtəlif dövlətlərdə yaşayan birliklər (ərəb xalqı, Latın Amerikası xalqı və s.). Etnosun mahiyyətinin və onun əsas inkişaf meyllərinin başa düşülməsi indi milli siyasətin hazırlanmasının və etnik milli münasibətlərin müxtəlif səviyyələrində – ayrı-ayrı dövlətlər çərçivəsində, dövlətlərarası və beynəlxalq səviyyələrdə tətbiqinin zəruri şərtidir. Müvafiq olaraq, «etnos» termininin iki mənası fərqləndirilir: sözün dar mənasında etnos, yaxud «etnikos», sözün geniş mənasında etnos, yaxud «etnomilli orqanizm». Etnikos, ilk növbədə, dillə, mədəniyyətlə və milli adla müəyyənləşdirilən, yəni məhz etnik xarakterli birlikdir; geniş mənada etnos – «etnomilli orqanizm» isə nəinki etnik və ərazi ümumiliyinə malikdir, həm də sosial-iqtisadi bütövlük demək-

dir. Məsələn, dünyada, o cümlədən İranda, Türkiyədə, Rusiyada və digər ölkələrdə yaşayan bütün azərbaycanlılar etnikos, Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar isə etnososial orqanizmdir.

Hazırda etnik birliyin üç tipi – qəbilə, qövm və millət – ayırd edilir.

***Qəbilə*** – Homo Sapienslə eyni vaxtda meydana gəlmiş etnik birliyin ilk pilləsidir. Onun əsasında qan qohumluğu əlaqələri durur. Sonra onlar ərazi əlaqələri ilə əvəz olunur, qəbilə ittifaqları meydana gəlir, onların əsasında qeyri-sabit etnoslar yaranır. Qəbilələrin müəyyən məskunlaşma ərazisi, öz adı, ümumi dili, bir sıra ümumi maddi və mənəvi mədəniyyət əlamətləri vardır. Lakin qəbilələrin etnik birliyi və onları sıx birləşdirən amillər o qədər də sabit deyillər. Qəbilələrin bir çoxu dağılır, başqaları ilə qaynayıb-qarışır, dilləri dəyişir və s., bəziləri isə öz bütövlüyünü uzun müddət qoruyub saxlayır. O, tarixi kateqoriyadır. Əvvəllər qəbilə birliyi mərhələsində olmuş evenklər, nanaylar, nenlər və bir sıra keçmiş müstəmləkə ölkələrinin əhalisi buna misal ola bilər. Məsələn, avropalılar gələnə qədər Avstraliya aborigenləri hər birinin öz dili (dialekti) olan 500-ə yaxın qəbilədən ibarət idi, Kalahari səhrasında yaşayan buşmenlər arasında 20-dən çox qəbilə vardır, onlar hottentotlarla birlikdə kiçik irq təşkil edirlər. Bütün bu etnoslar etnogenezin müxtəlif mərhələlərindədirlər.

***Qövm*** - etnos tipi, ibtidai icma quruluşunun dağılması və onun quldarlıqla (məsələn, Qədim Misirdə və Romada), yaxud ibtidai icma quruluşunun feodalizmlə (tarixi inkişafda quldarlıq mərhələsini keçməyən ölkələrdə, məsələn, Qədim Rus Dövlətində) əvəz olunması əsasında yaranmış etnososial birlik. Həm quldarlıq, həm də feodal istehsal üsulu əsasında yaranmış qövmlər, sosial əlaqələrinin səviyyəsindəki və xarakterindəki fərqlərə baxmayaraq, ərazi ümumiliyi, iqtisadi əlaqələr, hələ də qalmaqda olan bir sıra qəbilə dialektləri ilə birlikdə dil eyniliyi kimi əlamətlərlə səciyyələnən müəyyən etnomilli insan birliyidir. Qövmün təşəkkülü prosesində insanların psixikasının və mədəniyyətinin spesifik xüsusiyyətləri də formalaşır.

Qövmün təşəkkülü və təkamülü uzun müddət davam edir və müasir dünyada hələ başa çatmamışdır. Asiya, Afrika və Latın Amerikası ərazilərində yaşayan bir çox qəbilələr hələ də qövmlərə çevrilməmişlər. Bu, mövcud təsərrüfat həyatı tərzinin inkişafındakı qeyri-bərabərlik, iqtisadi əlaqələrin zəifliyi, dil və mədəniyyətin inkişafındakı xeyli fərqlər və s. ilə bağlıdır.

Qövmlər, formal olaraq, qəbilə-tayfa birliyi ilə eyni, lakin keyfiyyətcə yeni sosial məzmunlu əlamətlərlə səciyyələnirlər. Bu, bir tərəfdən, əvvəlki insan birliyi tipi ilə tarixi varisliyindən, digər tərəfdən isə, onların müvafiq ictimai-iqtisadi formasiya və sivilizasiya prosesi ilə müəyyən edilən spesifik məzmunundan xəbər verir. Tarixən növbəti sosial-etnik birlik olan millət qövmdən hansısa əlavə əlamətlərlə deyil, bu birliyin sosial-iqtisadi fəallıq kəsb etməsi, intensiv beynəlxalq əlaqələrə qoşulması ilə seçilir. Millətin təşəkkülü feodal pərakəndəliyinin aradan qaldırılması, iqtisadi əlaqələrin güclənməsi, mədəni, siyasi və dil proseslərinin dərinləşməsi dövründə qövmün transformasiyası kimi baş vermişdir. Burada milli birliyin təşəkkülünün əsasında duran etnosların sayca təmsilçiliyi əhəmiyyətli olmuşdur.

***Millət*** – industrial sivilizasiya səviyyəsində (kapitalizm və sosializm ictimai-iqtisadi formasiyaları) etnik ümumilik tipi. İnsanları ərazi vəhdəti, dil ümumiliyi, xalqın iqtisadi, sosial-siyasi və mənəvi həyat birliyi, onun mədəni və psixoloji xüsusiyyətləri əsasında birləşdirən sabit sosial-tarixi birlik həm sosial-etnik əlamətləri (dil, xalqların mədəniyyət və psixologiya xüsusiyyətləri, adət və ənənələri, spesifik həyat tərzi və təbii şəraitdən asılı olaraq, təsərrüfat fəaliyyəti əlamətləri, əhalinin demoqrafik tərkibi və s.), həm də onları formalaşdıran ictimai sistemin sosial təbiətini əks etdirən sosial-iqtisadi və mənəvi-siyasi amilləri (iqtisadi həyat ümumiliyi, siyasi idarəetmə, mənəvi təsisatlar və s.) əhatə edir. Millət insanları, etnos kimi, mənşəcə bağlamır. Onların tərkibi etnik cəhətdən qarışıq ola bilər və bir qayda olaraq, çoxmilliyyətlidirlər. Tərkibində sayca ən çox etnik qruplar iştirak edən millətlər Şimali Ameri-

ka, İndoneziya, Nigeriya və s. millətlərdir. Millətlərin yarandığı sənaye cəmiyyəti inkişaf etdikcə, müxtəlif ölkələrin etnik tərkibi get-gedə daha çox qarışmış, bir çox müasir dövlətlərin etnik-irqi strukturu isə polietnikdir, lakin onların sosial qanunları və tələbləri vahid millət çərçivəsində fəaliyyət göstərir. Məsələn, Latın Amerikası millətlərinin əksəriyyətinin etnik əsasını hindilər, Avropa və Asiyadan gəlmələrin nəsilləri, zəncilər, mulatlar, metislər və digər millətlərdən olanlar təşkil edir. Çoxmillətli Azərbaycan xalqına gəldikdə isə, başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda tarixən onun hüdudlarında yaşayan xalqların etnik özünəməxsusluğunu qoruyub saxlamaları üçün şərait yaradılmışdır. Hazırda Azərbaycan Respublikası əhalisinin tərkibində Azərbaycan millətindən əlavə, 10-dan çox millətin, onlarla xalq və milli qrupların nümayəndələri vardır. 2002-ci ildə ölkədə 70-dən çox millətin nümayəndələri qeydiyyata alınmışdır. Onların bir çoxu ərazisində yaşadıqları millətlərin milli tərkibinə daxildir. Bununla əlaqədar, bəzi etnoloqların, bir çox Qərb ölkələrində olduğu kimi, millət və dövlət anlayışlarını eyniləşdirmək təklifləri Azərbaycan üçün məqbul deyil, çünki superetnos təşkil edən Azərbaycan xalqı əksəriyyəti təbii-tarixi yolla təşəkkül tapmış kifayət qədər yüksək inkişaf etmiş millətlərdən ibarətdir. Bu gun Azərbaycanda etnik milli məsələ, sadəcə, ixtiyari olaraq, yuxarıdan müəyyən edilən etnoslararası əlaqələr deyil, əsrlər boyu ümumi tarixi tale, ictimai həyatın bütün sahələrində sıx qarşılıqlı fəaliyyət və əməkdaşlıqla bağlı olan onlarla xalqın əmin-amanlığı və rifahı problemidir. Ənənəvi-etnik başlanğıcdan daha yüksək başlanğıc olan sosial başlanğıcların daşıyıcıları kimi, millətlər etnosların qaynayıb-qarışmasını möhkəmləndirir, onlara biososial deyil, etnosların tabe olduğu sosial qanunlar mövqeyindən təsir göstərirlər. Onlar etnomilli proseslərin gedişində, ictimai həyatın qlobal universallaşması meyllərinin təsirilə ziddiyyətlərin yumşaldılmasında həlledici rol oynayırlar. İnformasiya – texnologiya sivilizasiyasının formalaşması, xalqların qarşılıqlı fəaliyyətinin daim artması şəraitində bəşəriyyətin etnomilli strukturu dəyişir, bir neçə dünya siviliza-

siyası çərçivəsində dünyanın yeni etnik mənzərəsi bərqərar olur, etnosların postmilli tipini səciyyələndirən regional sivilizasiya birlikləri - super və meqaetnoslar yaranır (cədvəl 4.2).

**Cədvəl 4.2**

**1999-cu ildə Yer kürəsi xalqlarının sayı**

| Xalqların sayı milyon nəfər | Xalqların miqdarı | Qrupun ümumi sayı, milyon nəfər | Dünya əhalisinin ümumi sayında payı, % |
|---|---|---|---|
| 100-dən yuxarı | 7 | 2436 | 40,8 |
| 50-100 | 12 | 938 | 16,8 |
| 25-50 | 16 | 611 | 10,2 |
| 10-25 | 41 | 715 | 12,3 |
| 5-10 | 52 | 472 | 7,5 |
| 1-5 | 182 | 506 | 8,1 |
| 1-dən az | | 216 | 4,3 |

4.2 cədvəlindən görünür ki, əsrin əvvəlində dünyada 1 milyon nəfərdən çox olan və birlikdə Yer əhalisinin 95,7%-ni təşkil edən 310 xalq var idi. O cümlədən 10 milyon nəfərdən çox olan 76 xalq əhalinin 80%-ni, 25 milyon nəfərdən çox olan 35 xalq əhalinin təqribən 68%-ni təşkil edirdi.

Əhalinin etnik (milli) tərkibinin xarakterinə uyğun olaraq, 5 dövlət tipini ayırd etmək mümkündür:

1) təkmillətli dövlətlər;

2) bir millətin kəskin surətdə üstün, lakin az və ya çox sayda milli azlıqların mövcud olduğu dövlətlər;

3) iki millətli dövlətlər;

4) daha mürəkkəb milli tərkibli, lakin etnik cəhətdən nisbətən yekcins dövlətlər;

5) etnik cəhətdən mürəkkəb və müxtəlif tərkibə malik çoxmillətli dövlətlər.

Birinci tip dövlətlər dünyada kifayət qədər geniş təmsil olunmuşlar. Məsələn, xarici Avropa ölkələrinin yarıya yaxını, praktik olaraq, təkmillətlidir. Bunlar İslandiya, İrlandiya, Norveç, İsveç, Danimarka, AFR, Polşa, Avstriya, Bolqarıstan, Sloveniya, İtaliya, Portuqaliyadır. Xarici Asiyada belə ölkələr xeyli azdır: Yaponiya, Koreya, Banqladeş, Səudiyyə Ərəbistanı,

bir sıra kiçik ölkələr. Afrikada onlar daha azdır: Misir, Liviya, Somali, Madaqaskar. Latın Amerikasında isə, demək olar ki, bütün dövlətlər təkmillətlidir, çünki hindilər, mulatlar, metislər vahid millətin tərkib hissələri sayılırlar (cədvəl 4.3).

**Cədvəl 4.3**

**25 milyon nəfərdən çox olan dünya xalqları**

| 100 milyon nəfərdən çox olan xalqlar | 1999-cu ildə sayı | 50 milyondan 100 milyonadək olan xalqlar | 1999-cu ildə sayı | 25 milyondan 50 milyonadək olan xalqlar | 1999-cu ildə sayı |
|---|---|---|---|---|---|
| Çinlilər | 1048 | Pəncablılar | 87 | Fransızlar | 48 |
| Hindistanlılar | 219 | Biharlar | 86 | İngilislər | 47 |
| ABŞ amerikalıları | 187 | Meksikalılar | 83 | Ukraynalılar | 46 |
| Benqallar | 176 | Almanlar | 82 | Türklər | 46 |
| Ruslar | 146 | Yavalılar | 78 | Polyaklar | 43 |
| Braziliyalılar | 137 | Koreyalılar | 67 | Qucaratlar | 42 |
| Yaponlar | 123 | Teleqular | 66 | Kolumbiyalılar | 31 |
| | | İtalyanlar | 65 | Malayalilər | 31 |
| | | Marathlar | 59 | Kannaralar | 31 |
| | | Tamillər | 57 | İspanlar | 30 |
| | | Byetilər | 55 | Orilər | 28 |
| | | Misirlilər | 51 | Siamlar | 28 |
| | | | | Argentinalılar | 27 |
| | | | | Əfqanlar | 26 |
| | | | | Hausalar | 26 |

İkinci tip ölkələrə də tez-tez rast gəlinir. Xarici Avropada bunlar Böyük Britaniya, Fransa, İspaniya, Finlandiya, Rumıniya, xarici Asiyada Çin, Monqolustan, Vyetnam, Kamboca, Tailand, Myanma, Şri-Lanka, İraq, Suriya, Türkiyə, Afrikada Əlcəzair, Mərakeş, Mavritaniya, Zimbabve, Botsvana, Şimali Amerikada ABŞ, Okeaniyada Avstraliya İttifaqı və Yeni Zelandiyadır.

Üçüncü tip ölkələrə xeyli az təsadüf olunur. Belçika, Kanada belə ölkələrə misal ola bilər.

Etnik cəhətdən yekcins olsa da, xeyli mürəkkəb tərkibli ölkələrə daha çox Asiyada (İran, Əfqanıstan, Pakistan, Malay-

ziya, Laos), Şərqi və Cənubi Afrikada rast gəlmək mümkündür. Onlar Latın Amerikasında da vardır.

Beşinci tipin ən səciyyəvi ölkələri Hindistan və Rusiyadır. İsveçrəni, Filippini, Qərbi və Mərkəzi Afrikanın bir çox ölkələrini də bu tipə aid etmək olar.

***Konsolidasiya*** – Bir neçə qohum etnik birliklərin milli əlamətlərin qarışması əsasında qaynayıb-qarışması. Məsələn, konsolidasiya prosesində Altay-Sayan yaylasının 20-dək kiçik xalqı birləşərək, iki iri xalqı – altaylıları və xakasları əmələ gətirmişlər.

**Assimilyasiya** – etnosların, yaxud ayrı-ayrı insanların başqa etnoslarla uzunmüddətli ünsiyyəti nəticəsində doğma dillərini və milli özünüdərkini itirməsi, yəni etnik qrupların çoxmillətli mühitdə əriməsi. Assimilyasiya zorakı və qeyri-ixtiyari olur. İnqilabaqədərki Rusiya buna misal ola bilər. Çarizm başqa xalqları zorla ruslaşdırırdı. Bu, rus dilinin, rus yazısının, pravoslavlığın zorla qəbul etdirilməsində təzahür edirdi. Sovet dövründə isə guya, əksinə, obyektiv, könüllü proses gedirdi, azsaylı xalqların rus dilini bilməsi onların dünya mədəniyyəti xəzinəsi ilə tanış olmalarını təmin edirdi. Hətta yeni vahid birliyin – sovet xalqının yarandığı da elan olunmuşdu.

## 4.2. Xalqların təsnifatı

Bəşəriyyəti təşkil edən xalqların sayı çoxdur. Hansısa daha iri xalqın tərkibinə daxil olan ayrı-ayrı qəbilələrin və etnik qrupların müstəqil xalq hesab olunmadığı halda belə, planetdəki xalqların sayı 4 mindən artıqdır. Dəqiq etno-statistik məlumatlar olmadığından ayrı-ayrı xalqların sayını müəyyənləşdirmək və onların dinamikasını təhlil etmək olduqca çətindir. Sonuncunun başlıca qüsuru ondadır ki, dünya ölkələrinin əksəriyyətində «milliyyət» anlayışı dəqiq müəyyən edilmir.

Xalqların ayırd edilməsi onların öyrənilməsinin ancaq ilkin mərhələsidir. Xalqların təsnifatı da çox mühüm məsələdir. Bu, Yer kürəsinin müxtəlif bölgələri etnoslarının bir-birinə yaxınlıq dərəcəsi barədə təsəvvür yaratmalıdır.

Xarici ədəbiyyatda bəzən xalqların eyni zamanda həm irqi qohumluq, həm də dil yaxınlığı əlamətlərinə görə təsnif edilməsinə cəhd göstərilir. Bu halda bəşəriyyət üç-beş irqə, irqlər isə dil qruplarına bölünürlər. Antropoloji və linqvistik meyarların bu cür kombinə edilməsi qüsurludur; irqi mənsubiyyət etnik ümumilik əlaməti deyil, antropoloji qruplar isə dil qrupları ilə üst-üstə düşmür.

Elmdə xalqların dil yaxınlığı prinsipi əsasında təsnif olunması daha geniş yayılmışdır. Belə ki, dillərin yaxınlığı xalqların ya genetik qohumluğundan, ya da onların uzunmüddətli mədəni əlaqələrindən xəbər verir. Buna görə də linqvistik qruplaşdırma, eyni zamanda, həm də etnik təsnifatdır. Doğrudur, təkcə dil xalqlar arasında qəti sərhəd qoymağa heç də həmişə imkan vermir. Belə hallarda digər etnik göstəricilərə müraciət etmək lazım gəlir. Lakin bu cür kənaraçıxma hər hansı digər təsnifat sistemində də labüd olardı. Onlar, etnik təsnifatda aparıcı meyar kimi, dil prinsipindən imtina etməyə əsas vermir. Bu təsnifat sistemi elmdə etnolinqvistik sistem adlandırılır.

Bu sistem xalqları qruplaşdırmaq üçün dillərin genealoji təsnifatından istifadə edir. Bu təsnifatda dillər lüğət fondu və qrammatikalarının müqayisəsi əsasında müəyyənləşdirilən qohumluq əlamətlərinə görə dil ailələrində birləşdirilirlər. Ailələr qruplara, onların bəziləri isə yarımqruplara bölünürlər.

Dil ailələrinin formalaşması prosesi bəşəriyyətin Yer kürəsinə yayılması ilə sıx bağlı olmuşdur. Ən yaxın dillərə, adətən, mənşə ümumiliyi ilə, yaxud eyni regionda uzunmüddətli birgəyaşayışla bağlı olan qonşu xalqlarda rast gəlinir. Bəzən bir-birindən uzaqda yaşayan etnosların da dilləri oxşardır (məsələn, yavalılarla malaqasilərin, macarlarla mansilərin, yakutlarla azərbaycanlıların dilləri). Bu, həmin dillərdə danışan xalqların hansısa ümumi genetik köklərə malik olması, yaxud uzaq keçmişdə həmcivar ərazilərdə yaşaması ilə izah edilir.

Bəşəriyyətin bütün tarixi boyu dil ailələrinin və qruplarının coğrafi yayılma sərhədləri fasiləsiz olaraq dəyişmişdir. Bu dəyişikliklər, hətta məhdud tarixi dövrlərdə də nəzərə çarpır.

Məsələn, eramızın VII əsrinədək yalnız Ərəbistan yarımadası əhalisinin bir qisminin danışdığı ərəb dili hazırda qurunun təqribən 1/10-ni əhatə edən Cənub-Qərbi Asiyanın və Şimali Afrikanın geniş ərazilərində yayılmışdır. Hazırda Balkan yarımadasından tutmuş Şimal-Şərqi Sibirədək yayılmış türk qrupu dilləri öz arealını qat-qat genişləndirmişlər. XV əsrədək yalnız Britaniya adalarında üstün olan ingilis dili sonralar bütün qitələrin bir sıra bölgəsinə də sirayət etmişdir. İndi Latın Amerikasının əksər hissəsində işlədilən ispan dilinin də arealı xeyli genişlənmişdir. Hazırda ingilis və ispan dillərində danışan bütün əhalinin 15%-dən də azı Avropada yaşayır. Bu proseslərin nəticəsində çox vaxt tamamilə müxtəlif mənşəli, hətta ayrı-ayrı irqlərə mənsub xalqlar eyni dildə danışır.

Ayrı-ayrı xalqların sayca qeyri-bərabər artımı nəticəsində dünyanın ümumi əhalisi arasında müxtəlif dil ailələrinin xüsusi çəkisində xeyli dəyişiklik baş vermişdir. 1961-1983-cü illərdə dünya əhalisində aşağıdakı dil ailələrinə mənsub olan xalqların sayı daha çox artmışdır: Niger-kordofan (4,4%-dən 6,1%-dək), Afrasiya, yaxud sami-hami (4,2%-dən 5,1%-dək) və Avstroneziya (4,4%-dən 4,9%-dək). Eyni zamanda, dünya xalqları arasında Hind-Avropa və Ural dillərinə mənsub olanların, habelə yaponların sayı bir qədər azalmışdır. Yer əhalisində Hind-Avropa dillərinə mənsub xalqların payı, ümumən, xeyli azaldığı halda, ayrı-ayrı qruplara mənsub xalqların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdır: Hind-ari – 13,8%-dən 15,6%-dək, İran – 1,4%-dən 1,6% -dək, roman – 11,8%-dən 12%-dək (Latın Amerikası xalqlarının sürətli artımı sayəsində). Eyni zamanda, german qrupu xalqlarının payı 11,7%-dən 9,0%-ə, slavyan qrupunun payı isə 7,9%-dən 6,1%-ə düşmüşdür.

***Milliyyət*** – insanın biososial identikliyinin müəyyən növü kimi etnosa, yaxud etnik qrupa mənsubluğu. Milliyyət «millət» sözü ilə eyni kökdən olsa da, onun çərçivə və sərhədləri ilə üst-üstə düşmür, çünki milli ümumiliyi, əksər hallarda, müxtəlif millətlərə mənsub insanlar yaradırlar, eyni milliyyətdən olanlar isə müxtəlif millətləri təşkil edə bilərlər. Məsələn, fransız millətinə fransızlardan (əhalinin təqribən 83%-i) əlavə,

elzaslılar, bretonlar, əlcəzairlilər, portuqallar, yəhudilər, korsikalılar, italyanlar, ispanlar və digər millətlərin nümayəndələri daxildir. Belçika milləti flamandlardan (Belçika əhalisinin 50%-dən çoxu) və vallonlardan (40%), habelə almanlar, fransızlar, italyanlar və digər millətlərin nümayəndələrindən ibarətdir.

Çoxmillətli ölkə olaraq, Azərbaycanda onlarla təşəkkül tapmış millət vardır. Onun tərkibində azərbaycanlılardan (əhalinin təqribən 90,6%-i) əlavə, ləzgilər (2,2%), ruslar (1,8%), talışlar (1,0%), avarlar (0,6%), türklər (0,5%), tatarlar (0,4%), gürcülər (0,2%), kürdlər (0,2%) və s. vardır.

Milli amil cəmiyyətin bütün həyatında böyük rol oynayır. Əlverişli sosial-siyasi şəraitdə bu amil ictimai inkişafın güclü pozitiv qüvvəsinə çevrilir. Birlikdə yaşayan millətlərin dostcasına əməkdaşlığı nəticəsində milli mədəniyyətlərin və dillərin qarşılıqlı zənginləşməsi, müsbət fəaliyyət mübadiləsi baş verir, könüllü qismən, yaxud tam assimilyasiya, - məsələn, SSRİ-də olduğu kimi, - həyata keçirilir. Həll edilməmiş sosial-siyasi problemlərin mövcud olduğu cəmiyyətdə milliyyət məsələsi bir çox hallarda mütləqləşdirilir, biososial ümumilik kimi, etnoslar probleminə çevrilir, ki, bu da uzunmüddətli ağır etnomilli münaqişələrə (Bosniya və Herseqovina, Yuqoslaviya, Gürcüstan, Asiya və Afrika qitələrinin bir çox ölkələri və s.) gətirib çıxarır.

Qərb metodologiyasında milliyyət dövlət ümumiliyinə mənsubiyyət kimi qiymətləndirilir. Bunun Azərbaycan şəraitinə tətbiqi istər elmi ictimaiyyət, istərsə də ölkədə yaşayan çoxsaylı xalqlar tərəfindən pislənilir, çünki bu cür nəzəriyyə və praktika onların milli mənafelərinə ziddir.

Müasir Azərbaycan 80-dən artıq bərabərhüquqlu millət və xalqın, o cümlədən sayı 100 mindən çox olan 4 xalqın (bax cədvəl 4.4) nümayəndələrinin yaşadığı çoxmillətli dövlətdir.

4.4 cədvəlindən göründüyü kimi, ayrı-ayrı xalqların sayı cürbəcür dəyişir və bunun nəticəsində respublika əhalisinin milli tərkibində dəyişikliklər baş verir. Bu dəyişikliklər demoqrafik proseslərlə (təbii artım sürətinin müxtəlifliyi ilə), eləcə

də etnik proseslərlə, milli cəhətdən qarışıq nikahların yayılması, habelə son illərin siyasi hadisələri ilə bağlıdır.

Ayrı-ayrı bölgələrin etnik tərkibini nəzərdən keçirərkən yerli və gəlmə əhalini ayırd etmək lazımdır. Bu bölgü olduqca şərtidir, belə ki, yerli əhali arasında da daha qədimləri və nisbətən sonradan məskunlaşanları fərqləndirmək mümkündür. Məsələn, Oğuz rayonunda udinlər min illərlə yaşayırlar, ermənilər isə, ancaq XVIII əsrin əvvəllərində gəlmişlər.

**Cədvəl 4.4**

**1989-2002-ci illərdə Azərbaycan əhalisinin milli tərkibi**

| Xalqlar | Xalqların sayı | | | |
|---|---|---|---|---|
| | 1989 | | 2002 | |
| | min nəfər | % - lə | min nəfər | % - lə |
| Azərbaycanlılar | 5805,0 | 82,7 | 7205,5 | 90,6 |
| Ləzgilər | 171,4 | 2,4 | 178,0 | 2,2 |
| Ruslar | 392,4 | 5,6 | 141,7 | 1,8 |
| Talışlar | 21,2 | 0,3 | 76,8 | 1,0 |
| Avarlar | 44,1 | 0,6 | 50,9 | 0,6 |
| Türklər | 17,7 | 0,2 | 43,4 | 0,5 |
| Tatarlar | 28,6 | 0,4 | 30,0 | 0,4 |
| Ukraynalılar | 32,3 | 0,5 | 29,0 | 0,4 |
| Saxurlar | 13,3 | 0,2 | 15,9 | 0,2 |
| Gürcülər | 14,2 | 0,2 | 14,9 | 0,2 |
| Kürdlər | 12,2 | 0,2 | 13,1 | 0,2 |
| Tatlar | 10,2 | 0,2 | 10,9 | 0,1 |
| Yəhudilər | 30,8 | 0,4 | 8,9 | 0,1 |
| Udinlər | 6,1 | 0,1 | 4,2 | 0,05 |
| Başqaları | 390,5 | 5,6 | 120,7 | 1,5 |

Qonşu xalqlar, adətən, məişət və mədəniyyətcə bir-birinə yaxın olurlar. Qonşuluq nə qədər uzunmüddətlidirsə, mənşədən asılı olmayaraq, onların məişət və mədəniyyətlərindəki ümumi cəhətlər də bir o qədər çox olur. Azərbaycanda yaşayan xalqlar mənşə və dil cəhətdən bir-birindən fərqlənsələr də,

# Azərbaycanın müasir etnik xəritəsi




AZƏRBAYCAN RESPUBLİKASI
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
ERMƏNİSTAN
BAKI
919
SUMQAYIT
3540
Azərbaycan əhalisinin milli tərkibi
1979 il
MİNGƏÇEVİR
ŞƏKİ
GƏNCƏ
2721
YEVLAX
XANKƏNDİ
ƏLİBAYRAMLI
NAXÇIVAN
Xaçmaz
Dəvəçi
Siyəzən
Xızı
Quba
Qusar
Qəbələ
Oğuz
İsmayıllı
Şamaxı
Qobustan
Abşeron
Hacıqabul
Ağsu
Kürdəmir
Göyçay
Ağdaş
Ucar
Zərdab
Sabirabad
Saatlı
İmişli
Biləsuvar
Salyan
Neftçala
Masallı
Lənkəran
Astara
Cəlilabad
Yardımlı
Lerik
Balakən
Zaqatala
Qax
Samux
Şəmkir
Ağstafa
Tovuz
Qazax
Gədəbəy
Daşkəsən
Xanlar
Goranboy
Tərtər
Kəlbəcər
Ağdam
Bərdə
Ağcabədi
Xocavənd
Xocalı
Şuşa
Laçın
Füzuli
Beyləqan
Cəbrayıl
Qubadlı
Zəngilan
Ordubad
Culfa
Şahbuz
Babək
Şərur
Rayonların və şəhərlərin əhalisi (min nəfər)

onların mədəni-məişət tərzində bir sıra ümumi əlamətlər – geyim tipi, qidalanma, adətlər, etiqad və s. yaranmışdır. Etnoslar arasındakı bütün fərqlərə baxmayaraq, onların bir çoxu ümumi əlamətlərə malikdir. Xalqların təsnifatı da ayrı-ayrı əlamətlərin ümumiliyi, yaxud oxşarlığı əsasında aparılır. Lakin ayrı-ayrı alimlər xalqları müxtəlif cür qruplaşdırırlar.

Etnosların say, dil və ərazi-coğrafi əlamətlərinə görə qruplaşdırılması əhali coğrafiyası üçün daha əhəmiyyətlidir. Xalqların sayına görə qruplaşdırılması prinsipinin ciddi elmi əsası yoxdur. Müxtəlif müəlliflər qruplaşmalar arasındakı say intervalını, adətən, ixtiyari olaraq müəyyən edirlər.

Alimlər dünya dillərinin ümumi sayını 4-5 min arasında müəyyənləşdirirlər. Açıq-aşkar ziddiyyət, sanki, göz qabağındadır, belə ki, dillərin sayı təqribən xalqların sayına uyğun olmalıdır.

Ayrı-ayrı dillərdə danışanların sayı bu dilləri doğma dil bilən xalqların sayı ilə üst-üstə düşmür. Bu, xüsusilə millətlərarası ünsiyyət vasitəsi sayılan dillərə aiddir. Ən geniş yayılmış dünya dillərinə (danışanların təqribi sayı milyon nəfərlə) Çin (1000), ingilis (400), hindi və ona yaxın urdu (300), ispan (280), rus (220), benqal, İndoneziya və ərəb (hər biri 160), portuqal (140), yapon (120), alman (100), fransız (95) dilləri daxildir. Bütün bəşəriyyətin təqribən 2/3-si yuxarıda göstərilən 12 dildə danışır. Onların 6-sı (ingilis, fransız, rus, ispan, ərəb və Çin dilləri) BMT-nin rəsmi və işlək dilləridir.

Rəsmi (yaxud dövlət) dillərin getdikcə artmaqda olan rolu da qeyd edilməlidir. Əvvəllər, natural, yaxud yarım natural təsərrüfat və zəif iqtisadi əlaqələr şəraitində onlardan ancaq nisbətən məhdud dairədə istifadə olunurdu. İndinin özündə də bir sıra çoxmillətli ölkələrdə əhalinin əksəriyyəti rəsmi dili hələ də bilmir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, vaxtilə müstəmləkə olmuş bir sıra dövlətlərdə rəsmi dil statusunu keçmiş metropoliya dilləri almışdır. Məsələn, 55 Afrika ölkəsindən 21-də fransız dili (o cümlədən 9 halda ingilis dili, yaxud hansısa yerli dillə birlikdə), 19-da ingilis dili (9 halda hansısa başqa dillə birlikdə), 5-də portuqal dili rəsmi dil sayılır.

Hazırda planetdə 2 minə yaxın xalq vardır. Onların sayı 50 milyondan çox olan ən böyükləri bütün bəşəriyyətin təqribən 60%-ni təşkil edir. Görmək çətin deyildir ki, dünyanın sayca ən böyük 20 xalqından 13-ü Asiyada, hərəyə 3-ü Amerikada və Avropada, 1-i Afrikada yaşayır.

Daha 60 xalqın sayı 10 milyondan 50 milyona qədərdir və dünya əhalisinin 1/5-dən çoxu onların payına düşür. Bununla belə, mindən çox xalqın sayı 1000 nəfərdən azdır. Bunlar, əsasən, Köhnə və Yeni Dünyanın tropik meşələrində məskunlaşmış qəbilələr, habelə şimalın azsaylı xalqlarıdır. Xalq nə qədər kiçik olsa da, onun mədəniyyəti nadirdir və ümumbəşər mədəniyyətinin sərvətidir. Ona görə də həmin xalqlar barəsində onların hüquqlarını, özünəməxsusluqlarını və yaşayış mühitini qoruyan bir sıra xüsusi beynəlxalq konvensiyalar qəbul olunmuşdur (cədvəl 4.5).

Bəşəriyyətin irəliyə inkişafı gedişində etnik ayrılma prosesləri etnik birləşmə prosesləri ilə əvəzlənmişdir. Bununla belə, hazırda əks proses – ayrılma prosesi gedir. Birləşmə prosesləri dövlətlərin meydana gəlməsi ilə daha intensiv inkişaf etmişdir.

**Cədvəl 4.5**

**1999-cu ildə dünyanın ən böyük xalqlarının sayı**

| Xalq | Sayı, milyon nəfər | Xalq | Sayı, milyon nəfər |
|---|---|---|---|
| Çinlilər | 1150 | Yavalılar | 100 |
| Hindistanlılar | 260 | Almanlar | 80 |
| Amerikalılar | 200 | Koreyalılar | 80 |
| ABŞ | 200 | Teleqular | 80 |
| Benqallar | 155 | Marathlar | 70 |
| Braziliyalılar | 145 | Tamillər | 70 |
| Ruslar | 125 | İtalyanlar | 65 |
| Yaponlar | 105 | Vyenlər | 65 |
| Pəncablılar | 105 | Misirlilər | 60 |
| Biharlılar | 100 | Qucaratlılar | 51 |
| Meksikalılar | | | |

Dilə görə təsnifat ***linqvistik*** təsnifat adlandırılır. Lakin vahid

dil təsnifatı prinsipi olmadığından, dünya dillərinin bir çoxu hələ kifayət qədər öyrənilmədiyindən, dilin genealogiyasının (yəni, onun mənşəyi, ulu dil ümumiliyi) lüğət tərkibinin və qrammatik quruluşunun müqayisəsi ilə müəyyənləşdirildiyi nəzərə alınaraq, təklif olunan variantlardan hələlik heç biri hamılıqla qəbul edilmir. Məsələn, Qədim Romanın latın dili roman dilləri qrupunun – ispan, rumın, fransız, italyan, portuqal, moldav dillərinin əsasını təşkil etmişdir. Bu, Roma imperiyası hakimiyyətinin məhz həmin ərazilərə şamil olması ilə bağlıdır. Bu dil qrupunun adı da vaxtilə Latsiyanı (indiki Mərkəzi İtaliyanın Latsio vilayəti) məskunlaşmış ***latın*** tayfasının adındandır.

Azərbaycan, türkmən və türk dillərində çoxlu təkhecalı sözlərin olması bu xalqların bir-birini asanlıqla başa düşməsinə imkan verir. Beləliklə, etnosların müstəqilləşməsi nisbətən yaxın keçmişdə baş vermişdir. Azərbaycan, qazax, özbək, qırğız, tatar dilləri arasında da oxşarlıq vardır. Lakin bu oxşarlıq xeyli azdır və deməli, onların qohumluğu da uzaqdır. Xeyli yaxın olan dillər eyni qrupda birləşdirilir. Onların adında, adətən, əsasında müasir dillərin yarandığı dilin adı əksini tapır (türk, slavyan, german, monqol dilləri və s.). Bəzi qrupların daxilində qollar və yarımqruplar ayırd edilir. Məsələn, türk dilləri arasında beş qol fərqləndirilir: oğuz, bulkar, uyğur, karluk və qıpçaq. Qruplar ailələrdə birləşir və buraya, cüzi də olsa, qohum dillər daxil edilir. Ailənin adında, adətən, həmin dillərin qədim əsasının meydana gəldiyi ehtimal edilən bölgənin adı əksini tapır (Hind-Avropa, Altay, Ural dil ailələri və s.). Bu zaman, aydındır ki, xalqların təsnifatının dillərin təsnifatı ilə dəyişdirilməsindən söhbət getməməlidir. Axı, tez-tez eyni dil bir neçə, hətta bir çox xalqlar üçün ümumi dil olur. Məsələn, təkcə ingilislər, şotlandlar, irlandların bir hissəsi deyil, həm də ABŞ amerikalıları, müasir Avstraliya əhalisinin əksər hissəsi, kanadalıların əksəriyyəti və s. ingilis dilində danışır. Norveçlərin və danimarkalıların ədəbi dili ümumidir. Lakin, əlbəttə ki, onlar ayrı-ayrı xalqlardır. Bəzən elə hallar da olur ki, xalqın ayrı-ayrı hissələri öz birliyini dərk etsə də, müxtəlif dillərdə danı-

şırlar. Məsələn, İrlandiyada əhalinin ancaq bir hissəsi irland dilində danışır, digər hissəsi üçün doğma dil ingilis dili olmuşdur. Öz dillərini qoruyub saxlasalar da, vahid millət kimi qaynayıb-qarışmış müxtəlif mənşəli xalqların yan-yana yaşadığı ölkədə vəziyyət daha da mürəkkəbləşir. Məsələn, isveçrəlilərin bir qismi alman, bir hissəsi fransız, üçüncü hissəsi italyan dillərində, ayrı-ayrı kiçik qrupları isə retoroman dilində danışırlar; etnoqraflar, adətən, german-isveçrəlilərdən, frank-isveçrəlilərdən və s. ayrıca danışır, lakin onların həyat tərzinin və məişətinin tarixən təşəkkül tapmış ümumiliyini də etiraf edirlər. Fransız mənşəli kanadalıların bir hissəsi fransız dilini indiyədək qoruyub saxlamış ingilisdilli bu ölkədə xüsusi linqvistik azlıq yaratmışlar. Fransız dili haitililərin də doğma dilidir. Lakin heç kəs deyə bilməz ki, fransızdilli kanadalılar, ələlxüsus, haitililər fransızdır.

Müxtəlif xalqların eyni dil ailəsinə, hətta qrupuna mənsubluğu onların bütün milli əlamətlərinin oxşarlığı demək deyildir. Məsələn, mənşəcə uzaq olan və hazırda yaxın olmayan ərazilərdə yaşayan xalqlar – macarlar, estonlar, udmurtlar, mansilər, xantılar qohum dillərdə danışırlar. Görünür ki, bu xalqların əcdadları qonşu ərazilərdə yaşamış, sıx əlaqə saxlamış və bunun nəticəsində dil ümumiliyi əlamətləri meydana gəlmişdir.

Bir çox dillərin, məsələn, Hind-Avropa, Ural, Çin-Tibet dillərinin minillik tarixi vardır. Bəzi dillər gənc sayılır, onların cəmi bir neçə əsr yaşı var. Bunlara qazax, özbək, türkmən, eləcə də Azərbaycan dilləri və digər dillər aiddir.

Bu və ya digər ailəyə mənsub dildə danışanların sayı və bu dilin coğrafi yayılma dərəcəsi bir-biri ilə heç də həmişə birbaşa asılı olmur. Yüz milyonlarla insanın danışdığı bəzi dillər, Çin, yapon, benqal dilləri nisbətən məhdud areallarda lokallaşır, əvvəllər müqayisədə az sayda insanlara mənsub digər dillər (ingilis, ispan, fransız, ərəb və s.) isə indi dünyanın bir çox ölkələrində və müxtəlif hissələrində yayılmışdır.

«Xalq» anlayışının bir neçə mənası vardır. Bu anlayışla hər hansı bir ölkənin əhalisi (məsələn, Hindistan xalqı, İsveçrə xalqı, Fransa xalqı və s.) əməkçilər, sadəcə, qruplar, insan top-

lusu («küçədə xeyli xalq» toplaşmışdı ifadəsi və s.), nəhayət, alimlərin «etnos», «etnik ümumilik» mənasında işlətdikləri anlayış başa düşülür. «Etnos» (xalq) müəyyən ərazidə tarixən təşəkkül tapmış, nisbətən davamlı ümumi dil, mədəniyyət və ruhi xüsusiyyətlərə malik, öz birliyini və digər belə birliklərdən fərqlərini dərk edən sabit toplum kimi müəyyənləşdirilir.

Dünyada bir neçə min xalq yaşayır. Onlar sayca, ictimai inkişaf səviyyəsi, dil və mədəniyyətcə, irqi görkəminə görə bir-birindən fərqlənirlər.

Dil ailələri arasında ən böyüyü Yer kürəsi əhalisinin 45%-ni birləşdirən Hind-Avropa ailəsidir. Bu ailəyə mənsub xalqlar, əsasən, Avropa, Rusiyada və Cənubi Asiyada yaşayır. Onlar hazırda Amerikada və Avstraliyada da üstünlük təşkil edirlər. Kartvel ailəsi kiçikdir (dünya əhalisinin 0,1%-i). Ona Cənubi Qafqazda yaşayan gürcülər və onlara yaxın etnik ümumiliklər aiddir. Ural (Ural-yukagir) ailəsi xalqları (dünya əhalisinin 0,5%-i) Ural arxasında, Sibirin uzaq şimalında, Volqaboyunda, Rusiyanın Avropa hissəsinin şimalında Baltikyanı dövlətlərdə, Finlandiyada, Skandinaviyanın şimalında, Macarıstanda yaşayırlar. Dravid ailəsi (dünya əhalisinin 4%-i), əsasən, Cənubi Asiyada cəmləşmişdir. Altay ailəsi xalqları (dünya əhalisinin 6%-i) Balkan yarımadasından Uzaq Şərqə qədər coğrafi cəhətdən bir-biri ilə bağlı olmayan bir sıra areal əmələ gətirir. Bir çox alimlər onun tərkibinə daxil olan qrupları genetik cəhətdən bağlı saymır və onları bir neçə müxtəlif ailələrə aid edirlər.

Yayılma arealı, əsasən, Şimali Amerikanın şimalını və Qrenlandiyanı əhatə edən kiçik eskimos-aleut ailəsi, adından da göründüyü kimi, eskimosları və aleutları birləşdirir. Çukot-Kamçatka ailəsinin azsaylı xalqları (çukçalar, koryaklar, itelmenlər) Rusiyanın uzaq şimal-şərqində yaşayırlar.

Afrasiya ailəsi xalqları (dünya əhalisinin 5%-i) Cənub-Qərbi Asiyada və Şimali Afrikada məskunlaşmışlar. Afrasiya ailəsi sami, bərbər, kuşit və Çad qruplarını əhatə edir.

Şimali Qafqaz ailəsi sayca nisbətən kiçikdir (dünya əhalisinin 0,1%-i). Ona iki qrup – abxaz-adıq və nax-Dağıstan qrupları daxildir.

Çin-Tibet ailəsi (dünya əhalisinin 23%-i) sayca ancaq Hind-Avropa ailəsindən geri qalır (dünyanın ən çoxsaylı xalqı olan çinlilər onun tərkibinə daxildir).

Myao-yao ailəsi xalqları (dünya əhalisinin 0,2%-i) Çində, habelə Vyetnamda və Cənub-Şərqi Asiyanın digər ölkələrində yaşayırlar. Buraya ailənin adında əksini tapan iki ən böyük etnik ümumilik – myao və yao daxildir. Bəzi tədqiqatçılar myao-yaonu Çin-Tibet ailəsi daxilində, digərləri isə Avstraliya-Asiya ailəsi daxilində qrup hesab edirlər. Avstrasiya ailəsi xalqları (dünya əhalisinin 0,2%-i), əksəriyyət etibarilə, Cənub-Şərqi Asiyada, habelə Cənubi və Şərqi Asiyaya bitişik bölgələrdə yaşayırlar.

Avstroneziya ailəsi (dünya əhalisinin 5%-i) Madaqaskardan Havay adalarına və Sakit okeandakı Pasxi adasınadək geniş ərazidə yaşayan xalqları birləşdirir.

Paratay ailəsi (dünya əhalisinin 1,5%-i) Cənub-Şərqi Asiya ölkələrində və Çinin qonşu bölgələrində cəmləşmişdir. O, heç də həmişə müstəqil bölmə kimi ayırd edilmir. Bəzi alimlər onu Çin-Tibet ailəsinin bir qrupu hesab edir, digərləri isə paratay və Avstroneziya ailələrini birləşdirirlər.

Amerikanın hindi xalqları dil baxımından nadene, Şimali Amerika hindi, Mərkəzi Amerika hindi, çıbça-paes (Mərkəzi Amerikanın cənubu və Cənubi Amerikanın şimalı), je-pano-Karib, And, ekvatorial-tukanoan ailələrinə bölünürlər. Bu ailələrin ən böyüyü And ailəsidir (dünya əhalisinin 0,4%-i). Ən iri hindi xalqı – keçua bu qrupa daxildir.

Avstraliya ailəsi, adından göründüyü kimi, Avstraliyada toplanmışdır. O, qitənin çox azsaylı aborigen xalqlarını birləşdirir.

Andaman ailəsi Andaman adalarının (Onge və s.) bir neçə olduqca azsaylı etnoslarından ibarətdir.

Yeni Qvineyada və ona bitişik adacıqlarda (Yeni Qvineya regionu etnik strukturunun mürəkkəbliyinə görə dünyanın bütün regionlarından fərqlənir) dil mənsubiyyətinə görə bir sıra ailədə – Şərqi Yeni Qvineya yaylası, finister-rexyuon, Mərkəzi Cənubi Yeni Qvineya, Qərbi Yeni Qvineya yaylası və s. – birləşən papua xalqları yaşayır. Bir neçə papua xalqı əla-

hiddə dillərdə danışır (bütün papua xalqları dünya əhalisinin 0,1%-ni təşkil edir).

Böyük Səhradan cənubdakı Afrika xalqları üç ailə yaradırlar: Niger-kordofan (dünya əhalisinin cəmi 6%-i), Nil-Böyük Səhra (0,6%) və koy-san ailələri. Nil-Böyük Səhra ailəsi, bütövlükdə, Niger-kordofan ailəsindən şimalda lokallaşır; Koy-san ailəsinin azsaylı xalqları (hottentotlar, buşmenlər və s.) Afrikanın cənub ucqarlarında yaşayırlar.

Aşağıdakı 4.6 cədvəlində əsas dil ailələri, qrupları, dünya xalqları və onların coğrafiyası verilmişdir.

**Cədvəl 4.6**

**Əsas dil ailələri, qrupları və onlara daxil olan xalqlar**

| Ailələr (%) | Qrup | Xalqlar | Yaşadıqları region |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Hind-Avropa (45) | German | Almanlar, avstriyalılar, isveçrəlilər, lüksemburqlular, hollandlar, isveçlər, norveçlər, islandlar, danimarkalılar, ingilislər, anqlo-kanadalılar, anqloavstraliyalılar, anqlo-yeni zelandiyalılar, şotlandlar, ABŞ amerikalıları və b. | Şimali, Qərbi Avropa, Şimali Amerika, Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika |
| | Slavyan | Ruslar, ukraynalılar, belaruslar, polyaklar, çexlər, slovaklar, serblər, xorvatlar, sloveniyalılar, çernoqoriyalılar, makedoniyalılar, bosniyalılar, bolqarlar | Rusiya, MDB, Şərqi Avropa |
| | Roman | İtalyanlar, fransızlar, ispanlar, katalonlar, rumınlar, portuqallar, moldovanlar, meksikalılar, argentinalılar, çilililər, braziliyalılar və b. | Cənubi Avropa, Latın Amerikası |
| | Kelt | İrlandlar, uelslilər və b. | Böyük Britaniya adaları, İrlandiya, Şimali Amerika |
| | Baltiya | Litvalılar, latışlar | Baltikyanı ölkələr |
| | Yunan | Yunanlar | Balkan yarımadası |
| | Alban | Albanlar | Balkan yarımadası |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Hind-Avropa | Erməni | Ermənilər | Cənubi Qafqaz, Şimali Qafqaz, Şimali Amerika |
| | İran | Farslar, kürdlər, taciklər, puştular, həzarələr, bəluclar, osetinlər və b. | Ön və Orta Asiya, Cənubi Qafqaz və Şimali Qafqaz |
| Çin-Tibet (22) | Çin | Çinlilər, xueylər | Çin |
| | Tibet-Birma | Tibetlilər, birmalılar, nevarlar, kanaurilər, sitiseular, karenlər və b. | Çin, Cənub-Şərqi Asiya |
| Avrasiya (sami-hami)(5) | Sami | Ərəblər, İsrail yəhudiləri, amharalar, tiqrelər, taqralar | Şimali Afrika, Yaxın Şərq |
| | Kuşit | Somali, qalla və b. | Şimal-Şərqi Asiya |
| | Bərbər | Tuareqlər, kabillər və b. | Böyük Səhra |
| | Çad | Hausalar və b. | Saxel |
| Altay (3) | Türk | Tatarlar, başqırdlar, çuvaşlar, qazaxlar, qırğızlar, özbəklər, qaraqalpaqlar,uyğurlar, türkmənlər, azərbaycanlılar, türklər, yakutlar, tuvalar, xakaslar, altaylılar, şorlar, balkarlar, noğaylar, qaraçaylılar, dolqanlar, qumuqlar, qaqauzlar | Mərkəzi Asiya regionu, Qərbi Çin, Cənubi Qafqaz, Sibir, Ural-Volqaboyu |
| | Monqol | Monqollar, kalmıklar, buryatlar | Monqolustan, Çin, Rusiya |
| | Tunqus-Mancur | Evenlər, evenklər, Amuryanı xalqlar | Sibir, Uzaq Şərq, Mancuriya |
| Niger-Kordofan (2) | Niger-Konqo | Fulbe, volof, malınkelər, bambaralar, mosilər, qrusilər, senufolar, yorubalar, ibolar, konqolular, nonyaruandalar, malavilər, auluslar, bantular, azandelər və s. | Qvineya körfəzi dövlətləri |
| | Kordofan | Teqalilər, talodilər və b. | |
| Dravid (4) | Dravid | Teluqular, tamillər, malayalilər, kannaralar və b. | Cənubi Hindistan |
| Avstroneziya (5) | İndoneziya | İndoneziya xalqları, malayyalılar və b. | Avstraliya-Asiya arxipelaqı, Cənub-Şərqi Asiya |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | Polineziya | Havayalılar, haitililər, maorilər və b. | Okeaniya |
| | Melaneziya | Ficililər və b. | Okeaniya |
| Avstro-Neziya | Makroneziya | Makroneziya xalqları | Okeaniya |
| Ural (0,2) | Fin-uqor | Finlər, karellər, estonlar, saamlar (loparilər), komilər, mordvalar, marilər, udmurtlar, macarlar, xantılar, mansilər | Şimali Avropa, Orta Volqa, Ural, Qərbi Sibir, Macarıstan |
| | Samodi | Nenlər, selkuplar və b. | Avrasiyanın tundra zolağı |
| Qafqaz (0,2) | Gürcü | Gürcülər, acarlar, lazlar və b. | Cənubi Qafqaz |
| | Adıq-abxaz | Abxazlar, kabardalar, çərkəzlər, adıqlar | Qafqaz regionu |
| | Nax | Çeçenlər, inquşlar | Şimali Qafqaz |
| | Dağıstan | Avarlar, ləzgilər, laklar, darginlər və b. | Şimali Qafqaz |

Ayırd edilən ailələrin hüdudlarından kənarda heç bir dil ailəsinə daxil olmayan bir sıra avtoxton xalqlar (yaponlar, koreyalılar və b.) vardır. Bəşəriyyətin yarıdan çoxu dünyanın ən geniş yayılmış 13 dilində danışır. Bunlar ana dili kimi, Çin (1200), ispan (370), hind (350), ingilis (330), ərəb (200), benqal (180), rus (170), yapon (125), alman (95), pəncab (95), yava (80), fransız (70) dilləridir.

Dünya əhalisinin 1/5-dən çoxunu çinlilər təşkil edir. Onlar birmalıların da daxil olduğu Çin-Tibet ailəsi xalqlarının özəyini yaradırlar; adətən, vyetnamlıları, nevarları və şerpləri (Nepal xalqları), habelə Çin ərazisində yaşayan və çinlilərlə qohum olan bir sıra xalqları da buraya aid edirlər.

Türk qrupu xalqları, əsasən, MDB ölkələrində yaşayır. MDB hüdudlarından kənarda uyğurlar (Qərbi Çinin yerli əhalisi) və bütün Kiçik Asiyada, Balkan yarmadasında, Kiprdə türklər kompakt halda məskunlaşmışlar.

Rusiyada türk xalqları qrupu bir neçə regionda təmsil olunur. Onların ən böyüyü tatarların əhalinin əksəriyyətini (6

milyon nəfərdən çox) təşkil etdiyi Volqaboyu regionudur. Tatarlar, əsasən, əhalisinin yarıdan çoxunu təşkil etdiyi Tatarıstan Respublikasında, əhalinin 17%-dən artığını təşkil etdiyi Başqırdıstanda, - burada onlar başqırdlardan çoxdur, - yaşayırlar. Ümumən, tatarlar Rusiyada geniş yayılmışlar.

Çuvaşlar öz respublikalarının əhalisinin böyük hissəsini (75%) təşkil edir, onların təqribən yarısı isə kənarda yaşayır. Miqrasiya proseslərində fəal iştirak edən çuvaşlar daha çox Volqaboyunda məskunlaşırlar.

Başqırdların əsas hissəsi öz respublikalarının ərazisində yaşasa da, əhalinin əksəriyyətini təşkil etmir, ruslardan və tatarlarda xeyli geri qalırlar. Yerli əhali ancaq kənd yerlərində üstünlük təşkil edir. Başqırdlar öz respublikalarından kənarda daha çox Uralda, xüsusilə Çelyabinsk vilayətində yayılmışlar.

Türk qrupu Sibirdə və Uzaq Şərqdə yakutlarla, tuvalarla, altaylılarla, xakaslarla, şorlarla təmsil olunaraq, Rusiya Federasiyasının tərkibində muxtar respublikalar təşkil edirlər.

Türkdilli balkarlar, qaraçaylılar, qumuqlar və noğaylar Qafqazın digər xalqları ilə sıx ünsiyyətdə yaşayırlar.

Maraqlıdır, bəs, biz – azərbaycanlılar nə qədərik?

Sovet mənbələrində və digər mənbələrdə bizim haqqımızda məlumatlar çox təhrif olunmuşdur. Bir çox müəlliflərə ixtiyar verilsə, onlar, ümumiyyətlə, belə bir millətin olmadığını iddia edərdilər. İranda milyonlarla xalqın – azərbaycanlıların xatırlanmadığı kimi.

Bütün məlumatları yekunlaşdıraraq, belə bir nəticəyə gəlmək mümkündür ki, bütün dünyada yaşayan azərbaycanlıların sayı aşağıdakı kimidir: Almaniyada 350 min, ABŞ-da 230 min, Fransada 170 min, Hindistanda və Pakistanda 350 min, İsveçrədə 40 min, İsveçdə, Norveçdə, Danimarkada, Hollandiyada – 300 min, Yaponiyada – 10 min, Avstraliyada – 8 min, Kanadada 15 min, İraqda 700 min, Türkiyədə 2 milyon 500 min, İranda 30 milyon, Əfqanıstanda 430 min, Suriyada 50 min, Səudiyyə Ərəbistanında – 40 min, Yəməndə 19 min, Maltada 2,5 min. Azərbaycanda və MDB ölkələrində yaşayan 8,5 milyon nəfəri də bu siyahıya əlavə etsək, aydın olar ki, Yer üzündə

azərbaycanlıların sayı 50 milyondan çoxdur.

Milli özünüdərk, etnos üzvlərinin öz qrup vəhdətini, etnik qrupla eyniyyətini dərk etməsi milli şüurun tərkib hissəsidir. Milli identiklik insanın özünü tanımasının ən sabit formalarından biridir. O, bir sıra atributların və rəmzlərin – ana dili, doğma torpaq, əcdadların adət-ənənələri və s. – kompleksi kimi formalaşır.

İctimai şüurda xalqın digər xalqlarla qarşılıqlı fəaliyyət prosesində inkişaf dinamikası əksini tapırsa, milli şüurda etnik milli özünəməxsusluq, bu xalqın başqalarından fərqləri haqqında təsəvvürlər cəmləşir.

***Ermənilər Azərbaycanda.*** XIX əsrin əvvəlində, 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələrinin imzalanması ilə başa çatan Rusiya-İran müharibələri nəticəsində Şimali Azərbaycan xanlıq və sultanlıqlarının bütün torpaqları Rusiyaya qatıldı. Car-Balakən camaatı, Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Naxçıvan, İrəvan xanlıqları, Ordubad dairəsi, yəni, əslində, Şimali Azərbaycanın təqribən 77225 kv.verstlik bütün geniş ərazisi Rusiya imperiyasına birləşdirildi.

1810-cu ildə artıq əyalət adlandırılan istila edilmiş Bakı və Quba xanlıqlarında kameral siyahıyaalma keçirilmişdi.

1819-1822-ci illərdə Şəki, Şirvan və Qarabağ xanlıqlarının qəti şəkildə ləğv edilməsindən və onların əyalət adlandırılmasından sonra burada da əhalinin sayının, idarəetmə sisteminin və gəlir mənbələrinin kameral təsviri aparılmışdı.

Lakin qeyd olunmalıdır ki, aramsız hərbi əməliyyatlar şəraitində toplanan statistik məlumatlar ancaq təqribi ola bilərdi. Yalnız XIX əsrin birinci qərinəsində, hərbi əməliyyətlar qurtardıqdan, Rusiyanın Cənubi Qafqazda hökmranlığı bərqərar olduqdan sonra Şimali Azərbaycanın bütün işğal olunmuş ərazilərinin vəziyyətini müfəssəl şəkildə tədqiq etmək mümkün oldu. Bu iş 1829-1833-cü illərdə həyata keçirildi.

Rus zabitlərinin raport və məruzələrindən toplanaraq, Qafqazdakı baş komandana təqdim edilən məlumatlara görə, birinci Rusiya-İran müharibəsi qurtardığı və 1813-cü ildə Gülü-

stan müqaviləsi bağlandığı dövrdə Azərbaycanın əhalisi təqribən 600 min nəfər, ikinci Rusiya-İran müharibəsi başa çatdıqdan və 1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra isə 800 mindən çox idi.

Şimali Azərbaycan əhalisinin 1813-cü ilə qədərki ümumi sayında onun milli tərkibinə dair məlumatlar çox qiymətlidir.

Məlum olur ki, Şirvan xanlığında 170 min azərbaycanlı, cəmi 9 min erməni, Şəki xanlığında, müvafiq olaraq, 60 min və 10 min, Qarabağ xanlığında – 57 min və 15 min, Bakı xanlığında 19,3 min və 110 nəfər, Quba xanlığında – 34,3 min və 154 nəfər, Gəncə xanlığında – 6320 və 3600, Talış xanlığında – 30 min və 150 nəfər, İrəvan xanlığında – 50 min və 20 min, Naxçıvan xanlığında – 17 min və 2,7 min, Ordubad dairəsində – 7,3 min və 2,4 min, Borçalı distansiyasında 17 min və 7,4 min, Şəmşəddil distansiyasında – 17,4 min azərbaycanlı və 4,2 min erməni var idi. Qazax distansiyasında ermənilər yaşamırdı.

Ümumiyyətlə, burada 470500 azərbaycanlı və 90-100 min erməni, yaxud 84% azərbaycanlı və ancaq 16% erməni yaşayırdı.

Bu göstəriciləri Şimali Azərbaycan əhalisinin sayı və milli tərkibi haqqında 1831-1833-cü illərdə aparılmış kameral təsvirlərdə və o dövrün arxiv məlumatlarında əksini tapmış daha dəqiq statistik məlumatlarla müqayisə edək.

Aşağıdakı cədvəl Şimali Azərbaycanın şəhər və əyalətlərində, dairə və distansiyalarında bütün əhalinin sayını və onlarda azərbaycanlı və erməni əhalinin nisbətini ətraflı göstərir (cədvəl 4.7).

Bu cədvəlin məlumatlarından görünür ki, həmin dövrdə ölkənin bütün şəhər əhalisinin 71%-dən çoxunun yaşadığı Şuşa, İrəvan, Şamaxı, Nuxa, Yelizavetpol şəhərləri daha çox inkişaf etmişdi. Erməni əhali daha çox İrəvan şəhərində – 2369 nəfər (azərbaycanlı əhali – 7331 nəfər), Yelizavetpolda – 4464 (azərbaycanlılar - 11100), Şuşada – 5184 nəfər (azərbaycanlılar - 5334) cəmlənmişdi. Bütövlükdə isə, şəhər əhalisi arasında ermənilərin sayı cəmi 16 min nəfər, yaxud ancaq 18%, azərbaycanlılar isə 70 min nəfər, yaxud Şimali Azərbaycan əhali-

sinin 82%-ni təşkil edirdi.

Bu statistik məlumatlardan irəli gələn ən mühüm faktı qeyd edək. Onlar göstərir ki, həmin dövrdə erməni əhalisi Şimali Azərbaycanın istər şəhər, istərsə də kənd əhalisinin yalnız cüzi faizini təşkil edirdi. Beləliklə, erməni əhalisi ölkənin şəhər əhalisinin ancaq 18 faizini, kənd əhalisinin isə 14 faizini təşkil edirdi. Bütövlükdə isə, onlar cəmi 116 min nəfər, yaxud Şimali Azərbaycanın bütün əhalisinin yalnız 14,5 faizini təşkil edirdilər.

**Cədvəl 4.7**

| Yaşayış məntəqələri | Bütün əhalinin milliyyətə görə sayı | |
|---|---|---|
| | **Ermənilər** | **Azərbaycanlılar** |
| Bakı | 354 | 5600 |
| Yelizavetpol | 4464 | 11100 |
| Quba | - | 7000 |
| Lənkəran | 318 | 3577 |
| Naxçıvan | 715 | 3641 |
| Nuxa | 1518 | 13116 |
| Ordubad | - | 3262 |
| Şamaxı | 1132 | 10000 |
| Şuşa | 5184 | 5334 |
| İrəvan | 2369 | 7331 |
| **Yekun** | **16054** | **69961** |
| Bakı əyaləti | - | 23110 |
| Qarabağ əyaləti | 28552 | 80764 |
| Quba əyaləti | 394 | 84912 |
| Naxçıvan əyaləti | 2690 | 17138 |
| Şəki əyaləti | 13780 | 69290 |
| Şirvan əyaləti | 10913 | 113292 |
| Talış əyaləti | 144 | 41410 |
| İrəvan əyaləti | 17704 | 42544 |
| Yelizavetpol dairəsi | 3330 | 12588 |
| Ordubad dairəsi | 2388 | 3985 |
| Borçalı distansiyası | 7439 | 17558 |
| Qazax distansiyası | 8806 | 25672 |
| Şəmsəddil distansiyası | 4211 | 17094 |
| İlusu sultanlığı | - | 18000 |
| Car-Balakən camaatı | - | 40000 |
| **Yekun** | **100351** | **607327** |
| **Cəmi:** | **116405** | **677288** |

Yuxarıda göstərilən statistik məlumatların və faktların obyektivliyi və doğruluğu şübhə doğurmur. Onlar vaxtilə bir neçə il ərzində toplanmış, bütün Azərbaycan xanlıqları haqqında toplanmış bu qəbil məlumatlarla tutuşdurularaq dəqiqləşdirilmiş, həm də onları öz vəzifələrinə dövlət işi kimi baxan rus məmurları toplamışlar. Doğrudan da, indi 170 il bundan əvvəl Şimali Azərbaycanda kameral təsvirlər aparan şəxslərdən ermənilərin sayını qəsdən azaltmaqda, azərbaycanlıların sayını isə, əksinə, qəsdən artırmaqda şübhələnmək olmaz.

Beləliklə, inadkar faktlar açıq-aydın inandırıcı şəkildə göstərir ki, Şimali Azərbaycan 1828-ci ildə Rusiya tərəfindən işğal olunana qədər burada yaşayan 680 min əhalinin 84,6 faizi azərbaycanlı, yalnız 116 mini, yaxud 14,5 faizi erməni (əhalinin 0,9 faizini başqa millətlər təşkil edirdi) olmuşdur.

Yuxarıda gətirilən statistik göstəricilər təkcə böyük elmi əhəmiyyət deyil, həm də siyasi əhəmiyyət kəsb edir. Belə ki, onlar erməni siyasətbazlarının Azərbaycana ərazi iddialarını əsaslandırmaq üçün irəli sürdükləri uydurma «dəlilləri» alt-üst edir.

Milli özünüdərk bir çox hallarda milli üstünlük və milli müstəsnalıq – *millətçilik, şovinizm* kimi eybəcər şəkillər alır. ***Şovinizm*** – millətçilik təzahürlərinin ifrat forması, bir etnos nümayəndələrinin digərləri tərəfindən əzilməsinə yönəldilmiş ideologiya və siyasətdir. «Şovinizm» termini bir millətin digər millətdən hərbi üstünlüyü ideyasını irəli sürmüş Napaleon qoşunlarının əsgəri fransız N.Şovenin adından götürülmüşdür.

Şovinizm tərəfdarları öz millətlərini digər millətlərlə tutuşdurur və tarixi inkişaf prosesinə subyektiv baxışa əsaslanaraq, özlərinin başqalarından üstünlüyü siyasəti yeridirlər. Şovinizm ideologiyası digər etnosa mənsub əhalinin hüquq və azadlıqlarının sıxışdırılmasından tutmuş, onların birbaşa fiziki məhv edilməsinədək şüar və çağırışları əhatə edən geniş praktik reallaşdırma spektrinə malikdir. Bu isə şovinizmi faşizmlə və irqi-ayrıseçkiliklə yaxınlaşdırır. İmperialist dövlətlərin (ABŞ, Almaniya və b.) hakim dairələri şovinizmdən müstəmləkə və asılı ölkələrin xalqlarına qarşı geniş istifadə etmişlər.

İndi həmişə böyük millətlərin kiçik millətləri istismar etməsi prosesi kimi yozulan geniş yayılmış «böyük dövlət şovinizmi» termininin məzmununun transformasiyaya uğraması müşahidə olunur. Şovinizmi beynəlxalq münasibətlərin humanistləşdirilməsi, siyasi rejimlərin demokratikləşdirilməsi, xalqların və millətlərin müqəddəratını təyinetmə hüquqlarının həyatda real təcəssümü vasitəsilə aradan qaldırmaq mümkündür.

Nəhayət, dərk etmək lazımdır ki, etnik özünüdərk obyektiv amillərdən törəmə haldır. Etnoslar insanların iradəsi ilə deyil, obyektiv tarixi proseslər nəticəsində meydana gəlir.

### 4.3. Etnogenez. Etnosların həyatına dair fərziyyə

L.N.Qumilyov əsərlərində etnosların yaranması və həyatı haqqında bioloji nəzəriyyəni işləyib hazırlamışdır. Həmin konsepsiyaya əsasən, etnoslar həm məkan, həm də zaman hüdudlarında doğulur və inkişaf edirlər. Alim etnik sistemin meydana gəldiyi vaxtdan aradan çıxmasına qədərki dəyişikliklər (yaxud çevrilmələr) prosesini ***etnogenez*** adlandırmışdır. Etnogenez biosferin canlı maddəsinin biokimyəvi enrjisi (V.İ.Vernadski tərəfindən müəyyən olunmuşdur) əsasında etnosun həyata keçirdiyi «iş»dir. Biokimyəvi enerji digər enerji formalarına, - mexaniki, istilik və s. keçə bilər. Etnogenez prosesində etnosların mürəkkəb qarşılıqlı təsiri baş vermişdir. Bunun nəticəsində əhalinin etnik tərkibi dəyişmişdir. Etnosların bütün təkamül boyu belə qarşılıqlı təsirin sistemli göstəricisi onun passionar fəallığıdır. Etnogenezin inkişafında o, müəyyən mərhələlər, yüksəliş, çiçəklənmə, tənəzzül və dayanma dövrləri keçirir. Bu nəticələr bir çox lokal sivilizasiyaların mövcudluğunun tarixi təhlili ilə təsdiqlənir, lakin bəşəriyyətin bütöv birlik kimi inkişafı nöqteyi-nəzərindən əsaslandırılmamışdır. Akademik Y.V.Bromley etnogenez prosesini təhlil edərək, onun gedişində sosial, xüsusilə mənəvi amilin əhəmiyyətinin artdığını göstərmişdir. O, ilk dəfə, «etnos tipləri» anlayışını işlədərək, onu cəmiyyətin özünün tarixi inkişaf mərhələlərindən asılı olan proses kimi müəyyənləşdirməyə imkan verən qəbilə-tayfa qu-

rumlarını, qövmləri (kiçik xalqları), millətləri, regional sivilizasiyalı birlikləri bu sıraya aid etmişdir. Etnogenez problemi ümumi sosial böhran vəziyyəti, qlobal problemlərin, bəşəriyyətin özünün mövcudluğu məsələsinin həll edilməsi zərurəti ilə bağlı müasir cəmiyyətdə xüsusilə aktuallıq kəsb edir. Xalqların etnik varlığının ən dərin qatlarına toxunan sivilizasiyalı prosesin informasiya-texnologiya əsasına keçməsi etnogenezin dayanması demək olmayıb, əksinə, onun dünya sivilizasiyalarının mövcudluğu ilə bağlı yeni sosial formalarının tapılmasını tələb edir. Etnogenez biosfer hadisəsidir və onun «təkanı» mutasiyanın, irsi *passionarlıq* əlamətinin meydana gəlməsidir.

***İnsanın passionarlığı*** onun ali məqsəd naminə, - bu məqsəd xəyali olsa belə, - yüksək gərginliyə, fədakar fəaliyyətə olan üzvi qabiliyyətidir. Biosferin canlı maddələrinin biogeokimyəvi enerjisinin uzun tarixi dövr ərzində qeyri-bərabər bölünməsi müxtəlif epoxalarda və müxtəlif regionlarda ayrı-ayrı adamların və bütöv etnik kollektivlərin davranışında əksini tapır. Passionar fərd üçün məqsəd (bir çox hallarda xəyali) öz həyatından, xüsusən soydaşlarının həyatından və xoşbəxtliyindən qiymətli olur. Xatırlatmaq yerinə düşər ki, bu cür mülahizələr təkcə L.N.Qumilyova məxsus deyil.

Passionarlıq xarakterin ən müxtəlif cizgilərində təzahür edir, hünər və cinayət, xeyir və şər doğurur, lakin fəaliyyətsizliyi və laqeydliyi istisna edir. Passionarların bəzisi pul, başqaları bilik, digərləri isə şöhrət hərisi olur. İdeya ilə əlaqələndirilən acgözlük fanatiklər və əzabkeşlər doğurur. Onların hərəkətləri, əməlləri kollektiv üçün, obyektiv olaraq, faydalı, yaxud, əksinə, ziyanlı, qorxulu ola bilər. Passionarların nail olmağa çalışdıqları məqsəd digər kollektivlərin nöqteyi-nəzərincə nəcib, xəyali, cinayətkar ola bilər, həm də passionar obrazların hərəkətlərinə verilən qiymət zamanca dəyişə bilər. Nümunə üçün Makedoniyalı İsgəndərin, Napoleon Bonapartın, V.İ.Leninin «əməllərini» xatırladaq.

Passionar təkanın özü açıq-aşkar Yer mənşəlidir. Yerə gələn enerji zərbələri Günəşdən deyil, dağınıq Qalaktikadan gəlir

– qeydə alınmış bütün passionar təkanlar Günəş fəallığının ən zəif dövrlərində baş vermişdir. Bu dövrdə ionosferin qoruyucu xassələri zəifləyir və ayrı-ayrı kvantlar və enerji topaları Yer səthindən hündürlükdə keçərək, sərt şüalanma əmələ gətirir ki, bu da mutasiyalara səbəb olur. Həm en dairəsi, həm də meridian istiqamətlərində keçən təqribən 300 km genişliyində passionar təkan zolaqları nadir hallarda - min ildə iki, yaxud üç dəfə baş verir və demək olar ki, heç vaxt eyni yerlərdən keçmirlər. Bu təkan nəticəsində bir neçə yüksək passionarlıq ocağı və bununla əlaqədar bir neçə etnos əmələ gələ bilər. Yaranmış etnos fəallıq, qızışma və tənəzzül mərhələlərindən keçir, sonra isə dağılır, yaxud relikt kimi, yəni özünüinkişafın artıq nəzərə çarpmadığı vəziyyətdə qalır. Belə yanaşmada ayrı-ayrı etnosların «geriliyi», yaxud «vəhşiliyi» ideyasının özü məqbul deyil – etnik tarixdə düzxətli zaman şkalası tətbiq edilə bilməz. Etnik tarixin inkişafı spiralvarı deyil, təbəddülatlar şəklində baş verir. Belə ki, indiki sivilizasiyalı avropalılar qocadırlar və ona görə təkəbbürlüdürlər. Bütün qoca etnoslar kimi, onlar da topladıqları mədəniyyətlə fəxr edirlər. Halbuki «franklar» və «normanlar» cəmi min il bundan əvvəl ilahiyyatı və hamamda yuyunmağı bizanslılardan və ərəblərdən öyrənməyə başlamışdılar. Onların daha min ildən sonra necə olacaqlarını isə artıq yox olmuş, lakin öz böyük mədəniyyətlərini qoyub getmiş qədim ellinlərlə və romalılarla müqayisədə ehtimal etmək mümkündür.

Canlı varlığın biogeokimyəvi enerjisinin yaratdığı etnik məkanda gərginlik hər birinin öz mühiti, ritmi olan passionar, subpassionar və harmonik fərdlərin qarşılıqlı münasibətləri nəticəsində baş verir.

**Harmonik şəxsiyyətlər** – təmkinli xarakterə malikdirlər, onlar özlərini evdə də, işdə də yaxşı hiss edirlər, qohumlar və qonşular onlara hörmət bəsləyirlər, onların hakimiyyətlə münaqişələri yoxdur. Ahəngdar inkişaf etmiş şəxslər passionarların iradlarına həssasdırlar və onlara üzün müddət sədaqətlə xidmət edirlər.

**Subpassionarilər** – passionar impulsu özünüqoruma in-

stinkti impulsundan az olan fərdlərdir. Belə adamlar, əsasən, şərəfsiz, vicdansız, tamahkar və xudbin, qəddar və xəbərçi, qaradinməz, müti olurlar. Onların hər işi, sanki, yaxşıdır, lakin, eyni zamanda, nəyisə çatışmır. O, qonşusunun inəyinin ölməsindən, yaxud rəisin onun arvadının aşnası olmasından (A.P.Çexovun ədəbi qəhrəmanları kimi) sevinc duyur. Daha iki ifrat tip – həyatını təhlükədə qoyaraq, ədaləti müdafiə edən ***fədakarlar*** və müxtəlif formalı anadangəlmə, yaxud qazanılma ağıldankəm şəxslər – ***oliqofrenlər*** vardır. Fədakarlara Q.Qaliley, Janna d`Ark, A.Motrosov nümunə ola bilər. Oliqofrenlərin adları isə yalnız bilavasitə ətrafındakılara məlumdur.

Qumilyov 40-dan çox superetnosu təhlil edərək, etnosun yarandığı vaxtdan onun aradan çıxdığı, yaxud homeostaz vəziyyətinə keçənə qədərki *etnogenez mərhələlərini* aşkar etmiş və əsaslandırmışdır. Etnogenezin *başlanğıc, ilk təkan* məqamı populyasiyada passionarilərin və subpassionarilərin qəfil peyda olmasıdır. **Yüksəliş fazası (mərhələsi)** passionarilərin sayının kəskin surətdə çoxalması ilə səciyyələnir və təqribən 300 il çəkir. **Akmatasiya mərhələsində** passionarilərin sayı maksimum həddə çatır. Onun uzunluğu əvvəlki – yüksəliş mərhələsininki qədərdir. **Düşkünlük fazasında** passionarilərin sayı kəskin şəkildə azalır, onlar subpassionarilər tərəfindən sıxışdırılır; bu mərhələ 150 ildən 200 ilədək davam edir. Passionarilərin sayının yavaş-yavaş azalması tədriclə **taqətsizlik mərhələsinə** keçən **ətalət fazasında** da baş verir. Taqətsizlik fazası etnosu məhv edən subpassionarilərin, demək olar ki, tam hökmranlığı ilə səciyyələnir. Onun uzunluğu, qabaqkı faza kimi, toplanmış maddi bazisdən, etnosun yaşadığı arealın fiziki-coğrafi şəraitindən, əvəzləyici etnoslardan xeyli dərəcədə asılıdır. **Homeostaz fazası** (reliktə keçid mərhələsi) üçün yuxarı pillədə ancaq harmoniklərin olması səciyyəvidir, passionarlar isə artıq yoxdur. Bu fazadan etibarən etnogenezin sonuncu mərhələsi başlanır. Etnosun qalığı təcrid vəziyyətinə düşərək, qeyri-müəyyən müddətdə mövcud olur. Etnik yarımsistem 1200-1500 il ərzində etnogenezin bütün mərhələlərindən keçir. Bu dövr müxtəlif ola bilər, fazadan fazaya keçid isə çox mü-

rəkkəb və rəngarəng olur. Ciddi xarici amillər, - sosial - iqtisadi sarsıntılar, qonşuların təcavüzü, etnosun öz passionarilərini məhvetmə hərəkətləri, ətraf təbii mühitin pisləşməsi, - olduqda, etnogenez prosesi istənilən fazada pozula bilər.

Qeyd edilməlidir ki, etnos regenerasiya, yəni bərpa olunmaq, dirçəlmək qabiliyyətinə malikdir. İlk mərhələlərdə etnos ardıcıl şəkildə inkişaf edir və regenerasiyaya ehtiyac yaranmır. Akmatasiya fazasında etnosun düşkünlük fazasına keçməsinin qarşısını alan sosial-iqtisadi və dövlət sistemlərinin yeniləşməsinə ehtiyac yaranır. Regenerasiya parçalanma və ətalət fazalarında da lazım və mümkündür. Tarixdə böhranlı dönəmlərdə xalq kütlələri arasından vətənin taleyini öz şəxsi səadətindən üstün tutmağa və etnosu xilas etməyə qadir olan mənən güclü insanların meydana çıxmasına dair nümunələr çoxdur.

# V FƏSİL
# DİNLƏRİN COĞRAFİYASI

## 5.1. Dinlərin aktuallığı və onların əhali coğrafiyasında öyrənilməsinin zəruriliyi

***Din** – mədəniyyət formalarından biri olub, fövqəl qüvvələrə sitayişə əsaslanan dünyagörüşü, habelə mənəvi-əxlaqi normaların müqəddəsləşdirilməsidir.*

«Din» sözünə adi danışıqda, elmi mətnlərdə, publisistikada, bədii ədəbiyyatda tez-tez rast gəlinir. Bu, hər şeydən əvvəl, allaha etiqada əsaslanan dünyabaxışlarının məcmusudur.

Bəşəriyyət qədim zamanlardan bəri din fenomenini, onun təbiətini, əhəmiyyətini və mahiyyətini dərk etməyə çalışır.

Bəşəriyyət müxtəlif tarixi dövrlərdə dinə, dini etiqadlara öz münasibətini ifadə etməyə çalışmışdır. Bu gün etiraf etmək lazımdır ki, din xalqların tarixində mühüm yer tutur və bu, sadəcə, allaha inanıb-inanmamaq məsələsi deyil. Din bütün xalqların həyatına nüfuz edir. İnsan dini mərasimlərlə doğulur və ölür. Ölkələrin əksəriyyətində etika, əxlaq, mənəviyyat dini xarakter daşımışdır. Mədəniyyətin – ikonaqrafiyanın, memarlığın, heykəltəraşlığın, boyakarlığın və s. – bir çox nailiyyətləri dinlə bağlıdır.

Din siyasətdir. Səlibçilər özlərinin istilaçılıq yürüşlərini allahın adı ilə həyata keçirmişlər. Şərq ölkələrində dini qruplaşmalar arasındakı mübarizə dəfələrlə qanlı müharibələrə səbəb olmuşdur.

Dinin bəşəriyyətə xeyir gətirməsi naminə, müasir dünyada baş verən bir çox prosesləri dərk etmək üçün onu öyrənmək lazımdır.

Elmi-texniki tərəqqinin nailiyyətlərinə, mədəniyyət və təhsilin inkişafına baxmayaraq, bu gün din cəmiyyətdə və məişətdə çox böyük rol oynamaqdadır. Bu, kilsənin, xüsusilə katolik kilsəsinin iri bankir, torpaq sahibi kimi çıxış etdiyi, siyasətə, tərbiyəyə, məktəb təhsilinə, həyatın bir çox digər sahələrinə təsir göstərdiyi iqtisadi cəhətdən inkişaf etmiş Qərb ölkələrinə

aiddir. Bu, MDB ölkələrinə də aiddir. Ümumi mədəniyyət və təhsil səviyyəsinin, adətən, aşağı olduğu inkişaf etməkdə olan ölkələrdə dinin təsiri daha çoxdur. Ona görədə müasir dövrün bir çox proses və hadisələrini başa düşmək üçün əhalinin dini tərkibi ilə tanışlıq zəruridir.

Məlumatlar göstərir ki, Qərbi Avropada xristianlığın, demək olar, bütün üç forması yayılmışdır. Katolisizm ən çox onun cənub, qismən, mərkəzi və qərb hissələrində, protestantlıq şimal, mərkəz və qərb hissəsində, pravoslavlıq şərqdə və cənub-şərqdə yayılmışdır. MDB ölkələrində daha çox xristianlıq (pravoslavlıq və katolisizm) və islam dini yayılmışdır.

Xarici Asiyada bütün dünyəvi dinlər və iri milli dinlər yayılmışdır. Bunlar, əsasən, sünni məzhəbli islam (ancaq İranda, qismən İraqda, Yəməndə və Azərbaycanda şiəlik), buddizm, hinduizm, konfusiçilik, sintoizm, iudaizm, habelə xristian [ancaq Filippində, Livanda (islamla birlikdə) və Kiprdə] dinləridir. Möminlərin sayına görə (təqribən 150 milyon) ən iri müsəlman ölkələrindən biri İndoneziyadır.

Şimali Afrikada, Böyük Səhradan cənubdakı bəzi ölkələrdə, Somalidə və Efiopiyanın bir hissəsində sünni məzhəbli islam dini hakimdir. CAR-ın ağ əhalisi arasında protestantlıq, Efiopiyada xristianlıq üstünlük təşkil edir. Bütün qalan ölkələrdə həm xristianlıq (katolisizm və protestantlıq), həm də ənənəvi yerli etiqadlarla təmsil olunurlar.

Şimali Amerikada xristianlığın iki forması hakimdir. Məsələn, ABŞ-da 140 milyon möminin 72 milyonu protestant, 52 milyonu isə katolikdir. Kanadada katoliklər protestantlardan çoxdur. Katolisizm Latın Amerikasında da üstündür, ona görə də dünya katoliklərinin yarıdan çoxu Amerikada yaşayır.

Avstraliyada dindarlar arasında katoliklərdən təqribən iki dəfə çox olan protestantlar üstünlük təşkil edirlər.

Son vaxtlar müsəlman dünyası ölkələri beynəlxalq münasibətlərdə, siyasətdə, iqtisadiyyatda, ideologiyada, mədəniyyətdə getdikcə daha böyük rol oynamağa başlayırlar. Etnosların təşəkkülündə, onların mədəniyyətinin, dövlətçiliyinin inkişafında dinin iştirakı əhəmiyyətlidir. İndiyədək bizim əhali

coğrafiyasında dünya xalqlarının dini etiqadlarına (*dinlərə*, konfessiyalara) görə öyrənilməsinə lazımi əhəmiyyət verilməmişdir. Hazırda ali təhsil müəssisələrində və məktəblərdə dinin öyrənilməsinə münasibət dəyişir. Bu, hər şeydən əvvəl, din məsələlərinin ehtiyatlardan istifadənin xüsusiyyətlərinə və innovasiyanın tətbiqinə təsirinin aktuallığı ilə bağlıdır.

Bəşər tarixində böyük siyasi münaqişələrin əksəriyyəti dini səbəblərdən irəli gəlmişdir. Həm də onlar ərazi baxımından müxtəlif dinlərə mənsub bölgələrin sərhədində baş vermişdir. Planetin, demək olar ki, bütün «qaynar nöqtə»lərində baş verən, yaxud yaxın keçmişdə baş vermiş amansız qanlı toqquşmalarda insanlar arasında dini fərqlər rol oynamışdır. Keçmiş YSFR-də pravoslav serblər, katolik xorvatlar, müsəlman bosniyalılar; pravoslavların üstünlük təşkil etdiyi Gürcüstanda isə müsəlman acarlar, eləcə də abxazlar və lazlar yaşayırlar. Müsəlman azərbaycanlılar və katolik ermənilər Dağlıq Qarabağda bir-biri ilə vuruşmuşlar. Müsəlman Çeçenistanda, Əfqanıstanda amansız müharibələr baş vermişdir. Bəzən bu və ya digər dinə mənsubluq əhalinin ayrı-ayrı qruplarının sosial vəziyyətini müəyyən edir ki, bu da amansız qarşıdurmaya səbəb olur: Böyük Britaniya və İrlandiya protestantları arasında Olsterdəki katolik azlıq, katolik İspaniyasında protestant azlıq və s. Dünyanın bir çox ölkələrində, indi isə bizdə də, bir sıra ictimai təşkilatlar və siyasi partiyalar dini təmayüllüdürlər.

Gürcüstanda dünyada analoqu olmayan siyasi partiya – «Xristian-müsəlman ittifaqı» qeydiyyata alınmışdır. Əhalinin dini tərkibinin qeydiyyatı vacibdir, belə ki, bir çox ölkələrdə din və dini əqidə siyasi və iqtisadi həyata, insanların məişətinə, adətlərinə və mədəniyyətinə, demoqrafik və etnik proseslərə böyük təsir göstərir. Məsələn, katolik kilsəsinin (onun mərkəzi Vatikandır) əlində böyük kapital, iri torpaq mülkləri, digər müxtəlif əmlak cəmləşmişdir. O, geniş dünyəvi katolik təşkilatlarından, kütləvi informasiya vasitələri şəbəkəsindən, katolik partiyaları və həmkarlar ittifaqlarından, qadın, tələbə və idman ittifaqlarından istifadə yolu ilə siyasi həyatda fəal iştirak edir. Bəzi ölkələrdə katolik və müsəlman partiyaları ha-

kimiyyətdədir. Katolisizm, islam və buddizm doğumun süni surətdə məhdudlaşdırılmasının əleyhinə çıxaraq, onun səviyyəsinə təsir göstərirlər. Bu dinlərin xüsusilə böyük təsirə malik olduğu ölkə və bölgələr (Avropada Polşa və İrlandiya, Almaniyada Bavariya, Belçikada Flandriya, MDB-də Orta Asiya respublikaları və Azərbaycan), adətən, yüksək əhali artımı ilə seçilir. İslam ehkamları qadının cəmiyyətdə və ailədə qeyri-bərabərliyini təsbit edir. Bunun nəticəsində bir sıra müsəlman ölkələrində qadınlar istehsalatda və ictimai həyatda az iştirak edirlər. Bir çox zərərli heyvanların, qeyri-məhsuldar inəklərin öldürülməsini, mal ətinin yeyilməsini qadağan edən hinduizm qanunları Hindistanın iqtisadiyyatına nəzərə çarpacaq mənfi təsir göstərir. Dini ehkamlar icmalararası münaqişələrin səbəblərindən biridir. «Müqəddəs yerlərə» ziyarət dini ziyarət mərkəzlərinin – Vatikanın, Məkkənin, Purdanın, Varanasinin həyat tərzini müəyyənləşdirir. Zəvvarlara xidmət göstərilməsi yerli əhalinin başlıca məşğuliyyətidir. Onların arasında üç dinin şəhəri olan Qüds (Yerusəlim) unikaldır. Güman edilirdi ki, mühiti dəyişməklə insanı lazımi yöndə formalaşdırmaq mümkündür. Şəxsiyyəti formalaşdıran daxili mənəvi amil lazımınca qiymətləndirilmirdi. Bu, valideynlərə ehtiram, şərəf, vicdan, mərhəmət, xeyirxahlıq, yaxınlarına təmənnasız xidmət kimi ümumbəşəri mənəvi dəyərlərdən uzaqlaşmağa gətirib çıxarmışdır.

### 5.2. Dünya, məhəlli və qəbilə dinlərinin coğrafiyası və mahiyyəti

Yerin müasir əhalisinin dini tərkibini ancaq təqribi surətdə müəyyənləşdirmək mümkündür. Çünki dünyanın heç də bütün ölkələrində dindarların statistik qeydi aparılmır, dini təşkilatların statistikası çox vaxt tendensiyalı olur, öz dindarlarının faktik sayı şişirdilir. Qeyd edilməlidir ki, təhsil və mədəniyyət səviyyəsi yüksək olanlarda, kənd yerlərinə nisbətən şəhərlərdə və kişilər arasında ateistlərin sayı daha çoxdur.

Əhalinin yüksək artım sürəti, habelə müsəlmanlığın Mərkə-

zi Afrikada, hinduizmin isə Mərkəzi Hindistanda geniş yayılması sayəsində müsəlmanların və hinduistlərin sayı durmadan artır. Katoliklərin, eləcə də pravoslavların sayı sabitləşmişdir. Qərbi Avropada, demək olar ki, xristianlığın ancaq üç forması yayılmışdır. Həm də, katolisizm ən çox onun cənub, qismən qərb və şərq hissəsində, protestatizm şimal, qismən mərkəzi və qərb hissəsində, pravoslavlıq isə cənub-şərqdə yayılmışdır. MDB ölkələrində dindarlar arasında pravoslavlıq və müsəlmanlıq üstünlük təşkil edir. Azərbaycan və Orta Asiya əhalisinin 90%-dən çoxu islama etiqad edir. **Dinlər** ***qəbilə-tayfa*** (bütpərəst), ***məhəlli*** (milli), ***dünya*** dinlərinə bölünür. Yer üzərində geniş yayılmış dünyəvi dinlər – buddizm, xristianlıq və islam dinidir (bax cədvəl 5.1).

**Qəbilə-tayfa dinləri** – sosial-iqtisadi cəhətdən geri qalmış xalqların, qəbilələrin ilkin dini etiqad formalarıdır.

**Fetişizm** – insanın təxəyyülünü heyrətləndirən hər hansı cansız əşyaların, daş, ağac parçası, yaxud heyvan bədəninin bir hissəsi, fövqəltəbii qüvvəsinə inamdır. O cümlədən fiqurcuqlara, bütlərə və s. inamdır. Ona sitayiş, minnətdarlıq etmək, bəzən isə cəzalandırmaq da olar. Fetişizmin digər etiqad formaları, ilk növbədə, totemizmlə çulğalaşır. Totemizm (Şimali Amerika hindularının dilində «ot-otem» «onun nəsli» deməkdir) insan qrupu (adətən, qəbilə) ilə mifik əcdadların totemi (daha çox, hansısa heyvan, yaxud bitki) arasında qohumluq haqqında dini təsəvvürlər sistemidir. Totemə insanlar öz qohumlarını aclıqdan, soyuqdan qoruyan xeyirxah və qayğıkeş himayədar kimi baxırdılar. Ancaq real heyvanlar, quşlar, həşəratlar, yaxud bitkilər totem sayılırdılar. Bunun üçün onların müxtəlif realist təsvirləri də kifayət idi. Daha sonralar isə totem istənilən rəmzlə, söz, yaxud səslə ifadə edilə bilərdi. Hər ilin öz totemi olurdu. Lakin daha yaxşı «ixtisaslaşdırılmış» totemlər də ola bilərdi. Məsələn, qəbilənin bütün kişiləri bir heyvanı, yaxud bitkini, qadınları isə digər bir totemi öz əcdadları hesab edirdilər. Totemin seçilməsi bir çox hallarda yerin fiziki-coğrafi xarakteri ilə də bağlıdır. Məsələn, Avstraliyanın bir çox qəbiləsinin totemi buradakı adi kenquru, emu dəvəquşusu, opossum (iri

kisəli siçovul), vəhşi it, kərtənkələ, quzğun, yarasadır. Eyni zamanda, ölkənin təbii şəraitinin və heyvanlar aləminin kasıb olduğu səhra və yarımsəhra bölgələrində buradan başqa heç yerdə rast gəlinməyən həşəratlar və bitkilər totemə çevrilirlər. Qeyd etmək vacibdir ki, totem heç vaxt ilahiləşdirilmir, insanlar, sadəcə olaraq, onlarla qohum olduqlarına inanırlar. Cənubi və Cənub-Şərqi Avstraliyanın sakinləri totemə «Böyük qardaşımız», «Atamız» sözləri ilə müraciət edirlər. İnsanla totem arasındakı yaxınlıq, hər şeydən əvvəl, totemin öldürülməsinin və onun qidasından istifadə edilməsinin qadağan olunmasında (tabu) əksini tapır. Lakin bəzi mərasimlərin icrası zamanı, adət, totemlə olan əlaqəni möhkəmləndirmək üçün onun ətindən bir qədər yeməyə icazə verirdi. Totemlərin əmələ gəlməsini qəbilənin, tayfanın həyatında mühüm rol oynayan ov heyvanlarının qədim təsviri ənənəsi ilə bağlamağa cəhd göstərilmişdir. Lakin bu fərziyyənin elə bir əsası yoxdur, belə ki, qədim insanlar çəyirtkəni, yaxud yarasanı, çətin ki, qiymətli şikar saymış olsunlar.

**Totemizm** – qəbilənin bu və ya digər heyvandan, yaxud bitkidən törədiyinə inam və bu heyvana (bitkiyə) sitayişdir. Məsələn, Avstraliyada bu, kenquru, emu dəvəquşusu, opossumdur. Onları öldürmək və yemək olmaz. Totemizm, insanlar arasında qan qohumluğu əlaqələrinin ən vacib sayıldığı, erkən qəbilə cəmiyyətinin dinidir. İnsan bu cür əlaqələri ətraf mühitdə görür və qohumluq münasibətini bütün təbiətə şamil edirdi. Ovçunun və yığıcının həyatının əsasını təşkil edən heyvanlar və bitkilər onun dini duyğularının predmetinə çevrilir. Xalqların əksəriyyəti tarixi inkişaf prosesində totem təsəvvürlərini itirmişlər. Lakin bəzi yerlərdə, məsələn, Avstraliya aborigenlərində, totemizm qeyri-adi yaşarlıq nümayiş etdirir. Ümumiyyətlə, Avstraliyanı, klassik totemizm ölkəsi adlandırırlar.

Totemizm vaxtilə Hindistanda geniş yayılmışdı. Dağlıq və meşəlik yerlərdə yaşayan və hinduizmlə təmasda olmayan hind qəbilələrində bitki və heyvan adları daşıyan tayfalara bölünmə indiyədək qalmaqdadır. Onların əsatirləri ilk insanların müxtəlif heyvanlardan törəməsinə, insanların möcüzəli şə-

kildə bitkilərə, vəhşi heyvanlara, quşlara çevrilməsinə, insanlarla heyvanlar arasında izdivaca dair süjetlərlə doludur. Müqəddəs heyvanlara (inək, meymun, fil, timsah), bir çox hallarda, totem əsasına malik sitayiş hinduizmdə də əksini tapmışdır. Hinduizm panteonun baş allahlarını mütləq müqəddəs heyvanlar müşayiət edir.

***Əcdadlara, yaxud ölülərə sitayiş*** – nə vaxtsa yaşamış əcdadların, yaxud qohumların mövcud olmaqda davam etdiklərinə və yaşayanların taleyinə xeyir və ya zərər yetirə bilmələrinə inamdır. Ən aydın ifadə olunmuş animist ayinlərdən biri dünyanın bir çox xalqlarında bugünədək qorunub saxlanmış əcdadlara sitayiş, ölmüş qohumların ruhuna ehtiramdır.

**Cədvəl 5.1**

**Dinlərin coğrafiyası**

| **Dinlər** | **Dindarların sayı (mln. nəfər)** | **Yayıldığı əsas regionlar və ölkələr** |
|---|---|---|
| 1 | 2 | 3 |
| **Dünya dinləri** | | |
| Buddizm (e.ə. VI əsr) Lamaizm | 400 | Çin, Monqolustan, Yaponiya, Myanma, Tailand, Vyetnam, Kamboca, Laos, Malayziya, Şri-Lanka, Rusiya |
| Xristianlıq (e.ə. I əsr) Katolisizm | 2000<br>1040 | Fransa, İspaniya, Portuqaliya, İtaliya, Avstriya, Belçika, İrlandiya, Polşa, Litva, Ukrayna, Çexiya, Slovakiya, ABŞ, Macarıstan, Sloveniya, Xorvatiya, Kanada, Latın Amerikası ölkələri, Filippin |
| Protestanlıq | 360 | Şimali Avropa ölkələri, Böyük Britaniya, AFR, Niderland, İsveçrə, Yeni Zelandiya |
| Pravoslavlıq | 190 | Rusiya, Ukrayna, Belarus, Moldova, Gürcüstan, Bolqarıstan, Rumıniya, Yuqoslaviya, Yunanıstan, Kipr |
| İslam (eramızın VII əsri) | 1150 | Albaniya, Azərbaycan, Bosniya və Herseqovina, Makedoniya, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Cənub-Qərbi Asiya, Şimali, Cənubi və Şərqi Afrika ölkələri, Pakistan, Banqladeş, İndoneziya, Malayziya, Hindistan |
| Şiələr | 100 | İran (dövlət dini), Livan, Azərbaycan (əhalinin bir hissəsi) |

| 1 | 2 | 3 |
|---|---|---|
| Sünnilər | 1050 | Müsəlman ölkələrinin əksəriyyətində |
| | | **Məhəlli dinlər** |
| Hinduizm | 740 | Hindistan, Nepal, Şri-Lanka |
| Sikhizm | 15 | Hindistan (Pəncab) |
| Konfusiçilik | 200 | Çin |
| Sintoizm | 90 | Yaponiya |
| İudaizm | 10 | İsrail, ABŞ |
| | | **Qəbilə-tayfa dinləri** |
| Fetişizm | | Tropik Afrika |
| Totemizm | | Amerika hinduları, Avstraliya aborigenləri |
| Əcdadlara sitayiş | | Cənub-Şərqi Asiya |
| Şamanizm | | Azsaylı Şimal xalqları |

Qot müharibəsi (6-cı əsr) tarixçisi Qeysəriyyəli Prokopi ölülərin ruhlarının dəniz yolu ilə Brittiya adasına (çox guman ki, Prokopi Brittiya dedikdə Böyük Britaniyanı nəzərdə tutur) getmələri barədə rəvayətdən danışır.

**Şamanizm** – ayrı-ayrı adamların vəcd halına gələrək, ruhlarla ünsiyyətə girmək və onların gücündən müalicə və praktik məqsədlər üçün istifadə etmək bacarığına inamdır. Şamanizm bəşəriyyətin dini etiqadlarının inkişafında xüsusi mərhələ olub, ovçuluğun, balıqçılığın, yığıcılığın əsas həyati vasitələr olduğu vaxtlarda yaranmışdır.

Şamanın türkcə adı «qam»dan şamanın ruhlarla və allahlarla söhbətləşməsi ayini mənasına gələn «qamlama» sözü yaranmışdır. O, hərəkətləri, oxuması, danışığı ilə haralarda gəzib-dolaşdığını, başına nələr gəldiyini ətrafdakılara izah edir, çevik bədən və əl hərəkətləri ilə hiss orqanlarının fəaliyyətini tənzimləmək qabiliyyətini nümayiş etdirirdi. Qamlama zamanı şaman təlqinin köməyi ilə özünü vəcd, coşğunluq halına gətirir, qarabasma halları keçirir. Hirslənərək, cuşa gələrək bihuş olsa da, xarici aləmlə əlaqəsini qoruyub saxlayır, ətrafdakıların davranışını həssaslıqla izləyirdi.

Şamanın fəaliyyəti qəbilə quruluşu dövründə təşəkkül tapmış sosial funksiyalardan biri idi: o, ruhlarla və allahlarla ünsiyyətdə qəbiləsinin müdafiəçisi və nümayəndəsi kimi çıxış

edirdi.

Bir sıra digər inamlar – bütün təbiət hadisələrini şəxsləndirən ***animizm*** (lat. *animus* – ruh sözündən), allahı təbiətdə təcəssüm etməkdə görən ***panteizm***, tabu sistemi, magiya və s. mövcuddur. İbtidai icma quruluşunun əvvəllərində meydana gəlmiş bu etiqadların bir çoxu Cənub-Şərqi Asiyanın, Latın Amerikasının təcrid olunmuş əlçatmaz ucqar bölgələrində, Şimali Amerikanın və Avrasiyanın arktik enliklərində indi də qalmaqdadır. Ötən əsrin 80-ci illərinin sonunda ənənəvi inanclara tapınanların ümumi sayı 100 milyon nəfərə yaxın idi.

Məhəlli dinlər, bir qayda olaraq, bir etnosun, yaxud qohum etnosların hüdudlarından kənara çıxmayan daha inkişaf etmiş dini sistemlərə deyilir. Mürəkkəb dini praktika, kult yaranır.

**İudaizm** bu günədək gəlib çıxmış ən erkən dini etiqadlardan sayılır. O, müasir İsrail dövlətinin ərazisində formalaşmış, sonralar monoteizmə keçən çoxallahlı din kimi yaranmışdır. İudaizm üçün vahid allaha inamdan əlavə, ruhun ölməzliyinə, o dünyada əcr veriləcəyinə, axirətə, qiyamət gününə, cənnətə, cəhənnəmə, yəhudilərin Allah tərəfindən seçildiyinə inam da səciyyəvidir. Bu sonuncu hal – ancaq yəhudidən doğulanların yəhudi sayıla bilməsi faktı iudaizmin dünya dininə çevrilməsinə mane olmuşdur. XX əsrin 90-cı illərində dünyada təqribən 10 milyon yəhudi var idi ki, onların da yarıya qədəri Amerikada yaşayırdı.

**Sikhizm** – hinduizmdə təriqət olmuşdur. XVI-XVIII əsrlərdə müstəqil dinə çevrilərək, başlıca olaraq, Hindistanın Pəncab ştatında yayılmışdır. Dinin əsasını təkallahlılıq, kastaların inkar edilməsi, sikhlərin Allah qarşısında bərabərliyi təşkil edir.

**Konfusiçilik və daosizm** – müasir Çinin ərazisində yaranmış fəlsəfi-dini sistemlər, Çin dinləri. Konfusiçiliyin banisi olan Konfusi (e.ə.VI-V əsrlər) hökmdarların hakimiyyətini göylərin hədiyyəsi hesab edir və buna görə də onları müqəddəs sayır, insanların «yüksək» və «aşağı» silklərə bölünməsini qanuni hesab edirdi. Konfusiçiliyin etik normalarına mənəvi təkmilləşmə tələbləri və etiket qaydalarına (yuxarıdakına sözsüz tabe olmaq və itaət göstərmək) mütləq əməl edilməsi

daxil idi. Eramızın II əsrindən 1911-1913-cü illər Sanxay inqilabına qədər konfusiçilik rəsmi dövlət ideologiyası statusuna malik idi.

**Sintoizm** – fəlsəfi-dini sistem kimi Yaponiyada təşəkkül tapmışdır. O, təbiət allahlarına və əcdadlara səcdə əsasında yaranmışdır. Baş allahları Günəş ilahəsi Amaterasu və onun nəslindən olan Drimmudur. Sintoizm təqribən bir əsr ərzində (1848-1945-ci illər) bu ölkənin dövlət dini olmuşdur. Sintoistlər hazırkı yapon imperatorları (1989-cu ildən Akihito) sülaləsinin şəcərəsini Amaterasu ilə bağlayırlar.

Sintoizm («sinto» yaponcadan tərcümədə allahların yolu deməkdir) erkən feodal Yaponiyasında fəlsəfi sistemin transformasiyası nəticəsində deyil, çoxsaylı qəbilə pərəstişləri, animizm, totemizm, magiya təsəvvürləri, şamanizm, əcdad pərəstişi bazasında yaranmış dindir.

Sintoizm panteonu çoxsaylı allahlardan və ruhlardan ibarətdir. İmperatorların ilahi mənşəli olması konsepsiyası başlıca yer tutur.

**Hinduizm** – eramızdan əvvəl birinci minilliyin ikinci yarısında Cənubi Asiyada meydana gələrək, Hindistanın kasta sistemini qanuniləşdirən brahmanizmdən törəmişdir. Hindistan, Nepal, Şri-Lanka və Banqladeş əhalisinin xeyli hissəsi hinduistdir. Onlar hər bir kasta üçün, peşə və ünsiyyət dairəsi daxil olmaqla, müəyyən olunmuş həyat tərzinə ciddi şəkildə əməl etməlidirlər.

Təkallahlığa (monoteizm) söykənən yalnız üç məhəlli din beynəlxalq xarakter kəsb edərək, dünya dinlərinə çevrilmişlər.

**Buddizm** dünya dinlərinin ən qədimi sayılır. O, brahmanizmin təsbit etdiyi kasta quruluşuna müxalifət kimi, e.ə. VI əsrdə yaranmışdır. Əgər xristianlar insanın bir dəfə ölüb, sonradan allah dərgahı qarşısında dayanacağına inanırlarsa, buddistlər (eləcə də hinduistlər) hər bir ruhun uzun zəncirvarı yenidən doğulmasından danışırlar. Hinduizmin bir sıra ehkamlarını götürən buddizm kasta sistemini rədd etmişdir. İnsanın ləyaqəti və sosial statusu onun mənşəyindən deyil, davranışından asılıdır. Buddizm ehkamlarına görə, həyat arasıkəsilməz iztirablar

zəncirindən ibarətdir və onları əxlaqlı davranışla və canlı varlıqları öldürməməklə yüngülləşdirmək mümkündür. Buddizmin ardıcılları vegeteriandırlar, onlar qidalanmada ət məhsullarından istifadə etmirlər. Bu etik normalar təsərrüfat həyatına, xüsusilə kənd təsərrüfatının ixtisaslaşmasına bilavasitə təsir göstərir.

Buddizmdə iki əsas cərəyan vardır. Hinayana («dar yol» deməkdir) tərəfdarları Buddanı real tarixi şəxsiyyət sayır, erkən buddizmin prinsiplərinə ciddi riayət edir, yəni kim nicat istəyirsə, dünyəvi həyatdan əl çəkməlidir. Mahayana («geniş yol») tərəfdarları isə Buddanı ilahiləşdirir və belə hesab edirlər ki, buddizmin daha sonrakı forması olan lamaizmə görə, nicat üçün rahiblik heç də vacib deyil. Əfsun-ovsunlara xüsusi önəm verilir. Onların fikrincə, bunların köməyi ilə nirvana (nicat) halına – ülvi səadətə çatmaq, həyat qayğılarından azad olmaq mümkündür. Hind-Çin yarımadası və Şri-Lanka əhalisinin əksər hissəsi buddizmə etiqad bəsləyir. Lamaizm Monqolustan əhalisi arasında, Şərqi Buryatiyada, kalmıklar və tuvalılarda yayılmışdır.

Budda zamanından bütöv təlimin onun ardıcıllarının imkanlarına uyğun hissələri yaranmışdır ki, bu da təlimin daha da təkmilləşməsinə imkan verir. Ona görə də buddizmin 2500 illik tarixi ərzində müxtəlif ənənələr meydana gəlmişdir. Bu ənənələr Hindistandan Asiyanın bütün ölkələrinə və mədəniyyətlərinə, oradan isə dünyanın digər hissələrinə yayılmışdır. Dünyanın hər yerində müxtəlif buddizm ənənələri mərkəzləri vardır.

Əksər məlumatlara görə, buddistlərin ümumi sayı 400 milyon nəfərdir. Müxtəlif səbəblərdən özünü rəsmən buddist adlandıra bilməyən bir çoxları da buraya daxildir. Məsələn, təkcə kommunist Çinində mövcud şəraitə görə buddizm ayinlərini açıq şəkildə icra edə bilməyən 150 milyona yaxın buddist vardır.

Buddistlərin sayı daim artır. İlk öncə, son illərdə Qərbdə buddizmə maraq artmaqdadır. Kütləvi informasiya vasitələri ilə informasiya axınının çoxalmasına baxmayaraq, mövcud ol-

duğu 2500 il ərzində, son dərəcə müxtəlif yöndə inkişaf etmiş buddizm haqqında ətraflı məlumat almaq çətin olaraq qalır.

**Xristianlıq** – eramızın birinci minilliyinin əvvəlində Roma imperiyasının şərqində, müasir İsrail dövlətinin ərazisində yəhudi müstəsnalığına etiraz kimi meydana gəlmişdir. Xristianlıq Allahın üç – ata, oğul və müqəddəs ruh – sifətdə mövcud olmasıdır. Oğul-allah insanların günahını yumaq və Yer üzündə «ilahi hökmranlığı» bərqərar etməkdən ötrü, yenidən zühur etmək üçün əzablı ölümü qəbul etmişdir. Xristianların müqəddəs kitabı – Bibliya Əhdi-Ətiqdən və Əhdi-Cədiddən ibarətdir. Əsas etik prinsipləri – dözüm və mərhəmətdir. 1054-cü ildə Roma (qərb) və Konstantinopol (şərq) qolları arasında tam ayrılma nəticəsində, xristianlığın katolisizmə və pravoslavlığa parçalanması baş verdi. Onların arasındakı əsas fərq müqəddəs ruhun zühuru məsələsindədir. Katoliklərə görə, o, ata-allahdan, oğul-allahdan, pravoslavlara görə isə ata-allahdan törəmişdir. Pravoslavlardan fərqli olaraq, katoliklər belə hesab edirlər ki, cəhənnəmdən və cənnətdən əlavə əraf da vardır. Pravoslav kilsəsində musiqisiz xor oxunmasına icazə verilir, katolisizmdə isə ibadət arqan musiqisinin müşayiəti ilə icra edilir.

İisus Xristi (İsanı) oğul-allah deyil, allah hesab edən **monofist kilsəsi** Efiopiyadakı Misir qibtiləri arasında və Ermənistanda yayılmışdır.

XVI əsrdə Reformasiya nəticəsində Papa hakimiyyətini rədd edən və xristianlığın üçüncü əsas cərəyanına çevrilən protestantlıq (protest sözündən) katolisizmdən ayrıldı. Protestantlar, öz növbəsində, ingilis kilsəsinə, lüteranlığa və kalvinizmə bölündü. Sonuncudan isə reformistlər, presviterianlar və babtistlər qopdular. Protestantlığın mərkəzi ABŞ-dır. Bu kilsələrin iqamətgahı oradadır.

Xristianlığın Avropanın hüdudlarından kənarda yayılması və onun dünya dininə çevrilməsi Böyük coğrafi kəşflər dövrü ilə başlamışdır. Bir çox hallarda, müstəmləkəçiliyə həqiqi etiqadı yaymaq zərurəti ilə bəraət qazandırılırdı.

Xristianlığın ilk addımları I-II əsrlərdə Aralıq dənizi bölgəsi

ilə məhdudlaşırdı. Sonralar o, Mərkəzi Avropa ölkələrinə nüfuz etdi və yalnız VII-XII əsrlərdə Avropanın şimalında və şərqində də yayıldı. Böyük coğrafi kəşflər dövründə xristian missionerləri (dini təlim vaizləri) aktiv fəaliyyətə başladılar. Bu fəaliyyət indi də davam edir. XV əsrin sonunda onlar işğalçılarla birlikdə yenicə kəşf olunmuş Amerika sahillərinə gəlib çıxdılar.

Hazırda mömin xristianlar Avropada və Avstraliyada, Şimali Amerikada və Latın Amerikasında, Yeni Zelandiyada və Yeni Qvineyada yaşayan dünya əhalisinin 1/3-ni təşkil edir. Pravoslav kilsəsi 120 milyon, Roma – katolik kilsəsi 700 milyona yaxın, protestant kilsəsi isə təqribən 350 milyon dindarı öz sıralarında birləşdirir.

**Katolisizm.** Statistik məlumatlara görə, dünyada 600 milyondan 850 milyonadək katolik vardır ki, bu da planet əhalisinin təqribən 15%-dir. Latın Amerikasında əhalinin 90%-i, Avropada 40%-ə yaxını, Şimali Amerikada 25% -i, Afrikada 13%-i, Asiyada isə cəmi 2,5%-ə qədəri (onların da üçdə ikisi Filippində yaşayır) katolikdir.

**İslam.** ***İslamın meydana gəlməsi və onun dünya dininə çevrilməsi.*** «İslam» termini ərəbcədən tərcümədə «itaətetmə» deməkdir. Bu dini qəbul edənlərə isə mömin (ərəbcə müslim) deyilir. Bu dinin ikinci adı – müsəlmanlıq da buradandır. Avropada vaxtilə onu bu dinin banisi Məhəmmədin (latınlaşdırılmış şəkli - Maqomet) adı ilə bağlı «Məhəmmədçilik» də adlandırmışlar.

İslam dünya dinlərinin ən gəncidir. O, VII əsrin əvvəllərində, Ərəbistan yarımadası ərazisində yaşayan sami dilləri ailəsinə mənsub köçəri və yarımköçəri xalqlar arasında meydana gəlmişdir. Nisbətən gənc olması islama ikiqat təsir göstərmişdir. Yaxın Şərqdə, iudaizm və xristianlıqla eyni sosio-mədəni və dil mühitində, lakin onlardan xeyli sonra yaranan islam digər dinlərin – iudaizmin və xristianlığın da istinad etdiyi, lakin nəzəri əsaslandırma və praktik tətbiq baxımından nəzərə çarpan ziddiyyətlərdən yaxa qurtara bilmədiyi monoteizm, təkallahlılıq prinsipini mütləqləşdirməyə nail olmuşdur.

İslam, ardıcıllarının sayına görə, ikinci dünya dinidir. Hazırda dünyanın 120-dən çox ölkəsində ona 1 milyard 150 milyondan artıq adam etiqad edir. İslam ən çox Afrikada (əhalinin 50%-i) və Asiyada (əhalinin 20%-i) yayılmışdır. İslam coğrafiyasında bir qanunauyğunluq – *onun kompakt yerləşməsi* dəqiq sezilir. Müsəlmanların yarıya yaxını dörd ölkədə – İndoneziya, Pakistan, Banqladeş və Hindistanda, təqribən ¾-ü əhalisinin 95-99%-ni təşkil etdiyi 35 ölkədə yaşayır. Digər dövlətlərdə müsəlmanlar çox vaxt ölkə əhalisinin cəmi bir neçə faizindən ibarət qapalı milli və dini icma təşkil edirlər.

MDB ölkələrində əcdadları islamı qəbul etmiş 60-dan artıq xalq yaşayır. Burada müsəlmanların ümumi sayı 50 milyon nəfərdən çoxdur. Onların 10 milyondan 20 milyona qədəri Rusiyada yaşayaraq, pravoslavlardan sonra ikinci konfessiya qrupu təşkil edir. Rusiya Federasiyasına daxil olan bəzi ərazilər (Çeçenistan-İçkeriya) özlərini islam dövləti adlandırmışlar. Burada müvafiq qanunlar qüvvədədir. Rusiyadan başqa, islam Azərbaycanda və Orta Asiya dövlətlərində yayılmışdır.

Dünya dini kimi, islamın ən mühüm xüsusiyyəti dini ibadətlə ictimai-siyasi həyat arasında qırılmaz əlaqədir. Ərəb ölkələrində dinin cəmiyyətə təsiri hər hansı digər dinin təsirindən xeyli açıq-aşkar ifadə olunmuşdur və dərhal gözə çarpır: kişi və qadınların geyimi, məscid minarələri, özünəməxsus yazı, spirtli içkilərin hətta dinə inanmayan əcnəbilərə qadağan edilməsi. 28 ölkədə islam dövlət dini, yaxud rəsmi din elan olunmuşdur: İordaniya, Tunis, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Misir və bir çox digər ölkələrin konstitusiyasında bu barədə müvafiq müddəalar var. İslam şəriətinin əsas müddəaları başlıca müqəddəs kitab olan **«Quran»da** (ərəbcə – mütaliə, qiraət) şərh edilmişdir. Digər dünya dinləri kimi, islam da vəhy dinidir. Müsəlman hədisinə görə, Quranın ayələri Məhəmməd peyğəmbərə mələk Cəbrayıl vasitəsilə ayrı-ayrı vəhylərlə, əsasən, gecələr nazıl olmuşdur.

*Tək olan Allaha inam müsəlman etiqadının təməlini təşkil edir.* Allah bütün mövcudatın yaradıcısı və onun mövcudluğunu müəyyən edən yeganə ilahi varlıqdır. O, ali, qadir, müdrik,

mərhəmətli və baş hakimdir. Onun yanında nə digər allahlar, nə də hansısa müstəqil varlıqlar var. Bütün təbiət hadisələri, insanlar, mələklər və şeytanlar Allaha tabedir.

İslamın dini ibadət sisteminin ən mühüm hissəsi *şəriətdir*. Şəriət (ərəbcə şəriə – doğru yol) müsəlmanların bütün ictimai və şəxsi həyatını tənzimləyən əxlaq, hüquq və mədəniyyət qanunları toplusudur. Şəriət Qurana və Sünnəyə (Məhəmməd peyğəmbərin həyatından bəhs edən hədislər və kəlamlar toplusu) əsaslanır.

## 5.3. İslam dininin coğrafiyası

İslam Ərəbistan yarımadasının əhalisi arasında meydana gəlmiş ən gənc dünya dinidir. Mələk Cəbrayıl 609 (yaxud 610) –cu ildə o vaxt yaşlı olan Məhəmməd (təqribən 570 - 632) adlı bir şəxsin yanında nazil olaraq bildirmişdir ki, Allah insanlara həqiqi etiqad bəxş etmək və onları «Qiyamət günü»ndən qurtarmaq üçün onu seçmişdir. Məhəmmədin vətəni Hicaz şəhəri Sina yarımadası ilə Məkkə arasında dağlarla əhatə olunmuş sahil zolağında yerləşirdi. Bədəvilərin köçəri həyat sürdüyü və karvanların ağır-ağır keçdiyi bu bölgə tədricən tacirlərin və sələmçilərin daimi yaşayış yerinə çevrilirdi.

*Hicaz o dövrün iki ən qüdrətli imperiyası – fars Sasani padşahlığı və Şərqi Roma imperiyaları arasındakı müharibə meydanından kənarda idi. Müharibələr daim mal gətirilməsini tələb edirdi və mühüm ticarət yollarının qovuşuğunda salınmış Məkkə əhli ərəb tacirlərinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün mümkün olan hər şeyi edirdilər. Qan intiqamı və şəhər divarları yaxınlığında hər hansı hərbi əməliyyatlar dayananda onlar «müqəddəs aylar» deyilən tədbir keçirirdilər. Bu, zəruri idi. Belə ki, Məkkənin həndəvərində vəziyyət sabit deyildi: köçərilər vahələrdə kəndliləri və oradan keçən karvanları qarət edirdilər. Bədəvi qəbilələri otlaqlar və su quyuları üstündə bir-biri ilə düşmənçilik aparırdılar. Bu, müsəlmanların müqəddəs «qara daş»ının indiyədək saxlandığı Kəbə məbədinin şöhrətini daha da artırırdı.*

Beləliklə, vəziyyət sosial ziddiyyətləri yumşalda, Hicazda baş alıb gedən anarxiyaya son qoya və onun əhalisinin döyüşkənliyini xarici məqsədlərə yönəldə bilən ideologiyanın yaranmasını tələb edirdi. Bütün bunları Məhəmməd etdi.

Əvvəllər cinli adlandırılaraq lağa qoyulan Məhəmməd sonralar həmyerlilərini İslamın yaşıl bayrağı altına toplaya bilmişdir. Başqa dinlərdən fərqli olaraq, yalnız islamda coğrafi kəşflərə imkan yaradan müddəalar vardır. Bunlar «cihad» («müqəddəs müharibə»), müqəddəs yerlərə icbari ziyarətin və ticarətin savab fəaliyyət sayılmasıdır.

Quranın on yeddinci surəsində gəmiçilik birbaşa təşviq olunur və göstərilir ki, bol ruzi qazanmaq istəyən möminlərin gəmilərini allah özü hərəkətə gətirir. Məhəmmədin özü tacir idi və təkidlə israr edirdi ki, doğma ocağını bilik üçün tərk edənlər Allah yolu ilə gedirlər. İslamı tropik Afrikaya ərəb ticarət karvanları gətirmişdir. Müasir Mavritaniyanın cənubunda yerləşən «qızıl ölkəsi» - Qərbi Afrika imperiyası Qananın, Şərqi Afrika sahillərindəki Kanem-Bornu krallığının təsvirinə görə ərəb səyyahlarına borcluyuq. Artıq VII əsrdə istilaçılıq yürüşləri ərəb köçərilərini Kiçik Asiyaya və Hind çayı vadisinə, VIII əsrdə isə Şimali Afrikaya gətirib çıxardı. X əsrdə «cihad» islamı İrana, İraqa, Orta Asiyaya, XII əsrdə isə müasir Pakistan və Hindistan ərazisində yaydı. Burada o, hinduizmin müqaviməti̇lə qarşılaşdı. Bu nəhəng imperiya çox davam etmədi, lakin ərəblərin mədəni birliyi bugünədək qorunub saxlanmışdır. Digər dinlərdən fərqli olaraq, islam dərisinin rəngindən və yerli etiqadlardan asılı olmayaraq, onu qəbul etməyə hazır olan bütün xalqlar arasında yayılmışdır. Bu yürüşlər nəticəsində ərəb hakimiyyəti tərəfindən birləşdirilmiş hindlilərin, farsların və misirlilərin birgə fəaliyyəti ilə islam mədəniyyəti inkişaf etdi. Ərəb elmi ədəbiyyatında riyaziyyata, tibbə dair tədqiqatlarla yanaşı, səyahətlərin təsviri də xüsusilə geniş yayılmışdı. Müsəlmanlar tək olan Allaha inanırlar. Məhəmməd onun Yer üzərində elçisi hesab edilir. Müsəlmanların müqəddəs kitabı «Quran»dır.

## Mömin əhalinin dinləri



İslamda üç əsas məzhəb təşəkkül tapmışdır: ***sünnilik*** - onun tərəfdarları Qurandan əlavə, Məhəmmədin qohumlarının və əshabələrinin dilindən yazıya alınmış hədisləri müqəddəs sayır və ali müsəlman hakimiyyəti (imam-xəlifə) məsələsinin həllində bütün icmanın razılığına əsaslanırlar; azlıq təşkil edən ortodoksal ***şiəlik*** – onlar ancaq Əli tərəfdarlarını (Əlinin və onun arvadı, Məhəmmədin qızı Fatimənin övladlarını) imam-xəlifə kimi qəbul edirdilər; ***xaiçilik*** – sünniliyə yaxın ortodoksal təlim olub, həyatda sərt davranış qaydalarına əməl olunmasını tələb edirdi. Xaricilər dəbdəbəni pisləyir, əyləncələri və musiqini qadağan edirdilər. İslam dininə mənsub olanların əksər hissəsi Cənub-Qərbi Asiyada, habelə İndoneziyada, Banqladeşdə, Pakistanda, Maldiv adalarında, Orta Asiya ölkələrində, Qazaxıstanda, Rusiyada və Şimali Afrikada yaşayırlar. Şiələr sayca İranda, qismən İraqda və Azərbaycanda üstünlük təşkil edirlər.

Dünya dinlərinin əksəriyyəti varisliyə, ənənələrə, müəyyən davranış normalara riayət olunmasına xüsusi əhəmiyyət verirlər. Bu baxımdan dinlər cəmiyyətin həyatında müəyyən qədər mühafizəkar rol oynayırlar. Bir çox hallarda, dinlər demoqrafik siyasətin həyata keçirilməsinə əngəl törədirlər. Dinlər müəyyən məhsulların qidalanmada istifadəsinə məhdudiyyət qoymaqla və ev heyvanlarına rəmzi əhəmiyyət verməklə, dolayısı ilə, kənd təsərrüfatının inkişafına mənfi təsir göstərirlər. 170 milyondan çox buddist vegeteriandır, hinduistlər mal əti yemirlər.

İslam dini – siyasi birlik şəraitində inkişaf etmişdir, belə ki, onun nüfuzlu şəxsləri özləri, eyni zamanda, həm siyasi, həm də dini rəhbərlər – peyğəmbər, xəlifələr, əmirlər, yerli hakimiyyət nümayəndələri - olmuşlar. Hər bir məmur öz hərəkətlərini «Quran»ın və Şəriətin normaları, yəni ruhanilərin rolu, dinin qüdrəti ilə uzlaşdırmalı idi. İslam Yaxın Şərqin geniş ərazisində qüdrətli siyasi struktura və yüksək inkişaf etmiş sivilizasiyaya malik «müsəlman dünyası» fenomeninin inkişafına güclü təkan vermişdir. Ərəb mədəniyyətinin uğurları və nailiyyətləri bir çox ölkələrə, o cümlədən xristian Avropasının

mədəniyyət mərkəzlərinə təsir göstərmişdir. İslama, ərəb ölkələrindən əlavə, Hindistanda, Çində, İndoneziyada da etiqad edilir. İslam Şimali Afrikanın müsəlman dövlətlərindən qonşu zənci ölkələrinə də yayılmış və qitənin cənubuna doğru irəliləməkdədir. Müasir dünya dini sistemlərinin bir çoxu arasında islam ən əhəmiyyətli qüvvələrdən biridir.

İslamın coğrafiyası olduqca rəngarəngdir. İslam dövlətlərinin tərkibinə təkcə onun vətəni olan Yaxın Şərq ölkələri deyil, Afrikanın və Cənub-Şərqi Asiyanın bir çox ölkələri də daxildir.

Məlum olduğu kimi, Yaxın Şərqin geniş ərazisində ərəblər məhz islamlaşma və ondan sonrakı proseslər nəticəsində kiçik və az inkişaf etmiş sami qəbilələrindən qüdrətli siyasi struktura və yüksək inkişaf etmiş sivilizasiyaya malik çoxsaylı etnomədəni birliyə çevrilmişlər. Sürətlə təşəkkül tapan ərəb-islam dini-mədəni ənənəsi böyük bir hissəsi qədim dünya sivilizasiyasının mərkəzləri olan istila edilmiş ölkələri və xalqları özünə tabe etdirdi, onlar nəinki islamlaşdırıldı, həm də ərəblər tərəfindən assimilyasiyaya məruz qaldı. Obrazlı deyilsə, ərəb-islam dalğası qısa müddət ərzində Ərəbistanla qonşu və ondan uzaqda olan çoxsaylı ölkələri ağuşuna aldı və orada yaşayan, bəzən qədim ənənələrə malik etnosları, praktik olaraq, öz içərisində əritdi.

Bu güclü assimilyasiya dalğası heç də az nəzərə çarpmayan cavab dalğası doğurdu. Bunun nəticəsində ərəb-islam ənənəsi Misirdə, Mesopotamiyada, Hindistanda, İranda, Orta Asiyada, Afrikada, İspaniyada çoxsaylı yad mədəni təsirlər hesabına zənginləşdi.

Bütün bu təsirlər böyük sürətlə tərəqqi edən ərəb-islam mədəniyyətinin sonrakı inkişafına güclü təkan verdi. Onlar orta əsrlər ərəb-müsəlman mədəniyyatının bir müddət dünya sivilizasiyasının önündə getməsinə zəmin yaratdılar. Buna az əhəmiyyətli olmayan daha bir amil yardım göstərmişdir. VIII əsrdən başlayaraq, orta əsrlər Avropa mədəniyyəti onu qəti şəkildə qədim, antik və daha sonrakı İntibah mərhələlərinə ayıran gözəçarpacaq tənəzzül dövrünə qədəm qoydu. Bu za-

man istər katolik Qərbi Avropada, istərsə də pravoslav Bizansda xristianlaşdırılmış Avropa mədəniyyəti mövcud olsa və inkişaf etsə də, ərəb-islam sivilizasiyasının parlaq tərəqqisi onu kölgədə buraxırdı.

Ərəb mədəniyyətinin uğurları və nailiyyətləri bir çox ölkələrə təsir göstərmişdir. Onların arasında orta əsrlər Avropasının mədəniyyət mərkəzləri də var idi.

Bütün bunlar islamın mövqelərini yüz qat gücləndirir, dünyada vəziyyət kəskin surətdə dəyişdikdə, həyat öz adi dayaqlarını itirdikdə və yenilik onunla hesablaşmağı qətiyyətlə tələb etdikdə belə onun mədəni ənənələrini, əhaliyə təsirini möhkəmləndirirdi.

İlkin olaraq, Ərəbistan yarımadasında, pərakəndə ərəb qəbilələri arasında meydana gələn islam onları birləşdirə bilmiş və ərəb sivilizasiyasının inkişafına güclü təkan vermişdir. Ərəblər islamın qəbulundan sonra böyük əraziləri istila etmiş və islam dini burada hakim dinə çevrilmişdir. Digər ölkələrə islam dinc yolla gəlmiş və milyonlarla insanın ürəyini fəth etmişdir. Ərəb mədəniyyəti bir çox xalqları - ərəbləri, farsları, misirliləri və başqalarını əhatə etmişdir. O, həm də, əslində, Avropanı Asiyadan və Afrikadan ayıran səddir. İslamın digər dinlərdən başlıca fərqi onda dini və dünyəvi hakimiyyətin tam şəkildə birləşməsi və xristianlıqda, yaxud buddizmdəki kimi, vahid dini təşkilatın olmamasıdır. İnsan həyatının tərkib hissəsinə çevrilən islam onun bütün fəaliyyətini yönəldir, onu azmağa qoymurdu. Lakin heç bir din yarandığı şəkildə qala bilməz. İslam da transformasiya etməyə başlamışdır. Özlərini təzədən zühur etmiş Məhəmməd adlandıran yeni peyğəmbərlər peyda olmuşdur. Belə «peyğəmbərlər» bəzi regionlarda dəstəklənmişlər (babilər, bəhailər). Bu hərəkatlar islamın modernləşdirilməsi zərurətinin dərk olunmasına kömək etmişdir. Bir çox mütəfəkkirlər bütün islam dövlətlərinin birləşdirilməsinə və Avropa ölkələrindən qapalılığa, digərləri isə Avropa ölkələri ilə əməkdaşlığa çağırmışlar. İslam dövlətinin islahatına ən parlaq nümunə Kamal Türkiyəsindəki islahatdır. Müstəmləkəçiliyin dağılmasından sonra siyasi xəritədə çoxlu yeni islam dövlətləri

meydana gəldi. Bunlar, əsasən, Şimali Afrika, Yaxın Şərq, Cənub-Şərqi Asiya ölkələridir. Bu ölkələr bir-biri ilə tez-tez düşmənçilik etsələr də (İraq-Küveyt), islam, əvvəlki kimi, həmin ölkələrin yol göstəricisidir. İslam son on illiklərdə çox dəyişmiş, daha savadlı və sivilizasiyalı olmuşdur. Lakin din vaizləri, əvvəlki kimi, böyük nüfuza malikdirlər. İslam cəmiyyətin ardıcıl inkişafına təzyiq göstərməkdə davam edir. Bir sözlə, islam müasir dünyanın bütün dini sistemləri arasında ən əhəmiyyətli qüvvələrdən biri olaraq qalır. İslamın gücü ona etiqad edənlərin sayında deyil (dünyada xristianların və buddistlərin sayını tam şəkildə müqayisə etmək olar), başlıca olaraq, əsası hələ Məhəmmədin vaxtında qoyulmuş dünya müsəlman icmasının (ümmə) ideya-institusional struktur birliyindədir. İslam üçün burada dinin ən əyani və fəal formada təzahür edən inteqrasiya funksiyası daha yüksək dərəcədə səciyyəvidir. Bu gün, inkişaf etməkdə olan bütün ölkələrin siyasət və taktikasının müəyyənləşdirilməsində islam ölkələrinin çox vaxt aparıcı rol oynadığı dünya siyasi xəritəsində baş vermiş dəyişiklik şəraitində islam təkcə dünyanın aparıcı dini sistemlərindən biri kimi deyil, Yer kürəsinin xeyli hissəsində milli hərəkatların ideya bayrağı kimi əhəmiyyətini bir qədər də gücləndirmək üçün obyektiv imkanlara malikdir.

# VI FƏSİL
# ƏMƏK EHTİYATLARI VƏ ƏHALİNİN MƏŞĞULLUĞU

## 6.1. Əmək ehtiyatları anlayışı

***Əmək ehtiyatları*** – ölkə əhalisinin əmək fəaliyyəti üçün zəruri fiziki inkişafa və sağlamlığa malik olan hissəsidir.

Əmək ehtiyatalrı cəmiyyətin bütün xalqın həyat şəraitinin hərtərəfli yaxşılaşdırılması üçün istifadə edilən başlıca məhsuldar qüvvəsidir. Əmək ehtiyatlarının sayı, dinamikası, peşə və təhsil səviyyəsi ölkənin və ayrı-ayrı bölgələrin iqtisadi inkişafının mühüm amillərindəndir. Əmək ehtiyatları ilə təminatın dərəcəsi təsərrüfat kompleksinin sahə və ərazi strukturturunun təşəkkülünə böyük təsir göstərir və sosial-iqtisadi inkişafın mühüm vəzifələrindən birini təşkil edir.

Onun həlli cəmiyyətin malik olduğu əmək ehtiyatlarının, təsərrüfat kompleksinin işçi qüvvəsinə ehtiyacının, bütün cəmiyyətin mənafeyindən çıxış edərək, ölkədə və regionlardakı əmək ehtiyatlarından daha səmərəli və tam istifadə yollarının obyekiv qiymətləndirilməsini tələb edir.

Əhalinin əmək fəaliyyəti göstərməyə imkan verən fiziki və mənəvi qabiliyyətlərə malik hissəsi ictimai istehsalın başlıca məhsuldar qüvvəsi kimi çıxış edir. Əmək qabiliyyətli əhali ölkə əhalisinin müəyyən yaş çərçivəsi ilə məhdudlaşan hissəsidir. Əmək qabiliyyətli yaşın hüdudları mütəhərrik xarakter daşıyır və sosial-iqtisadi şəraitlə, insanın inkişafının fizioloji xüsusiyyətləri ilə müəyyənləşdirilir.

Əmək qabiliyyətli yaş hüdudlarının formalaşdırılmasında sosial-iqtisadi şərait həlledici rol oynayır. Maksimal yaş həddi böyük yaşlıların əmək fəaliyyətində pensiya təminatı haqqında nəzərdə tutulan fizioloji həddə müvafiqdir. Başlanğıc hədd gənclərin fizioloji inkişafı, onların biliyi, təhsil səviyyəsi, təlimin müddəti ilə müəyyənləşdirilir.

Beləliklə, əmək qabiliyyətli əhalinin yaş hədlərinin formalaşdırılması obyektiv şərtlərlə, təkcə insanların fizioloji inkişa-

fı ilə deyil, həm də və başlıca olaraq, ictimai münasibətlərlə müəyyənləşdirilir. Bu da əmək qabiliyyətli əhalinin strukturunda, onun ölkə ərazisində yerləşdirilməsində öz əksini tapır. Əhali əmək fəaliyyətinə münasibətə görə üç qrupa bölünür: işəqədərki, iş və işdən sonrakı yaşı, yaxud əmək qabiliyyətinə qədərki, əmək qabiliyyətli, əmək qabiliyyətindən sonrakı əhali.

## 6.2. Əmək ehtiyatlarının sayı və dinamikası

Əmək ehtiyatlarının tərkibinə əmək qabiliyyətli yaşda olan əhali daxildir. Bu kateqoriyaya Rusiyada 16-59 yaşlı kişilər, 16-54 yaşlı qadınlar; Azərbaycanda 15-61 yaşlı kişilər, 15-56 yaşlı qadınlar; Gürcüstanda 16-64 yaşlı kişilər, 16-59 yaşlı qadınlar daxildir. İş qabiliyyətlilərin aşağı yaş həddinin müəyyənləşdirilməsində ölkələr arasında əhəmiyyətli fərq olmasa da, yuxarı iş yaşı həddində dəyişmə xeyli böyük olub 20 ilə çatır. Yuxarı iş yaşı həddindəki belə böyük fərq orta ömür müddəti və cəmiyyətin yaşlı insanları pensiya ilə təmin etmək imkanları arasındakı fərqlə müəyyən olunur. İnkişaf etməkdə olan bir çox ölkələrdə orta ömür müddəti yuxarı iş həddinə çatmır. Dünya ölkələrinin əksəriyyətində yuxarı iş yaşının həddi 60-65 yaş müəyyən edildiyi halda, bır sıra Asiya və Afrika ölkələrində təqaüdə çıxmaq yaşı 50 yaş müəyyən olunmuşdur. İnkişaf etmiş ölkələrdə əmək qabiliyyətli yaş həddi xeyli yüksəkdir (Danimarkada, İsveçdə –67 yaş, Norveç, Yaponiya, Finlandiya və Almaniyada –70 yaşınadək).

Əmək ehtiyatlarının sayı 2 kateqoriyadan olan şəxsləri əhatə edir:

1. Əmək qabiliyyətli yaşlı əhali, işləməyən I-II qrup əlillərin, habelə güzəştli şərtlərlə təqaüd alan işləməyən şəxslərin əmək qabiliyyətli yaşlı əhalinin sayından çıxılması ilə müəyyənləşdirilir.
2. Əmək ehtiyatları əmək qabiliyyətli yaşda olan işləyən, o cümlədən işləyən yeniyetmələr (16 yaşınadək) və işləyən təqaüdçülərin sayı ilə müəyyən edilir.

Potensial və faktik olaraq istifadə edilən əmək ehtiyatları fərqləndirilir. Sonuncular əmək qabiliyyətli əhalinin əmək potensialının real fəaliyyətini səciyyələndirir. Əmək ehtiyatları kəmiyyət və keyfiyyət müxtəlifliyinə malik olub, cəmiyyətin əmək potensialını müəyyənləşdirir.

Kəmiyyət aspekti aşağıdakı parametrlərlə səciyyələnir:

a) əmək qabiliyyətli əhalinin ümumi sayı;

b) işləyən əhalinin formalaşmış əmək məhsuldarlığı və əməyin intensivliyi şəraitində yerinə yetirdiyi iş vaxtının miqdarı.

Əmək potensialının keyfiyyət aspekti aşağıdakı göstəricilərlə müəyyən olunur:

a) əmək qabiliyyətli əhalinin sağlamlığı və fiziki iş bacarığı;

b) əmək qabiliyyətli əhalinin ümumtəhsil və peşə-ixtisas hazırlığı.

Beləliklə, əmək potensialının kəmiyyət aspekti onun ekstensiv tərkibini, keyfiyyət aspekti isə intensiv tərkibini əks etdirir.

Məlum olduğu kimi, əmək ehtiyatları əhalinin ümumi sayı əsasında formalaşır. Ona görə də əhalinin say dinamikası və onun strukturu əmək ehtiyatlarının say dinamikasını və yaş tərkibini müəyyənləşdirir. Beləliklə, bütün əhalinin göstərilən əlamətləri əmək qabiliyyətli əhalinin keyfiyyət və kəmiyyət aspektlərinin öyrənilməsinin əsasını təşkil edir. Azərbaycan əhalisinin yaş strukturu aşağıdakı kimidir: əmək qabiliyyətli yaşdan kiçik olanların sayı-2760,3 min nəfər, əmək qabiliyyətli yaşlıların sayı-4299,1 min nəfər, əmək qabiliyyətli yaşdan yuxarı olanların sayı-889,9 min nəfər. Bu göstəricilərin islahataqədərki 1991-ci ilin müvafiq məlumatları ilə müqayisəsi bütün yaş strukturlarında sayın artdığını göstərir.

Əhalinin üç yaş qrupuna bölünməsi əmək potensialının həcmini tam şəkildə əks etdirmir, belə ki, əmək qabiliyyətindən aşağı yaşlı əhalinin bir hissəsi də istehsalatla məşğuldur və əmək ehtiyatlarına aiddir. Bununla yanaşı, təqaüdçülərin də məlum hissəsi iqtisadiyyata cəlb olunmaqla əmək ehtiyatlarının sayını artırmışdır. Beləliklə, əmək qabiliyyətli yaşlı əhali-

nin sayı ilə əmək ehtiyatlarının sayı eyni şey deyildir (cədvəl 6.1).

Cədvəl 6.1

**1995-2000-ci illərdə Azərbaycan Respublikasının əmək ehtiyatlarının dinamikası** *(min nəfərlə)*

| Göstəricilər | 1995 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|
| Əmək ehtiyatları bütünlükdə, o cümlədən iqtisadiyyatda məşğul olan əhali | 3613 | 3694 | 3702 | 3717 |
| Oxuyanlar | 232 | 215 | 215 | 225 |
| Ev təsərrüfatı ilə məşğul olan əmək qabiliyyətli əhali | 219 | 285 | 289 | 305 |

Bu cədvəldən aşağıdakı nəticələri çıxarmaq olar:

1. Azərbaycanın əmək ehtiyatlarının sayında artım meyli var. Son beş ildə onun sayı artmışdır. Bu proses ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

2. İqtisadiyyatda çalışan əhalinin sayı durmadan artır. Bu vəziyyət cəmiyyət qarşısında ölkənin artıq təşəkkül tapmış əmək potensialından istifadəni xeyli artırmaq kimi çox mühüm vəzifə qoyur.

3. Oxuyanların sayı, ləng də olsa, artır.

4. Ev təsərrüfatında çalışan əmək qabiliyyətli əhalinin sayı çoxalır.

## 6.3. Əmək ehtiyatlarından istifadə

Əmək qabiliyyətli əhalinin tərkibində *iqtisadi cəhətdən fəal* və *iqtisadi cəhətdən passiv* əhali fərqləndirilir. İqtisadi cəhətdən fəal əhali dedikdə əmək qabiliyyətli əhalinin bütün fəaliyyət sahələrində çalışan, yaxud istehsalatda iştirak etmək niyyətində olan hissəsi nəzərdə tutulur. İqtisadi cəhətdən fəal əhalinin sayına həm işləyənlər, həm də işsizlər daxildir. İqtisadi cəhətdən passiv əhali dedikdə isə onun işə düzəlməyə səy göstərməyən hissəsi başa düşülür.

Müqayisə üçün qeyd edək ki, iqtisadi cəhətdən fəal əhaliyə nisbətdə işsizliyin səviyyəsi ABŞ-da 6,7%, İsveçrədə 18%-dək, Finlandiyada 9%-dir. Azərbaycanda işsizliyə münasibət dəyişir: əgər əvvəllər buna yol verməmək zəruri sayılırdısa,

indi məlum olmuşdur ki, işsizlik olmadan sürətli struktur dəyişikliyi mümkün deyildir və beləliklə, iqtisadiyyatın inkişafı, onun səmərəliliyinin artması çətinləşir, tam məşğulluq inkişafı ləngidir. Hələ son zamanlara qədər bizdə insanların işsiz qalmaması üçün köhnəlmiş və səmərəsiz istehsalatları bağlamaq olmazdı. İşsizlik rəqabət doğurur və daha yaxşı işçi qüvvəsi seçməyə imkan verir. Bu da, öz növbəsində, daha geniş bilik verən orta və ali təhsil bazasında dar istiqamətlərdə şəxsi təhsil zərurəti yaradır. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi geriliyi, əhali strukturunda kiçik yaş qruplarının üstünlüyü bu ölkələrdə əmək ehtiyatlarının məşğulluğunun aşağı səviyyəsini (43%-dək) əvvəldən müəyyən edir. Buna ***demoqrafik yüklənmə*** deyilir. Dünyada, orta hesabla, 100 əmək qabiliyyətli adam öz qazancı ilə 70 uşağı və təqaüdçünü təmin edir. İnkişaf etməkdə olan ölkələrdə bu göstərici çox vaxt 100-ə 100 olduğu halda, Yaponiyada 100-ə 41-dir. Azərbaycanda, Rusiyada, Ukraynada və MDB-nin bəzi digər ölkələrində demoqrafik yüklənmə təqribən orta dünya göstəricisinə bərabərdir. İnkişaf etməkdə olan ölkələrdə hər bir işləyənin üzərinə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdəkindən daha çox yük düşür. İqtisadi cəhətdən fəal əhalinin tərkibində qadınların payı aşağıdır. Təqribən 25% təşkil edir. Təəssüf ki, dünyada qadınların, ümumiyyətlə, siyasi, sosial və iqtisadi hüquqlarının olmadığı ölkələr hələ də qalmaqdadır. Onların bəzilərində bu hüquqlar ya məhdudlaşdırılmış, ya da formal xarakter daşıyır. Köhnəlmiş ənənələr kişilərlə eyni əməyə görə qeyri-bərabər ödəniş, qadınların işə götürülməsində məhdudiyyət və s. ayrı-seçkilik hallarında indi də təzahür edir (cədvəl 6.2).

Müxtəlif iqtisadi inkişaf səviyyəsinə malik ölkələrin təsərrüfatlarında əhalinin məşğulluq strukturu da çox müxtəlifdir. Maddi istehsal ilə qeyri-istehsal, sənaye ilə kənd təsərrüfatı arasında məşğulluq fərqi xüsusilə əhəmiyyətlidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əmək bazarı bazar mexanizminin ən mühüm şərtlərindən biridir. O, ölkənin əmək potensialından səmərəli istifadə etməyə imkan verir, iş yeri üçün rəqa-

bət mübarizəsi yaradır, kadrların ixtisasının artmasına və onun axınının aşağı düşməsinə kömək göstərir.

**Cədvəl 6.2**

**2000-ci ildə Azərbaycan əhalisinin əmək strukturu**

| | Sayı (min. nəfər) | Əmək ehtiyatlarında faizlə |
|---|---|---|
| Əmək ehtiyatları | 4265 | 100 |
| Əmək qabiliyyətli yaşlı əhali | 4115 | 99,4 |
| İqtisadi cəhətdən fəal əhali | 3764 | 88,1 |
| Xalq təsərrüfatında çalışanlar | 3702 | 87,1 |
| İşsizlərin sayı (iqtisadi cəhətdən fəal əhaliyə görə faizlə) | 42 | 1,0 |

Hazırda əmək bazarı artıq Şərqi Avropa ölkələrində, kənddə böyük miqdarda izafi işçi qüvvəsi olan Çində, keçmiş SSRİ ərazisində yaranmış dövlətlərdə də vardır. Planetin əmək qabiliyyətli əhalisinin ən çoxsaylı hissəsi kəndlilərdir. Bu, zəif inkişaf etmiş bir çox ölkələrin iqtisadiyyatının aqrar xarakteri ilə bağlıdır. İnkişaf etməkdə olan ölkələrdə xidmət sahəsi işçi qüvvəsinin məşğulluğunda ikinici yerdədir. Latın Amerikasında o, birinici yerə çıxmışdır. İnkişaf etməkdə olan ölkələrdə sənaye və tikinti işçi qüvvəsindəki payına görə ancaq üçüncü yerdədir.

İnkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti qeyri-istehsal sahəsində işləyir. Xidmət sahəsində çalışan əhalinin payı böyükdür. Böyük Britaniyada, AFR, Belçika, Fransa və İsveçdə iqtisadi cəhətdən fəal əhalinin 40%-ə yaxını, ABŞ-da isə 50 %-dən çoxu bu sahədə çalışır. Qərb ölkələrində fəhlə sinfinin tərkibində müxtəliflik getdikcə daha aydın şəkildə özünü göstərir. ABŞ-da "mavi yaxalıqlılar"ın – fəhlə və fermerlərin sayı cəmi 27% təşkil edir. Müəssisələrdə onların yerini, tədricən, daha savadlı zehni əmək adamları tuturlar. Zehni heyyətə avtomatlaşdırma və elektron-hesablama texnikasını yaradan, onlara xidmət göstərən yüksək ixtisaslı mütəxəssislər aid edilir.

Minilliklər ərzində orta ömür müddəti 30-35 il olmuşdur.

Hazırda Afrika və Asiyanın 40 ən yoxsul ölkəsində bu, 47 ildir. İnkişaf etmiş ölkələrdə orta ömür müddəti xeyli böyükdür. Bu göstərici Yaponiyada – 79 il (kişilərdə 76, qadınlarda 82 il), İsveçdə – 78 il (75 və 80), ABŞ-da – 75 (72 və 79). Rusiyada – 65 (58 və 72), İranda – 55 (56 və 55), Hindistanda – 59 (58 və 59), Çində – 68 (68 və 71), Azərbaycanda isə (66 və 71) il təşkil edir. Ölkəmizdə ən böyük problemlərdən biri uşaq ölümünün yüksək səviyyədə olmasıdır. Əgər bu göstərici hər min nəfər doğulana görə İsveçdə 3,8, Yaponiyada 4,5 ABŞ-da 9, Rusiyada 18,6-dırsa, Azərbaycanda –33,1 nəfərdir. Bu rəqəm Pakistanda –100, Əfqanıstanda-163, İranda 127-dir. İnsanların sosial-iqtisadi həyat şəraiti yaxşılaşdıqca uşaq ölümü azalır. XX əsrin əvvəllərində dünyada bu göstərici hər 1000 nəfər əhaliyə təqribən 250, 1950-55-ci illərdə-155, 1990-1997-ci illərdə isə, BMT-nin hesablamasına görə, 63 nəfər olmuşdur. Ürəyin işemiyası, qaraciyərin serrozu və bir çox xəstəliklər, habelə bədbəxt hadisələrdən ölüm təhlükəsini kəskin surətdə artıran alkoqolizm insanların xeyli hissəsinin sağlamlığına böyük ziyan vurur. İçki düşkünlərinin orta ömür müddəti ümumi orta səviyyədən 10-15 il azdır. Fransa, İtaliya və Macarıstan əhalisi alkoqola aludə olan ölkələrə aid edilir (adambaşına 11 litrdən çox). Narkotiklərdən istifadə bir çox ölkələr üçün ən ciddi problemə çevrilmişdir. "Ağ ölüm" hər il minlərlə adamın həyatına son qoyur, öz qurbanlarını cismani və mənəvi şikəst edir. Ölümdən bəhs edərkən *əhalinin əmək qabiliyyətli yaşda həyatdan getməsindən* danışmaq lazımdır. Azərbaycanda ölümün səbəbləri arasında birinci yerdə qan dövranı sistemi (ürək-damar sistemi) xəstəlikləri, ikinci yerdə bədbəxt hadisələr, zəhərlənmələr, travmalar; üçüncü yerdə isə bədxassəli xəstəliklər durur.

## 6.4. Sosial struktur və sosial stratifikasiya

*Sosial struktur*-cəmiyyətin həyatı ilə bağlı hansısa vahid əlamətlərlə səciyyələnən qarşılıqlı surətdə əlaqəli sosial birliklərin toplusudur. Sinfi (siniflər, sosial təbəqələr və qruplar), demoqrafik (gənclər, qadınlar, ahıllar), etnik (qəbilələr, etnoslar, millətlər) və s. iri sabit sosial birliklərdir. Tətbiq olunan diferensasiya meyarlarından asılı olaraq, siniflər (meyar kimi mülkiyyətə münasibət götürülür); peşə qrupları (ümumi əmək bölgüsü sistemində mövqe); ərazi ümumiliyi (fərdlərin yaşayış yeri) və s. kimi sosial birliklər fərqləndirilir.

İnformasiyanın təşəkkülü şəraitində bu sosial qurumların kəmiyyət və keyfiyyət tərkibi əhəmiyyətli dərəcədə dəyişir, yeni birliklərin yaranması baş verir, sosial fəallıq artır. Belə ki, mülkiyyət, gəlirlər, hakimiyyət, fərdlərin əmək bazarında mövqeyi, təhsil səviyyəsi və istehlak xüsusiyyətləri kimi amillərin məzmunundakı dəyişikliklər nəticəsində siniflər yeni səciyyə kəsb edirlər. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əsas sinfi qurumları aşağıdakılardır:

***İstehsalçı və qeyri-istehsalçı işçilər sinfi*** istehsal vasitələrinə sahib olmayan, yaxud onlara müxtəlif maddi və ya qeyrimaddi istehsal sahələrində məhdud həcmdə malik olan muzdlu əməkçiləri (əvvələr bu birlik fəhlə sinfi adlanırdı) birləşdirir. Hazırda bu sinfin 75 %-ə qədərini əmək fəaliyyəti iqtisadiyyatın istehsal sahəsi ilə bağlı olan fəhlə və qulluqçular təşkil edir. Bu sinfə məxsus əsas meyllər: sayının daim artması, qeyrifiziki, zehni əmək funksiyalarının xüsusi çəkisinin çoxalması, xeyli işçi təbəqəsinin – səhmdarların meydana gəlməsi, ümumtəhsil və ixtisas səviyyələrinin ümumi yüksəlişi, həyat standartlarının və istehlak səviyyəsinin artmasıdır. Bu sinfin sayı milli işçi qüvvəsinin 60-65 %-i təşkil edir.

***Hakim sinif*** – əsas istehsal və dövriyyə vasitələrinə sahib olan, ali nəzarət – idarəetmə funksiyalarını yerinə yetirən şəxsləri (bu qrup əvvəllər burjuaziya adlandırılırdı) birləşdirir. Yüksək mənsəbli menecerlərin onun tərkibinə daxil edilməsi həm iri sahibkarları, həm də postindustrial ölkələrin iqtisa-

diyyatında aparıcı mövqelər tutan muzdlu əmək nümayəndələrini birləşdirən hakim sinif anlayışını şərtləndirdi. Bu, sosial statusu idarəetmə sahəsindəki mövqeyi və intensiv surətdə artan müvafiq gəlir səviyyələri ilə müəyyən edilən yüksək rütbəli qulluqçuların və menecerlərin rolunun artması ilə bağlıdır. İqtisadi cəhətdən fəal əhalinin 3-4 faizini təşkil edən hakim sinif müasir millətlərin iqtisadi və siyasi elitasını təşkil edir.

***Orta təbəqələr,*** yaxud orta sinif göstərilən iki sinif arasında orta mövqe tutur. "Orta sinif" anlayışında birləşən aralıq qrupları müstəqil işçiləri, kiçik və orta biznes nümayəndəlrini (kiçik sahibkarlar, fermerlər, sənətkarlar) əhatə edən ənənəvi, yaxud köhnə və ziyalıların, menecerlərin, aparıcı istehsal sahələri mütəxəssislərinin böyük əksəriyyətini, orta qulluqçular qrupunu birləşdirən yeni orta təbəqələrə, yaxud yeni orta sinifə bölünür. Gəlirlərinin səviyyəsinə görə sosial qrupların qalan hissəsindən xeyli fərqlənən bu sinif inkişaf etmiş ölkələrin işçi qüvvəsinin təqribən 30-40%-ni təşkil edir. Orta təbəqələrin inkişafında aparıcı meyllər istehsal sahələrinə xidmət göstərən kiçik sahibkarların sayının artması, ziyalıların sayca xeyli çoxalması, birliyin sosial tərkibinin mürəkkəbləşməsi, fəallığının, çevikliyinin artmasıdır. Kiçik biznes formalarının və ictimai həyatın bütün sahələrinin intellektuallaşdırılmasının geniş yayılması müasir millətlərin sosial strukturunda onların əhəmiyyətinin artmasına səbəb olur. Bütün həyat fəaliyyəti sisteminin təkrar istehsalın informasiya texnologiyasına keçməsi ilə bağlı millətlərin sosial strukturunda baş verən əsaslı dəyişikliklər milli birliklər çərçivəsində prinsipial surətdə yeni sosial şərait yaradır, xalqların daxili və millətlərarası ünsiyyətinin genişlənməsinə, milli birləşmələrin formalaşmasına gətirib çıxarır. Göstərilən proseslər özünü vahid ümumbəşəri sosial ədalət cəmiyyəti idealında və onun gerçəkləşdirilməsi üçün, milli formalar daxil olmaqla, artmaqda olan forma müxtəlifliyində təsdiq edən informasiya sivilizasiyası inkişafının məğzidir. Azərbaycan millətinin də aid edildiyi keçid tipli iqtisadiyyatlı millətlərə gəldikdə isə, burada hazırda köhnə sosial

birliklərin transformasiyası və yenilərinin yaranması baş verir. Bunun nəticəsində sosial sərhədlər xeyli pozulmuşdur. Bununla belə, sosial diferensiasiya təkamülünün ümumi yönümü bir çox hallarda ümumdünya meyllərinə uyğun gedir. Belə ki, Azərbaycanda hakim sinif (yüksək dövlət qulluqçuları, iri sahibkarlar) formalaşır, istehsal və qeyri-istehsal sahələri işçiləri (fəhlələr, aşağı səviyyəli qulluqçular) sinfinin əlamətləri görünür, kiçik biznes nümayəndələrini, ziyalıları və orta səviyyəli qulluqçuları birləşdirən orta sinfin sayı artır. Lakin bu proseslər, etnomilli münasibətlər sahəsi də daxil olmaqla, məlum sosial gərginliklə müşayiət olunur. Müasir alimlərin fikrincə, insanların sinfi mənsubiyyətini gəlirlərinin səviyyəsinə əsasən və onların istehsal vasitələrinə sahibliyə münasibətinə görə müəyyənləşdirilməsi hazırki cəmiyyətin strukturunda sosial qüvvələrin mövqeyini kifayət qədər dəqiq əks etdirmir. Cəmiyyətdəki dəyişiklikləri nəzərə almaq üçün daha çevik və daha dəqiq sistemdən istifadə etmək zərurəti meydana çıxır. Bu, sosial zümrələrin müəyyənləşdirilməsinin əsasında var-dövlət, nüfuz və hakimiyyətin (peşə, gəlir, təhsil və s.) birləşməsinə əsaslanan çoxsaylı meyarlar duran sosial stratifikasiya sistemidir. Stratifikasiya nəzəriyyəsinin tərəfdarları sosial dəyişikliklərin dinamikasını öyrənərkən çox vaxt şaquli və üfüqi stratifikasiya düsturlarından istifadə edirlər. Çünki onların fikrincə, insan öz həyatında bir sosial səviyyədən digər sosial səviyyəyə yüksələ və ya düşə, yaxud, təqribən, eyni səviyyədə qalaraq, bir sosial qrupdan digərinə keçə bilər. İnsanın 6 səviyyədən ibarət şaquli stratifikasiya üzrə irəliləmə imkanlarını nəzərdən keçirək: 1. Yüksək təbəqəyə mənsub peşəkarlar və inzibatçılar; 2. Daha aşağı səviyyəli başçılar, kommersiya sinfi; 3. Xırda burjuaziya; 4. Rəhbərlik funksiyalarını həyata keçirən texnik, fəhlə və qulluqçular; 5. İxtisaslı işçilər; 6. İxtisassız işçilər, fəhlələr, kəndlilər, qulluqçular. İndi, cəmiyyətimiz bazar iqtisadiyyatına keçəndən sonra belə, sosioloq və iqtisadçılar cəmiyyətin sosial tərkibinin elmi cəhətdən əsaslandırılmış vahid sxemini işləyib hazırlamamışlar. Əgər əvvəllər başlıca ziddiyyət əməkçilərlə hakimiyyətə və mülkiyyətə şəriksiz sahib

olan nomenklatura arasında idisə, hazırda 5 iri sosial qrupu müəyyən etmək mümkündür: a) Yeni siyasi elita ilə qaynayıb qarışmış keçmiş partiya – təsərrüfat elitasından ibarət inzibati elita; b) Sahələrə, ixtisaslara və digər əlamətlərə görə sosial qruplara bölünən fəhlə sinfi; c) Tərkibində, yenə də, bir sıra sosial qrupların – həkim, müəllim, ədəbiyyatçılar, peşəkar hərbçilər və s. ayırd edildiyi ziyalılar; ç) "Yeni burjuaziya", (bütün növlərdən olan sahibkarlar, bankirlər və s.); d) Kəndlilər.

Bu, artıq sosial stratifikasiyadır, lakin o siniflər haqqında əvvəlki təsəvvürlərə istinad edərək, onların daxilindəki konkret sosial qrupları aşkara çıxarmır. Məsələn, kəndlilər arasında iki sosial qrup dəqiq şəkildə seçilir: ictimailəşdirilmiş (kooperativləşdirilmiş) və özəl sahibkarlıq (fermer) kəndliləri, sosial cəhətdən dövlət müəssisələri və özəl firma işçilərinə bölünən (hər ikisinin öz sosial mənafeləri vardır) fəhlələr. "Yeni burjuaziya" arasında küçə alverçiləri, firma və bank sahibləri, maliyyə fırıldaqçıları da vardır. "Sinfi simasını itirmiş ünsürlər" – daimi yaşayış yeri olmayanlar, peşəkar canilər tam istisnadır. Dünya birliyinə sosial sitrukturun 3 tipi məlumdur:

***A) Demokratik bazar cəmiyyəti modeli.*** Bu model güclü orta sinif tərəfindən dəstəklənir. Burada sosial təbəqələrin bölgüsü sxemi formaca inkişaf etmiş mərkəzi hissəli (orta təbəqələr), nisbətən yüksək olmayan yuxarı sinif (mülkiyyətci, idarəedici elita) qütbləri və ən yoxsul təbəqə qrupları olan ovalı xatırladır. Orta sinif ABŞ əhalisinin 65 %-ni, Fransa əhalisinin 60%-ni, Yaponiya əhalisinin təqribən 70%-ni təşkil edir.

İnkişaf etmiş Qərb ölkələrində muzdlu və fərdi əmək fəaliyyəti bütün əhalinin 80%-dən çoxunun dolanmaq mənbəyidir. Muzdlu əməkçilərin sayı artdıqca, sənaye fəhlə sinfinin sayı azalır. Əslində, əvvəlki şəkildə proletariat yoxdur.

Yüksək ixtisaslı zehni əməklə məşğul olan peşəkar ziyalıların əhəmiyyəti artır. Onlar muzdlu işçilərə aid olub, orta təbəqəyə daxildirlər. Lakin onlar sosial strukturda xüsusi yer tutaraq, cəmiyyətin intellektual elitasını formalaşdırırlar. Elita anlayışı ən varlı adamlara aid edilsə də, bu məfhum bütün cə-

miyyət üçün xüsusi dəyərə malik insanlara da şamil oluna bilər.

***B) Zəif inkişaf etmiş, lakin bazar iqtisadiyyatına əsaslanan cəmiyyətə söykənən sosial struktur modeli*** ən yoxsul təbəqələri nəzərdə tutan yuxarıya yönəlmiş, geniş oturacaqlı üçbucaq şəklindədəir.

***C) Keçmiş sosialist cəmiyyətlərinin təbəqələşməsi modeli*** böyük hissəsini "əməkçilər" təbəqəsi, zirvəsini isə "iqtidar nümayəndələri" tutan xeyli yastılaşdırılmış üçbucaqlı "qatışıq piramida"nı xatırladır.

Ölkəmizdəki dəyişikliklər, iqtisadi islahat, mülkiyyət formalarının plürallaşdırılması onun sosial strukturunda zəruri dəyişikliyə – bəzi sosial təbəqələrin və zümrələrin aradan çıxmasına və başqalarının meydana gəlməsinə, hüquqi dövlət kimi başa düşülən vətəndaş cəmiyyətinin təşəkkülünə gətirib çıxarmalıdır.

Azərbaycanda orta sinif dağılmış sosializm cəmiyyəti strukturunun aşağıdakı müxtəlif ünsürlərindən formalaşır:

1. Sahibkarlar, menecerlər;
2. Yüksək ixtisaslı fəhlələr;
3. Yüksək ixtisaslı mütəxəssislər;
4. İstehsalçı kəndlilər, fermerlər

İnkişaf prosesi xeyli dərəcədə Qərb cəmiyyətinə oxşar – əlbəttə, öz spesifikası ilə, - gedərsə, iqtisadi strukturda baş verən dəyişikliklər nəticəsində orta sinif keçmiş sosial təbəqə və sinifləri getdikcə daha çox "udaraq", həlledici ictimai qüvvəyə, vətəndaş cəmiyyətinin demokratik inkişafının özünəməxsus təminatçısına çevriləcəkdir. Hazırda bu meyllərdən artıq danışmaq mümkündür. "Orta sinfin" dövlətin dayağına çevrilməsinə isə xeyli vaxt lazımdır.

# VII FƏSİL

# ƏHALİ MİQRASİYASI

## 7.1. Miqrasiyanın növləri və səbəbləri, əhalinin ərazi mütəhərrikliyinin göstəriciləri

*Əhali miqrasiyası (lat.miqratio- köçmə) insanların daimi və ya müvəqqəti yaşayış yerlərini dəyişməsi ilə bağlı Yer kürəsinin bir məntəqəsindən digərinə getməsidir.*

Ümumən, *əhali miqrasiyası dedikdə, insanların (miqrantların) bu və ya digər ərazi hüdudlarından keçməklə, yaşayış yerlərini birdəfəlik, yaxud müəyyən müddətə dəyişməsi başa düşülür.* Miqrasiya proseslərinin intensivliyi daha çox iki amildən – insanların həyat şəraitindəki fərqlərlə bağlı iqtisadi və yeni dövlətlərin yaranması, sərhədlərin dəyişməsi, digər ölkələrdə siyasi-iqtisadi dəyişikliklərlə əlaqdər siyasi amillərdən asılıdır.

«Əhali miqrasiyası» termini ilə yanaşı, *əhalinin miqrasiya hərəkəti, əhalinin yerdəyişməsi, əhalinin mexaniki hərəkəti* anlayışları da yayılmışdır. Xarici miqrasiya dövlət sərhədinin keçilməsi ilə bağlıdır. O, həm də əhalinin beynəlxalq miqrasiyası adlandırılaraq, qitələrarası və qitədaxili miqrasiyaya bölünür. Əhalinin iri ərazi vahidləri (regionları) hüdudlarında və onlar arasında (regional və regionlararası) miqrasiyası da fərqləndirilir. Əhalinin işləmək və ya təhsil almaq üçün bir yaşayış məntəqəsindən digərinə müntəzəm gediş-gəlişi *kəfgirsayağı* miqrasiya adlanır. Kəfkirsayağı miqrasiyanın əsas istiqamətləri kənddən şəhərə, kiçik şəhərdən böyük şəhərədir. Aydındır ki, miqrasiyanın bu növü böyük şəhərlərin və aqlomerasiyaların şəhərətrafı zonaları üçün səciyyəvidir.

Qlobal miqyasda məskunlaşmanın dinamikasına ən çox qitələrarası və qitədaxili, dövlətlərarası miqrasiya təsir göstərir. Ənənəvi olaraq, qitələrarası miqrasiya axını Avropa ölkələrindən ABŞ, Kanada, Avstraliya, Argentina, və Braziliyayadır. Latın Amerikasından, Cənub-Şərqi və Şərqi Asiyadan ABŞ-a,

Şimali Afrika ölkələrindən Fransaya, Qərbi Afrikadan və Hindistandan Böyük Britaniyaya miqrasiya xeyli genişlənmişdir. 1970-ci illərdən başlayaraq, Avropada, Asiyada, Amerikada qitədaxili miqrasiyanın miqyası kəskin surətdə artmışdır.

Regional və regionlararası miqrasiya dünyanın bütün regionlarına xasdır. Bu, əməyin xarakterindəki, səviyyəsindəki və həyat tərzindəki fərqlərlə bağlıdır. Həmin fərqlər şəhər və kəndin müqayisəsində daha qabarıq təzahür etdiyindən əhalinin kənd yerlərindən şəhərlərə axını dünya ölkələrinin əksər hissələri, xüsusilə sənaye təsərrüfatı yoluna təzəcə qədəm qoymuş, habelə torpağa daha güclü antropogen «təzyiq» göstərildiyi ölkələr üçün səciyyəvidir (cədvəl 7.1).

**Cədvəl 7.1**

**Əhalinin torpağa təzyiq göstəriciləri (2000-ci il)**

| Regionlar | Əə |
|---|---|
| Bütün dünya | 1,0 |
| Şərqi Avropa və Şimali Asiya | 0,4 |
| Qalan Avropa | 3,5 |
| Qalan Asiya | 28,0 |
| Afrika | 0,4 |
| Amerika | 0,4 |
| Avstraliya və Okeaniya | 0,1 |

***Qeyd**: Əə (əhali əmsalı) regionda orta əhali sıxlığının dünyada orta əhali sıxlığına nisbəti kimi müəyyən edilir.*

Son – XX əsrdə əhalinin miqrasiyası nəticəsində Şimali, Mərkəzi və Cənubi Amerikada, Şimali Asiyada, Şimal-Şərqi Avropada, Avstraliyada böyük ərazilər məskulaşmış və mənimsənilmişdir. Onlar, əsasən, yeni torpaqlara könüllü surətdə köçmüş Avropa mənşəli şəxslər tərəfindən məskunlaşdırılmışdır. Yeni ərazilərə zorla köçürülmüş qara dərililər yerli əhali ilə qaynayıb-qarışmış və bu, etnik proseslərin inkişafına yeni təkan verilmişdir. Bu proses Latın Amerikası üçün daha səciyyəvidir.

Miqrasiya yerdəyişmələri qədim zamanlardan müşahidə olunur. Onların formaları, miqyasları və intensivliyi zaman etibarı ilə fərqlənir: hər gün yüz milyonlarla insan həm əmək fəaliyyəti (məsələn, məhsul yığımı və ya meşə tədarükü, balıq ovu), həm də istirahət və müalicə məqsədilə (məsələn, hər il Türkiyədə 2-3 milyon adam istirahət edir) «kəfkirsayağı» deyilən səfərlərdə, yaxud beynəlxalq turnirlərdə (dünyada hər il 450 milyondan çox adam) iştirak edir.

Dünyanın bir çox dövlətlərindən İslamın müqəddəs yerləri Məkkə və Mədinəyə hər il 4 milyona yaxın müsəlman zəvvar ziyarətə gedir. Mütəxəssislər miqrasiyaya müxtəlif təriflər verirlər və bir qayda olaraq, hesab edirlər ki, yalnız əhalinin yaşayış yerinin dəyişdirilməsi ilə bağlı yerdəyişmələrini miqrasiyaya aid etmək olar. Ona görə də şəhərətrafı əhalinin hər gün yaxınlıqdakı şəhərə gedib-gəlmələri (kəfkirsayağı miqrasiya), yaşayış məntəqəsindən qısa müddətli səfərləri miqrasiya sayıla bilməz.

Mütəxəssislər keçmişdə olmuş və zəmanəmizdə müşahidə edilən miqrasiyaları bir neçə növə ayırırlar. Tərifdən göründüyü kimi, miqrasiya müddətinə görə, getmiş şəxsin əvvəlki yaşayış yerinə qayıtmadığı daimi (dönməz) və əhalinin, nəticə etibarilə, gəldiyi yerdə möhkəmlənməsinə səbəb olmayan müvəqqəti (təhsil, orduda xidmət, uzunmüddətli müqavilə üzrə iş) miqrasiyalara bölünür. Miqrasya axınlarını istiqamətinə görə, xarici (qitələrarası və dövlətlərarası) və daxili (bölgələrarası, bölgədaxili) miqrasiyalara ayrılır.

*Daxili miqrasiyalara* aşağıdakılar aiddir:

A) *Mövsümi miqrasiyalar.* Bu, mövsümi işlər üçün əlavə işçi qüvvəsi cəlb etmək zərurəti ilə bağlı əhalinin müvəqqəti yerdəyişməsi kimi başa düşülür. Ticarət səfərləri də mövsümi miqrasiya sayıla bilər. İnqilabdan əvvəlki Rusiyada – kəndlilər qazanc dalınca, müvəqqəti olaraq, mövsümi işlərə gedirdilər (otxodniçestvo).

B) *Məcburi köçürülmələr.* Bu, daxili miqrasiya növüdür. 1917-ci ilə qədər də Rusiyda məcburi köçürmələr olmuşdur. Lakin bu, sovet dövründə daha bariz şəkildə təzahür etmişdir.

«Qolçomaq» kəndlilərin (1930-1932-ci illər), «keçmiş istismarçı siniflər»in, Volqaboyu almanların (1941) və Krım tatarlarının sürgün olunması məcburi miqrasiyaya aiddir. 1944-cü ildə Türkiyə ilə müharibə olacağı təqdirdə sərhədyanı müsəlman əhalisinin Türkiyənin tərəfinə keçə biləcəyindən ehtiyat edilərək, həmşinlər, lazlar, kürdlər, məhsəti türkləri Gürcüstandan Orta Asiyaya sürgün olundular.

C) *Yeni torpaqların mənimsənilməsi və boş yerlərin məskunlaşdırılması da miqrasiya* prosesləri ilə bağlıdır. Miqrasiya növü kimi, yeni torpaqların mənimsənilməsi böyük ərazilərə malik, əhali sıxlığında kəskin təzadlar olan ölkələr - Kanada, Rusiya, Qazaxıstan, Avstraliya, Braziliya, Çin üçün səciyyəvidir.

Ç) *Əhalinin kənd yerlərindən şəhərlərə yerdəyişməsi.* Bu daxili miqrasiya növü zəmanəmizdə elə geniş miqyas almışdır ki, onu «xalqların XX əsrdə böyük köçü» adlandırmağa başlamışlar. Bu miqrasiya növü bir çox ölkələrdə şəhərlərin əsas böyümə mənbəyinə çevrilir. Bu, iri şəhərlərin böyüməsini «partlayış» həddinə gətirib çıxarır.

Ən inkişaf etmiş Qərb ölkələrində və Yaponiyada bu proses çoxdan başa çatmışdır. Ötən əsrin 60-80-ci illərində ABŞ-da və Qərbi Avropada əhalinin «əks» miqrasiyası, qələbəlik tüstülü-hisli şəhərlərdən şəhər ətrafına, hətta qismən kənd yerlərinə qayıdışı üstünlük təşkil edirdi. «Kənd-şəhər» miqrasiyası Azərbaycan şəhərlərinin böyümə mənbəyidir.

İstiqamətinə görə, xarici və daxili miqrasiya fərqləndirilir. Xarici miqrasiya dedikdə, insanların bir ölkədən digərinə yerdəyişməsi nəzərdə tutulur. Bu növ miqrasiya kapitalizm dövründə xüsusilə inkişaf etmişdir. Xarici miqrasiyada iki cəhət-emiqrasiya və immiqrasiya fərqləndirilir.

*Emiqrasiya* (lat. *emiqrame* - məskunlaşma) dedikdə, insanın uzun müddət, yaxud daimi yaşamaq üçün bir ölkədən çıxıb, başqa ölkəyə getməsi, *immiqrasiya* (lat. *immiqrars* – məskunlaşma) dedikdə isə, uzun müddət, yaxud daimi yaşamaq üçün başqa bir ölkədən gəlməsi başa düşülür. Kütləvi emiqrasiya xırda istehsalçı kəndli və sənətkarların müflisləşdiyi, işsizliyin

artdığı Qərbi Avropada başlanmışdır. 1815-1919-cu illərdə Avropadan dünyanın müxtəlif yerlərinə 35-40 milyon adam mühacirət etmişdir. Mühacirlərin əsas hissəsi böyük ərazilərin mənimsənildiyi və məskunlaşdırıldığı Şimali Amerikada (ABŞ və Kanada) kök salmışdır.

Köçənlərin qalan hissəsi Cənubi Amerikaya, Astraliyaya, Yeni Zelandiyaya, ayrı-ayrı Afrika ölkələrinə gedirdilər. İkinci Dünya müharibəsindən və müstəmləkə sisteminin dağılmasından sonra avropalıların keçmiş müstəmləkələrdən vətənə qayıtması baş vermişdir. ABŞ-a miqrasiya xeyli azalmışdır. Qərbi Avropa yeni miqrasiya meydanına çevrilmişdir. Burada Cənubi Avropa, Şimali Afrika və Türkiyədən 13-14 milyon xarici fəhlə yaşayır.

Çox sərt immiqrasiya məhdudiyyətlərinə baxmayaraq, ABŞ-a xarici immiqrasiya üçün əcnəbi mütəxəssislərin – xüsusilə inkişaf etməkdə olan ölkələrdən, - cəlb edilməsi xarakterikdir. Bu proses (onu «beyin axını», yaxud «zəkaların oğurlanması» adlandırırlar) mütəxəssis qıtlığının artdığı inkişaf etməkdə olan ölkələrə böyük ziyan vurur. Məsələn, Latın Amerikası emiqrasiya nəticəsində hər il ali məktəb məzunlarının 10%-dən çoxunu itirir, ABŞ isə öz potensialını artırır, məsələn, ölkədə hər üç həkimdən biri immiqrantdır.

Əsirlikdən qayıdanlar **repatriant** (lat. patria - vətən, re- geri sözlərindən) adlanırlar.

*Səbəblərə və hərəkətverici mötivlərə* görə, hər şeydən öncə, iş axtarmaqla, təhsil almaqla, ərə getmək, yaxud evlənməklə bağlı sosial-iqtisadi miqrasiyalar ayırd edilir. Siyasi, milli, dini, hərbi, ekoloji səbəblərlə bağlı miqrasiyaların rolu artır ki, bu da qaçqın və məcburi köçkünlərin sayının artmasında təzahür edir. 90-cı illərdə xüsusilə, keçmiş SSRİ məkanı dəqiq təsnif edilməyən miqrasiya axınları ilə əlamətdar olmuşdur. Onlara məcburi, yaxud yarımməcburi miqrantlar, repatriantlar, o cümlədən keçmişdə zorla deportasiya olunmuş xalqların nümayəndələri, habelə lazımi qaydada tərtib edilmiş sənədləri və icazələri olmayan qanunsuz miqrantlar aiddir. Cədvəldə bu kateqoriyalar sadalanır, habelə onların 2001-ci il üçün sayının təqribi

qiymətləndirilməsi verilir (cədvəl 7.2).

*Formasına* və *reallaşdırılma üsuluna görə* miqrasiya könüllü və icbari miqrasiyalara bölünür. Bəşəriyyət tarixində məcburi miqrasiyalar (məsələn, zəncilərin qul kimi alveri) yaxşı məlumdur.

XVI-XVIII əsrlərdə qul alveri dünya məcburi miqrasiyası tarixinin mühüm halqasıdır. Bunun nəticəsində Amerikaya milyonlarla afrikalı və Çindən, Hindistandan Cənub-Şərqi Asiya ölkələrinə və dünyanin bəzi digər ərazilərinə mütəşəkkil şəraitdə ixtisassız fəhlələr aparılmışdı. Müstəmləkəçilərin işğal etdikləri ölkələrdə yerli əhali geniş şəkildə zorla yaxşı torpaqlardan məskunlaşmamış bölgələrə köçürülürdü ki, bu da çoxlu insan tələfatına səbəb olurdu. Könüllü miqrasiyanın təşkilində əhəmiyyətli beynəlxalq təcrübə qazanılmışdır. Fəhlə qüvvəsinin immiqrasiyası və emiqrasiyası üzrə müxtəlif mühacirət agentlikləri və büroları və s. əhəmiyytli rol oynayır. Mütəxəssis demoqraflar miqrasiya proseslərinin mütləq və nisbi məlumatlardan ibarət göstəricilərinin bütün tərkib hissələrini – potensial miqrasiya, faktik miqrasiya, miqrasiya əlaqələrinin intensivliyi və nəticələri, miqrantların uyğunlaşması və s. – çox ətraflı təhlil edirlər.

**Cədvəl 7.2**

**Postsovet məkanında miqrantların bəzi xüsusi kateqoriyaları**
***(2001-ci il, min nəfərlə)***

| **Miqrantların kateqoriyası** | |
|---|---|
| Keçmiş SSRİ müttəfiq respublikaları qaçqınlarının şəraitinə oxşar şəraitdə olan qaçqınlar və şəxslər | 1556 |
| Keçmiş SSRİ hüdudlarından kənarda sığınacaq axtaran qaçqınlar və şəxslər | 109,4 |
| Ölkə daxilində yer dəyişmiş şəxslər | 1790 |
| Repatriantlar | 480 |
| Könülsüz köçən şəxslər | 100 |
| Əvvəllər deportasiya olunmuş xalqların nümayəndələri | 150 |
| Ekoloji miqrantlar | 63-49 |
| Qanunsuz miqrantlar | 1000-2000 |

Miqrasiyaların başlıca yekunları – gələnlərlə gedənlərin sayı arasında fərq (saldo) haqqında, bir çox hallarda, həmçinin

ərazidə yaşayanların sayındakı faktik dəyişiklik və müəyyən müddətə əhalinin təbii hərəkəti arasındakı fərqin müəyyənləşdirilməsi əsasında fikir yürütmək lazım gəlir. Məsələn, siyahıyaalmalar arasındakı dövrdə şəhər əhalisinin sayı 150 min artmış, əhalinin təbii artımı isə 135 min nəfər olmuşdursa deməli, müsbət saldosu miqrasiyanın 15 min nəfər olmuşdur.

Miqrasiyaların səciyyələndirilməsində çoxlu say göstəricilərindən: *miqrasiya saldosundan-* müəyyən müddət ərzində gələn və gedənlər arasındakı fərqdən istifadə olunur.

**Miqrasiyaların intensivliyi** – miqrasiyaların həcminin sakinlərin sayına (1000, yaxud 10000 nəfərə) nisbəti, **miqrasiyanın səmərəliliyi** – miqrasiya saldosunun miqrantların cəminə nisbəti və ya gələnlərin və gedənlərin nisbəti, yaxud gələnlərin sayının 100 nəfər gedənə və s. nisbətidir. Əhali miqrasiyası, insanların dəyişən həyat şəraitinə uyğunlaşma formalarından biri olaraq, bəşəriyyətin inkişafında çox böyük rol oynamışdır. Miqrasiyalar ayrı-ayrı yaşayış məntəqələrindən, bölgələrdən tutmuş, bütöv ölkələrə qədər dünya əhalisinin coğrafiyasına, strukturuna və dinamikasına əhəmiyyətli təsir göstərir. Keçmişdə insan kütlələrinin ən müxtəlif – həm təbii, həm də sosial-iqtisadi səbəblərdən kütləvi surətdə yerdəyişməsi məlumdur. Məsələn, məlumdur ki, Amerika və Avstraliya əhalisinin əksər hissəsi miqrantların nəsilləridir.

Müasir miqrasiyalar mürəkkəb sosial proseslərdir. Onlar müxtəlif bölgələrdə məhsuldar qüvvələrin inkişaf səviyyəsi və yerləşdirilməsi ilə sıx bağlı olub, əhalinin yüksək mütəhərrikliyi işçi qüvvəsindən daha tam şəkildə istifadə olunmasını, onun sənaye mərkəzləri və mənimsənilən ərazilər arasında yenidən bölüşdürülməsini təmin edir, iqtisadi tərəqqiyə yardım göstərir.

Eyni zamanda, miqrasiyanın nəticələri ziddiyyətlidir, çünki miqrantların kütləvi axını işsizliyin artmasına səbəb ola bilər, sosial infrastruktura hədsiz təzyiq göstərər, yaxud kriminal ünsürlərin artmasına yardım edə bilər. İqtidarı və Bakı şəhərinin İcra Hakimiyyətini də, hər şeydən əvvəl, məhz bu məsələ narahat edir. Miqrasiya əhalinin kütləvi tərk etdiyi bölgələrin sakinlərinin xeyli azalmasına və iqtisadi tənəzzülünə də səbəb

ola bilər. Miqrantların çıxıb getdiyi və gəldiyi bölgələrdə miqrasiya əhalinin dinamikasının, cins və yaş strukturunun dəyişməsinə gətirib çıxarır. Tərk edilən yerlərdə əhali artımının sürəti təkcə sakinlərin çıxıb getməsinə görə deyil, həm də əhalinin təbii artımının ağaşı düşməsi - «qocalma» nəticəsində azalır. Miqrantaların xeyli cəmləndiyi bölgələrdə əhali daha yüksək sürətlə artır, əmək qabiliyyətli sakinlərin, xüsusilə gənclərin payının orta göstəricilərdən xeyli yüksək olduğu spesifik yaş strukturu formalaşır. Miqrasiyanın təsiri ilə əhalinin sosial strukturu, etnik tərkibi, yerləşdirilməsi və məskunlaşdırılma səviyyəsi dəyişir.

Ən dar mənada *miqrasiya* əhalinin yaşayış yerini dəyişməsi, köçü ilə bağlı geri dönməz məskənlərararsı hərəkətinin məcmusudur. Bu, ayrı-ayrı ölkələrdə, qitələrdə, bütün dünyada məskunlaşmanın «mənzərə»sini dəyişən prosesdir.

Əhali miqrasiyası həm tərk edilən, həm də gəlinən bölgələrdə demoqrafik vəziyyətə böyük təsir göstərir. O, əhalinin yaş strukturunda, doğum və ölümün səviyyəsində dəyişikliyə səbəb olur. Bundan əlavə, miqrasiyanın intensivliyinin artmasına doğumun azalması da təsir göstərə bilər. Bu proses ailə-nikah münasibətləri ilə sıx qarşılıqlı surətdə bağlıdır. Göstərmək vacibdir ki, miqrantlar, bir tərəfdən, gəldikləri yerlərə özlərinin demoqrafik düşüncə və davranışlarını gətirir, digər tərəfdən isə, həmin bölgələrin əhalisinin demoqrafik qaydalarını müəyyən dərəcədə qəbul edirlər. Bütövlükdə isə miqrasiya müxtəlif regionlarda oxşar demoqrafik şəraitin yaranmasına imkan verir.

Müharibə milyonlarla dinc əhalinin hərbi əməliyyat bölgələrindən axını, qayıdışı və s. ilə bağlı çox böyük yerdəyişməsinə gətirib çıxarır. Bu miqrasiyaların bir çoxu müvəqqəti olmuşdur. Milyonlarla insan yerini dəyişir, bəzi ölkələrin əhali strukturu əsaslı surətdə dəyişilir. Belə miqrasiya *iqtisadi səbəblərdən kənar miqrasiya* adlanır.

*İqtisadi miqrasiya* işçi qüvvəsinə tələbatdan asılıdır və müəyyən hüdudlarda daim baş verir. İqtisadi amillər bəzən siyasi səbəblərdən irəli gələn miqrasiyanı gücləndirir. Əlbəttə,

«iqtisadi miqrasiya» termini təkcə miqrasiya edən işçilərə deyil, onların ailə üzvlərinə də şamil edilməlidir.

Əgər XX əsrin 20-30-cu illərində beynəlxalq miqrasiyalar, əsasən, iqtisadi xarakter daşıyırdısa, 40-cı illərdə əhalinin kütləvi yerdəyişməsi hərbi əməliyyatlarla, dövlətlərin sərhədlərinin dəyişməsi və müxtəlif siyasi səbəblərlə bağlı idi. Bu tipli miqrasiyalar Mərkəzi Asiyada, Hindistan yarımadasında, Yaxın Şərqdə, Şərqi Asiyanın bəzi bölgələrində həyata keçirilmişdir. Bu köçürmələrin əsas hissəsi 1950-ci illədək, yaxud ondan sonra başa çatmışdır. Beləliklə, demək olar ki, 50-ci illərdən etibarən miqrasiyalarda yenə də iqtisadi xarakterli səbəblərin üstünlük təşkil etdiyi dövr (Asiya və Afrikadan başqa) başladı. Onu, şərti olaraq, əhalinin müasir miqrasiya dövrü adlandırmaq olar (şəkil 7.1).

Son illərdə BMT-nin beynəlxalq miqrasiya ilə məşğul olması onun öyrənilməsini asanlaşdırır. BMT Baş katibliyi 1974-cü ildə Buxarestdə keçirilən Dünya Əhali Konfransına «1950-1970-ci illərdə beynəlxalq miqrasiya meylləri» adlı xüsusi sənəd hazırlamışdı. İşçi qüvvəsinin beynəlxalq miqrasiyasına dair digər statistik və elmi ədəbiyyat qaynaqları da (xüsusilə Avropada) vardır.

*BMT-nin Statistika Bürosu beynəlxalq miqrasiyaya,* «mülki əhalinin yaşayış yerini dəyişməklə, bir ölkədən digərinə yerdəyişməsi (köçməsi)» kimi baxır. Buna görə də turistlər, səyahətçilər, sərhədi keçən avtomobilçilər və qısamüddətli işlərə gedən mövsümi işçilər kimi kateqoriyalardan olan şəxslər miqrasiyaya dair statistik məlumatlara daxil edilməməlidir.

Bütün ilkin demoqrafik statistika arasında məhz beynəlxalq statistika (həcmi, uyğunlaşma və müqayisə baxımından) daha az öyrənilmişdir. Burada informasiya daxili miqrasiyaya nisbətən həm az, həm də qeyri-dəqiqdir. Ölkələr üzrə məlumat toplanması metodları xeyli fərqlidir. Sərhəd nəzarəti zamanı əldə edilən məlumatlar ən çox tətbiq edilən informasiya alma vasitəsidir. Xüsusilə Avropada əhali qeydiyyatları və siyahıyaalmaları mühüm əhəmiyyətə malikdir. Məlumat toplama sistemi




**Şəkil . 7.1.** XX əsrin 90-cı illərində iri dünya miqrasiyaları.

məhz Avropada daha geniş işlənib hazırlanmışdır. Bununla belə, immiqrasiya haqqında informasiya kifayət deyil, emiqrasiya haqqında məlumat isə cüzidir. Sonuncu onunla bağlıdır ki, bəzi Qərb dövlətləri ölkədən gedənlərin qeydindən daha çox, gəlmələr və onların getmələrinə nəzarət haqqında məlumatlarla maraqlanırlar.

Burada çox şey müxtəlif dövlətlərdə emiqrasiya və immiqrasiya siyasətində hansı istiqamətin üstünlük təşkil etməsindən asılıdır. BMT Baş Katibliyinin apardığı çox şərti təsnifata görə, daimi emiqrasiyaya dair siyasət tədbirləri aşağıdakı şəkildə bölünür: dövlət ona «icazə verir», hətta «təbliğ edir», «mane olur».

Sosial sistemin tarazlı vəziyyətdə olmadığı və sistemin hər hansı elementində dəyişikliyin cəmiyyətin gələcək inkişafına əhəmiyyətli təsir göstərə biləcəyi şəraitdə sosial dinamika amillərinin proqnoz qiymətləndirilməsi öncəgörənlik çaları kəsb edir, ilk növbədə, tədqiqatçının intuisiyasına söykənir.

Bu mənada, *miqrasiya proqnozu* xüsusilə mürəkkəbdir. Biz burada bir sıra çətinliklərlə rastlaşırıq. Birinci çətinlik ənənəvi informasiya problemidir. Miqrasiyanın öyrənilməisndə, perspektiv qiymətləndirilməsində və müvafiq miqrasiya siyasətinin hazırlanmasında başlıca amil tam və dəqiq informasiya bazasının olmasıdır.

Miqrasiya hərəkatını səciyyələndirən statistik məlumatlar tam deyil, belə ki, onlarda söhbət daimi yaşayış yerinə qeydiyyata alınmış köçmədən gedir. Təsadüfü deyil ki, onlar başqa mənbələrdən alınmış hesablamalarla ziddiyyət təşkil edir. Məsələn, Bakı ŞDİİ-nin məlumatına görə, bir çox gəlmələr mənzil alaraq, yaxud kirayə edərək, uzun müddət paytaxtda qalır və nəticə etibarilə, əslində, Bakıdan, statistika orqanlarının xəbər verdiyi qədər də, çıxıb gedən olmamışdır. Üstəlik, son vaxtlar Bakıya xeyli miqrasiya axını müşahidə olunur. Kənd miqrasiyası məlumatları da natamam olduğu üçün şübhə doğurmur. Uzaq xaricə, MDB-yə miqrasiyanın səviyyəsinin qiymətləndirilməsinə dair ölkə və xarici mənbələrin məlumatları fərqlidir. Dünya Bankının və Birləşmiş Millətlər Təşkilatının

mütəxəssisləri Azərbaycana və digər keçmiş müttəfiq respublikalara dair məlumatları çox yarımçıq və ziddiyyətli hesab edirlər.

Bir çox regionlar gizli emiqrasiya problemi ilə üzləşirlər. Bu, xüsusilə Vyetnamdan, Çindən və inkişaf etməkdə olan digər ölkələrdən olan emiqrantlara aiddir. Bir çox sosial problemlər, o cümlədən kriminal şəraitin, etnik ziddiyyətlərin kəskinləşməsi və s. məhz gizli emiqrasiya ilə bağlıdır.

Miqrasiya sahəsində tədqiqatların vəziyyətində də çətinlik mövcuddur. Hazırda miqrasiya problemləri haqqında çox yazılır, lakin, onların keyfiyyəti, adətən, aşağı olur. «Niyə», «nəticəsi nədir» suallarına cavab axtarışının ümumi vəziyyəti acınacaqlıdır. Hazırda səylərin əsas hissəsi, əvvəlki kimi, problemlərin (bu, ilk növbədə, qaçqınlar, repatriasiya, beynəlxalq miqrasiya problemlərinə aiddir) öyrənilməsinin institusional və siyasi kontekstinin təmin olunmasına, onlar haqqında məlumat toplanmasına və təbliğinə yönəldilir. Miqrasiyanın amilləri və nəticələri nəzəriyyəsinə dair xüsusi ədəbiyyat olduqca azdır. Ona görə də nəinki müasir miqrasiya siyasətinin konseptual əsasları, heç bu siyasətin özü də yoxdur.

Miqrasiyanın proqnozlaşdırılması,- xüsusilə daim dəyişən sosial- iqtisadi şəraitdə,- son dərəcə çətin məsələdir. Miqrasiyanın birbaşa iqtisadi, siyasi, sosial amillərdən asılı olması göstərir ki, miqrasiya proqnozunun əsasında həmin amillərin mümkün inkişafı ssenarisi durmalıdır. Lakin hazırda bir çox ölkələrdə miqrasiyanın perspektivini işləyib hazırlamağa imkan verən müəyyən sosial- iqtisadi inkişaf ssenarisi mövcud deyil.

## 7.2. Dünya, MDB və Azərbaycan əhalisinin miqrasiyası

Əhali miqrasiyası ən qədim zamanlardan mövcuddur. Hələ bəşəriyyətin ilk çağlarında çox böyük sayda insanları əhatə edən bir neçə geniş miqrasiya dövrləri olmuşdur. Qəbilələr ta qədim zamanlardan yeni torpaqlar mənimsəmək ehtiyacı üzündən yerlərini dəyişmişlər. Qədim Yunanıstanda və Qədim Ro-

mada xalqların köçü tez-tez quldarlıq təsərrüfatı üçün yerli qulların tükənməsi ilə əlaqədar istilaçılıq yürüşləri formasında baş verirdi. Şimali Afrikada, Ərəbistanda, Mərkəzi Asiyada bu, ilk öncə, otlaqların tükənməsi nəticəsində köçəri maldar qəbilələrin çölləri məcburi tərk etməsi ilə bağlı idi.

IV-VII əsrlərdə xalqların böyük köçü –german, slavyan, hun, alan və digər qəbilələrin Roma imperiyası ərazilərinə axını nəticəsində baş vermişdir. Bu, hun qəbilələrinin Asiyadan hərəkəti ilə başlamışdır. Həmin proses Roma imperiyasının dağılmasına şərait yaratmış və Avropanın müasir etnik xəritəsinin formalaşmasına böyük təsir göstərmişdir.

Köçərilərin Asiyadan Avropaya soxulması XIII əsrin ortalarınadək davam etmişdir. Onlardan ən görkəmlisi Batı xanın başçılığı ilə monqol-tatar basqınları idi. Yaxın Şərqə Səlib yürüşləri (1096-1270-ci illər) də külli miqdarda insanları hərəkətə gətirmişdi. VII-X əsrlər ərəb yürüşləri Şimali Afrika, Pireney yarımadası, Yaxın və Orta Şərq, Hindistan yarımadası sakinlərini əsarət altına saldı, onların istila etdiyi bütün ərazilərdə islam dinini və ərəb əlifbasını yaydı. Bu, sadəcə olaraq, islamın və ərəb yazısının yayılması deyil, məhz köçürülmə idi.

Xilafətin yaranması bu böyük regionda yaşayan xalqların gələcək inkişafına, sayına, dilinə, mədəniyyətinə, təsərrüfatına güclü təsir göstərdi.

Böyük coğrafi kəşflər dövrü (XV əsrin ortaları-XVII əsr) xalqların kütləvi köçü ilə müşayiət olunurdu. Avropa və Amerika burada həlledici rola malik idi. Birinci (İspaniya və Portuqaliya, sonra isə İngiltərə, Fransa, Hollandiya) mühüm emiqrasiya mənbəyi, ikinci isə köçənlərin əksər hissəsini öz ağuşuna çəkən idi. Qərbi Avropadan geniş emiqrasiya burada kapitalizmin daha erkən inkişafından irəli gəlirdi. Bu isə okeanın o tayında səadət axtarmaq məcburiyyətində qalan külli miqdarda «izafi» əhali formalaşdırırdı.

Məskunlaşdırma gedişində yerli əhali qırılır, yaxud avropalıların özləri ilə gətirdikləri xəstəliklər nəticəsində tələf olurdu, ona görə də onların sayı çox deyildi. Avropa emiqrasiyası Birinci Dünya müharibəsi qabağı öz zirvəsinə çatdı. Onda Av-

ropanı hər il 1 milyon nəfərdən çox adam tərk edirdi. 90-cı illərə qədər ən çox inkişaf etmiş ölkələr Böyük Britaniya və Almaniyadan «köhnə» emiqrasiya hakim mövqe tuturdu. Sonralar isə İtaliyadan və Cənubi və Şərqi Avropanın iqtisadi cəhətdən geri qalmış ölkələrindən «yeni» emiqrasiya dalğası başladı. Ucuz işçi qüvvəsinə ehtiyac Afrika əhalisinin hələ XVI əsrin ortalarından – XX əsrin ortalarınadək davam edən zorakı immiqrasiyasına gətirib çıxardı. Belə hesab edilir ki, bu zaman Afrikada, bütövlükdə, 100 milyona yaxın zənci zərər çəkmiş, onların ancaq yarısı aparılmış, ikinci yarısı isə tutularkən və gəmilərə gətirilərkən həlak olmuşdur. 50 milyon nəfərdən Amerika plantasiyalarına təqribən 15 milyon qul gətirilmiş, qalanları isə okean vasitəsilə gətirilərkən yolda, başlıca olaraq, qeyri-insani rəftar nəticəsində tələf olmuşlar.

XIX-əsrdə - XX əsrin birinci yarısında qitələrarası miqrasiyalar nə əvəllər, nə də sonralar görünməmiş kütləvi xarakter almışdır. Okeanın o tayına Avropa emiqrasiyası Şimali Amerikanın və Okeaniyanın əhalisi seyrək olan bölgələrinin məskunlaşmasına və inkişafına gətirib çıxardı. Müəyyən edilmişdir ki, İkinci Dünya müharibəsinə qədər Avropadan okeanın o tayına 60 milyona yaxın adam getmişdir. Onların 60%-i klassik immiqrasiya ölkəsi olan ABŞ-a mühacirət etmişdir. İndi bu ölkə, demək olar ki, ancaq onların nəsilləri və emiqrantlar (əsasən, Avropa və Afrikadan) ilə məskunlaşmış, yerli hindu əhalisi isə amansızcasına məhv edilmiş, yaxud rezervasiyalara sıxışdırılmışdır. Eyni sözləri yerli əhalinin daha çox qaldığı Kanada, Avstraliya, Yeni Zelandiya və qismən Latın Amerikası ölkələri haqqında da demək olar.

ABŞ-a, Braziliyaya, Karib hövzəsi ölkələrinə Avropadan mühacirətlə yanaşı, yeni koloniyaları ucuz işçi qüvvəsi ilə təmin edən vəhşi qul alveri nəticəsində okeanın o tayına Afrikadan da böyük miqdarda köçürülənlər olmuşdur. Bu məcburi köçürmələr XVIII əsrdə, hətta XIX əsrin birinci yarısında da baş vermişdir. Əlbəttə, onlar statistik cəhətdən sənədləşdirilməmişdir və onların miqdarını müəyyənləşdirmək mümkün deyil. XX əsrin 60-cı illərində Amerikada, mulatlar nəzərə

alınmamaqla, 33 milyona yaxın Afrika mənşəli əhali var idi.

Avropadan emiqrasiya Birinci Dünya müharibəsi qabağı yüksək həddə çatmışdı. Təqribi hesablamalara görə, 1903-1913-cü illərdə okeanın o tayına hər il 1 milyondan artıq adam köçürdü. Birinci Dünya müharibəsi, dənizarxası ölkələrin qoyduğu immiqrasiya məhdudiyyətləri, 30-cu illərin iqtisadi böhranı, sonralar isə İkinci Dünya müharibəsi Avropadan mühacirətin azalmasına təsir göstərdi.

İknici Dünya müharibəsindən sonra okeanın o tayına mühacirət yenidən başlasa da, əvvəlki miqyasına çatmadı. Beynəlxalq Əmək Bürosunun məlumatına görə, 1946-cı ildən 1959-cu ilə qədər Avropadan təqribən 7,5 milyon adam (qaçqınlar və köçkünlər daxil olmaqla) mühacirət etmişdir. Avropadan okeanın o tayına mühacirəti, əsasən, kapitalist dövlətləri arasında işçi qüvvəsinin qitədaxili miqrasiyası, - Afrika və Asiya ölkələrindən Avropaya miqrasiya axını əlavə olmaqla, - əvəz etmişdir. Bu, ümumiyyətlə, beynəlxalq miqrasiyada ən iri və mühüm dəyişiklik demək idi.

XIX əsrin ikinci yarısından Latın Amerikasına, başlıca olaraq, Cənubi Avropadan çox güclü mühacirət müşahidə edilmişdir.

1940-ci ilədək Argentinaya təqribən 6,6 milyon, Brazilyaya 4,7 milyon adam mühacirət etmişdir. 1946-1960-cı illər arasında Avropadan Latın Amerikasına 2 milyon nəfər köçmüşdür. Lakin 50-ci illərin ortalarından etibarən köçənlərin sayı azalmağa başlamış, eyni zamanda, geriyə dönmə baş vermişdir. Eyni vaxtda Latın Amerikasından Şimali Amerikaya, başlıca olaraq ABŞ-a, miqrasiya artmışdır. Burada əvvəllər də qonşu Meksikadan yüz minlərlə mühacir mövsümi kənd təsərrüfatı işlərində çalışmışdır.

Ən əlamətdar olan qitələrarası miqrasiyaya dair icmala yekun vurarkən Afrika haqqında da danışmaq lazımdır. Buraya Avropadan əhəmiyyətli miqrasiya axını təqribən XIX əsrin ortalarından başlamış, lakin Amerikaya nisbətən geniş miqyas almamışdır. 1960-cı ildə Afrikada yerli əhali ilə, demək olar ki, qarışmamış (başlıca olaraq, irqi xurafat nəticəsində) Avropa

mənşəli əhalinin sayı 6 milyon nəfərə çatırdı. Avropalılar, əsasən, indiki CAR ərazisində cəmlənmişlər. Şərqi Afrikada, xüsusilə Zimbabvedə (Şimali Rodeziya) və Şimali Afrikada da avropalılar az deyil. Afrika ölkələri müstəqillik qazandıqdan sonra onların çoxu ya Avropaya qayıtmış, yaxud digər ölkələrə mühacirət etmişlər. Avropalıların ən böyük repatriasiyası (təqribən 900 min adam) 60-cı illərin əvvəlində Əlcəzairdən Fransaya olmuşdur: görünür, 1975-1976-cı illərdə Afrikadakı keçmiş Portuqaliya müstəmləkələrindən repatriasiya da, miqyasına görə, buna yaxındır.

XIX əsrdə- XX əsrin birinci yarısında Çindən və Hindistandan da xeyli əhali yerdəyişməsi baş vermişdir, lakin bu yaxşı sənədləşdirilməmişdir. Çinlilər Cənub-Şərqi Asiya ölkələrində, hindlilər isə daha çox Hind okeanına yaxın bölgələrdə məskunlaşırdılar. Hindli əhali Sakit okean (Fici) və Karib hövzəsi (Qayana, Trinidad və Tabaqo) ölkələrinə də gedib çıxmışdı. XX əsrin ikinci yarısında qitələrarası miqrasiyaların əksəriyyəti iqtisadi səbəblər üzündən baş vermişdir. ABŞ-a, Kanadaya və Avstraliyaya nəzərə çarpacaq immiqrasiya axını davam edir. Lakin Avropadan gələn mühacirlərin payı azalmış, eyni zamanda, Latın Amerikasından, Karib hövzəsi ölkələrindən immiqrasiya artmışdır. Asiyadan, xüsusəndə Filippindən çıxanların payı xeyli dərəcədə çoxalır. Yuxarıda sadalanan hallar, habelə avropalı miqrantların bir qisminin qayıtması sayəsində Latın Amerikası (Karib hövzəsi ölkələri daxil olmaqla) xalis immiqrasiya bölgəsindən əhəmiyyətli emiqrasiya bölgəsinə çevrilmişdir (XX əsrin 60-cı illəri ərzində oradan 2 milyona yaxın adam mühacirət etmişdir).

Əslində, artıq emiqrasiya regionu olmayan *Qərbi Avropada* daha böyük dəyişikliklər bar vermişdir. Əgər 1946-cı ildən 1957-ci ilədək Avropada mənfi miqrasiya balansı 5,5 milyon nəfər təşkil edirdisə, 60-cı illərdə bu göstərici ancaq 0,3 milyon nəfər olmuşdur.

Son onilliklərdə Asiyada ən böyük miqrasiyalar qaçqınların yerdəyişməsidir. 1947-ci ildə Fələstin bölüşdürüldükdən sonra 700 mindən çox fələstinli ərəb İsrailin tutduğu ərazilərdən

qaçmağa məcbur oldu. Hindistan və Pakistan arasında daha böyük əhali yerdəyişməsi baş verdi. Pakistan Hindistanın tərkibindən çıxdıqdan dərhal sonra bu, hər iki tərəfdən 7 milyondan çox adamı əhatə etdi. 1951-ci ildən 1956-cı ilədək isə daha 1 milyon qaçqın yerini dəyişdirmişdir. 1971-ci ildə keçmiş Şərqi Pakistanda baş vermiş münaqişə nəticəsində təqribən 10 milyon benqal Hindistanın qonşu ştatlarında sığınacaq tapdı, lakin sonralar onların böyük əksəriyyəti repatriasiya edildi.

Miqrasiya Asiyanın əhalisi nisbətən az olan bəzi bölgələrinin əhali artımının başlıca amilidir. Belə ki, Honkonq əhalisinin yarıdan çoxu xaricdə doğulmuşdur. Əhalisi 1 milyondan az olan Küveyt sakinlərinin də 2/3 –si xarici ölkələrdən çıxanlardır.

Asiyadan Avropaya ən çoxsaylı axın Türkiyədən Ümumi bazar ölkələrinə və Asiyanın Britaniya Birliyi ölkələrindən Böyük Britaniyaya miqrasiyadır. Bəzi ölkələr, xüsusəndə Kanada və ABŞ immiqrasiya məhdudiyyətlərini ləğv etdikdən sonra, 60-cı illərin ortalarından Asiyadan olan immiqrantların sayı, o cümlədən, ixtisaslı kadrların axını artmışdır. Digər bir miqrasiya axını da Yaponiyadan Braziliyaya olmuşdur. İkinci Dünya müharibəsinin sonunadək Braziliyadakı yapon məskənlərində 250 minə yaxın immiqrant var idi. Bu axın 50 –ci illərin əvvəlindən yenidən başlanmışdır.

Quldarlığın ləğvindən sonra *afrikalıların* miqrasiyası qitə hüdudları ilə məhdudlaşırdı. Mərkəzi və Şərqi Afrikada miqrasiya cənub istiqamətində, xüsusilə Cənubi Afrika Respublikasına, Qərbi Afrikada isə daha çox Qana istiqamətində gedirdi. Məsələn, kiçik dövlət olan, hər tərəfdən Cənubi Afrika Respublikasının ərazisi ilə əhatə olunmuş Lesotoda əmək qabiliyyətli kişilərin 50%-ə yaxını, qadınların isə 10%-i CAR-da iş axtarmağa məcburdurlar.

Son vaxtlar bir çox Afrika dövlətlərində ölkəyə daxilolma vizalarının və işədüzəlmə icazəsinin tətbiq edilməsi ilə bağlı dövlət sərhədləri vasitəsilə yerdəyişmə azalmışdır. Afrikada iqtisadi səbəblərdən irəli gələn miqrasiyalardan əlavə, siyasi xarakterli miqrasiyalar da olmuşdur. Bunun nəticəsində mil-

yonlarla qaçqın öz ölkələrinin hüdudları xaricində yaşayır.

60-70-ci illərdə bir çox Afrika dövlətləri müstəqillik qazandıqdan sonra Avropaya azı 2 milyon avropalı müstəmləkəçi köçmüşdür. Elə həmin illərdə Əlcəzair, Mərakeş və Tunisdən olan yüz minlərlə afrikalı Ümumi bazar ölkələrinin immiqrant fəhlələri ordusuna qoşulmuşdur. Keçmiş ingilis müstəmləkələri olan Afrika ölkələrindən Böyük Britaniyaya xeyli miqrasiya müşahidə edilirdi.

Müasir beynəlxalq miqrasiyalar qitə miqyasında əhali artımına daha keçmişdəki kimi təsir göstərə bilmir. Lakin onlar, əhalisi az olan ölkələr (İrlandiya, Uruqvay, Yamayka, Küveyt, Lesoto, Malta, Paraqvay, Sinqapur və s.), habelə xeyli əhaliyə malik ölkələr (Avstraliya, Kanada, Yunanıstan, Portuqaliya, Venesuela) üçün olduqca əhəmiyyətlidir. Avstraliya, Kanada, Küveyt, Sinqapur kimi ölkələrə xeyli əhali axını, İrlandiya, Portuqaliya, Yunanıstan, Lesoto, Paraqvay kimi ölkələrdə isə əhalinin ölkədən çıxıb getməsi demoqrafik inkişafa öz təsirini göstərir.

Daha çox immiqrasiya ölkəsi olan kiçik İsrail dövləti əhalisinin böyük hissəsini ABŞ-dan, Avropa və Yaxın Şərq ölkələrindən çıxanlar təşkil edir. Fələstin ərazisində İsrail dövləti yaradılarkən yerli ərəb əhalisinin xeyli hissəsi öz torpaqlarını tərk etməyə və qonşu ərəb ölkələrinə köçməyə məcbur oldu ki, bu da indiyə qədər həll olunmamış Fələstin qaçqınları problemini doğurmuşdur. Bu problem və Yaxın Şərq münaqişəsindən irəli gələn digər problemlər Fələstin ərəb xalqının qanuni hüquqlarının bərpa olunması ilə həll edilə bilər.

«Klassik emiqrasiya ölkəsi» adlandırılan İrlandiyada bu proses XVII əsrdən başlayaraq, bu günə qədər davam edir. İrlandiya əhalisi ən yüksək emiqrasiya səviyyəsinə XIX əsrin ortalarında çatmışdır. Lakin 1841-1971-ci illərdə o, iki dəfədən çox azalmışdır. Bu müddət ərzində ölkəni azı 5 milyon adam tərk etmişdir. 1950-1970-ci illərdə İrlandiya emmiqrasiyadan əhalisinin 18,6%-ni itirmiş, bu göstəriciyə görə isə Avropada ancaq Portuqaliyadan (23,1%) geri qalmışdır. Çoxəsrlik emiqrasiya nəticəsində İrlandiya Respublikası hazırda ən az əhalisi

olan Avropa ölkələrindəndir.

Beləliklə, əhalinin qitələrarası və dövlətlərarası miqrasiyası onların demoqrafik öyrənilməsi baxımından, şübhəsiz, maraq doğurur. Bu, *ümumiyyətlə, ən dəqiq ifadə olunmuş coğrafi fenomenlərdən biridir.*

Miqrasiya axınları feodal asılılığından azad olmuş əhalinin daha mütəhərrikləşdiyi sənaye cəmiyyəti dövründə kəskin surətdə artmışdır. Buna kapitalizmin doğurduğu nisbi mühacirət də kömək etmişdir.

İlk beynəlxalq axınlardan biri İrlandiyanın kənd əhalisinin Böyük Britaniyaya köçürülməsi olmuşdur. Bu ölkə öz dövlətinin bütün inkişaf tarixi boyu üç kütləvi emiqrasiya dalğası keçirmişdir. Qərbi və Şimali Avropa mühacirləri əsasən Şimali Amerikaya, Cənubi və Şərqi Avropa mühacirləri isə daha çox Cənubi və Mərkəzi Amerikaya köçürdülər. Avropalılar Avstraliyanı, Yeni Zelandiyanı, Cənubi Afrikanı da məskunlaşdırırdılar. Mütəxəssislər XIX əsrin əvvəllərində və Birinci Dünya müharibəsinədək Avropa miqrantlarının ümumi sayını 50 milyon həddində qiymətləndirirlər. Onların üçdə biri müxtəlif səbəblərdən geri qayıtmışdır.

İkinci Dünya müharibəsi istər ölkədaxili, istərsə də dövlətlərarası miqyasda əhalinin böyük yerdəyişməsinə səbəb oldu. Müharibə çoxmilyonlu orduların hərəkətə gətirilməsi ilə yanaşı, milyonlarla mülki insanı vətənindən qopararaq qürbətə atdı. Təkcə 1946-1961-ci illərdə 7 milyona yaxın insan ABŞ-a köçdü. 1965-ci ildən ölkəyə gəlməyə məhdudiyyət qoyulmasına baxmayaraq, say limiti əvəzində «üstünlük» sistemi müəyyən edildi. Bu sistemə əsasən, imiqrasiya vizaları verilərkən elmi işçilərə, səriştəli mütəxəssislərə, nadir peşə sahiblərinə – «beyin axını»na üstünlük verilirdi.

Onun mahiyyəti yüksək ixtisaslı əcnəbi mütəxəssisləri özünə cəlb etməkdir. Bu proses İkinci Dünya müharibəsindən sonra başlamışdır. O zaman fizika, raketqayırma sahəsində bir neçə min mütəxəssis Almaniyadan ABŞ-a aparılmışdı. Bu miqrasiya prosesi Avropa ilə yanaşı, inkişaf etməkdə olan ölkələrdən alim axınının gücləndiyi 60-70-ci illərdə kulminasiya nöq-

təsinə çatdı. 80-cı illərin əvvəlində Qərb ölkələrində Asiya, Afrika və Latın Amerikasından artıq yarım milyondan çox əcnəbi mütəxəssis işləyirdi: onların da təqribən yarısı ABŞ-ın payına düşürdü. «Beyin axını» ziyalı təbəqəsinin onsuz da az olduğu inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına və mədəniyyətinə son dərəcə mənfi təsir göstərir.

İkinci Dünya müharibəsindən və müstəmləkəçilik sisteminin dağılmasından sonra avropalılar keçmiş müstəmləkələrdən vətənə qayıtmağa başlamışdır. ABŞ-a miqrasiya xeyli azalmışdır. Qərbi Avropa yeni mühacirət meydanına çevrilmişdir. Burada 15 milyona yaxın əcnəbi fəhlə çalışır. Əhalinin həyat səviyyəsi yüksək olan ölkələrə (Böyük Britaniya, Fransa, AFR, İsveçrə və s.) müvəqqəti qitədaxili miqrasiyalar kəskin surətdə artır, daha kasıb ölkələrin əhalisi hər il qazanc dalınca buraya gəlir.

Birinci və İkinci Dünya müharibələrindən sonra və onların nəticəsində, habelə müstəmləkə sisteminin dağılmasından sonra dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər əhalinin siyasi motivlərlə bağlı çoxmilyonlu miqrasiyasına gətirib çıxardı.

Ona görə də müharibə qurtarandan sonra dövlətlərin qarşısında həlli böyük insan kütləsinin köçürülməsi ilə bağlı olan çox mühüm siyasi problemlər yarandı. Əvvələn, təcavüzkarların əlinə keçmiş şəxslərin vətənə qayıtmasını, ikincisi, yeni münaqişələrin qarşısını almaq məqsədilə almanların və yaponların Almaniya və Yaponiya ərazilərinə köçürülməsini təmin etmək lazım idi. Bu məsələlər müharibədən sonrakı ilk illərdəcə həll olundu. Potsdam Konfransının qərarı ilə Almaniyanın müxtəlif vaxtlarda qonşu ölkələrdə işğal etdiyi və faşizmin məğlubiyyətindən sonra geri qaytarılmış bölgələrdən Almaniyaya 10 milyondan çox alman köçürüldü. Eyni qaydada, başlıca olaraq, Çindən və Koreyadan 6,5 milyon yapon, - keçmiş hərbi əsirlər və kolonistlər, - Yaponiyaya, 2 milyon koreyalı isə Yaponiyadan öz vətəninə qayıtdı. Hindistanın 1947-ci ildə əhalinin dini mənsubiyyəti əsasında iki dövlətə bölünməsi nəticəsində təqribən 8 milyon hindu Pakistandan Hindistana, təq-

ribən bir o qədər müsəlman isə Hindistandan Pakistana keçməli oldu. Bu zaman 1 milyona yaxın mühacir tələf oldu.

1948-ci ildə Fələstin ərazisinin bir hissəsində İsrail dövləti yaradıldı və Avropa dövlətlərindən, Aralıq dənizi, Yaxın Şərq ölkələrindən yəhudilərin oraya miqrasiyası başladı. Hazırda İsrailin işğal etdiyi ərazidə 1 milyondan çox, onun hüdudlarından kənarda, əsasən, Yaxın Şərqdə 4 milyondan artıq fələstinli yaşayır. Azad olunmuş müstəmləkə ölkələrindən xeyli avropalı, məsələn, Əlcəzairdən və Mərakeşdən milyondan çox fransız, Anqoladan və Mozambikdən yüz minlərlə portuqaliyalı repatriasiya olunmuşdur. 1970-1980-cı illərdə ABŞ-da Meksika və Puerto-Rikodan 4,5 milyona qədər leqal, onun yarısı qədər isə gizli mühacir var idi.

Səudiyyə Ərəbistanında, Küveytdə və Yaxın Şərqin bəzi ölkələrində neft hasilatı digər ərəb ölkələrindən gələn xarici işçi qüvvəsinə əsaslanır.

Xaricdə yaşayan 30 milyon çinli (onları xyatsyao adlandırırlar) Çin üçün böyük iqtisadi rol oynayır. Onların bir çoxu öz vəsaiti və biliyi ilə ölkənin modernləşdirilməsinə kömək göstərir. Vətənə qayıtmış mütəxəssislər Çin ali məktəblərinin professor və dosentlərinin 1/3-ni təşkil edir.

Əhalinin kütləvi daxili miqrasiyaları, hər şeydən əvvəl, urbanizasiya – əsasən, kənddən şəhərlərə, mənimsənilən torpaqlara köçmə ilə bağlı idi. Belə miqrasiyalar digər dövlətlər üçün də səciyyəvidir. Bu cür miqrasiyaların miqyası çox böyük olduğundan onu «XX əsrdə xalqların böyük köçü» adlandırmışlar. Onlar ayrı-ayrı ölkələrdə müxtəlif inkişaf mərhələsindədir. Belə miqrasiyalar inkişaf etməkdə olan ölkələrdə xüsusilə vüsət almışdır. İnkişaf etməkdə olan ölkələrin kənd sakinləri yaxşı güzəran dalınca şəhərlərə axışır ki, bu da böyük şəhərləri «partlayış» həddinə gətirib çıxarır. Qərbin inkişaf etmiş ölkələrində və Yaponiyada bu proses təqribən 80% urbanizasiya səviyyəsində başa çatmışdır.

60-80-cı illərdə ABŞ-da və Qərbi Avropada əhalinin «geriyə» miqrasiyası - tünlük, hisli-tüstülü şəhərlərdən şəhərətrafına, qismən isə kənd yerlərinə dönüş üstünlük təşkil edirdi.

Dünyanın əhalisi az və eyni qaydada sıx olmayan bir çox ölkələrində yeni bölgələrin mənimsənilməsi, ilk növbədə, daxili miqrasiya hesabına baş tutmuşdur. Məsələn, ABŞ-ın, Kanadanın, Braziliyanın və bəzi digər Amerika dövlətləri ərazilərinin məskunlaşması şərq sahilyanı vilayətlərindən başlamış, daxili və qərb əraziləri isə sonralar mənimsənilmişdir. Avstraliya da beləcə məskunlaşmış, lakin məskunlaşma cənub-şərqdən şimala və qərbə doğru getmişdir. Rusiya da bu tipli ölkələrə aiddir. Burada məskunlaşma qərbdən şərqə olmuşdur.

İnkişaf etməkdə olan ölkələrdə daxili miqrasiyaların intensivliyi aşağıdır və başlıca olaraq, əhalinin həddən artıq sıx olduğu aqrar bölgələrdən şəhərlərə qaçması ilə əlaqədardır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə daxili miqrasiyalar böyük əhali kütlələrini əhatə edir. Daim dəyişən konyuktura, nəqliyyatın və kommunikasiya vasitələrinin yüksək inkişaf səviyyəsi də buna kömək göstərir.

### 7.3. Dunyada məcburi miqrasiyalar

Müharibələr, milli və qəbilə çəkişmələri bəşəriyyəti tarix boyu izləmişdir. Ona görə də doğma evini, od-ocağını tərk etməyə, sığınacaq axtarmağa məcbur olan insanlar həmişə olmuşdur. Və qədim zamanlardan müxtəlif ölkələrdə, ayrı-ayrı xalqlarda ehtiyacı olan məcburi köçkünlərə sığınacaq vermək adəti olmuşdur. XX əsrin sonunda Azərbaycan daha çox məcburi miqrantların cəmləndiyi məkanı kimi çıxış edir, onların buraya axını davam edir: bu, Ermənistan azərbaycanlıları, Orta Asiyadan məshəti türkləri, Türkiyədən, MDB-dən, xüsusilə Rusiyadan olan azərbaycanlılardır. Qeyd etmək lazımdır ki, 90-ci illərdən bu günə qədər dünyada məcburi miqrasiya, həm kəmiyyət, həm də keyfiyyətcə xeyli dəyişikliyə uğrayır. Bu dəyişikliklər, ilk növbədə, keçmiş Yuqoslaviyada və SSRİ-də, Əfqanıstanda və İraqda, bir sıra Afrika dövlətlərində baş verən hadisələrlə bağlıdır. Sonuncular, öz növbəsində, Qərb, xüsusilə, Avropa ölkələrinin əksəriyyətinin, məcburi mühacirlər barəsində miqrasiya siyasətini sərtləşdirilməsinə əhəmiy-

yətli təsir göstərmişdir.

Ona görə də, Azərbaycanda məcburi miqrasiya problemlərindən ətraflı bəhs etməzdən əvvəl, dünya səviyyəsində bu dəyişikliklərin əsaslarını nəzərdən keçirək.

Beynəlxalq miqrasiya göstəricilərinin hələ 1901-ci ildə unifikasiya edilməsi cəhdlərinə baxmayaraq, hətta «**emiqrant**» və «**immiqrant**» kimi əsas anlayışların tərifində belə indiyədək vahid yanaşma yoxdur. Hər bir ölkə bu anlayışlara, çox vaxt, bir-birindən xeyli fərqlənən öz tərifini verir. Uzunmüddətli miqrasiya ilə yaşayış yerini nisbətən qısa müddətli dəyişmə arasında diferensasiya aparmaqda da çətinliklər mövcuddur. Məsələn, Macarıstanda və ABŞ-da «daimi» və «müvəqqəti» miqrasiya arasında fərq elə qəti xarakter daşıyır ki, ancaq daimi yaşamağa gedənlər immiqrant sayılır. Yaponiyanın immiqrasiya qanunvericiliyində əcnəbilərin 15 kateqoriyası fərqləndirilir, həm də 1952-ci ildə Yaponiya vətəndaşlığından çıxarılmış 700 min Koreya millətinə mənsub adamlar bu kateqoriyaların heç birinə daxil olunmur.

BMT-nin təsnifatına görə, gəldiyi ölkədə bir ildən çox qalan şəxslər beynəlxalq baxımdan uzunmüddətli daimi mühacir sayılır. Başqa ölkəyə bir ildən çox olmayan müddətə muzdlu iş tapmağa gələn şəxslər *müvəqqəti*, yaxud mövsümi mühacir hesab olunur. «Sərhədyanı fəhlələr»- işləmək üçün hər gün qonşu dövlətin ərazisinə keçib geri qayıdanlar *«kəfkirsayağı mühacirlər»* adlanır.

Bu şəraitdə beynəlxalq əmək miqrasiyalarını nəzərdən keçirərkən BƏT-in işləyib hazırladığı «əməkçi mühacir» terminindən istifadə etmək məqsədəuyğundur. Bu termin işləmək niyyətilə öz hesabına deyil, başqa vasitə ilə bir ölkədən digərinə gedən şəxsi nəzərdə tutur və qanuna müvafiq olaraq, əməkçi mühacsr sayıla bilən hər hansı şəxsləri ehtiva edir.

Bizcə, əhalinin beynəlxalq miqrasiyası nəzərdən keçirilərkən 6 mühacir qrupunu fərqləndirmək məqsədəuyğundur: 1) ailə vəziyyəti və ya digər səbəblərdən başqa ölkədə daimi yaşamağa gedənlər (getdiyi ölkədən asılı olmayaraq, istədiyi halda vətəndaşlığını saxlamaqla); 2) əməkçi mühacirlər; 3) gizli

mühacirlər; 4) qaçqınlar; 5) tələbələr, stajorlar, elmi işçilər və müəllimlər; 6) başqaları-turizm, istirahət və i.a.

Xatırladaq ki, müasir beynəlxalq əhali miqrasiyasının əsas qanunauyğunluğu burada əmək miqrasiyasının başlıca yer tutmasıdır. Bizim fikrimizcə, motivindən (siyasi, dini, milli-irqi və s.) asılı olmayaraq, müasir beynəlxalq əhali miqrasiyaları, hər şeydən əvvəl, nəticə etibarilə, əməyin doğma vətəndən kənarda tətbiq edilməsilə bağlı iqtisadi hadisədir.

Beynəlxalq miqrasiyanın iqtisadi öncüllüyünü ayırd etməklə yanaşı, onun əks tərəfini – bu və ya da digər ölkə əhalisinin ümumi sayının, yaş-cins və digər strukturunun dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərən demoqrafiyanı da nəzərdə tutmaq vacibdir. Məsələn, 80-ci illərdə ABŞ, Kanada, Fransa, Avstraliya kimi ölkələrdə xarici miqrasiya əhalinin ümumi artımında yüksəliş meylli olub, orta hesabla, 25%-i ötürdü. Amerika ekspertlərinin hesablamalarına görə, ABŞ-da əhalinin illik artımının 50%-i immiqrantların hesabınadır.

Beynəlxalq əhali miqrasiyalarının bu cəhətinin lazımınca qiymətləndirilməməsi əhalisi az olan ölkələr üçün istər birbaşa demoqrafik, istərsə də sosial-iqtisadi və siyasi xarakterli ciddi neqativ nəticələr doğura bilər. Əhalisinin böyük hissəsi okeanın o tayına mühacirət etmiş İrlandiya miqrasiya nəticəsində yaranmış demoqrafik böhrana, 1990-cı ilin avqust-sentyabr aylarında İraq tərəfindən işğal edilərkən bütün fəhlələrin 75%-nin əcnəbilər olduğu Küveytdə yaranmış vəziyyət isə ciddi siyasi, eləcə də sosial-iqtisadi böhran nümunəsi sayıla bilər. Əgər İraqın özündəki immiqrantları, xüsusilə hərbi əməliyyatların bütün «özəlliklərini» hiss etmiş yüz minlərlə mühacir, habelə qonşu ərəb ölkələrindəki bir neçə milyon əcnəbi işçi (1985-ci ildə onların sayı 6 milyon nəfər idi) də buraya əlavə edilsə, dünyanın bu regionunda milyonlarla insanın ölkənin hakim dairələrinin birtərəfli miqrasiya siyasəti nəticəsində düşdüyü faciəli vəziyyəti təsəvvürə gətirmək mümkündür.

Əhalinin müasir beynəlxalq miqrasiyasının daha bir qanunauyğunluğu onun miqyasının daim və xeyli genişlənməsidir. Çoxmilyonlu dövlətlərarası miqrasiya getdikcə müasir istehsa-

lın amilindən daha çox, onun sabit durumuna çevrilərək, müasir cəmiyyətin tipik sosial-iqtisadi hadisəsi olur.

XX əsrin 90-cı illərinin əvvəlində dünyada azı 25 milyon əmək mühaciri var idi. Onların ailə üzvləri, mövsümi miqrantlar, sərhədyanı fəhlələr və gizli immiqrantlar da nəzərə alınmaqla, mühacirlərin ümumi sayı xeyli (4-5 dəfə) çoxdur. Həm də, onların yarıdan çoxu inkişaf etməkdə olan ölkələrdəndir və 2/3-si sənayecə inkişaf etmiş ölkələrdədir.

Bir çox Qərbi Avropa ölkələrində 70-ci illərin ortalarında (Avstraliya, Yeni Zelandiya və Kanadada 70-ci illərin sonu – 80-ci illərin əvvəllərində) ABŞ-da isə 1986-cı ildə immiqrasiyanın məhdudlaşdırılmasına dair sərt tədbirlər görülməsinə baxmayaraq, immiqrantların sayının artması müşahidə edilir.

Beynəlxalq miqrasiya son otuz ildə xüsusilə artmışdır.

Köhnə ingilisdilli cəzbedici miqrasiya mərkəzləri – ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, əvvəlki kimi, birinci yerdədir. Emiqrantlar buraya həm İkinci Dünya müharibəsindən əvvəl, həm də ondan sonra can atmışlar. Lakin əhalinin müasir beynəlxalq miqrasiyalarının miqyasının artması yeni cəzbetmə mərkəzlərinin yaranması ilə müşayiət olunurdu ki, bu da nəticə etibarilə əsas miqrasiya istiqamətlərində dəyişikliklərə gətirib çıxarırdı.

Hüdudlarında böyük beynəlxalq əmək bazarı yaradılan Ümumi bazar ölkələrinin müharibədən sonrakı iqtisadi inkişafı, bir növ, Avropa emiqrasiyasının istiqamətini okeanın o tayındakı ölkələrdən Qərbi Avropanın ən inkişaf etmiş ölkələrinə –AFR-ə, Fransaya, İsveçrəyə, İsveçə və s. yönəltdi. Bundan əlavə, Şimali Afrikadan, Türkiyədən, Kiprdən, hətta uzaq, keçmiş dənizarxası müstəmləkə ölkələrindən (Afrika, Hindistan, Pakistan, Vest-Hind) Qərbi Avropaya miqrasiya axını meydana gəldi. Avropanın özündə İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan kimi daha az inkişaf etmiş ölkələr işçi qüvvəsi tədarükçülərinə çevrildilər.

İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrindəki əcnəbi fəhlələrin ümumi sayı onlarla milyon nəfər həcmində qiymətləndirilir.

Hazırda işçi qüvvəsinin beynəlxalq miqrasiyası çoxlu immiqrant fəhlələrin olduğu ölkələrdəki işsizlik şəraitində baş verir. Sonuncular, adətən, ən ağır iş şəraiti olan sahələrdə, yaxud az ödənişli, ixtisassız əmək lazım olan yerlərdə çalışırlar.

Qərbi Avropa ilə yanaşı, əcnəbi fəhlələri digər cəzbetmə mərkəzləri də yaranır. Ümumən, keçmişdə dövlətlərarası miqrasiya üçün səciyyəvi olmayan bu mərkəzlər beynəlxalq miqrasiyada yeni məqamdır. Onun üçün əmək miqrasiyasının inkişaf etməkdə olan bəzi ölkələrdən digərlərinə, əcnəbi işçi qüvvəsinin daha inkişaf etmiş ölkələrdən az inkişaf etmiş ölkələrə keçməsi, Şərqi Avropa ölkələrində miqrasiya proseslərinin inkişafı əlamətdardır.

Yeni mərkəzlər Yaxın Şərqdə (Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Liviya, İraq, İran və s.), Latın Amerikasında (Argentina, Venesuela, Braziliya), Cənub-Şərqi Asiyada (Sinqapur, Honkonq, Yaponiya) və Afrikanın cənubunda (CAR) yaranır.

Müasir dünyanın «varlılar» və «yoxsullar» təbəqələrinə getdikcə daha çox bölünməsinin nəticəsi kimi meydana çıxan gizli mühacirətin xeyli artması son onilliklərin beynəlxalq miqrasiyanın daha bir qanunauyğunluğudur. Əlbəttə, bu və ya digər ölkədə müəyyən miqdarda gizli mühacirlər keçmişdə də olmuşdur. Lakin bu problem belə böyük miqyasda olmamış və xüsusi diqqət tələb etməmişdir.

Gizli mühacirət 60-cı illərdə, xüsusilə 70-ci illərin ikinci yarısından kütləvi xarakter almışdır. Ekspertlərin fikrincə, ABŞ-a hər il gizli mühacir axını 1,2 milyon nəfərə çatır. Müxtəlif hesablamalara görə, bu ölkədə 4 milyondan 13 milyona qədər gizli mühacir vardır. Belə böyük gizli əmək ordusunun olması müasir miqrasiyanın ABŞ-da doğurduğu ən mühüm, kəskin problemlərdən biridir. 80-ci illərdə Avropa İttifaqı ölkələrində gizli immiqrantların sayı dəfələrlə artaraq, bir neçə milyona çatırdı.

Gizli immiqrasiyanın artması bir çox amillərlə izah olunur. Onların ən başlıcası gizli işləyən immiqrantların kiçik firmaların sahibləri üçün ucuz işçi qüvvəsi olmalarıdır. Bu da belə

fəhlələrin işə götürülməsinin əsas stimuludur.

Şərqi Avropa dövlətləri və keçmiş SSRİ-nin vətəndaşları da müasir gizli immiqrasiya burulğanına getdikcə daha çox düşürlər. Bu ölkələrdən Qərbə mühacirətin başlıca səbəbləri həyat səviyyəsinin inkişaf etmiş Qərb ölkələrinə nisbətən aşaği olması (Qərbə, adətən, təkcə bir parça çörək üçün deyil, Polşada deyildiyi kimi, «vetçinalı çörək» üçün gedirlər), işsizliyin artması, siyasətdəki «əyintilər» və bunlarla bağlı gənclərin tərbiyə olunmasındakı nöqsanlardır. Şərqi Avropadan və keçmiş SSRİ ölkələrindən gizli mühacirət bir çox hallarda sərhədi qanuni yolla keçmək (turist kimi, qohum və tanışların dəvətilə və s.), sonradan isə gizli surətdə işə düzəlməklə qurtarır.

Müasir beynəlxalq miqrasiyanın daha bir qanunauyğunluğu elmi-texniki inqilabla bağlı keyfiyyət dəyişiklikləridir. Onların mahiyyəti mühacirlər arasında yüksək ixtisaslı mütəxəssislərin sayının xeyli artmasıdır.

Obrazlı şəkildə «Braın Drain», yaxud «beyin axını», «zəka oğurluğu» adlandırılan intellektual əmək miqrasiyası «boz beyin maddəsi» tədarükçüsü olan ölkələrə çox böyük neqativ təsir göstərir.

Müasir dövr üçün böyük sayda qaçqınlar və məcburi köçkünlər səciyyəvidir. 1975-ci ildə dünyada rəsmi qeydiyyatdan keçmiş təqribən 2,5 milyon qaçqın var idi. İyirmi beş ildən sonra onların sayı 8 dəfədən çox artaraq, təqribən 21 milyon nəfərə çatmışdır. Hazırda BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığının (QAK) məşğul olduğu məcburi miqrantların ümumi sayı isə, BMT ekspertlərinin hesablamalarına görə 27 milyonu keçmişdir. Onların dünyanın əsas regionları üzrə yerləşdirməsi cədvəl 7.3 -də göstərilmişdir.

Bu məlumatlara, məsələn, 2,5 milyona yaxın Fələstin qaçqınları və bəzi digər məcburi mühacir kateqoriyalarından olanlar (ekoloji qaçqınlar, siyasi sığınacaq axtaran şəxslər və başqaları) daxil edilməmişdir.

Cədvəl 7.3

**QAK-ın yurisdiksiyasına düşən məcburi miqrantların say dinamikası (milyon nəfərlə)**

| Regionlar | 1985-ci il | 1990-cı il | 1997-ci il |
|---|---|---|---|
| Afrika | 3,0 | 4,6 | 11,8 |
| Şimali Amerika | 1,4 | 1,4 | 0,9 |
| Latın Amerikası | 0,4 | 1,2 | 0,1 |
| Asiya | 5,1 | 6,8 | 7,9 |
| Avropa | 0,7 | 0,8 | 6,5 |
| Okeaniya | 0,1 | 0,1 | 0,05 |
| Cəmi: | 10,7 | 14,9 | 27,25 |

Cədvəl 7.3 -dən göründüyü kimi, Avropada məcburi mühacirlər xeyli artmışdır ki, bu da, ilk növbədə, keçmiş SSRİ-də və Yuqoslaviyada (məsələn, 1988-ci ildə Yuqoslaviyada 3 milyondan çox məcburi miqrant var idi), habelə, əslində, dünyanın ən çox qaçqın qəbul və ixrac edən mərkəzi olan Afrikada (dünyadakı bütün qaçqınların təqribən 40 faizi hazırda Afrikadadır) baş verən hadisələrlə bağlıdır. Həm də, söhbət daha çox təkcə qaçqınlardan deyil, eləcə də QAK-ın son zamanlarda məşğul olmağa başladığı digər kateqoriyalardan olan məcburi miqrantlardan gedir.

Cədvəl 7.3 -dən göründüyü kimi, ən çox sayda repatriantlar, yəni doğma yerlərinə qayıdan qaçqınlar və köçürülmüş şəxslər Afrikadadır, eyni zamanda, «sığınacaqaxtaran şəxslər» çox azdır. Digər tərəfdən, sonuncular Avropada xeyli üstünlük təşkil edir. Söhbət, ilk növbədə, əsasən, Şərqi Avropa dövlətlərindən, keçmiş SSRİ-dən, xüsusilə sabiq Yuqoslaviyadan bu axının gəldiyi Qərbi Avropa ölkələrindən gedir. Ayrı-ayrı ölkələrə gəldikdə isə, ən böyük sayda qaçqın 1998-ci ilin əvvəlində Əfqanıstanda qeydə alınmışdır. Onların əsas hissəsi İranda, bir çox qaçqınların Zairə mühacirət etdiyi Ruandada cəmləşmişdir. 1998 -ci il oktyabrın axırlarında Ruanda ilə Zairin sərhədində yenidən şiddətli toqquşmalar baş verdi və bunun nəticəsində dünyada qaçqınların sayı 300 mindən də çox artdı.

Bütövlükdə, kəmiyyət dəyişikliklərinə gəlincə, hesablamalara görə, ekoloji səbəblərdən mühacirət edənlərin sayının

qiymətləndirilməsindən asılı olaraq, hazırda dünyada 50 milyondan 70 milyonadək məcburi miqrant vardır. Bu məqamda, şərti olaraq, «ekoloji qaçqınlar»a (söhbət ölkədən xaricə miqrasiya edənlərdən gedirsə) və «ekoloji köçkünlər»ə (söhbət ölkədaxili yerdəyişmələrdən gedirsə) bölünən həmin kateqoriyadan olan məcburi miqrantlar üzərində ətraflı dayanmaq lazımdır. Bütün dünyada ətraf mühit amillərinin siyasi, iqtisadi, sosial və digər amillərlə qarşılıqlı əlaqədə insanların kütləvi ərazi hərəkətinə səbəb olması fikri getdikcə daha çox etiraf edilir. Bu insanların da beynəlxalq birliyin, ilk növbədə isə QAK-ın yardımına kəskin ehtiyacı var. Miqrasiyanın səbəbləri arasında ətraf mühit amilinin rolunun daha aydın başa düşülməsini yaxşılaşdırmaq üçün bu hadisənin təbiətinin mürəkkəbliyi etiraf edilməlidir. Burada daxili və xarici miqrasiya arasında fərq kifayət qədər şərtidir və onlar «könüllü» və «məcburi» miqrasiya formaları arasında dəyişir.

**Cədvəl 7.4**

**QAK-ın 1998-ci ilin əvvəlində qeydiyyata aldığı məcburi miqrantlar (min nəfərlə)**

| Məcburi miqrantların kateqoriyaları | Afrika | Asiya | Latın Amerikası | Şimali Amerika | Okeaniya | Avropa | Bütövlükdə |
|---|---|---|---|---|---|---|---|
| Qaçqınlar | 6752,2 | 5018,3 | 109,0 | 681,4 | 51,2 | 1876,4 | 1448,7 |
| Repatriantlar | 3084,0 | 831,8 | 67,4 | ... | ... | ... | 3983,2 |
| Digərləri | 6,7 | 309,8 | 0,1 | 244,1 | ... | 2863,3 | 3542,1 |
| Köçürülmüş şəxslər | 1973,1 | 1761,5 | 8,0 | ... | ... | 1680,4 | 5423,1 |
| Bütövlükdə | 11816,0 | 7921,5 | 925,5 | 925,5 | 51,2 | 6420,1 | 27418,9 |

**«Ekoloji qaçqınlar» termininin** özü isə son illərdə, BMT - nin ətraf mühit üzrə Proqramının (United Nations Environmental Protection – UNEP) ilin nəticələrinə dair məlumatından, habelə Dünya İnstitutunun (Worldwatch İnstitute) araşdırmalarından sonra yayılmağa başlamışdır. Həmin araşdırmalarda ət-

raf mühitin keyfiyyətcə nəzərə çarpacaq dərəcədə pisləşməsi üzündən ənənəvi yaşayış yerini tərk etməyə məcbur olan hər bir insanı əhatə edən bu terminə daha geniş tərif verilmişdir. Qaçqınların hərəkəti kimi müəyyən edilib- edilməməsindən asılı olmayaraq, ekoloji səbəblərlə bağlı miqrasiyanın həcmini qiymətləndirmək kifayət qədər çətindir. Çox şey keçmiş, indiki, yaxud gələcəkdə mümkün yerdəyişmələrin nəzərdən keçirilib – keçirilməməsindən, həm daxili, həm də beynəlxalq miqrasiyaların nəzərə alınıb-alınmamasından, ətraf mühitin deqradasiyasının əhalinin hərəkətinin digər siyasi, iqtisadi və sosial amillərlə əlaqəsiz, yaxud əlaqəli şəkildə nəzərdən keçirilməsindən aslıdır.

Bir sıra hesablamalara, məsələn, BMT - nin ətraf mühit və inkişaf üzrə konfransında (Rio- de- Janeyro, 1992- ci il) ifadə olunmuş mülahizələrə görə, 90-ci illərin əvvəlində ekoloji qaçqınların sayı 1954- ci il Konvensiyası və 1967- ci il Protokolu ilə müəyyən olunan «klassik» qaçqınların sayını ötmüşdü. Bunu həqiqət kimi qəbul etsək, fikrimizcə, 70 milyon rəqəmi məcburi miqrantların real sayından, bəlkə də, bir qədər azdır. Xüsusilə nəzərə almaq lazımdır ki, artmaqda olan «Sığınacaq axtaran şəxslər» də bu kateqoriyaya daxildir.

Son dəyişikliklərdən danışılarkən 1990-ci ildə təqribən 9 milyon qaçqının doğma ölkələrinə (Kamboca, Salvador, Mozambik, Nikaraqua, Əfqanıstan və s.) qayıtması faktı qeyd olunmalıdır.

Bu qayıtmalar yeni qaçqın axınları, - xüsusilə Avropada, - müqabilində xeyli az olsa da, QAK-ın qaçqınlar probleminin həllinə yeni yanaşmasını səciyyələndirir. Əgər əvvəllər, «soyuq müharibə» dövründə önəm hər bir vətəndaşın xaricdə sığınacaq tapmaq üçün öz ölkəsini tərk etmək hüququna verilirdisə, indi söhbət hər bir insanın öz ölkəsində qalib, təhlükəsiz yaşamaq hüququndan gedir. Həmin ölkələrdə müxtəlif münaqişələrin və ekoloji fəlakətlərin qarşısını almaq cəhdlərinin güclənməsi də bundan irəli gəlir.

QAK-ın bu yeni səylərinin bir qədər xəyali olmasına baxmayaraq, 90-cı illərdən məcburi miqrantların sayının artması,

cədvəl 7.5-dən göründüyü kimi, bir çox inkişaf etmiş dövlətlərin miqrantların qəbulu üzrə siyasətini getdikcə sərtləşdirməsi onların say dinamikasına əhəmiyyətli təsir göstərir.

**Cədvəl 7. 5**

**1985-2000-ci illərdə inkişaf etmiş Qərb ölkələrinə sığınacaq üçün müraciət etmiş əhalinin say dinamikası (min nəfərlə)**

| Ölkələr | 1985-ci il | 1990-cı il | 1993-cü il | 2000-ci il | Bütövlükdə 1985-2000-ci illər |
|---|---|---|---|---|---|
| Qərbi Avropa, o cümlədən | 159,2 | 403,5 | 674,1 | 270,9 | 3699,9 |
| Almaniya | 73,8 | 193,1 | 438,2 | 127,9 | 1920,4 |
| Fransa | 28,9 | 54,8 | 28,9 | 20,2 | 383,5 |
| İtaliya | 5,4 | 3,6 | 2,6 | 1,7 | 62,0 |
| Niderland | 5,6 | 21,2 | 20,3 | 29,3 | 226,8 |
| Avstraliya | 6,7 | 28,8 | 16,2 | 5,9 | 146,5 |
| İsveç | 14,5 | 29,4 | 84,0 | 9,0 | 303,2 |
| Böyük Britaniya | 6,2 | 38,2 | 32,3 | 55,0 | 309,9 |
| Kanada | 8,4 | 36,4 | 37,7 | 25,6 | 306,2 |
| ABŞ | 20,0 | 73,6 | 94,1 | 147,9 | 879,6 |
| **Bütövlükdə** | **198,1** | **557,1** | **853,2** | **468,1** | **5203,3** |

Mənbə: **Population et Socits.**

Məsələn, belə bir cəhət diqqəti cəlb edir ki, 1985-2000ci illərdə təkcə Almaniya, Avropa İttifaqının qalan digər 14 dövlətinin birlikdə qəbul etdiyindən, çox sığınacaq axtaran adam qəbul etmişdir (1780 min nəfər müqabilində 1920 min nəfər). Habelə məhz son 2-3 ildə bu kateqoriyadan olan məcburi miqrantların qəbul olunmasında sərtləşmə baş verir. Sonuncu, onunla izah olunur ki, bu şəxslərin arasında xalis iqtisadi məqsəd daşıyanlar çoxdur və müvafiq surətdə, onların saxlanma xərcləri artır. Qərbi Avropa ölkələri təkcə 1995-ci ildə sığınacaq axtaran şəxslərin qeydiyyatına və yerləşdirilməsinə 11,6 milyard dollar xərcləmişlər. Həm də qeyd olunmalıdır ki, Avropa dövlətlərinin əksəriyyəti sığınacaq verilməyən şəxslər

üçün xüsusi «humanitar» status müəyyən etmişlər. Lakin müvəqqəti qüvvəyə malik bu status onların mənsub olduqları ölkələrdə təhlükəsizliyə təminat və işə düzəlmək hüququ vermir. QAK-ın məcburi miqrantların problemlərinin həllinə yeni yanaşmasına gəldikdə isə, QAK rəhbərlərinin fikrincə, onların reallığı daha çox qaçqınların əsas kütləsinin gəldiyi ölkələrdə inkişaf məsələlərinin nə dərəcədə öncül yer tutmasından asılı olacaqdır. Nəzərə almaq lazımdır ki, QAK-ın hesablamalarına görə, hazırda məcburi miqrantların qəbul olunması ildə 10 milyard dollar tələb edir.

90-cı illərdə məcburi miqrasiyada baş verən dəyişikliklər (xüsusilə Avropada) xeyli dərəcədə SSRİ-nin dağılması və Azərbaycanın on minlərlə mühacirin üz tutduğu sərbəst miqrasiya episentrinə çevrilməsi ilə bağlıdır. Təkcə son illərdə yaxın və uzaq xaricdən Azərbaycana 575,3 min adam gəlmişdir. Onların xeyli hissəsini daxili mühacirlər təşkil edir. 2002-ci ilin əvvəlinə 794,3 min qaçqın və məcburi köçkün rəsmi qeydiyyata alınmışdır ki, bu da Azərbaycanda onsuz da mürəkkəb olan iqtisadi və sosial-siyasi vəziyyəti dərinləşdirir.

Bütövlükdə, miqrasiyaların bütün səbəblərini iki əsas – «könüllü» və «məcburi» kateqoriyaya bölmək olar. «Könüllü» miqrasiyaların bəziləri yuxarıda sadalanmışdır. «Məcburi» miqrasiyalar təbii fəlakətlər, texnogen qəzalar, silahlı münaqişə və müharibələr, regional, etnik və siyasi motivlərə görə, təqiblər nəticəsində baş verir. «Könüllü» səbəblər rəsmən köçürülmə statusunu müəyyənləşdirən amillər sayılmasa da, onların bir çoxuna məcburi miqrantlar kimi yardım göstərilməsinə (əsasən, beynəlxaq ictimai təşkilatlar, yaxud BMT-nin törəmə orqanları tərəfindən) kifayət qədər əsas verir.

Təcrübə göstərir ki, ancaq məcburi miqrasiyaları nəzərə almaq olar, yerdə qalanların statistikası isə təhlil üçün kifayət deyil, az inandırıcıdır.

Ötən əsrin 80-ci illərində Azərbaycanda böyük miqyas almış məcburi miqrasiya SSRİ-nin dağılması və bazar iqtisadiyyatına keçidlə əlaqədar olub, ölkədə baş verən prinsipial surətdə yeni hadisədir. Bundan əlavə, «məcburi köçürmə»,

«deportasiya», «sürgün» kimi ayrı-ayrı məcburi miqrasiya formaları çar Rusiyasına və keçmiş SSRİ, eləcə də dünyanın bir çox, digər ölkələrinə xas idi. Orta əsrlərdə yəhudilərin İspaniyadan, Fransadan, Böyük Britaniyadan sürgün olunmasını, XVIII-XIX əsrlərdə ABŞ-da hinduların, Avstraliyada aborigenlərin yararsız torpaqlara, XX əsrdə Yaponiyadan və Saxalindən koreyalıların məcburi köçürülmələrini xatırlamaq kifayətdir.

SSRİ-nin dağılması və bu məkanda gərginlik ocaqlarının yaranması ilə bağlı olan problemlərə, Azərbaycanda yeni məcburi miqrant kateqoriyalarının meydana çıxması ilə əlaqədar formalaşan mürəkkəb problemlər əlavə edilmişdir. Bu, ilk növbədə, yeni «Qafqaz» müharibəsinin təkcə «məcburi köçkünlər»in əsas mənbələri sırasına daxil etməyib, həm də Azərbaycan əhalisinə, eləcə də regionun digər xalqlarına qarşı əsl soyqırımı meydanına çevirdiyi Qarabağa aiddir.

Qarabağ müharibəsi təkcə yüz minlərlə məcburi miqrantın meydana gəlməsinə səbəb olmayıb, həm də mahiyyətcə, 1988-ci ilin fevralında azərbaycanlıların Ermənistandan qovulması ilə başlanan və artıq bir milyonu keçən qaçqınların və digər məcburi mühacir qruplarının problemlərinin həllinə yönəldilmiş proqramların reallaşdırılmasını çətinləşdirdi.

Qeyd etmək lazımdır ki, Bakıda məcburi miqrantlarla bağlı vəziyyət Azərbaycanın digər bölgələrindəkindən fərqlənir. Bakı azərbaycanlıların Ermənistandan, sonralar isə Gürcüstandan, Orta Asiyadan, Qazaxıstandan gələn «qaçqın dalğası»nın ilk zərbəsini öz üzərinə götürmüşdür.

«Məcburi miqrasiya»nın gələcəyindən danışarkən qeyd edilməlidir ki, bu, bir tərəfdən, bütövlükdə, dövlətin, cəmiyyətin, harada yaşamasından asılı olmayaraq, hər bir insana xeyirxah münasibətindən, digər tərəfdən isə, bu insanın özünün onun gələcəyinin təminatçısı ola biləcək ətraf mühitə münasibətindən asılı olacaqdır.

Müasir dövrdə, iqtisadi, millətlərarası münasibətlər, siyasi və sosial sahələrdə köklü dəyişikliklər şəraitində miqrasiyaların yeri və rolu xeyli dəyişikliyə uğrayır. Hazırda Azərbaycan-

da və MDB ölkələrində miqrasiya tez-tez bu və ya digər ixtilafların həllində özünəməxsus və çox vaxt sonuncu vasitə kimi çıxış edir. Artıq indi Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün vardır. Bundan əlavə, öz millətindən olanların kompakt halda daimi yaşadığı yerlərə köçmək istəyən şəxslər də çoxdur. 1989-cu il siyahıyaalınmasına görə, SSRİ-də 75 milyona qədər adamın öz milli-dövlət qurumları hüdudlarından kənarda yaşaması faktı nəzərə alınmaqla, siyasi və iqtisadi həyatda baş verən sürətli dəyişikliklər yerli millətdən olmayan şəxslər üçün müəyyən narahatlıq doğurur ki, bu da «öz» respublikalarına irimiqyaslı miqrasiya ehtimalını yaradır.

Bununla belə, hazırda miqrasiya proseslərində müşahidə olunan meyllərin ancaq son illərin hadisələrinin doğurduğu ən yeni meyllər olduğunu iddia etmək olmaz. SSRİ əhalisinin 50-80-ci illərdə ərazi yerdəyişməsinə dair məlumatların təhlili göstərir ki, bir sıra ekstremal hallarla bağlı cəmiyyətdə baş verən dəyişikliklərin təsirilə hazırda miqrasiya proseslərində müşahidə edilən dəyişikliklər əvvəldən, köhnə sistem çərçivəsində meydana gəlmiş, formalaşmış və inkişaf etmişdir.

Azərbaycanın beynəlxalq əmək bazarına inteqrasiyası son on illiklərdə beynəlxalq əmək mübadiləsinin güclənməsi deməkdir. Burada Azərbaycan üçün maraqlı cəhət uzaq xaricə əmək miqrasiyasıdır. Yaxın xaricdən gəlmə getmədən xeyli üstündürsə, uzaq xariclə münasibətdə bunun tam əksidir. Azərbaycandan mühacirəti, şərti olaraq, aşağıdakı qruplara bölmək olar: etnik (yəhudilər, ruslar, ermənilər) –daimi yaşamağa gedənlər; kütləvi əmək qrupu – müvəqqəti, yaxud daimi iş tapmağa gedənlər.

Sosial-iqtisadi şəraitin dəyişməsi, iqtisadiyyatın böhranı, təsərrüfat əlaqələrinin qırılması, istehsalın aşağı düşməsi, əhalinin müəyyən hissəsinin həyat səviyyəsinin pisləşməsi, regional həyat səviyyəsində diferensasiyanın güclənməsi miqrasiya potensialının struktur dəyişikliyində və miqrasiya proseslərinin xarakterində öz əksini tapmışdır. Miqrasiya potensialının formalaşmasında və inkişafında aşağıdakı məqamlar mühüm rol oynamışdır: istehsalın azalması nəticəsində əmək ehtiyatlarının

istifadəsiz qalması və bu səbəbdən işsizlərin yaranması, miqrantların keçmiş ittifaq respublikalarından Azərbaycana qayıtması.

Əvvəllər, iqtisadiyyatın daha çox ekstensiv inkişafı dövründə, miqrasiya potensialı özünü şəhər yerlərinə, Sibirin və Uzaq Şərqin yeni mənimsənilən regionlarına, Orta Asiya respublikalarına və Qazaxıstana kənd əhalisinin axını ilə təmsil olunurdu. Hazırda həm demoqrafik səbəblərdən (təqaüdə çıxmaq, doğma yerlərə, yaxud yaşayış üçün daha əlverişli yerlərə qayıtmaq), həm də cəmiyyətdə baş verən və keçmiş İttifaq respublikaları əhalisinin müəyyən hissəsinin həyatına xüsusilə ağrılı təsir göstərən, böhran halları ilə əlaqədar yaş dalğası deyilən miqrasiya müşahidə olunur.

Hazırda Azərbaycanda miqrasiya axınının əhəmiyyətli hissəsini bir sıra səbəblərdən (iqtisadi, sosial, psixoloji, milli xarakter) keçmiş İttifaqın regionlarına uyğunlaşa bilməyərək, Azərbaycana qayıtmağa məcbur olan «təkrar» mühacirlər təşkil edir.

Bütövlükdə, demək olar ki, Azərbaycanda miqrasiya proseslərində son illərdə nəzərə çarpan meyllər müəyyən dərəcədə tarazlıq, «öz məhvərinə qayıdış» olsa da, miqrasiyanın optimal inkişafını göstərmir. Azərbaycanda gedən miqrasiya prosesləri, müəyyən dərəcədə, keçid modeli kimi səciyyələndirilə bilər və yəqin ki, cəmiyyətin hansı vasitələrə üstünlük verəcəyini ancaq yaxın illərdə dəqiq demək mümkün olacaqdır. Azərbaycanda miqrasiya şəraitinin təşəkkülü və inkişafı da xeyli dərəcədə bundan asılı olacaqdır. Bununla belə, bir sıra iqtisadçıların və demoqrafların dünya təsərrüfat sistemi çərçivəsində əhalinin (işçi qüvvəsinin) beynəlxalq miqrasiyasına dair apardıqları təhlillərə əsaslanaraq, miqrasiyaların özünün təbiətinin dəyişməsinə ümumi qiymət vermək mümkündür.

Azərbaycan, MDB-nin digər ölkələri və Şərqi Avropa dövlətləri birlikdə bu sistemə getdikcə daha çox inteqrasiya olunurlar. İndi, keçmiş SSRİ məkanında müttəfiq respublikaların yerində suveren dövlətlərin yaranması nəticəsində, respublikalararası miqrasiya artıq beynəlxalq miqrasiyaya çevrilmişdir.

SSRİ-nin dağılması və bir sıra respublikalardakı millətlərarası müharibələrin nəticəsində bütün ölkələri, xüsusilə də Azərbaycanı miqrasiya dalğaları bürümüşdür. Bu dalğaların bir hissəsi MDB hüdudlarını aşaraq, uzaq xaricə də yayılmışdır. Lakin uzaq xaricə çoxmilyonlu mühacirətə dair proqnozlar özünü doğrultmadı. Keçmiş SSRİ-ni yerli xalqları bütün MDB ərazisinə son dərəcə bağlı olduqlarını göstərdilər. Onlar bu məkan daxilində xeyli fəal surətdə miqrasiya etdikləri halda, onun sərhədləri xaricində daimi yaşamağa daha az həvəslə gedirlər.

Çoxmilyonlu miqrasiya axınının mümkünlüyünə dair proqnozların real olmamasının bir səbəbi də, bu proqnozlarda başlıca amilin – miqrasiya şəraitinin, hər şeydən əvvəl, immqrasiya ölkələri vətəndaşlarının milyonlarla «yoxsul qohumlarını» qəbul etməkdə maraqlı olmadıqlarının nəzərə alınmaması idi. Təsadüfi deyildir ki, onların bəziləri (məsələn, İsveç, Norves, Avstraliya) artıq indi gələcək emiqrasiyanın məhdudlaşdırılmasına dair tədbirlər görürlər.

Bu qrupdan olan mühacirlərin səciyyəvi xüsusiyyəti onun açıq-aşkar milli xarakteridir. Söhbət yerli olmayan xalqlardan-yəhudilərdən, almanlardan, yunanlardan, habelə Birinci Dünya müharibəsindən sonra yəhudilər kimi, bütün dünyaya yayılmış ermənilərdən gedir. Hesablanmışdır ki, 1971-ci ildən 1980-cı ilə qədər İsrailə 100 minədək sovet yəhudisi mihacirət etmişdir. Sonralar, qoyulmuş məhdudiyyətlərlə bağlı 1987-ci ilə qədər onların mühacirəti xeyli azalmış, lakin sonra yenidən kəskin surətdə artaraq, 1990-cı ildə 120 minə çatmış, sonra isə yenidən xeyli (iki dəfə) azalmışdır. Bu sonuncu məlumat, ikinci əhəmiyyətli milli qrup olan, almanlara da aiddir. AFR-ə 1988-ci ildə 47 min, 1989-cu ildə 100 min, 1990-cı ildə artıq isə 100 mindən çox sovet almanı köçmüş, lakin sonralar emiqrasiya səngimişdir. Əsasən, ABŞ-a gedən erməniləri, habelə Yunanıstana gedən sovet yunanlarını fərqləndirmək olar. Bundan sonra, təqribən bərabər nisbətdə olan ruslar, ukraynalılar, latışlar və başqaları gəlir.

Beləliklə, keçmiş SSRİ-nin vətəndaşları daimi yaşamaq

üçün, əsasən, İsrailə-45%, AFR-ə-40%, ABŞ-a – 6%, Yunanıstana-5% getmişlər. Bu miqrant qrupu çərçivəsində yüksək ixtisaslı mütəxəssislərin xüsusi çəkisi daha böyükdür.

Son illərdə Azərbaycanda elmi tədqiqat işləri nisbətən məhdudlaşmışdır. Layihə təşkilatçılarının və tədqiqatçıların, yəni istehsalatda yeniliklərə (innovasiyalar) birbaşa təsir göstərən kontingentin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Fundamental elmin məhdudlaşdırılması isə daha böyük təhlükə doğura bilər. Yüksək ixtisaslı mühacirlərin sayı çox olmasa da, hazırda Azərbaycanın ən güclü riyaziyyatçıları Türkiyədə və digər ölkələrdə çalışırlar. Bu da Azərbaycanın intellektual potensialı üçün nəzərə çarpacaq itkidir.

Müxtəlif resipiyent (qəbul edən) ölkə üçün «beyin axını»nın öz çalarları var: inkişaf etməyə başlayanlar üçün peşəsi (hətta, tibb bacıları belə) əhəmiyyətlidir. Başqalarına, azı, ali savadlı mütəxəssislər lazımdır. Üçüncülər, -məsələn, ABŞ, Qərbi Avropa, – işçi qüvvəsinin keyfiyyətinə daha tələbkardırlar. Orada daha çox yüksək ixtisaslı alimlərə ehtiyac var. Onlar akademik və ya elmlər doktoru olmaya da bilər, lakin mütləq perspektivli, müasir texnoloji baza əsasında işləməyi bacaran və özlərini reallaşdırmağa qadir riyaziyyatçı, proqramçı, biotexnoloq, kimyaçı olmalıdırlar.

Mütəxəssislərin çıxıb getməsi bu ölkə üçün fəlakətdir. Onun miqyası isə heç də kiçik deyil. Son onillikdə elmi tədqiqat və ali məktəb heyətinin 10%-i çıxıb getmişdir. Qərb həyatına başqalarından daha asan uyğunlaşan, uzunmüddətli elmi və tədris təcrübələrinə gedən sonuncu kurs tələbələri də buna aiddir.

Elmi məktəblər dağılır, bir sıra istiqamətlərdə tədqiqatlar, sadəcə olaraq, dayanır. Məsələn, fiziklər «İoffe məktəbi», iqtisadçı coğrafiyaşünaslar «Baranski məktəbi» kimi elmi məktəblərin nə demək olduğunu yaxşı bilirlər.

Adətən, nəzərə çarpmayan bir cəhəti qeyd edək. Əmək elitasının sosial təkrar istehsalı rejimi pozulur. Belə ki, bir çoxu alim və mütəxəssis ailələrindən mühacirət edir. Ailədə bir

# AZƏRBAYCAN ƏHALİSİNİN MİQRASİYASI



(maksimum iki) uşaq doğumu səviyyəsi,əslində, nəsillərin varisliyinin pozulmasına səbəb olur, ailənin elmi-tədris ənənəsi bununla qurtarır.

Qabaqcıl ölkələrə «beyin axını» məhz Azərbaycanın və MDB-nin digər ölkələrinin hesabına həyata keçirilir. ümumiyyətlə, yüksək inkişaf etmiş ölkələr dünya səviyyəli mütəxəssislərin və yüksək istedadlı gənclərin «idxal»ına hər hansı bir məhdudiyyət qoymurlar.

Beləliklə, «beyin axını» donor ölkələr üçün mənfi haldır, çünki ölkə burada hazırlanan intellektual potensialdan məhrum olur. Yeni ideyalar və daha yüksək ixtisas alınmasına gəldikdə isə, hətta Qərb alimlərinin fikrincə, buna mühacirlərin yalnız bir qismi ümid bəsləyə bilər, əksəriyyətinin qisməti isə, həqiqətən, vətənindəki ixtisaslı işə görə olduğundan daha yüksək ödənişli ağır işlərdir.

# VIII FƏSİL
# ƏHALİ SIXLIĞI

## 8.1. Əhali sıxlığının öyrənilməsi və əhali sıxlığına təsir göstərən amillər

***Əhali sıxlığı*** *– ərazinin məskunlaşma dərəcəsi, 1 $km^2$ ərazidə daimi yaşayan əhalinin sayıdır.*

«Əhali sıxlığı» termini ilk dəfə «torpağın məhsuldarlığı» anlayışı ilə bağlı XIX əsrin birinci yarısı iqtisadçılarının əsərlərində işlədilmişdir.

Bundan əlavə, o, əhali ilə insanların məskunlaşdığı və istehsalın yerləşdiyi məkanla, cəmiyyətin təbii və maddi resurslarının mənbəyi olan ərazi arasında münasibətləri əks etdirən mühüm sosial-iqtisadi kateqoriyadır.

Yüksək və aşağı əhali sıxlığı olan bölgələrin növbələşməsindəki zahiri nizamsızlığa baxmayaraq, istər təbii xüsusiyyətlər, istərsə də ərazinin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlı sərt qanunauyğunluqlar mövcuddur.

Yer kürəsinin quru hissəsinin məhdudluğuna və bəşəriyyətin mövcudluğu dövründə onun əhəmiyyətli dəyişikliyə uğramadığına baxmayaraq, planetdə əhalinin yerləşməsi xeyli dəyişmişdir.

Xəritələr insanların ərazidə məskunlaşması haqqında təsəvvür verir. Onlar əksetdirmə formalarına görə fərqlənirlər. Xəritəyə baxdıqda Azərbaycanın qeyri-bərabər məskunlaşdığı görünür. Heç də məskunlaşmanın mənzərəsi sadə deyil. Bəzi yerlərdə şəhər və kəndlər , digər yerlərdə isə meşə massivləri , arealları yayılmışdır.

İnsanlar, daha çox, çay və göllərin yaxınlığında məskunlaşmışlar. Məskunlaşmanın əyani mənzərəsi xəritələrlə müəyyən edilir. Daha maraqlı xəritə iri miqyaslı xəritədir. Əhali sıxlığı xəritələri coğrafiyaşünaslar üçün xüsusi əhəmiyyətə malikdir. Bir qayda olaraq, kvadrat kilometr sahəyə düşən əhali sıxlığı, sahə vahidinə düşən insanların sayını səciyyələndirən göstəricidir. Müəyyən ərazi hüdudlarında məskunlaşma qiymətlən-

dirilir. Bu, ya ölkə, ya inzibati ərazi vahidi, ya da tarixi əyalətlərdir. Bu göstərici üçün nəzərdə tutulan ərazi nə qədər kiçikdirsə, o, insan və ərazi arasında qarşılıqlı təsirin xarakterini bir o qədər dəqiq əks etdirir.

Deməki lazımdır ki, coğrafiyaşünaslar maraqlı yanaşma tapmışlar. Onlar nöqtəli xəritələr yaradırlar. Bir nöqtə 1000, yaxud 10.000 nəfərə müvafiq gəlir, hər vilayətdəki adamların sayı təqribi hesablanır. Nöqtələr şəhər və kəndlərin faktik yerləşməsinə görə qoyulur. Beləliklə, biz insanların planetdə məskunlaşmasının mənzərəsini yekunlarını müəyyənləşdirmiş oluruq.

Deyə bilərik ki, XX əsrin sonlarında insanın yaşaması üçün yararlı olan bütün ərazilər məskunlaşmışdır. Daimi yaşayış məntəqələrinə $72^0$ şimal və $54^0$ cənub en dairələri arasında, habelə şaquli istiqamətdə dəniz səviyyəsindən 5000 metr hündürlükdə (daha yüksək yerlərdə yaşayış məntəqələrinin olduğu Tibet və And dağları istisna təşkil edir) təsadüf edilir. Hazırda bəşəriyyətin məskunlaşdığı oykumena, areal belədir.

Yer kürəsi hələ tam məskunlaşmamışdır. Onun qütbləri, il ərzində ən aşağı qiymətli radiasiya balansı (aşağı Günəş şüalanması, il ərzində ən az yağıntı) olan ərazilər məskunlaşmamışdır. İnsanın yaşaması üçün rütubət və isti lazımdır. Bundan əlavə, yüksək dağlıq yerlərdə atmosfer təzyiqi aşağı olur, tənəffüs çətinləşir. Artıq planetin məskunlaşmış hissəsinin daxilindəki səhra ərazilərində də vəziyyət eynidir. Demək lazımdır ki, sadalanan bütün ərazilər həyat üçün əlverişsizdir, insan və heyvanat aləmi ekologiyasına uyğun deyildir. Onlar davamlı antisiklonlar, zəifləşən hava axınlarının üstünlük təşkil etdiyi sahələrdir. Xüsusiyyətlərindən asılı olmayaraq, mahiyyətcə, onların hamısı, - buzlu, qumlu, dağlı, daşlı, - fərqi yoxdur, səhradır.

İnsanın və ərazinin qarşılıqlı təsirinin əsas məqamları zonallıq və yüksək sıxlıqla bağlıdır. Onlar insanların planet ərazilərində məskunlaşmasına güclü təsir göstərir. Canlı orqanizm olaraq, insan mühitlə termodinamik mübadilə şəraitinə uyğunlaşmışdır. Bu şərait birmənalı şəkildə onun vətəninin – Şərqi-

Ekvatorial Afrikanın şəraitinə uyğundur.

Sonra antropogenez, yəni insan növünün inkişafı başlamışdır. İnsan iqlimi dəyişdirməyi, havanı idarə etməyi öyrənməmişdir, o, mühitdən qorunma hesabına termodinamik tarazlığı zahiri tənzimləməyi, özünün təbii mühitə uyğunlaşmaq qabiliyyətinin köməyi ilə ekstremal şəraiti dəf etməyi öyrənmişdir.

İnsan məskunlaşmaq üçün, adətən, ovalıq və dəniz səviyyəsindən 500 metrdən hündür olmayan yerləri seçir. Qurunun 28%-i belə ovalıq və yüksəkliklərdən ibarətdir ki, bütün əhalinin 80%-i də burada yaşayır. Əhalinin daha çox sıxlığı düzənliklərdə, xüsusilə dəniz sahillərində müşahidə olunur. Əhalinin coğrafi əmək bölgüsü qanununa görə, burada insan fəaliyyəti növlərinin ən geniş rəngarəngliyi, ən böyük əmtəə mübadiləsi təmin edilir ki, bunun da nəticəsində ən böyük əhali sıxlığı yaranır. Misal üçün, Avropa çox sıx məskunlaşmışdır.

İnsanların Yer üzərində məskunlaşmasının daha bir xüsusiyyətinin üstündən yan keçmək olmaz. Bu, məskunlaşmanın okeansahili, dənizsahili isti dəniz cərəyanlarının təsiri rayonlarına meylidir. Əhali sıxlığı xəritəsini dəniz cərəyanları xəritəsi ilə tutuşdurduqda bunu asanlıqla görmək olar.

İsti Qolfstrim cərəyanı Qərbi Avropa, xüsusilə də Şimali Amerika sahillərinə təsir edir. Həm burada, həm də orada əhali sıxdır. Əksinə, Şimali Afrikanın qərb sahilindəki soyuq Kanar cərəyanının (isti iqlimə baxmayaraq) təsiri rayonlarında isə əhalinin sıxlığı daha azdır.

Cənubi Afrikanın qərb sahilindəki soyuq Benqel axınının təsiri rayonları da belədir. Bunun əksinə, Braziliya axınının təsirinə məruz qalan Cənubi Amerika sahillərində əhali olduqca sıx məskunlaşmışdır. Ümumiyyətlə, hər iki Amerikanın və Karib adalarının güclü isti okean axınları sarıdan bəxti gətirmişdir. Burada əhali son dərəcə sıxdır.

ABŞ sahillərini şərqdən Qolfstrim, qərbdən isə Sakit okeanın mərkəzi hissəsində hakim olan isti Şimali Sakit Okean axınları yuyur. Onlara müvafiq surətdə, ABŞ-ın Sakit okean sahilində və Kanadanın qərbində əhalinin sıx yerləşdiyi vahələr vardır. Bununla yanaşı soyuq Kaliforniya cərəyanının keç-

diyi Meksika ərazisi xeyli sıx məskunlaşmışdır.

Soyuq Labrador axını isə Kanadanın iri şimal əyalətlərinin şərq sahillərinin iqlimini soyuqlaşdırır və orada, demək olar ki, daimi əhali yoxdur.

Asiya, Avstraliya və Afrikada da əhalinin məskunlaşması çox rəngarəngdir. Hind okeanının isti axınları Cənubi Asiyada və Şərqi Afrikada əhalinin sıx məskunlaşması üçün əlverişli şərait yaradır. Doğrudur, Cənubi Asiya, ümumən, bunlarsız da xeyli sıx məskunlaşmışdır. Axı, hər şey nisbi və çoxamillidir.

Sakit okeanın isti Kuro-Sivo cərəyanının Çinin, Yaponiyanın və daha kiçik ölkələrin əhalisinin sıxlığına müəyyən təsiri də mövcuddur. Daha cənubda isə isti Şərqi Avstraliya cərəyanı Avstraliyanın və Yeni Zelandiyanın ərazisinin məskunlaşmasına müsbət təsir edir.

Kamçatka və Çukotkanı isə soyuq axın yuyur və təbii sərvətlərinə baxmayaraq, onlar zəif məkunlaşmışlar. $50^0$ şimal en dairəsi ilə şimal qütbü arasında yerləşən və kəskin kontinental iqlimə malik olan Mərkəzi, Qərbi, qismən Şərqi Rusiya əraziləri isə nisbətən yaxşı məskunlaşmışdır.

Qeyd edildiyi kimi, demək olar ki, XX əsrin sonunadək insan həyatı üçün yararlı olan bütün ərazilər məskunlaşmışdır. $72^0$ şimal en dairəsi ilə $54^0$ cənub en dairələri arasında daimi yaşayış məntəqələrinə rast gəlinir. Hər iki en dairəsinin sərhədləri, oykumeni arktik və antarktik zonaların qütb səhra və tundralarından, yəni ən az illik yağıntı düşən ərazilərdən ayırır. Bu ərazilərdə buxarlanmanın intensivliyi çox aşağıdır.

Yüksək dağlıq ərazilərin sərt təbii şəraiti (aqroiqlim ehtiyatlarının məhdudluğu, əkinə yararlı torpaqların azlığı, yamacların meylliyinin çox olması və s.) əhalinin məskunlaşmasını əhəmiyyətli dərəcədə çətinləşdirir, onun təsərrüfat fəaliyyətini məhdudlaşdırır.

Bununla bağlı, «ekstremallıq» təsəvvürünü dəqiqləşdirmək tələb olunur. Təbiət üçün ancaq təbiət proseslərinin qanunauyğun dəyişkənliyi səciyyəvidir. İnsanın özü üçün isə iqtisadi tələbatına müvafiq mühit yaratmaq və həyatının təkrar istehsalı üçün onun fasiləsiz fəaliyyətini dəstəkləmək, habelə sabit

əkinçilik-maldarlıq təsərrüfatı aparılmasını təmin etmək üçün iqtisadi və texnoloji xüsusiyyətləri ilə bağlı bu dəyişkənlik «ekstremal hal» sayılır. Hər iki hal insanın ətraf mühitlə mübadiləsinin, onun təkrar istehsal şəraitinin tərkib hissəsidir.

Təbii mühit yekcins olmadığından, onun üçün enlik zonallığı, yüksəklik qurşaqlığı və digər dəyişkənlik formaları səciyyəvidir. Ona görə də bütün orqanizmlər müəyyən mühit tipinə (yaxud tiplərinə) uyğunlaşmışlar. Onun dəyişməsi mühitlə termodinamik mübadilə şəraitinin dəyişilməsi nəticəsində orqanizmin məhvinə aparır, yaxud uzunmüddətli uyğunlaşma baş verir.

Canlı orqanizm kimi, insan da ətraf mühitlə termodinamik mübadilə şəraitinə, ehtimal ki, ulu vətəninin – Şərqi Ekvatorial Afrikanın – şəraitinə alışmışdır. İnsan orqanizminin ətraf mühitlə mübadiləni müstəqil tənzimləmə imkanlarında, çox güman ki, antropogenez – insanın təşəkkülü prosesindəki fizioloji dəyişikliklər nəticəsində böyük olmayan hansısa təkmilləşmə baş vermişdir. Yuxarıda sadalananlardan savayı, bütün təbiət zona-larında məskunlaşma bu təşəkkülün elementlərindəndir. İnsanın yiyələndiyi əsas vərdiş geyim və mənzilin köməyi ilə ətraf mühitdən (hər şeydən əvvəl, soyuqdan) qorunmaq hesabına termodinamik tarazlığı xaricdən tənzimləmədir. İnsan mənzil qurmaqla artıq indi nəzəri cəhətdən böyük məkan miqyasında özü üçün süni mühit yarada bilər. Qarşıya ekoloji şərtlərlə bağlı bu fəaliyyətin iqtisadi səmərəliliyi, yəni faydalı səmərə ilə ona nail olmağa sərf edilən səylərin nisbəti məsələsi çıxır.

Məhz bu mülahizələrə əsaslanaraq, təbii şərait ekstremal kimi qiymətləndirilə bilər. Sonuncu insanın bu şəraitdə xüsusi məqsədlərlə yaradılmış süni mühit (məsələn, elmi, hərbi və s.) hesabına yaşamasının mümkünlüyünü istisna etmir.

Bütün bəşəriyyətin 70%-dən çoxu qurunun cəmi 7%-ni əhatə edən sıx məskunlaşma areallarında yaşayır ki, bu da oykumenada əhali sıxlığının yüksək dərəcədə qütbləşməsindən xəbər verir. Bunlar, əsasən, ovalıqlar, düzənlik ərazilər və dəniz səviyyəsindən 500 metrdən hündür olmayan təpəliklərdir. sta-

tistik məlumatların müqayisəsi qütbləşmənin dərəcəsini müəyyən etməyə imkan verir.

İqtisadi inkişafın ilk mərhələlərində ərazinin təbii keyfiyyətləri əhalinin yerləşdirilməsi xüsusiyyətini və təsərrüfatın ixtisaslaşdırılmasını müəyyənləşdirir. Bununla belə, təbiətin insana təsiri, əvvəldə olduğu kimi, hazırda da böyükdür. Təbii fəlakətlər – vulkan püskürməsi, zəlzələlər, qurunun yavaş-yavaş çökməsi, yaxud qalxması, iqlim dəyişmələri Yerin landşaftını dəyişdirir və insanları yeni şəraitə uyğunlaşdıraraq, öz təsərrüfat fəaliyyətini müvafiq surətdə dəyişməyə vadar edir. İnsanın təsərrüfat fəaliyyəti də, təbiət kataklizmləri kimi, təkcə lokal deyil, həm də planet səviyyəsində dəyişikliklərə gətirib çıxarır. Təbii landşaftların şumlanması, meşələrin və bütöv qitələrdə təbii zonaların tükənməsinə gətirib çıxaran qırıb-yandırma əkinçiliyi praktikası, antropogen səhralaşdırma, suvarma nəticəsində torpağın şoranlaşması – insanın təsərrüfat fəaliyətinin doğurduğu qlobal problemlərin tam olmayan siyahısıdır. Planetimizin özünün mövcud olub-olmaması bir çox cəhətdən həmin problemlərin həllindən asılıdır.

Tarixən əhalinin sıx məskunlaşdığı ilk areallar isti iqlimə, uzunmüddətli vegetasiya dövrünə, münbit torpaqlara, kifayət qədər rütubət rejiminə, yaxud süni suvarma imkanlarına malik bölgələr olmuşdur. «Böyük tarixi çaylar» Yantszı və Xuanxenin münbit vadilərində, Dəclə və Fərat çayları arasında, Nilin aşağı axarında (burada əkinçiliyin 10 min ilə yaxın tarixi var), isti iqlimə malik səhra vahələrində, dağlararası münbit torpaqlı dərələrdə inkişaf etmiş bəşər sivilizasiyaları mövcud olmuşdur. Bu bölgələrdə əhali indiyə qədər də maksimum sıx məskunlaşmışdır. İnsanlar Yer üzərində son dərəcə qeyri-bərabər məskunlaşmışlar. Qurunun təqribən 1/10-i (Antarktida, Qrenlandiya, Arktik adalar və s.) indiyə qədər məskunlaşmamışdır. Qurunun təqribən ½-də əhali sıxlığı 1 $km^2$ 1 nəfərdən az, ¼-də 1-10 nəfər arasında, qalan hissəsində isə 10 nəfərdən çoxdur.

Əhalinin sıxlığı 1$km^2$-də 50 nəfərdən çox olan böyük areallar çox deyil. Avropa (şimal hissəsi istisna olmaqla), Asiyada Hind-Qanq ovalığı, Cənubi Hindistan, Şərqi Çin, Yapon adala-

rı, Yava adası, Afrikada Nil vadisi və Niger çayının aşağı axarı, ABŞ-ın şimal-şərqi, Braziliya və Argentinada bəzi sahilboyu bölgələr aiddir. Dünyanın bir çox şəhər bölgələrində əhalinin sıxlığı $1km^2$ -də bir neçə min nəfərə çatır. Bəşəriyyətin 2/3-dən çoxu qurunun təqribən 8% sahəsində cəmlənmişdir.

Relyef şəraiti, coğrafi mövqeyin əlverişliyi əhalinin daha çox dəniz və okean sahili bölgələrdə cəmlənməsinə səbəb olmuşdur. Belə ki, əhalinin 60%-i Şimal yarımkürəsinin mülayim qurşağında yaşayır. İnsanların yarıdan çoxu ovalıqlarda (dəniz səviyyəsindən 200 metrə qədər hündürlükdə), demək olar ki, 1/3-i isə dənizdən təqribən 50 km aralıda olan sahələrdə yaşayır (bu zolaq qurunun 12%-ni təşkil edir).

Amerika və Afrikanın okean sahillərində əhalinin sıxlığı nisbətən yüksəkdir. Bu da əlverişli təbii şərait, iqtisadi-coğrafi mövqe ilə bağlıdır.

XVII-XX əsrlərdə yüksək əhali sıxlığı olan areallların meydana gəlməsi sənayenin inkişafı ilə bağlı idi. İnsanlar yeni sənaye sahələrinin – qara metallurgiya və maşınqayırmanın inkişafını təmin edən təbii ehtiyatların – daş kömürün, dəmir filizinin təmərküzləşdiyi bölgələrdə məskunlaşırdılar. Avropada (Rur, Elzas və Lotaringiya, Donbas, Ural), Amerikada (Pitsburq, Pensilvaniya) «köhnə» adlandırılan sənaye bölgələrində əhalinin qonşu bölgələrə nisbətən yüksək sıxlığı bu günə qədər də müşahidə edilir.

## 8.2. Dünya əhalisinin regionlar üzrə yerləşməsi

Təbii, tarixi, sosial-iqtisadi və digər səbəblər nəticəsində dünya əhalisi Yer üzərində qeyri-bərabər qaydada yerləşmişdir. Əhalinin 87%-i Şərq yarımkürəsində, 13%-i Qərb yarımkürəsində, 90%-i Şimal yarımkürəsində, 10%-i Cənub yarımkürəsində cəmlənmişdir. Dünyanın quru sahəsinin böyük əraziləri insanların məskunlaşması üçün yararsızdır. İnsanların böyük hissəsi şimal mülayim və subtropik qurşaqlarda yaşayır. Yer kürəsi əhalisinin 2/3 hissəsi, faktik olaraq, qurunun 1/13-dən bir qədər çoxunu tutur. Yaşayış üçün ən yararlı torpaqlarda

əhalinin orta sıxlığı $1km^2$-də 230 nəfərdir. Halbuki, planetin qalan hissəsində orta sıxlıq $1km^2$ - də 10 nəfərdən azdır.

Yer kürəsi əhalisinin yarıdan çoxu Asiya materikində yerləşir. Burada əhalinin sıxlığı Amerikadakından 6,2 dəfə çoxdur. Əhalinin sıxlığı Hindistan yarımadasında, Cənub-Şərqi Asiyada, Çinin cənubunda, Koreya yarımadasında və Yaponiyada xüsusilə yüksəkdir. Bu regionlarda kənd əhalisinin sıxlığı $1km^2$-də 300 nəfərdən aşağı düşmür, intensiv suvarılan əkinçilik yerlərində (Yantszı, Sintszyan, Xuanxe, Qanq, Brahmaputra, Mekonq çaylarının vadiləri) $1km^2$-də 1000 nəfəri, ayrı-ayrı fiziki-coğrafi vilayətlərdə isə $1km^2$-də 2000 nəfəri keçir.

Avropada əhalinin sıxlığı Asiyadan fərqlidir. Şimaldan cənuba doğru getdikcə əhalinin sıxlığı tədricən artır. Rusiyanın Avropa hissəsinin şimalında sıxlıq göstəriciləri $1km^2$-də 2-dən 300 nəfərə qədər dəyişir.

Şimali Amerikada əhali, başlıca olaraq, $45^0$ və $35^0$ şimal en dairələri arasında yaşayır. Bu koordinatlar hüdudunda şimal-şərq əraziləri daha sıx məskunlaşmışdır. Burada sıxlıq $1km^2$-də 100 nəfərə çatır. Daha şimal regionlarda əhalinin sıxlığı tədricən aşağı düşür. Məsələn, Kanadanın cənubunda şəhər aqlomerasiyalarının hüdüdlarından kənarda $1km^2$-də əhali sıxlığı 50 nəfərdir, burada əhalisi sıx olan iki region seçilir: Şərq (Müqəddəs Lavrenti çayı boyu və Ontario ətrafı) və Qərb (prerlərdə və Britaniya Kolumbiyasının cənub hissəsində).

Əhalinin mütləq əksəriyyəti yüksək əhali sıxlığı olan həmin yerlərdə, xüsusilə Antil adalarında yaşayır. Məsələn, Trinidad və Tabaqoda, Barbadosda $1km^2$-ə 580 nəfər, Yamaykada 200 nəfər düşür. Lakin qitə hissəsində də əhali sıxlığı yüksək olaraq qalır ($1km^2$-də, orta hesabla, 100 nəfər) ki, bunu da iki səbəblə – kənd təsərrüfatı istehsalı üçün əlverişli şərait və burada yaşayan zənci və hindu əhalisi arasında yüksək doğum ilə izah etmək mümkündür.

Cənubi Amerikada əhalinin mütləq əksəriyyəti qitənin qərb və şərq sahilboyu hissələrində toplanmışdır. Kolumbiya və Perunun And hissəsindəki yaylaları, habelə Braziliyanın şimal-şərq və cənub-şərq hissələri daha sıx məskunlaşmışdır. Bu qi-

tənin daxili bölgələri zəif məskunlaşmışdır. Atlantik okeanı sahillərinə yaxın kiçik ərazilərdə 1km$^2$-də orta sıxlıq 10 nəfər olduğu halda, okeandan uzaq ərazilərdə əhalinin sıxlığı 1km$^2$-də 1 nəfərədək aşağı düşür. Amazoniyada bir çox işsiz şəhərlilərin və torpaqsız kəndlilərin 1970-1980-ci illərdə qitənin içərilərinə köçməsi nəticəsində orada əhalinin sıxlığı nəzərəçarpacaq dərəcədə artmışdır. Qitənin ən ucqar cənub qurtaracağı – Pataqoniya və Odlu Torpaq adaları ekstremal şəraitə, soyuq iqlimə görə zəif məskunlaşmışdır.

Afrikada əhalinin yerləşməsi həm təbii, həm də tarixi amillərlə bağlıdır. Böyük Səhranın intəhasız ənginliklərində qitə əhalisinin 1%-dən azı yaşayır. Rütubətli Ekvatorial meşələrin də əhalisi azdır. Əvəzində isə, Aralıq dənizi sahillərində, Fil Dişi sahilindən Kameruna qədər Qvineya körfəzi sahillərində, habelə Viktoriya gölü ətrafındakı yaylada əhali sıxlığı yüksəkdir. Nil vadisində, Tunisin və Əlcəzairin, əsasən, kənd əhalisi yaşayan sahil bölgələrində 1km$^2$-ə 800 nəfərdən çox adam düşür. Qitənin qalan ərazisində bir sıra tarixi səbəblərdən, ilk növbədə isə, qul alveri və müstəmləkə ağalığı nəticəsində torpağı ekstensiv becərmə forması mövcud olduğundan kənd əhalisinin sıxlığı, əsasən, aşağıdır.

Avstraliya və Okeaniyanın əhalisi XX əsrin ikinci yarısına qədər cənub-qərb sahili limanları ətrafında cəmləşmişdi və sayı 1,5 milyon nəfərə çatırdı. 1960-cı illərdən etibarən buraya immiqrant axını çoxaldı və əhali sürətlə artmağa başladı. Bununla belə, bu qitə başqa qitələrə nisbətən xeyli az məskunlaşmışdır. Əhalinin orta sıxlığı 1km$^2$-də iki nəfərdən azdır. əhalisinin sıxlığına görə Okeaniyanın ada ölkələri istisna təşkil edir və burada 1km$^2$-ə 150 nəfər adam düşür.

Yer kürəsinin təqribən 20%-ni tutan arktik və subarktik qurşaqlar, demək olar ki, məskunlaşmayıb. Bu zonada pla-

net əhalisinin cəmi 0,1%-i daimi yaşayır. Bunlar azsaylı Şimal xalqları eskimoslar, laplandiyalılar, saamlar, nenlər, çukçalar və başqaları, habelə dağ-mədən qəsəbələrində, dəniz limanlarında, hərbi bazalarda yaşayan gəlmə əhalidir. Sakinsiz arktikanın və subarktikanın sahəsi 20 milyon $km^2$-ə bərabərdir. Antarktidada elmi müşahidə stansiyalarında işləyənlərdən savayı burada daimi yaşayan əhali yoxdur. Qütb ərazilərinin məskunlaşmamasının başlıca səbəbi buranın son dərəcə sərt iqlim şəraitinin olmasıdır.

Beləliklə, Yer kürəsinin əhalisinin yerləşməsindəki təzadlar böyükdür. Yüksək əhali sıxlığı Cənub və Şərqi Asiyaya, Qərbi Avropaya və ABŞ-ın şimal-şərq hissəsinə xasdır. Dünya quru sahəsinin təqribən 15%-i – qütbətrafı bölgələr, Mərkəzi və Cənub-Qərbi Asiyanın, Şimali Afrikanın səhraları, demək olar ki, məskunlaşmamış qalır. Rütubətli tropik qurşaqların xeyli hissəsində, dağlıq yerlərdə əhali olduqca az məskunlaşmışdır.

## 8.3. Əhali sıxlığının təsərrüfat tipləri ilə qarşılıqlı əlaqəsi

Dünya əhalisi son dərəcə qeyri-bərabər məskunlaşmışdır. Bunu dörd başlıca səbəblə izah etmək mümkündür:

a) ***Təbii amillərin təsiri ilə.*** İnsanların həyatı üçün əlverişli olmayan geniş səhra bölgələri son dərəcə zəif məskunlaşmışlar. Yaşayış və təsərrüfatı inkişaf etdirmək üçün bəşəriyyəti əzəldən daha yararlı olan düzənlik bölgələr cəzb etmişdir. Bunu 8.1 cədvəlinin timsalında nümayiş etdirmək olar.

b) ***Qurunun məskunlaşmasının tarixi xüsusiyyətlərilə.*** İnsanların Yer üzərində məskunlaşması bütün tarix boyu baş verdiyindən alimlərin əksəriyyəti hesab edir ki, bəşəriyyətin ulu vətəni Afrika və Cənub-Qərbi Avrasiyadır. İnsanlar tədricən buradan Yer kürəsinin bütün materiklərinə

yayılmışlar. Qədim insanlar Şimali, sonra isə Cənubi Amerikaya, nə vaxtsa, Berinq boğazının yerində olmuş «quru körpü» yolu ilə keçmişlər. İlk insan Avstraliyaya Cənub-Şərqi Asiyadan keçmişdir. Qazıntı halında tapılmış insan qalıqları bəşəriyyətin yayılmasının necə baş verdiyinə dair nəticə çıxarmağa kömək etmişdir.

**Cədvəl 8.1**

**Dünya əhalisinin yüksəklik zonalarına görə bölgüsü**

| Qitələr | Dəniz səviyyəsindən hündürlük, metrlə | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 200 metrdən aşağı | 200-dən 500 metrədək | 500-dən 1000 metrədək | 1000-dən 2000 metrədək | 2000 metrdən yuxarı | Orta məskunlaşma hündürlüyü | Ərazinin orta hündürlüyü |
| | Əhali, %-lə | | | | | | |
| Avropa | 69 | 24 | 7 | - | - | 170 | 300 |
| Asiya | 56 | 24 | 12 | 7 | 1 | 320 | 950 |
| Afrika | 32 | 24 | 21 | 21 | 2 | 590 | 750 |
| Şimali Amerika | 47 | 33 | 8 | 8 | 4 | 430 | 700 |
| Cənubi Amerika | 42 | 15 | 23 | 9 | 11 | 645 | 580 |
| Avstraliya və Okeaniya | 73 | 18 | 8 | 1 | - | 95 | 350 |
| Bütün quru (Antarktida və Qrenlandiyadan savayı) | 56 | 24 | 12 | 7 | 1 | 320 | 725 |

c) ***Müasir demoqrafik şəraitdəki fərqlərlə.*** Təbiidir ki, əhalinin sayı və sıxlığı təbii artımın daha yüksək olduğu ölkələrdə və regionlarda çoxalır. Ərazicə böyük olmayan və yüksək təbii artıma malik Banqladeş buna misal ola bilər. O, dünyada əhalinin ən sıx olduğu ölkədir.

ç) ***İnsanların sosial-iqtisadi həyat şəraitinin, onların təsərrüfat fəaliyyətinin, istehsalın inkişaf səviyyəsinə təsiri-lə.*** Bunun ən bariz təzahürü insanların dəniz və okean sahillərinə bağlılığı ola bilər. Əhalinin məskunlaşmasının qeyri-bərabər bölgüsünü kartoqram metodu ilə hazırlanmış əhali sıxlığı xəritəsi də göstərir. Burada orta sıxlıq siyasi-inzibati vahidlər hüdudunda hesablanır. Sıxlıq xəritələri həm bütün əhali, həm də ayrıca kənd əhalisi üçün hazırlanır. Hər iki variantda şəhərlər punsonla göstərilir. Zəif məskunlaşmış ərazilərdə əhalinin yerləşməsini əks etdirmək üçün, əsasən, nöqtə işarələrindən istifadə olunur. Burada hər nöqtə müəyyən sayda insanı göstərir. Məskunlaşmış qurunun (oykumenin) orta əhali sıxlığı 1km$^2$-də 40 nəfərə yaxındır. Həm də bütün əhalinin təqribən 70%-i quru ərazisinin 7%-də yaşayır, onun təqribən yarısında isə orta əhali sıxlığı 1km$^2$-də 5 nəfərdən azdır.

İfrat mənimsənilmiş bölgələrdə yüksək əhali sıxlığı əhalini digər yerlərə köçməyə məcbur edir ki, bu da tez-tez istər ekoloji, istərsə də siyasi xarakterli neqativ hallarla nəticələnir. Əvvələn, yeni gəlmiş miqrantların yeni bölgələrdə təbii ehtiyatlardan qənaətlə istifadə etmək vərdişləri yoxdur, ikinci tərəfdən, ehtiyatlara yiyələnmək uğrunda mübarizə aparan lokal münaqişələr güclənir. Belə ki, Şərqi Afrika yaylasının əkinçilik bölgələrində əhali sıxlığının daim artması yaylaların ətəklərindəki köçəri maldarların da istifadə etdiyi ərazilərin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunmasına səbəb olur. Ehtiyatlar uğrunda bu mübarizə tez-tez qanlı münaqişələrlə nəticələnir.

Məhdud ehtiyatlar, məsələn, Nilin axını uğrunda rəqabət

artıq dövlətlərarası səviyyədə qızışır. Çayın yuxarı axarında yerləşən ölkələr suvarma əkinçiliyini inkişaf etdirməyi planlaşdırır və hazırda Nil suyunun əsas istifadəçisi olan Misirdən sudan az istifadə olunmasını tələb edirlər.

Əhalinin qeyri-bərabər yayılmasına dair coğrafi misalları davam etdirsək, məlum olar ki, Yer kürəsi əhalisinin 87%-i Şərq yarımkürəsində, 90%-i isə Şimal yarımkürəsində cəmlənmişdir.

Ayrı-ayrı dünya ölkələri arasında ən yüksək əhali sıxlığı hər cırtdan dövlətlər olan Monakoda 1 $km^2$-də 15,5 min, Sinqapurda 4,5 min, Vatikanda 20 min nəfər təşkil edir. Böyük dövlətlər arasında ən yüksək göstərici Banqladeşdədir – 1$km^2$-də 850 nəfər. Bu göstərici Çində 125, Hindistanda 300, ABŞ-da 27 nəfər, Azərbaycanda isə 96 nəfərdir.

Bir $km^2$-də 2 nəfər və daha az sıxlıq ən aşağı göstərici hesab edilə bilər. Bu qrup ölkələrə Monqolustan, Liviya, Mavritaniya, Namibiya, Qviana, Avstraliya İttifaqı daxildir.

Yer kürəsində 5 əsas yüksək sıxlıq arealı mövcuddur. Onların ən böyüyü Çinin şərq əyalətlərini, Koreya və Yaponiyanı əhatə edən Şərqi Asiya arealıdır.

Oykumen ərazisinin 54%-dən çoxunda orta sıxlıq 1$km^2$-də 5 nəfərdən azdır. Bu, əsasən, qütbətrafı adalar və arxipelaqlar, Şimali Amerikanın və Avrasiyanın Şimal Buzlu Okeanına yaxın dəniz sahilləridir. Bu ərazilərin xeyli hissəsi (Kanada Arktika Arxipelaqı adaları, Şimal Torpağı, Frans İosif torpağı, Taymır yarımadası və s.), ümumiyyətlə, əhalisizdir, yaxud çox seyrək məskunlaşmışdır.

Şimali Afrikanın, Mərkəzi və Qərbi Avstraliyanın, Mərkəzi Asiyanın səhraları da zəif məskunlaşmış regionlardır. Amazon çayı hövzəsinin rütubətli ekvatorial meşələri də zəif məskunlaşmışdır. Ərəbistan yarımadasında məskunlaşma arealları azdır. Aşağı əhali sıxlığı, bir qayda olaraq, eksremal təbii şəraitə malik bölgələr üçün səciyyəvidir. Belə ki, arid iqlimli bölgələrdə əhalinin cəmləşməsinə ma-

ne olan başlıca amil, rütubətin kifayət qədər olmamasıdır; qütb qurşaqları və yüksək dağlıq yerlərdə orta illik temperatur aşağıdır; rütubətli tropik meşələr zonasında isə yüksək rütubətlilik, təbii münbitliyin aşağı olması, torpağın eroziyasının sürətlə yayılması üzündən kənd təsərrüfatında çətinliklər yaranır. Bu bölgələrdə mövcud olan ənənəvi təsərrüfatçılıq üsulları böyük ərazilər tələb edir (məsələn, qırıb-yandırma əkinçiliyi ilə məşğul olan bir təsərrüfat 7 hektara yaxın sahəni tutur). Əhali artımı ilə müşayiət olunan yeni təsərrüfat mənimsəməsi kövrək ekoloji sistemin pozulmasına, və sürətli deqradasiyasına gətirib çıxarır.

Burada orta sıxlıq hər yerdə (qaratorpaq bölgələrdən savayı) 1 $km^2$-də təqribən 200 nəfərdir, Yantszı çayı vadisində, Cənubi Koreyada və Yaponiyada isə 300 nəfəri keçir. Bu regionda 1,5 milyarddan çox əhali yaşayır.

İkinci ifrat məskunlaşma əhali arealı orta sıxlığın 1 $km^2$-də təqribən 300 nəfər olduğu Qanq və Brahmaputra vadisi, sıxlığın 500 nəfərdən çox olduğu Cənubi Asiyadır (Hindistan, Banqladeş, Pakistan, Şri-Lanka). Burada 1 milyarddan artıq əhali cəmlənmişdir.

Üçüncü ifrat məskunlaşma arealı 350 milyon nəfərdən çox adam yaşayan Cənub-Şərqi Asiyada (İndoneziya, Tailand, Filippin, Malayziya) təşəkkül tapmışdır.

Bu siyahıda dördüncü yerdə Qərbi Avropa (Böyük Britaniya, Benilüks ölkələri, Fransa və Almaniyanın şimalı) arealıdır. Burada əhali sıxlığı 1 $km^2$-də 200 nəfərdən artıqdır.

# AZƏRBAYCAN RESPUBLİKASI



Birinci üç arealdan fərqli olaraq, bu regionda sıxlıq daha çox sənayenin təmərküzləşməsi nəticəsində yaranmışdır.

Beşinci əhali sıxlığı arealı ABŞ-ın şimal-şərqində və Kanadanın cənub-şərqində – Atlantik okeanı sahili ilə Böyük göllər arasında müşahidə olunur. Qərbi Avropada olduğu kimi, burada da əhalinin cəmlənməsi sənayenin yüksək inkişafı ilə izah edilir.

Xarakterizə edilən sıxlıq göstəricilərini Azərbaycandakı sıxlıq göstəriciləri ilə müqayisə etsək, görərik ki, əhali sıxlığının hər $km^2$-də 300 nəfərdən çox olduğu göstərici Abşeron yarımadasında (Bakı və Bakı aqlomerasiyası) müşahidə edilir. Digər sıx məskunlaşmış Lənkəran ovalığında və Naxçıvan MR-ın Şərur rayonunda isə həmin göstərici 1 $km^2$-də 150 nəfərdən çoxdur.

# IX FƏSİL
# MƏSKUNLAŞMA VƏ MƏSKUNLAŞMIŞ ƏRAZİLƏR

## 9.1. Məskunlaşma anlayışı

*«Məskunlaşma»* termini çox mürəkkəb anlayış olub, əhalinin tarixən məskunlaşması və yerdəyişməsi, onun hansısa yeni əraziləri tutması prosesini və bu proses nəticəsində məskunlaşmış yerlər məcmusunu, hətta cəmiyyətin məkanca təşkili formasını da bildirə bilər.

***Məskunlaşma*** əhalinin ölkə, yaxud region ərazisində tarixən yayılma prosesidir. O, məskunlaşmış yerlər sisteminin yaranması və sonrakı dəyişmələri – cəmiyyətin məkanca təşkili forması; əhalinin ərazidə məskən adlandırılan müəyyən yerlərdə lokallaşması (cəmləşməsi); müəyyən ərazi hüdudlarında məskənlərin məcmusu və əhalinin digər daimi və müvəqqəti yaşayış formaları; qarşılıqlı surətdə bağlı, nizamlanmış ərazi ünsürlərinin – məskənlərin daxil olduğu tarixən təşəkkül tapmış dinamik sistem ilə müşayiət edilir. Məskunlaşma sistemi bütövlükdə məskunlaşma formalarını və məskən tiplərini müəyyənləşdirən coğrafi mövqeyi, təsərrüfatı, ərazinin əhalisini yaradır. Məskunlaşma sosial-iqtisadi, coğrafi və demoqrafik amillərlə (istehsal münasibətlərinin xarakteri, məhsuldar qüvvələrin səviyyəsi və yerləşdirilməsi, iqlim, relyef, yer təkinin ehtiyatları, əhalinin təkrar istehsal rejimi və s.) şərtlənir. O, əhalinin təbiətlə sosial-iqtisadi əlaqə imkanlarını müəyyənləşdirən məhsuldar qüvvələrin yerləşdirilməsi prosesinin tərkib hissəsidir.

***Əhalinin məskunlaşması*** - yaşayış məntəqələri şəbəkəsinin yerləşməsi ilə əlaqədar əhalinin ərazidə yerbəyer edilməsidir.

Yer üzərində insan məskəni olan hər hansı ərazini yaşayış məntəqəsi adlandırmaq mümkündür.

Beləliklə, yerləşdirməni həm məskunlaşdırma prosesi, həm onun nəticəsi, həm də əhali coğrafiyası üçün xüsusi maraq doğuran və onun başlıca tədqiqat obyekti olan bütün yaşayış yerlərinin məcmusu kimi dəyərləndirmək olar.

## 9.2. Məskunlaşma formaları

İnsanların əsas məskunlaşma forması bəzi bölgələrdə sıx, digərlərində isə seyrək şəbəkə yaradan daimi yaşayış məntəqələri – şəhərlər və kəndlərdir. O, bəzən, digər xüsusi yerləşmə formaları ilə də tamamlana bilər.

Məskənlərin şəhər və kənd yerlərinə ayrılması üçün əsas tarixən ictimai-ərazi əmək bölgüsü olmuşdur. Bu, hər şeydən əvvəl, sənaye və ticarət əməyinin əkinçilik əməyindən ayrılmasına gətirib çıxarır ki, bu da iki əsas məskən tipinin – şəhər və kənd məskənlərinin inkişafını şərtləndirir.

***Şəhər məskənləri*** – bir, yaxud bir neçə müxtəlif xalq təsərrüfatı funksiyalarını –1) sənaye; 2) nəqliyyat; 3) təşkilat-təsərrüfat, mədəni, siyasi və inzibati; 4)istirahətin və müalicənin (kurortlar) təşkili funksiyalarını yerinə yetirən yaşayış məntəqələridir. Şəhər məskənlərinin müəyyənləşdirilməsi üçün əhalinin sayı, məşğulluğu, müxtəlif ölkələrin və bölgələrin yerli xüsusiyyətləri nəzərə alınmaqla, yaşayış məntəqəsinin iqtisadi və mədəni əhəmiyyəti kimi əlamətlər məcmu şəkildə əsas tutulmalıdır.

***Kənd məskənlərinə***, əsasən, sakinləri ərazicə hissələrə ayrılmış kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan kiçik yaşayış məntəqələri aid edilə bilər. Kənd məskənlərinin çoxlu adları mövcuddur. Təkcə Rusiyada kənd, xutor, stanıtsa, vıselki və s. adlar vardır. Digər ölkələrdə özlərinə

məxsus spesifik adlar (aul, qışlaq, şenlik və s.) işlədilir. Bu adlar, müəyyən dərəcədə, kənd məskənlərinin funksional spesifikliyini əks etdirsə də, buna əsasən kənd məskənlərinin elmi tipologiyasından danışmaq çətindir. İctimai əmək bölgüsünün öncül funksiyalarına görə, kənd məskənlərinin iki iri tipi fərqləndirilə bilər: kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məskənləri. Bura aqrosənaye qəsəbələri tipi də aid edilir.

«Kənd təsərrüfatı» və «qeyri-kənd təsərrüfatı» kənd məskənləri kənd məskənləri tipinin istehsal istiqamətlərini konkretləşdirən anlayışdır. Birinci halda bu, sakinləri, başlıca olaraq, kənd təsərrüfatı əməyi ilə məşğul olan məskənlərdir, ikinci halda isə, sakinləri kənd təsərrüfatı sahəsində çalışmayan, ərazicə bölünmüş digər funksiyaların (meşə təsərrüfatı, nəqliyyata qulluq, rekreasiya ehtiyatlarının istismarı və s.) yerinə yetirilməsində iştirak edən yaşayış məntəqələridir. «Aqrosənaye qəsəbəsi» anlayışı əvvəlki iki tipin əlamətlərini özündə birləşdirir. Qəsəbənin özü kənd yerində, ilk növbədə, kənd təsərrüfatı xammalını emal edən sənayenin inkişafı əsasında təşəkkül tapır.

Şəhərin və kəndin sistemli öyrənilməsi ancaq bir meyara əsaslana bilməz, çünki onların hər biri anlayışların ancaq bir cəhətini əks etdirir. Şəhər və kənd məskənlərinin hərtərəfli öyrənilməsi üçün meyarlar sistemi tətbiq olunmalıdır.

«Şəhər» və «kənd» meyarlarının təqribi sxemini nəzərdən keçirək:

1) əhalinin sayı və sabitlik dərəcəsi, əhalinin təbii və mexaniki hərəkətinin xarakteri;

2) ictimai istehsalın sahə və peşə strukturunun xarakteri və mürəkkəbliyi, sənayenin, tikintinin və nəqliyyatın inkişaf dərəcəsi;

3) maddi-məkan mühitinin təşkilinin səviyyəsi, məskənin abadlıq dərəcəsi;

4) xidmət sahəsinin inkişaf səviyyəsi, yəni sosial istehsalın bütün formalarının təşkili;

5) məskənin sosial funksiyaları (cəmiyyətin və xalq təsərrüfatının idarə olunmasında onun rolu, ətrafdakı yaşayış məntəqələrinə münasibətdə funksiyaları);

6) əhalinin həyat tərzi;

7) tələbat fərqlərini səciyyələndirən şüurluluq fəaliyyəti (həmin yaşayış məntəqəsi üçün spesifik norma və dəyərlər);

8) yaşayış məntəqəsinə şəhər, yaxud kənd kimi münasibət.

Məskənlərin «şəhər» və «kənd»lərə görə təsnifatını əməli səviyyəyə çatdırmaq üçün nəzəri meyarların düsturlaşdırılmasından əlavə:

1) hər bir meyara müvafiq konkret göstəricilər sistemi;

2) «kənddən» «şəhərə» keçidi səciyyələndirən «hədd» göstəriciləri sistemi;

3) bu göstəricilərin öyrənilən məskənlər toplusu üçün kəmiyyət göstəriciləri haqqında informasiya lazımdır.

Perspektivdə şəhər və kənd məskənləri arasında fərqlər azalacaqdır. Lakin onlar hələlik aradan qaldırılmadığından məskənlərin əsas tipologiyasını yeni şəraitə – kəndin getdikcə *urbanizasiyalaşmasına* və kənd yerlərində qeyri-kənd təsərrüfatı işlərinin yayılmasına uyğunlaşdırmaqla dəyişmək (sakinlərin ictimai istehsalın əsas sahələrinə münasibəti meyarı üzrə) məqsədəuyğun olardı. Məskənlərin hamısını şəhər (şəhər tipli) və qeyri-şəhər məskənlərinə bölmək olar. Həm birincinin tərkibində iki – şəhərlər və şəhər qəsəbələri, həm də digərinin tərkibində iki – qəsəbələr (qeyri-kənd təsərrüfatı profilli məskənlər) və kəndlər – dərəcəsi ayırd etmək mümkündür.

Aydın məsələdir ki, əhalinin məskunlaşma tiplərinin dəyişməsi, hər şeydən əvvəl, əsas inkişaf qanunauyğunluqları və ictimai-iqtisadi formasiyaların dəyişməsi ilə bağlı-

dır. Məskunlaşmanın özü istehsal üsulunun mühüm xarakteristikası olmaqla, hakim istehsal münasibətlərindən və ictimai-iqtisadi formasiyanın məqsədlərindən irəli gəlir.

Lakin bəzi əsərlərdə irəli sürülən nəzəriyyəyə görə, tarixi perspektivdə urbanizasiya və məskən şəbəkəsinin mürəkkəbləşməsi prosesi köç – kənd – kiçik şəhər – böyük şəhər – aqlomerasiya – meqapolis sxemi üzrə baş vermiş və verməkdədir.

Hər formasiyanın özünəməxsus tarixi məskunlaşma tipi olmuşdur.

**I tipi** - «dispers (dağınıq, pərakəndə) qəbilə məskunlaşması» adlandırmaq olar. Bu, oturaq həyata keçmək meylinin artıq üstünlük təşkil etdiyi və daimi məskənlərin yayıldığı ibtidai icma quruluşu dövrüdür. Bununla yanaşı, uzun müddət ərzində, nadir hallarda isə bugünədək gəlib çıxan və yalnız müvəqqəti yaşayış yerləri yaradan köçəri çoban qəbilələri də olmuşdur. Bu qəbil məskunlaşma üçün bir-birindən xeyli aralı olan kiçik məskənlər tipikdir. Bir çoxu qarşılıqlı surətdə düşmənçilik edən müxtəlif qəbilələrin məskənləri arasında əlaqə olduqca zəif idi. Hər bir qəbilənin gücündən asılı olaraq, mərkəzi məskənin ətrafında yerləşən və bir növ, onun nüfuz zonası sayılan dirrik yeri vardı.

**II tip** – «antik polis» (şəhər) üçün dəniz və çay sahillərində yerləşən, - bəzən, hətta 1 milyonadək əhalisi olan iri, - şəhər – dövlətlər səciyyəvidir. Əhalinin hərəkəti, miqrasiya, əsasən, hərbi yürüşlərlə məhdudlaşmışdır.

**III tip** – «feodal kəndi»dir. Burada kiçik kənd məskənləri üstünlük təşkil edir, şəhərlər böyük deyil. Əhalinin mütəhərrikliyi aşağıdır (hər hansı digər səbəblərlə – müharibələr, dini təqiblər və s. ilə deyil, iqtisadi səbəblərlə bağlı miqrasiya nəzərdə tutulur).

**IV tip** – «urbanizasiyalı məskunlaşma» yüksək dərəcədə şəhərləşmiş, bir sıra (xüsusilə şəhər-kənd) cəhətdən qütb-

ləşmiş məskunlaşmadır. Bu tipdə iri şəhərlərin, ən yüksək mərhələdə isə aqlomerasiyaların, meqapolislərin mövcudluğu, əhalinin yüksək mütəhərrikliyi nəzərdə tutulur. Məskunlaşmanın dağınıqlığı prosesinə keçid yüksək mütəhərrikliyin nəticəsidir.

Yeni **V tip** məskunlaşma gələcəkdə əhalinin çox yüksək mütəhərrikliyinin onun ərazidə daha bərabər şəkildə bölgüsünə aparan müxtəlif funksional tipli məskənlərdə həyat şəraitinin və sivilizasiya nemətləri bölgüsünün bərabərliyinin təmin ediləcəyi məskunlaşma demək olacaqdır.

İstehsal fəaliyyətinin ayrı-ayrı növləri məskunlaşma qarşısında müxtəlif tələblər qoyur. Onların bəziləri (emal sənayesi, elm, bank işi, ticarət) əhalinin cəmləşməsini, digərləri (ovçuluq, maldarlıq) isə, əksinə, pərakəndə məskunlaşma tələb edir. İstehsal fəaliyyəti konkret tarixi və təbii şəraitdə keçir ki, bu da Yer kürəsinin hər bir ayrıca regionunda məskunlaşmanın spesifikasında, məsələn, yaşayış məskənlərinin qələbəliyində, Yer üzünün müəyyən elementlərinə bağlılığında, onların planlaşdırılmasında, ev tiplərində və s. əks olunmaya bilməz. Qütb dairəsindəki şəhər və kəndlər çöl zonasında olanlara bənzəmirlər. Orta Asiya vahələrinin kənd yaşayış məntəqələri Nil vadisindəki məskənlərdən xeyli fərqlənirlər. Halbuki, həm burada, həm də orada əsas əkinçilik sahəsi pambıqçılıqdır. Tarixi, etnoqrafik və təbii şərait Yer üzünün ayrılıqda hər bir regionunun məskunlaşma spesifikasını müəyyən edir.

Təbii şərait texniki amil kimi çıxış etdikdə, - məsələn, yaşayış məntəqəsi üçün sahə seçilərkən, - məskunlaşmaya birbaşa təsir də göstərə bilər. Yerin meylliliyi, faydalı qazıntı yataqları, su təchizatı və çirkab sularının axıdılması şəraiti yaşayış məntəqələrinin yerləşdirilməsini, onların planlaşdırılmasını və bu yaşayış məntəqələrinin müxtəlif təyinatlı hissələrinin qarşılıqlı surətdə yerləşməsini müəyyənləşdirir. Dünyada mövcud olan məskunlaşmanın bütün

müxtəlifliyini nəzərdən keçirsək, onun bir neçə əsas formasını fərqləndirmək mümkündür. Onların hər birinə istehsalın təşkilinin müəyyən məkan tipi uyğun gəlir.

1. Ayrıca həyəti – mülkü olan **dispers** (dağınıq) kənd məskunlaşması insanları təbii ehtiyatlara (əkinçilik üçün baza olan torpaq fondu, təbii bitki örtüyü, ovçuluq yerləri və s.) daha da yaxınlaşdırır. Bunlardan əldə edilən maddi nemətlər onlar üçün təsərrüfatın əsasını təşkil edir. ABŞ-da homsted zonasındakı pərakəndə formalar, habelə Baltikyanı ölkələrin bəzi yerlərindəki formalar, malikanələr, xutorlar və s. belə pərakəndə məskunlaşmaya bariz nümunə ola bilər.

Torpaq payları kiçik həcmli olduqda təkhəyətlilər sıxlışma mərkəzli və səpələnmə zonalı qrup formasını xatırladan silsilə dağınıq məskunlaşma forması yarada bilərlər. Bəzən təkhəyətli məskunlaşma istehsal şəraitindən, - meşə mühafizəsi (meşəbəyilər, mühafizə dəstəsi), nəqliyyat (yol nəzarətçisi postları, baken gözətçiləri), qaz-neft kəməri nəqliyyatı (vurma stansiyaları), hidrometeoroloji xidmət (stansiyalar, postlar), rabitə və s., - irəli gəlir.

**2. Dağınıq-qrup** kənd məskunlaşması. Burada insanlar artıq ayrı-ayrı mülklərdə yerləşməyib, bir qrupda toplanmışlar; bu qruplar, adətən, istifadə etdikləri ərazidə az və ya çox dərəcədə bərabər halda səpələnmişlər və hər biri, sanki müəyyən təbii ehtiyatlar (şum yerləri, heyvandarlıq üçün otlaqlar və s.) sahəsində lokallaşırlar. Onlardan istifadə, birinci halda olduğu kimi, təsərrüfat həyatının əsasıdır. Kənd məskunlaşması dünyanın əksər ölkələrində – Çində, Hindistanda, Avropanın, demək olar ki, bütün ölkələrində, Afrikada və s. kənd məskunlaşmasının üstün formasıdır.

Kənd məskunlaşması ayrı-ayrı mülklərin formalaşması ilə başlasa da, dağınıq-qrup halında məskunlaşma başə-

riyyət üçün tarixən əzəli olmuşdur. Arxeologiya inandırıcı şəkildə göstərir ki, insanlar hələ tarixəqədərki dövrlərdə qruplaşaraq, düşərgələr, köçəbələr yaratmışlar. Axı cəmiyyətin qəbilə quruluşu kollektiv istehsal formaları (yığıcılıq, ovçuluq, əkinçiliyin rüşeymləri) ilə uzlaşmışdır. Buna görə də qrup halında məskunlaşma təbii idi.

3. **Şəhər qrup məskunlaşması** ticarətin və sənətkarlığın əkinçilikdən və maldarlıqdan ayrılması ilə təşəkkül tapmağa başlamışdır. İlk şəhərlər hələ çox uzaq keçmişlərdə yaransalar və o vaxtdan xeyli dəyişikliklərə uğrasalar da, bu ayrılmanın əsası – ərazi əmək bölgüsü indiyədək əhəmiyyətini saxlamaqdadır. Bir sıra tarixi dövrlər ərzində kənd həyatının təsərrüfat əsasını insan tərəfindən yönəldilən və idarə edilən bioloji proseslərin istehsalda istifadə edilməsi olmuşdur. Kənd məskunlaşması daha çox ərazicə təşkilatı həmişə «sahə» olan kənd təsərrüfatı əkinçiliyi, yaxud heyvandarlıqla qırılmaz surətdə bağlı idi. Əhali cəmləşməsi zonasının şəhər məskənləri qonşu ərazi ilə daha mürəkkəb ərazi əmək bölgüsü ilə bağlıdır, həm də bu ərazi bəzən xeyli geniş olmuşdur.

Şəhərlinin əmək fəaliyyəti yeri və yaşadığı yer, adətən, eyni yaşayış məntəqəsində olur. Qeyri-əkinçilik əmək növləri əhalini məhdud ərazidə cəmləşdirməyə imkan vermişdir. Şəhərin ətraf yerlərlə əlaqəsi dəyişmişdir. O, qonşu vilayətlərdən xammal və yanacağın gətirilməsindən, hazır məhsulun satışından, istirahət yerlərinə getməkdən asılı vəziyyətə düşmüşdür. Beləliklə, şəhərin ətrafla əlaqəsi digər yaşayış məntəqələri vasitəsilə həyata keçirilməyə başlamışdır.

Əvvəlki tarixi dövrlərdə məlum olmayan yeni qrup məskunlaşma forması – tərkibinə həm şəhər, həm də kənd yaşayış məntəqələri daxil olan aqlomerasiya meydana gəlmişdir. Aqlomerasiya yaradan məskənlər öz aralarında müntəzəm əmək səfərləri, mədəni-məişət və istehsalın kombinə edilməsi koo-

perativləşdirilməsi üzrə əlaqələrlə birləşmişlər. Onlar tez-tez ümumi istehsal-sosial infrastrukturuna və bir-birilə qovuşmaq meylinə malik olurlar. Bunların arasında gecələmə qəsəbələrini, yaylaq, bazar günü istirahəti tipli yaşayış məntəqələrini və s. ayırd etmək mümkündür.

«Şəhər» anlayışı tərifinin spesifikası, əlbəttə, problemə hansı mövqedən yanaşmaqdan asılıdır. Ən ümumi şəkildə şəhər əhalisinin mütləq əksəriyyəti kənd təsərrüfatında deyil, sənaye, ticarət, xidmət, elm və mədəniyyət sahələrində çalışan iri yaşayış məntəqəsidir.

Müasir şəhərlərin aşağıdakı səciyyəvi xüsusiyyətlərini ayırd etmək olar:

*İqtisadi* – əhalinin kənd təsərrüfatı ilə deyil, başqa sahələrdə məşğul olması;

*Ekistik* – əhalinin xeyli hissəsinin nisbətən böyük olmayan ərazidə cəmləşməsi və beləliklə, yüksək əhali sıxlığı (şəhər ərazisinin 1 $km^2$-nə bir neçə on minədək sakin) formalaşması;

*Demoqrafik* – əhalinin təkrar istehsalının və onun strukturunun spesifik şəhər xüsusiyyətlərinin formalaşması;

*Memarlıq* – səciyyəvi şəhər memarlıq – planlaşdırma mühitinin yaranması;

*Sosioloji* – şəhər həyat tərzinin formalaşması;

*Hüquqi* – şəhərlər, bir qayda olaraq, bitişik ərazinin inzibati mərkəzləridir.

Şəhərin bu və ya digər cəhətdən əlverişli inkişaf dərəcəsi onun iqtisadi-coğrafi mövqeyi ilə müəyyən edilir.

Sosioloqlar şəhərin «sosial məkan», «şəhər həyat tərzi» strukturunda onun spesifik əlamətlərinin axtarılıb tapılmasını təklif edirlər. Bu, hər şeydən əvvəl, şəhər sakinlərinin daha yüksək mobilliyində və onlar arasında potensial qarşılıqlı insani fəaliyyətin ölçüsü kimi dəyərləndirilən əlaqələrin artmasında ifadəsini tapır.

Ədəbiyyatda şəhər həyat tərzinin aşağıdakı xarakteristikasına rast gəlmək mümkündür: əhalinin mütəhərrikliyinin artması; öz mühitini seçmək, habelə ondan asanlıqla təcrid olunmaq sərbəstliyi; iş vaxtını tənzimləmək və asudə vaxtı planlaşdır-

maq imkanı; ailənin dezinterqrasiyası; ailənin və ev təsərrüfatı həcminin azalması.

Coğrafi əmək bölgüsü sistemində hər bir şəhər, ilk növbədə, bu əmək bölgüsündə iştirak edənlərin funksiyalarının mürəkkəb təmərküzləşmə yeridir. Şəhərin sosial-iqtisadi funksiyaların mürəkkəb təmərküzləşmə məkanı kimi iqtisadi-coğrafi tərifi də buradan irəli gəlir.

Əhalinin öyrənilməsi mövqeyindən, geniş anlamda, şəhər spesifik sosial-demoqrafik xarakteristikası və əhali inkişafı amilləri ilə seçilən təmərküzləşmiş əhali kütləsinin fəaliyyət göstərdiyi yerdir.

Bizim fikrimizcə, şəhərlərin xalq təsərrüfatı strukturu və funksional profili şəhər əməkçilərinin şəhəryaratma kontingentinin, yəni onun xalq təsərrüfatının şəhəryaratma sahələrində, həmin məntəqənin hüdudlarından kənara çıxan mühüm müəssisə və idarələrdə (sənaye, xarici nəqliyyat, tədarük və təchizat təşkilatlarının anbar və bazaları, inzibati idarələr, elmi-tədqiqat institutları və tədris müəssisələri, tikinti təşkilatları, kənd təsərrüfatı, şəhərdənkənar əhəmiyyətli digər idarələr) çalışan hissəsi ayırd edildiyi təqdirdə sayca daha düzgün səciyyələndirilə bilər.

Hazırda «şəhər» anlayışı xeyli transformasiyaya uğrayır. Əhalinin ərazidə məskunlaşma forması olaraq, şəhər əzəldən təsəvvürümüzdə təkcə qeyri-kənd təsərrüfatı fəaliyyətinin (sənaye, ticarət, nəqliyyat və s.) cəmləşdiyi yer deyil, həm də əhalinin toplaşdığı, evlərin təmərküzləşdiyi, yolların qovuşduğu məkan kimi canlanır. «Şəhər» anlayışı hansısa funksional mərkəz təsəvvürü ilə bilavasitə bağlıdır. Qeyd etmək olar ki, belə mərkəz kimi müxtəlif funksiyaların yerinə yetirilməsi şəhərlərin industrial rolundan az əhəmiyyətli deyil. Bu mənada, şəhərlər mərkəz kimi, ta qədimdən məskunlaşmanın ərazi strukturunun özəyində durmuş, bununla belə, xəritədə yalnız ayrı-ayrı nöqtələr - fokus nöqtələri olsalar da, - kimi qeyd olunmuşlar. Şəhərlərin inkişafına təsir göstərən yeni dəyişikliklərin mahiyyəti ondan ibarətdir ki, nöqtə formasında məskunlaşmanın yerini *şəhər aqlomerasiyaları* tutur.

Məhsuldar qüvvələrin müəyyən, kifayət qədər yüksək inkişaf səviyyəsində şəhərlə onun ətrafı arasında istehsal və əmək əlaqələri, mədəni əlaqələr o qədər sıxlaşır ki, nə şəhər, nə də ona bitişik yaşayış məntəqələri bir-birindən ayrı fəaliyyət göstərə bilmirlər. Bu qaynayıb-qarışma, qovuşma prosesi o qədər sürətlə və intensiv gedir ki, bəzi alimlər «şəhər» anlayışının, köhnəlmiş anlayış kimi, əvəz olunmasını təklif edirlər.

Şəhərlər müxtəlif iqtisadi və üstqurum funksiyaları daşıyırlar. Müxtəlif tarixi dövrlərdə onların məzmunu əhəmiyyətli dərəcədə dəyişmişdir. Bununla əlaqədar, «şəhər» anlayışının özü də tarixən dəyişmişdir. XIX əsrin sonunda və XX əsrin əvvəllərində şəhərin tərifində ticarətə üstünlük verilir, sənayeyə isə daha az rol ayrılırdı.

İnqilabaqədərki Azərbaycanda şəhərin tərifi Rusiya imperiyasının inzibati-ərazi və ya silki strukturuna uyğun idi. Əvvəllər, şəhər adı möhkəmləndirilmiş məskən, hasarlanmış yer, şəhərin ərazisi isə qala mənası ilə məhdudlaşırdı. Şəhər, tədricən, ondan aralı, lakin qala divarlarının bilavasitə yaxınlığında yaşayan əhali «əldə edir». Bir müddətdən sonra bu məskənlər şəhərin tərkib hissələrinə çevrilirlər. Həm də «şəhər» termini iki məna kəsb edir: həm qala, həm də yaşayış yeri, yəni qala və onu əhatə edən şəhər ətrafı.

XX əsrin əvvəlinə qədər «aqlomerasiya» termini sənaye müəssisələrinin cəmləşdiyi ərazi mənasında işlənmişdir. Əhalinin şəhərlərdə təmərküzləşməsi prosesini isə A.Veber tətbiq etmişdir (1903). İri şəhərlər böyüdükcə və yeni-yeni şəhər və kəndlər onların nüfuz dairəsinə düşdükcə bu termin yeni ərazi birləşmələrini bildirmək üçün tətbiq edilməyə başlamışdır.

Belə birləşmələrin əsas əlamətləri bunlardır:

1) Sənaye müəssisələrinin sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı və istehlakı arasında kombinasiya və kooperasiyası üzrə sıx iqtisadi əlaqələr. Xarici yük axını ilə müqayisədə aqlomerasiya hüdudlarında daha güclü yük axını bu əlaqələrin möhkəmlik göstəricisidir;

2) Əmək əlaqələri. Məskənin müəssisə və idarələrində işləyənlərin bir hissəsi digər məskənlərdə yaşayır, yəni aqlome-

rasiya çərçivəsində qarşılıqlı surətdə asılı məskunlaşma müşahidə edilir və baş şəhərlə şəhərətrafı zona məskənləri, habelə bu məskənlər arasında gündəlik kəfkirsayağı əmək miqrasiyası baş verir.

3) Mədəni-məişət və rekreasiya əlaqələri. Bir, yaxud bir neçə məskənin idarələri və ya istirahət yerləri, qismən, digər məskənlərin də sakinlərinə xidmət göstərir, mədəni-kütləvi, yaxud rekreasiya məqsədləri ilə gündəlik və ya həftəlik kəfkirsayağı miqrasiyalar baş verir.

4) Sıx inzibati-siyasi və təşkilat – təsərrüfat əlaqələri (aqlomerasiya məskənləri arasında istehsalatla, xidmətlə və ictimai işlərlə əlaqədar gündəlik işgüzar səfərlər).

Göstərilən bütün səciyyəvi əlamətlər aqlomerasiyanın xalq təsərrüfatının ən mütərəqqi sahələrində ixtisaslaşma ilə milli əhəmiyyətə malik çoxsahəli, çoxfunksiyalı mərkəz kimi spesifikasını şərtləndirir. Beləliklə, aqlomerasiya, eyni zamanda, həm istehsalın yerləşdirilməsi sisteminin yarımsistemi, həm də ölkənin ümumi məskunlaşma sisteminin yarımsistemi hesab olunmalıdır.

Aqlomerasiyanın sürətli inkişafının iqtisadi əsası istehsalın və məskunlaşmanın bu formasının üstünlükləri məhz istehsalın maksimum səmərəliliyini şərtləndirən yüksək təmərküzləşməsi və diversifikasiyasında, ixtisaslı kadrların toplanmasında, istehsalatın elm və təhsil mərkəzləri ilə sıx əlaqəsində, istehsal və sosial infrastruktura sistemlərindən maksimum səmərəli istifadədir.

Bir deyil, iki, yaxud bir qrup şəhərin «lider» rolu oynadığı məskunlaşma forması da mövcuddur. Bəzi müəlliflər bu halda «konurbasiya» termininindən istifadə edirlər. Digər müəlliflər isə «aqlomerasiya» və «konurbasiya» terminlərini bərabərhüquqlu anlayışlar sayırlar. Fərq ondadır ki, aqlomerasiya iri şəhərin ətrafındakı əraziləri «ilhaq etməsi», konurbasiya isə daha çox həm iqtisadi, həm də əhali baxımından bərabər səviyyəli şəhərlərin qovuşması nəticəsində təşəkkül tapmışdır. Bu anlamda konurbasiya yüksək inkişaf etmiş polisentrik (çox mərkəzli) şəhər məskənləri sisteminə aid edilməlidir. Lakin belə

sistemlər monosentrik (bir mərkəzli) sistemə çevrilirlər ki, bu halda konurbasiya ilə aqlomerasiya arasında fərqlər aradan qalxır.

Aqlomerasiya əhalisi dinamikasının mərhələləri aşağıdakılardır:

1) özək əhalisinin sayı artır, xarici (şəhərətrafı) zonanın əhalisi isə özəyə miqrasiya hesabına azalır, bütövlükdə, aqlomerasiya əhalisinin sayı artır;

2) özək sürətlə böyüyür, xarici zona da böyüyür, bütün aqlomerasiyada təmərküzləşmə yaranır;

3) özək böyüməkdə davam edir və şəhərətrafı zonada ən yüksək təmərküzləşmə yaranır, aqlomerasiya böyüməkdə davam edir;

4) özəyin əhalisi azalmağa başlayır, şəhərətrafı zonada is əçoxalır, bütövlükdə, aqlomerasiya böyüyür;

5) özəyin əhalisi azalır, şəhərətrafı zonada isə artım davam edir, lakin aqlomerasiya əhalisinin sayı azalır (bu mərhələ hazırda bir sıra ölkələr üçün səciyyəvidir);

6) özəyin və xarici zonanın əhalisi azalır, aqlomerasiyanın da əhalisi azalır.

Əhalinin məskunlaşmasını düzgün - onun ayrı-ayrı vəsilələri (şəhər, kənd və s.) deyil, bütöv ərazi sistemləri əsasında öyrənmək səyləri ticarət və xidmət sahələrinin qeyri-istehsal funksiyalarının həddindən artıq qiymətləndirilməsinə gətirib çıxarmışdır. Xüsusi «mərkəzi yerlər nəzəriyyəsi» meydana gəlmişdir. Bu nəzəriyyənin yaradıcıları – alman coğrafiyaşünasları V. Kristaller və A. Leş hesab edirdilər ki, bu və ya digər ərazidəki bütün yaşayış məntəqələri müəyyən məskənlər qrupuna meyl edirlər. V. Kristaller onları mərkəzi məskənlər qrupu adlandırırdı.

Bu nəzəriyyəyə görə, yaşayış məntəqəsinin əhalisi və orada xidmət və ticarət müəssisələrinin sayı nə qədər çoxdursa, onun «mərkəzlik» şansı da bir o qədər yüksəkdir. Buna müvafiq olaraq, böyük ərazilər ona meyl edirlər. Lakin bu meyletmə zonası daxilində dar meyletmə zonaları olan «yerli», mərkəzi və daha cüzi xidmət növləri dəsti olan məntəqələr də vardır. Be-

ləliklə, bütün məskunlaşma sistemi, bir növ, «bir-birinə qatılan» meyletmə ərazilərinin birinci, ikinci, üçüncü və i.a. dərəcəli «mərkəzi yerlərə» cəzb olunması kimi meydana çıxır. Həm də, «mərkəzlik dərəcəsi» xidmət sahələri müəssisələrinin xidmət dəstinin əhəmiyyəti və onların fəaliyyətinin vüsəti ilə müəyyən edilir: yaşayış məntəqələrinin – «mərkəzi yerlərin» əhalisinin çoxluğu da buna müvafiq olmalıdır. Onlarda, adətən, ilkin məhkəmə instansiyası, bank şöbələri, ibtidai məktəb, kitabxana, ixtisaslaşdırılmış mağazalar olur. Hər bir növbəti «mərkəzi yer» tipi daha mürəkkəb funksiyalar yerinə yetirir və onların əraziləri daha geniş olur. Beləliklə, «mərkəzi yer»lərin nüfuzunu və dərəcəsini nə əhalinin sayı, xüsusilə nə də məskənlərin məkanca təşkilində V. Kristallerin, demək olar ki, nəzərə almadığı sənayenin inkişaf səviyyəsi deyil, əmtəənin və xidmətlərin satış radiusu və onların mürəkkəbliyi müəyyən edir.

Müxtəlif əmtəənin və ayrı-ayrı həcmə və mürəkkəbliyə malik xidmətlərin satış radiuslarını təmin etmək üçün kiçik kəndlərdən tutmuş, paytaxtlara qədər müxtəlif dərəcəli mərkəzi yerlər olmalıdır. Onlar hesab edirdilər ki, ən kiçik mərkəzi yer həftə bazarına, polis sahəsinə, xırda emalatxanalara malik 1000 nəfərlik qəsəbə ola bilər. Növbəti, daha iri mərkəzi yer ilkin məhkəmə instansiyası, bankı, ibtidai məktəbi, kitabxanası, ixtisaslaşdırılmış mağazaları olan məskən olacaqdır. Beləliklə, hər bir yeni mərkəzi yer tipi daha mürəkkəb funksiyalar yerinə yetirməli və ona meyl edən ərazi daha geniş olacaqdır.

Bu konsepsiyada ərazidə səpələnmiş halda yaşayan kənd əhalisinə xidmət etmək üçün yerli mərkəzlərin müəyyən iyerarxiyasının formalaşmasının qanunauyğunluğu doğru aşkar edilmişdir. «Mərkəzi yerlər» göstərilən «heksaqonal» sxem üzrə yerləşdiyi təqdirdə onların hər birinə qədərki məsafəni minimuma endirməyin mümkünlüyü fikri də etiraz doğurmur. Kristallerin və onun ardıcıllarının səhvi bu amillərə həlledici əhəmiyyət verilməsində, «mərkəzi yerlər»in düzülüşünün və xidmətin məskunlaşmanın əsas qanunu elan olunmasındadır.

Məskənlərin lokallaşmasının digər mühüm elementlərinə – onların faydalı qazıntı yataqlarının yaxınlığında, tranzit yolların üstündə və onların kəsişdiyi yerlərdə, dəniz sahillərində və çay keçidlərinin yaxınlığında salınmasına, bir sözlə, xidmət sahəsindən başqa, bütün iqtisadi amillərə etinasızlıq göstərilirdi. Ona görə də Kristallerin modeli məhdud məna daşıyır, onun konsepsiyası isə məskunlaşmanın qanunauyğunluqlarından ancaq birini əks etdirir.

Qərbdə hər şey xidmətlər, ticarət üzərində qurulur, iri istehsal əlaqələrindən, inzibati aparatdan deyil, kiçik məskənlərin və ayrı-ayrı adamların ehtiyaclarının hesaba alınmasından başlanırdı. Bizdə isə insanları xidmətə dartıb aparır, hər şeyi başayaq qoyur, perspektivsiz adlandırılan kəndlərin sakinlərini çoxminli qəsəbələrə köçürür, insanları torpaqdan ayırmaqla, itkilərə, - o cümlədən iqtisadi, - yol verilirdi.

## 9.3. Məskunlaşmanın regional xüsusiyyətləri

Müasir əhali tərkibinin və məskunlaşmış yerlərin formalaşması və inkişafında hər bir qitənin, ayrıca dövlətin, konkret regionun özünəməxsus məkan xüsusiyyətləri vardır. Onlar cəm halda əhali məskunlaşmasının xarakterinə təsir göstərən sosial, iqtisadi və təbii şəraitlə müəyyən edilir.

Əhalinin məskunlaşması cəmiyyət həyatının bir çox cəhətlərini əks etdirən mürəkkəb sosial-iqtisadi prosesdir. Ona görə də əhali məskunlaşması bir çox elmlər: demoqrafiya, sosiologiya, əhali coğrafiyası, geosiyasət, tarix, şəhərsalma və s. elmlər tərəfindən öyrənilir. Demoqrafiya əhalinin məskunlaşdığı ərazidə təbii və mexaniki artımı, sayının dinamikasını, yerləşməsini və yerdəyişməsi proseslərini tədqiq edir. Sosiologiya cəmiyyətin məkanca təşkili formasının öyrənilməsinə yönəlmişdir. Coğrafiya əhalinin məskunlaşmasını təbii mühitlə qarşılıqlı əlaqədə işıqlandırır. Geosiyasət məskunlaşmanın spesifikasını xarici siyasi amillərlə bağlı izah edir. Tarixi-coğrafi yanaşma cəmiyyətin müxtəlif inkişaf mərhələlərində məskunlaşmanın formalaşmasının xarakterini açmağa imkan verir. Şəhərsalma

yanaşması istehsalın, kommunikasiyaların, iqtisadi, memarlıq-tikinti, mühəndis-texniki amillərin və şəraitin optimal yerləşdirilməsi yolu ilə konkret regionun ərazisindən (ərazi ehtiyatlarından) səmərəli istifadə olunması axtarışlarına istiqamətlənmişdir. İnsan məskənlərinin ümumi formalaşma və təkamül prosesini öyrənən ekistika (ingiliscə Ekistics, yunanca Oikia – ev, mənzil sözündən) elmi tədqiqatların xüsusi istiqamətidir.

Məskunlaşma dedikdə, adətən, əhalinin ərazidə yerləşməsi və yenidən yerləşməsi və onun nəticəsi – məskənlər şəbəkəsi başa düşülür. Əhalinin məskunlaşmasına onun yerləşməsi, yaşayış yerlərinin qarşılıqlı funksional ərazi əlaqələri və əhali miqrasiyaları daxildir. Ümumiləşdirilmiş şəkildə demək olar ki, *əhalinin məskunlaşması onun ərazicə təşkilidir. Onun tərkibinə həm əhalinin yerləşməsi, həm də ona immanent şəkildə xas olan bütün əlaqələr sistemi daxildir.*

Əhalinin məskunlaşması konkret ərazinin sosial-iqtisadi mənzərəsini əks etdirir. Sosial-iqtisadi inkişafın xüsusiyyətlərinə görə əhalinin məskunlaşması barədə, əksinə, əhalinin məskunlaşmasına görə, ərazinin sosial-iqtisadi vəziyyəti haqqında fikir yürütmək olar. Əhali məskunlaşmasının çoxsaylı sosial-iqtisadi amillərinə istehsalın xarakteri, məhsuldar qüvvələrin inkişaf səviyyəsi və yerləşmə xüsusiyyətləri, habelə əhalinin gəlir səviyyəsi, infrastruktur təminatı və s. sahələrdə bölgələrarası fərqlər daxildir. Əhalinin ölkə ərazisində məskunlaşması prosesinin inkişafını sosial-iqtisadi amillərdən əlavə, daha iki amillər qrupu, - təbii və demoqrafik, - müəyyən edir.

*Təbii amillər* – relyef, iqlim, yer, torpaq və digər təbii ehtiyatlardır. Məhsuldar qüvvələrin inkişafı nə qədər yüksəkdirsə, təbii amillərin birbaşa təsiri də bir o qədər azdır. Lakin əhali məskunlaşmasının təhlilində onlara etinasızlıq göstərmək olmaz. *Demoqrafik amillər* qrupuna, hər şeydən əvvəl, miqrasiya proseslərində regional fərqlər, habelə əhalinin təbii təkrar istehsalı proseslərinin intensivliyindəki fərqlər aiddir.

Əslində, əhali məskunlaşmasının inkişafı haqqında yalnız bütün əsas amillər kompleks şəkildə götürüldükdə tam təsəvvür əldə etmək mümkündür. Həm də, nəzərə almaq lazım-

dır ki, bu və ya digər amilin təsiri zaman etibarilə dəyişə bilər. Məsələn, telekommunikasiyanın meydana gəlməsi, informasiyanın təhlilinin qat-qat sürətlənməsi ilə bağlı iqtisadi fəallıq istənilən yerə yönəldilə bilər. İnsanların yaşayış mühitinin keyfiyyəti özlüyündə istehsal ehtiyatına çevrilir, yəni istehsalın sosiohumanitar amili aparıcı rol kəsb edir.

İnsanlar həmişə bir-birlərinə, xüsusilə soydaşlarına meyl edirlər. Bu və ya digər səbəbdən ayrılıqda tikilən ilk evin ətrafında, əlverişli şəraitdə, başqaları da inşa edilir. Beləliklə, lokal ərazidə meydana gələn toplu evlər ayrıca məskən təşkil edirlər. Sonralar bir-birinin yaxınlığındakı bir sıra məskənlər məskunlaşmanın özəyini yaradırlar. Məskənlər arasında əlaqələr artdıqca, əvvəlcə, məskənlər toplusu, sonra isə şəbəkəsi meydana gəlir. Öz inkişaflarında bir-biri ilə qarşılıqlı surətdə bağlı və asılı olan məskənlər şəbəkəsi artıq məskənlər sistemi, yaxud məskunlaşma sistemidir.

Tarixi demoqrafiyaya və tarixi coğrafiyaya dair tədqiqatlar göstərir ki, eramızın əvvəlində bəşəriyyətin təqribən ¾-ü, XVI əsrdə 80%-ə qədəri, 1970-ci ildə 75%-i, XX əsrin sonunda təqribən 70%-i hazırda ən sıx məskunlaşmış Şərqi, Cənub-Şərqi, Cənubi, Cənub-Qərbi Asiya, Qərbi və Mərkəzi Avropada yaşayırdı. Bu məlumatlar bütün Yer kürəsi miqyasında uzun vaxt kəsimində əhalinin «qatılaşması»nın xeyli davamlı qaldığını göstərir. Əhalinin regional, xüsusən lokal səviyyədə ərazi yerdəyişməsinə gəldikdə isə burada əhali sayının daim dəyişməsi müşahidə edilir. Bunun iki səbəbi vardır: əvvəla, dünya regionlarında təbii əhali artımının qeyri-bərabər sürəti, ikincisi, miqrasiya nəticəsində əhalinin yerdəyişməsi.

# X FƏSİL
# ŞƏHƏR YAŞIYIŞ MƏSKƏNLƏRİNİN COĞRAFİYASI

## 10.1. Şəhər məskunlaşmanın dayaq məntəqəsidir

**Şəhər** – mürəkkəb sosial-iqtisadi hadisədir. O, ictimai istehsalın təmərküzləşdiyi, müxtəlif maddi nemətlərin, eyni zamanda, həm yaradıcısı, həm də istehlakçısı olan xeyli sayda insan kütləsinin cəmləşdiyi yaşayış məntəqəsidir. Şəhər həyatının müxtəlif cəhətlərinin öyrənilməsi ilə ayrı-ayrı elmlər məşğul olur. Əhali coğrafiyası şəhərləri əhalinin xarakterik struktur əlamətlərinə və demoqrafik proseslərinə malik yaşayış məntəqələri, ictimai əmək bölgüsü sistemində müəyyən rol oynayan məhsuldar qüvvələrin yerləşdiyi və bununla əlaqədar, ərazi strukturu əlamətlərinə malik mərkəzlər kimi öyrənir.

Şəhərlər bəşər tarixinin yalnız əkinçilərin özlərinin istehlak edə biləcəklərindən çox ərzaq məhsulu istehsal etmək və artıq məhsulu satmaq imkanı yarandığı inkişaf pilləsində, yəni I təkamül inqilabı nəticəsində meydana gələ bilərdi. Əkinçiliyin bu yüksəlişi insan biliklərinin genişlənməsi, həm də qoşqu vasitəsi olan heyvanların əhliləşdirilməsi, texniki qurğuların tətbiq edilməsi, təkərin kəşfi, metal əşyalardan, xış, kotan və qayıqdan istifadə, dulusçuluğun meydana çıxması ilə sıx bağlıdır. İlk şəhərlər ən çox inkişaf etmiş qədim sivilizasiyalarda – Hind, Nil çayları vadilərində, Mesopotamiyada, Dəclə və Fərat çayları arasında, suvarma əkinçiliyinə əsaslanan Çində meydana gəlmişdir. Bu şəhərlərdə inzibati və siyasi hakimiyyət cəmləşmişdi. Bütöv tarixi dövrlər qədim dövrün Afina və Sparta, Troya və Karfagen, Suza və Babil, Qədim Roma və s. kimi şöhrətli şəhərlərinin adları ilə bağlıdır. Alimlərin ehtimalına görə, mövcud şəhərlərdən ən qədimi, yəqin ki, Bibliya əfsanələrində məşhur olan Fələstindəki İeroxon (ərəbcə Ənha) şəhəridir. Onun yaşı 5 min ilə yaxındır. Hazırda 30 min nəfər əhalisi var. Ən böyük şəhərlər o dövrdə mövcud olmuş iri quldarlıq despotiyalarının paytaxtları idi. Hind vadisinin qədim şəhərlə-

rində, Dəclə və Fərat çayları arasındakı Şumer şəhərlərində 7-20 minə yaxın əhali yaşayırdı. Babilin çiçəkləndiyi dövrdə təqribən 80 min sakini var idi, Qədim Romanın əhalisi isə 700 min nəfərə çatırdı. Quldarlıq quruluşunun dağılması ilə şəhərlərin əksəriyyəti tənəzzülə uğradı (Romanın əhalisi 40 min nəfərə qədər azaldı).

Sənətkarlığın, ticarətin zəif inkişaf etməsi, siyasi pərakəndəlik nəticəsində orta əsrlərdə şəhərlər, demək olar ki, yaranmamış, onlar ancaq feodalizm dövründə, X-XI əsrlərdən sənətkarlığın və ticarətin inkişafı ilə yenidən böyüməyə başlamışlar. Bu inkişaf XIV-XV əsrlərdə yüksək səviyyəyə çatmışdı. Həmin dövrdə bəzi şəhərlərin (Venesiya, Antverpen) 200 min əhalisi var idi. Şəhərlər sənaye, II sivilizasiya inqilabından sonra sürətlə inkişaf etməyə başlamış, hazırkı elmi-texniki tərəqqi dövründə isə ən coşqun inkişaf səviyyəsinə çatmışdır. III sivilizasiya inqilabı dövründə «urbanizasiya fenomeni» təzahür edir.

Son onilliklərdə şəhərlərin, xüsusilə iri şəhərlərin əhalisinin qeyri-adi surətdə güclənən artımı Yer kürəsi əhalisinin ümumi artımını bir neçə dəfə ötmüşdür.

Yer kürəsinin əhalisi artıq 6396 mln. nəfərdir (2004) ki, onun da yarıdan çoxu şəhərlərdə yaşayır.

Hesablamalara görə, 1800-cü ildə dünyada şəhər əhalisi təqribən 27 milyon nəfər idi ki, bu da dünya əhalisinin cəmi 3%-ni təşkil edirdi. Bu rəqəm 1850-ci ildə 75 milyon (6%), 1900-cü ildə 218 milyon nəfər (13,6%) olmuşdur. XX əsrdə, xüsusilə onun ikinci yarısında şəhər əhalisi sürətlə artmağa başlayaraq, 1950-ci ildə 738 milyon nəfərə (29,3%), 2000-ci ildə 2926 milyon nəfərə (47,5%) çatmışdır. XXI əsrin birinci çərəyində şəhər əhalisinin daha da artaraq, 2025-ci ildə 5056 milyon nəfərə (61,1%) çatacağı proqnozlaşdırılır. Regionlar və ölkələr üzrə şəhər əhalisinin dinamikası 10.1 cədvəlində göstərilmişdir.

Cədvəldən göründüyü kimi, şəhər əhalisi həm ölkənin ümumi əhalisinin 80-90%-nə yaxınlaşan inkişaf etmiş, həm də və xüsusilə sürətlə urbanizasiyalaşan inkişaf etməkdə olan öl-

kələrin hesabına artır.

2025-ci ildə XXI əsrin iri «urbanizasiya nəhəngləri» 100 milyondan çox şəhər əhalisinə malik Çin (832 milyon), Hindistan (630 milyon), ABŞ (281 milyon), Braziliya (205 milyon), İndoneziya (167 milyon), Nigeriya (147 milyon), Pakistan (142 milyon), Rusiya (119 milyon), Meksika (117 milyon), Yaponiya (113 milyon) olacaqdır. Əlbəttə, inkişaf etməkdə olan ölkələr üçün, xeyli dərəcədə, «yalançı urbanizasiya» səciyyəvi olacaqdır.

Dünyada 100 min nəfərdən çox sakini olan 2,5 minə yaxın, onların arasında da 400-ə qədər «milyonçu» şəhər, o cümlədən meqaşəhər (BMT-nin qəbul etdiyi terminologiyaya görə, hərəsinin əhalisi 8 milyon nəfərdən artıq olan aqlomerasiyalar da onlara daxildir) vardır. 1950-ci ildə onların sayı 2, 2000-ci ildə 24 idisə, 2015-ci ildə isə onların sayının 33 olacağı gözlənilir. Ehtimal olunur ki, 2015-ci ildə 30 iri aqlomerasiyadan inkişaf etmiş ölkələrdə ancaq beşi (Tokio, Nyu-York, Los-Anceles, Osaka, Paris) qalacaqdır. London, Moskva bu qrupu tərk edəcəkdir. 25 aqlomerasiya inkişaf etməkdə olan ölkələrdə yerləşəcəkdir.

Bombey (27,4 milyon nəfər), Laqos (24,4 milyon), Şanxay (23,4 milyon), Cakarta (21,2 milyon), San-Paulu (20,8 milyon), Kəraçi (20,6 milyon), Pekin (19,4 milyon), Dəkkə (19,0 milyon), Mexiko (18,8 milyon) üçün fenomenal artım proqnozlaşdırılır. Bu siyahıda Nyu-York ancaq 11-ci olacaqdır. Ola bilsin ki, bu proqnozların bəziləri özünü doğrultmasın, belə ki, bir müddət bundan əvvəl Mexiko əhalisinin 30 milyona çatacağı proqnozlaşdırılırdısa da, bu özünü doğrultmadı.

Mürəkkəb vahid olan şəhər ancaq sistemli şəkildə qurulduğu halda uğurla fəaliyyət göstərə bilər. Lakin şəhər, mahiyyəti etibarilə, sistemli olmaya bilməz. O, bir-birini tamamlayan, qarşılıqlı surətdə əlaqədə və asılılıqda olan müxtəlif təyinatlı hissələrdən ibarətdir. Bütün şəhərlər öz aralarında, - xüsusilə iqtisadi cəhətdən, - bir-biri ilə bağlıdırlar, belə ki, hər bir şəhərin öz töhfəsini verdiyi ictimai əmək bölgüsündə onların fəaliyyət nəticələrinin geniş mübadiləsi nəzərdə tutulur.

İctimai istehsal maddi və qeyri-maddi istehsal sahələrinə bölünür. Bəzi şəhərlər əmək bölgüsündə, başlıca olaraq, iqtisadi, digərləri isə inzibati-mədəni, elmi, tədris, yaxud səhiyyə mərkəzləri kimi iştirak edirlər.

Coğrafi baxımdan şəhər əhali, iqtisadi baza, həyat təminatı sahəsi kimi üç əsas yardımçı sistemin cəmidir.

**Cədvəl 10.1**

**Şəhər əhalisinin regionlar və bəzi ölkələr üzrə dinamikası (hesablamalar, proqnozlar)**

| Regionlar, ölkələr | Şəhər əhalisinin sayı, milyon nəfərlə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1950 | 1970 | 1990 | 2000 | 2010 | 2025 |
| Bütün dünya | 738 | 1353 | 2277 | 2926 | 3707 | 5065 |
| İnkişaf etmiş ölkələr | 442 | 677 | 842 | 904 | 962 | 1040 |
| İnkişaf etməkdə olan ölkələr | 296 | 676 | 1439 | 2022 | 2745 | 4025 |
| Avropa | 286 | 423 | 520 | 548 | 571 | 598 |
| Rusiya | 46 | 81 | 109 | 113 | 117 | 119 |
| Almaniya | 49 | 62 | 71 | 72 | 70 | 71,9 |
| Böyük Britaniya | 43 | 49 | 51 | 53 | 55 | 57 |
| Asiya | 236 | 503 | 1014 | 1408 | 1890 | 2718 |
| Çin | 61 | 145 | 303 | 443 | 597 | 832 |
| Hindistan | 62 | 110 | 217 | 292 | 402 | 630 |
| Yaponiya | 42 | 74 | 95 | 99 | 103 | 103 |
| İndoneziya | 10 | 21 | 56 | 86 | 119 | 167 |
| Pakistan | 7 | 16 | 39 | 61 | 95 | 162 |
| Afrika | 33 | 84 | 201 | 310 | 468 | 681 |
| Nigeriya | 3 | 11 | 34 | 44 | 86 | 147 |
| Şimali Amerika | 106 | 167 | 209 | 337 | 266 | 313 |
| ABŞ | 98 | 151 | 188 | 213 | 339 | 281 |
| Latın Amerikası | 69 | 163 | 314 | 401 | 486 | 601 |
| Braziliya | 19 | 54 | 111 | 142 | 170 | 205 |
| Meksika | 12 | 30 | 61 | 71 | 96 | 117 |
| Avstraliya və Okeaniya | 8 | 14 | 19 | 20 | 25 | 31 |

***Mənbə:*** *Word Urbanization Prospects: The 2000*

**Əhali.** Əhali şəhərin parametrlərini və bütün digər yardımçı sistemlərinin təşkilini müəyyənləşdirən **əsas yardımçı sistemdir.** Şəhərin əhalisi bütün şəhərsalma ehtiyatları və şəhəri müxtəlif yönlərdən səciyyələndirən törəmə göstəricilərin alınması üçün baza göstəricisidir.

**Şəhər əhalisi** üç mənbə: a) təbii artım, b) mexaniki artım, c) kənd məskənlərinin dəyişməsi, yaxud onların şəhər hüdudlarına qatılması hesabına təşəkkül tapır. Təbii və mexaniki artımın nisbəti şəhərin tipindən, onun «yaş»ından və həcmindən asılıdır. Təbiidir ki, yeni şəhərlərin əhalisi mexaniki artım hesabına formalaşır. Böyük şəhərlər insanları cəzb edir, kiçik şəhərlər isə əhalisini başqalarına verir. Yeni şəhərlər əhalisini miqrantları fəal surətdə cəlb etməklə formalaşdırırlar. Əhalinin dini strukturu çoxmillətliliklə bağlıdır ki, bu da şəhərin mikrocoğrafiyasında təzahür edə bilər. Milli struktur baxımından şəhər əhalisi kənd əhalisindən daha az yekcinsdir.

**Şəhərin iqtisadi bazası** iki əsas hissədən – *şəhəryaratma* və *şəhərəxidmət bazalarından* ibarətdir.

Şəhərin şəhərdənkənar iqtisadi, mədəni, elmi, inzibati əlaqələrinin icrasına, yəni həmin şəhərin rayon və ya dövlət miqyasında əsas vəzifələrinin yerinə yetirilməsinə yönəldilmiş fəaliyyəti ***şəhəryaratma bazası*** adlanır.

***Şəhərəxidmət bazası*** şəhərin özü, onun əhalisi üçün mövcuddur. Onlar yerindəcə istehlak edilən məhsul, - o cümlədən sənaye və nəqliyyat məhsulu istehsal edirlər. Sahələrin şəhəryaratma və şəhərəxidmət bazalarına bölünməsindəki qeyridəqiqlik onunla bağlıdır ki, eyni müəssisələr həm yerli istehlakçı üçün nəzərdə tutulan, həm də digər mərkəzlərə və bölgələrə çıxarmaq üçün məhsul buraxa bilərlər. Müvəqqəti yaşamağa böyük insan kütləsi cəlb edən şəhərlərdə (məsələn, müvəqqəti əhalinin sayca daimi əhalidən üstün ola biləcəyi kurort şəhərlərində) tipik xidmət sahələri təkcə daimi sakinlərin istehlak etmələri üçün deyil, həm də, qismən şəhəryaratma əhəmiyyəti kəsb edən məhsul buraxırlar. Şəhəryaratma bazası bütün şəhərlə birlikdə daimi təkamül prosesindədir. Həm də, məhz o, zəruri dəyişikliklərin təşəbbüsçüsü kimi çıxış edir. Şəhəryaratma bazasının ən geniş yayılmış təkamül variantları aşağıdakılardır:

1. Çoxfunksiyalılıq kursu, sənaye sahəsində çoxsahəli istehsal;

2.Komplektliliyin gücləndirilməsi, əsas funksiyanın, yaxud

istehsalın əlavə və yanaşı funksiyalarla tamamlanması;

3. Maddi sahənin (sənaye, nəqliyyat, inşaat sənayesi) payının azalması ilə qeyri-maddi sahənin (elm, mədəniyyət, təhsil, idarəetmə) payının artması;

4. Texnologiyanın təkmilləşdirilməsi (yeni texnologiyalara keçid), texniki səviyyənin yüksəldilməsi;

5. Funksional strukturun şəhər üçün münasib olmayan, yaxud hətta ziyanlı sayılan həlqələrdən azad edilməsi. Bütün şəhərlər mono və polifunksional qruplara bölünürlər.

Birincilər, daha çox kiçik və orta şəhərlər olub, hansısa bir funksiya əsasında fəaliyyət göstərirlər. Bu, sənaye, nəqliyyat, elm (elmi tədqiqat, təcrübə-konstruktor araşdırmaları), istirahət, müalicə, turizm, habelə inzibati, hərbi-strateji, yaxud dini funksiyalar ola bilər.

Paytaxt funksiyalarını bəzən əhalisində məmurlar üstünlük təşkil edən xüsusi olaraq salınmış şəhərlər, məsələn, Pakistanda İslamabad, Qazaxıstanda Astana, Avstraliyada Kanberra, Braziliyada Brazilia yerinə yetirir.

Ən geniş yayılmış təkfunksiyalı sənaye şəhərləri çox vaxt bir iri müəssisə timsalında şəhəryaratma bazasına malik olurlar.

Aparıcı funksiya onu tamamlayan sahələrin və fəaliyyət növlərinin meydana gəlməsini stimullaşdırdıqda və üstünlüyünü, necə deyərlər, yaranmış birləşməyə özünəməxsus çalar verən fövqəlfunksiya rolunu qoruyub saxladıqda ixtisaslaşdırılmış kompleks adlandırıla bilən funksional tip meydana çıxır. Əsas funksiyalarla (müalicə, istirahət, turizm) yanaşı, kurortologiya elminin, kadr hazırlığının (tibb işçiləri, ekskursiyaçılar, tərcüməçilər), ekskursiya nəqliyyatının, inşaat, yeyinti və suvenir sənayesi sahələrinin (sxemə bax) də inkişaf etdiyi kurort şəhəri buna misal ola bilər. Çoxfunksiyalı şəhərlər qeyri-istehsal və istehsal sahələrinin nisbəti, hər birinin daxilində müxtəlif blokların uzlaşması ilə seçilirlər.

**Həyat təminatı sahəsinə** sosial və texniki infrastrukturun (nəqliyyat, mühəndis sistemləri, mənzil, xidmət sahəsi) əhalinin yaşayışını və iqtisadi bazanın fəaliyyətini təmin edən sahə-

ləri daxildir.

**Kurort şəhərlərinin funksional strukturu**




Sosial infrastruktur şəhər əhalisinin müxtəlif xidmət sahələrinə – təhsilə, müalicəyə, istirahətə, ərzaq və sənaye mallarının alınmasına, ayaqqabı və paltar tikilməsinə, məişət texnikasının və mənzillərin təmirinə və s. ehtiyacını təmin edir.

Gündəlik xidmətlə məşğul olan obyektlər yaşayış mikrorayonlarına maksimum surətdə yaxınlaşdırılmış, onların özündə tikilmişdir. Vaxtaşırı və arabir ehtiyac xidməti göstərən idarə və müəssisələr rahat gediş-gəlişli qələbəlik yerlərin yaxınlığında yaradılır.

Mədəniyyət infrastrukturu obyektləri – teatrlar, konsert və sərgi salonları, muzeylər, habelə iri universal və ixtisaslaşdırılmış mağazalar şəhərin mərkəzinə yaxındır. Bu, Bakı şəhərinin timsalında daha aydın nəzərə çarpır.

## 10.2. Şəhərlərin iqtisadi-coğrafi mövqeyi

Ölkələrin, bölgələrin, şəhərlərin inkişafında iqtisadi-coğrafi mövqenin rolunu nəzəri cəhətdən N.N.Baranski əsaslandırmışdır. İqtisadi-coğrafi mövqe bu obyektlərin bir çox inkişaf xüsusiyyətlərini başa düşməyə və onların sonrakı perspektivlərini qiymətləndirməyə imkan verir, ona görə də müstəsna nəzəri və praktik əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı istehsalı üçün məskənin əlverişli coğrafi mövqeyindən daha çox təbii şərait, ərazi, torpaq ehtiyatları, iqlim əhəmiyyətlidir, çünki torpaq kənd təsərrüfatı istehsalının əsasıdır. Şəhərlərdə isə onların tutduqları ərazidə ancaq əmək vasitələri (zavodlar və müəssisələr) yerləşdirilir, əmək ehtiyatları (xammal, yanacaq) isə, bir qayda olaraq, şəhərdən kənar və bir çox hallarda ondan xeyli uzaq olan yerlərdən alınır. Ona görə də şəhərdə istehsal ancaq sonuncunun coğrafi mövqeyi ona xammal, yaxud yarımfabrikatlar, yanacaq, enerji verən və ya onun məhsullarından istifadə edən yerlərlə geniş və çoxtərəfli iqtisadi əlaqələr həyata keçirməyə imkan yaratdığı halda mümkündür. Şəhərin məcmu coğrafi mövqe göstəriciləri nə qədər əlverişlidirsə, şəhəryaratma qabiliyyəti də bir o qədər güclüdür. Bir çox, həm də iri şəhərlər (Nyu-York, Paris, Moskva, Kiyev, Bakı, Rostov və s.) məhz əlverişli iqtisadi-coğrafi mövqeləri ilə bağlı yaranmış və inkişaf edirlər.

Qeyd etmək lazımdır ki, iqtisadi-coğrafi mövqe zaman baxımından dəyişən tarixi kateqoriyadır. Bununla əlaqədar, o, şəhərin bir inkişaf mərhələsində əlverişli ola, digərində isə onun inkişafını ləngidə bilər. Məsələn, Rusiyada dəmir yolu meydana çıxana qədər Yuxarı Volqa şəhərləri nəqliyyat və ticarət mərkəzləri, habelə çay nəqliyyatından quru nəqliyyatına keçid məntəqələri kimi çox sürətlə inkişaf edirdilər. Dəmir yollarının çəkilməsindən sonra yükdaşımalardan kənarda qalan bir çox Volqaboyu şəhərlər nəqliyyat-coğrafi mövqelərinin üstünlüklərindən məhrum olaraq, tənəzzülə uğradılar. Bakı-Tbilisi dəmir yolu çəkilənə qədər ticarətdə əhəmiyyətli rol oynayan Şamaxı şəhəri də buna misal ola bilər.

Şəhərin coğrafi mövqeyinin dəyişməsində onun özü də az əhəmiyyətli rol oynamır. O, ətrafındakı bölgədə özünə lazım olan istehsal növləri yaratmaqla, ona böyük iqtisadi təsir göstərir. Şəhərin öz iqtisadi-coğrafi mövqeyini «yaratması», yaxud yaxşılaşdırması prosesi, eyni zamanda, şəhərə meyl edən ərazinin formalaşdırılması və təsərrüfat inkişafı prosesidir.

Şəhərin coğrafi mövqeyi şəhərin tipinə də böyük təsir göstərir, ərazi əmək bölgüsündə onun yerini müəyyənləşdirir və beləliklə, şəhərin istehsal ixtisaslaşmasına təsir edir. Şəhərlərin iqtisadi inkişafındakı bu qanunauyğunluq ölkənin hər bir regionunda, sonuncunun iqtisadi ixtisaslaşmasından asılı olaraq, müəyyən şəhər tipinin inkişafında əksini tapır. Məsələn, Uralın mədən sənayesi şəhərləri və Azərbaycanda Daşkəsən mədənçıxarma, qara və əlvan metallurgiya sənayesi mərkəzləri kimi səciyyəvidirlər. İntensiv kənd təsərrüfatı ilə seçilən Şimali Qafqazın, Orta Asiyanın şəhərlərində kənd təsərrüfatı xammalını emal edən mərkəzlər geniş yayılmışdır.

Şəhərin iqtisadi-coğrafi mövqeyinin təhlilində ***mikromövqe*** – yaxın ətrafa münasibətdə mövqe, ***mezomövqe*** – bütün ölkəyə, yaxud onun iri hissələrinə münasibətdə mövqe ayırd edilir. Bu coğrafi mövqe tərəfləri şəhərin inkişafında müxtəlif rol oynayırlar. Şəhərin əlverişli mikromövqeyindən (relyefin münasibliyi, yaxınlıqda böyük çayın olması, əlverişli nəqliyyat mövqeyi) əlverişsiz mezomövqe ucbatından heç də həmişə istifadə etmək mümkün olmur. Bu, o deməkdir ki, şəhərin yerləşdiyi bölgə bir mərhələdə iqtisadi inkişaf üçün lazımi ilkin şəraitə malik deyildir (faydalı qazıntıların, kifayət qədər xammal və energetika bazasının olmaması, bölgənin zəif məskunlaşması və az mənimsənilməsi, nəqliyyat vasitələrinin yoxluğu). Tez-tez əksinə hallar da baş verir – şəhərin uğursuz mikromövqeyi onun öz mezo və makromövqelərini gerçəkləşdirməsinə imkan vermir. İri sənaye bölgələri Donbasın, Volqaboyunun, Kuzbasın bir çox kiçik şəhərləri mikrocoğrafi mövqelərinin namünasibliyi üzündən (şəhər sahəsi relyefinin mürəkkəbliyi, tikinti üçün ehtiyat ərazilərin olmaması, su təchizatının çətinliyi və s.) inkişaf etmirlər.

**Bakı şəhərinin iqtisadi-coğrafi mövqeyi.** Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri MDB-nin ən böyük sənaye, elm və mədəniyyət mərkəzlərindən biri, Xəzər dənizinin qərb sahilində mühüm limandır. Bakı geniş sənaye, rekreasiya və kənd təsərrüfatı zonası ilə bilavasitə bağlıdır. Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında böyük karbohidrogen yanacağı ehtiyatlarının olması, Qafqazı Orta Asiyadan ayıran Xəzər dənizi sahilindəki mövqeyi, habelə üç tərəfdən yaylalarla, amfiteatrla əhatə olunmuş şəhərin Bakı buxtasına doğru uzanan çıxıntılı relyefi onun coğrafi mövqeyinin səciyyəvi əlamətlərini müəyyənləşdirir. Şəhər hüdudlarında, Abşeron yarımadasında və dəniz akvatoriyasında neft, qaz, qeyri-filiz inşaat materialları yataqlarının istismarı, xeyli əmək qabiliyyətli əhalinin, ixtisaslı kadrların, iri əsas sənaye fondlarının olması şəhərin inkişaf etmiş neft-qazçıxarma, neft kimyası, kimya, maşınqayırma, elektroenergetika, metallurgiya, yüngül, yeyinti sənayelərinə, inşaat materialları istehsalı müəssisələrinə və s. malik sənaye kompleksi kimi formalaşmasına imkan vermişdir.

Bakının Rusiya, Cənubi Qafqaz, Orta Asiya, Qazaxıstan, qonşu Yaxın Şərq dövlətləri arasında mövqeyi, iri neft hasilatı və nəqli mərkəzi kimi onu yükdaşımanın həcminə görə MDB-də ilk yerlərdən birini tutan nəqliyyat qovşağına çevirmişdir. Bununla da, Bakı dəniz limanı mühüm əhəmiyyət kəsb etmişdir. Bakı və Türkmənbaşı (keçmiş Krasnovodsk) arasında bərə yolunun istismara verilməsi ilə onun rolu xeyli artmışdır.

Bakı respublikanın, MDB dövlətlərinin ehtiyacı üçün neft avadanlığı istehsal edən maşınqayırma zavodlarının, neft emalı, gəmi təmiri müəssisələrinin cəmləşdiyi yerdir. Bütün bunlar onun nəqliyyat-iqtisadi əlaqələrini xeyli dərəcədə müəyyən edir. Bu baxımdan şəhərin digər bölgələrə xidmət funksiyası onun coğrafi mövqeyi ilə, təkcə ona meyl edən ərazilərlə deyil, digər uzaq regionlarla əlaqələrinin xarakteri ilə müəyyənləşir.

Dənizsahili rekreasiya mərkəzələrinin inkişafı üçün zəngin ehtiyatların, habelə şəhərə meyl edən ərazidə suvarma əkinçiliyinin mövcud olması da az əhəmiyyət kəsb etmir.

Bakının sənaye, nəqliyyat və digər paytaxt funksiyalarının uzlaşması nadir haldır. İqtisadi-coğrafi mövqeyi Bakının inkişafına, əhalisinin artmasına həlledici şərait yaratmış, istehsalın yanacaq-energetika əsasında təmərküzləşməsi ilə bağlı ixtisaslı əmək potensialının formalaşması əhalinin sıx olduğu bölgələrdən ucuz işçi qüvvəsinin cəlb olunmasını stimullaşdırmışdır.

100-120 km radiusda bilavasitə şəhərə meyl edən ərazinin təsərrüfat sıxlığı da böyük əhəmiyyətə malikdir. Şəhəryaratma proseslərinin miqyasına və intensivliyinə, istehsalın təmərküzləşməsinə və xüsusiyyətlərinə, infrastrukturun inkişafına görə bu ərazinin MDB-nin paytaxt şəhərləri arasında analoqu yoxdur. Burada ən iri və özünəməxsus şəhər aqlomerasiyalarından biri təşəkkül tapmışdır. Son 50 ildə Bakının öz ərazisi 2 dəfədən çox, əhalisinin sayı isə 2,4 dəfə artmışdır. Bakı aqlomerasiyası daha sürətlə inkişaf etmişdir. Bakının yaxınlığında neft-qaz sənayesi və tikinti materialları (sement, divar materialları) istehsalı mərkəzi olan iri Sumqayıt şəhəri, kurort qəsəbələri Buzovna, Mərdəkan, Bilgəh, neft yataqları ətrafında qəsəbələr və s. yaranmışdır. 2500 $km^2$ ərazini tutan Bakı aqlomerasiyası SSRİ-də yaradılmasına hələ XX əsrin 20-ci illərində başlanmış ilk rayon planlaşdırması obyektlərindən biri olmuşdur. Şəhəri və neftçi fəhlələrin qəsəbələrini, kurortları, kənd təsərrüfatı obyektlərini birləşdirən SSRİ-də ilk şəhərətrafı elektrik dəmir yolu da (Sabunçu dəmir yolu xətti) 20-ci illərdə burada çəkilmişdir. Hazırda Bakı aqlomerasiyasının əhalisi 2,5 milyon nəfərə yaxındır.

Bakı dünyanın qədim şəhərlərindəndir. Arxeoloji qazıntıların məlumatına görə, hələ bir neçə min il bundan əvvəl onun yerində insan məskəni olmuşdur. Neft çıxarmaqla, onun saxlanması və daşınması üçün saxsı qablar hazırlamaqla, habelə balıqçılıqla məşğul olan sakinlər burada yaradılmış qalada qorunmuşdur. Abşeron neftinə ta qədimdən təkcə Cənubi Qafqazda deyil, Şimali Qafqaz, Yaxın Şərq ölkələrində, Hindistanda da tələbat olmuşdur.

Xəzər dənizi sahilində, Avropa və Orta Asiya, Yaxın Şərq və Rusiya arasında əlverişli coğrafi mövqeyə malik olan Bakı

artıq X-XI əsrlərdə mühüm ticarət mərkəzinə çevrilmişdi. İrandan, Çindən, Ərəbistan yarımadası ölkələrindən Cənubi Qafqaza, cənubi rus şəhərlərinə gələn karvan və dəniz yollarının üstündə olması da buna imkan verirdi. Abşeron yarımadasından keçən «ipək yolu» Bakının digər Şərq regionları və Rusiya ilə ticarət əlaqələrinin inkişafında böyük rol oynayırdı.

Əlverişli Bakı buxtası və onun üstündəki təpə, eyni zamanda liman və Qafqazı cənubdan və şərqdən qoruyan qala rolu oynayan şəhər ərazisinin formalaşmasına şərait yaradırdı. Cənubi Qafqazın şərq hissəsinin təbii sərvətləri, zəngin yanacaq-energetika, balıq və duz ehtiyatları, əlverişli coğrafi mövqeyi əcnəbi tacirlərin diqqətini daim cəlb edirdi.

XIX əsrin 70-ci illərindən Bakıda neft sənayesi coşqun inkişaf etməyə başlayır. Neft hasilatı 1872-ci ildəki 26 min tondan 1901-ci ildə 11 milyon tona çatdı ki, bu da o zamankı dünya neft hasilatının 50%-ni təşkil edirdi. Rostov-Mahaçqala-Bakı, Bakı-Tbilisi dəmir yollarının, Bakı-Batumi neft kəmərinin çəkilməsi, neftin və neft emalı məhsullarının Volqa çayı və dəmir yolları vasitəsilə Rusiyaya daşınmasının təşkili böyük əhəmiyyətə malik idi. XIX əsrin sonunda Bakıda 112 min nəfər əhali yaşayırdı (əsrin əvvəlində 4,5 min nəfərə yaxın).

Sovet hakimiyyəti illərində Bakı SSRİ-nin ən mühüm sənaye mərkəzlərindən birinə çevrildi. 1913-cü ilədə 7,7 milyon tonadək azalan neft hasilatı 1940-cı ildə artaraq, 22,2 milyon tona çatdı. Bakı neft rayonu Böyük Vətən müharibəsi illərində xüsusilə mühüm rol oynayaraq, cəbhəni neft məhsulları ilə təmin etdi. Müharibə illərində Bakı rayonunda 80 milyon ton neft çıxarılmışdı.

Müharibədən sonra SSRİ-də Volqaboyu («İkinci Bakı»), Qərbi Sibir kimi yeni iri neft rayonları mənimsənildi. Lakin Bakı mühüm neft hasilatı və emalı, neft mədənləri, neftayırma zavodları üçün avadanlıq istehsalı, habelə yeni mənimsənilən rayonlar üçün neftçi kadrları hazırlığı mərkəzi kimi əhəmiyyətini saxladı. XX əsrin 70-ci illərinin əvvəlində Bakı neft rayonu yataqlarının işlənilməsinə başlanandan bəri keçən bütün dövr ərzində 2 milyard tondan artıq neft çıxarılmışdı. Dənizdə

neft çıxarılmasının mənimsənilməsi («Neft daşları» və s.) ilə Bakı neft rayonunun yeni inkişaf imkanları açıldı.

Bakının və onun aqlomerasiyasının şəhər mühiti əhalinin çoxluğu və bəzi rayonlarda onun sıxlığı, havanın çirklənməsi, istehsalın intensiv artımı, nəqliyyatın inkişafı ilə bağlı müasir vəziyyəti müəyyən sosial və ekoloji gərginlik yaradır. Boş ərazilərin məhdudluğu, yaxud olmaması ilə bağlı, xüsusilə son illərdə, şəhər hüdudlarında hündür binaların tikilməsinə ehtiyac yaranmışdır. 10 və daha yüksək mərtəbəli belə binalar şəhər ərazisinin təqribən 13-14%-ni təşkil edir. Şəhərin mərkəz hissəsində torpaq sahəsinin və kirayəsinin qiyməti bahadır. Bitişik yarımsəhra və quraqlıq yayla zonası, habelə Abşeron yarımadasında, çox vaxt, içməyə yararsız yeraltı su ehtiyatlarının qıtlığı şəraitində səth sularının olmaması da şəhər mühitinə xeyli təsir göstərir. Bu şəraitdə Bakının su təchizatı Kür çayından çəkilmiş su kəmərləri və 140-150 km məsafədən gətirilən Şollar suyu hesabına həyata keçirilir.

Hazırda Bakı iri sənaye, nəqliyyat, xidmət sahələri, urbanizasiya proseslərinin təmərküzləşməsi mərkəzi kimi çoxsaylı əhalinin axışdığı, Rusiyadan, Cənubi Qafqazdan, Orta Asiyadan, Qazaxıstandan müxtəlif yüklərin gətirildiyi və göndərildiyi məkandır. Rusiya, Ukrayna, Qafqaz regionlarını, Qara dəniz, Aralıq dənizi, Xəzər sahillərini birləşdirərək, Rusiyanın, Yaxın Şərqin içərilərinə (Qafqaz vasitəsilə Qara dəniz limanlarına – Novorossiyskə, Batumiyə, Suxumiyə, Türkiyə ərazisi vasitəsilə Ceyhan limanına, Xəzər vasitəsilə Türkmənistan və Qazaxıstan limanlarınadək) doğru uzanan üç dəmir yol xətti – İran-Culfa, Rostov-Mahaçqala-Bakı, Tbilisi-Bakı xətləri, Xəzərdəki dəniz limanı, Binədəki Beynəlxalq aeroport artmaqda olan yükdaşımalarını təmin edir. Dəmir, avtomobil, dəniz, aviasiya, neft-qaz kəmərləri yollarının kəsişmə mərkəzi olan Bakı dünya əhəmiyyətli nəqliyyat qovşağına çevrilir.

Respublikanın sənaye-istehsal fondunun 60%-dən çoxu, sənaye məhsulunun 60%-dən artığı Bakıda cəmləşmişdir. Bakıdan Dağıstana, Tbilisiyə, Naxçıvana gedən şose və dəmir yolları sıx əhalili, təbii sərvətlərlə zəngin aqrar-sənaye bölgələ-

rindən keçərək, yerli və tranzit yükləri istehlak bölgələrinə daşıyırlar.

Bakı ətrafında, Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında neft-qaz yataqları, neft emalı, maşınqayırma, metallurgiya, kimya, gəmi təmiri zavodları, istilik-elektrik stansiyaları cəmləşmişdir. Onlar uzun illər boyu öz məhsullarını MDB-nin bir çox bölgələrinə ixrac etmişlər. Çoxsaylı sənaye müəssisələri arasında yeni dəniz mədənləri – «Neft daşları», «Baharlı», «28 May», «Günəşli» «Çıraq», «Azəri» və bir çox digərləri xüsusi yer tutur.

Xəzərin dünya neft hasilatında pay artımının perspektivləri ilə bağlı öz əlaqələrini geniş regionlara yayan Bakının nəqliyyat qovşağı kimi rolu, şübhəsiz ki, daha da artacaqdır.

Şəhərlərin iqtisadi-coğrafi mövqeyinin təhlili və öyrənilməsi iqtisadi coğrafiyanın mürəkkəb və mühüm mövzularındandır. Onun şəhərlərin inkişafına və onlardan asılı olan ərazilərin formalaşmasına təsiri böyükdür və dərindən tədqiq olunmasını tələb edir. Bu baxımdan Bakının iqtisadi-coğrafi mövqeyinin tədqiqi təkcə Azərbaycanın deyil, həm də Avropanın, Yaxın və Orta Şərqin, Orta Asiyanın bir çox bölgələrinin də problem lərini və qarşılıqlı əlaqələrini əhatə edən mürəkkəb vəzifələı sırasına daxildir.

İqtisadi-coğrafi mövqe, təbii şərait və ehtiyatlardan, istehsalın təmərküzləşməsindən və digər bölgələrlə mümkün qarşılıqlı əlaqələrin xarakterindən asılı olaraq, şəhərlərin inkişafına müxtəlif cür təsir göstərirlər. Şəhərlər inkişaf etdikcə və onlara meyl edən bölgələrdə dəyişikliklər baş verdikcə, bu təsir də dəyişir.

Tanınmış alim Y.N.Pertsik iqtisadi-coğrafi mövqenin mühüm əlamətlərini təhlil edərkən onun unikallığını və fərdiləşdirici rolunu ön plana çəkir. O, haqlı olaraq, makro-, mezo- və mikromövqelərin qarşılıqlı surətdə asılı olduğunu vurğulayır. İqtisadi-coğrafi mövqeyin bu müxtəlif tipləri qarşılıqlı fəaliyyət göstərir, lakin şəhərin inkişafına müxtəlif cür kömək edə bilərlər. Bu üç növ mövqe çox nadir hallarda eyni dərəcədə əlverişli olurlar. Makro- və mezo- mövqelər həlledici əhə-

miyyətə malikdirlər. Diqqətəlayiq makro- və mezo- mövqelərə malik olan, müxtəlif əraziləri vəhdət halında birləşdirən, sürətlə inkişaf edən sənaye bölgələri mərkəzləri ilə bağlı nöqtələrdə yerləşən şəhərlərin inkişaf potensialı daha çoxdur.

Bu fikir Bakının və Azərbaycanın ikinci böyük şəhəri Gəncənin iqtisadi-coğrafi mövqeyinin, inkişaf şəraiti və imkanlarının müqayisəsində daha əyani şəkildə illüstrasiya edilə bilər.

300 min nəfər əhalisi olan Gəncənin ətrafında şəhərin maneəsiz surətdə genişlənməsinə imkan verən xeyli düzənlik ərazi vardır. Şəhərin yaxınlığında mineral-xammal ehtiyatları – dəmir filizi, alunit, bentonit gil, odadavamlı material yataqları, münbit kənd təsərrüfatı torpaqları, iqlim və balneoloji kurortlar – cəmləşmişdir. Bu ilkin şərait Gəncənin xeyli inkişaf etməsinə imkan yaradır.

Lakin dənizdən 300 km aralı olan, bir istiqamətdə – şərqdən qərbə gedən dəmir və avtomobil yollarının üstündə yerləşən Gəncənin iqtisadi-coğrafi mövqeyi MDB, Yaxın və Orta Şərq, Cənubi Asiya ölkələri ilə iri miqyaslı iqtisadi əlaqələrin həyata keçirilməsi üçün müqayisəyəgəlməz dərəcədə geniş imkanlar açan Bakının iqtisadi-coğrafi mövqeyi ilə müqayisə edilə bilməz. Dənizlə dağ ətəyi arasında yerləşdiyindən Bakının mikro- mövqeyinin qismən əlverişsiz olmasına baxmayaraq, bu, onun intensiv surətdə böyüməsinə nəzərəçarpacaq qədər mane ola bilməmiş, üstəlik, şəhər ərazisinin genişlənməsini məhdudlaşdıran amillər geniş Bakı aqlomerasiyasının inkişafı, sənaye, kurort və tranzit funksiyalarının bir hissəsini özündə cəmləşdirən peyk şəhərlər (Sumqayıt, Qaradağ, Mərdəkan, Buzovna, Bilgəh kurortları, Dübəndi, Binə nəqliyyat mərkəzləri və s.) sisteminin formalaşması ilə uğurla aradan qaldırılmışdır.

1980-ci illərin axırından Azərbaycanın neft sənayesinin inkişafında yeni mərhələ başlandı. Xarici şirkət və konsernlərin iştirakı ilə Xəzər dənizi akvatoriyasında, həm respublikanın hüdudlarında, həm də qonşu dövlətlərlə sərhəddində böyük həcmdə neft və təbii qaz ehtiyatları aşkar edilmişdir.

Mütəxəssislərin fikrincə, Xəzər dənizi iri potensial karbo-

hidrogen yanacağı ehtiyatlarına malikdir. Neftin və təbii qazın çıxarılması və nəqli ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə, Norveç, İraq, Yaponiya, Səudiyyə Ərəbistanının şirkətləri ilə birgə həyata keçirilir. Neft və qazın Xəzərdə Azərbaycan, Türkmənistan və Qazaxıstan akvatoriyasında birgə hasilatı şəraitində onların nəqli ilə bağlı ciddi problemlər yaranır. Xəzər neftinin boru kəmərləri ilə daşınmasına başlamaq üçün ən məqsədəuyğun yer Abşeron yarımadasında təşəkkül tapmış neftçıxarma mərkəzidir. Neft buradan üç əsas marşrutla xarici bazara çıxarılır:

1) İllik buraxılış gücü 16-17 milyon ton neft olan 1411 km uzunluğundakı Bakı-Novorossiysk; Çeçenistan münaqişəsi ilə əlaqədar neftin bu istiqamətdə vurulmasını 1998-1999-cu illərdə dayandırılmışdı. Novorossiysk limanına cəmi 200 min ton neft daşınmışdır. Çeçenistandan yan keçməklə neft kəməri çəkildikdən sonra bu istiqamətdə neft daşınmasına yenidən başlanmışdır;

2) 827 km uzunluğunda, illik buraxılış gücü 6-7 milyon ton olan Bakı-Supsa (Qara dənizdə liman, Gürcüstan);

3)1730 km uzunluğunda Bakı-Tbilisi-Ceyhan (Aralıq dənizində liman, Türkiyə).

Qazaxıstanın Tengiz və digər yataqlarının istismarı, əsasən, neftin qərb istiqamətində ixracını nəzərdə tutur. Bununla əlaqədar, Qazaxıstan neftinin, və Türkmənistan qazının da Bakı vasitəsilə qərbə daşınması nəzərdə tutulur.

Beləliklə, Bakının və Abşeron yarımadasının iqtisadi-coğrafi mövqeyi Rusiya, Gürcüstan, Türkiyə limanlarına ən əlverişli neft kəmərləri marşrutlarının seçilməsinə əhəmiyyətli təsir göstərir.

Bakı şəhərinin geosiyasi və iqtisadi-coğrafi mövqeyi ta qədimdən şəhərin inkişafı, onun bir çox ölkələrlə əlaqələri üçün əlverişli şərait yaradan fenomen kimi gerçəkləşdirilir. Respublikanın dünya bazarına çıxdığı indiki şəraitdə bu mövqedən səmərəli istifadə iqtisadi-coğrafi baxımdan məqsədəuyğun və faydalı olub, mühüm iqtisadi və siyasi əhəmiyyət kəsb edir.

## 10.3. Şəhər yaşayış məskənlərinin tipologiyası və təsnifatı

Tipologiya – mürəkkəb obyektləri onların başlıca xassələrinin aşkara çıxarılması əsasında dərketmə metodudur. Şəhərlərin tipologiyası məlum şəhərin başqaları arasında yerini müəyyənləşdirmək üçün lazımdır. Bu, onların hər birində ümumi inkişaf qanunauyğunluqlarının yaratdığı ən əhəmiyyətli cəhətləri tapmağa kömək edir. Şəhərin tipi onun ən yığcam şəkildə qısa xarakteristikası, bir növ, düsturudür.

Tipologiyanın başlangıcı olan ***təsnifat*** – şəhərlərin hansısa bir əlamət dərəcəsinə, iqtisadi-coğrafi mövqeyinə, yaranma tarixinə görə bölgüsüdür. ***Tipologiya*** isə əlamətlərin uzlaşması əsasında şəhərlərin tiplərə bölünməsidir. Onu tipə görə təsnifat, yəni təsnifatın yüksək pilləsi adlandırmaq olar.

Coğrafiyada şəhər məskənlərinin aşağıdakı təsnifat istiqamətlərindən istifadə edilir: 1) böyüklüyünə görə (əhalinin sayı); 2) funksiyalarına görə; 3) ərazi əmək bölgüsündəki iştirak dərəcəsinə görə; 4) mənşəyinə görə (genetik təsnifat); 5) iqtisadi-coğrafi mövqeyinə görə. Şəhər və şəhərsalma coğrafiyasında şəhərlərin ***böyüklüyünə görə*** aşağıdakı təsnifatı qəbul olunmuşdur: əhalisi 50 min nəfərə qədər olan kiçik şəhərlər, orta (50-100 min), böyük (100-250 min), iri (250-500 min), ən iri (500 min-1 milyon), milyonçu şəhərlər (1 milyondan çox). Şəhərlərin həcminə görə təsnifat qruplaşdırılması müəyyən məskən tipləri kimi kiçik, orta, böyük və milyonçu şəhərlərin tipologiyası ilə müəyyən qədər üst-üstə düşür. Məsələn, belə bir cəhət çoxdan diqqəti cəlb edirdi ki, 100 min nəfərlik həddə çatdıqdan sonra funksional strukturda sənayenin payı nəzərəçarpacaq dərəcədə azalır. Milyon nəfər əhalisi olan şəhərdə metropolitenə ehtiyac yaranır. Gətirilən təsnifatda 20 min sakini olan şəhərlər əksini tapmamışdır. Ona görə də təsnifatda «yarımorta» adlandırılan 20-50 min əhalisi olan şəhərlər fərqləndirilir.

**Funksional tipologiya.** Şəhərlərin yerinə yetirdikləri ən geniş yayılmış funksiyalar tipologiyası xarakterinə görə iqtisadi

və qeyri-iqtisadi tipologiyalara bölünür.

Birincilərə əhalinin sənaye istehsalı və dövriyyəsi (sənaye, nəqliyyat, ticarət-bölüşdürücü, tədarük və təchizat funksiyaları) sahəsində fəaliyyətinin bütün cəhətləri daxildir. İstehsal fəaliyyətinin bu növləri, müəyyən dərəcədə, kənd yaşayış məskənlərinə də xasdır. Lakin onlarda bu, köməkçi əhəmiyyətə malik olub, birinciliyi kənd təsərrüfatı istehsalına güzəştə gedirlər. İqtisadi funksiyaları, sxematik olaraq, üç qrupa ayırmaq mümkündür: çoxsahəli struktura malik sənaye; ixtisaslaşdırılmış sənaye mərkəzləri; iri çay və dəniz limanlarında, dəmir yol qovşaqlarında və müxtəlif növlü nəqliyyat qovşaqlarında nəqliyyat qrupları; sənaye-nəqliyyat şəhərləri. Hər bir şəhərin həyatında regionlararası əlaqələrə xidmət göstərən nəqliyyatın iqtisadi əhəmiyyəti çox böyükdür. Bəzi şəhərlərdə isə o, əsas şəhəryaratma amilidir. Qeyri-iqtisadi funksiyalara inzibati-siyasi, mədəni, elmi və təşkilati fəaliyyətlər aiddir. Şəhərin funksiyaları şəhəryaratma və şəhərəxidmət əhəmiyyətinə malikdir.

Şəhər əhalisinin şəhərdənkənar iqtisadi, mədəni, məişət, inzibati əlaqələrə xidmət göstərilməsinə yönəldilmiş fəaliyyəti şəhəryaratma funksiyalarına aiddir. Şəhər əhalisinin özünün ehtiyaclarına, o cümlədən sənaye və nəqliyyat ehtiyaclarına xidmət isə şəhərəxidmət funksiyalarıdır. Funksiyalardan yalnız hansısa birini götürmək, praktik olaraq, mümkün deyil. Belə ki, eyni funksiyalar həm şəhəryaratma, həm də şəhərəxidmət funksiyaları ola bilərlər. Ölkələrin, respublikaların paytaxtları, vilayət və əyalətlərin mərkəzləri iri sənaye mərkəzləri və nəqliyyat qovşaqları, böyük ərazilərə xidmət edən universitet şəhərləri güclü inkişaf etmiş şəhəryaratma funksiyalı şəhərlər sırasına daxildir.

Ərazi əmək bölgüsündə yerinə görə a) yerli əlaqələrdə (kənd bölgələrinin iqtisadi, inzibati və mədəni mərkəzləri); b) bölgədaxili əmək bölgüsündə (iqtisadi rayonlar); c) bölgələrarası əmək bölgüsündə; ç) beynəlxalq əmək bölgüsündə iştirak edən şəhərlər ayırd edilir.

Funksional tipologiya statistik məlumatlara əsaslandıqda o,

iqtisadi-statistik tipologiya olur. Ona şəhərin iqtisadi-coğrafi mövqeyi, onun ərazi əlaqələri sahəsi təzahürləri kimi meyarlar daxil edildikdə isə o, coğrafi tipologiyaya çevrilir. Yerli mərkəzin fəaliyyəti, əsasən, onu əhatə edən kiçik bölgə çərçivəsində qapanır. İxrac əhəmiyyətli liman şəhərinin müəyyən xidmət rayonu – hinterland vardır. Bu, şəhərin mənsəbində yerləşdiyi iri çayın hövzəsi ola bilər. Peyk-şəhər, onun üçün ən əhəmiyyətli əlaqələrlə birlikdə, aqlomerasiyanın mərkəzinə səmtlənmişdir və s. Funksiyaların ərazi tərkibi şəhərin bu və ya digər bölgələrlə və mərkəzlərlə əsas əlaqələrinin mənzərəsi, onun bölgədaxili, bölgələrarası sistemə, iri mərkəzlər üçün isə dünya təsərrüfat əlaqələrinə daxil olmasıdır.

**Genetik təsnifat** sintetik anlayışdır. O, funksiyaların, planlaşdırmanın, xarici görüntünün, coğrafi mövqenin genezisi kimi bütöv əlamətlər qrupunu əhatə edir. Genetik təsnifat şəhərsalma praktikasının və şəhər məskənləri şəbəkəsi inkişafının perspektiv planlaşdırılması ehtiyacından doğmuşdur. Planlaşdırma vəzifələrinin həllində, şəhərin planlaşdırılmış strukturunun genezisindən asılı olaraq, şəhərin tipinin və məskunlaşma formalarının müəyyənləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Şəhərlərin iqtisadi inkişaf yolları müəyyənləşdirilərkən, hər şeydən əvvəl, xalq təsərrüfatı funksiyalarının genezisinə baxılmalıdır. Hər bir ictimai-iqtisadi formasiyanın səciyyəvi genezislərə malik özünəməxsus sosial-iqtisadi şəhər tipləri vardır.

Məsələn, feodalizm dövrünün şəhərləri, ölkəsindən və bölgəsindən asılı olmayaraq, eyni funksiyaları yerinə yetirmişlər. Onlar feodal hakimliklərinin inzibati-siyasi mərkəzləri, sənətkar və tacirlərin məskunlaşdığı yer, daxili müharibələr zamanı əhalinin qorunması üçün möhkəmləndirilmiş məntəqələr idilər. Feodal şəhərlərinin planlaşdırılması da təyinatlarına müvafiq təşəkkül tapırdı. Feodal şəhərinin mərkəzi feodalın, onun xidmətçilərinin və qoşunun yaşadığı qala idi. Rusiya şəhərlərində bu, «kreml», «şəhərcik», ərəb ölkələrində «şəhristan», Avropa ölkələrində «içqala», «qəsr» adlanırdı. Qala divarlarının yaxınlığında sənətkar-ticarət məskənləri yerləşirdi. Bu məskənlər rus şəhərlərində «posad»lar, «sloboda»lar (şəhərət-

rafı qəsəbələr), ərəb şəhərlərində «rabad» adlanırdı. Kapitalist ölkələrində burjuaziyanın abad məhəllələri yaşayış üçün ən əlverişli şəraitə malik bölgələrdə yerləşir. Fəhlə məhəllələri isə, əksinə, abadlıq səviyyəsinin aşağı olması, tikililərin sıx və nizamsızlığı, havasının kəsifliyi, natəmizliyi ilə seçilir.

Şəhərlərin genezisə görə daha bir təsnifatı mümkündür. Belə ki, iqtisadi-coğrafi baxımdan köhnə, kompakt şəkildə tikilmiş Avropa tipli şəhərlərlə ekstensiv qaydada, əsasən, kotteclər şəklində inşa olunmuş «birmərtəbəli Amerika» tipli gənc şəhərlər arasında fərqlər kifayət qədər gözə çarpır. Sonuncuların, adətən, işgüzar hissəsi kontorların, bankların, otellərin və s. yerləşdiyi hündür binaların yığını ilə seçilir. Bəzən bu işgüzar mərkəz xırda qulluqçuların, yaxınlıqdakı mağazaların satıcılarının, ruzisini işgüzar və ticarət mərkəzində qazanan digər kateqoriyalardan olan əhalinin yaşadığı çoxmərtəbəli evlərlə əhatə olunur. Şəhər ərazisinin əsas hissəsi çəpərlənmiş qazonlu, qarajlı malikanə sahələri ilə tutulmuşdur. Şəhərin bütün sahəsinin xeyli hissəsini avtomobil yolları tutur: sanki, məsafəni qısaltmalı olan avtomobil nəqliyyatının özü onları uzadır, başdan-başa kotteclər tutan məhəllələrin sahəsini nəzərə çarpdıraraq, torpağın qiymətinin yüksək olduğu şəraitdə belə böyük sahələrin avtomobil yolları üçün ayrılmasının zəruriliyini diqqətə çatdırır.

İnkişaf etməkdə olan ölkələrə gəldikdə isə, burada da maddi formalar bir-birindən xeyli fərqlənən bir neçə əsas tip əmələ gətirmişlər. Hindistanda, Çində, Pakistanda və Xarici Asiyanın digər ölkələrində bəzən çoxmilyonlu şəhərlilərin yaşadığı son dərəcə sıx, adətən, azmərtəbəli şəhərlər yaranmışdır. Əlverişli iqlim şəraiti asan başa gələn evlər tikməyə imkan verir. Burada abadlıq səviyyəsi də yüksək deyil. Tikililərin sıxlığı yaşıllaşdırmanı, demək olar ki, istisna edir, şəhər nəqliyyatının azlığı nisbətən dar küçələrlə keçinməyə imkan verir. «Qara Afrika»nın bir çox şəhərlərinin tipi isə başqadır. Onlar, sanki şəhər hüdudlarına köçürülmüş əsl kəndləri xatırladan məhəllələrdən ibarətdir: eyni kənd komaları, əslində, eyni həyat tərzi. Şəhərin bu əsas hissəsinin müqabilində, adətən, abad «Avropa»

məhəllələri təzad təşkil edir. «Ərəb dünyası»nın Əlcəzair, Kasablanka, Qahirə, Dəməşq, Bağdad kimi şəhərləri üçün son dərəcə sıx, Şərq üslübünda inşa olunmuş özək, «Avropa» məhəllələri, ətraf zonaların xarabalıqları və birtəhər quraşdırılmış daxmalar səciyyəvidir. Bu cür xarabalıqlar müxtəlif adlarla (Braziliyada «favella», Peru və Kolumbiyada «baryada») Latın Amerikası şəhərlərinin də ayrılmaz hissəsidir. Bu şəhərlərin köhnə özəyini müstəmləkə memarlığı üslbündə inşa edilmiş daha abad məhəllələr təşkil edir. Həm də, böyük şəhərlərdə tropik iqlim xüsusiyyətləri nəzərə alınmaqla modifikasiyalaşdırılmış göydələnləri olan işgüzar mərkəz tez-tez bu özəyə bitişir.

Xarici Avropanın şəhərləri kökləri orta əsrlərin dərinliklərinə gedib çıxan, bəzən isə Roma imperiyasının izləri görünən uzun tarix boyu təşəkkül tapmış sıx şəbəkə əmələ gətirir. Bu, xüsusilə İtaliyaya və Fransanın cənubuna aiddir. Şəhər şəbəkələri «klassik» yolla yaranmışdır. Şəhərlər bir tərəfdən, əkinçilik, digər tərəfdən isə sənətkarlıq və ticarət arasında ilkin ictimai əmək bölgüsü nəticəsində kənd yerlərində yaranmışdır.

Bəzi qədim şəhərlərin «aşağıda» yaşayan sənətkarları qorumaq üçün qəsrlərin ucaldığı dağ ətəyində salınması tipikdir. Məsələn, böyük çayın vadisində rahat ticarət yolu ilə qəsrin əlverişli hərbi-strateji mövqeyinin uzlaşması Avstriyanın, Almaniyanın cənub bölgələrinin, Orta Fransanın bir çox şəhərləri üçün səciyyəvidir.

Ərazi təşkilində Avropa (Kiyev, Nijni Novqorod, Pskov), yaxud Amerika (son 50-60 il ərzində meydana gəlmiş şəhərlər) tipli şəhərlərlə MDB ölkələri şəhərləri arasında ümümi cəhətlər çoxdur. Orta Asiyanın və Cənubi Qafqazın bir çox qədim şəhərləri Asiya şəhərləri ilə ümumi əlamətlərə malikdir.

Şəhər aqlomerasiyaları bir sıra ümumi cəhətlərlə yanaşı, bir çox səbəblərlə – təbii-iqlim şəraitindəki, təşəkkül tarixindəki, iqtisadi-coğrafi mövqelərindəki, müasir sənaye və sosial-mədəni potensial və s. fərqlərlə bağlı fərdi xüsusiyyətlərə də malikdirlər. Təşəkkül tapmış hər bir aqlomerasiyanın xüsusiyyətləri onun ölkə aqlomerasiyaları sırasında yerini, xalq təsər-

rüfatı strukturunda, məskunlaşmanın dayaq karkasında rolunu, digər regionlarla istehsal və sosial-mədəni əlaqələrini və s. müəyyənləşdirir. Şəhər aqlomerasiyasının xarici zonalarının tipoloji xüsusiyyətləri də xeyli dərəcədə bununla bağlıdır.

Deyilənləri Bakı aqlomerasiyasının timsalında şərh edək. Bakı aqlomerasiyası təkcə əhalinin sayına və tutduğu əraziyə görə deyil, həm də ərazi və funksional strukturlar baxımından ən iri və mürəkkəb aqlomerasiyalardan biridir.

Bakı aqlomerasiyası mürəkkəblik əmsalına görə MDB ölkələri aqlomerasiyaları arasında mühüm yer tutaraq, ancaq Moskva, Donetsk, Sankt-Peterburq, Kiyev aqlomerasiyalarından geri qalır və «güclü inkişaf etmiş» aqlomerasiyalar kateqoriyasına daxildir. Bakı aqlomerasiyası inkişaf səviyyəsinə və təsnifata görə də mühüm yer tutur. Lakin bu təsnifatda aqlomerasiyaların sırası bir qədər fərqlidir: Moskva, Sankt-Peterburq, Donetsk, Xarkov, Yekaterinburq aqlomerasiyaları inkişaf səviyyəsinə görə Bakı aqlomerasiyasından yüksəkdir.

Bakı aqlomerasiyası ölkənin xalq təsərrüfatı strukturunda mühüm rol oynayır: onun əsas funksiyaları neftçıxarma və maşınqayırmadır. Bundan əlavə, aqlomerasiya indiyədək kifayət qədər inkişaf etməmiş rekreasiya ehtiyatlarına da malikdir. Burada bəzi nadir kənd təsərrüfatı bitkiləri üçün də xeyli əlverişli imkanlar var. Aqlomerasiyaların funksional strukturu ətraflı nəzərdən keçirilmiş, burada isə tədqiq edilən aqlomerasiyanın digər aqlomerasiyalar arasında yerini və xüsusiyyətlərini səciyyələndirmək üçün ancaq əsas funksiyalar xatırlanmışdır.

Bakı aqlomerasiyasının təşəkkülü, əsasən, neftli rayonun inkişafı əsasında baş versə də, aqlomerasiyanın inkişaf səviyyəsi, bütövlükdə, xeyli dərəcədə şəhər-mərkəzdə funksiyaların təkamülü ilə müəyyən edilir. Bir daha qeyd edək ki, bu, ümumi qaydadır: əksər hallarda, aqlomerasiyaların inkişafı regionun aparıcı funksiyalarının inkişaf mərkəzi olan mərkəz şəhərin inkişaf səviyyəsindən asılıdır. Bununla əlaqədar, hər bir aqlomerasiyanın ölkənin digər aqlomerasiyaları arasında yeri də onun mərkəzi şəhərinin inkişaf səviyyəsindən asılıdır.

Q.M. Lappo aqlomerasiyanın üç təşəkkül tipini nəzərdən ke-

çirir: şəhərdən formalaşma, rayondan inkişaf və qarışıq inkişaf tipləri. Qarışıq tipdə iki yarımsistem qarşılıqlı surətdə nüfuz edirlər, «həm də elə sıx qaynayıb-qarışırlar ki, onları vahidin hissələri hesab etmək lazımdır». Qarışıq aqlomerasiya tipinin iki yarımtipi ayırd edilir: iri şəhər və yerli əhəmiyyətli olmayan kurort bölgəsi (məsələn, Riqa, Riqa dəniz sahili) əsasında inkişaf edən; iri şəhər və hasilat bölgəsi (məsələn, Çelyabinsk və ona bitişik daş kömür hövzəsi) əsasında inkişaf edən yarımtiplər.

İlk baxışda Bakı aqlomerasiyasının təsnifat üzrə inkişafı qarışıq tipin 2-ci yarımtipinə aiddir. Lakin Bakı və bu yarımtip üçün səciyyəvi olan Çelyabinsk aqlomerasiyalarının inkişafı arasında əhəmiyyətli fərq var: əvvəldən sənaye neftçıxarması bölgəsi olan Abşeron neft rayonu və Bakı şəhəri iki müxtəlif yarımsistem kimi deyil, vəhdətdə inkişaf etmişlər. Abşeron nefti Bakının sürətli inkişafına güclü təkan vermiş, o da, öz növbəsində, neftçıxarma rayonunun formalaşmasına yardım göstərmişdir. Çelyabinskdə belə vəhdət, bir-birindən asılılıq müşahidə olunmamışdır.

Görünür, şəhər aqlomerasiyası inkişafının genetik cəhətdən vəhdət təşkil edən iri şəhər və hasilat sənayesi rayonu əsasında inkişaf edən 3-cü tipindən (yaxud qarışıq tipin yarımtipindən) də danışmaq mümkündür. Bakı aqlomerasiyası bu tipin səciyyəvi təmsilçisi olacaqdır.

Bu deyilənlər aqlomerasiyanın inkişafının mərkəz-şəhərin inkişaf səviyyəsindən asılı olması barədə əvvəlki fikri təkzib etmir. Əksinə, şəhərlərin inkişafı prosesində onların qeyri-sənaye funksiyalarının daha da mühümləşdiyi müasir urbanizasiya mərhələsində bu asılılıq get-gedə artır. Sosial inkişafın səviyyəsi yüksəldikcə onun geniş sosial-mədəni mühitdən, yüksək mədəni nailiyyətləri mənimsəyən mərkəzlərin fəaliyyətindən, yəni bilavasitə istehsal prosesindən kənar şəraitdən asılılığı da artır. Urbanizasiya problemlərini tədqiq edən bir çox mütəxəssislər şəhərlərin sosial-mədəni funksiyalarının əhəmiyyətinin artacağını, yüksək xidmət səviyyəsinin, şəhər mədəniyyətinin inkişafını vurğulamışlar. Bu mənada, sosial-mədəni potensialı daim artan Bakının əhəmiyyəti və rolu daha

da yüksəlir.

Yuxarıda göstərildiyi kimi, şəhər aqlomerasiyası funksiyaların sistemin məskunlaşmış yerləri arasında bölünməsinə əsaslanan vəhdət təşkil edir. Adətən, aqlomerasiyanın özəyində idarəetmə, mədəniyyət, elm, sənaye və digər funksiyalar, ətraf zonada isə, əsasən, kənd təsərrüfatı və rekreasiya (daha az dərəcədə sənaye) funksiyaları cəmlənmişdir. Bakı aqlomerasiyası bu cəhətdən də özünəməxsusluğu ilə seçilir. Burada ətraf zonada sənaye funksiyaları dünyanın əksər aqlomerasiyalarında olduğundan daha çox inkişaf etmişdir. Bununla əlaqədar, ətraf zonanın ərazisində eyni, yaxud qonşu ərazilərdə pis uyuşan qeyri-ənənəvi funksiyalar kompleksini, məsələn, sənaye və rekreasiya, sənaye və kənd təsərrüfatı funksiyalarını əlverişli şəkildə uyğunlaşdırmaq problemi meydana çıxır. Sənayenin aparıcı sahəsinin – neftçıxarmanın inkişafının ərazinin çirklənməsi ilə bağlılığı səbəbindən bu torpaqlardan rekultivaziyasız digər məqsədlər üçün istifadənin mümkünsüzlüyü, yaxud son dərəcə çətinləşməsi nəticəsində həmin problem Bakı aqlomerasiyası qarşısında daha kəskin şəkildə durur.

Həm şəhər – mərkəzdə, həm də ətraf zonada sənaye istehsalının yüksək inkişafı, Bakının özünün mədəni mərkəz kimi, ətraf zonanın isə rekreasiya ehtiyatları ilə cəzbedici olması əhali arasında intensiv qarşılıqlı əlaqə yaradır.

Buradan da yüksək səviyyəli nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi zərurəti doğur. Bu nəqliyyat infrastrukturu yaranmış şəraitlə bağlı müxtəlif tipli əmək və sosial-mədəni əlaqələr axınını təmin etməli, həm də əlaqələrin sıxlığına və yüksək dərəcəsinə nail olmalıdır. Sıxlıq (şəbəkənin sıxlığı) ərazidən istifadəolunma intensivliyi, yüksək dərəcə isə vaxt münasibliyi çərçivəsində nəqliyyatdan istifadənin təmin edilməsi zərurəti ilə bağlıdır.

Bakının özünün və aqlomerasiyanın ətraf zonasının (geniş mənada rekreasiya daxil olmaqla) digər mühüm vəzifəsi xidmət sahəsinin yüksək inkişaf səviyyəsinin zəruriliyidir. Onlar bir-birini qarşılıqlı surətdə tamamlayırlar. Lakin ətraf zonada əhali onlarca yaşayış yerləri üzrə bölündüyündən xüsusi prob-

lem meydana çıxır. Xidmət sahəsinin inkişafı ilə əlaqədar yaşayış yerlərinin dərəcələrə bölünməsi və buna müvafiq olaraq, əhalinin iyerarxiyası nəzərə alınmaqla, bu və ya digər xidmətlərin lokallaşdırılması vəzifəsi ortaya çıxır.

Abşeronda kənd təsərrüfatı funksiyalarının səmərəliliyi su təchizatı ilə bağlıdır. Bölgədə bir sıra qiymətli bitkilərin becərilməsi üçün unikal iqlim şəraiti vardır. Lakin su qıtlığı buna mane olur. Onun çatışmaması aqlomerasiya məskənlərində sənayenin və kommunal təsərrüfatın da inkişafına mənfi təsir göstərir.

İstər özəkdə, istərsə də ətraf zonada bütün funksiya növlərinin lokallaşdırılması ilə paralel surətdə Bakının özündə və ətraf zonanın yaşayış yerlərində seliteb (tikinti üçün ayrılmış) ərazilərin inkişaf problemi də mövcuddur. İri aqlomerasiyaların əksəriyyətində şəhər-mərkəzin seliteb ərazilərinin inkişafı məsələsi kəskin şəkildə durur və bir çox hallarda urbanizasiya prosesində qiymətli kənd təsərrüfatı torpaqlarının əldən alınması, ya da rekultivasiya olunmalı torpaqların mənimsənilməsi və s. ilə bağlı olur. Bakıda vəziyyətin özünəməxsusluğu ondan ibarətdir ki, şəhər hər tərəfdən neft mədənləri ilə əhatə olunmuşdur və onlar ehtiyatlar tükənənə qədər ləğv edilə bilməz. Həm də, neft mədənləri rayonundakı ərazilər, indiki halında, sanitariya və gigiyena baxımından, bir qayda olaraq, yaşayış binalarının tikintisi üçün yararsızdır. Beləliklə, şəhər uzun müddətə bilavasitə əhatəsində özünün yaşayış rayonlarının inkişafı üçün əraziyə malik deyildir.

Bunun nəticəsində ətraf zonanın yaşayış yerləri şəbəkəsinin üzərinə təkcə öz əhalisini deyil, həm də aqlomerasiyanın özəyinin – Bakının özünün əhalisini seliteb ərazilərlə təmin etmək kimi əlavə yük düşür.

# AZƏRBAYCAN RESPUBLİKASI



# XI FƏSİL
# URBANİZASİYA PROSESLƏRİ VƏ ONUN FORMALARI

## 11.1. Urbanizasiyanın mahiyyəti və formaları

**Urbanizasiya** (ingiliscə- urbanization, latınca *urbanus*- şəhərə məxsus, *urbs*- şəhər sözlərindən) bəşəriyyətin inkişafında şəhərlərin rolunun artması ilə bağlı ümumdünya tarixi prosesdir. O, məhsuldar qüvvələrin, ilk növbədə, əhalinin yerləşdirilməsindəki, onun sosial-peşə, demoqrafik strukturunda, həyat təcrübəsində, mədəniyyətindəki və s. dəyişilikləri əhatə edir. Urbanizasiya cəmiyyətin tarixən təşəkkül tapmış formaları və əmək bölgüsü əsasında baş verən çoxtərəfli demoqrafik, sosial-iqtisadi coğrafi prosesdir. Daha dar, statistik-demoqrafik anlamda urbanizasiya şəhərlərin, xüsusilə iri şəhərlərin böyüməsi, ölkədə, regionda, dünyada şəhər əhalisinin xüsusi çəkisinin artması (necə deyərlər, sözün dar mənasında urbanizasiya, yaxud əhalinin urbanizasiyası) kimi başa düşülür.

İlk şəhərlər eramızdan əvvəl III-I minilliklərdə Misirdə, Mesopatamiyada, Suriyada, Hindistanda, Kiçik Asiyada, Çində, Hind-Çində, habelə Avropa və Afrikanın Aralıq dənizinə bitişik bəzi bölgələrində yaranmışdır. Antik dünyada Babil, Afina, Karfagen, Roma, İsgəndəriyyə kimi şəhərlər mühüm rol oynamışlar. Orta əsr və İntibah dövrü şəhərlərində burjua sivilizasiyası elementləri təşəkkül tapmışdır. Kapitalizmin inkişafı ilə müxtəlif maddi və mənəvi fəaliyyət forma və növlərinin obyektiv surətdə təmərküzləşməsi və inteqrasiya zərurəti urbanizasiya prosesinin güclənməsinin və əhalinin şəhərlərdə cəmləşməsinin başlıca səbəbi oldu. Urbanizasiyanın indiki mərhələsində dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində iri şəhər məskənləri formalarının üstünlüyü müşahidə edilir.

Urbanizasiya prosesinin inkişafı şəhər əhalisinin formalaşmasının xüsusiyyətləri və şəhərlərin böyüməsi : şəhər əhalisinin özünün təbii artımı; şəhərətrafı ərazilərin (şəhərlər, qəsə-

bələr və kəndlər daxil olmaqla) şəhər hüdudlarına, yaxud inzibati tabeçiliyə daxil edilməsi; kənd yaşayış məntəqələrinin şəhərlərə çevrilməsi ilə sıx bağlıdır. Şəhərlərin böyüməsi, faktik olaraq, az və ya çox dərəcədə geniş şəhərətrafı zonaların və şəhərləşmiş yerlərin hesabına formalaşır. Bu bölgələrdə əhalinin həyat şəraiti böyük şəhərlərin – bu zonaların asılı olduğu şəhər aqlomerasiyası deyilən mərkəzlərin həyat şəraitinə getdikcə daha çox yaxınlaşır.

Dünyanın müxtəlif ölkələrində urbanizasiya prosesinin demoqrafik inkişaf aspektlərinin müqayisəli təhlilində əhalinin urbanizasiyalılığına – şəhər, yaxud şəhərləşmiş əhalinin payına dair məlumatlara əsaslanmaq qəbul olunmuşdur. Ayrı-ayrı ölkələrdə şəhər məskənləri meyarları fərqli olduğundan bir çox hallarda şəhər əhalisi haqqında müqayisəli məlumat almaq üçün müəyyən sıxlıq səviyyəsinə çatmış bütün məskənlərin əhalisini şəhər əhalisinə aid edirlər. 2002-ci ildə dünya əhalisinin üçdə birindən çoxu (19 əsrin əvvəlində 3%-dən azı) əhalisi 5000-dən çox olan məskənlərdə, dörddə biri isə əhalisinin sayı 20000-dən çox olan şəhərlərdə yaşayırdı. Şəhər məskənlərinin ayırd edilməsinin milli meyarlarından istifadə olunduqda əhalinin urbanizasiyasının dinamikası aşağıdakı kimi görünür. 1800-cu ildə Yer kürəsi əhalisinin 3%-ə yaxını, 1850-ci ildə 6,4%-i, 1900-cu ildə 19,6%-i şəhərlərdə yaşayırdı. O, 1800-ci ildən 2000-ci ilədək təqribən 18 dəfə artaraq, 51,2% çatmışdır.

Kənd və kənd təsərrüfatı əhalisi ilə müqayisədə şəhər və qeyri-kənd təsərrüfatı əhalisinin artımında üstünlük müasir urbanizasiyanın səciyyəvi əlamətdir. Dünyanın üç regionunda- Avstraliya və Okeaniya, Şimali Amerika və Avropada şəhər sakinləri üstünlük təşkil edir. Sürətlə urbanizasiyalaşan Latın Amerikası onlara çatmaqdadır. Eyni zamanda, Afrika-Asiya ölkələrinin əhalisi, sayca çoxluğu sayəsində, dünya üzrə, orta hesabla, kəndin şəhərdən üstünlüyünü yaradır. Şəhər əhalisinin ən yüksək faizi birinci dünyanın inkişaf etmiş ölkələrinə məxsusdur: Avropada – Böyük Britaniya (91%), İsveç (87%), AFR (85%), Danimarka (84%), Fransa (78%), Niderland (76%), İs-

paniya (74%) və Belçikada (72%), Şimali Amerikada – ABŞ-(77%) və Kanadada (76%); Asiyada – İsrail (89%) və Yaponiyada (78%); Avstraliya və Okeaniyada –Avstraliya (89%) və Yeni Zelandiyada (85%); Afrikada –CAR-da (50%). Şəhər əhalisinin payı 70%-i ötdükdə onun artım sürəti, bir qayda olaraq, ləngiyir və tədriclə (80%-ə yaxınlaşdıqda) dayanır.

Urbanizasiyanın səciyyəvi cəhəti əhalinin böyük və fövqəlböyük şəhərlərdə cəmləşməsidir. Əhalinin urbanizasiya prosesini məhz 100000 nəfərdən çox əhalisi olan böyük şəhərlərin böyüməsi və bununla bağlı yeni məskunlaşma formalarının və şəhər həyat tərzinin yayılması daha bariz şəkildə etdirir.

140 il (1860-2000-ci illər) ərzində bütün dünyada böyük şəhərlərin payı 1,7 %-dən 25%-ə çatmışdır. 1700-cü ildə dünyada 100000 nəfərdən çox əhalisi olan 31 şəhər, 1800-cü ildə 65, 1850-ci ildə 114, 1900-cu ildə 360, 1950-ci ildə 950, 1980-cı ildə isə 2000-dən çox şəhər var idi. «Miyonçu» nəhəng şəhərlərin inkişafı da xeyli əlamətdardır. 1800-cü ildə milyondan çox əhalisi olan təkcə bir şəhər var idisə, 2000-ci ildə onların sayı 320-dən çox olmuşdur.

Dünyanın müxtəlif regionlarda və ölkələrində urbanizasiya prosesinin özünəməxsus xüsusiyyətləri var. İnkişaf etmiş ölkələrdə urbanizasiyanın müasir tipi artıq şəhər əhalisinin artım sürətindən daha çox, suburbanizasiya proseslərinin intensiv inkişafı və bu əsasda şəhər əhalisinin yeni məkan formalarının – şəhər aqlomerasiyalarının, meqapolislərin yaranmasıdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr kortəbii urbanizasiyanın və fövqəlşəhərlərin idarəolunmaz böyüməsinin nəticələrini tam şəkildə hiss edirlər. Böyük şəhərlərin böhranı sosial, mədəni-sivilizasiya və irqi-etnik ziddiyyətlərin kəskinləşməsinin qanunauyğun nəticəsidir. Havanın və suyun çirklənməsi, ekoloji problemlərin kəskinləşməsi insanları getdikcə daha çox narahat edir. Ərazi avadanlığından istifadə sahəsində ciddi problemlər mövcuddur. Bəzi iri şəhərlərdə daşınmaz mülkiyyətin qiymətdən düşməsi prosesi nəzərə çarpır. 1960-cı illərdə ABŞ-da (1970-ci illərdə isə bəzi Qərbi Avropa ölkələrində də) əhalinin ərazi təmərküzsüzləşməsi prosesi aydın şəkildə müşahidə

edilirdi. Təkcə hələ 1950-ci illərdə geniş yayılmış proses – əhalinin iri şəhərlərdən onların ətraf zonalarına köçməsi deyil, həm də yüksək urbanizasiyalı bölgələrlə müqayisədə əyalət bölgələrində şəhərlərin üstün inkişafı nəzərdə tutulur. Bu proses reurbanizasiya adlandırılmışdır. 1970-ci illərdə ABŞ-da metropoliten əraziləri (şəhər aqlomerasiyalarının başqa adı) əhalisinin artım sürəti, ilk dəfə, ölkə üzrə orta həddən aşağı olmuşdur. Fransa, İsveç, İtaliya, Kanada üzrə məlumatlar miqrasiya istiqamətinin dəyişməsi nəticəsində əhalinin şəhər aqlomerasiyasından kiçik və orta şəhərlərə doğru ümumi hərəkətini təsdiqləyir. Böyük Britaniyada, Niderlandda, İsveçrədə, Belçikada, Avstriyada ən iri şəhərlərin əhalisi azalırdı. Həm də, mərkəz şəhərlərdən miqrant axını, başlıca olaraq, şəhərətrafı zonalara üz tutmuşdu. Bir çox iri şəhər aqlomerasiyalarında əhali artımı dayandı, hətta aşağı düşməyə başladı (bir çox hallarda şəhər- mərkəzlərin əhalisinin azalması hesabına).

İnkişaf etməkdə olan ölkələrdə demoqrafik partlayış «urbanizasiya parlayışı» ilə yanaşı baş verir. Əhalinin şəhərləşməsi göstəriciləri müqayisədə aşağı olduğu şəraitdə inkişaf etməkdə olan bir çox ölkələr nisbətən yüksək urbanizasiya sürəti ilə seçilirlər. Bir sıra Asiya və Afrika dövlətləri paytaxtlarının əndazəsiz böyüməsi urbanizasiyanın aclıq və yoxsulluqdan xilas olmaq üçün kəndlilərin kütləvi şəkildə böyük şəhərlərə axışması ilə seçilən xüsusi tipi ilə bağlıdır. Kənd əhalisinin şəhərlərə axını, bir qayda olaraq, işçi qüvvəsinə tələbatın artım sürətini xeyli üstələyir. Nəticədə, urbanizasiya sənayeləşmədən daha sürətlə gedir, kənddən şəhərə miqrasiya işsizlər və yarım işsizlər ordusunu artırır, şəhər xarabalıqları rayonlarını genişləndirir. İnkişaf etməkdə olan ölkələrdə çox milyonlu şəhər aqlomerasiyaları formalaşır (məsələn Mexiko, Buenos-Ayres,San-Paulu, Rio-de Janeyro, Kəlkatə, Bombey və s.). İnkişaf etməkdə olan ölkələrdə urbanizasiya prosesi son dərəcə ziddiyətlidir: o, bir tərəfdən bu ölkələrin tərəqqisinə yardım göstərir, milyonlarla insanın müasir dünyanın informasiya və mədəni- sivilizasiya resursları ilə təmasına imkan verir, digər tərəfdən isə, çatmaqda olan modernləşməşmə fenomeninin

doğurduğu onsuz da çox ciddi sosial-iqtisadi problemləri daha da kəskinləşdirir, son dərəcə mühümü isə odur ki, böyük şəhərlərə demoqrafik təzyiq effekti yaradır.

Azərbaycanın sovet dövrü tarixində çoxlu böyük şəhərlərin, ilk növbədə, iri şəhər aqlomerasiyalarının böyüməsinin məhdudlaşdırılmasına, orta və kiçik şəhər məskənlərinin – bir, yaxud bir neçə qonşu özək inzibati rayonlar səviyyəsində məskunlaşma sistemi mərkəzlərinin inkişafına yönəldilmiş tədbirlər sistemi həyata keçirilirdi. Eyni zamanda, «məskunlaşmanın dayaq karkası» deyilən inkişaf prosesində, təsərüfat quruculuğu və yeni ərazilərin mənimsənilməsi gedişində ölkənin bir sıra bölgələrində böyuk şəhərlər şəbəkəsi durmadan genişlənirdi (məsələn, Sumqayıt, Mingeçevir, Yevlax, Əli Bayramlı və s. kimi iri sənaye mərkəzlərinin yaradılması nəzərdə tutulur). Urbanizasiyanın demoqrafik proseslərə təsiri, xeyli dərəcədə, şəhər mühitinin ərazi diferensiallığından, ilk növbədə, şəhərlərin böyüklüyündəki və iqtisadi profilindəki (funksional tipindəki) fərqlərdən asılı olaraq təzahür edir. Urbanizasiya prosesi inkişaf etdikcə, kənd əhalisi ilə müqayisədə,şəhər əhalisinin doğum səviyyəsi aşağı düşür. Bunun ardınca doğum kənd yerlərində də azalır. Bəzi üçüncü dünya ölkələrində (məsələn, Misirdə) şəhərlərdə doğum səviyyəsi daha yüksəkdir ki, bu da tam bir sıra sosial-iqtisadi, demoqrafik və dini amillərlə, xüsusən, şəhərlərdə cins nisbətinin daha tarazlı olması ilə izah olunur. Demək olar ki, bütün ölkələrdə kənd yerlərindən təzəlikdə köçüb gəlmiş şəhər sakinləri arasında (kənd sakinlərinin şəhərlərə uyğunlaşması böyük çətinliklərlə bağlı deyilsə) doğum səviyyəsi çoxdan şəhərlərdə yaşayanlar arasında olduğundan yüksəkdir. Urbanizasiyanın ilk inkişaf mərhələlərində şəhərlərdə ölümün səviyyəsi kənd yerlərindəkindən yüksəkdir ki, bu da sıx əhali kütləsinin yaşadığı mühitin antisanitariya şəraiti ilə izah olunur. Uşaq ölümü xüsusilə yüksəkdir. Şəhərlərə köçən kənd sakinləri, adətən, şəhər həyatının şəraitinə pis alışırlar. Lakin vaxt ötdükcə, şəhər və kənd əhalisinin ölüm səviyyəsində fərq azalır. İnkişaf etmiş ölkələrdə, əslində, belə fərqlər yoxdur.

Urbanizasiya inkişaf etdikcə, şəhər əhalisinin artmasında miqrasiyanın rolu tədricən azalır. Əhalinin ərazi mütəhərrikliyi isə bütövlükdə artır, xüsusilə, kəfkirsayağı miqrasiya genişlənir. Uzun illər ərzində Azərbaycanda şəhər əhalisinin təşəkkülündə kənd yerlərindən şəhərlərə miqrasiya və kənd yerlərinin şəhər məskənlərinə çevrilməsi əsas rol oynamışdır. Lakin sonralar şəhər əhalisinin formalaşmasında təbii artımın rolu böyüyür. Bu göstərici 1927-1938-ci illərdə 18%, 1939-1958-ci illərdə 20%, 1959-1969-cu illərdə 40%, 1970-1979-cu illərdə 43%, 1980-2000-ci illərdə isə 50% olmuşdur. Təbii artım sürəti azaldıqca şəhər əhalisinin artım sürəti də aşağı düşür.

«Urbanizasiya» termininin qəribə taleyi var. XIX əsrin 70-ci illərində yaranmış bu termin 20- ci əsrin 60- cı illərinə qədər dar professional və sırf elmi məna daşımışdır. O, uzun müddət, ilk növbədə, şəhər əhalisinin artımını və şəhərlərin əhəmiyyətini bildirmişdir. Hələ bu yaxınlara qədər inkişaf etməkdə olan ölkədərdə urbanizasiya bir çox hallarda, şəhərlərin bu və ya digər hissələrinin böyüməsi, tikilməsi, yenidən qurulması kimi yozulurdu. Müasir urbanizasiyanın şərhi təbii və ekoloji şəraitdən təcrid edilə bilməz. Urbanizasiya əhalinin, cəmiyyətin, təsərrüfatın və təbiətin xüsusilə intensiv qarşılıqlı fəaliyyətinin nisbətən məhdud sahəsini yaradır. Şəhərlər və onların təbii mühiti vəhdət təşkil edir.

Müasir urbanizasiya, xüsusilə inkişaf etməkdə olan ölkələrdə, şəhər ətraf mühitində vəziyyətin pisləşməsi ilə müşayiət olunur. O, əhalinin sağlamlığı üçün təhlükəyə, təsərrüfat geriliyinin aradan qaldırılmasında əngələ çevrilmişdir. İnkişaf etməkdə olan ölkələrin şəhərlərində həyatın bütün sahələrinə fəlakətli təsir göstərən bir sıra böhranların təzahürü və nəticələri düyümlənir. İnkişaf etməkdə olan ölkələrdə davam etməkdə olan demoqrafik partlayış, əhalinin xeyli hissəsinin yariac-yarıtox dolanması həmin böhranların sırasındadır ki, bu da insan potensialının pisləşməsinə gətirib çıxarır. 250 mindən çox əhalisi olan şəhərlərdə və iri mərkəzlərdə ətraf mühitin vəziyyəti daha acınacaqlıdır. Məhz bu şəhərlər xüsusilə sürətlə böyüyərək, əhalisini ildə təqribən 10% artırır. «Üçüncü dün-

ya»nın bütün regionlarının və ölkələrinin ən iri və böyük mərkəzlərində ekoloji tarazlıq dağıdıcı şəkildə pozulur.

Dövrümüzün əhəmiyyətli xüsusiyyətlərindən biri şəhərlərin cəmiyyət həyatında mühüm rol oynamasıdır. İri şəhərlərin insan fəaliyyətinin bütün sahələrinə təsirinin güclənməsi və şəhər həyat tərzinin yayılması qlobal hal almışdır. Elmi-texniki inqilab şəraitində urbanizasiya prosesi zaman etibarilə xeyli sürətlənmiş və məhsuldar qüvvələrin ən müxtəlif inkişaf səviyyəsində olduğu ölkələri əhatə etmişdir.

Ərazi əmək bölgüsü nəticəsində uzaq keçmişlərdə meydana gələn şəhər əhalinin məkanca təşkilatlanmasının xüsusi forması olub, minilliklər boyu öz funksiyalarını tədriclə mürəkkəbləşdirmişdir. Lakin quldarlıq və feodal istehsal üsulu şəraitində məhsuldar quvvələrin ləng inkişafı şəhərlərin mütərəqqi missiyasının miqyasını məhdudlaşdırmışdır. Qədim şəhərlər mühüm ticarət-sənətkarlıq və hərbi-siyasi funksiyalar yerinə yetirsələr də, xeyli dərəcədə əkinçilik məskənləri idilər ki,bu da onları kənd yaşayış məntəqələrinə yaxınlaşdırırdı. Bu dövr şəhərlərinin təsir dairəsi nisbətən dar idi. Bunu belə bir fakt da təsdiq edir ki, XVIII əsrin sonunda dünyanın bütün əhalisinin ən çoxu 3%- i şəhərlərdə yaşayırdı.

Şəhərlərin inkişafında dönüş kapitalizm dövründə baş verdi. XVIII-XIX əsrlərin ayırıcında Qərbi Avropada baş verən sənaye inqilabı nəticəsində maşın əməyi geniş yayıldı, manufaktura müəssisələrini fabrik və zavodlar əvəz etdi. Texniki tərəqqi, demək olar, tamamilə şəhərlərdə cəmləşən sənaye istehsalının sürətli inkişafına səbəb oldu.

XX əsrin 50-ci illərindən imperializmin müstəmləkə sisteminin dagılması, habelə elmi-texniki tərəqqinin başlanması və bununla bagli məhsuldar qüvvələrin strukturunda və əməyin xarakterində baş verən köklü dəyişikliklər nəticəsində urbanizasiya görünməmiş vusət aldı və ictimai quruluşundan, iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, dünyanın bütün ölkələrini əhatə etdi. Bu hal cografiya ədəbiyyatında urbanizasiya fenomeni adı almışdır.

XX əsrin ikinci yarısında dünyanın inkişaf etmiş kapitalist

ölkələrinin bütün əhalisinin artıq 70-dən 85 % qədəri şəhərlərdə yaşayırdı. Hələ XIX əsrdə ən inkişaf etmiş şəhərlərin əhalisi milyon nəfəri keçmişdi, 2000-ci ildə isə belə şəhərlərin sayı 320-ni ötürdü. XIX əsrdə 5000-dən çox əhalisi olan şəhərlərdə yaşayan sakinlərin sayı təxminən 10 dəfə artmışdır. 1800-çü ildə onlarda Yer kürəsi əhalisinin 3%-i, 1900-cu ildə isə artıq 13,5%-i yaşayırdı. Bu müddətdə 100 min nəfərdən çox əhalisi olan şəhərlərin sayı 21-dək 291-ə çatmışdı. XX əsrdə urbanizasiyanın sürəti artdı – dünyada şəhər əhalisinin sayı əsrin əvvəlindəki 15%-dən,1950-ci ildə 30%-ə,1990-cı ildə 43%-ə,2000-ci ildə 49,3%-ə çatdı.

Tarixi kateqoriya olan şəhər dinamikliyi ilə seçilir və bu baxımdan kənd məskənlərindən fərqlənir. Əhalinin ərazicə təşkilinin müvəqqəti forması kimi şəhər minillliklər boyu ciddi dəyişikliklərə məruz qalmışdır. İctimai-iqtisadi quruluşun xarakterindən və yaranmış konkret daxili və xarici şəraitdən asılı olaraq, onların yerinə yetirdikləri funksiyalar, əhalisinin sayı, zahiri görkəmi, ən mühümü isə cəmiyyətin sosial-iqtisadi həyatındakı rolu dəyişmişdir. Eyni zamanda, şəhər həmişə məhsuldar qüvvələrin inkişaf səviyyəsini əks etdirmişdir. Üstəlik, məhz şəhər mühiti cəmiyyətin tərkibindəki bütün elementlərin inkişafında mütərqqi meyllər üçün əlverişli şərait yaratmış və yaradır. Urbanizasiyanın müəyyənləşdirilməsindəki fərqlər də şəhərlərin cəmiyyət həyatındakı rolunun dəyişməsi ilə bağlıdır. Şəhərlərin hələ zəif inkişaf etdiyi daha erkən mərhələlərdə onların ictimai tərəqqidə rolu bir o qədər də nəzərə çarpmır. Bu dövrdə urbanizasiya, adətən, əhalinin və təsərrüfatın tədriclə şəhərlərdə cəmləşməsi prosesi idi. Bu tərif şəhərlərin böyüməsi faktını təsbit etsə də, urbanizasiyanın əsl mahiyyətini açmır. Ticarət bir çox şəhərlərin iqtisadi həyatında aparıcı yer tuturdu. Onlarca antik və orta əsr şəhərləri, başlıca olaraq, bu funksiya bazasında inkişaf etmişlər. İnzibati-siyasi hakimiyyətin şəhərlərdə toplanması da az əhəmiyyətli deyildir. Şəhərlərin maddi funksiyası zəif inkişaf etmiş texnikaya əsaslanırdı. Həm də, şəhər əhalisi arasında əkinçilər əhəmiyyətli yer tuturdu ki, bu da, nəticə etibarilə, şəhərin kənd üzərində

iqtisadi üstünlüyünü zəifIədirdi. Kapitalizmə qədərki şəhərlərin inkişafı, yaxud tənəzzülü, tez-tez hərbi-siyasi amillərlə bağlı olurdu.

İkinci mərhələdə urbanizasiya üçün tamamilə basqa şərait yaranmışdı. Xalq təsərrüfatının sənayeləşdirilməsi, ilk növbədə isə sənaye istehsalının intensiv inkişafı şəhərlərin hərtərəfli inkişafının güclü maddi-texniki bazasının yaradılması demək idi. Təkcə istehsalat texnikası kökündən dəyişməmiş, ümumi mədəniyyət və ixtisas biliklərinin səviyyəsi də xeyli yüksəlmisdir.

Müasir urbanizasiyanın ən səciyyəvi cəhətləri nəzərdən keçirilərkən bu ümumdünya-tarixi prosesin amilləri və əsas əlamətləri arasında çox mürəkkəb səbəb-nəticə əlaqələri diqqəti cəlb edir. Urbanizasiya prosesinin sürətlənməsinə yardım edən amillərin bir çoxu səbəbdən nəticəyə çevrilərək, urbanizasiya mühitində əlverişli şərait tapırlar.

Urbanizaisya, qlobal proses olaraq, çox mürəkkəb və ziddiyyətlidir. O, ayrı-ayrı ölkələrdə və qitələrdə müxtəlif cür təzahür edir. Bu prosesin mahiyyətindəki əsas fərqlər ictimai quruluşla bağlıdır. Eyni sosial-iqtisadi münasibətlər çərçivəsində iqtisadi vəziyyətin səviyyəsi, təbii mühitin xüsusiyyətləri urbanizasiyanın gedişinə böyük təsir göstərir.

İqtisadi inkişaf səviyyəsi və əhalinin sıxlığı nə qədər yüksək olarsa, digər bərabər şəraitdə, ölkənin urbanizasiya səviyyəsi də bir o qədər yüksək olacaqdır. Bu prosesdə şəhər funksiyalarının birləşdirici amili kimi, iqtisadi-coğrafi mövqeyin rolu böyükdür.

Ölkələrin və bölgələrin əhalisinin ümumi sayında şəhər əhalisi payının artması, əsasən, dünyada urbanizasiyanın inkişafını əks etdirir. Bu göstərici təkcə təsərrüfatın strukturundan deyil, həm də xalq təsərrüfatının formalaşmasının spesifik şəraitindən və hətta dövlətin böyüklüyündən asılıdır. Bu, inkişaf etmiş köçürülmə kapitalizmi ölkələrində – Avstraliyada və Kanadada xüsulə yüksəkdir. Şəhərlilərin sayı kənd sakinlərinin şəhərlərə miqrasiyası və kənd məskənlərinin şəhər inzibati vahidlərinə çevrilməsi hesabına da artır. Şəhər əhalisi tərkibi-

nin bir sıra xüsusiyyətləri, məsələn, əmək qabiliyyətli yaşlı şəxslərin faizinin çox yüksək olması və böyük etnik müxtəlifliyi yaşlı əhalinin şəhərlərə kütləvi axını və adətən, şəhərlərdə təbii artımın aşağı olması ilə bağlıdır. Londonda, Parisdə, Kəlkütədə yerlilər əhalinin 40 % -ni təşkil edirlər.

Urbanizasiya müasir dövrün ən nəzərəçarpan prosesidir. Urbanizasiyalaşmış ərazilər qurunun cəmi 2%-dən çoxunu tutsa da, Yer kürəsi əhalisinin 49,3%-i burada yaşayır, atmosferə və hidrosferə bütün tullantıların 80%-i də burada atılır.

Dünya urbanizasiya prosesində üç mərhələ ayırd edilir. Başlanğıc mərhələ XIX əsri və əsasən, Avropanı və Şimali Amerikanı əhatə edir. İkinci mərhələdə şəhər əhalisi artmış və urbanizasiya bütün dünyada yayılmışdır. Üçüncü mərhələ XX əsrin ikinci yarısında baş vermişdir. Onun üçün, sadəcə, şəhər əhalisinin artım sürətinin güclənməsi deyil, həm də böyük şəhərlərin inkişafı və şəhər həyat tərzinin kənd yerlərində yayılması tipikdir. Bu mərhələdə urbanizasiya Yer kürəsinin bütün regionlarını əhatə edən tam qlobal prosesə çevrilmişdir.

Urbanizasiya dünya ölkələrinin əksəriyyətində ümumi əlamətlərə malikdir:

a) şəhər əhalisinin güclü artım sürəti. 1950-ci ildə dünyada şəhər əhalisinin sayı 730 milyon nəfər idisə, 2001-ci ilin məlumatına görə, o 4 dəfədən çox artmışdır.

b) təkcə əhalinin deyil, təsərrüfatın da iri şəhərlərdə təmərkürləşməsi, belə ki, onlar insanların yalnız maddi deyil, mənəvi ehtiyaclarını da tamamilə təmin edə bilərlər. Böyük şəhərlər arasında əhalisi 1 milyondan çox olan milyonçu şəhərləri ayırd etmək qəbul olunmuşdur. İndi onların sayı 400- ə çatır.

c) kompakt şəhərlərdən şəhər aqlomerasiyalarına, şəhər və kənd məskənlərinin ərazi qruplaşmalarına keçid. Mexikoda, Tokioda, San-Pauluda, Seulda, Bombeydə, Nyu-Yorkda iri şəhər aqlomerasiyaları yaranmışdır. Azərbaycanda böyük aqlomerasiya – Bakı aqlomerasiyasıdır.

# AZƏRBAYCAN RESPUBLİKASI




AZƏRBAYCAN RESPUBLİKASININ URBANİZASİYA MƏRKƏZLƏRİ

| Aqlomerasiyalar | Ərazisi kv.km | Əhalisi min. nəf. | O cümlədən şəhər əhalisi | 1 kv. km-də əhali sıxlığı nəfərlə | Aqlomerasiyanın iqtisadi-coğrafi ixtisaslaşması. |
|---|---|---|---|---|---|
| [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | Yanacaq energetika, [illegible] neft kimya, [illegible] yüngül, yeyinti, nəqliyyat qovşağı. |
| [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | Metallurgiya, [illegible] yeyinti, nəqliyyat qovşağı. |
| Mingəçevir şəhər | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] |
| Əli Bayramlı şəhər | 640 | [illegible] | [illegible] | [illegible] | Energetika, [illegible] |
| Naxçıvan şəhər | [illegible] | 134 | 100 | [illegible] | [illegible] |

## 11.2. Şəhərlər və şəhər aqlomerasiyaları

***Şəhər aqlomerasiyaları*** *– istehsalat, inzibati, əmək, mədəni-məişət əlaqələri ilə ərazi sistemində birləşən şəhərlər yığınıdır.*

İngilis alimləri onları ***konurbasiyalar*** (lat. *con-* «birgə, birlikdə», *urbus-* şəhərlər) adlandırırlar. ABŞ-da buna ***metropolis*** (yun. *metropolis-* baş şəhər, paytaxt sözündən) deyilir.

Ən iri şəhərlərin miqyasları və inkişaf meylləri 11.1 cədvəlində verilmişdir. Burada 1950-2015-ci illər üçün dünyanın 30 ən iri aqlomerasiyasının göstəriciləri təhlil olunmuşdur. Onlar təkcə nəhəng aqlomerasiyaların böyük mütləq böyüməsini deyil, həm də onların getdikcə daha çox inkişaf etməkdə olan ölkələrdə cəmləşdiyini göstərir.

**Cədvəl 11.1**

**1950-2015-ci illərdə dünyanın otuz ən iri aqlomerasiyası**

| Şəhər aqlomerasiyası | 1950-ci il | | 1990-cı il | | 2015-ci il (proqnoz) | |
|---|---|---|---|---|---|---|
| | yer | Milyon nəfər | yer | Milyon nəfər | yer | Milyon nəfər |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Nyu-York | 1 | 12,3 | 2 | 16,1 | 11 | 17,6 |
| London | 2 | 8,7 | 23 | 7,3 | - | - |
| Tokio | 3 | 6,9 | 1 | 25,0 | 1 | 28,7 |
| Paris | 4 | 5,4 | 14 | 9,3 | 29 | 9,6 |
| Moskva | 5 | 5,4 | 17 | 9,0 | - | - |
| Şanxay | 6 | 5,3 | 5 | 13,5 | 4 | 23,4 |
| Essen(Rur) | 7 | 5,3 | 27 | 6,4 | - | - |
| Buenos-Ayres | 8 | 5,0 | 10 | 10,6 | 19 | 12,4 |
| Çikaqo | 9 | 4,9 | 24 | 6,8 | - | - |
| Kəlkətə | 10 | 4,4 | 9 | 10,7 | 12 | 17,6 |
| Osaka | 11 | 4,1 | 12 | 10,5 | 24 | 10,6 |
| Los-Anceles | 12 | 4,0 | 7 | 11,5 | 17 | 14,3 |
| Pekin | 13 | 3,9 | 8 | 10,9 | 8 | 19,4 |
| Milan | 14 | 3,6 | - | - | - | - |
| Berlin | 15 | 3,3 | - | - | - | - |
| Mexiko | 16 | 3,1 | 3 | 15,1 | 10 | 18,8 |
| Filadelfiya | 17 | 2,9 | - | - | - | - |
| Peterburq | 18 | 2,9 | - | - | - | -- |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Bombey | 19 | 2,9 | 6 | 12,2 | 2 | 27,4 |
| Rio-de Janeyro | 20 | 2,9 | 13 | 9,5 | 21 | 11,6 |
| Detroyt | 21 | 2,8 | - | - | -- | - |
| Neapol | 22 | 2,8 | - | - | - | - |
| Mançester | 23 | 2,5 | - | - | - | - |
| San-Paulu | 24 | 2,4 | 4 | 14,8 | 6 | 20,8 |
| Qahirə | 25 | 2,4 | 18 | 8,6 | 16 | 14,5 |
| Tyantszin | 26 | 2,4 | 15 | 9,3 | 14 | 17,0 |
| Birminhen | 27 | 2,3 | - | - | - | - |
| Frankfurt-Mayn | 28 | 2,3 | - | - | - | - |
| Boston | 29 | 2,2 | - | -- | - | - |
| Hamburq | 30 | 2,2 | - | - | - | - |
| Seul | - | - | 11 | 10,6 | 18 | 13,1 |
| Cakarta | - | - | 16 | 9,3 | 5 | 21,2 |
| Dehli | - | - | 19 | 8,2 | 13 | 17,6 |
| Manila | - | - | 20 | 8,0 | 15 | 14,7 |
| Kəraçi | - | - | 21 | 8,0 | 7 | 20,6 |
| Laqos | - | - | 22 | 7,7 | 3 | 24,4 |
| İstanbul | - | - | 25 | 6,5 | 20 | 12,3 |
| Lima | - | - | 26 | 6,5 | 20 | 12,3 |
| Tehran | - | - | 28 | 6,4 | 27 | 10,2 |
| Banqkok | - | - | 29 | 5,9 | 2,5 | 10,6 |
| Dəkkə | - | - | 30 | 5,99 | 19,0 | |
| Lahor | - | - | - | - | 22 | 10,8 |
| Heydərabad | - | - | - - | - | 23 | 10,7 |
| Kinşasa | - | - | - | - | 28 | 9,9 |
| Mədrəs | - | - | - | - | 30 | 9,5 |

***Mənbə:*** *Word Urbanization Prospects 2000*

Beləliklə, 1950-ci ildə 30 ən iri aqlomerasiyanın 20-si Avropada, Şimali Amerikada, Yaponiyada və ancaq 10-u inkişaf etməkdə olan ölkələrdə idi. 1990-cı ildə nisbət dəyişir: 30 aqlomerasiyadan yalnız 9-u inkişaf etmiş ölkələrdə, 21-i isə inkişaf etməkdə olan ölkələrdə olmuşdur. Milan, Berlin, Filadelfiya, Peterburq, Detroyt, Neapol, Mançestr, Birminhem, Frankfurt, Boston, Hamburq, Kəraçi, Laqos, İstanbul, Lima, Tehran, Banqkok, Dəkkə ən iri aqlomerasiyaların sırasını tərk edir.

Şəhər aqlomerasiyasının tərkibində, adətən, baş şəhər (aqlomerasiyanın özəyi və onu əhatə edən yaşayış məntəqələri) ayırd edilir. Belə aqlomerasiyaları ***monosentrik*** aqlomerasiya (məsələn, Bakı, Tbilisi, Xarkov və s.) adlandırırlar. ***Polisentrik*** aqlomerasiyaların bir-biri ilə qarşılıqlı surətdə bağlı olan bir neçə mərkəzi vardır. Onlar həcminə və iqtisadi inkişaf səviyyəsinə görə bərabər deyillər, lakin hər birinin ətraf zonası və peyk-məskənlər qrupu vardır. Məsələn, Donetsk: Donetsk-Makeyevka; tərkibinə Novokuznetsk, Kiselyovsk, Prokopyevsk, Belova şəhərlərinin daxil olduğu Kuzbas; yaxud Samara: Samara-Tolyatti-Sızran.

Aqlomerasiyanın sərhədinin müəyyənləşdirilməsi (delimitasiya) ən mürəkkəb problemlərdəndir. Aqlomerasiyanın sərhədi, adətən, mərkəzlə ətrafı arasında əmək və mədəni-məişət əlaqələrinin intensivliyi ilə müəyyən edilir. Şəhər aqlomerasiyasının sərhədləri, adətən, mərkəzi şəhərdən nəqliyyatla iki saatlıq məsafədən kənara çıxmır. Bu isə müasir şəhərətrafı nəqliyyatla 50-60 km radiuslu zona deməkdir. Aqlomerasiyanın sərhədləri inzibati sərhədlərlə üst-üstə düşmür ki, bu da hesablama aparılmasında bir sıra çətinliklər doğurur. Buna görə də, məsələn, ABŞ-da SMSA (standart metropoliten statistik areal) və qeyri-metropoliten (ölkənin qalan ərazisi) hesablama vahidləri tətbiq edilir. Amerika mənbələrinə görə, uzun müddət Amerika mənzərəsinin tərkib hissəsi olan kənd yerləri və şəhərlər səhnədən çıxır, əvəzində kənd-şəhər kontiniumundan (məskunlaşmış yerlərin, şəhər və keçmiş kənd sakinlərinin əmək, həyat tərzi və dəyərlərinin qaynayıb-qarışması) danışmağa üstünlük verilir. Müharibədən sonrakı illər ərzində ABŞ-da qeyri-metropoliten əhalinin sayı cüzi dəyişmiş – 62 milyondan 59 milyona düşmüşdür. Halbuki, fermer əhalinin sayı 30 milyondan 8 milyona qədər azalmış, metropoliten əhalinin sayı isə artaraq, 70 milyondan 158 milyona çatmışdır. Ölkə ərazisinin 14%-ni tutan 279 SMSA-da (1940-cı ildə 168) cəmləşən sonuncu hazırda əhalinin 73%-ni (1940-cı ildə 52%) təşkil edir.

Əlamətdar haldır ki, yuxarıda deyildiyi kimi, iri SMSA-ların artım sürətinin, ümumən, aşağı düşdüyü ABŞ-da urbanizasiyanın gec başladığı və hələ Nyu-York tipli nəhəng aqlomerasiyaların olmadığı mühüm bölgələrdə 1-3 milyonluq SMSA arealları əhalini cəzb etməkdə davam edir və yüksək sürətlə böyüyürlər. SMSA müasir şəhərlərə dair daha dəqiq statistik məlumatlar verir.

Monosentrik aqlomerasiyalar, adətən, mühüm nəqliyyat yollarının qovuşuğunda formalaşır. Belə aqlomerasiyalar üçün plan dəqiqliyi səciyyəvidir. Nisbətən yekcins ərazidə yarananlar «dəniz ulduzu şüalarını» xatırladan nəqliyyat xətlərinə malikdir. Məsələn, Moskva aqlomerasiyasında belə «şüaların» sayı 11, Sankt-Peterburqda və Yekaterinburqda 6-dır. Sahilyanı aqlomerasiyalar çay qırağında uzunsov (Tbilisi, Perm, Volqoqrad), dəniz kənarında isə seqmentli (Bakı, Peterburq, Odessa) şəkil alır.

Böyük şəhər aqlomerasiyalarının başlıca qüsurları məlumdur. Onlar aşağıdakılardır:

1) Nəqliyyat problemlərinin qeyri-adi mürəkkəbliyi. Böyük şəhərlərin küçələri müasir nəqliyyatın keçməsi üçün namünasib olan «kanallara» çevrilmişdir. Şəhərlərin avtomobilləşməsi sürətlə artır. Böyük şəhərlərdə avtomobil nəqliyyatı artmaqda davam edir, fərdi və ictimai nəqliyyatın bütün növlərinin sürəti isə tərs mütənasib surətdə aşağı düşür. Şəhərlərin böyüməsi və yaşayış və iş yerlərinin bir-birindən uzaqlığı nəticəsində əmək gediş-gəlişi xeyli vaxt aparır. Böyük şəhərlərdə «kəfkirsayağı miqrasiya» -insanların hər gün şəhərətrafı bölgələrdən şəhərə, aqlomerasiyanın mərkəzinə işə gedib-gəlməsi geniş yayılmışdır. Moskvaya hər gün təqribən 700 min nəfər işə gəlir. Bəzi hesablamalara görə, MDB ölkələrində «kəfkirsayağı miqrasiyada on milyonlarla adam» – təkərlər üzərində bütöv bir ölkə iştirak edir.

Çox iri şəhərlərdə böyük sərnişin daşınmasını təmin edən ictimai nəqliyyat qurğuları – məsələn, metropoliten tikintisi sıravi ictimai nəqliyyat növlərinin (avtobus, tramvay) tətbiqindən təxminən 10 dəfə baha başa gəlir. Bununla belə, əhalisi bir

milyondan çox olan şəhərlərin, demək olar, hamısının metropolitenə ehtiyacı var.

2) Qeyri-adi surətdə böyümüş iri şəhərlər və aqlomerasiyalar muhəndis avadanlığının bahalaşması nəticəsində su ehtiyatlarının getdikcə qıtlaşması ilə, çirkab sularının axıdılmasında, yeni tikinti ərazilərinin mənimsənilməsində böyük çətinliklərlə üzləşirlər.

Böyük şəhərləri su ilə təmin etmək üçün mürəkkəb su kəməri sistemləri və çox uzun kanalizasiya kollektorları inşa etmək, əlverişsiz ərazilərin mənimsənilməsinin mühəndis hazırlığına külli miqdarda vəsait qoymaq lazım gəlir.

Böyuk şəhərlərdə ərazilərin mühəndis avadanlıqlarının qiyməti orta şəhərdəkindən təqribən iki dəfə bahadır. Ən iri şəhərlərdə isə bu fərq daha yuksəkdir.

3) Hava hövzəsinin çirklənməsi. Böyük şəhərlərdə atmosfer son dərəçə çirklənir. Əlbəttə, atmosfer iri sənaye müəssisələrinin olduğu bir çox kiçik şəhərlərdə də çirklənmişdir. Lakin böyük şəhərlərdə sənaye müəssisələri yaşayış yerlərini, demək olar əhatə edir. Onlarda avtomobil nəqliyyatnın çoxlugu nətisəsində hava məkanı büsbütün çirklənir. Hava hövzəsinin çirklənməsi ilə yanaşı, şəhər sakinlərinin daha bir düşməni – səs-küy peyda olmuşdur. 80-100 detsibelədək intensivlikdə səs-küy məqbuldur. Lakin şəhərlərdə, xüsusilə intensiv nəqliyyat hərəkəti zonalarında və hava limanlarında səs-küyün dərəcəsi xeyli yüksəkdir.

4) Şəhər əhalisinin təbiətdən uzaqlığı. İri şəhərlər böyüdükcə, təbiətdən uzaqlaşırlar. Şəhərlərin ağ ciyərləri olan yaşıllıqlar yaşayış və sənaye tikintisinin təzyiqi ilə getdikcə geri çəkilirlər.Yeri gəlmişkən, bu, böyük şəhərlərdə əhalinin həyat şəratini pisləşdirən ən xoşagəlməz amillərdəndir.

5) Böyük şəhərlər kiçik şəhərlərin məhsuldar qüvvələrini «sorurlar». Fransız şəhərsalma və coğrafiya ədəbiyyatında ölkənin bütün həyat qüvvələrinin Paris aqlomerasiyasına toplanmasını bildirən xüsusi «fransız səhrası» termini mövcuddur. Bunun nəticəsində, ətrafdakı kiçik şəhərlər miskin həyat sürürlər. Böyük şəhərlərdə məhsuldar qüvvələrin artımını təmin

etmək üçün tez hərəkətə gətirilən resurslar mövcuddur. Onlar sənayenin kooperasiyalaşdırılması, elmin və ali təhsilin inkişaf etdirilməsi, inzibati, təşkilati və bölüşdürücü funksiyaların həyata keçirilməsi üçün ən əlverişli imkanlara malikdirlər. Onlar insanlara yüksək mədəni həyat tərzi yaradan fövqəladə geniş xidmətlər təklif edirlər.

Şəhərətrafı zona əhalisinin aqlomerasiyanın özəyinə nisbətən sürətlə artması prosesi nəticəsində şəhərlərin ətraflara yayılması ***suburbanizasiya*** adlanır. Prosesin əsasında bir sıra səbəblər, -mərkəzlərdə torpaq sahələrinin bahalaşması və bununla əlaqədar, mənzilin qiymətinin artması, ətraf muhitin pisləşməsi, şəhərətrafı zonalarda nəqliyyat şəraitinin təkmilləşməsi, bir sıra ölkələrdə aqlomerasiyanın özəyində sənaye tikintisinin məhdudlaşdırılması durur. Aqlomerasiya mərkəzləri- «düşkün zonalar» deyilən bu mərkəzlər getdikcə daha çox marginal əhalinin yaşayış yerinə çevrilir. ABŞ-da bunlar zəncilər, meksikalılar, puertorikalılardır. Əhalinin şəhər ətrafına axını istehsalatın oraya köçməsinə səbəb olur. Hazırda ABŞ aqlomerasiyaları əhalisinin təqribən 60%-i şəhər ətrafında yaşayır.

Məskunlaşma formalarının sonrakı təkamülü istehsalın inkişafı və təmərküzləşməsi proseslərinin təsirilə aqlomerasiyaların qaynayıb-qarışmasına, geniş əraziləri əhatə edən fövqəlaqlomerasiya səviyyəsində urbanizasiyalaşmış zonaların - ***meqapolislərin*** (yun. *meqali-* böyük, *polis-* şəhər sözlərindən) formalaşmasına gətirib çıxarır. Afina ekistika mərkəzi 80-ci illərin əvvəlində 66 meqapolis, o cümlədən ümumi əhalisi 1,4 milyard nəfər olan 23 meqapolis müəyyənləşdirmişdi. 2000-ci ildə onların sayı 160-a çatmışdı. Dünya əhalisinin 45-50%-i onlarda cəmləşmişdir. Ən böyük meqapolislər ABŞ-ın Atlantik okeanı sahilləri boyu Bostonla Vaşinqton arasında (Bostvaş), Boyük göllər bölgəsində Çikaqo ilə Pittsburq arasında (Çipitts), Kaliforniyada San-Diyeqo və San-Fransisko arasında (San-San), Qərbi Avropada İngiltərədə (London-Liverpul), Reyn çayı boyu (Reyn-Rur-Reyn-Mayn), Yaponiyanın şərq sahilleri boyu Tokio ilə Osaka arasında (Tokaydo) formalaşmış-

dır. Dünyada ən nəhəng meqapolis sayılan sonuncuda 60 milyona yaxın adam – ölkə əhalisinin yarısı yaşayır. Göstərilən meqapolislərin həcminin təxmini hesablamaları 11.2 cədvəlində verilmişdir.

Cədvəl 11.2

**Dünyanın ən iri meqapolisləri (2000-ci il)**

| Meqapolislərin adı | Aqlomerasiyaların sayı | Əhali, milyon nəfərlə | Sahəsi, min $km^2$ | Əhali sıxlığı $km^2$-də | Əsas oxun uzunluğu, km |
|---|---|---|---|---|---|
| «Bosvaş»(Boston-Vaşinqton) | 40 | 45 | 100 | 450 | 800 |
| «Çipitts» (Çikaqo-Pittsburq) | 35 | 35 | 160 | 220 | 900 |
| «San-san» (San-Diyeqo-San Fransisko) | 15 | 18 | 100 | 180 | 80 |
| «Tokaydo»(Tokio-Osaka) | 20 | 60 | 70 | 800 | 700 |
| İngilis (London-Liverpul) | 30 | 30 | 60 | 500 | 400 |
| Reyn(Randstadt-Reyn-Rur-Mayn) | 30 | 30 | 60 | 500 | 500 |

Bir sıra tədqiqatlarda Qərbi Avropada İngiltərə, AFR, Belçika, Hollandiya, Fransanın həmmərz ərazilərində ümumi sahəsi 230 min $km^2$, əhalisi 80 milyon nəfər olan «Polis deltası»nın formalaşdığı qəbul edilir. San-Rio (San Paulu Rio-de-Janeyro), Vizaqmahanaqar (Qanq- Brahmaputra deltası), Caban (Cakarta – Bandunq), Pektyan (Pekin-Tyanszin), Şanxay-Nankin-Çançjou, Laqos-İbadon, Quançjou-Şançjen-Syanqon (Honkonq), Qahirə-İsgəndəriyyə, La-Plata bölgəsi meqapolisləri intensiv şəkildə formalaşır, Rusiyada Moskva- Vladimir-Nijni-Novqorod meqapolisi təşəkkül tapır. Moskva-Sankt-Peterburq oxu üzərində də meqapolis yaranması mümkündür. Lakin Novqorod və Tver vilayətlərindən çoxlu sayda əhalinin köçüb getməsi nəticəsində onun orta hissəsi boşalmışdır.

Beləliklə, şəhərlə kənd arasında hüdudların aradan götürüldüyü yeni urbanizasiya formaları meydana gəlir.

## 11.3. Urbanizasiyanın inkişaf problemləri

İnsan təbiətlə daimi qarşılıqlı təsirdə olmadan ahəngdar inkişaf edə bilməz. Buna görə də təbiətin mühafizəsi və zənginləşdirilməsi cəmiyyətin səmərəli ərazi təşkilinin mühüm vəzifəsidir. Əhalinin inkişafı, təbii sərvətlərdən səmərəli istifadə və ətraf mühitin effektiv mühafizəsi bir-birindən xeyli asılıdır. İqtisadiyyatın, texnikanın inkişafı, planet əhalisinin artması ətraf mühitin vəziyyətinə fəal təsir göstərir.

Hava və su hövzələrinin çirklənməsi, torpağın eroziyası, bir sıra ərazilərin mənimsənilməsi zamanı heyvan və bitkilər aləminə vurulan ziyan, torpaqdan, neft, qaz, daş kömür, metal filizləri və digər faydalı qazıntı ehtiyatlarından səmərəli istifadə olunmaması böyük narahatlıq doğurur. Tələbat artdıqca, sənayenin müxtəlif xammal növlərinə ehtiyacı da artır. Bununla belə, bir çox təbii ehtiyatlar, nə qədər böyük olsalar da, tükənməz deyillər. Əhalinin sağlamlığı, əmək və həyat şəraiti xeyli dərəcədə təbii sərvətlərdən səmərəli istifadə və ətraf mühitin mühafizəsi problemlərinin həllindən asılıdır.

*Müasir elmi-texniki inqilab şəraitində ictimai inkişafın köklü problemlərindən biri insanla təbiət arasında artmaqda olan tarazlığın pozulması təhlükəsi ilə bağlıdır.* Dünya sənayeləşmə və urbanizasiya tarixi prosesi insanın bu və ya digər zaman kəsimində məskun olduğu ətraf mühitlə qarşılıqlı münasibətini əks etdirən ekoloji vəziyyətə daha çox təsir göstərir. Tədqiqatçıların fikrincə, planlaşdırmada insanın bioloji təbiətindəki və coğrafi şəraitdəki məhdudiyyətlər nəzərə alınmazsa, urbanizasiyanın geniş yayılması insanla təbiət arasında ümumi tarazlığın pozulmasına gətirib çıxara bilər.

Mütəxəssislər hesab edirlər ki, insan cəmiyyətinin yaxın gələcəkdə (təqribən əsrimizin ortalarında) ətraf mühitlə məqbul qarşılıqlı təsir çərçivəsindən çıxması təhlükəsi real şəkildə mövcuddur. Yəni ətraf mühitin çirklənməsi istehsal zamanı ayrılan istinin iqlimə təsiri və digər proseslər nəticəsində ekoloji tarazlıq ciddi surətdə pozula,bərpa olunmayan bəzi sərvətlər isə tükənə bilər. Hazırda məsələnin bu şəkildə qoyuluşu

əsaslı sayılmasa da, artıq indi ən iri şəhər aqlomerasiyalarındakı gərgin ekoloji vəziyyət bəşəriyyət üçün ciddi xəbərdarlıq ola bilər. İnsan və təbiət arasında qlobal tarazlığın qorunub saxlanması,mümkün dünya ekoloji böhranının qarşısının alınması həlledici dərəcədə bəşəriyyətin elmi sosial əsaslarda təşkilatlanmaq səviyyəsindən, onun təbii mühitlə münasibətlərini tənzimləmək bacarığından asılıdır.

Əlbəttə, təbii ehtiyatlar və əhali münasibətləri təkcə istehsalın artımı ilə deyil, həm də əhalinin artımı ilə bağlıdır. Bu artımın əsas hissəsi ərzaq, istehsal vasitələri, maliyyə ehtiyatları sarıdan kəskin qıtlıq hiss edən inkişaf etməkdə olan ölkələrin payına düşür.

Əhalinin və iqtisadi ehtiyatların artım dinamikasının nisbəti sosial-iqtisadi problemlərin həlli ilə bağlıdır. Bununla belə, müasir şəraitdə üçüncü dünyada dövlət suverenliyinə və ailənin hüquqlarına hörmət əsasında əhali artımının məhdudlaşdırılmasına dair təbliğat tədbirləri «əhali-təbii ehtiyatlar» münasibətlərinin yaxşılaşmasında palliativ ölçü ola bilər.

Əhalinin ümumi artımı ilə yanaşı, əhalinin iri şəhərlərdə cəmləşməsilə bağlı, təbiətdən istifadə sahəsində getdikcə ciddi problemlər ortaya çıxır. Şəhərlərin böhranı ümumdünya böhranının bariz təzahürünə çevrilmişdir. Urbanizasiya problemləri, mahiyyət etibarilə, sosial xarakter daşıyır. Şəhərlərin çirklənməsinə qarşı dövlət tədbirləri mərkəzləşdirilmiş şəkildə həyata keçirilməlidir. Əhalinin könüllü yerdəyişməsi (miqrasiyalar) iqtisadi inkişafın və iqtisadi tarazlığın tələbatına müvafiq istiqamətlərdə stimullaşdırılır. Ümumi perspektiv iqtisadiyyatın ehtiyaclarının optimal surətdə nəzərə alınmasına, yaşayış mühitinin təmizliyini qoruyub saxlamaq zərurətinə əsaslanan vahid məskunlaşma sisteminin formalaşdırılmasına nail olunmalıdır.

Son illərdə Qərbdə yeni elmi istiqamət, - urbanizasiyanın patologiyası, -inkişaf etmişdir. «Patologiya» anlayışı iki mənada yozula bilər. Danışıq dilində bu, mövcud hüquq və əxlaq normalarından kənara çıxan davranış üsuludur. «Sosial patologiya» termini daha geniş şəkildə mənalandırılır. Bu problemə

dair tam bir sıra patologiyaları – iqtisadi tətil kimi motivlərlə əsaslandırılan münaqişələr, cinayətkarlıq, digər əxlaqazidd hərəkətlər, alkoqolizm, narkomanlıq, qumar oyunları, fahişəlik, intihar halları, ruhi xəstəliklər, ailənin dağılması, korrupsiya və s. – misal gətirmək olar. Göründüyü kimi, sosial patologiya geniş və müxtəlif halları əhatə edir. Həm də, onlardan hansının xəstəliyin təzahürü, hansının isə səbəbi olduğunu heç də həmişə müəyyənləşdirmək olmur. Tamamilə aydındır ki, heç bir fərziyyə açıq-aşkar səbəb və nəticəyə ayrılmadan inandırıcı ola bilməz.

Göstərilən patologiyalar həm şəhər, həm də kənd yerlərində müşahidə olunur. Lakin şəhərlər üçün daha tipikdir. Belə ki, şəhər mühiti onların yayılması üçün daha əlverişlidir.

*Şəhər patologiyası* özlüyündə yalnız məkanın bu cür təşkilatlanma üsulunun doğurduğu halları əhatə edir. Məsələn, şəhər patologiyasına mənzil problemləri, ətraf mühitin çirklənməsi, nəqliyyatın qeyri-qənaətbəxş işləməsi, texniki infrastrukturun yarıtmaz fəaliyyəti, aşağı keyfiyyətli xidmət və s daxildir.

Bütün bu şəhər patologiyası növlərinin səbəbi insanın sağlamlığına və əmək qabiliyyətinə xələl gətirən, yaxud ictimai strukturların daha tam şəkildə təkrar istehsalına imkan verməyən müəyyən ərazi təşkili üsulu, habelə sosial təşkilatsızlıq və ondan irəli gələn sapmalar və ya hətta cinayətkar davranışdır.

Beləliklə, şəhər patologiyasının kökləri cəmiyyətin insanın həyat və fəaliyyət problemlərinin həllinə kifayət qədər uyğun gəlməyən müasir «şəhər təşkilatlanması»nın özündədir. Bu problemlər ayrı-ayrı sosial sistemlərdə müxtəlif cür həll edilir.

Şəhər patologiyasına həm sosial patologiya, həm də bilavasitə şəhər patologiyası daxildir.

*Urbanizasiya patologiyasının* müəyyənləşdirilməsi üçün:

1) urbanizasiyanın nə demək olduğunu aydınlaşdırmaq;

2) «normal» sayılan urbanizasiya modeli işləyib hazırlamaq;

3) urbanizasiya patologiyasını normadan sapma kimi müəyyənləşdirmək lazımdır.

Urbanizasiya sənayeləşmə prosesləri ilə müəyyən nisbət

çərçivəsində qaldıqda, normal sayıla bilər. Burada üç inkişaf variantı mümkündür:

a) hər iki proses bir-birinə uyğundur;

b) urbanizasiya sənayeləşmədən irəlidə gedir;

c) urbanizasiya sənayeləşmə ilə ayaqlaşa bilmir.

«b» və «c» variantları «patoloji vəziyyət» kimi müəyyənləşdirilə bilər.

Fövqəladə sənayeləşmə və natamam urbanizasiya, əsas kapitalın uzun müddət yönəldildiyi sənaye iqtisadi inkişafın başlıca, bəlkə də, yeganə amili olduqda baş verir. Bu, şəhər əhalisində xüsusi çəkisi tədriclə artan sənaye fəhlələrinin sayının sürətlə çoxalması deməkdir. Bu halda, faktik olaraq, əhali kənddən şəhərə köçmədən işçi qüvvəsinin kənd təsərrüfatından sənayeyə axışması müşahidə olunur. Prioritet sənayenin inkişafına verilir, ona görə də şəhərin inkişafına kifayət qədər vəsait qalmır. Fövqəladə sənayeləşmə istehsalın öncüllüyünün işçi qüvvəsinin sadə və geniş təkrar istehsalı üzərində hakim kəsildiyi haldır.

Rəqabət strategiyasının qəbulu (istehsalın və şəhərin mənafeləri arasında), əvvəlcə, cəmiyyətin ayrı-ayrı iqtisadi bölümlərinə gəlir gətirir, lakin, labüd surətdə, bu strategiyaya cəlb olunanların hamısına toxunan itkilərə aparır. Sənayeləşmənin səviyyəsi müəyyən həddi ötdükdə çirklənmənin ətraf mühitə vurduğu ziyan sənaye istehsalının gətirdiyi mənfəətdən yüksək olur. Ətraf mühitə vurulan ziyanla yanaşı, səmərəsiz işləyən nəqliyyatda qiymətlərin yüksəlməsi və həddindən artıq sənayeləşmiş bölgələrin sakinlərinin əmək qabiliyyətinin kifayət qədər bərpa olunmaması nəticəsində də itkilər baş verəcəkdir.

Sual meydana çıxır: urbanizasiya patologiyası nə dərəcədə urbanist-sənaye sivilizasiyası sindromunun və nə dərəcədə sənayeləşmənin spesifik proseslərinin nəticəsidir? O, ayrı-ayrı birliklərdən, siyasi sistemlərdən, şəhər siyasətlərindən nə dərəcədə asılıdır?

*Urbanizasiya patologiyası və şəhər strukturları sahəsində əsas problemlər* şəhərlərin tam inkişaf etməməsi, mənzil problemi, şəhərlərin funksional zonalara bölünməsinin fəsadları,

blok komplekslərinə vərdişetmə sindromudur.

Hər bir sosial-iqtisadi sistem məkanını özünəməxsus üsulla təşkil edərək, ayrı-ayrı fərdlərin və sosial qrupların həmin məkana münasibətini müəyyənləşdirir. Bu təşkiletmə aşağıdakı kimi göstərilə bilər: ilkin məkan; törəmə məkan; şəxsi-ictimai məkan; mərkəzi-qeyri-mərkəzi məkan; dini-dünyəvi məkan.

Hər bir sistem ayrı-ayrı cütlüklərin daxilində və onların arasında münasibətlər qurur. Bu münasibətlərin ahəngdar xarakteri məkanın və cəmiyyətin nizamını müəyyən edir.

İlkin məkan-mənzil və onun ən yaxın ətrafı (ətraf mühit, qonşular) kifayət qədər böyük olub, insanın ehtiyaclarına yaxşı uyğunlaşdırılmalıdır. İstifadəçilər onun fəaliyyət və təşkilat üsuluna təsir göstərmək imkanına malik olmalıdırlar. Törəmə məkan səmərəlilik və təsirlilik meyarlarına uyğun formalaşdırılır. Onlar istifadəçilərin üzərinə bəzi məhdudiyyətlər qoyur və müəyyən davranış tipi tələb edir. İlkin və törəmə məkanlar arasında müəyyən tənasüb olmalıdır. Şəhər strukturlarının patologiyalarından biri ilkin və törəmə məkanları arasında tənasübün pozulmasıdır (törəmə məkanın ilkin məkana müdaxiləsi və fərdlərin müqaviməti).

Fərdin və cəmiyyətin lazımınca inkişaf etməsi üçün minimal şərait çoxsaylı müxtəlif və qeyri-formal əlaqələrin yaradılması, məkana və onun mənimsənilməsini mümkünləşdirən, özünün ətraf mühitini yaradan şəkildə formalaşdırmaq imkanını təmin edən xassələrə, yəni mənzilə və onun ətrafında əraziyə malik olmalıdır. Bu fərziyyə insanların və toplumların insanın yaşayış məkanını, eləcə də davranışını inifikasiyalaşdırmaq istəyən texniki-iqtisadi qüvvələrə qarşı yönəlmiş kortəbii davranışı ilə təsdiqlənir.

Beləliklə, biz bir-birinə zidd iki nöqteyi-nəzər, iki nizam: - «təşkilatın texniki-iqtisadi nizamı» və «toplumun üzvi nizamı» arasında münaqişə qarşısındayıq. Davranışın səmərəliliyini və inifikasiyasını bildirən birinci baxış istehsalın təşkilinə uyğundur. Lakin müxtəlif miqyaslarda və insan fəaliyyətinin müxtəlif sahələrində istifadə olunan istehsalın səmərəliliyi prinsipləri fərdlər, yerli qruplar və toplumlar tərəfindən tez-tez xaotik,

qarmaqarışıq prinsiplər kimi qavranılır. Mütəşəkkil və üzvi nizamlar arasındakı ziddiyyət şəhər patologiyasının əhatəsini müəyyənləşdirir.

Yeni tədqiqat istiqamətinin ümumi qiymətləndirilməsi belədir: bu, müxtəlif ölkələrdə urbanizasiyanın və şəhər strukturlarının deformasiyasının mənfi cəhətlərinin müqayisəli tədqiq üsulu olub, beynəlxalq tədqiqatları və əlaqələri stimullaşdırır. Bəşər sivilizasiyasının «ağrılı» nöqtələrinə diqqət də faydalıdır, çünki, xəstəlikləri müalicə etmək üçün onları bilmək lazımdır. Yeni istiqamətin metodologiyası şəhər məkanının təşkili sahəsində bəzi yeni ideyaların işlənib hazırlanması ilə nəticələnmişdir.

Əhali inkişafının başlıca meyllərinin statistik materialların təhlili əsasında tədqiqi istehsalın sosial-iqtisadi amillərinin əhaliyə – onun təkrar istehsalına, tərkibinə, miqrasiya mütəhərrikliyinə, məşğulluğuna, yerləşməsinə, məskunlaşmasının xarakterinə və i.a. həlledici təsirinə dair fundamental müddəaları əyani surətdə təsdiq edir. Doğumun və əhalinin təbii artımının indiki aşağı səviyyəsi, əhalinin təkrar istehsalının məhdud olduğu areallarm mövcudluğu iqtisadi və sosial ziddiyyətlərin kəskinləşməsi, işsizliyin artması və əməkçilərin xeyli hissəsinin maddi vəziyyətinin pisləşməsi, raket-nüvə müharibəsi təhlükəsi ilə sıx bağlıdır.

Dünya ərazisində iqtisadi inkişafın qeyri-bərabərliyi əhalinin istər region ölkələri arasında və onların öz daxilində, eləcə də dünyanın digər regionları ilə miqrasiyasının çox yüksək intensivliyini şərtləndirmişdir. Miqrasiyalar bir çox ölkələrin əhalisinin etnik tərkibini xeyli mürəkkəbləşdirmişdir. Əhalinin təbii artım və miqrasiya göstəricilərinin müxtəlif və xeyli təzadlı çulğalaşması nəticəsində əhali dinamikası tipləri coğrafiyasının son dərəcə rəngarəng mənzərəsi yaranmışdır.

Məskunlaşma formalarının müasir inkişaf mərhələsinin başlıca xüsusiyyəti iri şəhərlərin və aqlomerasiyaların iqtisadi və sosial böhranının artmasıdır. Bu, ekoloji problemlərin kəskinləşməsi ilə daha da dərinləşir. Şəhər əhalisinin artım sürəti ləngimişdir, sakinlərin aqlomerasiyaların mərkəzi zonalarını

tərk etməsi güclənir və suburbanizasiya və rurbanizasiya proseslərinin əhəmiyyəti artır, şəhərlərin sahəsi onun əhalisindən daha sürətlə çoxalır. Beləliklə, 70-ci illərdə urbanizasiya prosesi mərkəzləşmə mərhələsinə daxil olmuşdur. Böyük şəhərlər sənayenin bir hissəsindən «azad» olurlar. Lakin burada qeyri-istehsal funksiyalarının rolu artır. Eyni zamanda, inteqrasiya prosesləri şəhərlərarası məskunlaşma formalarının təşəkkülünü sürətləndirir. Regionun kənd əhalisi azalır, onun ərazi cəmləşməsi artır, kənd məskənlərinin funksiyaları mürəkkəbləşir.

90-cı illərin iqtisadi böhranı və digər amillər düşünməyə əsas verir ki, dünya iqtisadiyyatının müasir inkişaf mərhələsinin bir çox qanunauyğunluqları gələcəkdə də qorunub saxlanacaqdır. Buna görə də gözləmək olar ki, regionda əhali inkişafına dair əsərdə səciyyələndirilən göstəricilər XXI əsrin ilk onilliklərində az dəyişiləcəkdir. İnkişaf etmiş ölkələrin əksəriyyəti üçün aşağı doğum və təbii artım səviyyəsi, nəsillərin sadə, yaxud məhdud təkrar istehsalı, yüksək inkişaf etmiş urbanizasiya, şəhər məskənlərinin ləng artım sürəti və əhalinin dağınıqlığı, əhalinin tərkibində işləyənlərin sayının azalması səciyyəvi olacaqdır. Dünya əhalisinin sayında inkişaf etmiş ölkələrin payı azalacaqdır. İnkişaf etməkdə olan ölkələr isə öz xüsusiyyətlərini qoruyub saxlayacaqlar.

# XII FƏSİL
# KƏND YAŞAYIŞ MƏSKƏNLƏRİNİN COĞRAFİYASI

## 12.1. Kənd məskunlaşmasının xüsusiyyətləri

Kənd məskənlərinin xüsusi tərifi yoxdur. Demək olar ki, hər bir ölkədə şəhər məskənləri üçün müəyyən edilmiş meyarlara cavab verməyən bütün məskənlər kənd məskənləridir. Beləliklə, sanatoriyalar, istirahət evləri, nasos stansiyaları, peşə məktəbləri, elmi təyinatlı obyektlər ətrafında yaranan bütün sənaye, nəqliyyat, meşə təsərrüfatı və xidməti deyilən qəsəbələr kənd yaşayış məntəqələrinə aid edilir.

Yer kürəsi əhalisinin 53 faizindən bir qədər çoxu şəhərlərdən kənarda yaşayaraq, əhalinin sıxlığı, ərazi mövqeyi, yerinə yetirdiyi funksiyalar, tarixi keçmişi ilə bir-birindən xeyli fərqlənən külli miqdarda kənd məskənləri yaradır.

Yer kürəsində kənd məskənlərinin dəqiq sayına dair ümumi məlumat yoxdur. Belə ki, bir çox ölkələrdə kiçik kənd məskənləri daha böyük məskənlərin tərkib hissəsi sayılır. Bu rəqəm təqribən 12-20 milyon təşkil edir. Azərbaycanda 4342 kənd məskəni var. Əvvələn, ölkəmizdə rəsmi şəhər, yaxud şəhər tipli qəsəbə statusu olmayan bütün məskənlər, o cümlədən əhali sıxlığı senzinə cavab verməyən qeyri-kənd təsərrüfatı məskənləri, ikincisi, əhalisinin əksər hissəsi kənd təsərrüfatı əməyi ilə məşğul olan, fəhlə və qulluqçusu olmayan məskənlər kənd məskənlərinə aid edilir. Beləliklə, kənd yerlərində həm kənd təsərrüfatı əhalisi, həm də kənd təsərrüfatı ilə məşğul olmayan əhali yaşayır. Bu kənd əhalisi kateqoriyasında sakinləri üç qrupa bölmək olar: a) kənd əhalisinə xidmət sahələrində (ticarət, təchizat, maarif, səhiyyə və s.); b) yaxınlıqdakı şəhərlərin müəssisə və idarələrində; c) kənd yerlərindəki sənaye müəssisələrində və digər müəssisələrdə çalışanlar.

Şəhər statusu olmayan bütün yaşayış məntəqələri kənd məskənlərinə aid edilir. Kənd sakinlərinin intensiv surətdə şəhərlərə miqrasiyası (habelə, kənd məskənlərinin bir hissəsinin

şəhər inzibati vahidinə çevrilməsi) nəticəsində dünyada kənd əhalisinin sayı şəhər əhalisinin sayından 5 dəfə ləng artır, hərçənd, kənd ailələrində təbii artım daha yüksəkdir. İnkişaf etmiş bir çox ölkələrdə kənd sakinlərinin sayı yalnız nisbi deyil, həm də mütləq surətdə azalır. Lakin bir sıra aqrar ölkələrdə, xüsusilə Afrikada, kənd məskənlərinin sakinləri sürətlə artmaqda davam edir (cədvəl 12.1).

**Cədvəl 12.1**

**1994-99-cu illərdə dünya əhalisinin artımı (%)**

| Dünya və regionlar | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi | 1999-cu ildə şəhərlilərin artım %-i |
|---|---|---|---|---|
| Bütün dünya | 9,0 | 16,2 | 3,2 | 48,7 |
| Keçmiş SSRİ ölkələri | 3,5 | 4,3 | 1,7 | 66,8 |
| Avropa (keçmiş SSRİ respublikaları istisna olmaqla) | 1,2 | 6,0 | -5,0 | 75,0 |
| Asiya (keçmiş SSRİ respublikaları istisna olmaqla) | 9,7 | 23,2 | 2,5 | 38,6 |
| Afrika | 16,3 | 28,3 | 10,1 | 37,3 |
| Şimali Amerika (ABŞ, Kanada) | 3,6 | 4,9 | 0,0 | 77,3 |
| Latın Amerikası | 10,0 | 14,4 | 0,0 | 74,1 |
| Avstraliya və Okeaniya | 7,0 | 7,3 | 6,4 | 70,8 |

*BMT-nin məlumatları əsasında hesablanmışdır.*

Dünya əhalisinin yarıdan çoxu hələ də kənd məskənlərində yaşayır. Ona görə də, təbiidir ki, kənd sakinlərinin dinamikasının və tərkibinin, habelə sosial-iqtisadi mühitlə, aqrar münasibətlərlə və təbii şəraitlə əlaqədar son dərəcə müxtəlif olan kənd məskənləri tiplərinin və funksiyalarının öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Məsələn, yüksək kapitalist inkişaf səviyyəsinə malik ölkələrin (ABŞ, Böyük Britaniya, Avstraliya) kənd təsərrüfatı üçün dispers (dağınıq ayrı-ayrı fermalarda) məskunlaşma tipikdir, torpaqdan icma istifadə qaydasının hələ də qaldığı, yaxud iri kooperativ təsərrüfatının üstün olduğu yerlərdə (Qərbi və Ekvatorial Afrikanın bir çox bölgələri, Rusiya, Belarus, Ukrayna) isə kənd sakinləri daha çox iri

kəndlərdə məskunlaşırlar. Bəzi məskunlaşma tipləri əkinçilik, digərləri isə otlaq heyvandarlığı bölgələrində və s. təşəkkül tapmışdır. Kənd yaşayış məntəqələrinin əksəriyyətinin sakinləri, əsasən, kənd təsərrüfatı ilə məşğul olurlar. Lakin kənd və kənd təsərrüfatı əhalilərini eyniləşdirmək olmaz.

XX əsr bəşər tarixinə urbanizasiya, sosial məkanın urbanizasiya ərazisinə və kənd yerinə bölündüyü dövr kimi daxil olmuşdur. Lakin hələ də kənd yerləri böyük rol oynamaqda davam edir: dünya əhalisinin yarısı burada yaşayır, bütün kənd təsərrüfatı, meşə, balıq məhsulları və mineral xammalın xeyli hissəsi burada istehsal olunur. Dünya torpaq sahəsinin böyük hissəsini tutan kənd yerləri (şəhərlərin payına yalnız 2% düşür) bütün təbii zonalarda və sosial-iqtisadi regionlarda mövcuddur. Kənd cəmiyyətinin struktur-ərazi formaları və onun inkişaf meylləri müxtəlif təbii və ictimai şəraitlərdə sosial-iqtisadi və təbii amillərin mürəkkəb qarşılıqlı təsiri nəticəsində təşəkkül tapır.

Kənd cəmiyyətinin ərazi təşkili şəhərlə müqayisədə tarixən daha davamlıdır, lakin o, daim dəyişmə prosesindədir. Bu transformasiya köhnə kənd tipi bölgələrinin dəyişməsində və yenilərinin yaranmasınıda əksini tapır. Kənd yeri tipləri göstəriciləri torpaqdan, əməkdən və kapitaldan istifadə funksiyalarına görə fərqləndirilir. İqtisadiyyatın əsas sahələrinin iqtisadi coğrafiyası ilə bilavasitə bağlı olan kənd əhalisi coğrafiyasının xüsusi əhəmiyyəti də buradan irəli gəlir.

Kənd yerinin sosial-iqtisadi coğrafiyasının müasir transformasiyasını və kənd əhalisi coğrafiyasını elmi-texniki tərəqqi, sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklər, urbanizasiya, sənayeləşdirmə və aqrar-sənaye iteqrasiyası prosesləri kimi əsas amillər müəyyənləşdirir. XX əsrin ikinci yarısı və qədəm qoyduğumuz XXI əsr üçün səciyyəvi olan beynəlmilləşmə, qloballaşma və lokallaşma prosesləri kənd təsərrüfatında təzahür edən bir sıra dünya problemləri ilə müşayiət edilir. Bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədə olan sosial (yoxsulluq, aclıq, savadsızlıq, gender), iqtisadi, habelə ərzaq, xammal və ekoloji problemlər onların arasındadır.

Hazırda kənd əhalisi planetimizin sakinləri arasında mütləq və nisbi üstünlük təşkil etməkdədir. 2000-ci ildə 3,2 milyard adam, yəni dünya əhalisinin 53%-i kənd yerlərində yaşayırdı. Kənd sakinlərinin payı aşağı düşsə də (1900-cu ildə dünya əhalisinin 86,4, 1950-ci ildə isə 70,4 faizi), onların mütləq sayı artmaqda davam edir: 1900-cu ildə 1,3 milyard nəfər, 1950-ci ildə – 1,8 miyard nəfər. World watch institutunun proqnozlarına görə, 2010-cu ildə kənd əhalisi, ilk dəfə olaraq, sayca birinciliyi şəhər əhalisinə verəcəkdir.

Son 50 ildə şəhərə daimi böyük axına baxmayaraq, yüksək təbii artım sayəsində kənd əhalisi 4,5 dəfə (şəhər əhalisi 4 dəfə) artmışdır. Yarım əsr əvvəl kənd əhalisinin orta illik artım sürəti şəhərdəkindən iki dəfə az idisə, XXI əsrin əvvəlində ondan 4 dəfə geri qalır. Bu dövr ərzində kənd əhalisinin ən yüksək artımı inkişaf etməkdə olan regionlarda – Afrikada 2,7 dəfə, Asiyada 2 dəfə müşahidə olunmuşdur. Avstraliya və Okeaniyada artım təqribən orta dünya səviyyəsində, Latın Amerikasında ondan aşağı, Şimali Amerikada isə cüzi olmuşdur. Kənd yerlərində əhalinin azalması çoxdan urbanizasiyalaşmış Avropada, xüsusilə İspaniyada və Niderlandda müşahidə edilmişdir.

Yekun məlumatlar bəzən birbaşa zidd meyllərin üstündən keçir. Kənd əhalisinin dinamikası urbanizasiya prosesinin tərkib hissəsi kimi çıxış edir. İnkişaf etmiş ölkələrdə üç mərhələ ayırd edilir: kənd əhalisinin azalması ilə yanaşı, sürətli urbanizasiya; ləng urbanizasiya ilə yanaşı, kənd yerlərinin urbanizasiyası (gediş-gəliş səfərlərinin artması, gecələmə qəsəbələrinin yaradılması) və nəhayət, kontrurbanizasiya – pensiyaçıların kənd yerlərinə axını və şəhərlilərin «ikinci evlər» tikməsi. Belə ki, 50-60-cı və 90-cı illərdə ABŞ-da kənd əhalisi azalmış, lakin 70-80-cı illərdə artmışdır. Bütövlükdə isə kənd əhalisinin sayı daim aşağı düşmüşdür, yarım əsrdə 36%-dən 21%-dək azalmışdır. Azərbaycanda kənd sakinlərinin payı 90-cı illərə qədər azalmışdır, SSRİ-nin dağılması və sosial-iqtisadi yenidənqurma kənd əhalisinin say artımı istiqamətində dəyişiklik yaratdı.

Son 50 ildə kənd əhalisinin cəmləşmə mərkəzinin Asiyaya keçməsi davam etmişdir. İndi dünya kənd əhalisinin 7/10-sı burada yaşayır. İkinci yerə, Avropanı ötərək, Afrika çıxmışdır (1 /6), Avropanın payı isə üç dəfə azalmışdır və indi o, Latın Amerikasını azacıq üstələyir. İqtisadi cəhətdən yüksək inkişaf etmiş və urbanizasiyalaşmış regionlar – Avropa, Şimali Amerika və Avstraliyada birlikdə dünya kənd əhalisinin 1/10 –dən də azı yaşayır. Bu da çox aşağı göstəricidir.

Həm kənd, həm də şəhər əhalisinin coğrafi irəliləyişinin başlıca amili cəmiyyətin sosial-iqtisadi diferensasiyasıdır. Onun ən mühüm göstəricilərindən biri əhalinin adam başına düşən Ümumi Daxili Məhsulla (ABŞ dolları ilə) ölçülən gəlirinin həcmidir. Dünya Bankının dünya inkişafına dair hesabatlarında ölkələrin gəlirlər üzrə üç qruplaşma tətbiq olunmuşdur. 1998-ci ildə aşağı gəlirlilər qrupuna adam başına ildə 760 dollar düşən ölkələr, orta gəlirlilərə 761-9360 dollar,yüksək gəlirlilərə isə 9361 və daha çox dollar düşən ölkələr daxil edilmişdir. Kənd əhalisinin payının qlobal surətdə – 10 faizli bənd aşağı düşdüyü 1965-1998-ci illərdə bu göstərici yüksək gəlirli ölkələrdə 4, orta gəlirlilərdə 24 bənd, az gəlirlilərdə isə 13 bənd aşağı düşmüşdür. Aşağı və orta gəlirli regionlar arasında ən kəskin dəyişikliklər Avropada, Mərkəzi Şərqi Avropada və sosialist inkişafı dövründə xüsusilə fəal urbanizasiya və sənayeləşmənin getdiyi keçmiş SSRİ-də baş vermişdir. Sürətli urbanizasiya və kənddə artımın aşağı düşməsi üçüncü dünya ölkələrinin iki regionunda – Latın Amerikasında, Yaxın Şərq və Şimali Afrikada kənd əhalisinin payının nəzərə çarpacaq dərəcədə azalmasına (23 faiz) səbəb olmuşdur. Son 20 il ərzində az ölkələrdə sosial-iqtisadi, keçmiş SSRİ ərazilərində (Tacikistan, Türkmənistan, Rusiya, Azərbaycan) isə həm də siyasi xarakterli səbəblərdən kənd əhalisinin payı artmışdır. Yüksək gəlirli bir sıra inkişaf etmiş ölkələrdə (Yaponiya, Avstriya, İtaliya) vəziyyət sabit qalmışdır. Burada kəndlərin kütləvi surətdə tərk edilməsi əvvəllər baş vermişdir. Hazırda ən az kənd əhalisi (24%) yüksək gəlirli inkişaf etmiş regionlarda və inkişaf etməkdə olan orta gəlirli ölkələrdə müşahidə olunur, inkişaf et-

məkdə olan aşağı gəlirli ölkələr üçün isə kənd əhalisinin üstünlüyü (bütün əhalinin 69%-i) səciyyəvidir.

Dünya kənd əhalisinin yarıdan çoxu (52%) aşağı gəlirli, 42%-i orta gəlirli, yalnız 6%-i yüksək gəlirli ölkələrdə yaşayır. Ən aqrar dövlətlər Asiya və Afrika dövlətləridir. Burada əhalinin 3 /5-i kənd yerlərində yaşayır. Əhalisinin 4 /5-i kənd sakinləri olan ölkələr qrupu xüsusilə seçilir. Nepal (89%), Uqanda, Malavi, Banqladeş və Vyetnam onların arasındadır. Kənd əhalisinin payı dünyanın nəhəng ölkələri olan Çində (67%) və Hindistanda (72%) yüksəkdir. Lakin Asiya ən böyük təzadlarla seçilir: əsasən, aşağı gəlirli aqrar dövlətlərlə yanaşı, burada kənd əhalisi az olan (1/4) yüksək və orta gəlirli ölkələr (Koreya Respublikası, İordaniya, İraq) fərqləndirilir. İnkişaf etməkdə olan bu ölkələrin urbanizasiyası əhalisinin 1/4-i kəndli olan Yaponiya kimi inkişaf etmiş dövlətlərlə müqayisə edilə bilər.

Böyük əksəriyyətinin aşağı gəlirli olduğu, kənd əhalisinin mütləq üstünlük təşkil etdiyi Afrika ölkələri isə, əksinə, sosial-iqtisadi vəziyyətlərinin yekcinsliyi ilə səciyyələnirlər. Dünyanın ən böyük kənd əhalisinə malik 10 dövlətinə 8 Asiya (o cümlədən Çin, Hindistan, İndoneziya, Banqladeş, Pakistan) və 2 Afrika (Nigeriya və Efiopiya) ölkəsi daxildir. Latın Amerikasında sosial-iqtisadi vəziyyəti Dünya Bankının orta gəlirli ölkələrə aid etdiyi ölkələr müəyyənləşdirir. Lakin urbanizasiyalaşma və sənayeləşmə, nəticə etibarilə isə kənd əhalisinin payı sarıdan onların arasında ciddi fərqlər mövcuddur.

Əhalinin 1/2-3/5–nün kənd yerlərində yaşadığı Mərkəzi Amerika və Karib hövzəsi ölkələri ən «kəndi» ölkələrdir. Hərçənd, orada kənd əhalisi az olan (əhalinin 1/4 –dən azı) və yüksək gəlirli Baham adaları və orta gəlirli Kuba kimi ölkələr də var. Kənd əhalisinin xüsusi çəkisinin eyni dərəcədə azlığı Argentina və Uruqvay (1/10), Braziliya (1/5) üçün də səciyyəvidir.

İnkişaf etmiş, yüksək gəlirli regionlar arasında ən böyük yekcinslik və aşağı səviyyəli "kəndlilik Şimali Amerikaya (ABŞ-da və Kanadada bütün əhalinin 1/4-i kənd sakinləridir)

və daha da urbanizasiyalaşmış (kənd əhalisi 15%) Avstraliya - Yeni Zelandiya cütlüyünə məxsusdur.

Urbanizasiyanın XIX əsrin ortalarından etibarən, son onilliklər daxil olmaqla, XX əsr ərzində davam etməklə müxtəlif vaxtlarda baş verdiyi yüksək gəlirli regionların (Qərbi, Şimali və qismən Cənubi Avropa), orta və ortadan aşağı gəlirli regionların (Şərqi və qismən Cənubi Avropa) təmsil olunduğu Avropada mənzərə daha mürəkkəbdir. Burada onların payı, adətən 1/10-lə (Böyük Britaniya) 1/3 (Finlandiya) arasındadır. Şərqi Avropada 1/2-ə qədər (Sloveniya) artır, Rusiyada isə 1/4 –dən bir qədər çoxdur.

Kənd əhalisinin xüsusi çəkisi urbanizasiya və «kəndlilik» dərəcəsinin aparıcı göstəricisi olaraq qalır. Mütəxəssislərin OESR-də 1991-ci ildən fəaliyyət göstərən «Kənd inkişafı proqramı» üçün 2000 bölgə üzrə məlumatlara dair apardıqları təhlillər bu göstərici əsasında üç bölgə kateqoriyasını müəyyənləşdirməyə imkan vermişdir: 1) əsasən, kənd bölgələri (əhalinin 50%-dən çoxu kənd sakinləridir), 2) xeyli dərəcədə kənd bölgələri (əhalinin 15-50%-i kənd sakinləridir), 3) daha çox urbanizasiyalaşmış bölgələr (kənd əhalisi 15%-dən azdır). Məlum olmuşdur ki, OESR əhalisinin 40%-i bütün ərazinin 3%-ni tutan urbanizasiyalaşmış bölgələrdə, 28%-i, əsasən, kənd yerlərində, 32%-i isə digər kənd məskənlərində yaşayır. Əvvəllər, R.Treyon və D.Beyli inkişaf etmiş ölkələrdə kənd əhalisinin və kənd təsərrüfatında çalışanların kifayət qədər dəqiq əmsalını (0,54) və kənd təsərrüfatı ilə məşğul olanların payı ilə adam başına UDM arasında əks korrelyasiyanın (-0,60) mövcudluğunu müəyyən etmişlər.

Kənd yeri ilə şəhər ərazisi arasında hədd müəyyənləşdirildikdən sonra, təbiidir ki, başlıca məsələ kənd yerinin özünün, ilk növbədə isə, sakinlərinin məşğulluq xarakterindən asılı olan funksiyalarının öyrənilməsidir. Daha çox, EAN-ın sahə strukturuna dair məlumatlarından istifadə olunur. Bu məlumatlar kənd təsərrüfatının kənd yerlərində əsas məşğuliyyət sahəsi olaraq qaldığını təsdiq edir. Bu sahənin spesifik cəhəti ailəvi əmək, istehsal fəaliyyətinin kənd əhalisinin həyat tərzi ilə uy-

ğunlaşdırılmasıdır. Buna görə də kənd təsərrüfatında çalışanlar və onların ailə üzvləri daxil olmaqla, kənd təsərrüfatı əhalisi kimi kənd əhalisi kateqoriyasına xüsusi diqqət yetirilməlidir. FAO əməkdaşlarının hesablamalarına görə, bütün əhalinin tərkibində kənd təsərrüfatı əhalisinin payı EAN-da kənd təsərrüfatı ilə məşğul olanların payına uyğundur. Kənd təsərrüfatı əhalisi (2001-ci ildə 2,6 milyard nəfər) dünya kənd əhalisinin 4/5-nü təşkil edir. Son 30 ildə kənd əhalisindən fərqli olaraq, kənd təsərrüfatı əhalisi, demək olar, hər yerdə azalır, lakin makroregionlar arasında böyük fərqlər mövcuddur: əgər o, Avropada 4 dəfə aşağı düşmüşsə, Afrikada 4 faiz artmış, qalan regionlarda isə cüzi azalma qeydə alınmışdır.

İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı əhalisinin xüsusi çəkisi kənd əhalisinin tərkibində üstün olub, bu əhalinin 9/10-nu təşkil edir, Asiyada isə orta dünya göstəricisindən yüksəkdir. İnkişaf etmiş mühacir ölkələrində (ABŞ, Kanada, Avstraliya) o, kənd əhalisinin 70%-dən çoxdur. Başqa sözlə, bütün bu bölgələrdə kənd təsərrüfatı fəaliyyəti, - aralarında prinsipial fərqlər olmasına baxmayaraq, - hakim mövqe tutur. Afrika və Asiyanın inkişaf etməkdə olan regionlarında ənənəvi istehlakçı və yarıməmtəə iqtisadiyyatının əlamətlərinin qorunub saxlandığı, əmtəə münasibətlərinin az yayıldığı kənd yeri tipi üstündürsə, Şimali Amerikanın və Avstraliyanın inkişaf etmiş regionları üçün yüksək əmtəə təsərrüfatı səciyyəvidir.

Yüksək urbanizasiyanın və erkən sənayeləşmənin, postindustrial cəmiyyətə keçidin kənd yerlərinin funksiyalarını güclü transformasiyaya uğratdığı Avropada isə şərait tamamilə bambaşqadır. 1970-2000-ci illərdə kənd əhalisi 1/3, kənd təsərrüfatı əhalisi 2/3 dəfə azalmışdır. 90-cı illərdə Mərkəzi-Şərqi Avropada çoxyönlü mürəkkəb proseslər baş vermişdir. Burada kənd əhalisinin gəlirlərinin 1/3-1/2-ni qeyri-kənd təsərrüfatı məşğuliyyəti verir ki, bu da Cənubi Afrikanın səviyyəsinə yaxındır. Kənd təsərrüfatı əhalisinin 1/6 dəfə azaldığı, urbanizasiyanın sürətlə getməsinə baxmayaraq, kənd əhalisinin bir qədər artdığı Cənubi Amerika xüsusi şəraiti ilə fərqlənir. İqtisadi böhran kənd təsərrüfatı əhalisinin kənd əhalisinin ümumi sayı-

nın 1/2-dək azalmasına imkan vermişdir. Bütövlükdə, kənd təsərrüfatı əhalisi, eləcə də kənd əhalisi Asiyada təmərküzləşir (2000-ci ildə dünya kənd təsərrüfatı əhalisinin 3/4-ü), Afrikanın da rolu artır (1/6), qalan makroregionların mövqeyi isə aşağı düşür.

Kənd əhalisinin və kənd təsərrüfatı əhalisinin coğrafi öyrənilməsi kənd yerlərinin sosial və istehsal problemlərinin təhlili üçün əhəmiyyətlidir. Qlobal problemlərdən biri – yoxsulluqla mübarizə dünya yoxsullarının 70%-nin cəmləşdiyi kənd yerləri üçün xüsusi əhəmiyyətə malikdir. Dünya Bankının hesablamalarına görə, 2000-ci ildə Yer üzündə gündə 1 dollardan az alan 1,2 milyard adam yaşayırdı, 2,6 milyard nəfər, yəni bütün əhalinin 47%-i isə gündə 2 dollardan az qazanırdı. Yoxsul əhali aşağı və orta gəlirli ölkələrdə, əsasən, inkişaf etməkdə olan dövlətlərin kənd yerlərində toplanmışdır. Praktik olaraq, hər yerdə kasıb şəhərlilərin sayı kənd yoxsullarından azdır, yoxsulluq həddi isə şəhərlərdə kənd yerlərindəkindən yüksəkdir. Şəhər yoxsullarının sayca kənd yoxsulları səviyyəsindən yüksək olduğu ölkələr çox azdır (İndoneziya, Honduras, Kamerun, Gürcüstan). Kənd yerlərində maksimum yoxsulluq dərəcəsi 90%-dək çatır (Zambiyada kənd əhalisinin 88%-i yoxsuldur), halbuki şəhərlərdə bu, 60%-ə qədərdir (Çad).

1990-cı illərə aid məlumatların təhlili yoxsul kənd əhalisinin dinamikasında iki tendensiyanı aşkara çıxarmışdır. Birincisi – yoxsul kənd əhalisinin sayının azalması sosial-iqtisadi dəyişikliklərlə bağlı həyat səviyyəsinin bir qədər yaxşılaşdığını göstərir (Çin, Hindistan, Nigeriya, Tunis). İkinci tendensiya – yoxsul kənd əhalisinin artması – yaşayışın keyfiyyətinin və iqtisadi vəziyyətin pisləşdiyindən xəbər verir (İndoneziya, Qırğızıstan, Kolimbiya, Mərakeş). Ən az yoxsul kəndli əhalisi (kənd əhalisinin 1/5-dən azı) inkişaf etmiş Qərbi Avropa və Şimali Amerika ölkələri, inkişaf etməkdə olan ayrı-ayrı Asiya ölkələri (Çin-5%) üçün səciyəvidir. Əks qütbdə aşağı gəlirli, yoxsulların xüsusi çəkisinin çox yüksək – kənd əhalisinin ½-dən artıq -olduğu inkişaf etməkdə olan ölkələr qrupu (Madaqaskar, Nikaraqua, Syerra-Leone, Qvatemala -70%-dən çox)

dayanır. Ən geniş dövlətlər qrupu aralıq kateqoriyasına (20-49% yoxsul kənd əhalisi) aid edilir. Onlar Asiyada (Vyetnam, Filippin, Laos), Afrikada və Latın Amerikasındadır.

Diversifikasiyalı kənd yerlərinə malik, yüksəkgəlirli inkişaf etmiş ölkələrdə, bir qayda olaraq, rifah halının yaxşılaşması meyli müşahidə olunur. Lakin hətta Qərbi Avropa və Şimali Amerikada da problemli və depressiv kənd bölgələri mövcuddur. Bunu OESR-in, Aİ-nin və ayrı-ayrı ölkələrin xüsusi proqramları da göstərir. Kənd yerlərinin inkişaf etdirilməsi vəzifəsi daşıyan Aİ-nin Ümumi kənd təsərrüfatı siyasəti, «LİDER», «Məqsəd 1», «Məqsəd 5a 5b» proqramları əhəmiyyətli rol oynayır. Şərqi Asiyanın ayrı-ayrı aşağı gəlirli ölkələrində (Çin) müəyyən uğurlar əldə olunmuşdur. Lakin Cənubi Asiyada yoxsulların sayı artır, Mərkəzi-Şərqi Avropa və MDB-nin kənd yerlərində vəziyyət pisləşmişdir. Aqrar islahatlar və regional siyasət kənd yerlərinin sosial-iqtisadi inkişafının başlıca amilləridir.

Aparılan tədqiqat göstərmişdir ki, XX əsrin ikinci yarısında dünyanın kənd yerlərində, Avropadan başqa, bütün regionlarda onların kənd təsərrüfatı fəaliyyətində aparıcı rolu saxlanılmaqla, funksiyalarının divesifikasiyasına gətirib çıxaran əhəmiyyətli dəyişikliklər baş vermişdir. Asiyada inkişaf etmiş regionların azalması ilə kənd əhalisinin və kənd təsərrüfatı əhalisinin, ərazi təmərküzləşməsi sabitləşmə ilə yanaşı, kənd əhalisinin sosial təbəqələşməsinin müəyyən qədər güclənməsi ilə müşayiət olunur. Bunu kənd əhalisi, kənd təsərrüfatı əhalisi və yoxsulluq coğrafiyası arasındakı əlaqə də sübut edir.

BMT-nin 2015-ciilədək olan dövrdə dünya inkişafına dair öncül məqsədlərinə yoxsulların sayının iki dəfə azaldılması, ərzaq təminatı vəziyyətinin, səhiyyənin, təhsilin, ekologiyanın yaxşılaşdırılması daxildir. 2005-ci ilə qədər isə sabit milli inkişaf strategiyasının həyata keçirilməsi təklif olunmuşdu. Bütün bunlar kənd əhalisi və kənd təsərrüfatı əhalisinin vəziyyəti ilə, kənd yerlərində ümumi şəraitlə bilavasitə bağlıdır. Kənd yerlərinin kompleks coğrafi tədqiqi bu vəzifələrin bütün ölkələrdə həllinə kömək edir.

## 12.2. Kənd yaşayış məskənlərinin tipləri

İstehsal əlamətlərinə görə bütün kənd məskənlərini üç tipə ayırmaq olar:

a) kənd təsərrüfatı məskənləri;
b) qeyri-kənd təsərrüfatı məskənləri;
c) qarışıq funksiyalı məskənlər.

Müxtəlif ölkələrdə əhalinin bu kateqoriyaları arasında nisbət xeyli fərqlənir. Kənd təsərrüfatı əhalisinin xüsusi çəkisi iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən inkişafda olan ölkələrdə daha yüksəkdir. İş burasındadır ki, xüsusilə yüksək inkişaf etmiş ölkələrdə, kənd yerlərində kənd təsərrüfatı ilə bağlı olmayan xeyli adam yaşayır. Burada fermerlərin ehtiyaclarına, nəqliyyata, meşə təsərrüfatına, kurortlara xidmət göstərən çoxlu məskənlər, gecələmə qəsəbələri və s. vardır. Nəqliyyat vasitələrinin təkmilləşdirilməsi bir çoxlarının kənd yerlərində yaşayıb, şəhərlərdə işləməsinə imkan verir. ABŞ-da kənd əhalisinin yarısından azı, Böyük Britaniyada isə ancaq dörddə biri kənd təsərrüfatında çalışır. İqtisadi cəhətdən geri qalmış ölkələrdə (Əfqanıstanda, Nepalda, xüsusilə Afrikada) isə, əksinə, hətta şəhərlərdə bir çoxları bu fəaliyyətlə məşğul olur. Beləliklə, məskən tipləri və insanların təsərrüfat fəaliyyəti arasında, hər şeydən əvvəl, sosial-iqtisadi şəraitin spesifikası ilə bağlı mürəkkəb asılılıq mövcuddur.

***Kənd təsərrüfatı*** kənd məskənlərinə əhalisinin başlıca məşğuliyyəti kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı olan məskənlər aiddir. Yer kürəsi kənd əhalisinin əsas hissəsi kənd təsərrüfatı ilə bağlıdır. Ona görə də kənd məskənlərinin əsas tipi iri olmayan kənd təsərrüfatı yaşayış məntəqələridir. Onlar inkişaf etmiş ölkələrdə məskənlərin 30%-dən 70%-ə qədərini, inkişaf etməkdə olan ölkələrdə isə 98%-ni təşkil edir. Azərbaycanda bu göstərici təqribən 60%-dir. Kənd təsərrüfatı məskənlərinin tam bir sıra yarımtipləri mövcuddur. Onların arasında öz növbəsində bir neçə növə bölünə bilən əkinçilik və heyvandarlıq məskənləri fərqlənirlər. Mal-qaranın pəyə və otarma yolu

ilə saxlanması ilə bağlı yaranmış məskənlər bir-birindən xeyli seçilirlər. Birinci halda əhalinin nisbətən cəmləşməsi, yaşayış məntəqələrinin yem hazırlığı yerlərinə yaxınlığı mümkündür. İkinciyə isə məskənin səpələnməsi, mövsümü yaşayış məntəqələrinin olması xasdır.

***Qeyri-kənd təsərrüfatı*** əhalisi üç ünsürdən:

1) kənd yerlərində yaşayıb, kənd əhalisinə xidmət edən şəxslərdən; 2) hər gün şəhərdəki daimi iş yerinə gedib-gələn kənd sakinlərindən; 3) prinsipcə şəhər profilli olub, şəhərdən kənarda yerləşən müəssisədə (sənaye, mədən işləri və s.) çalışanlardan təşkil edilir.

İqtisadi inkişaf, xüsusilə sənaye inkişafı artdıqca sadalanan üç kateqoriyadan olan kənd əhalisinin payı artır, özəlliklə kənd təsərrüfatında çalışanların sayı isə azalır.

Qeyri-kənd təsərrüfatı məskənlərinin kənd sakinləri əhaliyə (ilk növbədə şəhərlilərə) rekreasiya xidmətini təmin edir, habelə qoruqlarda və yasaqlıqlarda təbiəti mühafizə funksiyalarını yerinə yetirirlər. Bu məskənlər şəhərlərdə işləyən miqrantların yaşayış yeridir.

Üçüncü funksional qrup təşkil edən ***qarışıq*** kənd məskənlərinə kənd təsərrüfatı ilə məşğul olan əhali ilə yanaşı, sakinlərinin xeyli hissəsinin sənayedə, nəqliyyatda, tikintidə, xidmət sahəsində və ya idarəetmədə çalışdığı yaşayış məntəqələri aiddir. Bu tipli məsəkənlər arasında aqrar-sənaye qəsəbələri daha çox yayılmışdır. Kənd yaşayış məskənlərində sənaye və kənd təsərrüfatı fəaliyyətinin birləşməsi kənd təsərrüfatı xammalını emal edən müəssisələrin həmin xammalın hasilat yerlərinə yaxınlaşdırılmasının məqsədəuyğunluğu, bəzi kənd təsərrüfatı sahələrinin sənaye əsaslarına keçirilməsi ilə bağlı eyni əhalinin mövsümi əməyindən istifadə əsasında yaranmışdır. Yerli inzibati və mədəni-məişət mərkəzləri funksiyalarını yerinə yetirən məskənlər, habelə böyük sayda kəfkirsayağı miqrantları olan şəhərətrafı da bu qrupa aiddirlər. Kənd məskənləri bir sıra digər əlamətlərə görə də təsnif edilirlər.

**Topoqrafik mövqe**–yerin relyefin ayrı-ayrı elementlərinə, çay şəbəkəsinə və s. münasibətdə mövqeyidir. Topoqrafik

mövqedə bölgələrarası fərqlər müşahidə olunur. Kənd evlərinin qarşılıqlı yerləşməsinin öyrənilməsi, onların kənddə qruplaşdırılmasının, habelə kənd məskənlərinin özlərinin (onların topoqrafiya və morfologiyasının) öyrənilməsi coğrafiyaşünasları xeyli maraqlandıra bilər. Bir sıra hallarda mülklər vadi, yaxud dağ yamacı boyu sıralanır, digər hallarda isə, düzənlikdə bir, yaxud iki cərgə düzülən evlər küçə əmələ gətirir; bəzən isə onlar nizamla salınmış kənd məskəni məhəllələrini formalaşdırır, yaxud da qarmaqarışıq şəkildə yerləşirlər (topa şəkilli məskənlər). Hər bir ayrıca halda mülklərin başqa cür yox, məhz belə yerləşməsinin səbəbləri vardır. Burada təbii şəraitin, məsələn, relyefin və torpaq mülkiyyəti formalarının, tarixi keçmişin, hətta evlərin inşasında istifadə edilmiş tikinti materialları kimi, sanki, ikinci dərəcəli amilin də əhəmiyyəti ola bilər. Xüsusən, bu elementin əhəmiyyətinə varılsa, Orta Avropa (Avstriya, Cənubi Almaniya, Çexiya və Slovakiya) kəndlərinin kompakt tikilməsinin onların daşdan inşası və deməli, yanğın əleyhinə mülahizələrə görə, taxta tikili kəndlərdəki kimi, evləri mütləq sökmək zərurətinin lazım gəlməməsi ilə bağlı olduğu aydınlaşır. Tarixi ənənələrin təsiri daha böyükdür. Xarici Avropada şəhərlər əsrlərlə mövcuddur. Kəndlər də, demək olar, bir o qədər qədimdir və onların topoqrafiyasında, planlaşdırılmasında bir-birini əvəzləyən ictimai formasiyaların, müxtəlif tarixi hadisələrin izləri qalmışdır. Keçmişdə kəndlərin kompektləşdirilməsi, həm də, düşməndən qorunmaq ehtiyacı ilə müəyyən edilmişdir. Yeri gəlmişkən, keçmişdə kənd məskənlərinin, əksərən, yüksəkliklərdə salınması da bununla izah olunur. Bütövlükdə, orta əsrlərdə dağlıq yerlər indikindən daha çox məskunlaşmışdı. Əhalinin düzənliklərə keçməsi kaptalizmin inkişafı ilə başlamışdır; bu sabit tendensiya, demək olar ki, bütün dünya ölkələrində indiyə qədər özünü göstərir. Əgər vaxtilə dağlar, yüksəkliklər, təpələr insanları düşməndən daha yaxşı qorunmağa görə cəlb edirdisə (buna Azərbaycanda Şuşa, Gürcüstanda Svanetiya, Xevsuretiya misal ola bilər), sonralar düzənlik yerlərin təsərrüfat tutumunun qat-qat böyük olması öz sözünü demişdir. İnsanlar kənd

əhalisinin, əsasən, heyvandarlıqla və pendir istehsalı kimi ibtidai peşə ilə məşğul ola bildiyi dağları tezliklə tərk edərək, şəhərlərə üz tutmuş, yaxud düzənliklərdə salınmış kəndlərə köçmüşlər. Bu proses Fransada, Orta Avropada, İtaliyada, habelə Azərbaycanın Kür-Araz ovalığında yaxşı müşahidə olunur. Kənd məskunlaşmasının, müstəsna olaraq, düzənliklərlə dəqiq bağlılığı Yaponiya üçün də eyni dərəcədə səciyyəvidir. Yapon kəndlisi üçün təpələrdə, dağ yamaclarında kənd təsərrüfatı işləri ilə məşğul olmaq çətin idi, belə ki, burada becərilən əsas bitki–çəltik üçün də bol sulu düzəngah salə lazımdır. Qeyd etmək lazımdır ki, kənd əhalisinin düzənliklərə axını və dağların boşalması prosesində ən son vaxtlarda bir sıra ölkələrdə, xüsusilə xarici Avropa Alp çəmənliklərinin heyvandarlıqda, meşə tədarükündə istifadəsi ilə bağlı olan əhalinin tərk ediyi dağlar bəzi yerlərdə yenidən–bu dəfə turizmə və mədəniyyət təsərrüfatına xidmət məqsədilə əhalini cəlb etməyə başlamışdır.

Gözəl mənzərəli dağ yerləri bəzi ölkələr–İsveçrə, Avstriya, keçmiş Yuqoslaviya və s. üçün, bir növ «valyuta sexinə» çevrilir.Fransanın cənubundakı «lacivərd sahillər», Bolqarıstandakı «qızıl qum» kimi, Türkiyədə Egey dənizinin füsunkar gözəllikləri ilə göz oxşayan sahilləri çimərlik üçün çox münasibdir.

XIX əsrin sonlarında Almaniyada kənd məskunlaşması formalarını müəyyən etnoslarla bağlayan bütöv bir etnoqrafiya məktəbi yaranmışdır: Xutor məskunlaşması kelt, kənd məskunlaşması isə german tayfalarına xasdır. Lakin arxiv materialları göstərmişdir ki, kənd məskunlaşması təsərrüfat formaları ilə bağlı olmuşdur.

Köçərilik kənd məskunlaşmasının xüsusi növü sayılmalıdır. Çünkü şəhərlərdən kənar həyat tərzi olan köçərilik bilavasitə kənd təsərrüfatı və təbii otlaqlardan ən ekstensiv istifadə formasında heyvandarlıqla bağlıdır. Köçəri həyat tərzi, bir qayda olaraq, insanlar üçün çətin həyat şəraitində–ya torpaqların bioloji münbitliyini azaldan arid (quru) iqlim (şəhər və yarımsəhra), ya da sərt iqlim (tundra, meşə–tundra) şəraitində yaranır.

Hazırda köçərilik Ərəbistan yarmadasında, Böyük səhrada,

Əfqanıstan və s. yerlərdə qalmışdır. Dünyada köçərilərin ümumi sayı 15 milyon nəfərə yaxındır. Maralçılıqla məşğul olan köçərilər Avropanın şimal ucqarlarında, ayrı-ayrı lopar-samm ailələri İsveç, Norveç və Finlandiyada, nenlər, çukçalar, evenklər və b. Rusiyada yaşayırlar. Təsərrüfatlarının əsasını yığıcılıq və ovçuluq təşkil edən Cənubi Afrika buşmen və hottentotlarının bir hissəsini, Avstraliya aborigenlərini də köçəri əhaliyə aid etmək olar. Çaylar ta qədimdən yerli sakinlər üçün rabitə vasitəsi rolu oynamışdır. Kənd təsərrüfatına ən yararlı torpaqlar çay vadilərində yerləşir. Rusiyanın Avropa hissəsinin, Ukraynanın, Qazaxıstanın meşə-çöl və çöl bölgələrində kənd yaşayış məntəqələrinin təsərrüfat ehtiyacları üçün daha asanlıqla su əldə etmək mümkün olan çay vadilərindən, dərələrdən, qobulardan asılılığı açıq-aydın müşahidə olunur. Bu bölgələrdə yarğan-qobu və çayqırağı məskən tipləri üstünlük təşkil edir. Dağlıq bölgələrdə vadilər kənd yaşayış məntəqələrinin salınması üçün daha münasibdir. Dağ məskənlərinin əksəriyyəti vadi tipinə aiddir. Dağ-vadi məskənləri yekcins deyildir. Dağ kəndlərinin əksəriyyəti, adətən, çay terraslarında yerləşir. Şimali Qafqazda, Gürcüstanın dağlıq bölgələrində, Azərbaycanın Şəki-Zaqatala zonasında yerli əhali təhlükəsizlik məqsədilə evlərini sıldırım dağ yamaclarında, yaxud hündür yerlərdə tikirdilər. Çayqırağı subasarlardakı kəndlər çaylaq kəndləri adlanır. Çay dərələrinin, yarğanlarının sıldırım yamaclarında salınmış kəndlər xüsusi yarımtip təşkil edirlər.

(Kənd məskənləri mənşəyinə görə də təsnif edilir).

***Dispers*** (dağınıq, təkhəyətli) məskunlaşma inkişaf etmiş ölkələrin kənd yerlərində, habelə Baltikyanı ölkələrində ferma, malikanə, xutor və s. şəklində yayılmış məskunlaşma formasıdır. Əkinçilərin və icarədarların (fermerlərin) ailələri becərdikləri və əsas dolanacaq mənbələri olan sahələrində yaşayırlar. Torpaq payları az olduqda, təkhəyətlilər sıxlaşma mərkəzli və səpələnmə zonalı qrup formasını xatırladan dispers məskunlaşmaforması yarada bilərlər. Bəzən təkhəyətli məskunlaşma istehsal şəraitindən, – meşə mühafizəsi (meşəbəyilər, mühafizə dəstəsi), nəqliyyat (yol baxıcısı postları, baken gözətçiləri),

qaz-neft kəməri nəqliyyatı (vurma stansiyaları), hidrometeoroloji xidmət (stansiyalar, postlar), rabitə və s., – irəli gəlir.

Dağınıq fermer məskunlaşması xüsusi yolüstü qəsəbələr növü – baqqal dükanı, ibtidai məktəb və s. olan bir neçə evdən ibarət ferma qrupuna bilavasitə xidmət mərkəzləri – «Hemlit»lər yaratmışdır.

Onların bəziləri tam təchiz olunmuş xidmət təsisatlarına malik daha iri qəsəbələrə qədər böyüyürlər. Onlar şəhər «senzi» alanadək (məsələn, Azərbaycanda 5000-dən çox sakin) kənd məskənləri kimi qalırlar. Kənd yerlərində çoxşaxəli nəqliyyat şəbəkəsinə, rekreasiya müəssisələrinə, şəhərətrafı zonaların ucqarlarında isə şəhər elitasının, iri bankirlərin və qulluqçuların bağ evlərinə xidmətlə bağlı xeyli cürbəcür qəsəbələr formalaşmışdır. Asiya, Latın Amerikası və Afrika ölkələrində kənd məskənləri daha rəngarəngdir. Bəzi kəndlər yerli bazar mərkəzləri kimi böyümüşlər. Onların bir qismi sonralar şəhərlərə çevrilmişlər. Müstəmləkəçilərin gəlməsi ilə bu ölkələrin mütləq əksəriyyətində (xüsusilə Latın Amerikasında, Şimali Afrikada) plantasiya mülkədarlarının iri malikanələri meydana gəlir, onların yaxınlığında, mülkədarın evindən bir kilometr aralı xüsusi qəsəbələr salınırdı. Qulluqçu və xidmətçilərin yaşadığı evlər isə fazenda sahibinin (malikanə – fazenda) evinin yanında yerləşirdi. Fəhlə qəsəbələri onlarca koma və barakdan ibarətdir. Bir çox hallarda onlarda zəruri tələbat malları satılan ticarət köşkləri olur. Monastırlarda və missiyalarda xüsusi qəsəbələr meydana gəlmişdir.

Xutor məskunlaşması hissələrində Macarıstanın ayrı-ayrı areallarl, Baltikyanı ölkələrdə, Rusiyanın şimal-qərbində, Ukraynanın cənub-şərqində və Kubanda yayılmışdır. Ayrıca əkinçi-kəndli daxmaları, mülkədar təsərrüfatlarının bölmələri, stanitsalardan uzaq torpaqlardakı köməkçi kazak məskənləri xutor adlanırdı.

Kənd məskənləri ***genezisinə (mənşəyinə)*** görə də təsnif olunur. Genetik təsnifat müasir məskunlaşmanın tarixi şəraitini - kəndlərin planlı struktrunun xüsusiyyətlərini, onların görkəmini, yaşayış yerlərinin yerləşdirilməsini aydınlaşdırmağa kömək edir. Məsələn, Qədim Rus Dövlətində knyazların «taxta

oturduqları», yaxud yaşadıqları şəhərətrafı malikanələri kənd adlanırdı. Sonralar onlar ətraf kənd yerləri üçün yerli mərkəz rolu oynayan kilsəli və dükanlı nisbətən iri yaşayış məntəqələrinə çevrilirdilər. Əvvəllər kilsəsi və qəbirstanlığı olan kiçik kəndlər poqost adlanırdı. Bəzi yaşayış məntəqələri əsas kəndlərdən kənarda salınırdı (Rusiyanın şimalında onlara «poçinok», Sibirdə «zaimka», şimal-qərbdə isə «xutor» deyirdilər), digərləri isə iri yaşayış məntəqələri kimi böyüyürdü. Məsələn, Rusiyanın cənub ucqarlarındakı kazak stanıtsaları iri kənd məskənləridir.

Kəndlərin formasının planlaşdırılması kənd yaşayış məntəqələrinin təsnifatında yayılmış əlamətlərdən biridir. Kəndlərin planlaşdırılma formalarını bir neçə tipə ayırmaq olar. Xətti (birtərəfli, ikitərəfli, çoxcərgəli, nalşəkilli, radial, dairəvi), toplu, pərakəndə (pətəkvari, qovuşuq, qrup) və məhəlləli.

Yaşayış məntəqələri inşaat materialına görə də fərqləndirilir. Meşə zonasında əsas tikinti materialı ağacdır. Çöl və yarımsəhra zonalarında meşə azdır. Burada binalar odadavamlı və adətən, daha möhkəm materiallardan – çiy, yaxud bişmiş kərpicdən, gil palçıqdan, daşdan tikilir. Orta Avropa, Avstriya, Orta Asiya və Azərbaycan kəndlərinin komplekt tikintisi daha çox onunla bağlıdır ki, onlar daşdan tikildiyindən yanğın təhlükəsi mülahizələrinə görə, taxta tikili kəndlərdəki kimi, evləri mütləq sökmək tələb olunmur. Gildən, çiy kərpicdən inşaat materialları kimi ancaq quru iqlim şəraitində istifadə etmək mümkündür. Otlaq heyvandarlığı bölgələrində, kəndlərdən uzaqdakı yay və qış otlaqlarında mal-qaranın otarılması və yem tədarükü ilə məşğul olan əhalinin müvəqqəti yaşaması üçün yay və qış alaçıqları xüsusi kənd yaşayış formalarıdır. Bu baxımdan Azərbaycanda Kür-Araz ovalığı, Kiçik Qafqaz və Ağstafa və Tovuz rayonları, Qarayazı bölgəsi səciyyəvidir. Bu cür səyyar əhaliyə hətta yüksək inkişaf etmiş ölkələrdə, məsələn, Qərbi Avropada – Fransada, İtaliyada, İspaniyada; Pireney, Alp və Karpat dağlarına, Apennin yarımadasına bitişik bölgələrdə rast gəlmək olar. O, bütün qalan əhalinin öz kəndlərində, məhsuldar qüvvələrin yüksək inkişaf etdiyi dağınıq xutorlarda otu-

raq həyat sürməsi ilə tam uyuşur. Əsas stimul isə Alp çəmənliklərinin ancaq müəyyən mövsümlərdə yararlı olan otlaqlarından istifadə etməkdir.

# ƏDƏBİYYAT


1. Агафонов Н.Т., Голубев А.Н., Категория и факторы демографической обстановки (ситуации). В кн. Народонаселение. Прикладная демография. М., «Статистика», 1973.
2. Агафонов Н.Т., Лавров С.Б. Главные теоретические проблемы географии населения. Доклады к XXII международному географическому конгрессу. Л., изд. ВГО ССС 1972.
3. Алаев Э.Б. Социально-экономическая география. Понятийно-терминологический словарь. М., «Мысль», 1983.
4. Азербайджанский статистический ежегодник; Стат.сб./Гос-комстат Азербайджана 2002г./.
5. Баранский Н.Н. Становление советской экономической географии М.Просвищение 1980.
6. Бромлей Ю.В., Подольный Р.Г. Человечество-это народы. М., Мысль, 1990.
7. Babaxanov N.A., İsmayılov Ç.N. «Yer kürəsi planetimiz olduğu kimi», Bakı, 1996.
8. Васильев Л.С. История религий Востока (религозно – культурные традиции и общества). Учебное пособие для вузов. М., Высшая школа, 1983.
9. Göyçaylı Ş.Y. Əhali coğrafiyası, Bakı, 1979.
10. Географический атлас мира. Карты мира. «Размещение населения», «Прирост численности населения», «Расы», «Религии»- Рига, М. «Янесста», «РОСМЭН», 1997.
11. Гумилев Л.Н. «Этногенез и биосфера Земли». Л., Гидрометеоиздат, 1990.
12. Демография; Современное состояние и перспективы развития. Учебное пособие для вузов / Под. Ред.Д.И.Валентея/, М., Высщая школа, 1997.
13. Зубов В.И. Введение в этнологию. Учебное пособие по теории этногенеза Л.Н.Гумилева. М., МПУ, 1993.
14. Ковалев С.А.. Ковальская Н.Я. География населения СССР. Учебное пособие для студентов географических специальностей вузов. М., Изд-во МГУ, 1980.
15. Копылов В.А. География населения. Учебное пособие. М., 1998.
16. Лаппо Г.М., География городов. Учебное пособие для геогр. ф-тов вузов, М., Гуманит. изд. центр ВЛАДОС, 1997.
17. Максаковский В.П. Географическая картина мира; 230 «каналов углубления» к курсу «Экономическая и социальная география мира» (10 класс). В 3-х частях, 2-е изд. Ярославль, Верхне-Волжск. кн.

изд-во,
18. Максаковский В.П. Историческая география мира. Учебное пособие для вузов. М., Экокрос, 1997.
19. Мехралиев Э.Г. Географические проблемы формирования населения Азербайджанской ССР. Баку, «Елм». 1984.
20. Мень А. История религии. В 7 т.Т 1. Истоки религии. М., Слово, 1991.
21. Народонаселение. Энциклопедический словарь. М., Большая Росс. Энциклопедия, 1994.
22. Население мира; демографический словарь справочник/сост. В.А.Борисов/, М., Мысль, 1989.
23. Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı, Elm, 1988.
24. Надиров А.А. Вопросы экономического развития городов Азербайджанской ССР. Бакы, 1966.
25. Население мира. Демографический справочник. М., 1989.
26. Həsənov T.G. Coğrafiyanın tədqiqat metodları. BDU, 1990.
27. Нации и этносы в современном мире. Словарь-справочник. Санкт-Петербург, 1999.
28. Перцик Е.Н. География городов (геоурбанистика). М., Высщая школа, 1991.
29. Перцик Е.Н. Города мира. География мировой урбанизации. М., «Международные отношения», 1999.
30. Поликарпов В.С. История религии. Лекции и хрестоматия. М., 1997.
31. Расы и народы. Современные этнические и расовые про-блемы. Ежегодник. Вып.24. М., Наука, 1998.
32. Родоман Б.Б. Введение в социальную географию. Курс лекции. Российский открытый университет. М., 1993.
33. Российский статистический ежегодник: Стат. сб./Госкомстат России/, М., 1998.
34. Стецовский Ю. История советских репресий. Т.2/Обшеств. Фонд «Гластность»/, М., 1997.
35. Чебаксаров Н.Н., Чебаксарова Ч.А. Народы, расы, культуры. М., 1971.
36. Шувалов Е.Л. География населения. Учебное пособие для студ. пед. институтов. 2-е изд., М., Просвещение, 1985.
37. Хорев Б.С. Мировой демографический рост и перспективы человечества/География в школе/, 1995, №5, стр.5-12.
38. Хорев Б.С. Проблемы городов, 1983.
39. Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, 2002.

40. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı, 1995.
41. Azərbaycan əhalisinin siyahıya alınması. 1919-1999.

Baş redaktor: Məmməd Əlizadə
Mətbəə üzrə
direktor müavini: Ələs Qasımov

**Əfəndiyev Vüsət Əmir oğlu**
**Nağıyev Saleh Qasım oğlu**

**Əhali coğrafiyası**
**Dərslik**

Çapa imzalanmışdır: 17.05.2006.
Ofset kağızı, Formatı 60x84 1/16. Həcmi 21,125 ç.v.
Sifariş 43. Sayı 500.

Bakı Universiteti nəşriyyatı,
Bakı - 370148, Z.Xəlilov küçəsi, 23.
BDU Nəşriyyatının mətbəəsi